Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

XII cild

Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

XII cild

Bakı-2023

Redaktor:

**Zahid Xəlil**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, XII cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, Prezident mükafatçısı, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun "Seçilmiş əsərləri"nin on ikinci cildinə onun "Xiffət" romanı, kiçik povestləri, əsasən uşaqlar üçün yazılan hekayələri və nağılları daxil edilmişdir.

$©\frac{19475278}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# XİFFƏT

(Roman)

## Oxumaq istədiyim roman
(Ön söz əvəzi)

“Ömrümdə roman yazmamışam. Ancaq ali məktəbdə, magistraturada dərs dediyim, hazırda doktoranturada təhsilini davam etdirən, dissertasiya müdafiə etməyə hazırlaşan bir qız mənə dedi ki, həyatım boyu ürəyimə yatan şeirlər axtarırdım. Çoxlu kitablar, şeirlər oxumuşdum. Ancaq istədiyimi tapa bilmirdim. Nəhayət, bir gün Sizin şeirlərinizi oxudum. Qəlbimin dərinliyində illər boyu yığılıb qalan həsrət buzları əriyib gözlərimdən sellənməyə başladı… Özümü bəxtəvərlər bəxtəvəri hesab elədim…

Çoxlu romanlar oxumuşam. Ancaq nədənsə mənə elə gəlir ki, mənim oxumaq istədiyim romanı da Siz yazacaqsınız…

Bu inam, bu etibar məni həyəcanlandırdı. Görəsən o qızın oxumaq istədiyi romanı yaza biləcəyəmmi? Ulu Tanrım, mənə yar ol, bu yolda mənə kömək ol! Kömək ol ki, bir ədəbiyyat sevdalısının arzusunu yerinə yetirə bilim! Kömək ol ki, o qızın oxumaq istədiyi romanı yazım…”

Bu sözləri 13 yanvar 2013-cü ildə yazmışdım. Bu elə mənim roman yazmaq cəhdimin ilk addımları idi... Addım-addım, qədəm-qədəm irəliləyirdim... Məni duyğulandıran bir hadisə əsasında yazmağa davam eləyirdim...

İşlər pis getmirdi... Yazdıqca səhifələrin sayı çoxalırdı... Bu münvalla xeyli işlədim... Ancaq arada fasilə verib,

şeirlər, məqalələr yazmağım, kitablarımı nəşrə hazırlamağım məni bu işdən ayrı saldı... Bir neçə dəfə cəhd eləsəm də, yazdığım əsəri tamamlaya bilmədim...

Aradan illər keçdi. İkinci Qarabağ müharibəsinin başlanması həm ürəyimdəki qələbə, torpaqlarımızın geri qaytarılması ümidimi artırdı, həm də sönmüş roman yazmaq istəyimi yenidən közərtdi...

Hər gün həyəcanla müharibə xəbərlərini izləməyim xəyalıma qol-qanad verdi. Necə deyərlər, mənim üçün də öz yazı masam döyüş səngərinə çevrildi... Əsgərlərimiz döyüşdə uğur qazandıqca, mən də zəfər müjdəli şeirlər yazdım. İllər boyu içimdə yığılıb qalan məğlubiyyət ağrıları məni intiqama, qələbəyə ruhlandırdı...

Müharibə qəhrəmanları elə mənim canlı qəhrəmanlarıma çevrildilər. "Zəfər dastanı" şeirlər kitabımı tamamlayanda gördüm ki, çoxdan bəri yazmaq istədiyim, ancaq yaza bilmədiyim romanı da tamamlamışam. Şeirlə deyə bilmədiklərimi nəsrlə deməyə çalışdım. Gələcək nəsillərin işini asanlaşdırmaq üçün faktlardan da gen-bol istifadə etmək qərarına gəldim... Bu tarixi olaylar, dəhşətli hadisələr təkcə mənim yox, elə qəhrəmanlarımın da içini göyüm-göyüm göynətdi... 30 ilə yaxın bir müddətdə elindən-obasından, evindən-eşiyindən ayrı düşən insanların könül yarasına zəfər müjdəsi məlhəm oldu...

Qəhrəmanlarımla birlikdə mən də xəyalən ötən günləri xatırladım. Qəlbimdəki sonsuz yurd həsrətini, illərin həyəcan və iztirablarını zəfər sevinci ilə yoğurub yazdığım əsərin adını da "Xiffət" qoymaq qərarına gəldim...

İndi möhtərəm oxucularımı qələmə aldığım hadislərlə baş-başa qoyuram...

## Proloq

İnsan çox qəribə məxluqdu... Həmişə qazandıqlarından çox itirdiklərini, əlində olandan çox əldə etmək istədiklərini düşünür... Görünür atalar elə buna görə deyiblər ki, keçmiş yurdun qədri gələcək yurdda bilinər...

Keçmiş, indi və gələcək... İnsan həyatını, insan ömrünü girdabına alan üç sehrli dünya...

Qədrini bilmədiyimiz indi – bu gün keçmişə döndükcə qiymətə minir elə bil... Yanımızda olandan çox yanımızda olmayanı düşünürük həmişə... Nastalji hisslər insanın daxili dünyasını boş qalmağa qoymur, xiffət çayları düşüncələr, həsrət dəyirmanını susuz qoymur heç vaxt... İnsan düşünə-düşünə insanlaşır, müdrikləşir...

Keçmiş, indi və gələcək... İnsan həyatını, insan ömrünü girdabına alan üç sehrli dünya...

Real bircə bu gündür, indidir. Keçmiş əl çatmayan xəyallar, gələcək isə hələ reallaşmayan arzular dünyasıdır... Reallıq insanın özüdür, keçmiş onun həyatının bir, gələcək isə o biri qanadıdır... Xəyallar və arzular insanı real dünyadan, özündən uzaqlaşdırır istər-istəməz... İnsan real həyatındakı boşluğu keçmiş xatirələr və gələcəyə sonsuz ümidləri ilə zənginləşdirməyə çalışır...

Gözəgörünməz zaman isə öz işindədir... Hegel demişkən: “Hər çey axır, hər şey dəyişir”... Bəşər övladı əlçatmaz, ünyetməz keçmişdən sonsuz, ucsuz-bucaqsız, axırıncı dayanacağı bilinməyən gələcəyə sarı can atır... Fəsillər bir-birini əvəz elədiyi kimi, nəsillər də bir-birini əvəz eləyir...

I fəsil

## QANLI QAR DƏNİZİ VƏ QİSAS DALĞALARI

Qarlı düzlər nəhəng bir dənizi xatırladırdı. Bir neçə saat bundan əvvəl kükrəyən, daşan, topların, mərmilərin, şaqqanaq çəkən avtomatların, göylərə bülənd olan ahların, ufultuların, şivən səslərinin hamısı elə bil bu bəyaz dənizə qərq olmuşdu... Bu dənizin üstündəki qaraltılar isə kiçik adalara bənzəyirdi. Bu adaların hər birinin sirli-sehrli bir dünyası var idi o zaman. Əslində bu, adalar deyil, ruhunu tərk eləyən insanların qışın şaxtasında donub qaxac olmuş cəsədləri idi…

Birdən elə bil möcüzə baş verdi. Gecənin ayazında buz bağlayan o “adalar”dan biri hərəkətə gəldi. Başını qaldırıb dörd yana baxdı. Gördükləri onu dəhşətə gətirdi. Yerə sərilənlərin hamısı onun doğmaları, əzizləri idi… Saqqalı qarın bəyazlığına yeni çalar verən atasının, üzünə zamanın qırışları düşən ağbirçək anasının, yaxası namərd əllərlə cırılıb al qana qərq edilmiş ömür-gün yoldaşının, ananın köksünün üstndə donub qaxaca dönmüş süd qoxulu körpənin cəsədini görmək çox ağır idi onun üçün…

Ağlamaq istədi… Ancaq bacarmadı. Göz yaşlarını qışın şaxtası yox, ürəkdə baş qaldıran qisas hissi dondurmuşdu… Elə bil hansısa sehrli bir qüvvə onun qulağına bu sözləri pıçıldayırdı: ”Ən böyük qisas kimisə öldürmək deyil, səni məhv eləmək istəyənlərin acığına yaşamaqdır”…

Yaşamaqmı? Doğma el-obasız, ata-anasız, arvad-uşaqsız, qohum-qardaşsız necə yaşaya bilərdi axı? Və birdən həmin zavallıya elə gəldi ki, düşmən pəncəsində amansızcasına öldürülən doğmaları, əzizləri, qohumları, qonşuları, kəndçiləri arasında bircə bədbəxt insan var ki, o da elə onun özüdür… Ona görə bədbəxtdir ki, bu vəhşilikləri görüb. Ona görə bədbəxtdir ki, nakam sevginin, sədaqətli həyat yoldaşının, donub qaxac olmuş qızcığazın, başı-bədəni paralanmış, qolu-qıçı sındırılmış, dişləri çəkilmiş, gözləri oyulmuş, döşləri kəsilib yerə tullanmış gəlinlərin faciəsini, həmkəndlilərinin müsibətini gözləri ilə görmək cəzasına məhkum imiş bu insan… Allah bu məşəqqətləri, təhqirləri görməyi kimsəyə qismət eləməsin...

İndi neyləsin, nə iş görsün? Ya talelə barışıb o kəfənin üstündə uzanmış insanlarla yanaşı sakitcə dayanıb göynəyə-göynəyə, ağrıya-ağrıya, sızıldaya-sızıldaya ölümünü gözləməli, ya da özündə güc tapıb yaşamaq uğrunda mübarizə aparmalı idi… Bəlkə o nəhəng, bumbuz kəfəni ağ vərəqə döndərmək onun alın yazısı idi? Ancaq bu kəfəni yırtmağa, onu ağ vərəqə döndərməyə  gücü çatacaqdımı onun?

Yaşamaq lazım idi.  Ancaq necə? Qollarını tərpətmək istədi, alınmadı. Ayağa durmaq istədi, alınmadı… Elə bil ki, qış onu bu qarlı düzdə çarmıxa çəkmişdi… Sürünə-sürünə yaxşı bələd olduğu bir təpəyə qalxdı. Oradan aşağıya baxanda gözləri qaraldı, başı gicəlləndi…

Bəmbəyaz düz nəhəng bir kəfəni xatırladırdı. Hələ yer üzündə bu boyda kəfən görməmişdi. Xocalı şəhidlərinin hamısı birlikdə bu kəfənin üstündə uzanmışdı. Ancaq elə bir qüdrətli əl yox idi ki, bu kəfəni çəkib onların üstünə örtsün…

Ancaq o, dərk eləyirdi ki, bu ucsuz-bucaqsız qarlı düzləri örtük kimi adamların üstünə çəkmək yox, günahsız insanların qanına bulaşmış bu nəhəng, idbar kəfəni yırtmaq, onun içindən qalxmaq, qurtulmaq, gördüklərini insanlara danışmaq, düşmənin acığına yaşamaq, yaşatmaq lazımdır…

Qar kəsilmişdi. El arasında deyilən kimi lap "eşşəkan-qırdan" ayaz idi. Erməni xaçdaşları ilə həvirləşən sovet imperiyasının sarı köpəkləri soydaşlarımızı al qana qərq eləmişdilər. Onlar müstəqillik sevdasına düşən xalqımıza dərs vermək istəyirdilər. Ayaz öz isti yatağında xumarlananda fevral ayazı əliyalın, başıaçıq, ayaqyalın insanları qılınc kimi kəsib doğrayırdı. Ölənlərin isə heç nə vecinə deyildi… Ancaq onların da dilsiz fəryadı ürək göynədirdi. Elə bil bu fəryad yanğılı bir haraya dönüb onun uğuldayan qulaqlarında səslənirdi:

Biz ürcah olduq çaqqala,
Düşsək də, bəbir izinə.
Bəsdir bu dərdə dözdüyün,
Namərdin tüpür üzünə.

Neçə-neçə kəndim yanıb,
Düşmən marıqda dayanıb,
Odlu bir nifrət oyanıb,
Qəlbimdə səbir sözünə.

Köksümüzdən vurulmuşuq,
El içində xar olmuşuq,
Biz ölmüşük, qırılmışıq,
Həsrətik qəbir üzünə…

Bəli, cansız cəsədləri indi rahat qəbirdən başqa heç nə maraqlandırmırdı. Qəbir üçün də həsrət çəkmək olarmış, İlahi!

Gündüzdən tutulan hava axşam açılmışdı. Yağan quşbaşı qar, çovğun səngimişdi. Qış elə bil ki, qar yorğanla qanlı cinayətin üstünü örtməkdən imtina eləyirdi. Buludlar elə bil ona görə çəkilmişdi ki, göyün üzü elə bil ona görə açılmışdı ki, ulduzlar bu faciəni bərq vuran gözləri ilə görsünlər. Şaxta elə bil ona görə şiddətlənirdi ki, axan qanları dondura bilsin, kimsəsiz insanların köməyinə yetsin… Çünki kimsəsizlik ən ağır dərddi… Kimsəsi olmayanların başına kimsəli köpəklər zaman-zaman min bir oyun açmışlar və bu da o oyunlardan biri idi.

Əliyalın Haqq dişinə qədər silahlanmış Nahaqla üz-üzə dayanmışdı… Şər yenə də Xeyirə meydan oxuyurdu. Ulduzların əlində imkan olsaydı, aşağı enib, ulduz kimi şiltik-şiltik olan yaraların üstünə qonar, qanaxmanın qarşısını alardı… Türkün qanı isə çağlayıb axmaqda idi…

Azərbaycanlı Qacarı məhv edib, çar imperiyasına sığınan ulu babalarımızın səhvinin əziyyətini onun nəvə-nəticələri çəkirdi...

***

Onun saçları şəvə kimi qapqara idi. Ancaq xəstəxanada ayılıb özünə gələndə güzgüdə baxıb gördü ki, saçları bəmbəyaz qar rəngindədi. Kişinin təkcə saçlarına yox, içinə də bir bəyazlıq, ağlıq çökmüşdü. Özü də bu bəyazlıq, ağlıq təmizlik anlamında deyildi. Yaddaşını itirdiyi üçün həyat yolu onun üçün bəmbəyaz bir vərəqə çevrilmişdi… Ötən günlər qar altında qalmışdı, qar kəfənin altında… Kəfənin

üstündən isə durub qaçmaq, bu ağ vərəqdə ömür tarixçəsini təzədən yazmaq, düşmənin acığına yaşamaq lazım idi…

Ancaq dəhşət idi... O, təkcə ata-anasını, arvad-uşağını, qohum-qardaşını, el-obasını yox, yaddaşını da itirmişdi…

Dünyanı ikicə rəngdə görürdü: ağ və qırmızı. Ağ qarın üstünə axan qan bu bəyaz dünyanın üstündə açılan qızıl-gülləri, qərənfilləri xatırladırdı… Qarın üstündə nə qədər qızılgıllər, qərənfillər bitərmiş, İlahi! Bu nə idi? Nağıllar dünyasımı? Sehrli bir yuxumu? Amansız taleyin acı isteh-zasımı?

O, heç nə, heç nə anlaya bilmirdi. Ancaq həm də başında dəhşətli bir uğultu var idi. Bu uğultunun içərisində fəryad, hönkürtü səsləri daha aydın eşidilirdi... Bu hönkürtü ildırım kimi şaqqıldayır, parıltısı dəhşətli mənzərəni işıqlan-dırır, sonra sönürdü...

Elə bil dolu yağırdı... Özü də adi dolu yox, parıldaya-parıldaya yağan, düşdüyü yeri dəlib keçən dolu... O dolu günahsız insan ömrünün sonunda qoyulan amansız bir nöqtəni də xatırladırdı...

***

...O, gözlərini xəstəxanada açanda ağ xalatlı qadın üstünə gəldi… Kişi qorxdu, gözlərini yumdu… Ağ rəngdən vahiməyə düşdü… Üşəndi… Səbəbini heç özü də bil-mədi… Ancaq bu ağ rəng o biri böyük ağ rəngi, dünyanın ən böyük, ən soyuq kəfənini yadına sala bilmədi…

– Sən kimsən? – Ağ xalatlı qadın ondan soruşdu…

İstər-istəməz gözlərini vahimə içində açdı… Sualın cavabını tapa bilmədi… Özü də özünə ürəyində sual verdi:

– Mən kiməm?

Nə qədər çalışdısa, kimliyini xatırlaya bilmədi… Hər şeyi, hər şeyi, evini, eşiyini, ailəsini, həyat yoldaşını, uşaqlarını, qoca anasını, atasını, bütün doğmalarını, əzizlərini itirən adam yaddaşını da itirmişdi… Onun indi heç nəyi – nə el-obası, nə ailəsi… heç nəyi, heç nəyi yox idi… Hələ bu azmış kimi xatirələrini də itirmişdi…

Bu, bir tərəfdən yaxşı idi… Yoxsa o boyda itkiyə kim dözə bilərdi axı?! Bəzən yaddaşın itməsi insanı ağrılardan, əzablardan müvəqqəti də olsa qoruyan vasitəyə çevrilir. Lap ağrıkəsici kimi, narkoz kimi təsiri var imiş onun…Bəlkə də o bədbəxt insanı ölümün, ağrıların pəncəsindən xilas eləyən də elə bu imiş… Arabir yadına düşən dəhşətli hadisələr, yaddaşın işartıları ona cəhənnəm əzabı verirdi... Ancaq yaddaşsızlıq qara bir pərdə kimi bu işartıların önünü kəsəndə elə bil ağrıları bir az səngiyirdi zavallının...

Tibb işçisi – Şəlalə xanım xəstənin kimliyini öyrənə bilməmişdi həmin gün. Ancaq yaxşı bilirdi ki, kişinin yaddaşı nə vaxtsa qayıdacaq... Onu da anlayırdı ki, bu yaddaş qayıdışı ağrıların, əzabların yeni vüsətlə baş qaldıracağına zəmin yaradacaq. Elə buna görə də çalşıırdı ki, yaddaşı qayıdanda  gözləri ilə müsibətlər görmüş həmin insanın yanında olsun...

Bir dəfə Şəlalə dəhlizdən keçəndə palatadan yanıqlı bir səs gəldiyini eşitdi. Kimsə ürək göynədən səslə oxuyurdu... Şəlalə o səs kəsilməsin deyə palataya girmədi. Qapının yanovundan baxanda gördü ki, oxuyan yaddaşını itirən həmin kişidi... O, zəngulə vurduqca gözlərindın gildir-gildir yaş gəlirdi.

Bayatının sözləri çox təsirli idi. Elə bil bu sözlər dərdli-dərdli inləyən həmin adamın özü üçün yazılmışdı:

Mən Aşıq balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

Yaşıldı başın ördək,
Qaradı qaşın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın ördək?

Həmin adam qəlbinin dərinliyində balasını, yoldaşını, ailəsini, qohumlarını itirdiyini dərk eləyirdi yəqin ki? Yoxsa dərdinin boyuna biçilmiş bu bayatı onun hardan ağlına gələ bilərdi?!

Yaddaşın da qəribə işləri var. Heç nəyi xatırlamırsan, ancaq bu yaddaşsızlığın özündə belə nəsə bir ipucu var keçmişlə bağlı. Bu yaddaşsızlığın alt qatında minalanmış bir sahə var idi elə bil... Yaddaş işə düşən kimi həmin minaların partlayacağı ehtimalı qorxudurdu qadını... Bütün gücü ilə çalışırdı ki, həmin minaları zərərsizləşdirsin... Ancaq necə? Məgər bu mümkün idimi?

Kişi yanıqlı-yanıqlı oxuduqca qonşu palatalardakı ayağı yer tutan xəstələr də o səsin gəldiyi yerə axışırdılar. Eyni dərddə olan adamların hamısının gözündən yaş gedirdi. Kim idi bu zavvalı? Onun dərdi nə imiş görəsən?

Xəstəxanaya gələn bir həmkəndlisi kişini tanımış, boynunu qucaqlayıb hönkür-hönkür ağlamışdı... Ancaq hər şeyini itirən bu insan heç nəyi, hətta adını belə xatırlamırdı...

Həmin kişi xəstəxanadan çıxanda şəfqət bacısı ondan bu zavallı insanın adının Ümid olduğunu, bütün ailəsini

itirdiyini öyrənmişdi... Qadının gözləri dolmuş, onun qəlbində sonsuz bir mərhəmət hissi baş qaldırmışdı... Həmişə xəstəsinin ağlının başına qayıtmasını arzulayan tibb bacısı qəlbindən qara qanlar axa-axa düşünürdü ki, bəlkə də bu zavallı bir müddət ötənləri yadına sala bilməsə, daha yaxşı olardı... Yazıq olanları xatırlasa, bu fəlakətin böyüklüyünə ürəyi necə tab gətirəcəkdi?

Xəstə isə haldan-hala düşürdü. Bədəninin yaraları qaysaq bağladıqca, ürəyinin dərinliklərində olan yaralar yavaş-yavaş qan verməyə başlamışdı. Yaddaşsızlıq elə bil ki, fəlakət sellərinin qarşısını almaq üçün imiş... Ancaq bir gün bu bənd dağıldı... Kişinin harayı, ah-naləsi yeri-göyü titrətdi...

Xəstəni xilas etmək, onu bu gərgin vəziyyətdən çıxarmaq üçün ağrıkəsici, bihuşedici iynə vurmaq lazım idi ona...

Belə də elədilər... Aradan bir neçə gün keçdi... Xəstə bir az özünə gəldi... Keçdiyi məşəqqətli yollar ona yuxu kimi görünürdü. Şəfqət bacısı kişini danışdırmağa cəhd elədisə də, bu talesiz insan haqqında həmkəndlisinin verdiyi informasiyadan başqa bir şey öyrənə bilmədi...

Ümid hər şeyi xatırladıqca yaralı quş kimi çırpınırdı... Bədəninin ağrıları azalsa da, yaddaş ağrısı artır, onu göyüm-göyüm göynədir, sızım-sızım sızıldadırdı. Ancaq bu dəhşətli anları kiməsə danışmaqdan həm qorxur, həm utanırdı... Açıb-ağardılası dərd idimi ki, kiməsə danışıb, bir az yüngülləşəsən? Yerə-göyə üsyan eləmək istəyirdi Ümid. Bu qədər haqsızlığa, qəddarlığa qarşı mübarizə apara bilmədiyi üçün bəzən lap özünü öldürmək dərəcəsinə gəlib çıxırdı. Ağ xalatlı qadın isə onun hər şıltaqlığına dözür, bu zavallı

insanın qılığına girib nəsə öyrənmək istəyirdi... Beləcə günlər bir-birini əvəz eləyirdi...

Hərdən Ümidə elə gəlirdi ki, bu ağ xalatlı qadın şəfqət bacısı deyil, onu qanadlarına alıb göylərə aparmaq istəyən ölüm mələyidi... Ancaq hərdən də ağlına gəlirdi ki, bəlkə də bu qadın ağrılarını, əzablarını unutdurmaq üçün ona taleyin göndərdiyi sonuncu ümid, sonuncu şansdı...

Suda boğulan saman çöpündən yapışdığı kimi, o da bütün doğmaları qan dəryasında qərq olan talesiz bir biçarə kimi xilas olmaq, yaşamaq, ən əsası düşməndən qisas almaq üçün bu qadınamı əl uzatmalı idi?

Hərdən öz düşüncələrindən özü də utanır, xəcalət çəkirdi... Bütün ailəsini, olan-qalanını itirən bir insan abır-həyasını da itirməli idimi?

Şəfqət bacısı da özündə-sözündə olmayan, hətta başına nələr gəldiyini belə xatırlamayan bu insanı həyata qaytarmaq istəyirdi... Ancaq necə? Bu, mümkün idimi?

***

Bəzən məhəbbət mərhəmətdən başlayır... Ancaq buna məhəbbət demək olardımı? Bu biçarənin taleyi şəfqət bacısının ürəyini göyüm-göyüm göynədirdi... Hər işdə ona dayaq, arxa olmağa belə hazır idi. Bu ağırlıqda qəm yükünü daşımağa bir insanın çiyinləri çətin ki, tap gətirəydi... İnsanlıq naminə ona dayaq olmaq lazım idi...

Doğrusu, uzun müddət davam eləyən ünsiyyət bu qadının da ürəyində məhəbbətə bənzər bir hissin baş qaldırmasına səbəb olmuşdu... Ancaq ağlına gələn bu fikirdən özü də üşənirdi... Bu məqamda “Keçi can hayındadı, qəssab piy axtarır” məsəli yadına düşür, öz düşündüklərindən özü də utanırdı...

Kişinin adının Ümid olması da qadına qəribə gəlir, onu düşündürürdü. Bu da taleyin istehzasıydı bəlkə? Yer üzündən silinməkdə olan bir nəslin taleyi ağrılar, iztirablar içində çırpınan, budaqda əsim-əsim əsən sonuncu yarpaqda idi... O yarpaq düşməmiş bir çarə axtarmaq lazım idi üzümüzə gələn yeni baharın yarpaqları, çiçəkləri üçün...

Ümid bütün ağrılar, əzablar içində dərk eləyirdi ki, boynuna çox ağır, ağırdan da ağır bir yük düşüb...

Bir atalar sözü hardansa gəlib onun beyninə düşdü: "Elini hürküt, ağsağından yapış"... Onun elini elə pərən-pərən salmışdılar ki... Kimi tapmaq olardı? Kimə pənah gətirmək olardı?

Əslində onun ürəyindəki sevgi deyildi... Sevdiyinə görə yox, nəsli davam etdirmək istəyi ilə ailə qurmaq, oğul uşaq dünyaya gətirmək, müqəddəs bir ocağı sönməyə qoymamaq arzusu boylanırdı ürəyinin dərinliyindən... Elə bil o, yanıb kül olan bir ocağın sonuncu işaran közü idi... Vaxtında o közdən yeni bir ocaq qalaya bilməsə, bir nəsil ocağının yerində bombozküldən başqa nə qalacaqdı ki?!

Ümid bir dəfə tibb bacısının otağına keçəndə qadın təsadüfən başındakı kalpakı çıxardı... Onun gur, şəlaləyə bənzər saçları çiyinlərinə dağıldı... Qəribə idi, elə bu qadının adı da Şəlalə idi...

Heç vaxt tibb bacısını kalpaksiz görməyən Ümid çaşqınlıq içində geri qayıtdı. Qadın onu səslədi:

– Ümid, keç içəri... Gəl bir az söhbət eləyək...

Ümid geri qayıdıb, qadının göstərdiyi stulda əyləşdi... Araya dərin bir sükut çökdü... Qadın ehtiyatsız bir kəlmə ilə kişinin hələ qaysaqlanmayan yaralarının üstünə yeni yara vurmaq istəmədi...

– Xəstəxanadan çıxandan sonra hara getmək fikrin var, Ümid qardaş?

Ümidin gözləri alacalandı. Yadına alovlanıb yanan evləri düşdü... Tükürpədən şivən səsləri onun varlığını titrətdi, içini göyüm-göyüm göynətdi...

Qadın da həyəcanlandı. Verdiyi suala görə üzr istəmək istədi... Ancaq qorxdu ki, üzrü günahından da betər ola... Ona görə gözlərini peşman-peşman yerə dikdi...

– Hara gedəcəm, Şəlalə xanım? Getməli evim yox, eşiyim yox... Dərdləşməyə, baş-başa verib ağlamağa bir adamım da qalmayıb bu fani dünyada...

Şəlalənin gözləri doldu. Özü də bilmədən Ümidi qucaqladı, onunla baş-başa verib hönkür-hönkür ağladı... Ümid də özünü saxlaya bilmədi...

Gözlərin ağrı buludlarından su alan leysanı nə yaman olurmuş, İlahi? Elə bil ildırım şaqqıldayırdı... Özü də bu səs ildırımdan çox, top-tüfəng səsinə bənzəyirdi...

Bir-birinə qovuşub selə dönən bu göz yaşları onların ikisinin də ürəyindəki sönən ümidləri, həyat eşqini, yaşamaq, mübarizə aparmaq təslim olmamaq istəyini cücərtdi. Dərd onları bir az da doğmalaşdırdı, yaxınlaşdırdı... Özlərinin sözlə deyə bimədiklərini göz yaşları söylədi... Bir-birinə qovuşan göz yaşları onların gələcək həyatının müjdəçisinə çevrildi...

***

Bu hadisədən sonra Şəlalə ilə Ümidin münasibəti yavaş-yavaş öz axarını dəyişməyə, ayrı məcraya yönəlməyə başladı. Məsələ ciddiləşdi. Onlar evlənmək qərarına gəldilər və təbii ki, bu istək birmənalı qarşılanmadı... Hər ağızdan bir avaz gəldi. Bir vaxt Ümidin taleyinə göz yaşı tökənlər,

ona acıyanlar, dərdinə şərik olmaq istəyənlər belə üzdə olmasa da, daldada onu qınadılar, ağızlarına gələni dedilər:

– Necə də abırsız, ləyaqətsiz, etibarsız adam imiş... Bütün ailəsini, arvad-uşağını itirən insan yavaş-yavaş öz abır-həyasını da itirir deyəsən... Atalar yaxşı deyib ki, utanmasan oynamağa nə var!

Bu abırsız təkcə özü oynasa dərd yarı idi, başqalarını da öz toyunda oynatmaq istəyirdi... Hər halda kənardan belə görünürdü... Ümidin iztirabları isə sonsuz idi, bu ağrılardan yaxa qurtarıb yenidən ayağa qalxmaq, mübarizə aparmaq, həyatda, cəmiyyətdə öz yerini tutmaq asan məsələ deyildi... Hətta bu o vaxt ümidlərini itirən Ümidə mümkünsüz görünürdü... Ancaq hansı şairdənsə eşitdiyi bu söz daim onun qulaqlarında səslənirdi: "Düşmənə toy tutmaq üçün bizə toy lazımdı"...

Cidanı çuvalda gizlətməkmi olar? Bu söz-söhbət, dedi-qodu Ümidin də qulağına çatdı. Ona görə elin qınağından qurtarmaq üçün xəstəxanadan çıxmaq, həmkəndlilərini axtarmaq fikrinə düşüdü. Bu haqda Şəlaləyə də dedi...

Ayrılanda bu qayğıkeş qadından halalıq istədi. Qadın ona dedi ki, nə eləmişəmsə, halal-xoşun olsun. Ancaq məni unutma. İstəyəndə zəng elə. Dərdini bölüşmək ehtiyacın olanda çəkinmə, həmişə qulluğunda hazıram...

***

Ümid xəstəxanadan çıxandan sonra öz həmdərdləri olan qaçqınlar kimi bir köhnə yataqxanada yerləşdirildi. Tənha dərd yükünü çəkmək çox ağır olur. Yanında olanların əksəriyyətinin də sən dərddə olduğunu bilmək isə bir az ağrıları səngidir elə bil. Boş-bekar adamın əsas işi xəyallara

dalmaq, keçmişi xatırlamaqdı... Həm də gələcəyə ümidi olmayanların keçmişi xatırlamaqdan başqa bir yolu qalırdımı?

Ümid tez-tez xəyalən keçmişə qayıdır, atalı-analı, nənəli-babalı uşaqlığını təzədən yaşamaq istəyirdi. Ancaq özü də yaxşı bilirdi ki, bu, mümkünsüz işdir... Özü də bilirdi ki, şirin xatirələrlə acı reallığın qarışığından yoğrulan xiffət insanın təkcə özünə aiddi... Onun ağrıları da, acıları da, göynərtisi də yalnız və yalnız adamın özünə məxsusdu, başqa bir kimsəyə yox.

Bu göynərti həm insanı zərrə-zərrə öldürür, həm də içindəki xatirə közlərini közərdirdi... Bu közlərdən təzə ocaq yandırmaq mümkün olacaqdımı? Yoxsa bu közlər ən yaxşı halda qapqara kömürə dönməyə məhkum idi...

Kömürün də içində bir közə çevrilmək arzusu uyuyurdu. Bunun üçünsə həyat eşqi ilə dolu bir nəfəs lazım idi... Bu xatirələr bu günün ağırlarını bir az səngidir, azaldır, ancaq yenə də ağrılı keçmişi unutdura bilmirdi...

Xatirə yaşanmış ömrün yaddaşa hopan lent yazısı idi... Xatirə suda boğulanın saman çöpündən imdad diləməsi kimi bir şey idi. Ümid bunları gözəl anlasa da, başqa bir seçimi də yox idi...

Bəmbəyaz qar dənizi, intiqam dalğaları onu keçmişin şirin xatirələrindən də məhrum eləyirdi... Ancaq necə olsa, xatirə elə xatirədi...

II fəsil

## YAYLAQDA KEÇƏN UŞAQLIQ İLLƏRİ

Ümidgilin kəndi ermənilərin əhatəsində idi. Uşaqlığı elə bir mühitdə keçmişdi ki, məktəbdə də həmişə xalqların dostlugundan, qardaşlığından danışırdılar. Ancaq arabir kəndin kişiləri bir yerə toplaşıb dərdləşəndə Ümidin qulağı mənasını o qədər də dərk eləmədiyi sözlər eşitmişdi. Məsələn, o vaxt Ümid "Ermənini qapında gör" ifadəsinin mənasını anlamırdı. Radioda, televiziyada isə dostluq, qardaşlıq haqqında o qədər mahnılar verirdilər ki...

Ümidin yaxşı yadında idi. El yaylağa köçəndə ana babası və nənəsi həmişə onu da yaylağa aparırdılar. Sisyanın Dəstəyird deyilən kəndində qohumları yaşayırdı. Çayın bir sahilində erməni, o biri sahilində isə Azərbaycan evləri var idi...

Onlar həmişə bu kənddə qalmırdılar. Bir yaylağa gedəndə, bir də yaylaqdan qayıdanda bu kənddəki qohumlarını ziyarət eləyir, bir neçə gün orda qalırdılar. Böyüklərin başı söhbətə, yeyib-içməyə qarışanda Ümid qaçıb kənd uşaqlarına qoşulur, onlarla oynayırdı...

Velosiped sürməyi də elə bu kənddə öyrənmişdi... Voleybol meydançasında qohumlarının oğlu onu velosipedə mindirmişdi, Ümid sürür, o isə velosipedin aşmasına imkan vermirdi. Bir-iki dövrə vurandan sonra Ümid gördü ki, ona velosiped sürməyi öyrədən oğlan kənarda durub əl çalır. Ümid qorxdu ki, velosipeddən yıxıla. Oğlan isə gülə-gülə dedi ki, qorxma, artıq bir beçə dövrədi ki, özün sürürsən, maşallah, tez öyrəndin...

Sonra oğlanın təkidi ilə küçəyə çıxdılar. Ümid velosipedi sürə-sürə çayın üstündəki körpüdən keçdi. Bundan sonra kiçik yoxuş başlayırdı və bu yoxuş bazarın yanından o biri tərəfə qalxırdı...

Ümid təcrübəsiz olduğundan yoxuşu axıra qədər çıxa bilmədi. Velosiped dayandı. Oğlan onun üzünü əliyenişə döndərib, çətinliklə velosipedin üstünə mindi. Üzüyenişə olduğundan velosiped bərk getməyə başladı və yolun ortası ilə gedən erməni qadına toxundu. Arvad hay-həşir saldı, qışqırdı. Oğlan isə gücü gəldikcə velosipedin pedallarını daha bərk işlətdi. Uşaqlar qaçıb evə getdilər, ancaq başlarına gələn əhvalatı evdə demədilər...

Dəstəyirddən bir az yuxarıda, üzü yaylaqlara sarı gedəndə yolun kənarında Hankavan deyilən bir yaşayış məskəni var idi. Burada ermənilər yaşayırdılar. Əhalinin böyük əksəriyyəti molebdin çıxaranlar və onların ailələrindən ibarət idi. Ümid molebdini ilk dəfə burda görmüşdü. Qəribə bir daş idi... Sındıranda içindəki hissəciklər gümüş kimi parıldayırdı...

Ümidin babasıgil ara-sıra yurd yerlərini dəyişirdilər. Gah "Lalalı yurd"da, gah "Mehrili"də  alaçıq qururdular. Yaylağa gələnlər əsasən ferma işçiləri və onların ailələri idi. Çobanlar yaylaqda sürüləri otarır, axşam onları arxaca qaytarırdılar. Hamı fermanın işi ilə məşğul idi, təkcə Ümidin babasıgilin bu məsələlərə aidiyyəti yox idi. Onlar sözün tam mənasında istirahətə gəlmişdilər. Ancaq istər-istəməz axşam-səhər ferma adamları ilə ünsiyyətdə olurdular.

Ümidin babası sinif müəllimi idi. Məşhur bir bəyin qızı olan nənəsi isə evdar qadın idi. Təkcə onlar idi bura istirahət üçün gələnlər. Əmin-arxayınlıq olsun deyə, həm də süd-

qatıq, yağ, pendir, şor – ağartı sarıdan korluqları olmasın deyə alaçıqlarını fermada işləyənlərin çadırından bir az aralıda qururdular. Alaçıq keçədən olurdu. Əvvəlcədən hazırlanıb gətirilmiş çubuqları cərgə ilə yerə basdırır, sonra onların ucunu əyib bir-birinə bağlayırdıar. Çubuq "karkas" hazır olandan sonra böyük keçəni açır, köməkləşib onu çubuqların üstünə çəkir, nizamlayandan sonra keçənin uclarını hər tərəfdən iplə çubuqlara bağlayırdılar ki, külək vurub yerə salmasın. Divar əvəzi yanlara çətən, ya da palaz tuturdular... Sonra çadırın içini düzəldir, yatacaq yerlərini nizama salırdılar. Yerə altdan keçə, üstdən isə palaz sərir-dilər ki, yaşayış sahəsi torpaqdan nəm çəkməsin. Yorğan-döşəyi fərməşlərdən çıxarıb, alaçığın bir küncündə səliqə ilə üst-üstə yığır, sonra yükün üstünü xüsusi örtüklə örtürdülər. Yalnız qaranlıq düşəndə yükdəki yorğan-döşəyi götürüb, hər kəs üçün ayrıca yatmaq yeri düzəldirdilər.

Gecələr çox vaxt neft lampaları yandırırdılar. Çıraqdan mümkün qədər az istifadə edirdilər. Çünki çıraq his elə-yirdi...

Sürü xüsusi saxlamaq yerinə, arxaca yığılandan sonra onun qapısını kol-kosla bağlayardılar ki, qoyunlar, quzular çölə çıxa bilməsinlər... Sonra hamı öz çadırına çəkilərdi.

Sürünü qoyun itləri qoruyardı... Gecə çox sakit olardı. Səssizlikdə arabir gövşək səsləri gələrdi. İtlərin ağız-ağıza verib hürmələri təhlükə siqnalı idi. Çobanlar öz səsləri ilə onları qaranlıqda ürəkləndirərdilər. "Alabaş, tut", "Qarabaş, tut" səsləri gələrdi... Ferma işçiləri əllərində çıraq sürüyə baş çəkər, arxayınlaşandan sonra yenidən geri qayıdardılar... Bəzən bu hadisə bir neçə dəfə təkrar olunardı...

Bu binədə yaşca ən balaca Ümid idi. Əvvəllər bir az qorxsa da, sonra bu romantik mühitə öyrəşmişdi... Gecələr bulaqların zümzüməsinə, kiçik dağ çayların səsinə qulaq asmaq ona ləzzət eləyərdi...Sübh tezdən sərniclərə sağılan südün səsini dinləmək, onun köpüklənib daşmasına baxmaq da ayrı aləm idi...Sonra çobanlar sürünü haylayıb otlaqlara aparardılar. Binə kimsəsizləşərdi, arvad-uşağın umuduna qalardı...

Ümid hər səhər babası ilə sübh gəzintisinə çıxar, yamyaşıl dağların belinə sicim kimi sarılan dağ cığırları ilə çayın sahilinə enər, ləzzətlə əl-üzünü yuyar, sonra evə qayıdardı... Onlar alaçığa gələndə nənə süfrəni hazırlamış olardı... Təzə yağ, qaymaq, pendir, şor... Səhər yeməyindən sonra babanın ev dərsləri başlayardı. O, əvvəlcə qaydaları izah eləyər, sonra sərbəst şəkildə həll etmək üçün məsələ və misallar verərdi... Yalnız bundan sonra Ümidə icazə verilirdi ki, ferma müdirinin və çobanların uşaqları ilə oynasın. Əslində bu oynamaq deyildi. Torbalarını götürüb təzək yığmağa gedərdilər. Yamyaşıl dağ çəmənlərində nəinki odun, heç diş qurtdalamağa bir çöp də tapmaq mümkün deyildi...Həm ziyarət, həm ticarət...

Arxac yerlərində elə yekə ağ göbələklər bitirdi ki... Uşaqlar sevinclə torbalarını doldururdular. Sonra isə tamahlarını saxlaya bilmir, təzəkdən ocaq yandırır, göbələklərin göbəyə bənzər hissəsinə duz səpib odun üstünə qoyurdular. Çiy vaxtı kövrək olan, paralanan göbələk bişəndən sonra rezin kimi olurdu. Əlləri pörşələnə-pörşələnə bu göbələkləri ocaqdan götürür, sıxıb, duzlu suyunu damcıladandan sonra ləzzətlə yeyirdilər... Ümid sonralar da heç harda o dadda göbələk görməmişdi...

Babası hərdən yaylaqları gəzəndə bu sözləri deməyi çox xoşlayardı: "Füzuli dərd əlindən dağa çıxdı, dedilər bəxtəvər yaylağa çıxdı"...

Ümid bu sözlərin mənasını anlamırdı o vaxt. Bu dağlara nə imiş axı aidiyyəti Füzulinin? Nə imiş axı babasının dərdi?

Bir dəfə Ümid babasından bu sözlərin mənasını soruşsa da, gözləri yol çəkən ağsaqqal nəvəsini başını sığallayıb: "Hələ balacasan, böyüyəndə özün biləcəksən," – demişdi...

Babası arabir Aşıq Ələsgərin "Bahar fəsli, yaz ayları gələndə, Süsənli, sünbüllü lalalı dağlar" misraları ilə başlayan şeirini də əzbərdən deyərdi... Elə bil ki, Aşıq Ələsgər gül-çiçəklə bəzənmiş bu dağları da öz gözləri ilə görübmüş...

Bir də nə fərqi, bu dağ olmasın, o biri dağ olsun... Bu yerlərin bütün yaylaqları biri-birindən gözəl, biri-birindən axar-baxarlıdı...

Hərdən Ümidin dayıları da yaylağa gəlib onlara baş çəkər, bir neçə gün qalıb, sonra öz işlərinin dalınca gedərdilər. Dayılarından biri universitetin hüquq fakültəsini bitirmişdi. Onu təyinatla o vaxtki İlıç, indiki Şərur rayonuna milis idarəsinə işləməyə göndərmişdilər. Sahə müvəkkili vəzifəsində əmək fəaliyyətinə başlamışdı. Kiçik dayısı isə həkim idi, o da Naxçıvanda, Culfada işləyirdi. Dayılarının yaylağa tez-tez gəlib qayıtmaqları Ümidi sevindirsə də, həm də təccübləndirirdi. Sevinirdi ki, dayıları həmişə gələndə ona hədiyyə alıb gətirirdilər. Dəvə yunundan idman kost-yumu və simli musiqi aləti, "mandalin" deyilən musiqi aləti almaqları heç yadından çıxmırdı uşağın. Kostyuma nə var

ki, geyirsən, qurtardı. Çətin musiqi aləti imiş. Sən onun sahibisən, ancaq çala bilmirsən...

Dayısı ona simli alətdə çalmağı da öyrədirdi yavaş-yavaş. Özü də ilk öyrəndiyi mahnı "Sudan gələn sürməli qız" idi... Bu yaylaqda nə qədər istəsən su var idi, ancaq buralarda işvəli, nazlı -"sürməli qız" nə gəzirdi o vaxt?

Dayıları gələndə ətraf kəndlərdə yaşayan qohumlarına da baş çəkərdilər. Dəstəyirdə gedəndə çox vaxt onu da özləri ilə aparardılar...

Bir dəfə Ümid kiçik dayısından soruşmuşdu ki, bu qədər uzaq yolu necə gedib gəlirsiniz? Dayısı mənalı-mənalı ona baxıb soruşmuşdu:

– İstəmirsən, gəlməyək...

– Yox, yox, istəyirəm. Ancaq bilmək istəyirəm ki, uzaq yol sizi yormur ki?

– Doğmaları görmək istəyən üçün yolun uzaqlığının, yaxınlığının elə də bir fərqi yoxdu. Ancaq Naxçıvan uzaqda deyil ki, bu dağların elə o biri üzündədi...

Bir dəfə yaylaqda darıxan uşaqlar valideynlərindən icazə alıb, Hankavandakı dükandan nəsə almağa getdilər. Dükançı qadın heç onları adam yerinə də qoymur, yanındakı üç-dörd dığa ilə söhbət eləyirdi... Piştaxtanın üstünə çıxarılmış balaca erməni uşağı isə səbətdəki meyvələri bir-bir götürüb, yaylaqdan gələn uşaqların başına çırpırdı. Dığalar bic-bic baxıb gülür, yerdəki meyvələri götürüb yenidən həmin uşağın əlinə verirdilər.

Ümidgil bayıra çıxmaq məcburiyyətində qaldılar. Yaylağa sarı getmək istəyəndə beş-altı erməni dığası onların qabağını kəsib sıraya düzülmələrini əmr elədilər. Sözə

baxmaqdan, dinməzcə işin axırını gözləməkdən başqa çarə yox idi...

Birdən o murdar dığalardan birinin gözü Ümidə sataşdı. Yanındakına ermənicə nə dediklərini başa düşmədi, ancaq dedikləri bu sözü yadında saxladı ki, evə qayıdanda onun mənasını babasından soruşsun: "Naçalnikin dğani"...

Sən demə, bu, "naçalnikin oğludu" demək imiş. Sən demə, Ümidi nə vaxtsa milis paltarında olan dayısı ilə bir yerdə görübmüşlər.

Ümidi sıradan çıxadılar, ona heç nə eləmədilər. O biri çoban, sağıcı uşaqlarını isə saldılar şapalağın altına... Bu, böyük haqsızlıq idi...

Ümidi döyməsələr də, günahsız uşaqların üzünə vurulan hər şapalaq elə bil onun öz üzünə dəyirdi... Ancaq neyləmək olardı...Uşaqların gücü təkcə göz yaşlarına çatdı...

Onlar evə qayıdanda hamıdan böyük olan baş çobanın oğlu bərk-bərk dostlarına tapşırdı ki, bu haqda heç kəsə heş nə deməyin... Sonra dava, qan düşər...

Ümid ilk dəfə idi ki, ermənilərin iç üzünü görür, ancaq bunun səbəbini anlamırdı...

Bir dəfə kiçik dayısı yaylağa tək gəlmişdi. Səhər yuxudan oyananda bacısı oğluna dedi ki, səni gəzməyə, bizim dədə-baba yaylağımız olan "Lalalı yurd"a aparacam. Ancaq bir az özümüzlə pendir-çörək götürməliyik. Yol uzaqdı, aca bilərik.

– Bəs su götürməyək?

– Su götürməyə ehtiyac yoxdu. Buralarda o qədər bulaq var ki... Suyu bumbuz... İçməklə doymaq olmur...

Onlar birlikdə dağa sarı dırmandılar. Yoxuş adamı yorsa da, təbiətin gözəlliyi ləzzət eləyirdi... Lap Aşıq

Ələsgərin dediyi kimi idi... Süsənli, sünbüllü, laləli dağlar göz oxşayır, ürəkləri riqqətə gətirirdi.

Bulaqların yanında, yamaclarda o qədər ot, pencər var idi ki... Hamısı bir-birindən ləzzətli. Quzqulaq, yemlik, əvəlik, qırxbuğum... Baldırğan isə lap ayrı aləm idi. Onun zoğlarını soyub yemək adama ləzzət eləyirdi. Ancaq dayısı xəbərdar eləmişdi ki, çalış baldırğanın suyunu əlinə, qoluna vurma. Çünki baldırğan dəyən yer sonra yara tökür...

Dağlara dırmanmaq onları lap yormuşdu. Dayısı ona toxtaqlıq verib deyirdi:

– Bir az da döz, lap az qalıb...

Axır ki, dağın başına çatdılar. Ordan dönüb öz alaçıqları olan binəyə baxdılar. Elə gözəl görünürdü ki...

Dağın o biri üzündə daha maraqlı bir mənzərə var idi... Yamacda o qədər lalə var idi ki... Ümid onda başa düşdü ki, bura niyə “Laləli yurd” deyirmişlər.

Dayısı Ümidin uşaqlığından danışdı. Bir şəlalə göstərib dedi ki, bilirsən buranın adı nədi?

– Yox.

– Ümid ölən yer...

– Ümid ölən yer nədi, dayı?

Sən lap balaca olanda bu yaylağa gətirmişdik. Su görəndə üzün gülürdü. Bu şəlaləni görən kimi ora sarı dartındın. Mən səni soyundurub suyun altına tutanda çır-çır çığırdın və özündən getdin. Hamımız bərk qorxmuşduq. Ona görə bu yerin adını Ümid ölən yer qoymuşduq...

Ümid doluxsundu... Ölüm sözü onu üşəndirdi. Bir xeyli keçəndən sonra soruşdu:

– Dayı, mən də öləcəm?

– Yox, sənə ta ölüm yoxdu...

– Bəs deyirlər hamı ölür?

Dayısı sözün istiqamətini dəyişməyə çalışdı, zarafatla dedi ki, sənin adını təsadüfən Ümid qoymamışıq. Yadında saxla, ümid heç vaxt ölməz. Ümidini itirən insan ölər...

Ümid özünü tox tutmağa çalışsa da, əvvəl-axır hamının öləcəyi həqiqəti onu çox duyğulandırmışdı... Dayısının ona cığadan hördyü, sonra üstünü lalə ilə bəzədiyi tac da gözündən düşdü uşağın...

Bir xeli keçdi. Təbiətin gözəlliyi narahatçılığı bir qədər arxa plana keçirdi, ölüm söhbətini unutdurdu. Uşaq soruşdu:

– Ay dayı, bura bizim dədə-baba yurdumuzdusa, bəs niyə alaçığımızı burda qurmamışıq?

Dayısı fikrə getdi. Suala necə cavab verəcəyini düşündü... Sonra dedi:

– Burda alaçıq qurmağa icazə vermirlər.

– Niyə?

– Ona görə ki, dədə-baba torpaqlarımızı, yaylaqlarımızı indi ermənilərə veriblər...

Ümid bu haqda suallar vermək istəyəndə dayısı da babası kimi demişdi:

– Sən hələ balacasan, Ümid, böyüyəndə hər şeyi özün biləcəksən...

Bununla da söhbətin istiqaməti dəyişmişdi. Uşağın gözlərinin önündə yaylaq dostlarının haqsız yerə dığalar tərəfindən döyülməsi səhnəsi düşmürdü... Ancaq bu haqda dayısına da heç nə deməmişdi...

III fəsil

## ÜMİDİN ƏSGƏRLİK XATİRƏLƏRİ

Ümid də əsgər olmuşdu, sovet dövrünün əsgəri. Özü də qəribə idi ki, əsgərliyini Yerevan şəhərində çəkmişdi. Ermənistanda qulluq eləyəcəyini biləndə istər istəməz yadına bu atalar sözü düşmüşdü: “İlanın zəhləsi yarpızdan gedər, yarpız da tərs kimi onun yuvasının ağzında bitər.”

Hündürdə, Kanaker deyilən bir yerdə idi onların hərbi hissələri... Karantin dövründən sonra onları tez-tez posta göndərirdilər. İki saat keşikdə qaldığı vaxtları çox sevirdi Ümid. Burada tək qalır, düşünür, gələcək həyatı üçün şirin xəyallar qururdu. İki saatın necə keçdiyini bilmirdi. Bir də görürdü ki, qarovul rəisi iki əsgərlə ona yaxınlaşır... Əsgərlərdən biri Ümidin postunu təhvil alır, Ümid isə qarovul rəisinə və o biri əsgərə qoşulub dincəlmə otağına qayıdırdı.

Postdan qayıdan əsgərlər gələn kimi, o birilər arxa otağa keçib iki saat mürgüləmək üçün paltarlı şəkildə uzanır, onları isə postlardan təzə qayıdan əsgərlər əvəz eləyirdi. Otaqda oturanlar da müəyyən mənada iki saat müddətində yatanların keşiyini çəkir, məktub yazır, kitab oxuyurdular.

Beləliklə, iki saat keşikdə dayanmaq, iki saat otaqda oturub dincəlməkdən sonra iki saat yatmaq növbəsi gəlirdi... Və beləcə davam eləyirdi qarovul həyatı...

Qarovul məntəqələri bir neçə idi. Bəziləri şəhərdə, bəziləri şəhərdən kənarda. Hər qarovul məntəqəsinin də bir neçə postu olurdu... Ümid şəhərdən kənardakı qarovullara göndəriləndə çox sevinirdi... Uşaqlıqda təbiət qoynunda

doğulan bu insan gözəl mənzərələr aşiqi idi. Gül-çiçəkli yamacları seyr eləməyi çox sevirdi...

Bir dəfə Ümidgilin rotasını Tbilisi şəhərinin yaxınlığındakı Kodjori deyilən yerə ezamiyyətə aparmışdılar. Hərbi hissədən ayrılan Ümid sevinirdi. Bu yerlərin təbiəti çox gözəl idi. Onlar generalların istirahət mərkəzini nizama salmağa gəlmişdilər. Əsas işləri meşənin içindəki taxtadan tikilmiş evlərin içindəki mebelləri ora-bura çəkməkdən ibarət idi. Qalan vaxt isə boş olurdular.

Əslən Azərbaycandan olan əsgərlik yoldaşları ilə meşələri, çəmənləri, dağları gəzirdilər. Axşamlar isə bulaq başına yığışıb söhbət eləyir, zarafatlaşırdılar.

Yaxınlıqda bir qala var idi. Ümid bu qala ilə maraqlandı. Yerli sakinlərdən – gürcülərdən öyrəndi ki, bu qalaya el arasında Koroğlu qalası deyirlər.

Bu məlumatı öyrənəndə elə bul Ümidin gözlərinə işıq gəlmişdi... Öz-özünə deyirdı ki, bu qalanın adının Koroğlu qalası olması təsadüfi deyil... Bizim qəhrəmanlarımız təkcə oğruların, quldurların boynunu vurmaqla, haqqa qahmar çıxmaqla kifayətlənməyiblər. Onlar getdikləri yerdə məbədlər, qalalar tikib gediblər...

Kodjori sözünün etimoloğiyası ilə maraqlanan Ümid axır ki, əslən Gürcüstandan olan tələbə yoldaşlarına məktub yazmaq vasitəsilə öyrəndi ki, bura məşhur Qocur yaylağı imiş. Gürcülər "Qocur"u "Kodjor" kimi tələffüz eləyiblər və beləliklə də Kodjori sözü yaranıb.

Bu məlumatı öyrənəndən sonra Ümidin ürəyində xalq qəhrəmanımızın adıyla bağlı həmin qalya getmək, onu ziyarət etmək arzusu baş qaldırdı. İstəyini azərbaycanlı

uşaqlara söylədi. Onlardan biri diqqətlə qalaya sarı baxıb dedi:

– Buradan baxanda yaxın görünməyinə baxma, ora çox uzaqdır. O qalanın yanına gedib-gəlmək üçün ən azı bir günlük vaxt lazımdır. Əslən erməni olan komandirlərimiz çətin ki, bizə icazə verələr. Özü də həmin yer biçənəyin lap ortasındadır. Görmürsənmi, ot lap qurşağa çıxır. Əgər biz biçənəyi tapdaya-tapdaya getsək, tarladan icazəsiz bir qarpız dərməyinə görə hay-haray qaldıran, əsgərlərimizdən birini "disbata" (xüsusi rejimli batalyona) göndərdən gürcülər bizdən də şikayət eləyə bilərlər...

Söz Ümidin ağlına batdı. Ancaq fikri-zikri elə o qalanın yanında idi...

Bir dəfə səhər-səhər məskunlaşdıqları evin həyətində sahibsiz donuz sürüsü gördülər. Erməni uşaqları komandirin tapşırığı ilə çoşqaları qovur, onları tutmaq istəyirdilər. Axır ki, bir donuz çoşqasını tuta bildilər. Onu çığırda-çığırda iri kisələrdən birinin içinə qoydular. Kurinyan familyalı batalyon, Kasparyan soyadlı vzvod komandirləri həmin kisəni götürüb harasa getdilər. Əsgərlərə tapşırdılar ki, bu haqda heç kəsə heç nə deməsinlər...

Komandirlərin bu hərəkəti Ümidə çox anormal gəlmişdi. Öz-özünə sual vermişdi ki, sovet zabiti də oğurluq edərmi? Ümumiyyətlə, oğurluq kişiyə yaraşan işdirmi?

Bu sualların cavabını o vaxt tapa bilməyən Ümid çox-çox sonralar **Adam Mets** adlı bir İsveç səyyahının ermənilər haqqında dediyi sözləri oxuyanda o şərəfsiz zabitlərin hərəkətlərinin səbəbini dumanlı şəkildə olsa da anlaya bilmişdi. Səyyah yazırdı: *"Ermənilər ağ insanlar arasında ən pis qullardır. Onların zəif qaməti və çirkin ayaqları var. Heç*

*bir şeydən utanmırlar, oğurluqla tanınırlar. Əgər sən erməni xidmətçisini bir an sərbəst buraxsan, səni quyunun dibinə qədər aparacaq. O, qamçı altında qorxduğu üçün çalışır."*

Erməni zabitlər çoşqanı çığırda-çığırda aparanda Ümidin əsgərlik dostu Əhməd Vəliyev dedi:

– Ümid, yaxşı fürsət düşüb əlimizə. Gəl gedək Koroğlu qalasını ziyarət eləyək.

Ümid duruxdu:

– Bəs sən demirdin ki, ora çox uzaqdı?

– Narahat olma, bir də belə fürsət ələ düşməyəcək. Ermənilər apardıqları çoşqanı kəsib kabab eləyənəcən biz ora gedib-gələrik. Özü də donuz ətinə həris bu donuzların axşam gürcülərdən "Çaça" – "Cecə" arağını aldıqlarını da görmüşəm. Arxayın ol, yeyib içməyə başı qarışan komandirlər yəqin ki, gözdən-könüldən uzaq bu kazarmaya gec qayıdacaqlar. Bəlkə də heç qayıtmadılar…

Ümidin gözlərinə elə bil içıq gəldi. O, Əhmədlə yola düşəndə Kamil Ağayarov adlı Naxçıvandan olan bir oğlan da onlara qoşuldu…

Biçənək qurşağacan ot idi. Ümid dostlarına deyirdi ki, ehtiyatlı olun, ayağınızın altına baxın. Yəqin ki, buralar ilan-çayanla doludu indi.

Kamil onlara toxtaqlıq verdi:

– Ə, qorxmayın, dizimizə qədər olan əsgər çəkmələri bizi qoruyacaq. Ancaq tez gedib qayıdaq ki, kazarmadakı ilanların dişinə keçməyək…

Əhməd təəccübləndi:

– Nə? Bizim kazarmada ilan var?

– Var, əlbəttə, var. Kasparyanla Kurinyan ilan deyil bəs nədir?

Uşaqlar gülüşdülər… Ümid də dostlarına qoşuldu. Sonra ciddiləşdi və onlardan soruşdu:

– Deyəsən sizin böyük rus yazıçısı Lev Nikolayeviç Tolstoyun ermənilər haqda dediyi sözdən xəbəriniz yoxdur?

Əhməd təəccübləndi:

– O nə deyib ki?

– Lev Tolstoy deyib ki, erməni yer üzünün ilanı, insanlığın düşmənidir…

Elə bil əsgərlərin yadından ilan çıxdı. Onlar qaça-qaça, bəzi yerlərdə tullana-tullana qalanın yanına getdilər… Eh, cavanlıq ki, cavanlıq…

Biçənəkdən çıxandan sonra dostlar hündür bir dağın başındakı qalaya sarı dırmanmağa başladılar. Qala, nə qala. Oğulsan, onun yanına qalx.

– Qalaya çıxmayacaqdınızsa, bəs bura niyə gəlirdiniz? – Ümid kinayə ilə soruşdu…

– Nə danışırsan, ay Ümid. Ordan yıxılsaq, heç tikəmiz də ələ gəlməz...

– Özünüz bilin, mən çıxacam…

Onlar sınayıcı nəzərlərlə bir-birlərinin üzünə baxdılar. Sonra keçi kimi sıldırımlı dağın lap zirvəsində ucalan qalanın yanına dırmandılar. Bacardıqları qədər ehtiyatla hərəkət edirdilər. Çəkmələrini ayaqlarından çıxarandan sonra yuxarı dırmanmaq bir az asanlaşdı…Çox böyük çətinliklə qalanın yanına dırmandılar. Buradan ətrafa baxanda çəkilən zəhmət rahatlıqla, məmnunluqla əvəz olundu. Dörd tərəf necə gözəl görünürdü, İlahi…

Zirvədən baxa-baxa xəyallara dalan Ümid elə bil Zəngəzurdakı balaca kəndlərini, atasını, anasını, doğmalarını, əzizlərini gördü. Qanadlanıb onların yanına uçmaq arzusu baş qaldırdı ürəyində…

Əsgərlər geri qayıdanda kazarmaının həyətində bir qışqır-bağır var idi ki, gəl görəsən. Onlar bərk narahat oldular. Düşündülər ki, geri qayıdan komandirlər əsgərlərin yoxa çıxdığını görüb qışqırır, aləmi bir-birinə qatırlar…

Sən demə belə deyilmiş. İtən donuz balasının sahibi imiş gəlib hay-haray qaldıran. Komandirlər də, əsgərlər də and-aman eləyirdilər ki, bizim heç nədən xəbərimiz yoxdur…

Komandirlərdən biri donuz sahibinin fikrini yayındırmaq istədi. Ona görə dedi ki, üç əsgərimiz yoxa çıxıb. Yəqin çoşqanı onlar oğurlayıblar…

Elə bu vaxt Ümidgil söhbətin üstünə gəlib çıxdılar. Donuzun sahibi onların üstünə cumub qışqırdı:

– Neyləmisiniz mənim donuzumu?

Əhməd dedi:

– Ay kişi, nə danışırsan? Biz üçümüz də müsəlmanıq, azərbaycanlıyıq…

Donuz sahibi bir az fikrə getdi və hirslə erməni zabitin üstünə şığıdı:

– Ay donuz oğlu, donuz, heç müsəlman da donuz əti yeyər? Verin mənim donuzumu…

Azərbaycan uşaqları gülməkdən özlərini saxlaya bilmirdilər…

***

Ümid Yerevanda gəzə-gəzə həmişə düşünürdü ki, görəsən bu qədər qədim Azərbaycan şəhərini niyə bu ermə-

nilərə veriblər? Elə o vaxtın özündə də Yerevanda az azərbaycanlı yaşamırdı. Dükan-bazarda satıcılıq eləyən ermənilərdən rusca bir söz soruşanda cavab vermirdilər. Azərbaycanca soruşanda isə bir az mehribanlaşırdılar elə bil. Hər halda bu, Ümidə elə gəlirdi. Hərbi hissədə də ona ermənilərin münasibəti pis deyildi. Ancaq eşitmişdi ki, əvvəllər bizim uşaqlarla onların arasında ciddi münaqişə olub...

Kamil adlı bir oğlandan çəkinirdi dığaların hamısı. Sən demə əsgərliyə təzəcə gələn bu yeniyetməni əvvələr onlar sındırmağa çalışıbmışlar. Hətta bir dəfə yuyunma otağında qapını bağlayıb onu döyübmüşlər də...  Kamil isə əlinə məqam düşəndə onların hamısını dizin-dizin süründürübmüş... Posta gedəndə avtomatı çəkib onların üstünə. Əmr eləyib ki, dizin-dizin sürünsünlər. Deyib ki, əgər sürünməsəniz, üzr istəməsəniz, sizin hamınızı güllələyəcəm...

Sonra Azərbaycan uşaqları güc-bəla ilə avtomatı ondan ala biliblər.

Kamildən çox qorxurdular, ancaq hiss olunurdu ki, fürsət düşsə, onun qanını da içərlər...

Bəlkə də orduda nüfuz sahibi olan bu "stariklər"in hesabına Ümüdə gözün üstündə qaşın var deyən yox idi. Bir səbəb də batalyona təzə bir komandirin qoyulması ilə əlaqəli idi.  İntizam çox yüksək idi. Kombat heç kəsə güzəştə gedən deyildi.

Bir dəfə hansı bir avtomatınsa təmizlənməmiş "silah parkına" ("rujpark"a) qoyulduğunu bilən batalyon komandiri rota komandiri Kurinyanla vzvod komandiri Kasparyanı silah parkına salıb qapını açarla bağlamış, axşama qədər silahları dilləri ilə təmizləməyi tapşırmışdı. Ümid isə əlində

silah keşik çəkirdi silah parkının qapısının ağzındakı postda. Əllərinə imkan düşəndə əsgərləri təhqir edən bu erməni gədələrinin düşdükləri vəziyyət Ümidə ləzzət eləyirdi...

Yerevanda olduğu vaxt radioda, televiziyada ən çox səslənən Azərbaycan mahnıları idi. Bu, Ümidə ləzzət eləyirdi. Ancaq bir şeyi başa düşmürdü ki, niyə bütün mahnıların sözlərini ermənicəyə tərcümə eləyiblər?

Ümid əsgərliyə gedən vaxt təzəcə dəbdə olan bir mahnı var idi. Mikayıl Müşfiqin sözlərinə yazılmış “Qal, sənə qurban” adlı bu mahnı Zeynəb Xanlarovanın ifasında çox gözəl səslənirdi... Mahnıda işlədilən “Sən Müşfiqin yanında, qalginən, sənə qurban. İstəsən bu canımı alginən, sənə qurban” misraları da var idi mahnıda. Bu mahnının sözləri də erməniləşdirilmişdi. Hətta Müşfiq adı da çəkilirdi.

Ümid bu mahnının Müşfiqin sözlərinə bəstələnən gözəl mahnı olduğunu söyləyəndə Seropyan familyalı bir serjant emosional şəkildə etiraz etmiş, “ara, nə danışırsan, bu qədim erməni xalq mahnısıdı”, – demişdi. Həyasızlıq, həyasızlıq, ta bu qədər də yox da...

Yerevanda azərbaycanlılar az deyildi. Hətta orda Azərbaycan dilində “Sovet Ermənistanı” adlı qəzet də çap olunurdu. Cəfər Cabbarlı adına Yervan Teatrı da fəaliyyət göstərir, aktyorlar Azərbaycan dilində gözəl tamaşalar hazırlayırdılar. Hətta bu tamaşalara ermənilər də həvəslə gedib baxırdılar. Zahirən vəziyyət normal görünsə də, arxa planda bizimkiləri həmişə sıxışdırırdılar. Əlbəttə, bunu seyrçi gözlə görmək mümkün deyildi. Erməni xislətinə yaxından bələd olmaq üçün onlarla bir yerdə işləmli, yaşamalı, qonşuluq eləməlisən.

Bir dəfə Ümid şəhərə çıxmaq üçün hərbi hissədən icazə almışdı. Mərkəzi poçta gedib Bakı ilə danışmaq istəyirdi. Sifariş vermək üçün növbəyə dayanmışdı. Yaraşıqlı, gözəl geyimli bir qız ona yaxınlaşıb ermənicə nəsə soruşdu. Heç nə anlamayan Ümid rusca anlamadığını söyləyəndə qız soruşdu:

– Yəqin azərbaycanlısınız?

– Bəli.

– Çox şükür.

Ümid qızdan soruşdu:

– Xanım, Siz ermənisiniz?

Qız əsəbi şəkildə dedi:

– Allah eləməsin erməni olum. Mən azərbaycanlıyam, özü də xalisindən. Onların zahirən mədəni görünmələrinə baxmayın, əllərinə imkan düşsə, bizim millətin qanını içərlər...

Əlbəttə, o vaxt Ümid erməniləri hələ yaxşı tanımırdı. Lakin illər sonra anlamışdı ki, həmin qız öz qənaətlərində nə qədər haqlı imiş... Görünür, "Ermənini qapında gör", "İtlə dostluq elə, ancaq çombağını əlindən yerə qoyma" qənaətləri də uydurma deyilmiş, reallıqdan doğurmuş...

Ümid həqiqi hərbi xidmət, kişilik məktəbi keçmiş, həm gecə, həm yay, həm qış təlıimlərində olmuşdu. Qışda Qarayazıya hərbi təlimə getdikləri gün kino lenti kimi gözlərinin qarşısında canlanırdı... Qarayazı düzünə axşam qaranlığı çökürdü. Bərk yağış yağırdı. Əsgərlərin hamısı suyun içində idilər. Qəddar komandir heç kəsə döyüş maşınlarında yağışdan qorunmağa icazə vermirdi. Palçığın içində, yağışın altında təpık döydürürdü əsgərlərə...

Sonra çadır qurmaq əmri verildi. Ümidgil də çadır qurdular. Bununla iş bitirdimi? Dizə qədər palçığın içində necə oturasan, necə yatasan?

Komandirin göstərişi ilə "plaş-palatka"lar açılıb yerə sərildi. Hamı gecələmək üçün məcburi çəkildə yerə uzanmalı oldu... Bütün bədəni su içində olan Ümid donmamaq, xəstələnməmək üçün səhərə qədər bədəninin ora-burasını ovuşdurdu. Paltarı donub taxta kimi olmuşdu. Gördü ki, mümkün deyil, çadırın kənarını qaldırıb bayıra çıxmaq, bir az ayaq üstə gəzmək, qaçmaq istədi...

Qarın ağlığından Ümidin gözləri qamaşdı... Axşamdan yağan yağış gecə qara dönmüşdü...

On altı gün o qarın, çovğunun içində qalan, hərbi təlim keçən əsgərlərin biri də xəstələnmədi... Təkcə "kaçaqarka" deyilən yerdə komandirlərin sayəsində baş girləyən bir erməni dığasından başqa. Həmişə pişik kimi isti sobanın yanında uzanan həmin gədə elə ağlayır, elə zarıyırdı ki...

Qarayazıda yayda da hərbi təlimlərdədə iştirak eləmişdi Ümid. Yayın yay, qışın qış dərdi var imiş... Yayın çırhacırında Qarayazıda bitən, biçilmədiyindən qurşağa qədər qalxan ot qupquru qurumuşdu. Atılan güllələrdən, mərmilərdən alışan Qarayazı lap cəhənnəmi xatırladırdı...

Bir dəfə də Ümidgilin vzvodunu Oktemberyana ezamiyyətə aparmışdılar. Sonradan məlum olmuşdu ki, bu yerin adı Sərdarabad imiş əslində. Ümid onu da öyrənmişdi ki, Sərdarabad XVIII əsrin ortalarında yaradılan İrəvan xanlığının 15 mahalından biridir. Bu qədim türk torpaqlarına da, İrəvan xanı tərəfindən tikilən tarixi Sərdarabad qalasına da ermənilər sahib çıxmışdılar. Özlərini elə aparırdılar ki, guya bu yerlərin ən qədim sakinləri də elə onlar olmuşlar...

Əsgərlər çadır tikib orda qalırdılar. Qalmaq deyəndə ki, gündüzlər xırda-xuruş işlərlə məşğul olur, fürsət tapıb ərik bağına qaçır, axşam bura gecələməyə gəlirdilər. Qatarda olan kimi üst-üstə çarpayılar quraşdırırdılar. Tezdən əsgərlər təzə, təmiz paltarlarını burda qoyur, köhnə paltar geyinib işləməyə gedirdilər.

Bir dəfə geri qayıdanda gördülər ki, Ümidin təzə paltarlarını çırpışdırıblar. Əsgərlik dostları dedilər ki, çox güman ki, bunu erməni dığaları eləyiblər. Hərəsi əlinə bir ağac götürüb ərik yemək üçün bağa gedən erməni uşaqlarının ardınca düşdülər. And içmişdilər ki, bunu kim eləyibsə, paltarı kim oğurlayıbsa, onu döyüb şil-küt eləyəcəklər...

Heç kəs oğurluğu boynuna almadı. Kim alardı ki? Əhməd dedi ki, axtarış aparacam, hansı çadırdan çıxsa, orda yaşayanları döyüb şil-küt eləyəcəyik.

Geri qayıdanda artıq qaranlıq düşmüşdü. Ona görə axtarışı səhərə qədər təxirə salmaq qərarına gəldilər. Elə yerlərinə təzəcə uzanmışdılar ki, kimsə çadırın qapısını açıb, içəri nəsə tullayıb qaçdı. Baxıb gördülər ki, bu, Ümidin təzə əsgərlik paltarı imiş. Hədə-hərbə öz işini görmüşdü. Dığalar səhər döyülməkdən canlarını qurtarmaq üçün paltarı gətirib çadıra atmışdılar... Bu dəfə oğurluqları baş tutmamışdı...

Ümid hərbi təlimdə həmişə seçilən olmuşdu. Atdığı güllələrin biri də hədəfdən yayınmırdı... O vaxt heç onun ağlına da gəlməzdi ki, nə vaxtsa bu naxələflərlə bir də üz-üzə gəlməli olacaq. Yatsa yuxusuna girməzdi ki, həmişə soyqırımdan əziyyət çəkən məzlum xalq kimi özlərini tanıtmağa çalışan, zarıyan bu qorxaqlar əllərinə imkan düşən kimi Xocalı faciəsini törədəcəklər.

Başlarına gələn müsibətlərdən sonra Ümid özünü heç bağışlamırdı. Bu qədər çətin sınaqlardan keçəsən, sərrast güllə atmağı öyrənəsən, öz ailəni, uşağını qoruya bilməyəsən... Bu çox böyük dərd idi Ümid üçün... O, özünü bağışlaya bilmirdi...

Ancaq qəlbinin dərinliklərində dərk eləyirdi ki, illər boyu hazırlaşan, təpədən dırnağa kimi sovet silahları ilə silahlanan, 366-cı alayın təlim keçmiş qəddar əsgərləri ilə həvirləşən cəlladların qarşısını nəinki əliyalın, heç avtomat silahlarla da almaq mümkün deyildi... Ancaq necə olur-olsun, kişi nə yolla olur-olsun öz ailəsini, onun şərəf və ləyaqətini qorumalıdır. Bu missiyanı özündən asılı olan, olmayan səbəblər ucbatından yerinə yetirilə bilməməsi ona daim vicdan əzabı verirdi...

İstəklə imkan arasındakı keçilməz uçurum onun ürəyində elə bir dərin xəcalət dənizi yaratmışdı ki, sözlə ifadə eləmək belə mümkün deyildi... Bir tərəfdən səni eşitmək istəyən yox idi, digər tərəfdən də heç açıb-ağardılası dərd də deyildi bu dərd...

Kişi heç kəsə gileylənmədən, ağlayıb-sızlamadan öz qisasını özü ala bilmirdisə, onun heç danışmağa dili, el arasına çıxmalı üzü də olmamalı idi...

IV fəsil

## QAÇMAQ MƏCBURİYYƏTİ

Uşaqlığı gözəl, axarlı-baxarlı bir kənddə keçmişdi çox ümidləri boşa çıxan Ümidin. Onların kəndi beş-on evdən ibarət balaca bir yaşayış məntəqəsi idi. Ortasından qıjıltı ilə axan bol sulu bir çay keçirdi. Bərgüşad çayı... Çörəklərini daşdan çıxarmağı bacaran zəhmətkeş kəndlilər təsərrüfatla, əkin-biçinlə, heyvandarlıqla, arıçılıqla məşğul olur, öz ruzilərini bərəkətli torpaqdan və balığı əskik olmayan çaydan çıxarırdılar. Böyüklər çox zaman deyirdilər ki, bizim kəndi bu bərəkətli torpaq və balığı heç zaman əskik olmayan çay xilas eləmişdi müharibənin aclığından, qıtlığından...

Bərgüşad taleyin bəxşişi idi bu yerlərin adamları üçün. Əslində elə insanları bir yerə toplayan da elə su idi. Susuz necə yaşamaq olardı ki? Su olmasa əkib-becərmək, bağ salmaq mümkün deyildi. Ruzisi torpaqdan çıxan kəndli elə yerdə məskən salırdı ki, burada yaşayış nisbətən asan olsun. Bu yerlər isə yaşamaq üçün ən ideal bir məkan idi...

Əsrlərdən bəri mənbəyini yaylaqlardan götürən çay axır, axır, özü ilə təmiz hava, ruzi-bərəkət gətirirdi... Çay boyu sıralanan kəndlər yaşıllığa bələnirdi Bərgüşadın suyunun hesabına. Axar-baxarlı kəndlər könül oxşayırdı...

Ancaq kəndli üçün bu axar-baxardan, gözəllikdən çox suyun təsərrüfat işlərinə gərəkliyi vacib idi... Dağ havasına da qətiyyən söz ola bilməzdi. Gül-çiçəkli yamaclar göz oxşayırdı... Arılar çəmənlərin üstündə uçur, çiçəklərin şirəsini bala çevirirdilər...

Cavanlar şəhərə getmək istəyəndə yaşlılar onları məzəmmət edir və deyirdilər ki, ağlı olan belə gözəl yerdən köçüb getməz. Burdan gözəl yer harda var ki? Meşə, çay, dağlar, biçənəklər, diş göynədən şəfalı bulaqlar... Bir də ən əsası budur ki, bu yerlər ulu babalarımızın, nənələrimizin bizə əmanətidi. Əmanətə isə xəyanət eləmək olmaz...

Çoxbilmiş cavanlar da söz altında qalmırdılar. Bir dəfə Ümid zarafatla atasına demişdi ki, ay kişi, buralar sən deyən kimi gözəl, yaxşı olsaydı, çay elə burda qalardı da, axıb dənizə getməzdi...

Ümidin atası oğluna haqq qazandırırdı əslində... Ancaq bu haqda heç nə demir, övladlarının gələcək taleyini düşünürdü bütün valideynlər kimi... O, çox zəhmətkeş kişi idi. Ruzisini torpaqdan çıxarmağı yaxşı bacarırdı. Ancaq həmişə oğluna deyirdi ki, ay bala, dərslərini yaxşı oxu, ali məktəbə qəbul ol. İndidən özünə bir gün-güzaran qur. Ermənilərin əhatəsində olan bu balaca kəndin gələcək taleyi məni bərk üşəndirir…

Ümid balaca olanda bu sözlərin mənasını o qədər də anlamırdı. Çünki nankor qonşularının iç üzündən o qədər də xəbəri yox idi. Öz kəndlərində məktəb olmadığından Ümid kənd uşaqları ilə birlikdə qonşu kənddəki məktəbə gedirdi. Özü də həvəslə. Hətta qışın qarında, sazağında, çovgununda, boranında belə dərsdən qalmırdı…

Buraların yazı da, yayı da, payızı da, qışı da gözəl idi... Ancaq kəndlini gözəllikdən çox rahatlıq maraqlandırırdı. İl boyu əkib-becərir, qışın çilləsindən salamat çıxmaq üçün yollar axtarırdı. İl boyu odun, taxıl, mer-meyvə, ot-alaf dərdi çəkməyə məhkum idi kəndli. Uşaqlar da ev işlərində böyüklərə kömək eləyirdilər. Odun yığmağa gedir, ot biçir,

həm özləri, həm də heyvanları üçün qış azuqəsi toplayırdılar. Beləcə günlər günləri, aylar ayları, illər illəri əvəz eləyirdi...

Yaşlılar qocalır, uşaqlar böyüyürdülər... Bu yerin gələcək sahiblərini dünyaya gətirmək də çox vacib məsələ idi...

Orta məktəbi yaxşı qiymətlərlə bitirən Ümid öz zəhmətsevərliyi ilə atasının ümidlərini doğrultdu. Ali məktəbə qəbul olundu. Bakı mühiti onun xarakterini möhkəmləndirdi, oğlanı kişiləşdirdi. İnsanlarla ünsiyyət onun dünya haqqında təsəvvürlərini əhəmiyyətli dərəcədə genişləndirdi...Təkcə düşdüyü mühit yox, oxuduğu kitablar da onu böyütdü, gələcək həyata hazırladı.

Bir dəfə tələbə yoldaşlarından biri hardansa bir kitab tapıb gətirmişdi yataqxanaya. Əyyub Abbasov adını birinci dəfə eşitsə də, kitabın adı onu maqnit kimi özünə çəkmişdi: "Zəngəzur". Elə buna görə də kitabı oxumağa başlamışdı. Ancaq bir neçə səhifə oxuyandan sonra Ümidə aydın olmuşdu ki, bu, gənclərin həvəslə, maraqla oxuduqları sevgi romanı deyil. Bu, ağrılar, əzablar romanı idi. Həmişə Zəngəzurda yaşasa da, söhbət əsnasında yaşlı adamlardan erməni vəhşiliyi haqqında eşitsə də, bu romandakı hadisələr Ümidi dəhşətə gətirmişdi...

Ayrı-ayrı sadə, günahsız Azərbaycan ailələrinin başına gətirilən müsibətlər, erməni qəddarlığı, uşaqların nizəyə keçirilmələri, qaynar samovarın müsəlmanların çılpaq kürəyinə bağlanması və onlarca buna bənzər faktlar Ümidi dəhşətə gətirdi...

O vaxt heç oğlanın ağlına da gəlməzdi ki, vaxt keçəcək, onun özü də, ailəsi də erməni təcavüzünə məruz qalacaq.

Sən demə, onu da “Zəngəzur” romanında başlarına müsibətlər gətirilən soydaşlarının taleyi gözləyirmiş...

Ümid günlərlə, həftələrlə oxuduğu bu romanın təsirindən qurtara bilməmişdi. Yalnız bu kitabı oxuyandan sonra atasının narahatçılığının əsas səbəblərini başa düşməyə başlamışdı…

Ali məktəbi bitirəndə sevib seçdiyi tələbə yoldaşı ilə, Mehriban adlı bir qızla ailə qurmuşdu. Bakıda qalıb işləmək, ev-eşik sahibi olmaq imkanı var idi. Ancaq onun ürəyi doğulduğu kəndə bağlı idi. Həm də qoca ata-ananı bir damın altında qoyub başqa yerdı yaşamağı özünə sığışdırmırdı Ümid.

Hələ ailə qurmamışdan Mehribana da bu haqda öz fikirlərini söyləmişdi. Qız da onunla razılaşmışdı. Demişdi ki, mən də buna razıyam. Özün bilirsən ki, mənim də uşaqlığım kənddə keçib. Bizim də kəndimiz axar-baxarlı bir yerdədir. Təpənin üstündə... Orada bir dərə var, adına Daşlı dərə deyirlər. Uşaq vaxtı həmişə bu dərədən keçib Qarağac bulağının yanındakı məktəbə gedərdik.

Ümid maraqla soruşmuşdu:

– O Daşlı dərədən yəqin ki, kiçik də olsa bir çay axır.

– Yox, yağış yağanda bu dərədən güclü sel axdığını görmüşəm, ancaq dərənin özündə çay yox idi...

– Bəs bulaq?

– Bulaq nə qədər istəsən. Əyin kəndinin aşağısında, dərənin lap başlanğıcında gözəl bir bulaq var idi. Adına Pəyhan bulağı deyirdilər. Dərə aşağı gedəndə, lap kəndimizin tuşunda olan hissədəki bulağın isə tayı-bərabəri yox idi. Həm suyu gur idi, həm də saf. Qışda suyu isti, yayda isə bumbuz olan bu bulaq bir eli, obanı başına

toplamışdı elə bil. Onun daşdan yonulmuş iri novu var idi. Bulaqdan bura tökülən sudan heyvanlar ləzzətlə içərdilər.

O vaxt bulağın suyunu kəndə aparmaq imkanı yox idi. Pəyhan bulağından kəndə su çəkilsə də, adamlar içmək üçün suyu gedib Qısraq bulağından gətirərdilər.

– O bulağın adına niyə Qısraq deyirmişlər görəsən?

– Doğrusu, mən də bilmirəm. Ancaq bir dəfə lüğətdə rast gəldim ki, "qısraq" madyan ata deyirmişlər...

– Maraqlıdır. Görəsən həmin bulağn atla nə əlaqəsi?

– Bilmirəm. Ancaq onu bilirəm ki, bulağın suyu çox gur idi. Onun aşağı hissəsində kənd adamları bostan əkirdilər. O qədər bol məhsul olurdu ki?

– Bəs bağ yox idi kəndinizdə?

– Var idi, necə yox idi? Bir məktəbin bağı, bir də dərədə kolxozun bağı. Məktəbin bağı Qarağac bulağının suyu hesabına yaşayırdı, kolxozun bağı isə Qısraq bulağının. Dərə aşağı getdikcə su gurlaşırdı. Bax həmin kolxoz bağının yanında çağlayan bol sulu bulağın adına Ağsu deyirdilər. Bu bulaqdan rayon mərkəzinə su çəkilmişdi... Ancaq ətrafda suyu rayona aparılan bulaqdan başqa o qədər bulaq var idi ki... Bol su dərə aşağı başlı-başına axırdı... Bu dərə, bizim Daşlı dərəmiz Bərguşada qədər uzanırdı...

Kəndimizin altından bir maşın yolu keçirdi. Nədənsə onun adına "Poçt yolu" deyirdilər. Yaşlılardan eşitmişdim ki, ipək yolu bu kənddən keçib gedirmiş... Qubadlıdan gələn, bizim kəndimizdən, Əyindən keçən bu yol Qafan-Gorus yoluna birləşir. Düzdü oraları görməmişəm, ancaq sənin sayəndə yəqin ki, gedib görəcəm gözəllik silsiləsinin davamı olan o yerləri də...

Gələcək həyat yoldaşının bu sözləri Ümidi lap duyğulandırmışdı. Həm də Mehriban atasının dəyər verdiyi, hörmət elədiyi bir ailənin qızı idi...

Təyinat zamanı onların göndərişini öz xahişləri ilə kəndə vermişdilər. İki cavan müəllimin ucqar bir məktəbdə işləmək qərarı direktoru çox duyğulandırmışdı…

Ümid imkan olanda həyat yoldaşını aparıb gəzdirirdi. Kəpəzin ətəyindəki Şamsız, Ağbulaq, Qurdqalağı kəndləri çox xoşuna gəlmişdi Mehribanın. Çayzəmi, Vəldüzü, Qızıldaş ayrı aləm idi...

Ümidgilin kəndi isə məşhur Şurnuxu, Eyvazlı kəndinə, Gürcülüyə, Məzrəyə, Novluya yaxın idi... Həm təbiətin, həm təzə qohum olan ailələrin bir-birinə uyğunluğu ailə həyatının gözəlliyini birə-on artırırdı...

Hər iş öz qaydasında gedirdi. Ümidlə Mehriban məktəbə qoşa gedir, qoşa da qayıdırdılar. Atası Salman kişi isə təsərrüfatla məşğul olur, öz əlinin bəhrəsi ilə dolanırdı. Evləri yol üstündə olduğundan gəlib keçənlər bu evdən mer-meyvə, yumurta, yağ, pendir alıb aparırdılar. Salman kişinin çəkdiyi tut arağının sorağı hər tərəfə yayılmışdı.

Bir dəfə Ümid müəllim məktəbdən evə gec qayıtdı. Mehribanın dərsi olmadığından həmin gün evdə qalmışdı. Həyətə yaxınlaşanda anasının və həyat yoldaşının baş-başa verib ağlamaları, atasının devikə-devikə həyətdə o başa, bu başa getməsi Ümidi lap qorxutdu. Yerə sərilən bir erməni ölmüş, o birisi isə zarıyırdı…

Salman kişi lap başını itirmişdi. Ümid dəhşət içində burda nə baş verdiyini soruşanda Mehriban handan-hana başlarına gələnləri danışdı:

– Bir neçə kefli erməni dığası maşını saxlayıb bizim həyətə gəldilər. Dedilər ki, araq almaq istəyirlər. Məni görəndə araq yadlarından çıxdı. Onların namərd baxışlarından ağlım heç bir şey kəsmədi. Atanı səslədim. O gəlib çıxanacan dığalar qəflətən üstümə cumdular, məni sürüyə-sürüyə maşına sarı aparmağa başladılar. Qışqıra-qışqıra atanı çağırıb haray qopardım:

– Salman əmi, Salman əmi! Qoyma bu alçaqlar məni aparsınlar. Qurban olum, tez elə, ay Salman əmi. Tüfəngi götürüb gəl, kəlləmə bir güllə çax! Bizi bu biabırçılıqdan qurtar.

Bir də gördüm ki, Salman əmi əlində qoşalülə evdən çıxdı. İki güllə ilə iki dığanı yerə sərdi. Biri öldü, o birsi yaralandı. O birilər maşına minib qaçdılar.

Ümidin ağlına nə gəldisə, qaçıb evin arxasındakı kölgəlikdə saxladığı Nivanı işə saldı. Sonra amiranə bir səslə qışqırdı:

– Tez olun, minin maşına! Ermənilər gəlməmiş kənddən çıxmaq, Qubadlıdakı qohumlarımıza pənah aparmaq lazımdır…

Həmin dəhşətli anları xatırlayan Ümid müəllimin ürəyindən qara qanlar gedirdi… Onda Sovet hökuməti hələ dağılmamışdı. Atasını həbs elədilər.

Vəkil ona öyrətmişdi ki, məhkəmədə “özümü, ailəmi müdafiə eləmişəm, tüfəng də mənim deyildi. Süpürləşib dığaların əlindən almaq istəyəndə açılıb onlara dəydi”, – desin.

Məhkəmə zalında atası Salman kişinin söylədiyi söz onun cəzasını artırsa da, ürəyinə mənəvi bir yüngüllük gətirmişdi Ümidin. Salman kişi vəkilin diktəsi ilə həmin sözləri

deməmişdi. Əksinə, söyləmişdi ki, nə təsadüfi tüfəng açılması? Mən o yaramazları elə dəqiq nişan aldım ki, birinin köksünü al qana, o birinin beynini qatığa döndərdim… Hələ qaçmasaydılar, o biriləri də güllələyəcəkdim…

El elə sığışar, ev evə sığışmaz deyiblər. Ümidgil atasının həbsindən sonra Xocalıya köçmək qərarlna gəldilər… Burda onların həmdərdləri daha çox idi… Həm də tənhalıqdan, köməksizlikdən gözləri qorxan adamlar daha əmin-arxayın yerə sığınmaq, yurdlarına bənzər yurdda məskunlaşmaq qərarına gəlmişdilər…

Kəndləri ilə müqayisədə Xocalı çox böyük idi. Həm evləri çox idi, həm əhalisi… Adamları da çox mehriban, qayğıkeş idilər. Burada hava limanının olması da onları əmin-arxayın salan səbəblərdən idi… Hələ Əlif Hacıyev kimi qəhrəman oğullar dayanırdı Xocalının keşiyində…

Elin köməyi ilə özünə axar-baxarlı yerdə təzə ev tikdirdi Ümid. Həyat yavaş-yavaş öz axarına düşməyə başladı. Övladı dünyaya gəldi… Ancaq narahatçılıq davam eləməkdə idi… Atalar demişkən: "Sən saydığını say, gör fələk nələr sayır"… Balaca bir dağ kəndində öz ailəsini, valideynlərini azğınların əlindən qurtaran Ümid burada ailəsini qoruya bilmədi, başına müsibətlər gətirilən Xocalı sakinlərindən birinə çevrildi…

Budur dəhşətli, danılmaz faktlar. Erməni cinayətinin tarixdən pozmaq mümkün olmayan izləri: *"Xocalıda 613 nəfər soyuqqanlılıqla qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70 nəfəri isə yaşlılardır.8 ailə tamamilə məhv edilib. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Yaralananlar - 487 nəfərdir, onlardan*

*76-sı uşaqdır. Əsir götürülmüşlər – 1275, itkin düşənlər - 150 nəfərdir.”*

*“Xocalıya qədər azərbaycanlılar fikirləşirdilər ki, bizimlə zarafat etmək mümkündür; onlar düşünürdülər ki, ermənilər dinc əhaliyə toxunmazlar. Biz bu stereotipi dağıda bildik.” –* deyən alçaq erməni lideri gör nə ilə öyünürdü? Bu yaramazların insanlıqdan danışmağa haqqı var idimi görəsən? Ən dəhşətlisi isə o idi ki, bu hərəkət nəinki qınanılır, hətta ona dəstək verilirdi.

Bu dəhşətli hadisələri gözləri ilə görən polkovnik Vladimir Savelyevin göndərdiyi dəhşətli faktları da görməzliyə vurmuşdular erməni terrorunun havadarları. BMT, Avropa Şurası da xəbərdar idi bu faktlardan… Ədaləti qorumalı olan təşkilatlar isə öz sükutları ilə beynəlxalq cinayətlərin daha böyük vüsətlə inkişafına rəvac verirdilər əslində.

Zabit həyəcanla gördüklərini belə qələmə almışdı: *”Bütün bu olanlar haqqında mən yazmaya bilməzdim. Hər şey mənim gözlərimin önündə baş verdi. Körpələrin, qadınların, hamilə gəlinlərin güllələnmiş cəsədlərini unuda bilmirəm. Azərbaycanlılar məni bagışlasınlar ki, bu insanlıqdan kənar və qanlı qırgında mən onlara heç cür yardım edə bilmədim. Tək bacardıgım bu oldu ki, Kremlə, Müdafiə Nazirliyinə və həmçinin Baş Kəşfiyyat İdarəsinin generallarına 19 səhifəlik məxfi arayışı göndərə bildim. Qoy rus zabitinin şərəfinin necə ləkələndiyini oxuyub bilsinlər...”*

Xocalı hadisələrinin dəhşətlərini yaşayan Ümid bu faktları öyrəndikcə, məsələnin əsl mahiyyətini başa düşürdü. Ancaq başa düşməyəcəyi bir şey var idi ki, adını insan qoyan məxluq bu cinayətləri eləməyə necə qadir olmuşdu?

Körpələri, qadınları, qocaları, silahsız insanları amansız-casına qətlə yetirmək insana yaraşan iş idimi? Hələ bu cəhənnəm, hadisələrin inkişafından xəbərdar olan bey-nəlxalq ictimaiyyətin sükutu isə qətiyyən başa düşülən deyildi…

Oxuduqları ilə öz başına gətirilənləri müqayisə edən Ümid məsələnin mahiyyətini anladıqca, böyük ölkələrin ilk nəzərdə humanist görünən siyasətinin alt qatında böyük cinayətlərinin gizləndiyini anlayır, "Parçala, hökm sür" siyasətinin mahiyyətini daha dərindən başa düşürdü. Onun ailəsi kimi xalqı da tənha, kimsəsiz qalmışdı canavar xislətli yırtıcıların əhatəsində… Kimsədən haray yox idi… Kimsə onların dərdinə şərik olmaq istəmirdi…

Kimsəsizlik nə böyük dərd imiş ilahi?! Vay o gündən ki, insanın özü yox, onun xalqı kimsəsiz ola…

Taledən, qədərdən qaçmaq olmurmuş… Həyatın aman-sız sınaqları, yaşamaq uğrunda mübarizə davam eləyirdi. Yaşamaq təkcə yaşamaq üçün yox, intiqam almaq üçün lazım idi ona…

V fəsil

## ÖMRÜN YOL AYRICINDA

Ümid Bakıda, Pedaqoji Universitetdə sevib-seçdiyi, ailə qurduğu, birlikdə öz dədə-baba torpağına qayıtdıgi insanı – uşaqlarının anası Mehribanı qətiyyən unuda bilmirdi. Ömrünün ən yaxşı, ən işıqlı günləri bu qadının adı ilə bağlı idi. Çox yaxşı gəlin idi Mehriban... Təkcə qaynatasının, qaynanasının yox, qohumlarının da dərin hörmətini qazanmışdı... Adı kimi özü də Mehriban idi... Təkcə işlədiyi kənd məktəbinin yox, bütün mahalın sayılıb-seçilən müəllimlərindən idi... O, həyat yoldaşının, ailəsinin pərvanəsi idi... Lakin tale bu ismətli gəlinə sevgi oduna yanmağı da çox gördü...

Azğın, qəddar düşmənlər onun gözləri qarşısında 13 yaşlı oğlunun dərisini diri-diri soydular... Uşaq qışqıranda anasının döşünü kəsib onun ağzına basdılar ki, qoy səsi çıxmasın... Lakin Mehribanı bütün Azərbaycan qadınları kimi namusunun ləkələnməyindən başqa heç nədən qorxmurdu... Kəsilən döşünün ağrısına da mərdliklə dözürdü... Ancaq şarhaşarla axan qanın son damlası bəmbəyaz qarın üstünə düşəndə, o, əbədi olaraq gözlərini yummuşdu...

Ölən ölüb canını qurtarır... Vay qalanın gününə... Ümid gündə yüz dəfə ölüb-dirilir, intiqam almaq hissi ilə yaşayırdı... Ancaq o, təkbaşına dişinə qədər silahlanmş düşmənə neyləyə bilərdi?...

Özümüzünkülər isə tez-tez bu sözləri işlədir, sağ qalanlara təskinlik verir, məsələni sülhlə həll etmək vacibdir, –

deyir, “lazım gəlsə” düşmənə qan udduracaqlarını söyləyirdilər... Ancaq günlər həftələrə, həftələr aylara, aylar illərə çevrilir, “Lazım” isə gəlib çıxmırdı ki, çıxmırdı...

Bir gün Ümid yuxusunda öz həyat yoldaşı Mehribanı gördü. Yuxuda belə öz mehribanlığını itirməyən qadın Ümidə and içdirdi ki, evlənsin. Mehribanın röyada dediyi sözlər çox təsiredici idi. Onu həyəcansız dinləmək mümkün deyildi.

– Kim nə deyir desin, ay Ümid. Neçə ki, canın suludu evlən, nəslimizin kökünün kəsilməsinə imkan vermə! Yoxsa haqqımı sənə halal eləmərəm...

Ümid yuxudan ayılanda yorğan-döşəyi bütün su içində idi... Qəlbindən qara qanlar gedə-gedə öz-özünə düşündü ki, bu adi tər deyil, xəcalət təridi...

Uzun müddət nə eləyəcəyini bilmədi... Dəli olmaq dərəcəsinə gəlmişdi... Öz-özünə deyirdi:

– Gör camaat nə haydadı, sən nə haydasan?!

Ancaq qəlbinin dərinliklərində onu da dərk eləyirdi ki, göz yaşıyla nəyisə həll eləmək olmaz. Göz yaşının gücü olsaydı, yəqin ki, qəbristanda bir nəfər də ölü qalmazdı...

***

Bəzən hadisələrin içində olanda adam ancaq öz ətrafını görür, dərdin böyüklüyünü, qloballığını o qədər də dərk eləmir. Ümid ağrıların, əzabların, təhqirlərin ən qaynar mərkəzində, cəhənnəmin orta göbəyində idi. Ancaq o zaman Ümid bilmirdi ki, bu müsibətlər təkcə bir nəfərin müsibəti deyil. Başı özünə qarışan insanın çox zaman özgələrin faciəsindən xəbəri olmur... Ümid də belə idi...

Qaçqınlıq, köçkünlük həyatı Ümidə başa saldı ki, ellə gələn qara gün də toy-bayramdır... Əlbəttə, burada əsl toy-bayramdan söhbət getmirdi. Dərd ortaqlığı, dərd birliyi insanları sınmağa qoymur, mübarizəyə səsləyirdi...

Sonralar televiziyada Xocalı faciəsinin tükürpədici mənzərələrini görən Ümid faciənin miqyasının nə qədər böyük olduğunu anlayırdı... Mətbuatda tanıdığı, tanımadığı insanların başına gətirilən müsibətlər haqqında yazılan saysız-hesabsız yazılar onu dəhşətə gətirirdi... Qəddar, amansız, zalım, hiyləgər düşmənlərin əsas istəyi türklərin kökünü yer üzündən kəsmək idi. Onlar müəyyən mənada bu arzularına çatmışdılar da... Neçə ailənin bütün üzvünü məhv etmək nə demək idi bəs?

Ümid isə bir ailənin, bir nəslin odlardan, alovlardan çıxan son nümayəndəsi idi... Zaman da, yaş da öz işində idi... Həyat yoldaşı Mehribanın yuxuda ona söylədikləri Ümidi təslimçilikdən, həyatı ilə barışmaqdan vaz keçməyə səsləyirdi...

Ailə qurmaq, nəslin yeni nümayəndələrini dünyaya gətirmək olduqca vacib bir məsələ idi. Heç olmasa Ümidin özündən başqa bircə qardaşı, ya oğlu sağ qalsaydı, bu başqa məsələ. İndi isə ata ocağını kor qoymamaq, şəcərəni davam etdirmək missiyası onun boynuna düşürdü... Nəslin tükənməsi fikri onu əməlli-başlı üşəndirir, qorxudurdu.

Ancaq bu fəlakətdən yaxa qurtarmaq asan idimi?... Bu yükün altına girmək də hər oğulun işi deyildi. Başqa bir çıxış yolu isə yox idi... Ya əli qoynunda dayanıb bu amansız həyatla barışmaq, taleyin hökmünə boyun əymək, ya da mübarizəni davam etdirmək lazım idi...

Ümid ikinci yolu seçmək zorunda qaldı istər-istəməz...

***

Taleyin hökmü ilə Ümidlə Şəlalə ailə qurdular. Səssiz-səmirsiz... Utana-utana kəbin kəsdirdilər. Utana-utana öz münasibətlərini rəsmiləşdirdilər... Toyları da çox səssiz-səmirsiz oldu... Ancaq Ümid günahkar-günahkar, xoflu-xoflu düşünürdü ki, bu toyun səsi o dünyada Mehribanın qulağına çatacaq, onu silkim-silkim silkələyəcək...

Əvvəlcə çadır şəhərciyində yaşadılar. Sonra kəndliləri, həmdərdləri yaşayan yataqxananın bir küncündə onlara da guşə tapıldı...

İşə girdilər, qazancları ilə özlərini dolandırdılar, kimsəyə möhtac olmadılar... Divarları sökülüb-tökülən yataqxana elə bil onların daxili dünyalarının aynası idi...

Baş-başa verib yaşadılar, bir-birlərinə dayaq oldular... Günlər, aylar keçdikcə bir-birlərinə isinişdilər... Ancaq illərin, ayların soyuğu elə bil onların iliyinə keçmişdi...

Bəlkə də Xocalı faciəsinin ağrıları onları xoşbəxt olmağa qoymurdu... Bir tərəfdən öz gözləri ilə gördükləri, bir tərəfdən ekranda tamaşa elədikləri, mətbuatda oxuduqları... Belə görüntülərə baxan, dəhşətli yazıları oxuyan insan necə xoşbəxt ola bilərdi axı?!

Xocalı qara-qura, qarmaqarışıq bir yuxu idi elə bil. Onu yatanda da, oyaq olanda da görürdü Ümid... Yuxu ilə ayıqlığın sərhədini pozmuşdu gözüylə gördüyü dəhşətli mənzərələr...

İnsan tənha, kimsəsiz, köməksiz şərin pəncələri altında inildəyəndə, harayının kimsəyə çatmadığını, haqq səsinin heç harda eşidilmədiyini biləndə elə özünə də, insanlığa da nifrət eləyir bəzən... Bu, tamamilə başa düşüləndir. Bu haray, bu hayqırtı haqsızlığa qarşı üsyandır... Bu üsyanın

bəzən asilik dərəcəsinə yüksəlməsi də başa düşüləndir... Neyləsin bu yazıq insan? Kimə inansın, kimə güvənsin?

Ən dəhşətlisi bu idi ki, həmişə haqdan, ədalətdən danışan "sivil" dünyanın sakinləri eşitdiklərini eşitməzliyə vurur, gördüklərinə göz yumurdular. Hələ bu harasıymış, elədikləri cinayətləri öz zavallı xalqlarının başına gətirilən müsibətlər kimi təqdim eləməyə çalşırdı həyasız cinayətkarlar. Kütləvi şəkildə öldürülən, məhv edilən, cəsədləri tanınmaz hala salınan günahsız qocaların, qadınların, köməksiz uşaqların şəkillərini yayır və belə təqdim etməyə çalışırdılar ki, baxın, türklər vəhşidirlər, bizim xalqın başına bu oyunu gətiriblər, onlarla bir yerdə yaşamaq mümkün deyil...

Ancaq "yalançının yaddaşı olmaz", – deyirlər. Özləri öz etirafları ilə özlərini ifşa eləyirdilər. Həyasızcasına elədikləri cinayətlərlə öyünənlərin, utanmadan, çəkinmədən, lovğa-lovğa bunu bəyan edənlərin sözləri, etirafları törətdikləri cinayətlərdən də qat-qat ağır idi. Bu cinayətlərə göz yumanlar, şərin dəyirmanına su tökənlər əslində elə özləri də cinayətkarlar sırasında idilər.

Ümid bu yazını oxuyanda dəhşətə gəlirdi, haqqa, ədalətə, ləyaqətli insanlara olan ümidi alt-üst olurdu.

Qarabağ hadisələrinin iştirakçışı, ermənilərin ən çox sevdiyi, milli nifaq toxumu səpənlərdən biri, yazıçı-şair Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırım haqqında belə yazırdı: *"Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına*

*soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq"...*

Daha bir erməni müəllif, hazırda Livanda məskunlaşmış yazıçı-jurnalist David Xerdiyan Xocalıda ermənilərin Azərbaycan türklərinin başına gətirdikləri müsibətləri "Xaç uğrunda" kitabında fəxrlə xatırlayır. Həmin kitabının 19-76-cı səhifələrində Xocalı soyqırımı haqqında belə yazılır:

*"Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən polkovnik-leytnant Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Və mən beləcə 1200 meyidin üstündən keçdim".*

*"Martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 km-liyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə*

*mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi"*...

Bu da türkləri "mədəniyyətsiz", "köçəri", "qaniçən", "cəllad", "quldur" adlandıran erməni "ziyalı"larının etirafları... Hələ gör ziyalısı belə olanın cahili, qulduru, oğrusu necə imiş? Haqq-ədalətdən, insan hüquqlarından ağız dolusu danışanların bu dəhşətli faktlara göz yumması adamı odsuz-alovsuz yandırırdı. Bu riyakarlıq cinayətkara haqq qazandırmaq istəyi idi əslində...

Ancaq nə yaxşı ki, tarix boyu haqqın tərəfini saxlayan insanlar da var imiş. Onlar həqiqəti ört-basdır eləməyi də cinayət hesab etmişlər...

Rus diplomatı general Mayevskinin hələ ötən əsrin əvvəllərində "Ermənilərin törətdiyi kütləvi qırğınlar" kitabında verilən bu fikirlər kimin kimliyini çox aydınca göstərmirmi? Diplomat yazırdı: ***"****Ermənilərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən olubmu? Onların azadlıq uğrundakı mübarizlərinin adları harada həkk edilib? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar."*

Hamilə qadının qarnını cırıb ordan türk övladını çıxaran, ananın gözləri qabağında körpəni quduz köpəklərə yem eləyənlərə necə insan deyəsən? Ana bətnindən çıxarılıb itlərin qabağına atılan körpənin yerinə pişik balalarını qoyub, qadının qarnını tikən cinayətkara haqq qazandırmaq insanlığa ləkə deyilmi? Bəşər övladları necə göz yumur bu dəhşətli faciələrə?

Misli görünməmiş cinayətlər törədən bu vicdansızlarn, qaniçənlərin, cəlladların elədiklərinə göz yumanların gözü tökülməli deyilmi? Günahsız insanların ah-naləsini eşitmə-

yənlərin qulaqları dibindən kəsilməli deyilmi? Cəllad dəyirmanına su tökənlər, canilərə havadarlıq eləyənlər qurtara biləcəklərmi haqqın cəzasından?

Ancaq təssüf ki, cinayətkar "qalibi" mühakimə eləyən olmur nədənsə. Elə susurlar ki, guya günah zalımlarda yox, məzlumlarda imiş... Çox-çox əvvəllər səpilmiş bu milli münaqişə toxumu zaman-zaman öz "bəhrələrini" vermiş, "parçala, hökm sür" siyasətinin rahatlıqla davamına zəmin yaratmışdır. Cinayətlər silsiləsinin bir-birini əvəz eləməsi də təsadüfi olmamışdır heç zaman...

Əslində Xocalı faciəsi 20 Yanvar faciəsinin davamı idi... Bakıda əliyalın insanlara tanklarla divan tutan cəlladlar indi də Xocalıda at oynadırdılar... Cinayətin dozasını artırmaqla iblisliyin pik nöqtəsinə qalxmışdı onlar... Ölənlər ölüb canlarını qurtarmışdılar, sağ qalıb istər fiziki, istər mənəvi işgəncələrə məruz qalanlar isə gündə yüz dəfə ölüb-dirılirdilər... Namusu, ləyaqəti namussuzlar tərəfindən tapdalanan doğma insanların dərdi sağ qalanları havalandırmışdı... Onların havası çatmırdı... Ən dəhşətlisi isə bu idi ki, insanlıqdan, azadlıqdan, insan hüquqlarının toxunulmazlığından dəm vuranlar əzilən Xeyirə yox, cinayətlər törədən Şərə qahmar çıxır, ona havadarlıq eləyirdilər həmişə olduğu kimi...

Həmin iyrənc proses indi də başqa bir görkəmdə davam eləyir... Şəhərləri, kəndləri talan eləyənlər, evləri dağıdanlara, qəbir daşlarını belə oğurlayanlara, gor eşib sümükləri sürmə olmuş ölülərin ağzındakı qızıl dişi çıxaranlara indi də gözün üstə qaşın var deyən yoxdu bu yer üzündə... Budurmu insanlıq? Budurmu "sivil" dünyanın insanlıq meyarları? Budurmu "haqq-ədalət" tələb eləyənlər? Sözlə

əməl arasındakı uçurum deyilmi bəşəriyyəti canavar sürüsünə döndərən?

Təəssüf ki, ürəyi genişliyimiz, qonaqpərvərliyimiz, səxavətimiz bizə çox baha başa gəlib həmişə. Bu və buna bənzər saysız-hesabsız faktları nəzərə almamışıq, erməni dost-qardaş sanmışıq, torpaqlarımızda onlara sığınacaq vermişik. İrəvanda, Göyçədə, Zəngəzurda, Qərbi Azərbaycanın bütün bölgələrində, ən səfalı yerlərimizdə insan sandığımız bu zatıqırıqlara yaşamaq imkanı verdik. Onlar isə ürəyi yumşaqlığımızdan, səxavətimizdən, qonaqpərvərliyimizdən, sülhsevərliyimizdən, unutqanlığımızdan istifadə edib, yavaş-yavaş bizi öz doğma evimizdən, ulu əcdadlarımızın, babalarımızın, nənələrimizin qəbirləri olan qədim torpaqlarımızdan sıxışdırıb çıxardılar. Tarixi şəraitə uygun tez-tez cildlərini dəyişən bu buqələmunlar üzdə özlərini dost göstərsələr də, zaman-zaman ayağımızın altını qazdılar. Musiqimizi, xalq mahnılarımzı, folklorumuzu, milli mətbəximizi, incəsənətimizi oğurladılar, öz adlarına çıxmaq cəhdi göstərdilər. Tarixi abidələrimizə saxta elementlər vurub onları da erməniləşdirmək istədilər, özlərini qədim, sivil xalq kimi bəşəriyyətə sırımaq istədilər. Yalanlar malikanəsi qurub içini saxta tarix elementləri ilə bəzəməkdən yorulmadılar. Bacardıqları hər şeyi, hər şeyi dəyişdilər, bircə özlərini, erməni xislətlərini, nankorluqlarını, zalımlıqlarını, qaniçənliklərini dəyişmək istəmədilər ki, istəmədilər...

Hegel demişkən, "Hər şey axdı, hər şey dəyişdi", bircə erməni xisləti dəyişmədi ki, dəyişmədi... Bakı, Şamaxı, Quba soyqırımını törətdilər... Qana həris gözləri doymadı ki, doymadı. Əllərinə fürsət düşən kimi XX əsrin ən böyük

faciələrindən birini, Xocalı faciəsini törətdilər, havadarlarının hesabına sudan quru çıxmağı da bacardılar...

Ümid bu haqda çox düşünür, çox daşınırdı, ancaq vəziyyətdən çıxış yolu tapa bilmirdi ki, bilmirdi... Onu da dərk eləyirdi ki, bu faciələrə son qoymaq üçün xalqın birliyi olduqca vacibdir. Ancaq Ümid ürək ağrısıyla dərk eləyirdi ki, qara bazar Qarabağ ağrılarını bir dəyirman kimi üyütməkdədir gecə-gündüz. Hərənin başı özünə qarışıb. Biri dağa çəpər çəkir, biri bulağa... Azadlıqsevərlərin hasar çəkmək azarı xalqı bir-birindən uzaqlaşdırırdı elə bil. Torpaq bir olanda, meşə bir olanda adamlar da birlikdə idilər. Ucaldılan hasarlar insanları da bir-birindən ayrı salırdı elə bil...

Ümidlə Şəlalə də baş-başa verib öz həyatlarını yaşayırdılar. Onların da eldən ayrı fərdi dünyası yaranırdı bu "mənəm-mənəmlik, mənim mənimlik" ab-havasında... Ümid dərk eləyirdi ki, böyük dərdi böyük qüvvə ilə məhv eləmək olar. Ancaq adamlar elə bil birləşməkdən çox ayrılmağa meyilli idilər...

Ümidin gözləri önündən gördüyü ağrılı səhnələr getmirdi ki, getmirdi... Ağrılı xatirələr onu ağrısız yaşamağa qoymurdu... Soyqırımının bir-birini əvəz edən dəhşətli fraqmentləri göz önündə canlanırdı axşam-səhər...

Atasını-anasını itirən 25 uşaq… Ana ölüb, uşaq onun sinəsində qalıb, döşünü əmməkdə davam eləyir… Lap buz heykəldə olduğu kimi… İstəyirlər ki, uşağı da dəfn eləsinlər…

...Güllələrə, işıqlı gecələrə öyrəşmişdik. Bilmirdik ki, gecə görünən bu silah işıqları bizi əbədi zülmətə qərq etmək üçün yanırmış…

Bu mühit, günahsız şəhidlərin kimsənin qulağıana çatmayan imdad səsləri yaşamağa, nəfəs almağa, sevməyə, sevilməyə qoymurdu onları... Bu imdad səslərini dünyanın kor qulaqları eşitmirdi elə bil...

***

İndi oxu, oxu görüm necə oxuyursan bu faciələri əks etdirən şahidlərin yazılarını?! İndi dinlə, dinlə görüm günahsız körpələrin, qocaların, namusu ləkələnən qadınların ah-harayını?!

Deyirlər ki, zaman yaraları sağaldır. Ancaq insanların ürəyinə vurulan yaraları heç "zamanın məlhəmləri" belə sağaltmaq, unutdurmaq gücündə deyildi... Çünki bu yaralar elə dərin, elə dərin, elə dərin idi ki, onun içini dünyanın bütün ağrıkəsici məlhəmləri ilə belə doldurmaq mümkün deyildi...

Ancaq başqa yol var idimi? Bu əzablı ömürlə, həyatla barışmaq, heç bir müqavimət göstərmədən zalımlara təslim omaq yaraşarmı insana? Nifrət elədiyin şərin cinayətləri ilə barışmaq elə ona havadar çıxmaq kimi bir şey idi...

Ümid bunları yaxşıca anlayırdı. Dərd onun ürəyini param-parça eləsə də, zamanın amansız zərbələri onu müdrikləşdirmişdi, mübarizə əzmini artırmışdı... O, inanırdı, inanırdı ki, haqq nə vaxtsa haqsızlığa qalib gələcək. "Buynuzlu qoçun qisası buynuzsuz qoçda qalmaz" – deyən atalar səhv eləyə bilməzdi... Doğrudur, bu mübarizə yolu çətindir, ağrılıdır, məşəqqətlidir, ancaq şərəfli bir yoldur... Bu yoldan dönmək bəşər övladına yaraşan iş deyil...

VI fəsil

## TALEYİN YENİ SINAQLARI VƏ İZTİRABLAR

Şəlalə ilə Ümid ailə qurmuşdular. Onlar evlənəndə gözlərini sevgi kor eləyən, başlarını sevgi dumanlandıran yeniyetmələr deyildilər. İkisi də həyatın amansız zərbələrini dadmışdı. Onları tale oxşarlığı yaxınlaşdırmışdı bir-birinə. Tənha yaşamağın dəhşətlərini ikisi də gözəl anlayırdı... Elə tale də onları görüşdürmüşdü...

Hərdən Şəlalə sevdiyi şairlərdən birinin "Biz öz taleyimizin ağası deyilik ha" şeirinin misralarını xatırlayırdı və ürəyində həmin fikirlərlə razılaşırdı. Doğrudan da, insan sabah başına nə gələcəyini bilmir. Doğrudan da, insan öz taleyinin ağası deyil...

Türklər "qədər" deyirlər, biz alın yazısı... Doğrudan da, tale, qismət onları görüşdürmüşdü... Özü də ən çətin, ən ağrılı məqamlarda. Şəraitə, vəziyyətə uyğun insani ünsiyyət onları yavaş-yavaş bir-birlərinə yaxınlaşdırmışdı... Nə qədər tərəddüdlər eləsələr də, elin qınağından çəkinsələr belə, ürəkdən çox ağılın hökmü ilə bir-biri ilə ailə qurmaq qərarına gəlmişdilər. Ancaq buna sevgisiz ailə də demək olmazdı...

Bu qadın Ümiddən fərqli olaraq atasını, anasını xatırlamırdı. Valideynləri dünyasını dəyişəndən sonra onu qonşular aparıb uşaq evinə vermişdilər. Şəlalə məhz belə bir mühitdə böyümüşdü. Yeməyi də, içməyi də, geyimi də normal idi. Ancaq uşaq evində qalan bütün uşaqlar kimi onun da gözləri yol çəkirdi... O da valideynlərinin yoxluğunu bilə-bilə yenə də ümidlə, inamla onların gələcəyi günü göz-

ləyirdi... Necə deyərlər, gözləməkdən gözlərinin kökü saralmışdı... Bütün yeniyetmə qızlar kimi o da nağılların təsiri ilə öz ağ atlı oğlanını gözləyirdi... Və bu ağ atlı oğlan gəldi də... Ancaq gəldiyi kimi də getdi... Onu ağ ölüm Şəlalənin əlindən aldı...

Ailə qurduğu insan Şəlalənin ümidlərini doğrultmadı... Bir yandan pulsuzluq, imkansızlıq, bir yandan da gənc həyat yoldaşının qumara hərisliyi, narkomana çevrilməsi Şəlalənin xoşbəxtlik gözləntilərini yarımçıq qırdı...

Həyat yoldaşı ağ ölümün qurbanı olandan sonra Şəlalə özündə güc tapıb ayağa qalxdı. Öz-özünə həmişə düşünürdü ki, tək ağacı təklik qol-budaq atmağa, torpağın daha dərin qatlarına zoğ verməyə məcbur edir...

Şəlalə də anladı ki, yaşamaq üçün əyilməmək, mübarizə aparmaq lazımdır... Elə də elədi... Qarabağda xəstəxanaların birində tibb bacısı işləməyə başladı... Və elə bu vaxt tale Xocalı cəhənnəmini gözləri ilə görən bir insanla onu tanış elədi...

Mərhəmət hissi, insanlıq, ləyaqət, səmimiyyət, ünsiyyət onları bir-birinə bağlayan gözəgörünməz alın yazısıymış sən demə... Qismət onları dərd ortağı eləmişdi...

Ümidin saflığı, təmizliyi, dürüstlüyü Şəlalənin çox xoşuna gəlirdi... Ürəyindən keçirdi ki, kaş Allah mənə güc verəydi, Ümidin ümidlərini sınmağa, amansız talelə barışmağa qoymayaydım...

Şəlalənin bu qayğıkeşliyi, səmimiyyəti Ümidin qəlbinin dərinliklərində olan ümid qığılcımlarını közərdirdi elə bil... İllər isə öz işindəydi...

Evliliklərindən neçə il ötsə də, onların övladı olmurdu... Ümid isə qəlbinin dərinliklərində böyük ümidlə adı yer

üzündən silinməkdə olan bir nəslin davamçısının yolunu gözləyirdi...

Şəlalə həssas qadın idi. Ərinin ürəyindən keçənləri çox yaxşı anlayırdı... Üstəlik özünün də ürəyində ana olmaq istəyi var idi... Ancaq istək ayrı, reallıq ayrı... Hərdən öz-özünə düşünürdü ki, bəxtim olsaydı, heç valideyn nəvazişindən uzaqda yaşamazdım. Bəxtim olsaydı, ağ atlı oğlan sandığım oğlanı ağ ölüm əlimdən almazdı...

Ümidlə çox mehriban dolansalar da, el demişkən, “can deyib can eşitsələr” də bu zahiri mehribançılığın alt qatında üzücü bir nigarançılıq var idi...Düzdü, bu haqda heç vaxt söhbət eləmirdilər, ancaq ikisi bir-birini sözsüz də başa düşürdü...

Bu ailədə zahirən hər şey var idi, ancaq təkcə yaralara, ağrılara məlhəm ola biləcək uşaq nəfəsi çatışmırdı... Onların ikisi də həsrətlə ailənin ab-havasını dəyişə biləcək o sehrli varlığın gəlişini gözləyirdilər... O isə gəlmək bilmirdi ki, bilmirdi... Hərəsi bir cür sınağa çəkilən kişi və qadın həyatın yeni sınağı qarşısında idilər... Ancaq bu sınaq könül sınıqlığına məlhəm olmaqdan çox sındırmaqla hədələyirdi onları...

İkisinin də xəyalından “Koroğlu” dastanında verilən “Necə baxım ev-eşiyə, Yaralı könlüm üşüyə” misraları ilə başlayan gəraylı düşürdü ayrı-ayrılıqda... İkisinin də yaralı könlü üşüyürdü... Ancaq heç biri bu haqda söhbət açmaq istəmirdi... Ümid Şəlalənin, Şəlalə isə Ümidin necə əzab çəkdiyini bilirdi... Diaqnoz bəlli olsa da, bu üşüyən ürəkləri isitmək üçün məlhəm tapmaq müşkül məsələ idi...

Ümidin gözləri yol çəkir, Şəlalənin gözləri isə tez-tez bahar buludu kimi dolub boşalırdı... Yaz yağışı quru çöllərə

yeni həyat verirdi. Şəlalənin gözlərindən ələnən leysan isə olan-qalan ümidləri də yuyub aparırdı...Bu əzablı günlərin, sonsuz həsrətin ömrü isə uzanmaqda idi...

Nəhayət, bir gün Şəlalə dözə bilmədi, ürəyindən keçənləri hıçqıra-hıçqıra həyat yoldaşına söylədi:

– Ümid, bu haqda səninlə çoxdan danışmaq istəyirdim, amma cəsarətim çatmırdı. Ancaq gördüm ki, vaxt bizim xeyirimizə işləmir... İkimiz də yaşlanırıq. Bu, istər-istəməz olan qalan şansımızın da günbəgün azalmasına zəmin yaradır. Biz istəsək də, istəməsək də belədir. Mən sənin arzularını reallaşdıra bilmədim, bağışla məni. Yaxşısı budur ayrılaq, get başqasıyla ailə qur... Onsuz da sənə sevgidən, qadından çox arzularını reallaşdıra bilən insan lazımdı... Sən mütləq nəslini davam etdirməlisən... Bunun üçün isə bircə yol var. Mütləq səni yenidən ata edə biləcək bir qadınla evlənməlisən...

Qadının gözlərindən yaş sel kimi axırdı... Kişi isə ağlaya da bilmirdi... Ailəsinin başına gətirilən müsibətlər onun gözlərində yaş qoymamışdı qala...

Ümid həyat yoldaşını ovundurmaq üçün söz tapa bilmədi. İkisi də bir-birinə sarılıb ürəkləri boşalana qədər ağladılar...

...Lakin deyəsən həsrətdən göyüm-göyüm göynəyən ürəyin heç boşalmaqla işi yox idi... Bir az keçən kimi kədər buludları yenidən onların üstünü alır, bu talesiz insanlara rahatlıq vermirdi...

***

Aradan bir-neçə gün keçdi. Uzun illərin əzab-əziyyətindən, göynərtisindən sonra Ümid Şəlaləni ovundurmağa

çalışdı. Bir gün o, ürəyində gizlədiklərini, dilinə gətirməyə qorxduğu sözləri həyat yoldaşına dedi:

– Şəlalə, görünür Allah bizi yeni sınağa çəkir. Ayrılmaq haqqında qətiyyən fikirləşmə. Doğmalarımı, əzizlərimi faciəli şəkildə itirmək əzabından sonra mənim yeganə təsəllim, güvənə biləcəyim insan sənsən... Mən o dünyanın cəhənnəmini bu dünyada yaşayan adamam. Səninlə birlikdə olmaq o ağrıları heç olmasa bir zərrə səngitmək şansımdı. Sən əzabların, məşəqqətlərin zülmətində azan insanın həyatına yeganə işıq salan bir varlıqsan. Sənin kədərlə yoğrulan təbəssümün dərin bir quyunun içinə məni oradan çəkib çıxarmaq üçün sallanan yeganə bağa bənzəyir... Məni bu sonuncu şansdan məhrum eləmə... Bu da bizim taleyimizdi... Gəl uşaq evinə gedib oradan kimsəsiz bir varlıq götürək... Heç olmasa onu öz övladımız kimi böyüdək...

Uşaq evindən övladlığa körpə götürmək məsələsi qadının köhnə yaralarının qaysağını qopardı elə bil... Kim də olmasa, o, uşaq evindəki həyatın nə demək olduğunu çox gözəl bilirdi... Atılmışların taleyi onu ömrü boyu göyüm-göyüm göynətmişdi onsuz da... Bu göynərti indi də davam eləyir, səngimək bilmirdi ki, bilmirdi...

Bu söhbət günlərlə, həftələrlə uzandı. Nəhayət, onlar uşaq evinə gedib körpə, valideynlərini xatırlamayan, keçmişindən xəbərsiz bir uşaq götürmək qərarına gəldilər...

Uzun çək-çevirdən, məsləhətləşmələrdən sonra onlar arzularını reallaşdırmaqdan ötrü Şəki şəhərinə sarı üz tutdular. Yol boyu söhbət eləmirdilər. Yanaşı oturan iki insan bir istiqamətdə hərəkət etsə belə, əslində xəyalən onların yolu ayrılırdı... Hərə öz keçmişinə sarı üz tutmuşdu...

Şamaxı aşırımından Muğanlı yolu ilə hərəkət eləməyə başlayanda isə elə bil onların ikisi də xəyallar dünyasından ayrıldı... Təbiətin gözəlliyi bu insanların yaralı ürəklərini ovsunladı elə bil. Dağ havası üçün qəribsəyən ciyərlər rahatlıq tapdı. Təmiz hava onların içindəki illərin havasızlığına qarşı üsyan eləyirdi elə bil.

Maşın hərəkət elədikcə, mənzərələr də dəyişirdi... Enişlər, yoxuşlar bir-birlərindən nə qədər uzaq olsalar da, dərənin dibində birləşirdilər. Dərədən hər iki səmtə qalxan yol yoxuş idi, təpədən isə hər iki tərəfdən dərəyə sarı eniş başlayırdı...

Qəribə idi, hansı tərəfə getməyindən asılı olaraq eyni yol həm enişə, həm də yoxuşa çevrilirdi... Yoxuş onların həyat yollarına daha çox uyğun gəlirdi... Arzuları reallaşdırmaq naminə yoxuşların çətinliyinə sinə gərmək zərurəti olub həmişə...

Bu enişli-yoxuşlu yollar bir-birini əvəz elədikcə, qadınla kişi də tale yoxuşlarını birlikdədə qalxırdılar...

Bu da dağlar qoynundakı qədim şəhər... Üstü kirəmitli evlər... Xan sarayı, Karvansaray... İnsanların üzündəki qeyri adi təbəssüm... Xata odur birindən bir söz soruşasan, verdikləri yumorlu cavab ən qaraqabaq adamın belə dodağını qaçırır...

Ümid qarşısına çıxan ilk kişidən uşaq evinin yerini soruşdu. Kişi o dəqiqə cavab verdi:

– Uşaq evin soruşursan? Ha budu ağzının içində...

Şəlalə də, Ümid də özlərini gülməkdən zorla saxladılar. Sonra məzəli kişinin göstərdiyi səmtə gedib uşaq evini tapdılar. Müdirə ilə görüşdülər. Xeyli söhbətləşdilər, məsləhət aldılar. Götürəcəkləri uşaq haqqında məlumat topla-

dılar. Lazimi sənədlər hazırlandı, imzalandı... Körpə bir qızcığazın övladlığa götürülməsi rəsmiləşdirildi...

...Şəkidən bir körpə, hələ təzə-təzə dil açan bir qız uşağı ilə qayıdırdılar onlar. Övlad həsrətini götürdükləri bu uşaqla azaltmağa, ailədəki dərin bir boşluğu doldurmağa ümidli idi arzuları gözündə qalan, doğmalarının hamısını itirən Ümid kişi ilə Şəlalə xanım...

Ərlə arvad bir-birlərindən xəbərsiz xatirələr cığırı ilə ötən günlərə qayıdırdılar. Ayrı-ayrı yerlərdən gələn, son ucda birləşən ağrılı-əzablı ömür yolları var idi qabaqda...

Bu balaca qız uşağı onların könül yarasına dərman ola biləcəkdimi görəsən? Övladlığa götürdükləri uşaq qeyb olan doğmanın boşluğnu doldura, dünyasını dəyişənləri əvəz edə biləcəkdimi görəsən?

Maşın Şəkidən çıxıb üzü şəhərə sarı gedəndə qar yağmağa başladı... Gözəl bir mənzərə yaranırdı yavaş-yavaş... Yolun kənarındakı meşələrdə, çəmənlərdə qalan qarın üstünə təzə qar yağırdı... Yol isə hələ açıq idi... Maşınların təkərinin istisi elə bil ki, qarın yolun içində qalmağına imkan vermirdi... Yarpaqları tökülmüş çılın-çılpaq ağacların üstünə ələnən qar dənəcikləri də budaqların üstündə yerlərini bərkitməyə çalışırdı elə bil...

Bu gözəl mənzərə Ümidin ürəyində qəribə bir narahatçılıq yaradırdı... Bu qarlı gün, çılpaq ağaclar, qarlı yal-yamac ötən günlərin ağrılarını təzələyirdi elə bil. Yağan qar Ümidin könül yaralarının üstünə səpilən duz kimi onu göyüm-göyüm göynədirdi. Hələ bu azmış kimi yavaş-yavaş yolu tutan qış dumanı da Ümidin ümidlə gözlədiyi gələcək işıqlı günlərini də elə bil görünməz eləyirdi...

Bu nədi? Mən xoşbəxt olmağa layiq deyiləmmi? Bəlkə təbiət bu zavallı qızcığazın özündən bir azca böyük qardaşından ayrılmasına qarşı üsyan eləyir? Bəlkə, duman yolu ona görə bağlayır ki, bu qızcığazı yenidən uşaq evinə, qardaşının yanına qaytarım?

Ay Allah, bu nə iş idi mən düşmüşəm? Başqa uşaq yox idimi götürməyə? Ancaq neyləməli, taleyin oyunlarından qaçmaq da asan məsələ deyil. Necə oldu ki, uşaq evinə gedən kimi o biri uşaqlar yox, məhz bu qızcığaz qaça-qaça gəlib Şəlalənin qucağına atıldı? Necə oldu ki, bu uşaq Şəlaləni öz anası bildi? Hələ təzə-təzə dil açan uşağın "ana" deyə qadının boynuna sarılması elə bir kövrək ab-hava yaratmışdı ki!

Bu körpənin bədbəxt qadının boynuna sarılan qolları nə qədər güclü imiş ilahi? Tərbiyəçilər nə qədər çalışsalar da, bu uşağın qollarını qadının boynundan ayıra bilmirdilər... Uşaq ağlayır, üsyan eləyirdi. Bu uşağın ürəyini necə qırmaq olardı axı? Elə övlad həsrətiylə illər boyu göyüm-göyüm göynəyən Şəlalə də ilk dəfə gördüyü, ona pənah gətirən bu qızcığaza bağlandı bir neçə anın içində... Onları bir-birindən ayırmaq sözün əsl mənasında insafsızlıq olardı...

Ancaq bir məsələ vəziyyəti bir az çətinləşdirdi. Məlum oldu ki, bu uşağın bir qardaşı da uşaq evindədi... Ayrılıqlardan sinəsi dağlı insanlar indi bacı-qardaş ayrılığına imza atmalı idilər...

Çox məsləhət, məşvərət, çək-çevir elədilər. Ancaq anası bildiyi bir qadının boynuna sarılan qolları açmağa heç kəsin cəsarəti çatmadı...

Ümid qarlı düzlərə baxa-baxa o ağrılı-acılı günlərini ürək göynərtisi ilə xatırlayırdı... Hələ nə yaxşı ki, Şəlaləni

başı ona yeni bir dünya, yeni bir ad verən körpəyə qarışmışdı...

Bir yandan yolu örtən qar, bir yandan görmə məsafəsini azaldan duman hərəkəti əhəmiyyətli dərəcədə çətinləşdirir, qəza risqi yaradırdı...

Ümidin, Şəlalənin gələcəklə bağlı ümidləri, arzuları elə bil ki, qarlı, dumanlı yollardan keçirdi... Özü də bu təzə bir yolun başlanğıcı idi... Öndə təzə sınaqlar gözləyirdi onları...

***

Evə qayıtdılar əgər bura ev demək mümkün idisə... Yorğun uşaq yatmışdı. Gözlərini açıb ətrafa baxanda özünü darısqal bir otaqda gördü. Gördüyü andan ana deyib boynuna sarıldığı qadından soruşdu:

– Ana, bəs evə nə vaxt gedəcəyik?

Şəlalə bir az duruxdu. Ümidin üzünə baxmağa, onu utandırmağa cəsarəti çatmadı. Uşağın başını sığallayıb dedi:

– Bizim evimiz elə buradı...

Uşaq darısqal otağa göz gəzdirib soruşdu:

– Ev belə balaca olur ki?

Ümid Şəlalənin köməyinə gəldi:

– Darıxma, Ümidə, bura bizim müvəqqti evimizdi... Əsl evimiz uzaqdadı... İnşallah, gün gələr, ora da gedərik...

– Ümidə kimdi, ata?

– Ümidə sənsən da elə. Gör səni nə qədər çox istəyirəmsə, öz adıma uyğun sənə də ad qoymuşam. Xoşuna gəlmir?

– Yox, gəlir, gəlir... Mən Sədaqət olsam, yenidən gəlib məni sizin əlinizdən alıb, uşaq evinə apararlar...

– Narahat olma, qızım, heç kəs səni bizim əlimizdən ala bilməz.

Uşaq Şəlalənin boynuna sarıldı. Qadın kövrəldi. Ümidə isə bunu hiss eləmədi... Mehriban ana qolları arasında mürgüyə getdi...

Günlər bir-birini əvəz etdikcə Ümidə bu darısqal otağa, Ümidlə Şəlalə isə bu balaca qızcığaza öyrəşdilər. Həyatlarına arzuladıqları insanın, həsrətini çəkdikləri körpənin gəlişi elə bil darısqal otağı genişləndirib, möhtəşəm bir saraya döndərmişdi onlar üçün... Qızcığaz yeni ab-hava gətirmişdi onların həyatına... Elə bil öz uşaqlıqlarını bu körpə, məsum uşaqla birlikdə yenidən yaşayırdlar Ümidlə Şəlalə... Ümidə divarları üşüyən darısqal evə yeni bir hərarət, ailəyə təzə bir nəfəs gətirdi elə bil...

Beləcə günlər həftələri, həftələr ayları əvəz eləyirdi...

Bir dəfə Ümid yuxudan ayılanda Şəlaləni çox kefsiz gördü. Narahat oldu. Səbəbini soruşdu. Qadın heç nə demədi. Ancaq birdən onun gözlərindən yaş qaynadı...

Ümidə elə gəldi ki, selə bənzəyən bu göz yaşları hər şeyi, hər şeyi bu kirli dünyanın üzündən yuyub aparmaq gücündədi...

– Nə olub?

– Heç nə!

– Heç nə belə olmur axı?

Bilirsən qızımız mənə nə dedi:

– Ana, yuxumda qaqaş görmüşəm. Mənim qaqaşım hanı? Nə cavab verəydim dərdi özündən böyük bu körpəyə?

Ümid söz tapmadı deməyə. Araya ayrı söhbət qatsa da, yaxışı bilirdi ki, bunun heç bir əhəmiyyəti yoxdur. Övlad həsrətiylə alışıb-yanan qadının ağrıları, həyəcanları onun yaşlı gözlərindən boylanırdı elə bil... Ona görə də Ümid o gözlərə baxmaqdan yamanca qorxurdu...

Aradan xeyli keçdi. Dərdli qadının gözlərinə baxmaqdan çəkinən Ümid çay içə-içə altdan-altdan Şəlalənin süzürdü. Birdən hiss elədi ki, bu gözlərin dərinliyində nəsə qeyri adi bir nur, işıq var. Ümid həm sevindi, həm də xoflandı... Bunun səbəbini soruşmaqdan isə çəkindi...

Aradan bir neçə gün keçdi. Şəlalə özünü nəsə yaxşı hiss eləmirdi. Ümid bunun səbəbini soruşur, qadın isə hər şeyin normal olduğunu söyləyirdi.

Ümid işləmirdi. Şəlalə işə gedəndə isə o, balaca Ümidəni götürüb gəzməyə aparırdı. Başı uşağa elə qarışırdı ki, onu illər boyu göynədən dərdin ağrıları, göynərtiləri elə bil səngiyirdi bir az... Ancaq nə qədər çalışırdısa, o dəhşətli mənzərələri unuda bilmirdi... Unudulası dərd idimi ki, unudasan?

***

Özgəyə öz doğman kimi baxanda Allah da adamı mükafatlandırarmış sən demə... Hamilə olduğunu gizlədən Şəlalənin axır ki, sirləri açıldı. Ümid yenidən ata olacağını biləndə çox həyəcanlandı... Düşündü ki, yəqin Ulu Allah mənim dualarımı eşidib... Mənim nəsil şəcərəm qırılmadı, şükürlər olsun sənə, İlahi... Kəraminə min şükür! Alan da sənsən, verən də... Hamımızı həyat yollarında sınağa çəkirsən. Səbrin böyük olduğu kimi, qəzəbin də böyükdür. İnanıram ki, haqq işimizin yardımçısı olacaq, mərdləri mükafatlandıracaq, namərdləri isə cəzalandıracaqsan...

Günlər günləri, həftələr həftələri, aylar ayları əvəz elədi. Nəhayət, onların bir oğlu dünyaya gəldi. Ümid onun adını İntiqam qoydu... Doğum evindən çıxıb evə gələndə Ümidə anasının qucağındakı körpəyə təəccüblə, maraqla baxırdı... Elə bil ki, bir az qısqanclıq duyğuları yarandı ürəyində.

Bunu sezən ananın həssas ürəyi kövrəldi... Ümidəni bağrına basıb, o üzündən, bu üzündən öpdü... Dedi ki, sən mənim ağıllı balamsan. Yer üzündə heç kəs, heç kəs səni əvəz eləyə bilməz... Sən mənim gözümün ilk nurusan....

Günlər keçdikcə Ümidə də çağaya isinişirdi. Körpə ağlayanda onu ovundurmağa çalışırdı... Bu mehribançılığı görən Şəlalə çox sevinirdi. Bir dəfə o, Ümidəyə demişdi:

– Bax, qızım, sən yuxuda qaqaş görmüşdün, qaqaş da gəlib çıxdı...

Uşaq diqqətlə beşikdəki çağaya baxıb demişdi:

– Axı mənin qaqaşım böyük idi, bu ki lap balacadı!...

– Darıxma, qızım, tezliklə böyüyəcək. Bir yerdə oynayacaqsınız...

– Axı bu mənim yuxuda gördüyüm qaqaşa oxşamır?

Qadın qəhərləndi... Gözlərində yaş giləlendi... Ancaq çalışdı ki, qız bunu hiss eləməsin.

– Yuxuda qaranlıq olur, mənim ağıllı balam, qaqaşın böyüyəndə düz sənin yuxuda gördüyün adam olacaq...

Aylar, illər ötdü. İntiqam böyüdü... Bacısı onu çox sevsə də, yuxuda gördüyü qaqaşa oxşada bilmirdi ki, bilmirdi... Elə bil onlar fərqli-fərqli adamlar idilər... Qız sövq-təbii ilə bunu hiss eləsə də, səbəbini anlaya bilmirdi. Nədənsə yuxuda gördüyü qaqaş hər gün onunla oynayan, bir evdə yaşayan qaqaşından çox fərqlənirdi. Ona elə gəlirdi ki, yuxudakı uşaq İntiqamdan daha istiqanlı, mehribandır... Qəlbinin dərinliyində nə qədər bu məsələ haqqında düşünsə də, səbəbini anlaya bilmir, anasından da bir söz soruşmağa cəsarət eləmirdi...

Ümidə həyatından çox razı idi. Ailələri kasıb olsa da, onu zərrəcə korluq çəkməyə qoymamışdılar... Balaca vaxtı

istədiyi oyuncaqları var idi... Böyüdükcə oyuncaqların yerini kitablar tutmağa başladı... Məktəbdə özünə gözəl rəfiqələr tapdı. Onlarla dostlaşdı...

Dərslərini yaxşı oxuyurdu. Valideyn iclaslarında həmişə onu tərifləyirdilər. Ümid bununla qürurlanır, qızının başını sığallayır və Şəlaləyə deyirdi ki, anası, bizim Ümidə balamız bütün ümidlərimizi doğruldacaq, ailəmizin, vətənimizin adına layiq bir qız kimi böyüyəcək...

Bu sözlər Ümidəni bir az da həvəsləndirirdi. O, çalışırdı ki, atasının, anasının başını həmişə uca eləsin...

Allahın lütfü çox böyük imiş... O, Ümidlə Şəlaləni yeni sevinc payı ilə mükafatlandırdı... Dünyaya yeni övladlarının gəlişi onların sevincini, gələcəyə inamını bir az da artırdı...

Valideynləri kimi Ümidə də çox sevinirdi. Özündən kiçik qardaş və bacısının qayğısını çəkməkdə anasına kömək eləyir, böyük bacı olmağın ləzzətini dadırdı...

Həyat öz yeni axarı ilə davam eləyir, insanları keçmişdən çox gələcəyə baxmağa sövq edirdi... Uşaqlar böyüdükcə ailənin gələcəyə inamı da artırdı...

VII fəsil

## ÇİLİKLƏNMİŞ ÜMİDLƏR VƏ YARALI XƏRİTƏ

Deyirdilər ki, hərənin bir bəxt, tale güzgüsü olur. Sevib-seçdiyi tələbə yoldaşı Mehriban onların evinə gəlin gələndə qabaqda yeni ocağa təmizlik, saflıq gətirmək istəyən gəlinin qırmızı lentlə bağlanmış güzgüsünü aparan qız qəflətən yıxılmış, güzgü əlindən yerə düşüb çilik-çilik olmuşdu... Bu, istər-istəməz narahatçılıq yaratmışdı... Vəziyyətdən anındaca çıxış yolu tapan Ümüdin anası Sərvinaz xanım söz-söhbətə imkan verməmiş, irəli şığıyıb gəlininin boynunu qucaqlamış, bağrına basmış, ona xoşgəldin eləmiş: "Təki sınan şüşə olsun", – demişdi...

Ancaq sınan şüşə deyildi, güzgü idi. Özü də tale güzgüsü... Nə qədər xoşbəxt yaşaslar, oğul-uşaq sahibi olsalar belə o güzgü məsələsi gəlinin yadından çıxmırdı. Ümid belə şeylərə əhəmiyyət vermirdi o vaxt. Ancaq başına Xocalı müsibətləri gələndən sonra o çiliklənmiş güzgünü tez-tez xatırlayırdı. Hətta ikinci evlilikdən, oğul-uşaq sahibi olduqdan sonra belə o güzgü əhvalatı Ümidin yadına tez-tez düşürdü. Əlbəttə, bu haqda həyat yoldaşı Şəlalə xanıma heç nə demirdi. Qorxurdu ki, onun da qadınlıq qürurunu çilik-çilik eləyə bu söhbət...

Şəlalə həssas qadın idi. Çalışırdı ki, ürəyinə çalın-çarpaz dağlar çəkilən həyat yoldaşını tək qoymasın. Çünki bilirdi ki, tək olanda keçmişin məşəqqətli xatirələri ərinin bütün varlığını alt-üst edir... Yaxşı ki, uşaq evindən götürüb gətirdikləri, adını Ümidə qoyduqları qızcığaz bu ailənin

uğur mələyinə çevrilmişdi... Onların bu özgə qızı öz balaları kimi sevməsindən xəbərdar olan Ulu Yaradan bu ailəni iki doğma övladla mükafatlandırmışdı.

Oğlunun adını İntiqam qoymuşdu Ümid. "Qızımızın adını isə sən qoy", – demişdi həyat yoldaşına. Şəlalənin ilk ağlına gələn ad Mehriban olmuşdu. Ancaq deməyə dili gəlməmişdi. Qorxmuşdu ki, bu ad Ümidə keçmişini xatırlada hər gün...

İnsan qəribə məxluqdu. Şəlalə öz düşüncəsindən özü də üşənmişdi. Hətta qəlbinin dərinliyində qısqanclığa bənzər bir hissin oyanması ona təəccüblü gəlmiş, həm də qadını qorxutmuşdu bir az... Ona görə düşündüklərini ərinə deməyə çəkinmişdi...

Balaca İntiqamın həyətdən evə gələrkən əlində bir lalə gətirməsi qadını mütəəssir etmişdi. Ərinə demişdi ki, bəlkə elə qızımızın adını Lalə qoyaq?

Ümid öz fikrini deməyə macal tapmamış təzəcə dil açan uşağın əlindəki gülü aparıb bacısının beşiyinə qoyması onları duyğulandırmışdı... İntiqamın bacısına "Sənə qırmızı gül gətirmişəm", – deməsi Ümidi də, Şəlaləni də həyəcanlandırmışdı. Ümid gələcəyinə böyük Ümid bəslədiyi oğlunun başını sığallamış, "bacının adını sən qoydun", – demişdi...

İntiqam bir bacısına, bir də onun beşiyinə qoyulan gülə baxıb gülmüş və demişdi:

– Lalə bacı...

Zaman öz atını elə sürətlə çapır ki, illərin nə vaxt gəlib keçdiyindən insanın heç xəbəri də olmur... İntiqam da böyümüşdü, Lalə də... Hələ böyük qızları Ümidəni – Uğur mələyini gəlin də köçürmüşdülər... Baba, nənə adını da

qazanmışdılar... Bütün işlər qaydasında idi... Bütün məsələlər həll olunmuşdu Allahın izniylə...

Bircə məsələ qalmışdı: torpaqların azad olunması... Ancaq bu heç düzələn məsələyə oxşamırdı. Nə BMT-nin qərarlarının köməyi var idi, nə ATƏT ümidləri doğrul-durdu... Əzablı, məşəqqətli qaçqınlıq illəri davam eləyirdi. Ümid düşünürdü ki, yaxşı ki, qaçıb öz xalqımıza sığındıq. Ölkə bizim qayğımıza qaldı, çadır şəhərlərindən canımız qurtardı... Sağ olsun hökumətimiz, bizim üçün evlər tıkdi, şəhərciklər saldı...

Ümid öz-özünə deyirdi ki, məsələ təkcə necə yaşa-maqda, rahatlıqda deyil, viranə könülləri sağaltmaq daha çətin məsələ idi, çox çətin. Ürəklərdə salınan ümidlər şəhər-ciyi xəyal idi, hər kənddə, hər şəhərdə yurd həsrətli qaçqın-ların, köçkünlərin dəfn olunması ilə yaranan qaçqınlar qəbristanlığı ürək göynədirdi... Yurd həsrəti ilə dünyalarını dəyişən bu insanların bədənləri ilə birlikdə arzuları da dəfn olunmuşdu bu əbədiyyət şəhərciyində...

Ümid dərk eləyirdi ki, nə bu əbədiyyət şəhərciyində uyuyanları dədə-baba yurdlarına qaytarmaq mümkün olacaq, nə də hələ də ümidlə yaşayanların ömründən gedən ayları, illəri...

Ümidgilin yaşadığı qaçqınlar şəhərciyində məskunlaşan Baqi adlı məzəli, zarafatcıl bir kişi var idi. Bir dəfə adamlar həyətə yığışıb dərdləşəndə kimsə ondan soruşdu:

– Baqi dayı, ağlın nə kəsir, yəni biz yenidən öz kəndlə-rimizə, dədə-baba yurdlarımıza qayıda biləcəyikmi?

Baqi kişi isə özünəməxsus tərzdə cavab vermişdi:

– Bu saysız-hesabsız qaçqınlardan qayıtsa, bəlkə bir-iki lapet adam qayıda...

Baqi kişinin bu kinayəli, ikibaşılı sözünə hamı gülmüşdü o vaxt... Ancaq bu sözdə ağrılı bir həqiqət var idi. Nəinki qocalar, hətta dədə-baba yurdlarını tərk eləyəndə cavan olan insanları belə otuz ilə yaxın bir vaxt qocaltmışdı... Bu yaşlı insanların böyük bir qismi, elə o zarafatcıl Baqi kişinin özü də dünyada yox idi artıq...

Bir dəfə Ümid qəbristanlıqda dəfn mərasimində iştirak edirdi. Gözünün altıyla qəbirlərə baxırdı. Birdən onun gözlərinə dünyasını yurd həsrəti ilə dəyişən qaçqın analardan birinin məzarı sataşdı. Mərmərə dönən ananın uzaqlara baxan baxışları da mərmərə dönmüşdü elə bil. Məzarın sinə daşına yazılan ürək göynədən sözləri oxuyanda Ümid göz yaşlarını saxlaya bilməmişdi:

Boylanıb dağlara sarı
Gecə-gündüz hey ah çəkdin.
Ölümünlə qəlbindəki
Yurd həsrətinə dağ çəkdin...

Qəlbində vətən nisgili
Bu dünyadan köçdün, anam.
Təzə yurd yerin mübarək,
Qaçqın anam, köçkün anam!

Təzə yurd yeri... Arzuların dəfn olunduğu qəbristanlıq...

Yaxasını məşəqqətli düşüncələr məngənəsindən xilas eləyə bilməyən Ümidi dərd müdrikləşdirmişdi elə bil. “Həyatda sevdiyi insanla yaşayanlar xoşbəxt, sevmədiyi qadınlarla yaşayanlar filosof olurlar” fikrinin kimə məxsus olduğunu Ümid xatırlamırdı, ancaq qəlbinin dərinliyində

hiss eləyirdi ki, bu kəlamda böyük bir həyat həqiqəti var. Bu fikir müdrik bir düşüncənin məhsuludur. Ancaq onu da dərk eləyirdi ki, təkcə sevdikləri insanlardan yox, doğulduğu, boya-başa çatdığı, havasıyla, suyuyla qidalandığı dədə-baba yurdundan ayrı düşmək daha böyük bir müsibətdi... Dərd qaçqınların çoxunu "şair" eləmişdi. Hamı yazırdı, yaza bilən də bilməyən də... Onlar şeirin, sənətin qaydalarını bilməsələr də, ağrının, məşəqqətin, kimsəsizliyin, köməksizliyin dadını gözəl bilirdilər...

Hər işdə peşəkarlığı sevən Ümid isə yazıb özünü gülünc vəziyyətə qoymaq, bambılıya dönmək istəmirdi... Böyük dərdin sahibləri gərək öz böyüklüklərini, müdrikliklərini də qoruyub saxlaya bilsinlər. Ümid nəyi də bacarmasa, bunu bacarırdı... Onu təkcə özünün yox, başına müsibətlər gətirilən xalqımızın taleyi çox narahat eləyirdi. Həmişə öz-özünə soruşurdu ki, görəsən bu işlərin axırı necə olacaq? O axır, o gözlənilən gün isə gəlib çıxmaq bilmirdi ki, bilmirdi...

Ümid istər-istəməz dərk eləyirdi ki, nəsillərin bir-birini əvəz eləməsi həyatın əbədi-əzəli qanunudur... Hər şey axır, hər şey dəyişir... Qocalar dünyadan köçür, yeni nəsil dünyaya gəlir... Bunda təəccüblü, narahat olunası bir şey yoxdur. Ancaq Ümid ondan qorxurdu ki, Qarabağın üzünü görməyən bu yeni nəslin nümayəndələri o torpaqları, xalqımızın adət-ənənələrini unudalar, texnologiyanın inkişafı onları milli dəyərlərdən ayıra...

Düşüncələr, düşüncələr...

Ümidin təkcə arzuları yox, elə ümidləri də bəxt güzgüsü kimi çilik-çilik olmuşdu... Tez-tez xəritənin önündə dayanıb xəyallara dalmaq onun şakərinə dönmüşdü... Sərhədləri yad,

xəyanətkar əllərlə dəyişdirilən Azərbaycanın xəritəsi də elə çiliklənmiş, para-para olmuş bəxt, tale güzgüsünə bənzəyirdi...

Həmişə tarixi kitabları acgözlüklə oxuyan Ümid başına gələn hadisələrin mahiyyətini, haradan qaynaqlandığını yaxşı bilirdi... Nankor erməniləri, onlara “bağışlanan” torpaqları türk dünyasını bir-birindən ayırmaq üçün araya soxulan düşmən qılıncına bənzədirdi Ümid. Xəritə qarşısında dayananda, doğrudan da, həmin ərazi ətlə dırnaq arasına pərçim olunmuş talaşa kimi gəlirdi gözlərinin qabağına. Öz-özünə deyirdi ki, erməni haranın tulasıdı ki, başından yekə qələtlər eləyə. Böyük qüvvələr onların acgözlüyündən, nankorluğundan, genetık nifrətindən məharətlə istifadə ediblər tarix boyu... Burunlarından uzağı görməyən bu bədbəxtlər, təkcə əhatəsində yaşadıqları insanlara yox, elə özlərinə də fəlakət gətirən İblis sifarişçiləri olublar tarixin bütün dönəmlərində...

Bir tərəfdən başımıza gətirilən müsibətlər, bir tərəfdən də hakimiyyəti bir-birinə ötürən quldurların – Petrosyanın, Koçaryanın, Sərkisyanın, Ohanyanın həyasız-həyasız bəyanatları, xalqımızı təhqir eləmələri hamı kimi Ümidə də çox pis təsir edirdi. Paşinyanın, Balayanın, erməni generallarının Cıdır düzündə “Yandıq yallısı”na tamaşa eləmək adamın lap cızdağını çıxarırdı... Hamı bu yaramazların əlindən cilov gəmirirdi... Hamı amansız intiqam alovuyla odlanır, müharibə başlayacağı günü səbirsizliklə gözləyirdi...

Ümidləri üzülən insanlar hakimiyyəti gözləmə mövqeyi tutmaqda günahlandırırdılar... Ancaq Ümid nə qədər qisas arzusuyla yansa da, yadına həmin çətin məqamlarda bir

atalar sözü düşürdü: "Xəstənin könlü meyvə istəyir, meyvə isə öz vaxtında dəyir"... Sonrakı hadisələr göstərdi ki, atalar bu qənaətə gəlməkdə yanılmayıbmışlar...

Sərhədlərimiz haqda çox düşünürdü Ümid... Öz-özünə deyirdi ki, "sər" baş deməkdi, "həd" isə məsafə. Sərhəd – yəni ən son məsafə... İndiki dillə desək, "qırmızı xətt". Düşünürdü ki, bu da maraqlı sözdü. Qırmızı dayanmaq rəmzidi. Qırmızı işıqda yolu keçmək olmaz. Ancaq təəssüf ki, sərhədləri qanunsuz keçənlər, qırmızı işıqda dayanma-yanlar başqaları üçün həmişə qəza, fəlakət törədiblər... "Yersiz gəldi, yerli, qaç" kəlamı da reallıqdan qaynaq-lanmışdı sözsüz ki...

Cəmiyyətin birgəyaşayış qaydalarına riayət eləməyən-lərdi sərhədi keçənlər. Sərhəd pozanlar mütləq cəzalan-malıdı. Ancaq təəssüf ki, qoluzorlular insanlıq, şərəf, ləyaqət sərhədlərini pozublar həmişə... Böyük Azərbay-candan qorxanlar, çəkinənlər zaman-zaman onun sərhəd-lərini kiçildiblər. İnsanları dədə-baba torpaqlarından didərgin salıblar. Ulu yurd yerlərimizi bizə unutdurmağa çalışıblar. Ümid eləyiblər ki, vaxt uzatmaqla işləri həll etmək mümkün olacaq. Yaşlı nəsil yavaş-yavaş dünyadan köçəcək, dədə-baba torpaqlarının üzünü görməyənlər isə ora qayıtmaq haqqında düşünməyəcəklər də...

Xəritəmiz özgə əllərlə cızılıb həmişə. Ümidə bir yaxın jurnalist dostu başına gələn əhvalatı danışmışdı neçə illər bundan əvvəl. Onda ətraf rayonlardan bircə Kəlbəcər işğal olunmuşdu...

Həmin jurnalist başının dəstəsi ilə Moskvaya gedib film çəkirmiş 20 Yanvar, Sumqayıt, Xocalı hadisələri ilə bağlı. Çox böyük, tarixi şəxsiyyətlərdən müsahibələr alıblar. O

vaxt dövlət katibi işləyən Burbulis isə müsahibə verməkdən imtina edib. Ancaq o, jurnalistləri qəbul etməyə, onlarla söhbətləşməyə razılıq verib. Kameraları əllərindən alınandan, üst-başları yoxlanılandan sonra jurnalistləri qəbula buraxıblar...

Ordan-burdan söhbətləşiblər. Jurnalist deyib ki, bu Dağlıq Qarabağda olanları başa düşdük, Kəlbəcərin işğalına nə ad vermək olar?

Burbulis kinayə ilə gülümsnüb və soruşub:

– Bilirsinizmi Türkiyədə nə qədər kürd var?

– Xeyir, bilmirik.

Burbulis əhəmiyyətli dərəcədə böyük bir rəqəm söylədəndən sonra yenə həmin tərzdə soruşub:

– Bilirsinizmi kürdlər nə istəyirlər?

– Xeyir.

– Onlar istəyirlər ki, Türkiyə və Azərbaycan ərazisində Kürdüstan dövləti yaratsınlar.

– Bu mümkündürmü?

– Xeyir. Bu, böyük dövlətlərə sərf eləmir.

– Bəs nə sərf eləyir böyük dövlətlərə?

Dövlətin məsul işçisi çəkinmədən, utanıb-qızarmadan açıqca belə deyib:

– Regionda olan daimi münaqişə. Eşitməmisiniz ki, bulanıq suda balıq tutmaq asan olur?

Jurnalistlər mat-mat onun üzünə baxanda rəsmi şəxs sözünə davam eləyərək söyləyib ki, Kəlbəcər hələ başlanğıcdı. Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam da, bu rayonların kəndləri də işğal altına düşəcək...

Bu xəbərdarlıqdan dəhşətə gələn jurnalist emosional şəkildə deyəndə ki, bu mümkün ola bilməz, dövlət katibi

kinayəli təbəssümlə söyləyib ki, olar, olar, lap yaxşı olar! Bunu özünüz görəcəksiniz.

Jurnalist çarəsiz şəkildə sual verib:

– Bəs bu işlərin axırı necə olacaq?

– Bir müddət keçəndən sonra ətraf rayonlar qaytarılacaq. Qarabağdan isə birdəfəlik əlinizi üzün...

– Yox, bu, ola bilməz.

– Olar, olar, yaxşı olar!

– Qarabağ ermənilərəmi veriləcək?

– Yox, nə onlara veriləcək, nə sizə...

– Bəs necə olacaq?

– Qarabağ həmişə münaqişə zonası kimi saxlanılacaq. Bu, böyük dövlətlərə sərf eləyir...

... Bu söhbəti Ümid çoxdan eşitsə də, onu ciddi bir məsələ kimi qəbul eləməmişdi. Ancaq illər keçdikcə o, əmin oldu ki, böyük dövlətlərin regionla bağlı öz siyasətləri olub hər zaman... Özü də bu siyasət maşını qarşısını almaq istəyənləri tapdalayıb keçməyə həmişə hazır olub...

Ürəyimizi də xəritələrimiz kimi paramparça eləyən əllər var imiş dünyada. Kiçiklər həmişə böyük siyasətin qurbanı olublar. Əzilməmək, öz haqqını tələb etmək üçünsə inkişaf etmək, güc sahibinə dönmək çox vacib məsələdir...

Təbiətdə olduğu kimi, cəmiyyətdə də yaşamaq uğrunda mübarizə gedib həmişə... Böyük balıqlar yedikləri, həzm etdikləri kiçik balıqlar hesabına böyük olublar...

VIII fəsil

## BACI-QARDAŞ NAĞILI

Elşən bacısı Sədaqətdən (Ümidə) böyük idi. Ona görə onları uşaq evində bir-birindən ayırmışdılar. Həm hərə öz yaşına uyğun qrupda məşğələ keçir, həm də oğlanlarla qızların yataq otaqları ayrı idi.

Uşaqların əslində heç nəyə ehtiyacları yox idi. Dövlət onlara himayədarlıq edirdi. Hər şeyləri var idi; yeyib içməkləri də, yataqları da.

Elşən körpə bacısı üçün darıxırdı. İmkan düşəndə uşaq evinin həyətində onunla oynayırdı. Məşğələ vaxtı isə tərbiyəçilər onları ayırırdılar.

Bir gün Elşən öz bacısını görməyəndə təəccübləndi və bərk darıxdı. Bacısının övladlığa götürüldüyünü eşidəndə hönkür-hönkür ağladı... Neçə həftə özünə gələ bilmədi.

Dünyagörmüş qadın, uşaq evinin müdirəsi Elşəni yanına çağırıb onunla söhbət eləyirdi. Deyirdi ki, oğul, bacının övladlığa götürülməsi heç də pis deyil. Sənə nə var, sən oğlansan. Qız uşağının isə ailədə böyüməsi çox vacibdir.

Elşən isə bu ayrılığa heç cür dözə bilmir, hıçqıra-hıçqıra müdirədən imdad diləyirdi:

– Mən bacımı görmək istəyirəm. Onun üçün çox darıxıram...

– Bilirəm, oğlum, bilirəm. İndi onsuz da sən bacı saxlamaq, onun qayğısını çəkmək imkanında deyilsən... Allah qoysa, böyüyəndə, bir peşə sahibi, ev-eşik sahibi olanda bacını taparsan...

Elşən bacısına qovuşmaq naminə tez böyümək, ali təhsil, ev almaq arzusu ilə yaşayırdı. Deyirdi ki, ev alanda mütləq gedib bacımı tapacam, gətirəcəm yanıma...

Müdirə ona toxtaqlıq verirdi:

– Ay oğul, Allah səni arzularına çatdırsın...

İllər isə bir-birini əvəz eləyirdi... Elşən böyüdükcə onun ürəyindəki kimsəsizlik ağrısı da böyüyürdü. Öz valideynlərinin öldüyünü bilirdi. Ancaq uşaq evində onunla qalanların çoxu atalı-analı yetimlər idi... Bu, oğlana çox pis təsir eləyirdi. Düşünürdü ki, heç insan da Allahın verdiyi paydan imtina edərmi? Heç insan da öz ciyərparasını özgə umuduna qoyarmı, onu atarmı?

Elşənin gecəsi-gündüzü yox idi. Daim bu haqda düşünürdü... Bu dünyada onun üçün yeganə doğma olan adamı – bacısını unuda bilmir, onlu günlərin xiffətini çəkirdi...

O, böyümüşdü, ali məktəb bitirmişdi, tikintidə mühəndis işləyirdi... Ancaq hiss eləyirdi ki, hər şeyi ola-ola nəyisə çatışmır... Dərk eləyirdi ki, yer üzündə tənhalıqdan pis heç nə yoxdur. Kimsəsizlik çox böyük dərddir...

Mən Aşıq, kimsənəmdi,
Kim mənim kimsənəmdi?
Nə kimin kimsəsiyəm,
Nə kimsə kimsənəmdi?

Sarı Aşığın bu bayatısı elə bil məhz onun haqqında deyilmişdi... Bu bayatını gündə neçə dəfə pıçıldamaq olarmış, İlahi? Bu misralarda tənhalığın fəryadı var idi, ürək göynədən fəryadı...

Ancaq oğlanın qəlbini göynədən bu bayatı həm də elə bil ona güc verir, bacısını axtarıb tapmağa təhrik edirdi Elşəni. O, illərdən bəri idi ki, yer üzünün yeganə doğma insanını axtarırdı... Soraqlaşa-soraqlaşa qalmışdı. Ancaq gördüm deyən yox idi. Hətta uşaq evində də ona səhih bir məlumat vermirdilər. Qanunla belə də olmalı idi...

Hər dəfə oğlana deyirdilər ki, ümidini üzmə, axtarışlarını davam etdir. Sidq ürəklə axtarsan, mütləq bacını tapacaqsan...

Ancaq Elşən bilmirdi ki, hara getsin, bacısını harda axtarsın. Axır ki, dostlarından biri ona ağıllı bir məsləhət verdi:

– Get televiziyaya, "Səni axtarıram" verilişinə çıx. Kimi axtardığını söylə.

– Bacım o vaxt lap uşaq idi. İnanmıram ki, məni xatırlaya bilsin.

– O xatırlamasa da, uşağı övladlığa götürənlər yəqin ki, xatırlayacaqlar...

– Lap tutaq ki, xatırladılar. Onlar öz övladları kimi böyütdükləri bacımı mənə qaytararlarmı?

– Ümidini üzmə. Qaytarmasalar da, insafları olsa, səni bacınla görüşdürəcəklər...

Elşənin kövrək şəkildə, qəhərlənərək dediyi söz dostlarına da təsirsiz qalmamışdı:

– Heç olmasa, onun sağlığını biləydim. Uzaqdan-uzağa olsa da durub yer üzündə mənə ən əziz olan insana baxa biləydim... O, mənə atamın, anamın yadigarı idi... Qoruya bilmədim o yadigarı... Əlimdən quş kimi uçub getdi...

***

Ümid ata yenə də cəhənnəm əzabıyla yoğrulan yuxular görürdü. Yenə atışma səsləri gəlirdi. Yenə qız-gəlinin şivən-qiyaməti dünyanı başına götürmüşdü. Yenə güllə yağışı yağırdı, yenə Qarqar qan rənginə boyanmışdı... Elə bil ki, bu çay onun sinəsinin üstündən axırdı... Vaxtilə Qarqarın buz kimi soyuq, ilik sızıldadan suyu nədənsə bu dəfə ipisti idi... Ümid ata sel-su içində idi. Gözlərini açanda yuxu ilə reallıq arasında qəribə bir mənzərə gördü.

Ümid atanın başının üstündə Şəlalə ana ağlayırdı... Onun qan ağlayan gözlərindən yaş şəlalə kimi çağlayırdı... Şəlalə ana Ümidi silkələyə-silkələyə əcaib-qəraib yuxudan oyatmağa çalışırdı... Ümid isə yuxu ilə reallıq arasındakı cəhənnəm vadisində sərgərdan qalmışdı...

Ümidə elə gəlirdi ki, yenə Xocalının qarlı düzündə qohum-qardaşın cəsədləri arasındadır... Bəs Şəlalə nə gəzirdi burda? Şəlalə ana yuxulu ərini silkələyə-silkələyə deyirdi:

– Ay Ümid, nə yatmısan, oyan! Ay Ümid, ürəyim partlayır axı!

Ümid vahimə içində yerindən qalxdı.

– Nə olub, ay Şəlalə? Yenə qatillər gəlir? Yenə güllə yağışının altındayıq? Yenə evlərimizi yandırırlar? Tanklar hansı tərəfdən gəlir?

Ümid yuxudan ayıldı. Qarmaqarışıq röyalar dünyasından ayrılıb real dünyaya gələndə bir qədər toxdadı... Ancaq Şəlalə ananın yaşlı gözləri onu üşəndirdi... Ağlından keçdi ki, yox, bu işin içində bir iş var... Şəlalə elə-belə ağlamaz...

Gözlərinin yaşını saxlaya bilməyən qadın axır ki, dərdli-dərdli, narahatçılıqla ərinə dedi:

– Dünən sən yatanda mən televiziyadakı "Səni axtarıram" verilişinə baxırdım. Bir oğlan bacısını axtarırdı...

Ümid bir şey başa düşmədi. Təəccüblə arvadının üzünə baxıb dərindən bir ah çəkdi. Handan-hana dilləndi:

– Eh, ay arvad, gözləri ilə odlar-alovlar görən, doğmalarını itirən, içindən ağrılar, əzablar qoşunu keçən insan da adi bir verilişə baxanda bu qədər həyəcanlanarmı?

– Yox, ay Ümid, bu, adi bir veriliş deyildi... Ümidə balamızı itirməkdən, onun nifrətini qazanmaqdan yamanca qorxuram...

Ümid təəccübləndi... Eyni zamanda anidən qəlbinin dərinliyindən bir sızıltı keçdi... Hiss elədi ki, Şəlalənin deyəcəyi xəbər onun təzə-təzə qaysaq bağlayan yaralarını yenidən qanada, ağrılardan-əzablardan təzə-təzə uzaqlaşmaq istəyən insanın zahirən sakit, öz axarında görünən həyatını yenidən alt-üst edə bilər... Yenidən ağrılar, əzablar selinin ortasında tənha, köməksiz bir adaya çevrilə bilər...

Ümid üşəndi... Söz soruşmağa qorxdu... Şəlalənin gözlərinin dərinliyindəki nigarançılıq buludları onun da daxili dünyasını zülmətə qərq elədi...

– Nə olub, ay arvad? Ümidə qızımız xəstələnib yoxsa?

– Yox, xəstələnməyib...

– Bəs onda nə olub?

Şəlalə cavab verə bilmədi. Qəhər onu boğdu:

– Bir oğlan verilişə çıxıb öz bacısını axtardığını söylədi. Dedi ki, məni də, bacımı da uşaq evinə vermişdilər. Bacım çox balaca idi. Eyni uşaq evində qalsaq da, ayrı-ayrı qruplarda idik. Bir dəfə bacımı görməyə gedəndə dedilər ki,

onu kiməsə övladlığa veriblər... Ağladım, çox ağladım... Bacımı bir daha görməmək fikri məni dəhşətə gətirirdi...

Atamı da, anamı da itirmişəm... Yer üzündə mənə doğma olan bir bacım var idi, onu da həmişəlik itirdim... İndi bura gəlməkdə bir məqsədim var ki, bacımı tapmaqda mənə kömək eləyəsiniz. Onun adı Sədaqət idi... Nə bilim, bəlkə də övladlığa götürəndə bacımın adını dəyişiblər?! Bircə onu bilirəm ki, yer üzündə doğmalarını itirmək çox böyük dərddi..

Sədaqət adını eşidəndə elə bil Ümidin ayağının altından yer qaçdı... Gözünün önünə yenə odlara qalanan Xocalının dəhşətli mənzərələri gəldi...

Əzizlərini, doğmalarını itirən Ümidin yaralarının qaysağı yenidən qopdu, yenidən dünyanın üzünü qara-qara buludlar aldı, yenidən ah-nalə səsləri göylərə bülənd oldu... Ümid özünü yenə də o məşəqqətli hadisələrin tən ortasında hiss elədi... Bütün doğmalarını, əzizlərini, qohum-qardaşını itirib tənha qalmağın ağrılarını onun kimi kim duya bilərdi ki?... Ağlamaqdan gözlərində yaş qalmayan Ümidin dodaqlarından qopan bu haray, vahimə dolu kəlmələr Şəlalə ananı göyüm-göyüm göynətdi:

– Tanrı yenə də bizi sınağa çəkir...

Nə eləyəcəklərini, necə qərar verəcəklərini bilməyən ər-arvad odla su arasında qalmışdılar. Onların həyatına yeni rəng qatan Ümidəni itirmək qorxusu başlarının üstündən ayrılıq qılıncı kimi asılmışdı...

Handan-hana özünə gələn, xəyallar dünyasından ayrılıb, real həyata qayıda bilən Ümid vicdanının hökmü ilə dilləndi:

– Bacını qardaşdan ayırmaq insafdan deyil, ay arvad. Onda bizim qaniçən cəlladlardan nə fərqimiz olardı ki?!

– Elə olmağına elədi... Ancaq həqiqəti bilən Ümidənin nə hala düşəcəyini təsəvvürünə gətirirsənmi? Onun kövrək ürəyi bu ağrılara, əzablara necə dözəcək?

– Neyləməli? Həyat necə acı, əzablarla dolu olsa belə, yenə də həyatdı... Gec-tez doğma qardaşını tapmaq sevinci onun ağrılarının, əzablarının məlhəminə dönəcək...

– Həqiqəti bilən Ümidə bizi bağışlayacaqmı görəsən? Qorxuram ki, o, bizi qardaşı bacıdan ayıran amansız, qəddar qatillərə tay hesab eləsin...

***

Ər ilə arvad səhəri dirigözlü açdılar... Nə eləyəcəklərini bilmirdilər. Onlar öz qızları kimi böyüdüb tərbiyə etdikləri, boya-başa çatdırdıqları, elin adəti ilə toy eləyib xoşbəxt ailə, oğul-uşaq sahibi elədikləri Ümidənin (Sədaqətin) xoşbəxt bu gününə bədbəxt keçmişinin kölgəsinin düşməsini qətiyyən istəmirdilər... Ancaq ürəklərinin dərinliyində hiss eləyirdilər ki, buna nail ola bilməyəcəklər...

– Görəsən Sədaqət biləndə ki, onun doğma atası, anası biz deyilik, hansı hisslər keçirəcək?

– Nə bilim, ay Ümid, nə bilim mən başı daşlı?

Ümid ümidsizliklə verdiyi sualın cavabını özü axtarmağa başladı. Anladı ki, insanın öz içində çəkdiklərini heç kəs kənardan onun özü kimi duya bilməz... İnsanın içində elə hisslər, duyğular var ki, adam onları ən yaxın sirdaşla da bölüşmək istəmir. Elə hisslər, düşüncələr, ağrılar, əzablar, gizli məqamlar var ki, insan bunları nəinki özgələrlə, hətta özü-özüylə bölüşməkdən belə çəkinir. Azmı olub adamın özünün özündən utandığı anlar? "Can candan ayrıdır"

ifadəsi elə-beləmi yaranıb? "Toxun acdan nə xəbəri" də elə onun kimi insanlar üçün deyilibmiş sən demə...

İnsanlar 50 il bir yerdə yaşasalar, 50 il bir yastığa baş qoysalar belə, yenə də bir-birinin ürəyindən nə keçdiyini bilmirlər ömürləri uzunu...

Əslində bütün əzablar da, bütün həzzlər də fərdidir... İnsan dünyaya tək gəlir, adamlar arasında belə həmişə tənha olur, öləndə də tək ölür, dəfn olunanda da tək dəfn olunur... Bir qəbirdə ikinci adama yer olmur... Hətta güman ki, insan Cəhənnəm əzabını da, Cənnət sevincini də tək dadmalı olur...

***

Valideynlərinə baş çəkməyə gələn Ümidə anasını da, atasını da kefsiz gördü. Ancaq bu kefsizlik əvvəlkilərə bənzəmirdi... İkisi də altdan-altdan Ümidəyə baxır, ah çəkirdi...

Ümidə təəccübləndi:

– Nə olub sizə? Nəsə gözümə birtəhər dəyirsiniz?

– Heç, ay qızım, yenə atanın yadına başına gələn müsibətlər düşüb... Bu haqda söhbət elədik, ikimizin də əhvalımız pozuldu...

Qız bir söz deməyib, paltarını dəyişməyə gedəndə Ümid sakit səslə arvadına dedi:

– Bilmirəm necə eləyək? Bu həqiqəti nə vaxta qədər gizlətməli olacağıq axı?

– Bilmirəm, ay Ümid, bilmirəm. Ancaq gec-ya tez məsələ açılmalıdı. O televiziyada bacısının yolunu həsrətlə gözləyən oğlana baxanda ürəyim lap parça-parça olur. O da yazıqdır. O da insandır...

– Ayrı yolumuz yoxdur, dur qızımızı da götürüb televiziyaya gedək...

– Yox, mən efirə çıxa bilmərəm, ay kişi. Elə bilmə ki, utanıram. Yox, belə deyil. Ancaq qardaş-bacının görüş səhnəsinə baxmaq mənim üçün çox ağır olacaq.

– Elə mən də sən gündəyəm.

– Bəs onda neyləyək?

– Bəlkə İntiqamla göndərək qızı?

– Nə danışırsan, heç nədən xəbərsiz İntiqam da uşaqdı hələ. Bizim kimi dünyanın bərkinə-boşuna düşməyib...

– Düz deyirsən, çətin də olsa özümüz getməlyik.

Elə bu vaxt Ümidə paltarını dəyişib gəldi. Bir vaxt bir-birləri ilə danışanda gur-gur guruldayan atası ilə anasının pıçıltı ilə söhbətləşmələri onu şübhələndirdi. Sualedici, nigaran nəzərlərlə onları süzüb soruşdu:

– Deyin görüm, nə olub?

– Heç nə, ay qızım. Nə olacaq ki?

– Yox, hiss eləyirəm ki, nəsə məndən gizləyirsiniz...

Ümid hiss elədi ki, sözü uzatmağın mənası yoxdu. Ona görə mümkün qədər həyəcanını gizlədərək dedi:

– Narahat olmalı bir şey yoxdu, mənim qızım. Ancaq həyat qəribəliklərlə doludu. İndi biz səni də götürüb televiziyaya getməliyik. Yaxın bir qohumumuz gəlib, bizi axtarır. Onun görüşünə getməliyik.

Qız bir az arxayınlaşdı:

– Burda narahat olası nə var ki! Siz verilişə gedin, mən də evdə yır-yığış eləyim.

– Yox, ay qızım. Səni də özümüzlə aparmaq istəyirik...

– Məni niyə?

– Birdən həyəcanlanarıq, halımız pisləşər. İstəyirik ki, sən də yanımızda olasan.

Qız çar-naçar razılaşdı. Onlar taksiyə minib, televiziyaya getdilər. Canlı yayım təzəcə başlamışdı. Ümid verilişin redaktoruna yanaşdı. Onlar nə haqdasa danışdılar. Sonra qızı ilə yoldaşının yanına qayıtdı.

Ümidə nigarançılıqla soruşdu:

– Sən o oğlanla nə danışırdın?

– Mən ona məlumat verdim ki, gözləmə otağındayıq. Bizi axtarmağa gələn qohumumuza sürpriz eləmək istəyirlər. İndi bir azdan bizi də çağıracaqlar.

Gözləmə otağında televiziyaya baxırdılar. Birdən sarışın bir oğlan göstərdilər. Aparıcı ona dedi ki, Elşən, səni təbrik eləyirik. Bacını tapmışıq.

Oğlan həyəcanlandı. Aparıcı onu sakitləşdirməyə çalışdı.

Gözləmə otağında televiziyaya baxan Ümidə oğlanı göstərib gülümsündü. Yanındakı anasına dedı ki, bəxtəvər başına bu oğlanın, bacısını tapıb...

Ana həyəcanlandı. Qızını bağrına basdı... Səni də təbrik eləyirəm, ay qızım...

Qız təəccübləndi:

– Məni niyə, ay ana?

– Bir az səbrli ol, indi hər şeyi biləcəksən...

Aparıcı oğlana dedi:

– İllərdən bəri axtardığın bacın Sədaqət gözləmə otağında səni gözləyir.

Oğlan ayağa durdu. Diktor əməkdaşlara söylədi ki, Sədaqət xanımı efirə dəvət edin.

Redaksiyanın əməkdaşı Ümidəyə yaxınlaşıb dedi:

– Xanım, buyurun studiyaya, qardaşınız sizi gözləyir.

– Siz səhv salırsınız, mənim adım Ümidədi, Sədaqət deyl...

Anası Ümidənin qolundan tutub onu qaldırdı:

– Qalx, qızım, Sədaqət elə sənsən...

Qız heyrətə gəldi:

– Nə danışırsan, ay ana!

Evdə hər şeyi sənə başa salacam. İndi ayağa durub, studiyaya gir. Orda doğma qardaşın səni gözləyir.

Yer-göy başına fırlandı, torpaq ayağının altından qaçdı elə bil. Fikirləri bir-birinə qarışdı. Elə bildi ki, qorxulu bir yuxu görür. Ancaq bu yuxu deyildi, həqiqət idi...

Qız içəri girəndə heyrətləndi. Ona sarı gələn oğlan Ümidəyə çox doğma gəldi... Bacı ilə qardaş qucaqlaşdılar. Onların dilsiz göz yaşları bir-birinin çiyninə töküldü...

Ümid atayla Şəlalə ana da baş-başa verib hönkür-hönkür ağlayırdılar... Onları da studiyaya çağırdılar. Ümidi qəhər boğdu, bir kəlmə də danışa bilmədi. Şəlalə isə yalnız bu sözləri deyə bildi:

– Oğlum, doğma bacını tapdın. Mən buna çox sevinirəm. Həmişə bizə gəl-get. Bacının evi sənin də evindi... Ancaq səndən bircə xahişim var. Heç olmasa bizim yanımızda bacını Sədaqət deyə çağırma. O, mənin Ümidə balamdı...

Veriliş bitdi. Onlar birlikdə evə qayıtdılar. Hamı həyəcanlı idi. Ümidə altdan-altdan həm onu doğma balaları kimi böyüdən Ümid ataya, Şəlalə anaya, hərdən də qardaşına baxırdı. Uşaqlıqlarını xatırlamasa da, Elşən ona o qədər doğma gəlirdi ki... İstəyirdi desin ki, bax, yuxumda gördüyüm bu qaqaş idi, ana...

Ancaq utandı. Düşündü ki, onu doğma balası kimi böyüdən, min bir əzaba qatlaşan, saçının birini ağ, o birini qara hörən qadının ürəyinə toxuna bilər...

Qız yolboyu başına gələnləri götür-qoy edir, öz-özünə düşünürdü ki, insanı təkcə qan qohumluğu deyil, dərd də doğmalaşdırarmış...

Ümidə xoşbəxt idi. İndi onun Elşən, İntiqam kimi iki qardaşı, Lalə kimi sevimli bacısı, Ümid kimi qeyrətli atası, Şəlalə kimi mehriban, ləyaqətli anası, Vüsal kimi sədaqətli, diqqətcil həyat yoldaşı, həm də ay parçası kimi gözəl bir oğlu var idi...

Nə qədər həyəcanlar keçirsə də, iztirab çəksə də, ağrılar-əzablar, göz yaşları içində belə Ümidə özünü bəxtəvərlər bəxtəvəri hesab eləyirdi... Ancaq qəlbinin dərinliyində bir nigarançılıq var idi. Qorxurdu ki, bu, reallıq yox, yuxu ola, şirin bir yuxu...

Sən demə, itirdiyini tapmaq çox böyük xoşbəxtlik imiş... Ancaq qızından fərqli olaraq, Ümid ata itirdiklərini çətin ki, bir də tapa biləydi...

IX fəsil

## DƏHŞƏTLİ FAKTLAR, ƏZABLI DÜŞÜNCƏLƏR

Ümidlərin doğrulmadığı, qisasın alınmadığı 30 ilə yaxın bir müddətdə öz həyatını başqa şəkildə davam etdirmək məcburiyyətində qalan Ümidin axtarıb-aramağa, fikirləşməyə, tarixi öyrənməyə çox vaxtı olmuşdu... O, daim oxuyur, axtarışlar aparır bu fəlakətlərin hardan qaynaqlanması haqqında düşünürdü... Öz praktikasından gözəlcə bilirdi ki, dünyanın görkəmli şəxsiyyətlərinin erməni xisləti haqqında yazdıqları qətiyyən uydurma deyil, həqiqətdir. Ümid bu həqiqətləri indiki məqamda bütün dünyaya çatdırmaq gücündə deyildi... Ona görə istəyirdi ki, hər şeyi öz yeni evindən başlasın... Ancaq bu yeni evin dağıdılmış, məhv edilmiş bir ailənin bünövrəsi üstündə bərqərar olması onu fikrən çox incidirdi... Ancaq başqa bir çarə yox idi... Ümid heç olmasa bu müsibətlərin tarixçəsini öz varisi olan oğlu vasitəsi ilə gələcək nəsillərə ötürmək fikrində idi. Arabir oğlunu bu əzablarla yükləmək, onun uşaqlıq dünyasını əlindən almaq istəməsə də, amansız zaman öz işində idi. Ümid qorxurdu ki, birdən bu faciələri oğluna danışmadan dünyadan köçə... Ona görə İntiqam böyüdükcə, ona atasının danışdığı ağrılı xatirələr öz işini görürdü...

Dərd insanı tez böyüdür, – deyirlər. İntiqamı da atasından eşitdiyi ailə faciəsinin tarixçəsi tez böyütmüşdü... O, yaşıdlarından əhəmiyyətli dərəcədə fərqlənirdi... Boy-buxunca yox, xasiyyətcə... O, uşaq kimi yox, böyüklər kimi

düşünürdü... Özü də dünyanın ağrı-acısını dadmış böyüklər kimi...

İntiqam atasının, onun ailəsinin, bütün Qarabağ camaatının başına gətirilən müsibətlərdən xəbərdar idi. Ancaq kişiyə yenidən o məşəqqətli günləri yaşatmamaq üçün onu sorğu-suala tutmurdu. Mətbuatı izləyir, o günlərin məşəqqətlərini əks etdirən yazıları oxuyurdu. Bu yazılar oğlanın içini göyüm-göyüm göynədir, qəlbindəki intiqam hissini alovlandırırdı. Bax budur, o yazılardan biri... İndi sakitcə oxu görüm necə oxuyursan? Bir qızcığazın faciəsi analarımızın, bacılarımızın başına gətirilənlərin hələ dillə demək mümkün olan bir damlası idi. O zavallı insan yazırdı:

*"Dizlərimi qarnıma çəkib oturdum. Başımı əllərimin arasında sıxıb ağladım. Şüurlu bir təkliyin içində, özümlə qarşılaşmaqdan qorxdum, qaçmaq istədim! Bilirdim əslində qaçmağın, susmağın, qorxmağın nə demək olduğunu! Amma bu dəfə başqa idi... Çünki 23 ildir qurtula bilmirdim!*

*Yenə həmin 4 gün yaxınlaşır. Yenə mən unutmağa çalışdığım o günləri, xatırlayıb, 4 gün min dəfə ölüb, diriləcəm!*

*Acımasız qəhqəhələr, bomba səsləri, qan gölünə dönən küçələr, bitməyən fəryadlar... İllər keçməsinə baxmayaraq, hələ də özümü tapa bilməmişəm! Nə vaxt yadıma düşsə, qırıb dağıdıram. Gözlərim qan çanağına dönür ağlamaqdan...*

*Yumruğumu, dırnağım ətimi qanadana qədər sıxıram! Dünyaya qız doğulduğum üçün yaradanı lənətləyirəm!*

*13 yaşım var idi. 12 il keçirdiyim o müdhiş qış fəslinin 13-cü ilini yaşayırdım. Amma deyəsən bu qış daha sərt keçəcəkdi!*

*Müharibənin nə olduğunu dərk etmirdim. Amma hər şey "kaş o səhər, heç açılmazdı" dediyim gün dəyişdi... Soyuq qış səhəri idi. Hər tərəf ağ örpəyə bürünmüşdü. Qapı sərt şəkildə döyülməyə başladı. Bir qədər sonra ayaqla vururdular.*

*Səs hamımızı qorxutdu. Atam qapını açan kimi, avtomatın arxası ilə sinəsindən vurdular. Zərbənin təsirindən, qeyri-ixtiyarı olaraq atam yerə sərildi!*

*Sonra silahı bizə tuşlayaraq çölə çıxmağımızı əmr etdilər. Bizi evimizin qarşısındakı meydana yönəltdilər. Burda çoxluğun qadın və uşaq təşkil etdiyi xeyli insan vardı. Güllələr göydə uçuşurdu. Sağa, sola diqqət etməsək, alnımıza dəyəcək kimi idi.*

*Bir qədər sonra hərbi maşınlardan 20-yə yaxın əsgər düşüb, bizə doğru gəldi. Avtomatı üstümüzə tuşlayaraq, maşınlara çıxmağımız üçün əmr verdilər. Meşənin yaxınlığında hərbi hissənin bazasına gətirdilər.*

*Elə maşından düşəndə, gördüklərimdən şoka düşdüm. Dörd bir yanda işgəncə var idi. Qadınlar zorlanır, kişilər döyülürdü. Avtomatın arxası ilə kişilərin cinsi orqanına vururdular. Bir daha uşaq dünyaya gətirə bilməmələri üçün....*

*Yeni doğacaq nəslin, onlardan olacağını deyirdilər. Bir qədərdən sonra kişiləri maşından düşürdülər. Atam gözə dəymirdi.*

*Hamı ac-susuz idi. Mən isə özümü qır qazanına atılmış və bir azdan əriyib məhlula dönəcək kimi hiss edirdim. Balaca bədənimlə insanların arasında özümü unudulmuş kimi hiss etməyim isə bir az təsəlli verirdi. Sanki kiçik olmam, avantajım idi.*

*Bir qədər sonra qaranlıq çökdü, göstərişə əsasən bizi hərbi maşınlara yığaraq meşəyə doğru aparırdılar. Yollarda gördüyüm mənzərə dəhşət idi. Şəhər qan gölünə dönmüşdü. Adama elə gəlirdi ki, göydən yağış əvəzinə qan yağmışdı.*

*Ortalıqda düşmən ordunun əsgərləri görünürdü. Yerə sərilmiş insanların, ölüb ölmədiyini yoxlayırdılar. Hərəkət və səs gələn kimi yenidən güllələyirdilər.*

*Daha əvvəl görmədiyim yerə gətirdilər bizi. Burada da xeyli əsir və eyni işgəncələr gördüm. İnsanları diri-diri yandırırdılar. Bəzi kişilər irəli çıxıb, hansısa qadını qorumaq istəyəndə güllələnirdi!*

*Bu günə qədər yadımdadır, bir neçə dəqiqə ərzində 20-yə yaxın kişi öldürüldü. Kişilərin çoxu qadınlara qarşı o mənzərəni görməkdənsə, sanki etiraz edib güllələnməyi* daha üstün tuturdular! *İnsanlıq tarixinin o mənzərəni görməyə hazır olmadığına əminəm!*

*Baş verənləri görməmək üçün ölmək istəyirdim. Hər dəfə insanlara edilən vəhşiliyi görəndə, ətimdən ət kəsilirdi. Beynimi uyuşdurmaq, yatmaq, yox olmaq istəyirdim. Gənc qızlara atalarının gözünün qarşısında təcavüz edir və qorxulu filmlərdə, əcaib rol ifaçısı kimi qəhqəhə çəkirdilər. "Ölümə məhkumsunuz, soyunuzu qurudacağıq, qarnınızda bizim oğlanlarımızı daşıyacaqsınız", – deyib, qadınlara hücum çəkirdilər.*

*Gözümün qarşısında hamilə qadının qarnın cırıb, uşağı çıxardıb, ocağa atmışdılar. O mənzərəni görəndə, mən çoxdan özümdən getmişdim. Gözümü açanda o vahimənin içində gözüyaşlı anamı gördüm.*

*Orda qaldığım 4 gün davam edən vəhşilikdən geriyə, az sayda sağ insan qalmışdı. O vaxta qədər mənə, anama və*

*bir neçə qadına toxunmadıqları möcüzə olmalı idi. Növbəti gecə idi. Göyün üzü qırmızı idi. Sanki yerdəki qanın rəngi, göydə əksini tapmışdı.*

*Qaranlıq, pis qoxulu otağın bir küncünə sıxılmışdıq. Bir azdan ayaq səsləri gəldi. Anam məni bərk-bərk qucaqlayıb bağrına basmışdı. Əlacı olsa sanki yenidən bətnində gizlədəcək qədər titrəyirdi. Amma titrəməsi boş yerə deyildi. Çünki o ayaq səslərindən sonra gələn əl, məni anamdan dartıb qopardı. Az qalırdı naləsi göyə çatsın, onu daha əvvəl bu cür görməmişdim. Məni nə üçün apardıqlarını başa düşmürdüm. Ağlayır, bildiyim bütün yalvarışları edirdim, aparmamaqları üçün!*

*Dəhliz boyunca gah sürüyərək, gah itələyə-itələyə bir otağa atdılar. Özümü itirmədən sakitləşdim. Otağa göz gəzdirdim. Hiss olunurdu ki, bu otaq digərlərindən səliqəli və hansısa rütbəli şəxsə məxsusdur. Bir qədər sonra dəhlizdə iti və ağır addımlar eşidilməyə başladı. Qalın bir səs, "onun qızıdır?" sualını verib, cavab almadan içəri daxil oldu!*

*Hündür, kök, 45 yaşlarında, saqqalı, saçında tək-tək ağ tük görünən adamla göz-gözə gəldik! Üzündəki nifrət, ürək bulandıran gülümsəmə ilə üzümə baxdı. Qəfəsdən açılan vəhşi heyvan kimi üstümə şığıdı.*

*Sadəcə əlimi üzünə atıb, cırmağa fürsət tapa bildim. Çünki bir qədərdən sonra saçımdan yapışaraq, divara çırpmışdı. Bədənim sanki maşın altından çıxmış kimi sızıldayırdı. Deyəsən dişim qırıldığı üçün ağzım da qan içində idi.*

*Alnımdan axan qan da, üzümdən süzülərək gözümə dolmuşdu. Özümə gəlib, qan dolu gözlərimi açanda, qarnım-*

*dakı dəhşətli ağrı, bütün ağrılarımı unutdurmuşdu! Bədənim keyimişdi! Hərəkət etmədən fikirləşirdim. Anamın niyə nalə etməsini indi daha yaxşı başa düşürdüm!*

*Artıq balaca qız yox, təcavüzə uğramış qadın idim. İçi parçalanmış, hissi alınmış, həm bədəninə, həm ruhuna, həm gələcəyinə təcavüz edilmiş qadın!*

*Qadın kimi formalaşmayan kiçik bədənim, təcavüzün ən dəhşətlisinə məruz qalmışdı.*

*Yerdən qalxa bilmirdim. Sanki illərlə yatağa bağlı xəstə idim. İndi isə yataqdan yerə düşmüş, həmin köməksiz xəstədən fərqim yox idi.*

*Özümə gəlmədən növbəti dəfə eyni adam daxil olmaqla, digər əsgərlərin təcavüzünə məruz qaldım. Üzünü cırdığım yekəpər hər dəfə şüşədə və ya güzgüdə üzünü görəndə çəkdiyi siqareti bədənimdə söndürərək, balaca fahişə ilə başlayan söyüşləri sıralayırdı. Təbii ehtiyacını üstümə tökürdü, "sizi belə məhv etmək lazımdır", - deyirdi!*

*Bədənim siqaret kötüyünün yanıqları, içim parçalanmış halda daha nə qədər dözə bilərdim?! Bəzən elə bilirdim gördüklərim yuxudur!*

*Amma hər dəfə diksinib özümə gəlirdim! Ölmək üçün çarələr axtarırdım. Amma əslində ölüdən fərqim yox idi.*

*Qurtuluşum da belə oldu. Ölü bilib, digər cəsədlərlə birlikdə bir dərəyə atmışdılar. Sonradan öyrəndim ki, əsgərlərimizdən biri təsadüfən xırıltımı eşidib, məni Ağdama-xəstəxanaya aparıb. Bir neçə il danışa bilmədim. Dilim tutulmuşdu.*

*Bədənimdəki yaralar sağaldı! Ancaq izləri həm bədənimdə, həm ruhumda qaldı. Elə həmin gündən bütün*

*qoxular barıt, bütün rənglər qırmızı və qara, bütün səslər avtomat və bomba səsləri oldu…*

*Nə uşaqlığımı yaşaya bildim, nə gəncliyimi, nə qadınlığımı. Sevişmə sonrası qadın olmadım mən! Gənc qızlıqdan qadınlığa keçid etmədim. Ehtiras, hərarət, istilik nədir bilmədim!*

*Əsir oldum, şəhid qızı oldum, kimsəsiz oldum, şagird oldum, tələbə oldum, amma qadın ola bilmədim!*

*Aynanın qarşısına keçib, bədənimə baxanda siqaret izlərini görüb bədənimdən iyrəndim. Başımın sağ tərəfindən, həmin gün kökündən yolunan saçımın keçəl yerini görəndə, özümdən iyrəndim! Fəryadımı kimsə eşitmədiyi üçün, qulağımdan getməyən səsimdən iyrəndim! Qadın olduğum gün, qadın olmağımdan iyrəndim! Qadınlığı rədd etdim!*

*Hamı məni Xocalıda təcavüzə uğramış qız kimi göstərdi. Bir daha mən yenə özümdən iyrəndim. Bir gerçək var idi əslində: mənim bədənimə, barmaqla göstərənlərin isə vicdanına təcavüz edilmişdi.*

*12 il yaşadığım Xocalı, 4 gün və bir adla yadımda qaldı. Təcavüz!*

*Türkan Turan"*

Dəhşət, dəhşət, dəhşət… İndi oxu görüm necə oxuyursan bu yazıları? İndi döz görüm necə dözürsən bu ağrılara? İndi xoşbəxt ol görüm necə xoşbəxt olursan içində bu qədər ağrılar, əzablar, iztirablar ola-ola?!

İntiqamı ən çox dəhşətə gətirən isə özünü ziyalı sanan canilərin etirafı idi. Bütün etiraflarda bir peşmançılıq hissi olur bu və ya digər şəkildə. Bu şərəfsizlər isə etdikləri cina-

yətlərdən zövq, ləzzət ala-ala danışırdılar… Namuslu bir xalqı təhqir eləməyə, alçaltmağa, ələ salmağa çalışırdılar.

İntiqam erməni xisləti ilə bağlı yazıları oxuduqca elə bil ki, ona hər şey aydın olurdu. Dünyanın cikini-bikini yaxşı bilən Karl Marks təsadüfi yazmırdı ki: *“Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur".* Marksın dostu, əqidə yoldaşı Firidrix Engelsin qənaətləri də göydəndüşmə deyildi, faktlara əsaslanırdı. O, yazırdı: *"Korinfdə və hətta Hindistan məbədlərində qulluq edən ilk rəqqasə və fahişələr erməni kənizləri olmuşlar".*

Müasir dövrdə Kardaşyanların at oynatması göstərir ki, nəsillər nə qədər dəyişsə də, bu zatıqırıqlar öz məqsədlərinə çatmaq üçün hər bir rəzilliyə hazırdırlar. Biz isə sadəlöhvcəsinə onlardan şərəf, ləyaqət, humanizm umurmuşuq.

Hamı bilir ki, bizdə namus, qeyrət məsələsi tamam fərqlidi… Namus ləkəsini ancaq qanla yumaq olar. Düşmən əsirliyinə düşməsin deyə özünü qayadan atıb öldürən qadınlarımızın, qızlarımızın ruhu qarşısında baş əyirik… Ölməyi namus ləkəsiylə yaşamaqdan üstün tutan qadınlarımız xalqın şərəf, ləyaqət simvolu sayıla bilər…

Atasıyla bu haqda söhbət eləyəndə Ümid həmişə oğluna deyirdi ki, erməniyə etibar yoxdur. Biz çörək kəsdiyimiz insana qətiyyən xəyanət eləmərik. Onlar üçün isə duz-çörəyi tapdamaq su içimi kimi asan bir şeydi. Dost sandığımız, mehriban qonşuluq şəraitində yaşadığımız bu haylar ağır sınaq məqamında nəinki bizə qahmar çıxdılar, əksinə etibarımızdan istifadə eləyib bizi tələyə saldılar. Xocalı soyqırımında cəlladları fitləyib üstümüzə göndərən də elə onlar idi…

Həmişə bu mövzuda söhbət düşəndə Ümidin ürəyində intiqam hissi baş qaldırır, onun gülüşü yadırğayan qara gözlərininin dərinliyində nifrət qığılcımları oynayırdı… Oğlu onun haldan-hala düşdüyünü, məşəqqət ocağında qovrulduğunu görəndə araya başqa söhbət salmağa çalışırdı. Ancaq Ümid göynəyə-göynəyə deyirdi:

– Ay oğul, bəlkə də mənim sözlərim sənə qəribə gəlir, elə bilirsən ki, başıma gələnlərə görə qisas məqsədiylə belə deyirəm, ancaq fakt faktlığında qalır. Düşünərsən ki, bir para cəlladın hərəkətinə görə bütün xalqı nankor adlandırıram. Ancaq bu, həqiqətdir. Görünən dağa nə bələdçi?

– Düz deyirsən, ay ata. Mən oxumuşam, ayıq düşüncəli ermənilərin özləri də özlərinin, yəni öz xalqlarının nümayəndələrinin düşüncəsiz hərəkətləri, genetik xəstəlikləri haqqında az söz deməyiblər.

– Nə deyiblər? Mən heç onların da səmimiyyətinə inanmıram. Söz ayrı, əməl ayrı. Ancaq bir fikirlə mən də şərikəm ki, ermənilərin düşməni elə onların özləri olub həmişə…

– Hə, elə ermənilərin özləri də bu fikirdə olublar çox zaman…

– İlanın ağına da lənət, qarasına da. Ay oğul, onlara inanma heç vaxt. Söz ayrıdı, əməl ayrı. Danışanda elə danışırlar ki, düşünürsən ki, bunlardan ağıllı millət yoxdur… Ancaq tarix boyu olan hadisələr göstərir ki, onların göz yaşları da timsahın göz yaşları kimi bir şeydir…

– Elə olmağına elədi, ata. Ancaq onların dedikləri bəzi sözlərdə həqiqət var.

Ümid əsəbiləşdi:

– Nədi axı bu həqiqət?

– İcazə versən, onlardan bəzilərinin fikrini sənə oxu-yardım…

Ümid susdu. İntiqam bunu razılıq əlaməti hesab elədi və oxumağa başladı:

– Ay ata, gör erməni tarixinin atası sayılan **Movses Xoronesi** hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında nə deyirmiş: *"Mən xalqımızın daşürəkliliyini və yekəxanalığını göstərmək istəyirəm. Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir".*

Ümid kişi dilləndi:

– Ə, bunu erməni deyir?

– Bəli.

– Heç adamın inanmağı gəlmir ki, erməni sözün düzünü deyə.

– Yox, ay ata, deyənlər var. Yeqişe Çarens adlı bir erməni şairi olub, bəlkə də adını eşitmisən.

– Ad tanış gəlir, ancaq xatırlaya bilmirəm.

– Onun şeirlərini Mikayıl Müşfiq bizim dilimizə tərcümə eləyib.

– Bu da Müşfiq! Adam tapmayıb şeirlərini tərcümə eləməyə?

İntiqam söhbətin istiqamətini dəyişməyə imkan vermədi:

– O şair yazır ki, bizdə riyakarlıq hələ ana bətnindən əmələ gəlir…

– Bax bunu düz deyir.

– Bir başqası, Petroni Qay Amatuni deyir ki…

– Ə, belə də erməni adı olar? Gürcü adına oxşayır.

– Yox, sovet dövründə yaşayan bir yazıçı olub. O yazır ki, ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər…

– Heç insan olan da Xocalı faciəsini törədərdimi? Heç insan olan da arvada, uşağa, qocaya, xəstəyə ağılagəlməz işgəncələr verərdimi? Kökü kəsilsin hamısının! Yer üzündə bu qədər əzazil, qəddar millət görməmişəm. Həyasızlıqları o dərəcəyə çatıb ki, törətdiklərinə görə utanmaq əvəzinə, hələ bir utanmaz-utanmaz fəxrlə də danışırlar. İnsanlıq simasını itirən Balayan kimi… Onlar oğrudurlar, quldurdurlar, canidirlər…

– Bu doğrudur. Heç nəyi olmayanlar oğurluqla məşğul olurlar.

– Bu nankorlar torpaqlarımıza göz dikirlər, malımızı-mülkümüzü talayırlar. Musiqimizi, mahnılarımızı, xalçaçılıq sənətimizi, hətta mətbəximizi belə oğurlayıb öz adlarına çıxmağa çalışırlar.

– Elədi, ay ata, elədi. Ermənilərin özlərinin arasında da elə adamlar var ki, bunu etiraf eləyirlər. Məslən, Kerar Patkanov adlı bir erməni şərqşünas alimi yazır: *“Ermənistan bəşəriyyət tarixində dövlət olaraq heç bir əhəmiyyətli rola malik olmayıb. Onun adı ermənilər tərəfindən yayılan coğrafi termin olub. Bura güclü dövlətləri olan assuriyalılarla, midiyalılarla, iranlılarla, yunanlarla, monqollarla, ruslarla mübahisələrin həlli məkanı olub”.*

*“Türkmənçay” müqaviləsi imzalanandan sonra (10 fevral 1828-ci il) Paskeviçin rəhbərliyi ilə Azərbaycana İrandan 40 min, Türkiyədən 90 min erməni köçürüldü. Birlikdə götürüldükdə 1828-1896-cı illərdə İrəvandan və Türkiyədən köçürülənlərin sayı 2 milyon 200 mindən artıq*

*olmuşdu. Onlardan 985 min 460 nəfəri Azərbaycanın qərb torpaqlarında, qalan hissəsi isə Qarabağ və Yelizavetpol (Gəncə) quberniyasında yerləşdirilmişdi. Ermənilər bu yerlərdə məskunlaşandan sonra azərbaycanlıları sıxışdırmağa başlamış, onların qarətçilik əməlləri adi hal almışdı".*

Erməni tarixçisi Qevorq Aslanın "Ermənistan və ermənilər" (1914) kitabında gör nə yazılır: *"Ermənilərin dövlətçiliyi olmamışdır. Ona görə də onlarda vətən hissi yoxdur. Erməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə əlaqələndirilir. Bir dövlət kimi heç bir zaman mövcud olmamış xəyali "böyük Ermənistan" yaratmaq ideyası dünyanın bütün haylarını birləşdirmək yolunda ümummilli konsepsiyadır".*

Hələ bu harasıdır? Erməni yazıçısı X.Abovyan yazır: *"Erməni dilinin yarısı türk, yarısı da fars sözləridir".*

Erməni jurnalisti R.Açaryan isə söyləyir ki, erməni dilində 4200 türk sözü var.

Erməni tarixinə dair bir çox əsərlərin müəllifi professor **Leo** bütün uydurmalarına rəğmən etiraf etməyə məcbur olub ki: *"Erməni aşıq yaradıcılığının yalnız kiçik, əhəmiyyətsiz bir hissəsi bizim ədəbiyyata aiddir. Onun böyük hissəsi (dastanlar, qəhrəmanlıq nəğmələri) mahnılar türk dilindədir. Nağıllarda və nəğmələrdə əks olunan həyatı ifadə etmək üçün türk dili daha əlverişli, obrazlı və zəngindir".*

– Bunlar köhnə söhbətlərdi, a bala. İndiki ermənilər tamam başqa cür düşünürlər. Onlar əsrlər boyu uşaqlarını bizə nifrət ruhunda tərbiyə eləyirlər. Elə yalan uydururlar ki, adamın matı-qutu quruyur. Soyqırım törədən onlardı, bütün dünyaya deyirlər ki, türklər bizi qırırlar. Havadarları da

onların tərəfini saxlayır həmişə. Atalar çox doğru deyiblər ki, arxalı köpək qurd basar.

– Bunlar düzdü, ay ata, ancaq onların arasında da həqiqəti dərk eləyən, bunu dilinə gətirməkdən qorxmayanlar var.

– Yox, heç inanmağım gəlmir. Onların həqiqi sözlərinin də arxasında bir riyakar məqsəd gizlənir…

– Vaqe Avetyan adlı erməni yazıçısının Xocalı soyqırımı ilə bağlı söylədikləri ermənının erməniyə verdiyi ən yaxşı dəyərdi. Onun verdiyi müsahibədəki sözlər əslində ittiham sənədidir:

*"Biz o səviyədə vəhşiləşmişik ki, artıq kimsə özünü normal aparanda buna təəccüblənirik... Ermənilərin öz səsini duyura bilməsi üçün, əvvəlcə onları son 25 ildə düşdükləri konslagerdən azad etmək lazımdır. Ermənistanda adamı azad sözə görə şikəst edə, hətta öldürə də bilərlər".*

*"Bilin ki, ermənilər heç vaxt öz ölkəsinin siyasəti ilə məşğul ola bilməyiblər, yeganə istisna dövlət müstəqilliyinin elan edilməsi olub. "Qarabağ münaqişəsi" məhz bunun bədəlidir ki, onu ödəyirik".*

Ümid ümidsizliklə dedi:

– Heç bədəl ödəyənə oxşamırlar bunlar. Ən dəhşətlisi odur ki, özlərini ziyalı hesab eləyən başqa millətin nümayəndələri də haqqın yox, haqsızlığın tərəfində dayanırlar. Onların iftira dolu həyasız çıxışları adamı lap əsəbiləşdirir. Heç o zatıqırıq Zatulini demirəm, haqq-ədalət, humanizm carçısı olan Lev Tolstoyn soyadını daşıyan bir yekəpərin yava-yava danışığı adamı lap əsəbiləşdirir. "Oddan kül törəyər" belələri üçün deyilib e…

– Onu düz deyirsən. Heç bilirsən Lev Tolstoyun doğmaca qızı ermənilər haqqında nə deyib?

– Deyərsən, bilərəm.

– Bir maraqlı məqaləyə rast gəlib surətini çıxarmışam. Bir az, gözlə, gedib gətirim.

Bir az keçəndən sonra İntiqam əlində bir necə vərəq yazı gəlib çıxdı. Ümid səbrsizliklə dedi:

– Hə, oxu görüm nə yazırlar orda?

– Ata, dahi yazıçının qızı Aleksandra Tolstoya 1915-ci ildə Türkiyənin Van şəhərində ermənilərin törətdikləri cinayətlər haqqında yazır.

– Yəqin bunu da kimsə uydurub. Tolstoyun qızı Vanda nə gəzirmiş axı?

– O, Qırmızı Xaç cəmiyyətinin xətti ilə Rusiya İmperiyasının təmsilçisi kimi ora göndərilibmiş. Şəxsən görüb şahidi olduğu hadisələrdən yazıb. Ona görə də Aleksandra Tolstoyanın qeydlərini həyəcansız oxumaq olmur. Qulaq as gör, o, nə yazır:

*"...Yerlə yeksan olmuş Van şəhəri... Bizim gəlişimizə qədər bu şəhərdə ermənilərlə türklər arasında dəhşətli döyüşlər baş vermişdi.*

*Türklər ermənilər tərəfindən zəbt edilən dağüstü qalanı mühasirəyə almışdılar. Ermənilər qalanın müdafiəsi üçün vəhşi kimi vuruşurdular. Qadınlar gecələri gündüzlərə qataraq mərmilər düzəldir, türklərə atırdılar. Onlar bu vəziyyətə çox tab gətirə bilməzdilər, ərzaqları bitmişdi, silah-sursat, barıt ehtiyatı tükənmək üzrəydi. Əgər bizim kazaklar vaxtında onların köməyinə yetişməsəydi, şübhəsiz, ermənilər təslim olacaqdı. Hər iki tərəfdən xeyli sayda insan tələfatı ilə nəticələnən qanlı döyüşlər oldu. Ölənlərin meyitlərini gölə atırdılar...*

*Türk əsgərləri şəhəri tərk edəndə, təxminən 1000 nəfər Vandan çıxa bilmədikləri səbəbdən əsir götürüldü..."*

* * *

*“...Ermənilər şəhərin türklər yaşayan ərazisinə od vurdular, gil tikililər çətin alışdığından onları ayrı-ayrı yandırdılar...”*

* * *

*“...Məni burada görəcəyim işlərlə bağlı təlimatlandırmışdılar...*

*İki böyük məktəb binası. Tamamilə bomboş qalmış iri otaqlarda nə çarpayı, nə stul var. Döşəmədə üstləri əsgi-üsgüylə örtülmüş çirkli, cansız bədənlər. Türklərdir... kişilər, qadınlar, qocalar, cavanlar, uşaqlar...*

*Körpələrin iniltisi, hönkürtü səsləri, sayıqlamalar... Bəzilərinin sifətində şübhəli ləkələr var. Bu nədir? Cüzam? Çirkli, çəlimsiz əllər bizə tərəf uzanır... Qadınlar ağlaya-ağlaya: “Xanım, xanım!” – deyə yalvara-yalvara bizdən imdad diləyirlər...*

*Gözüm, bir küncə qısılmış, qolları, sanki ölmüş kimi qəribə şəkildə yanlarına düşən bir qadına sataşdı. Onun lap astadan gələn iniltisi güclə eşidilirdi...*

*Mənim sual dolu baxışlarıma cavabında mister Yarrou vəziyyəti izah etdi:*

*– Onun qollarını dartıb kökündən çıxarıblar.*

*– Bunu kim edib? Nə səbəbə?*

*– Ermənilərlə qarşıdurmalar zamanı...*

*– Ermənilər edib? Niyə axı onlar sadə bir qadına belə işgəncə veriblər? – heyrətlə soruşdum. – Amma qəzetlərdə oxumuşdum ki, burada vəhşiliklər törədən, erməniləri kəsib-doğrayan türklərdir. Heç nə anlaya bilmirəm...*

*– Qırğın hər iki tərəfdən olub. Təbii ki, hərbi qarşıdurmada başqa cür ola da bilməz. Türklərlə ermənilər arasında düşmənçilik əsrlər boyu davam edir. Amma burada – Vanda biz ermənilərin, insanlıq adına ləkə olan vəhşiliklərinin şahidi olduq. Ermənilər qadınların döşlərini kəsir, qollarını, əllərini dartıb çıxarır, ayaqlarını sındırırlar... Bu qeyri-insani vəhşilikləri, günahsız qurbanları mən öz gözlərimlə görmüşəm...”*

Ümid yazılanları həyəcanla dinlədi. Gözlərinin önündə buludlar oynadı. Yenə özünü insan cəsədləri ilə dolu o qanlı düzdə təsəvvür elədi. Handan-hana özünə gəlib dedi:

– Biz də insanlıq adına ləkə gətirənlərdən insanlıq ummuşuq, onlara inanmışıq. Sən demə qəddarlıq elə onların qanında, canında imiş…

Bu sözləri deyən Ümid əsəbiləşdi. Əlləri əsdi, gözləri alacalandı… Dili də topuq vurdu. Kəkələyə-kəkələyə nəsə demək istədi…

İntiqam atasının səhhətindən nigaran olduğu üçün söhbətə ara vermək qərarına gəldi. Mövzunu dəyişməyə çalışdı. Alınmadı. Atasını çətinliklə sakitləşdirib, öz otağına keçdi… O da əsəbiləşmiş, həyəcanlanmışdı. Onun da əlləri əsirdi. Barmaqları elə bil tətik gəzirdi…

Oğlan erməni vəhşiliyi ilə bağlı elə yazılar oxumuşdu ki, ürəyindəki intiqam hissi bir an da olsa səngimirdi…

Elə məqalələr var idi ki, atasının qüruruna toxunar deyə onları gizləmişdi İntiqam. O yazılardan biri adamın içini göyüm-göyüm göynədirdi. Əsir düşən qızlarımızın başına gətirilən müsibətlər adamın ürəyinə çalın-çarpaz dağ çəkirdi…

Ümid dəhşətləri öz gözləri ilə görsə də, bu dəhşətin o biri üzündə daha dəşətli hadisələr var idi… Yaxşı ki, hələ bu hadisələrin çoxundan Ümid kişinin xəbəri yox idi… Ancaq bu, onun oğlu İntiqama elə gəlirdi. Xəbəri yox idi ki, onun internetdə görüb çap etdiyi həmin məktubu atası göz yaşı içində dönə- dönə oxuyubmuş…

Bu məktubu Facebookda "Möcüzəli dünya" adlı bir istifadəçi paylaşmışdı və həmin dəhşətli məktub bu cümlələrlə başlayırdı:

*"Salam, Azərbaycan, salam, əziz və qeyrətli xalqımın nümayəndələri...*

*İnanıram ki, bu məktubumu bütün Azərbaycan oxuyacaq və ürək agrısı ilə oxumayanlara da yayımlayacaq…*

*Mən 1992 -ci ildə Xocalıda əsir götürülən qızlardan biriyəm. O zaman mənim 15 yaşım var idi, artıq 40 yaşındayam... Mənimlə bərabər burda bir çox əsirlər olub və var, bəziləri isə artıq dünyalarını dəyişiblər. Sizləri çox yormaq istəmirəm, sadəcə bizə görə narahat olanlar və olmayanlar üçün, özümüz və burdaki vəziyyət haqqında, çox çətin və göz yaşı içində məlumat vermək niyyəti ilə bu məktubu yazıram...*

*Düzdür, mən hər şeyi, Xocalıda və ondan sonra olanların hamısını bir məktuba sıgdıra bilmərəm, çünki bizim hər günümüz sizdən fərqli olaraq XOCALI faciəsi günü kimi keçir. Beləliklə, mən əsir düşəndə anamla birlikdə idim, bizi o soyuq və şaxtalı havada günlərlə ac-susuz saxladıqdan sonra yerimizi dəyişdilər, bir hərbi hissəyə gətirdilər və əsgərlərin qablarında artıq qalan tullantı yeməkləri bir böyük qazana töküb gətirib atdılar qabağımıza, inanın, elə həvəslə elə iştahla yeyirdik ki... O tullantıları "bayram aşı"*

*kimi yeyirdik... “Sag olsunlar” bizə bir vedrə su da verdilər, amma vedrənin içinə 4-5 erməni tüpürəndən sonra gətirib qoydular qabagımıza...*

*Çarəmiz yox idi, günlərlə susuz qaldıgımız üçün məcbur idik o suyu içməyə...*

*Bir neçə gün sonra bizə "şad" xəbər verdilər, dedilər ki, hazırlaşın, sizi yuyunmanız üçün hamama aparırıq... Çox sevinmişdik, çünki artıq 2 ay olardı yuyunmurduq, ayaqyolu da əsir qaldıgımız padvalın içində olduguna görə çox pis halda idik. Bizi hamama gətirdilər, əsgərlərin yuyundugu hamama. Hardasa 30 nəfərə yaxın müxtəlif yaşda qadın əsirlər idik və ən kiçiyi mən idim...*

*Hə, əzizlərim, bizi saldılar hamama, hamamda isə bizi hardasa 80, 90 nəfərə yaxın erməni əsgəri gözləyirmişlər...*

*O hamamda nələrin oldugunu, nələrin baş verdiyini, nə zülmlər çəkdiyimizi, necə qışqırıb agladıgımızı yazıb sizi ürək agrısına salmaq istəmirəm, sadəcə bunu deyim ki, bizi ermənilər “çimizdirdilər” və hardasa təkcə 20, 30 nəfər tərəfindən mən zorlandım, digərlərini bilmirəm...*

*Bu hal bir neçə dəfə baş verdi, sonra bizi ermənilər öz aralarında paylaşdırdılar... Yaşlı əsirlər əsgərlərin, cavanları zabitlərin... Gündüzlər bizi çölə çıxardırdılar hava almaq üçün, çox vaxt əynimizi soyundurub musiqi qoşaraq oynamağa məcbur edirdilər, ilk günlərdə oynamaga etiraz etsək də, sonra hər etiraz etdikdə döyərək bizi vərdiş etdirdilər hər şeyə... Artıq nə deyirdilər edirdik və o qədər şey etdirirdilər ki, yaza bilmirəm, utanıram...*

*İllər keçdikcə yerimizi dəyişdilər, bəzilərimizi ayırıb harasa başqa yerə apardılar, anamın ürəyi partdayıb dünyasını dəyişdi bir iki il sonra, mənim qara günlərim*

*daha da çoxaldı, çünki çox vaxt anam məni qorumaq naminə çox şeyi öz üzərinə götürürdü... Dəfələrlə özümü öldürmək istədim, edə bilmədim... Hər dəfə intihar etmək istədikdə içimdə bir ümid yaranırdı ki, bir gün bitər bu əsarət...*

*Mən xalqımın qeyrətinə, qeyrətli ogullarına, qızlarına bələdəm... Bilirəm ki, çoxunuzun ürəyi yanır orda və əlinizə fürsət düşərkən nəsə edirsiz... Xalqımın, Ramillər kimi, Fəridlər kimi, Mübarizlər kimi, Çingizlər və digər bu kimi ogullarının çox oldugunu bilirəm və buna əminəm ki, bir gün o ogullar bizi bu əsarətdən qurtaracaqlar... Keçən il Aprel döyüşləri başladıqda o qədər sevinmişdik, o qədər sevinc içində idik ki, artıq torpaqlarımızın və bütün əsirlərin azad olunacagı ümidimiz daha da çoxaldı. Allahın izni və qeyrətli ogullarımızın vasitəsi ilə tezliklə bu ümidimiz gerçəkləşər və biz də ürəkdən sevinərik. Hal-hazırda adını qeyd edə bilmədiyim yerdə Azərbaycan televiziya kanallarını izləyə bilirəm. Azərbaycanın və ümümən xalqımın ugurlarını əsirlikdə olsam da, sevinirəm, amma bu sevincim elə də çox sürmür. Televiziya kanallarında olan gündəlik proqramlara baxdıqda bəzən elə bilirəm ki, biz əsirlərə acıq verilir...*

*Şou proqramlar, əyləncəli proqramlar, mügənnilərin dartışmaları, şou biznesdə baş verən qarşıdurmalar, mügənnilərin yekə-yekə danışmaları, mənasız seriallar, təmtəraqlı konsertlər, bayram tədbirləri və digər bu kimi çox verlişlər... Bununla mən xalqıma və tv kanallarına hər gün matəm içində olmalarını demək istəmirəm və bu, mümkün də deyil, çünki biz insanıq, hər şeyə amin deyib gülmək fitrətimizin təcəssümüdür... Bayram da keçirin, əzizlərinizlə*

*deyin-gülün, həyatınızı, işlərinizi xoş əhvali-ruhiyədə keçirin, bu sizin haqqınızdır... Amma nə olar, o verlişlərlə yanaşı, Qarabag haqqında da verlişlər yayımlayasız, əsir düşənlərin axtarılmasından danışasınız, biz də orda vətəndə bizi düşünənlər var deyə sizə güvənək... O şou biznes xəbərləriniz, müğənnilər və onların sərgüzəştləri haqqında olan xəbərlərinizlə yanaşı, Vətəndən didərgin düşüb canını Vətənə fəda edən igid oğullar və qızlarımızdan da söhbət açıb onları xatırlayasınız!*

*O mənası, amalı bilinməyən, insan mənəviyyatına və insanların psixologiyasına bir başa zərbə vuran serial-larınızla yanaşı – su əvəzinə erməni tüpürcəyi içən əsir qadınlarımızdan da serial çəkmək olar... Amma yox, çəkmək istəsəniz də sizə sponsorluq edən olmaz, çünki o zəngin, paralı kişilərimiz bizi əsla düşünməzlər, Azərbaycan qadınının əsirlikdə erməni təcavüzünə necə məruz galdığını bilsələr belə!”*

Bu məktubu paylaşan oğlanın hayqırtıları getmirdi İntiqamın qulağından:

*“P.S. Bu məktub bəlkə də heç əsirlikdən yazılmayıb. Bəlkə də kimsə tərəfindən düşünülüb, amma biz bu faciəyə göz yumduq. Bizim biqeyrətlər erməni harsınlarını, bəlkə də xalalarını gətirib Azərbaycanı gəzdirirlər. Bilin, son erməni dünyada var ikən biz bu millətə iltimas qurmamalıyıq. Çünki hələ ana bətnində olan erməni cocuğu da düşməndir. Bunu bu illər ərzində anlamayan varsa, onun geni haydan gəlir. Bu yazını verməkdə tək məqsədimiz vicdanı olanları sızlatmaq deyil, vicdanı yatmışları oyatmaqdı. Ən yaxşı erməni "ölü ermənidir"...*

***

Bu məktub İntiqamın, eləcə də onun kimi qeyrətli oğulların qəlbindəki intiqam alovunu sönmək bilməyən bir qaynar lavaya döndərmişdi. Hamı səbirsizliklə müharibə olacağı günü gözləyirdi…

Müharibə isə başlanmaq bilmirdi ki, bilmirdi. ATƏT deyilən qurumun vecsiz nümayəndələri tez-tez gəlib qarın otarır, heç nə olmayıbmış kimi qayıdırdılar öz xarabalarına. Xəbərləri yox idi ki, təkcə işğal altında qalan qədim bir torpaq kimi onun övladlarının da daxili dünyası viranəyə çevrilmişdir. O uçub dağıdılan evləri pul-para hesabına bərpa etmək o qədər də çətin məsələ deyildi. Ancaq könül xərabələrini heç nə ilə bərpa etmək mümkün olmayacaq…

İntiqamın gizlədiyi bu dəhşətli məktubu oxuyan Ümidin ürəyi param-parça olmuşdu. Zəngəzurda doğulub boya-başa çatan bu bədbəxt taleyli insanın gecə-gündüzü yox idi. Dərdinə çarə, sağalmaz yaralarına, dərmansız dərdinə məlhəm axtarırdı.

***

Ata ilə oğul arasında bu mövzuda söhbətlər bitmək bilmirdi ki, bilmirdi… İntiqam rusiyalı məşhur tarixçi alim, şərqşünas **Andrey Zubovun** mühazirə zamanı dediklərinin sosial şəbəkələrin rusdilli auditoriyasında böyük rezonans doğurması haqqında atasına məlumat verdi. Ermənilərin satqınlığı, rəzilliyi haqqında söylədiyi mülahizələr alimin tarixi faktlara vicdanlı münasibətinin ifadəsi idi. Zubov Osmanlı İmperiyası barədə mühazirə deyərkən, o dövrlərdə ermənilərin türklərə qarşı satqınlıq etdiklərini xüsusi vurğulayıbmış. Alimin faktlara istinadən söylədiyi sözlər erməni

xislətini açmaq baxımından olduqca maraqlıdır. Alim deyirmiş ki, türklərin ermənilərə kömək və dəstək olduğu dönəmdə belə ermənilər gizli yollarla silahlanaraq, rusların hücumu zamanı silahlarını türk ordusuna tuşlayıblarmış: *"Daşnaklar öz istədiklərinə əvvəl-axır nail oldular. Onların əsas istəyi türk torpaqlarında erməni dövləti yaratmaq idi. Əvvəlcə ermənilər türklərə qarşı düşmənçilik etdi. Onlar Ənvər Paşaya və bütün Osmanlı İmperiyasına xəyanət etdilər. Bunun adı cinayətdir. Siz təsəvvür edin, o dövrlərdə sadə müsəlmanlar minlərlə ermənıyə qucaq açıb, öz evinə salmışdı. Bunu ermənilərin özləri də qeyd edirdilər. Tarixdə belə hallar nadir olur."*

Alim öz mülahizələrini söyləyəndən sonra qənaətlərini bu fikirlərlə yekunlaşdırmış, dinləyicələrini düşünüb nəticə çıxarmağa səsləmişdi: *"Türklər minlərlə xristianı xilas edib. Sizcə, biz ruslar bu hərəkəti çeçenlərə və yaxud Krım tatarlarına qarşı etmişik? Fikirləşin..."*

Xeyli fikirləşəndən sonra Ümid alimin söylədiklərinə münasibətini bircə cümlə ilə ifadə elədi:

– Kim haqqın tərəfindədirsə, haqq özü ona kömək olsun!

Əslində haqqın tərəfdarları az deyidi. Onlar da ayrı-ayrı zamanlarda erməni xisləti haqqında öz fikir və mülahizələrini söyləmiş, bəşəriyyəti ayıq, diqqətli olmağa, bu deyilənlərdən nəticə çıxarmağa səsləmişdilər…

Görkəmli rus tədqiqatçısı V.L.Veliçkonun "Qafqaz" əsərindəki bu fikir mülahizlər təsadüfi ola bilməzdi: *"...məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları özgə evinə buraxmadıqda, yaxud hər hansı bir hiylələrinin üstünü açdıqda, ya da*

*oğrularını məhkəməyə verdikdə təkcə özləri hay-küy qoparmırlar, həm də özgə xalqdan olan, səfeh, yaxud satqın adamları da hay-küy qoparmağa məcbur edirlər.”*

**V.Veliçkonun** ermənilər haqda söylədiyi bu qənaətlər də faktlara istinadən yaranmışdı: *“Ermənilər yerli əhalinin qanını içirlər. Bundan razı qalmayaraq gələcəkdə onları öz yerlərindən qovub torpaqlarına sahib olmaq məqsədilə yerli müsəlman əhalini hörmətdən salmaq siyasəti həyata keçirirlər”. “Erməni qadınları digər xalqlarla zorla, məcburən də olsa, əlaqədə olmuşlar. Şərəf və ləyaqətlərini itirmiş erməni qadınları ilə münasibətdə olan İran əsgərləri, türklər, gürcülər və dağlılar görünür onlardan heç bir ədəb-ərkan gözləməmişlər. Bu səbəbdən də ermənilərin damarlarından hər cür qan axır”. “Biz hələ “böyük Ermənistan” adlı dərdli ölkə haqqında yazılan, qonşu ölkələri də bundan agah etmək missiyasını öz üzərinə götürən erməni dərsliklərini demirik. Kilsə məktəblərində hətta “böyük Ermənistanın” xəritələri verilir, paytaxtı Tiflis şəhəri göstərilir və onun sərhədləri Voronejədək uzanıb gedir”.*

Ümid kişi həqiqətlə dolu bu mülahizələri dinləyib əsəbi, emosional şəkildə dedi:

– Nankorlar Azərbaycanın ən səfalı yerlərində yaşayırdılar. Ən yaxşı evlərin, ən yaxşı maşınların sahibi idilər. Bu Qarabağ söhbətini salmasaydılar, Bakının, Sumqayıtın, Gəncənin yarısı elə onların idi. Xan kefində yaşayırdılar… Şadlıqlarına şitlik elədilər. Min fitnə-fəsad törətdilər. Nə qədər günahsız insanın qanına bais oldular…

Atasıyla bu tipli söhbətləri aparanda Ümid kişinin haldan-hala düşməsi İntiqamı qorxudurdu bir az. Kişinin

əsəbiləşdiyini görən kimi ya söhbətin məcrasını dəyişməyə çalışır, ya da bir bəhanə ilə durub gedirdi. Atasına vermək istədiyi saysız-hesabsız sualların cavabını erməni xisləti ilə bağlı yazılan kitablarda, məqalələrdə axtarırdı.

Bu yazıları oxuyanda dəhşətə gəlirdi oğlan. Düşünürdü ki, yaxşı, Qarabağ faciəsini, Xocalı facısini özüm görməsəm də, bu haqda atamdan, anamdan, başına müsibətlər gətirilən kəndçilərimizdən çox eşitmişəm. Onu bilirəm ki, insanlıq simasını itirənlər çox böyük faciələr törədiblər mənim ata yurdumda. Nəslimizi, kökümüzü yer üzündən silmək istəyiblər bu cəlladlar. Əsirliyə düşüb qayıdanlar, hadisələrin iştirakçısı, şahidi olanlar, təsadüf, Allahın möcüzəsi nəticəsində sağ qalanlar elə şeylər danışır, elə şeylər yazırlar ki, adamın lap matı-qutu quruyur. Bəs bu hadisələri görməyən dünyanın görkəmli adamları erməni xisləti haqqında bu qənaətlərə hansı hadisələr əsasında gəlibmişlər görən? Görünür çox-çox əvvələr belə bunlar yaramaz, insanlığa layiq olmayan işlər görübmüşlər. "Aşıq gördüyünü çağırar" deyiblər. Bəs bu dahilər ermənilərin hansı alçaq cəhətlərindən xəbərdar imişlər görən?

Bu fikirlər, düşüncələr oğlanı axtarışlar aparmağa sövq edirdi. Bir dəfə internetdə rast gəldiyi bir yazı onun bütün varlığını titrətdi. Həyəcanla oxuduqca faktlara istinadən yazılmış bu tarixi həqiqətlər oğlanı dəhşətə gətirdi…

***

**Leonard Ramsden Hartil** adl amerikalı müəllifin 1928-ci ildə ABŞ-ın İndianapolis şəhərində "The Bobbs-Merrill Company" nəşriyyatı tərəfindən "İnsanlar belədir"

("Men Are Like That") adıyla çap olunan kitabında nələr var imiş, İlahi!

Teleqraf.com saytnda 1918-1922-ci illər arasında ermənilərin Azərbaycanda törətdiyi soyqırım və qətliyamlardan bəhs edən kitabın şəkli də verilmişdi.

İntiqam kitabın müəllifinin saytda verilən ön sözünü oxumağa başladı:

*"1922-ci ilin fevral ayından 1924-cü ilin martınadək Qafqazda kənd təsərrüfatının inkişafı ilə əlaqədar layihələrdə işlədim. Həmin illərdə bu kitabda bəhs etdiyim Avanes Apresyanla tanış oldum. Onu mənə ali təhsilli insan kimi təqdim etdilər və aylıq 6 dollara işə götürdüm. Rus, türk (Azərbaycan) və erməni dillərini bilirdi. Azərbaycan və Sovet Ermənistanı ərazilərində rahat gəzə bilirdik.*

*Bir dəfə məscidi dağıdılmış və xarabalığa çevrilmiş türk (azərbaycanlı) kəndində gecələmək məcburiyyətində qaldıq. Avanesdən bu kənd və baş verən olay haqda bilib-bilmədiyini soruşdum. Soyuqqanlı şəkildə "Bilirəm, bu kəndin dağıdılmasına mən də kömək etmişəm. Bu xarabalıqlar arasındakı insan sümüklərinin sahiblərinin öldürülməsini öz gözlərimlə gördüm. Bu kənddə bir türk vardı, yaşlı bir insan idi. Heç vaxt belə bir qorxmaz və qəhrəman insan görməmişdim. Hətta rus ordusunda belə…" – cavabını verdi.*

*Avanesi öz həyat hekayəsi və burada baş verənlər haqda mənə danışmağa razı sala bildim. Avanesin həyatını oxuduqdan sonra inanılmaz olayların baş verdiyinin şahidi olacaqsınız".*

*Bir erməninin xatirələrində Azərbaycan hadisələri – 1918-1922-ci illər:*

*“Mən Avanes Apresyan 1892-ci ildə Azərbaycanın Şuşa şəhərinin Xankəndi kəndində doğulmuşam, anamı xatırlamıram, atam mülk və ferma sahibi zəngin bir insan olub. Burada əsasən türklər və ermənilər yaşayırdı. Əslində tarixi Azərbaycan ərazisi olan bu torpaqlarda ermənilər əcnəbi kimi bir şeydi. Sayca azərbaycanlılardan az olan ermənilər xristian azlıq idi. İrq, din və ənənələr arasındakı fərqliliklər heç vaxt bərabər olmadı.*

*Birinci Dünya Müharibəsindən əvvəl bu bölgədə yaşayan ermənilər mülk sahibləriydi və ticarətlə məşğuldular. Bu səbəbdən də rus hökuməti və dövlət adamlarına yaltaqlanırdılar. Azərbaycanlılar (türklər) kənd təssərrüfatıyla məşğul idi”.*

Apresyan qeyd edir ki, həmin dövrdə Çar Rusiyasında təhlükəsizlik türklərin tarixi düşmənləri olan rus kazakları tərəfindən təmin olunurdu:

*“Bəzi vaxt kazaklar bu bölgədən geri çəkiləndə qarışıqlıq yaratmaq üçün ermənilərlə türkləri üz-üzə qoyurdu. 1905-ci ildə uğursuz qiyam cəhdindən sonra faciəvi olaylar baş verdi. 1918-1922-ci illərdə baş verən qorxunc hadisələr, vəhşət və barbarlıq insanların heyvandan da vəhşi olduğunu göstərdi. Atamın evində keçirilən iclaslarda Ermənistanın müstəqilliyini təmin etmək üçün gizli erməni dərnəklərindən bəhs olunurdu. Bu dərnəyin üzvləri “daşnak” adlandırılırdı. Dostlarıma bu qiyamçı agentlərin qəhrəmanlıqlarından danışırdım.*

*Ruslar öz əleyhinə erməni qiyamı baş verəcəyindən qorxan kimi xristianlarla müsəlman azərbaycanlılar arasında münaqişəni qızışdırırdı. Həmin illərdə Ermənistanın müstə-*

*qilliyindən yox, daha çox ermənilər və türklər arasında artan düşmənlikdən danışılırdı".*

Daha sonra qarabağlı erməni Şuşada baş verənlərdən belə danışır: *"Bölgənin ən böyük şəhəri olan Şuşada məktəbə gedirdim. Məktəb evimizdən yeddi kilometr məsafədə yerləşirdi. Qarışıqlıq dövründə evdə qaldım, məktəbə gedə bilmədim. Fermamızda işləyən azərbaycanlı işçilər də qaçmışdı. Vəziyyət qaydasına düşəndə yenidən Şuşaya gedə bildim. Şəhərin azərbaycanlılar yaşayan tərəfində xarablıqdan başqa heç nə qalmamışdı. Bütün evlər dağıdılmış və insanların başları kəsilmişdi. Eyni hal azərbaycanlıların sıx yaşadığı Xankəndində də baş vermişdi.*

*Həmin vaxt türklərin bir erməni qadınını qaçırıb uşağını öldürməsi haqda şayiə yayılmışdı. Lakin bunun nə qədər real və yalan olduğu bilinmədi. Ermənilər dəliyə döndülər və türklərin evlərinə hücuma keçməyi planlaşdırdılar, amma rus kazaklar buna gündüz vaxtı icazə vermədi, "gecə isə qarışmayacağıq," – dedilər.*

*Bunu eşidən bizimkilər silahlanıb türk məhəllələrinə doğru getdilər və axırıncı türk öldürülənə qədər bu qətlyiam davam etdi. Bütün gecəni qorxudan yata bilmədim, ermənilərin qışqırıqları, çarəsiz qurbanların fəryadlarından qulaqlarımı tutdum. Səhərədək məhəllədə yaşayan türklərin hamısı öldürülmüşdü. Uşaqlığımdan bəri mənə türklərin günahkar olduğunu öyrətmişdilər".*

Apresyan o dövrdə rusların azərbaycanlıları silahsız qoyduğunu etiraf edir: *"1905-ci ildə erməni-türk savaşında biz daha yaxşı döyüşdük. Bizimkilərin əksəriyyəti rus ordusunda təlim görmüş, xidmət keçmişdi. Üstəgəl zəngin idik və yaxşı silahlanmışdıq. Türklər Rusiyada orduya*

*götürülmürdü və təlim görməmişdilər. Bıçaqlardan başqa silahları yox idi. Döyüşlər nizamlı getmirdi, türklərin kəndlərinə hücum edib insanları öldürərək evləri talan edib geri çəkilirdik, türklər isə sadəcə özlərini müdafiə edirdi.*

*Şuşada baş verənlər Azərbaycanın digər bölgələrində də təkrarlandı. Bakıda da buna oxşar olaylar baş verdi. Kəndimizdəki türklərin hamısı öldürüləndən sonra kazaklar bu olaylara son qoydu".*

Kənd təsərrüfatı üzrə təhsil almaq üçün Tiflis və Odessaya gedən Avanes Apresyan təhsilini bitirməmiş orduya çağırılıb. Bolşevik inqilabı başladıqdan sonra ordudan qaçan Apresyan daha sonra Ermənistanın müstəqilliyi üçün azərbaycanlılara qarşı başlamış döyüşə girən erməni hərbi birliklərinə qoşulur və burada kapitan rütbəsi alır.

Apresyan ermənilərin soysuz millət olduğunu deyir: *"Bolşeviklər inqilabı qələbə ilə başa çatdırdıqdan sonra erməni liderlərimiz müstəqil Ermənistan qurmaq istəyini ruslara çatdırdı. Həmin vaxt bu məqsədlə qurulan və mənim də sırasında olduğum 223-cü alayın hamısı erməni idi.*

*1892-ci ildə Moskvada təhsil almış Simon Zaxariyan və Kristofer Mikaelyan adlı iki erməni tərəfindən qurulan Daşnaksütyun Partiyasının ilk məqsədi türklərin hakimiyyəti altında olan erməniləri rifaha qovuşdurmaq idi. Lakin əvvəlcə dərnək formasında qurulan partiyanın əsas məqsədi müstəqil Ermənistan qurmaq, erməniləri türklər və rusların boyunduruğundan qurtarmaq idi. Lakin ermənilər ruslar üçün məqsədinə çatmaq üçün ayaq basıb qalxmaq istədiyi bir pillə idi.*

*Halbuki ermənilərin tarixinin qədim olduğu, Nuha qədər getdiyi deyilir, amma hansı soydan gəldiyimiz məlum*

*deyil. Başqa sözlə, daşnaklar 1918-ci ildə rusların köməyi ilə Ermənistanın müstəqilliyini elan edib. Hər nə qədər bizdən öz məqsədləri üçün istifadə etsə də, biz bunu Rusiya-sız bacara bilməzdik. Lakin həmin dövrdə müstəqil olduğumuzu elan etsək də, Moskva bizimlə belə davran-mırdı, bütün qərarlar yenə də oradan verilirdi, biz isə icra edirdik".*

O, daha sonra ermənilərin azərbaycanlılara qarşı soyqı-rıma başlamasından danışır: *"Müstəqil Ermənistan əhali-sinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət idi. Hər kənd və şəhərdə vəziyyət bu cürdü. Hər qəsəbədə və kənddə mütləq türk məhəllələri vardı. Aleksandropolda da vəziyyət beləydi.*

*Ermənistan qurulduqdan sonra Daşnak Partiyası türk-ləri əzməyə və təhqir etməyə başladı. Bundan sonra Alek-sandropoldakı (Gümrü) türklər erməni hökumətinə müraciət edərək, Türkiyəyə köçmək icazəsi istədi. Bu icazə verildi, türklər əşyalarını arabalara yığıb evlərini tərk etdilər. Azərbaycanlıların kütləvi halda köç etməsi, müsəlman türk-lərə qarşı kin duyan daşnaklar üçün ələdüşməz fürsət idi.*

*Daşnaklar türklərin keçəcəyi yolların kənarlarına öz silahlılarını yerləşdirdi. Türklər at arabaları ilə irəliləyir, uşaqlar dəyənəklərlə öküzləri dümsükləyir, qadınlar ənənəvi olaraq türk niqabı ilə üzlərini örtüb və qucaqlarında körpə-lərini aparır, soyuq və küləkdən qorunmaq üçün adyallara bürünürdülər.*

*Vadidəki yolun bir hissəsi bağlanmışdı və qabaqdakı araba bu maneəyə rast gələndə dayandı. Qayalar arxasında gizlənmiş daşnaklar türkləri güllələbaran etməyə başladı.*

*Qadın və uşaqlar arabalardan tullanıb qışqıra-qışqıra qaçır və ümidsiz bir şəkildə sığınacaq axtarırdılar.*

*Qətliam tamamlanmamışdı. Həmin gün Aleksandropolun tərk edilmiş türk bölgəsi də talan və yox ediləcəkdi".*

Avanes Apresyanın sözlərinə görə, ermənilərdə azərbaycanlılara qarşı nifrət genetik olaraq ötürülür: *"Hamısından da pisi budur ki, biz ermənilərə uşaqlıqdan türklərə nifrət öyrədilir və onlardan qorxmağımızın vacib olduğu deyilir. İllərdir erməni analar uşaqlarını türklərə nifrət aşılayan laylalarla yatırdır. Tarixin uzaq dövrlərindən bəri ilk dəfə idi ki, ermənilər türklərə qarşı savaşa başlamışdı. Bu ölkədə münaqişənin, fanatik və intiqamçı bir cinayətin işlənmədiyi bir kənd, bir qəsəbə, kiçik bir yer tapa bilməzsən. Bu nifrət və intiqam ənənəsini mahnılarımız və laylalarımız diri saxlayır. Bizə nəsillərimizdən miras qalmış bu ənənələr türklərlə savaşarkən belə nə qədər qorxaq olduğumuzu və qələbə qazanarkən belə intiqam duyğusuna qapılaraq nə qədər amansız və vicdansız olduğumuzu göstərir".*

Qarabağ ermənisi bildirir ki, ermənilərin cinayətləri hər yerə yayılmağa başladıqdan sonra Türkiyə (Osmanlı) ordusu azərbaycanlılara köməyə gəlib: *"Çar Rusiyasının parçalanmış ordusu bölgədən çıxdıqdan sonra da erməni birlikləri burada qaldı. Vaxtilə çar ordusuna güvənən həmin erməni birlikləri indi türk ordusunun qabağından qaçırdı. Erməni xalqı da onlara qoşulmuşdu. Qaçarkən öz evlərini yandırır, hər yeri xarabalığa çevirirdilər. Qaçmaq istəməyənlər isə azərbaycanlıların mərhəmətinə sığınıb orada qaldı. Türk ordusu Azərbaycana gələndə ermənilərin hamısı qaçıb getmişdi və kəndlər tamamilə bosalmışdı, qaçan ermənilərin arxasında qida mənbələri tamamilə yox edilmiş*

*boş bir bölgə qalmışdı. Halbuki dəyərli olan hər şey torpağın altında, mal-qara mağaralarda gizlədilmişdi.*

*Ermənistanda qalan birliklərimiz Aleksandropola 60 kilometr məsafədə yerləşən dəmir yolu xətti üzərindəki Qara Kilsə şəhərində toplaşmışdı. Türk ordusunun yaxınlaşmasından sonra əsas qüvvələrə qatıldıq. Həmin vaxt əlimizdə* çar ordusunun *götürdüyü 3000 türk əsir vardı. Rus ordusu geri çəkildikdən sonra onları bizə vermişdilər.*

*Qara Kilsəyə çəkiləndə bu zavallıların 2000 nəfəri qəddarlıqla öldürüldü. Bu vəhşilik məni xəstə salmışdı, amma etiraz edə bilmirdim, qorxurdum, məni də öldürə bilərdilər. Bəzilərinə nisbətən işgəncə verilməsə də, əksəriyyəti yandırılaraq öldürüldü. Azərbaycanlı əsirləri taxta* klublara dolduraraq *od vurub yandırırdılar. 1000 nəfəri isə saxladıq. Bunun səbəbi də Avropanın ruslardan böyük sayda əsir təhvil almağımızın bilinməsi idi və bunun hesabatını bizdən istəyə bilərdilər. Həmin əsirlər isə Azərbaycana gələn Osmanlı ordusu tərəfindən xilas edildi".*

Apresyan bolşevik inqilabından sonrakı dönəmdə də erməni vəhşiliyinin davam etdiyini vurğulayır: *"Azərbaycanlıların qaçmasına yer verə biləcək bütün yolları bağladıq və dərhal yox etmək işinə başladıq. Birliklərimiz bir-bir bütün türk kəndlərini mühasirəyə aldı və top atəşləri ilə evlərin hamısı dağıdıldı. Kəndlilər çöllük ərazilərə qaçmağa başladı, lakin onları tutub güllələyir və süngülərlə öldürürdük. Əlbəttə, qaçıb canlarını qurtaranlar da vardı, onlar ya dağlarda özlərinə sığınacaq tapmışdı, ya da Türkiyəyə qaçmışdı. Arxada qalanların hamısı isə öldürüldü.*

*Naxçıvandan Gürcüstana qədər olan bütün sərhəd bölgələri, o cümlədən Ağrı dağının ətəyindəki bütün türk*

*kəndləri yerlə-yeksan olundu. İndi bu yerlərdə gördüyün ölü insanların sümükləri üçün ulayan qurd və çaqqalların səslərindən başqa bir səs eşidə bilməzsən. Bu, kin və nifrətin nə qədər böyük olduğunu göstərən bir nümunədir.*

*Ermənilərin türk kəndlərinə hücumunda bir olay diqqətimi çəkdi. İrigövdəli bir azərbaycanlı vardı, çox yaxşı döyüşürdü, əsl qəhrəman kimi. Onun evdən bir tüfəng götürüb bir qrup silahlı erməni əsgərinə hücum etdiyini gördüm. Tüfəngin qundağı ilə sağ-sola hücum edir, atəş açılmasına baxmayaraq "Allah, Allah" deyib özünü müdafiə edirdi.*

*Erməni əsgərindən biri süngünü onun sinəsinə sapladı, süngünün tiyəsi kürəyindən çıxdı. Türk isə süngünün taxıldığı silahın qundağından tuta bildi. Birdən o, silahı buraxıb erməninin qırtlağından yapışdı. Həmin vaxt digər erməni əsgərləri dairəvi şəkildə dayanıb qışqıra-qışqıra tamaşa edirdilər. Hər ikisi yerə yıxılanda bir erməni əsgəri böyük bir daşı götürüb türkün başına vurdu. Türk yerdə səssiz və hərəkətsiz qaldı. Türkü süngüləyən erməni ayağa qalxdıqdan sonra süngünü çəkib onun sinəsindən çıxardı və qanını yaladı".*

Apresyanın azərbaycanlı uşaqların başına gətirilənlər haqda söylədikləri də dəhşətdir: *"Bir gecə azərbaycanlıların yaşadığı kəndin yanından keçirdim. Evlərdən birinin qabağında ocaq yandığını görüb yaxınlaşdım, ocağın ətrafında erməni əsgərləri oturmuşdu. Aralarında iki azyaşlı qız uşağı vardı, yerə çömbəlib hıçqıraraq ağlayırdılar. Qırılmış ev əşyaları, insan cəsədləri ora-bura dağılmışdı. Təəssüf ki, onları zorlamışdılar.*

*Azərbaycan dilində onları xilas edəcəyimi, məndən qorxmamalarını dedim. Qızları götürüb oradan uzaqlaşdım. Bir-iki kilometr sonra yenə dağıdılmış türk kəndinə rast gəldim. Yanımdakı yeməyi qızlara verdim və sığınacaq tapdıqdan sonra yatdıq. Gecə yarı ağlayan bir uşağın səsinə oyandım. Ay işığı burada baş verən faciəni görməyimə kömək oldu. Səsə doğru irəliləyərək türk evi olduğu bəlli olan dağılmış bir evə gəlib çıxdım. Otaqlardan birinin döşəməsində bir ölü qadın uzanmışdı, boğazı kəsilmişdi.*

*Qadının sinəsində bir yaşlarında körpə qız vardı, ölü qadının döşündən süd əmməyə çalışırdı. Uşağı qucağıma aldım və cibimdəki çörəyi isladaraq qarnını doydurdum və baxmaları üçün qızlara verdim. Səhəri gün əlimə düşən fürsətdən istifadə edib uşaqları Qarsdakı bir Amerika yetim-xanasına yolladım".*

Apresyanın sözlərinə görə, o günlərdə ermənilər ingilislərin köməyi ilə Bakını – böyük neft şəhərini ələ keçirib və şəhərin türk əhalisinin 25 min nəfərini qətlə yetirib: *"Biz ermənilər öz içimizdə başlayan savaşda da bir-birimizə qarşı mərhəmətli olmadıq. Biz mərhəmətli insanlar deyilik, çünki hər kəs kimi özümüzdən də qorxuruq.*

*Elə bir qətliyam səhnələrinə şahid oldum ki, buralarda öldürülmüş, yerdə yatan insanların sayı payızda meşədə yerə düşən yarpaqların sayı qədərdir. Onlar çarəsiz və müdafiəsiz olan zavallı insanlardır. Bunlar savaşda ölən əsgərlər kimi silahları əllərində savaşaraq ölməmişdi. Onlar zavallı və çarəsiz insanların öldüyü kimi, dəhşət və qorxu içində öldürülmüşdü".*

Bu tipli yazıları oxuduqca qəlbindəki intiqam hissi daha da böyüyən İntiqam arabir atasıyla söhbət eləyəndə deyirdi

ki, mən lap məəttəl qalmışam e, ay ata, dünyanın bu qədər görkəmli adamı erməni xisləti haqqında bu həqiqətləri bilə-bilə niyə onların tərəfini saxlayırlar görəsən?

– Eh, ay bala, bizdə bir atalar sözü var: "O it də o itin dayısı, haya gedir hamısı"...

– Ata, düz deyirsən, ancaq qəribədi ki, ermənilərə himayədarlıq edən ruslar belə erməni xislətini çox gözəl bilirlər. Bu böyük xalqın tərəqqipərvər ziyalıları ayrı-ayrı vaxtlarda, ayrı-ayrı məqamlarda ermənilərin alçaqlıqları, xəbislikləri, həyasızlıqları haqqında o qədər yazıblar ki! Bax müasir dövrümüzdə olan qanlı hadisələr bir daha göstərdi ki, həmin insanlar nə qədər haqlı imişlər...

Erməni xislətinə yaxından bələd olan **Aleksandr Sergeyeviç Qriboyedov** (1795–1829) Rus imperatoruna ünvanlanan məktubunda yazılırdı: *"Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpağımızdır."*

1828-ci ildə İranla Rusiya arasında imzalanan Türkmənçay müqaviləsinin hazırlanmasında fəal iştirak edən Qriboyedov erməni xislətinə yaxından bələd idi və bu xəbərdarlıq məktubu təsadüfən yazılmamışdı. İllər keçdikcə cərəyan edən hadisələr görkəmli diplomatın nə qədər uzaqgörən olmasından xəbər verir. Həqiqəti söylədiyinə görə ermənilər bu tarixi şəxsiyyətin ruhunu həmişə təhqir etmişlər və bu proses indi də davam etməkdədir.

**Aleksandr Qriboyedovun** ermənilərin Azərbaycan torpaqlarına köçürülmə prosesi barədə general-feldmarşal qraf

Paskeviçə yazdığı məktubu da çox maraqlı bir tarixi sənəd-dir:

*“Sizə ermənilərin Azərbaycana köçürülməsi zamanı tətbiq edilən üsullar və onların indi bu vilayətlərdə yerləşdirilməsi barədə mənim vasitəmlə daha mötəbər məlumat verilməlidir.*

*Həmin məsələ ilə əlaqədar məndə olan dəqiq məlumata görə, polkovnik Lazarev özünü bu mühacirliyin əsas təşviqedicisi sayıb və bizə məlum olduğu kimi, öz fikrini kifayət qədər açıq, lakin əsassız detallarla izah edib. Çünki bununla bağlı ermənilərin heç bir anlayışı yox idi – onlar yalnız Rusiyaya etibar etməklə və onun qanunları ilə idarə olunmaq arzusu ilə hərəkət edirdilər.*

*Traktat onlara bunun üçün tam hüquq verirdi. Köçürülmə zamanı knyaz Arqutinski, Qamazov daha fəal idilər, tabeliklərindəki digər zabitlər isə artıq onların diktəsi altında hərəkət edirdilər. Polkovnik Lazarev yalnız olduqca yersiz bəyannamələr uydurmaq, nizami erməni könüllü qoşunlarını formalaşdırmaq, Qarabağı və digər vilayətləri öz tabeliyinə daxil etmək barədə düşünürdü. Amma oralarda çoxdan yaradılmış təsisatlara xüsusi səlahiyyət verilə bilməzdi. Knyaz Arqutinski bir neçə dəfə yaramaz rəftarı, lovğalığı, faydasızlığı barədə ona irad bildirib. Polkovnik Lazarev bütün digər işləri də bu cür həyata keçirib və onlar barədə geniş danışmağa dəyməz. Yalnız bunu əlavə etmək lazımdır ki, o, düşüncəsiz adam olsa da, dövlət vəsaitini xəlvəti mənimsəmək və qəsdən zərər vurmaq niyyəti yoxdur.*

*Belə ki, Urmiyadan gələn ermənilərə pul müavinətləri paylananda bir çox problemlər ortaya çıxsa da, vəsaitdən sui-istifadə halları olmamışdı. Düzdür, yoxsullara az, varlı-*

*lara çox pul verilmişdi. Bu da ona görə baş vermişdi ki, qoşunlarımız həmin əyaləti tələsik tərk etmişdilər. Bu səbəbdən də düzgün paylanmayan pul gəlmələrə az kömək etdi. Bu, yeri gəlmişkən, həmin vəsaitlə bağlı mənə məlum olan yeganə faktdır.*

*1. Ermənilərin çox hissəsi Qarabağdakı müsəlman mülkədarların torpaqlarında məskunlaşdırılıb. Əslində, bu proses yayda həyata keçirilməliydi. Torpaq sahibləri olan müsəlmanların çox hissəsi köç düşərgələrində başqa dindən olan yad gəlmələrlə az əlaqə saxlayıb.*

*2. Odun tədarük edilməyib və ermənilərin rahat və etibarlı yerləşdirilməsi üçün münasib yerlər ayrılmayıb. Bütün bunlar vaxtında olmalıydı. Bu nöqsanı aradan qaldırmaq artıq gecdir. Köçürülənlərin yeri darısqal olduğundan onlar müsəlmanları sıxışdırırlar və onlar da haqlı narazılıq edirlər.*

*3. Dövlətin maliyyə yardımları tamamilə səriştəsiz şəkildə həyata keçirilib. Ehtiyacı olanların sayı və kimə nə qədər vəsait lazım olması barədə düzgün məlumat olmadan, dilənçilər kimi, hərəyə bir-iki rubl paylanıb. Birdəfəlik verilən 25 rubl müxtəlif vaxtlarda hissə-hissə verilən məbləğdən on dəfə əhəmiyyətlidir. Heç bir səmərəli tədbir, məsələn, əhalinin tədarükü, habelə gələn ilin əkini üçün buğda alınması və digər bu kimi tədbirlər görülməyib.*

*Sizə komitənin səmərəsiz hərəkətlərini bildirməklə yanaşı, ədalət naminə qeyd etməliyəm ki, əgər orada qabiliyyətli adamlar otursaydılar belə, onlar da böyük çətinliklərlə üzləşərdilər. Vilayət idarəsində hətta Arazın o tayındakı torpaqların və kəndlərin təxmini siyahısı belə yoxdur. Arazın bu tayındakı mahallardakı sakinlərin də sayı*

*məlum deyil. Evlərdən isə danışmağa dəyməz – nəyin kimə məxsus olduğunu heç kəs bilmir. Odur ki, komitə istifadə etməli olduğu lazımi məlumatları heç yerdən ala bilməyib. Buranın vilayət rəisi deyir ki, o, yeni gəlmiş ermənilərin əksəriyyətini sonradan Arazın o tayına köçürmək istəyir, lakin ermənilər Sizdən onlara əvvəl yerləşdirildikləri yerlərdə qalmağa icazə verməsini xahiş edib. Sizin razılığınızı alıblar. Bununla belə, vilayət rəisi podpolkovnik, knyaz Arqutinski həmin tədbirin görülməsinin mümkünlüyünə hələ də ümidini itirmir. Həmin məmur özünün idarəetmə bacarığına və sədaqətinə görə rəhbərliyin tam etimadına layiqdir.*

*Yeni köçürülənlərə yardım üçün 30 min rubl gümüş və 2 min qızıl əşrəfi təyin edilib və bundan ciddi şəkildə istifadə olunacaq. Əgər Siz ən yaxın vaxtlarda həmin məsələ ilə əlaqədar vəsaiti ikiqat artırmaq barədə qərar versəniz, gəlmələrin rifahı büsbütün sabitləşər. Yardım tələb edənlərin sayını öz-özlüyümüzdə təsəvvür edək. Sonradan onların hamısı xəzinəyə vergi ödəyəcək. Bilmirəm, Sizə həmin məsələ məhz bu nöqteyi-nəzərdənmi təqdim edilib və Siz onu bəyənəcəksinizmi?*

*Yardımın xəzinədən heç bir xərc tələb etməyən daha mühüm bir mənbəyi sərdar mal-qarası ola bilər ki, hazırda onların sayı 30 min başa yaxındır. Bu mal-qara sərdar tərəfindən vaxtilə sakinlərə vergi öhdəliyi kimi, saxlamaq üçün paylanıb. Sərdar da öz növbəsində sahibkar kimi onlardan yağ, yun və başqa şeylər alır. Həmin mal-qaranın mövcudluğu barədə çoxlarından eşitmişəm, vilayət idarə heyətinin üzvləri Petrikovdan və Mendoksdan eşitdiklərim isə qənaətimi qətiləşdirib. Həmin sərdar təsərrüfatının işini*

*davam etdirmək xəzinə üçün səmərəli deyil və bizim inzibati üsul-idarəmizə uyğun gəlmir. Bununla belə, həmin mal-qaranın gəlmələrə paylanması onların təsərrüfatını hissolunacaq dərəcədə genişləndirər və yaxşılaşdırar.*

*Vilayət rəisinin tərcüməçisi Mirzə Tatus buralarda məşhur fırıldaqçı kimi tanınır, lakin ona bu işlə əlaqədar heç bir tapşırıq verilməyib. Onun qardaşı olan Sürməli mahalının rəisini də burada hamı yaramaz bir şəxs kimi tanıyır. İndi onun barəsində sözgəlişi xatırladıram, çünki köçürülmə prosesi zamanı o da heç nəyə qarışmayıb.*

*Hal-hazırda köçkünlərin yerləşdirilməsinə rəhbərlik edənlərin, xüsusilə knyaz Arqutinskinin səylərindən çox şey gözləmək olar. Yəqin ki, o öz sələfi mayor Vladimirovun səhvlərini təkrarlamayacaq. Eyni zamanda onunla etdiklərimizə müsəlmanları necə inandıra biləcəyimiz barədə çox düşünürük. Onları mövcud çətinliklərlə barışdırıb necə inandıraq ki, bu, uzun müddət davam etməyəcək, ermənilərin ilk dəfə məskunlaşdırıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə müsəlmanların narahatlığını necə aradan qaldıraq? Bu barədə polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm.*

*Əgər Siz bura bir neçə məmur göndərilməsini Tiflis dövlət ekspedisiyasına tapşırsanız, böyük xeyirxahlıq etmiş olarsınız. Burada iş görməli olan bir nəfər də – hətta mirzə, tərcüməçi belə yoxdur. Belə düşünürəm ki, bunun üçün Tiflisdəki erməni məktəbindən bir neçə müəllim gətirmək olar. Yenə də köçürülənlər məsələsinə qayıdaraq hesab edirəm ki, onlar bizim Gürcüstan ermənilərindən – xəzinəyə heç bir fayda verməyən alverçilərdən xeyli faydalıdırlar.*

*Belə ki, İrandan bura köçürülənlərin böyük əksəriyyəti usta və əkinçilərdən ibarətdir.*

*1828-ci il"*

Bu tarixi sənəd Qriboyedovun uzaqgörənliyindən xəbər vermirmi? Həm də bu sənəd o dövrün hadisələrinin mahiyyətini ilkin mənbədən öyrənmək baxımından çox maraqlıdır.

İndi qədim torpaqlarımzda məskunlaşan ermənilər həyasız-həyasız bu yerləri öz dədə-baba torpaqları adlandırırlar. İştahları o qədər böyükdür ki, "dənizdən dənizə" bir məmləkət yaratmaq xülyası ilə yaşayırlar. Onlar həyasız-həyasız mədəniyyət abidələrimizə, folklorumuza da sahib çıxmaq istəyirlər…

Onlar Amerika tarixçiləri **Castin və Kerolin Makkartinlərin** bu qənatlərini də qulaqardına vurmaq istəyirlər**:** *"Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara mənsubdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".*

Onlar həyasızcasına **N.İ.Şavrovun** hələ 1911-ci ildə nəşr olunan "Zaqafqaziyada rus irsinə yeni təhlükə: Muğanın yadellilərə satışının gözlənilməsi" kitabındakı bu fikirləri də uydurma hesab edirlər: *"Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb."* ( SPB. 1911, səh. 59-61.)

Böyük rus tədqiqatçısı V.İ.Veliçko öz əsərlərində həmişə həqiqəti əks etdirməyə çalışmışdır. Ayrı-ayrı məqamlarda onun söylədiyi fikirlər tarixin real mənzərəsini göz önündə canlandırmağa imkan verir: *"Ermənilər yerli əhalinin şirəsini sormağa başladılar. Bununla kifayətlənmə-*

*yərək gəlmə ermənilər yerli müsəlman əhalisinin şan-şöhrətini korlamaq siyasəti yeridirdilər ki, gələcəkdə onları qovub torpaqlarına sahib ola bilsinlər.”* **(V.L.Veliçko, Rus işi və tayfalararası məsələlər. Publisistik əsərlərin tam külliyatı. 1-ci cild. SPB., 1904.)**

Ermənilərin ayrı-ayrı vaxtlarda törətdikləri kütləvi qırğınların səbəbi əsrlər boyu aparılan anti türk təbliğatının nəticəsi idi. Rus diplomatı general **Mayevskinin** “Ermənilərin törətdiyi kütləvi qırğınlar” kitabındakı bu fikirlər məsələnin mahiyyətini anlamağa çox kömək edir: *“Ali məktəbdən tutmuş lap adicə ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mədhiyyə və mahnıları, kəskin satira və təmsillər müəllimlər mühitindən yeniyetmələrin odlu qəlbinə düşürdü, onlarda müsəlmanların mənfur hakimiyyətinə qarşı qəzəb, kin-küdurət hissini heç kimə məlum olmayan gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırırdı. Beləliklə, ən qısa bir vaxt (3-4 il) ərzində onların yaratdığı illüziyanın müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yarandı...”*

Təəssüf ki, bu iyrənc siyasət indi də davam etdirilməkdədir. Dağlıq Qarabağda törədilən hadisələr də məhz bu şüursuz ideyalardan qaynaqlanır. Bütün faciələrin kökündə bu iyrənc siyasət dayanır.

**Samuel A.Uimsin** "Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri" kitabıda yazılır: *“Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Bu, Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azərbaycanın vacib siyasi, mədə-*

*ni və mənəvi mərkəzidir... Bədnam Qarabağ problemi ermənilər tərəfindən saxta ideyalar əsasında yaradılmışdır."*

Ermənilər bütün dünyada öz böyük fırıldaqları, həyasızlıqları ilə tanınırlar. Konkret Qarabağ hadisələrinə gəldikdə isə Rusiya XİN-nin keçmiş I müavini, vəkil **Fyodr Şellov-Koverdyayev** söylədikləri bu sözlər çox qaranlıq mətləblərin üstünü açır: *"Dağlıq Qarabağdakı konflikt yaxşı planlaşdırılmış, əvvəlcədən hazırlanmış, həyata keçirilməsi Ermənistanın kommunist rəhbərlərinin üzərlərinə düşən aksiyadır... "Qarabağ hərəkatı"nın liderləri millətin öz müqəddəratını təyin etməsi prinsipini hipertrofiyaya uğradaraq elə bir həddə çatdırmışdır ki, ondan sonra separatizm başlayır."*

Bu və ya buna bənzər tarixi sənədlər, məqalələr o qədərdir ki... Onları oxuduqca böyük, irimiqyaslı məkrli siyasətin mahiyyəti aydınlaşır. Xalqımızin başına bu oyunları açanlar ermənilərin "qatıq qaradır" sözünə daha çox haqq qazandırırlar. Ona görə ki, bu iyrənc oyunları xalqımızın başına gətirənlər elə onların özləridir. Ömrü boyu haqsız iş görənlər çətin ki, haqqa qahmar çıxalar…

"Moskovskiy komsomolets" qəzetinin 29.01.1994 tarixli nömrəsindəki "Neft sindromu" məqaləsini oxuyanda adam dəhşətə gəlir. Burada ermənilərin Xocalıda törətdikləri qətlyamın bircə epizodu belə həmin faciəli hadisələr haqqında dolğun təsəvvür yaradır: *"... Əsirlər var. Lakin artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın, buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra*

*başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, çığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olub ölür. Biz növbəti kəndi zəbt edəndə bir ermənininin diri uşağı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı.”*

Bax, budur ermənilərin iç üzü. Bütün bunlardan xəbərdar olan yeni nəslin intiqam hissi ilə yaşamasında təəccüblü nə var ki? Hadisələri öz gözləri ilə görən Ümid və yüzlərlə onun kimi insanlar şərəfsiz ermənilərin murdar qanını içməyə belə hazır idilər. Cəlladla cəllad dilində danışmaqdan başqa çarə yox idi.

Bu, hələ sonrakı dövrün hadisələri idi. Bu hadisələr prizmasından baxdıqda Ümid də, onun oğlu İntiqam da başa düşürdülər ki, niyə ayrı-ayrı dövrlərdə yaşayan tarixi şəxsiy-yətlərin ermənilər haqqında söylədikləri fikirlər arasında ortaq, üst-üstə düşən məqamlar var imiş?!

Hələ ən qədim dövrlərdə yaşayan tarixi şəxsiyyətlər belə ermənilərin varlığının bəşəriyyət üçün təhlükə olduğunu dönə-dönə söyləmişlər. Ermənilərin iç üzünə yaxından bələd olan böyük **Teymurləng** deyirdi: *“Tarix mənə 2 şeyi bağışlamayacaq: 1) Erməniləri bir etnos kimi məhv etmək istəsəm də, ancaq etmədiyimə görə; 2) Doğrudur, ermənilərin arasında da ola bilsin ki, yaxşıları var. Lakin bütövlükdə erməni xalqı alçaq və rəzil xalqdır. Heç vaxt fikrini üzə deməz, gizli saxlayar. Buna görə də adama mədəni təsir bağışlayar. Lakin imkan düşən kimi qanını tökər”.*

Roma tarixçisi **Korneliy Tasit** isə tam əminliklə belə yazırdı: *“Bu xalq tutduğu mövqeyə və qəlbindəki qəzəbə görə əsrlər boyu etibarsız xalq olub”.*

Bu da İsveçrədə yaşayan, mənşəcə yəhudi olan **Adam Metsin** fikirləri: *"Ermənilər ağ adamlardan olan qulların ən pisləridir. Onların hamısının ayaqları əyri, danışdıqları dil isə çox kobuddur. Utanmaq nədi bilməyən ermənilər əsasən oğurluqda məşhurdurlar. Erməni qulu bircə saat işsiz qoysan, daxili aləmi onu pis əməllərə sürükləyər. Dəyənək altına salınanda qorxusundan yaxşı işləyir, işi zəiflikdən yox, tənbəllikdən görmək istəmir, tənbəllikdən zövq alır. Belə olan halda onu ağacla kötəkləmək lazımdır".*

Digər bir yazıya nəzər salaq, Eçmiədzin sinodunun prokuroru **A.Frenkelin** 1907-ci ildə təqdim etdiyi arayışdan bəzi sətirlərə diqqət yetirək: *“Erməni xalqının tarixi taleyi bu xalqın tamamilə müstəqil dövlət yarada bilməməsini təkzibolunmaz dəqiqliklə sübut edir”.”... erməni xalqı ali sivilizasiyanı dərk etmək iqtidarında olmadığını sübut etdi, çünki bir neçə minilliklər ərzində dünya tarixinə onların elm və mədəniyyət xadimindən 1 nəfərin belə adı yazılmayıb”. “Hərislik, intriqalar, satqınlıq, andı pozma, yaltaqlıq bu qəbilənin əsas milli xüsusiyyətlərindəndir, bu vətəndaşın – erməninin qürurla adını çəkə biləcəyi vətəni yoxdur, yalnız 1300 il qul kimi yaşaması və hamı tərəfindən parazit kimi lənətlənməsi haqda acı etirafı var”. “Ermənilər özləri haqda hələ qədimdən pis fikirlər yaradıblar. Bu da yəqin ki, əsassız deyil. Elə olmasaydı, dünyanın bir çox xalqları, o cümlədən ayrı-ayrı zamanlarda eyni fikirdə olmazdılar. Məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları heç kəs öz evinə buraxmır,*

*çünki oğrudurlar. Onlar nəinki özləri çığırırlar, həm də özləri kimi axmaq və satqınları da buna məcbur edirlər".*

O qədər bu və buna bənzər fikirlər var ki… Adamı dəhşətə gətirən isə budur ki, ermənilərin nə yuvanın quşu olduqlarını çoz gözəl bilənlər belə nədənsə yenə də onların tərəfini saxlayırlar. Bu məsələlərin, haqsızlıqların bir sonu olmalıdır, yay yox? İnsanlar niyə unudurlar ki, özgəyə quyu qazan əvvəl-axır özü düşməli olacaq o quyuya?!

Oxuduğu faktlarla zəngin əsərlər, erməni xisləti ilə bağlı eşidib nəzərdən keçirdiyi saysız-hesabsız məqalələr, kitablar İntiqamın ürəyindəki intiqam hissini söndürmək mümkün olmayan alova döndərirdi. Bütün yaşıdları, həmdərdləri kimi o da tezlıklə müharibənin olmasını arzulayırdı. O bilirdi ki, torpaqları azad eləməyin müharibədən başqa yolu yoxdu…

Aradabir gözə kül üfürmək məqsədiylə münaqişə zonasına gələn ATƏT-in xüsusi nümayəndələri elə bil ekskursiyaya, istirahətə gəlirdilər… Yeyib-icib heç nə olmayıbmış kimi geri qayıdırdılar. Onların bu hərəkəti el-obasından ayrı düşən bütün qaçqınlara, köçkünlərə olduqca pis təsir eləyirdi.

Atası Ümid həmişə ona deyirdi ki, ay oğul, dua oxumaqla donuz darıdan çıxan deyil. Ermənilər öz xoşları ilə heç vaxt torpaqlarımızı bizə verməyəcəklər. İrəvanı, Göyçəni, Zəngəzuru xain havadarları hesabına əlimizdən aldılar. Ürəyi geniş xalqımız onlara sığınacaq verdi. Onlar isə namərdcəsinə bizi öz yurdumuzdan qovub çıxarmaq haqqında planlar hazırladılar… Mərhələ-mərhələ İrəvandan, Dərələyəzdən, Basarkeçərdən, Ağbabadan, Göyçədən, Zəngəzurdan soydaşlarımızı qovdular, çıxardılar…İndi növbədə

Qarabağdır. Dişlərində şirə qalıb. Belə getsə, lap gəlib Bakıda oturacaqlar. Onlardan nə desən gözləmək olar…

Atasının dediklərinin həqiqət olmağına İntiqam tamamilə əmin idi. Vaxt keçdikcə erməni cinayətlərinin üstü yavaş-yavaş açılırdı. Atalar demişkən, cidanı çuvalda gizləmək olmaz…

***

Qubada, Qudyalçay sahilində qazıntı işləri aparılarkən müsəlmanların kütləvi şəkildə ermənilər tərəfindən öldürülüb bir dərin quyuda basdırdıqları yerin üzə çıxması böyük rezonansa səbəb oldu. Şəhidlərin xatirəsinə burada böyük bir abidə kompleksi tikildi. Dünyanın hər yerindən günahsız soyqırım qurbanlarının ziyarətinə gəlməyə başladılar… Günahsız qurbanların amansızcasına məhv edilib nəhəng bir quyuda dəfn olunmaları insanlıq simasını itirən ermənilərin saysız-hesabsız cinayətlərindən biri idi hələ…

Bu xəbər İntiqamı sarsıtmışdı. Qərara almışdı ki, nəyin bahasına olur-olsun, gedib həmin cinayəti öz gözləri ilə görəcək. Nəhayət, belə bir gün gəlib çıxdı

İntiqam 31 Dekabr Azərbaycanlıların soyqırımı günündə iş yoldaşları ilə birlikdə Qubadakı Soyqırım abidəsini ziyarətə getmişdi. Qəribə idi, martın 31-də quşbaşı qar yağırdı Qubaya. Bəmbəyaz qarın üstünə qoyulan qərənfillər qan rəngində idi... Elə bil 1918-ci ildə amansızcasına öldürülüb Qudyalçayın sahilində bir böyük quyuya atılan şəhidlərin yarası yenidən qan verirdi...

Bu abidəyə baxa-baxa ermənilərin törətdikləri cinayətlər haqqında oxuduqları fikirləri xatırlayırdı İntiqam. Cinayətin miqyasını xəyalında canlandırdı. Bu haqsızlığın,

qəddarlığın, rəzilliyin coğrafi dairəsi nə qədər geniş imiş, İlahi?!

*“Kəndlərə aparılan yollara müsəlman kəndlilərinin süngüyə keçirilmiş meyitləri, kəsilmiş bədən hissələri və dağılıb tökülmüş daxili orqanları səpələnmişdi... Əsasən qadınlar və uşaqlar! Hakimlər və sahibkarlar qətlləri təşkil etmiş, erməni ordusu onu yerinə yetirmişdir. Dərin quyular qazılmış və köməksiz insanlar heyvan kimi kəsilərək bir-birinin ardınca quyulara atılmışdır. Qətllər üçün məsuliyyət daşıyan ermənilər bir evə səksən nəfər müsəlman doldurur, sonra isə onların başlarını kəsirdi.”* – Bu sətirlər isə polkovnik-leytenant **Qryaznovun** 1915-ci ildə Ərzincandakı qırğınlar haqqında raportundandır.

Belə faktlar o qədər idi ki. Onlarla tanış olanda adam bir tərəfdən rahatlıq tapırdı ki, bu hadisələrdən bəşəriyyət xəbərdardır, bir tərəfdən isə insanı dəhşət bürüyürdü ki, hər şeydən xəbərdar dünya niyə haqqın tərəfini saxlamır?

Rus ordusunun generalı **L.Odişelidzenin** 1915-ci il tarixli məlumatı hələ ondan da dəhşətlidir**:** ***“****11-12-mart gecələrində erməni cəlladları Ərzincan ətrafındakı ərazilərdə müsəlmanları süngülər və baltalarla qətlə yetirdilər. Bu vəhşilər öz qurbanlarını əksərən öz məşum planları məqsədi ilə qazılmış xəndəklərə atırdılar. Mənim yavərim iki yüz (200) belə xəndək saymış və cinayətlərin üstünü açmışdı.”*

İllər keçəndən sonra İntiqam öz gözləri ilə gördü ki, bu deyilənlər nə qədər doğru imiş... Anladı ki, ayrı-ayrı vaxtlarda, ayrı-ayrı məkanlarda törədilən cinayətlər silsiləsi bir-birini əvəz edirmiş zaman, məkan dəyişdikcə... İnsan cildinə girən şeytan bəşəriyyəti əsrlər boyu sınağa çəkirmiş

öz bitib-tükənməyən məkri ilə... Donuz donuzluğundan, it itliyindən əl çəkə bilmədiyi kimi, erməninin də ermənilayindən əl çəkməsi mümkünsüz imiş sən demə... Bax, yada düşəndə inasanın damarında qanını donduran Xocalı hadisələri də o dəhşətli faciələr, soyqırımlar silsiləsinin davamı imiş…

İntiqam deyilənləri eşitmirdi elə bil. Gözləri öldürülüb bir dərin quyda üst-üstə dəfn edilən günahsız qurbanların bəmbəyaz sür-sümüyünə baxır, ürəyindən isə qara-qara qanlar gedirdi... Özünü bir anlığa da olsa atasının yerinə qoyan oğlan dərk eləyirdi ki, bu müsibətlər yükünün altından qalxmaq çox çətin məsələdir, bəlkə də mümkünsüz bir işdir. "Ağrılarda göz ağrısı, hər kəsin öz ağrısı" kəlamının mahiyyətini elə bil indi anlayırdı oğlan...

Elə bu vaxt sözü bir ziyalıya, İntiqamın bu vaxta qədər tanımadığı bir şairə, ədəbiyyatşünasa verdilər... O, elə təsirli danışırdı ki, faciənin yaraları yenidən göynəyirdi dinləyənlərin ürəyində. Həmin şair çıxışının sonunda dedi ki, mən sözlərimi böyük rus şairləri Aleksandr Puşkinin və Vladimir Mayakovskinin şeirlərinin tərcüməsi ilə bitirmək istəyirəm. Bu şeirləri mən təzəcə tərcümə eləmişəm. Görün Dahi Puşkinin 1837-ci ildə yazılmış şeirində ermənilər haqqında nə deyirmiş:

Təkamülün zəif bəndi, döyüb döşünə,
Söyləmə ki, sən hamıdan qədim, ulusan,
Ay erməni, sən meymunlar sülaləsinin
Yer üzündə leş qoxulu ardıcılısan.
Nə vaxtacan səpəcəksən nifaq toxumu,
Nə vaxt bizi sevindirib gəbərəcəksən?
Nə vaxtacan yalanların davam edəcək,
Yer üzündə idbarlıqda nadirsən, təksən...
Bir Ararat uydurmusan Ağrı dağından, –

Arzuların qalacaqdır sənin gözündə.
Özün kimi sənin nadan, gicbəsər xalqın
Yanıb külə dönəcəkdir nifrət közündə.
Xalqlar yenə can deyəcək, can eşidəcək,
Nifaq dolu arzuların xəzəl olacaq,
Belə getsə, əvvəl-axır məhv olacaqsan, –
Ermənisiz dünya yaman gözəl olacaq,...

Şeirdəki "Ermənisiz dünya" ifadəsi İntiqamın çox xoşuna gəldi. Doğrudan da, tarixi faktlar aydınca göstərir ki, bu xalq olduqca acgöz, xəbis, özlərindən başqa kimsəni istəməyən bir qurumdur. Bəzi istisnalar olmaqla, küll halında onlara xalq deməyə də heç adamın dili gəlmir...

Sonra şair şeiri xüsusi intonasiya ilə yazıldığı dildə səsləndirdi:

Армян! Потомок Обезьян-Ты просто падаль поколений
Заслуживаешь ты расстрел, слабейший ты из всех звений!
Когда же сдохнешь наконец? Когда закончатся конфликты?
Когда закончишь ты всем врать? Когда же прекратятся мифы?
Когда поймешь ты наконец, что Арарат не будет вашим?
И падший,грешный твой народ,останется на веки падшим..
Мы будем свято верить в счастье, чтоб не-видать от вас невзгод
Сожжем огнем мы правосудным, тебя и глупый твой народ.
И вновь наступит мир добра, и мир который процветает.
Мир без армян и мир без зла, мир что надеждой окрыляет
И будет счастье на земле, и будет мир меж всех народов
И солнце выглянет опять, из-за покрытых тьмою сводов.
Армяне скоро ваш конец, конец который неизбежен.

("Qafqaz pritçaları" 1837)

Vətənpər şairin alovlu, emosional, ürəkdəki nifrət hissini coşduran çıxışı davam eləyirdi. Hamı diqqətlə onu dinləyirdi. Şairin işlətdiyi obrazlı ifadələr, maraqlı bənzətmələr, üçrəngli bayrağımızın şəhidlərin məzarı üstə dalğalanmasının rəmzi mənasını açması düşündürücü idi. O

deyirdi ki, mən inanıram ki, bu bayraq, xalqın ehtiramla günahsız qurbanların məzar abidəsinin üstünə qoyduğu saysız-hesabsız qərənfillər illər boyu göynəyən şəhid yaralarının ağrısını azaldacaq...

Sonra nitqi ilə ürəkləri ofsunlayan şair sovet dövründə yaşayan Vladimir Mayakovckinin bir şeirindən elədiyi tərcüməni oxudu. Qəribə idi ayrı-ayrı dövrlərdə yaşayan iki dahi sənətkarın fikirləri arasında böyük bir oxşarlıq sezilirdi:

Ömrüm boyu mən Qafqaza çox səfər etdim,
Ləyaqətli xalqlar görüb murada yetdim,
Erməni tək, idbar çirkin insan görmədim,
Mən erməni görən kimi üzümü örtdüm...
Yox onlarda zərrə qədər namus, ləyaqət,
Xəyantlə, riyalarla yallanır hər an.
Kişiləri çirkli uşaq oyuncağı tək
Ayaqların arasında sallanır hər an.
Tək olanda küçük kimi zingildəyənlər
Çox olanda çevrilirlər quduz köpəyə.
Satmağa da hazırdılar analarını,
Heç birisi sahib deyil cəsur ürəyə!
Onlarda nə etibar var, nə mədəniyyət,
Heç bilmirəm nəyə ümid bəsləyir onlar?
Qız-gəlini əxlaqsızdı, kişiləri gic
Bir-birini hay deyərək səsləyir onlar!

Tərcüməni oxuyandan sonra şair dedi ki, birdən elə bilərsiniz ki, bunları mən uydurmuşam, xeyir, belə deyil. Puşkinin şeiri kimi Mayakovskinin şeirini də olduğu kimi, yəni orijinalda təqdim edirəm:




Hər iki şeirin həm orijinalı, həm də tərcümsini oxuyandan sonra şair dedi ki, heç ola bilməz ki, ayrı-ayrı dövrlərdə yaşamış bu böyük şairlər ermənilər haqda təsadüfən bu cür düşünmüşlər. Necə deyərlər, od yanmasa, tüstü də çıxmaz...

Doğrudan da, bu qədər təsadüf ola bilməzdi. Ancaq İntiqamı düşündürən bu idi ki, görəsən nəyə görə rus siyasətçiləri öz ziyalılarına yox, nəfəsləri yalanla gedib-gələn bu “hay”lara inanırlar? Ey gidi dünya! Gör insanlar nə günə qalıblar!

***

Tədbirdən sonra ziyarətçilər bir masa arxasında əyləşib yemək yedilər. Şairin yavaşcadan, heç kəsə heç nə hiss etdirmədən durub bayıra çıxması oğlanın gözündən yayınmadı. Durub yavaş-yavaş onun arxasınca getdi...

Şair qarın üstündə gəzə-gəzə dağlara baxırdı. Ağarmış saçlarını qarın bəyazlığı bir az da ağ göstərirdi. Lakin aydınca hiss olunurdu ki, onun qara, uzaqlara dikilən gözlərinin önündə qara-qara buludlar oynaşır...

İntiqam bu nurani insana yanaşmağa, onu öz fikirlərindən ayırmağa cəsarət eləmirdi. Ancaq səbəbini özü də bilmədiyi bir istək yaranmışdı ürəyində. Bu insanla şəxsən tanış olmaq, ünsiyyət qurmaq keçirdi könlündən... Ancaq yaxınlaşmaq üçün bir bəhanə gəlmirdi ağlına. Dörd yana göz gəzdirən şair birdən yaxındakı oğlanı görüb yanına çağırdı:

– Gəl, oğlum, gəl bura. Bu qarlı dağlar lap bizim dağları xatırladır. Kəndimizin qışından ötrü lap burnumun ucu göynəyir... Ancaq 30 ilə yaxındır ki, o yerlərə həsrətəm.

Oğlan cəsarətləndi:

– Müəllim, Siz hansı rayondansınız?

– Qubadlıdan...

– Hə, atamdan eşitmişəm. Bizim də ora ilə bağlılığımız var... Orada qohumlarımız yaşayırdılar bir vaxt...

– Sən Qubadlını görmüsənmi?

– Xeyir. Ancaq atam həmişə o yerlərin gözəlliyindən danışır. Xəyalən gözlərim önündə canlandırıram. Ancaq xəyal ayrı, reallıq ayrı... Kaş o yerləri öz gözlərimlə görə biləydim...

– Əlbəttə, elədi. Ümidvaram ki, o yerləri görmək sənə də qismət olacaq... İnsan nəyisə sidq ürəklə arzulayanda istəyinə çata bilir... Ay oğul, dünyanın çox yerini gəzmişəm. Ancaq heç harda Bərgüşad kimi, Həkəri kimi, Ağa çayı kimi çay görməmişəm... Onların qıjıltıyla axışına dünyanın ən canlı peyzajı kimi ləzzətlə tamaşa eləmişəm, səsini, nəğmə-

sini dünyanın ən bənzərsiz simfoniyası kimi dinləmişəm. Bu çaylar həmişə mənim üçün duruluq, bolluq, bərəkət rəmzi olub. Otuz ilə yaxındır ki, o çaylar hər gecə mənim yuxularıma axır...

Elə bil şair öz sözlərindən özü də duyğulandı... Yol çəkən gözləri yaşla silələndi. Onun bəbəklərinin dərinliyindən boylanan həsrəti İntiqam görürdü elə bil... Ona görə yaxından tanımadığı insana elə o dəqiqə ürək qızdırdı, onunla hər şey haqqında söhbət eləmək istədi. O söhbəti ki, atasıyla eləməyə belə çəkinirdi.

Şair diqqətlə, səbrlə, ürək ağrısı ilə oğlanın həyat hekayəsini dinlədi. Çox duyğulandı. İçindəki mürgülü fırtına yenidən baş qaldırdı. Dodaqları səyridi, əlləri titrədi...

İntiqam üzrxahlıq elədi:

– Müəllim, xahiş eləyirəm bağışlayın məni. Öz ailə problemimi də Sizin üçün əlavə yük elədim.

Şair oğlanın sözünü kəsdi, ona təskinlik verməyə çalışdı:

– Nə danışırsan, ay oğul? Hər bir ailənin problemi elə xalqımızın problemlərinin bir hissəsidir. Qarabağ hadisələri təkcə bir kəndin camaatının yox, bütün xalqımızın ürəyinə çalın-çarpaz dağ çəkib. Bax uzaq getməyək, elə yaxın qohumum, milli qəhrəman Səfa Axundovu xatırlayaq. Mən Səfanı yaxşı tanıyırdım. Uşaq vaxtından ürəyində təyyarəçi olmaq arzusu baş qaldırmışdı. Müharibə başlayanda xaricdə yaşayan, işləyən bütün vətənpərvər oğullarımız kimi o da vətənin harayına gəldi. Əlindən gələni əsirgəmədi. İdarə elədiyi vertalyotla nə qədər insanı düşmən pəncəsindən xilas eləyə bildi... Ancaq namərdlər onun mülki insanları daşıyan vertalyotunu da havada vurdular. Həmin vertalyotun yana-

yana havadan yerə gəlməsi səhnəsi indi də gözümün qabağından getmir...

O qədər vətənpərvər oğullarımız şəhid oldular ki, vətən yolunda... Təəssüf ki, hələ torpaqlarımızı düşmən tapdağından xilas eləyə bilməmişik...Müharibə dəhşətdir. Ancaq torpaqlarımızı azad etmək üçün müharibədən başqa yolumuz yoxdur...

İntiqam hövsələsizlik elədi. Şairin sözünü kəsdi:

– Müəllim, üzr istəyirəm, əgər belədirsə, niyə müharibə eləmirik?

Şair intiqam almaq hissi ilə yanıb-qovrulan bu gəncə baxa-baxa ötən günləri xatırladı. Yadına Qubadlının işğalından bir ay əvvəl ata ocağında keçirdiyi günlər düşdü. Hər yay olduğu kimi o, öz ailəsi ilə məzuniyyətini Qubadlıda keçirməyə getmişdi. Təbiət vurğunu olan bu insan hər gün öz uşaqlarını və qardaşı uşaqlarını götürüb Bərgüşad çayının sahilinə gedirdi. Onlar çayda çimir, balıq tuturdular...

Həyat öz axarında getsə belə, müharibə idi... Demək olar ki, hər gün Qubadlını qrad qurğuları ilə atəşə tuturdular. Ancaq camaat üçün bu, adi hal idi. Hamı öz işində, gücündə idi...

Şair fikirdən ayılıb israrla sualına cavab almaq istəyən gəncin üzünə baxdı:

– Ay oğul, sənin bu sualın məni ötən günlərə apardı. Sənin verdiyin suala bənzər bir sual da mən vermişdim Qubadlının işğalından bir neçə gün əvvəl. İcra hakimiyyətinin binasının, diyarşünaslıq muzeyinin yanında nəhəng bir çinar ağacı var idi. Ağsaqqallar həmin ağacın kölgəsində dayanıb söhbət eləyir, dərdləşirdilər. Yaxınlaşıb salam verdim. Həmişə xətrimi istəyən, hörmətimi saxlayan bir

ağsaqqal mənimlə çox kobud danışdı. Üstümə acıqlanıb dedi:

– Ay bala, öz dərdimiz özümüzə bəsdi. Bu vurhavurda sənin burda nə işin, nə azarın var? Arvad-uşağını da götür çıx get öz evinə, şəhərə... Qoyun öz dərdimizi özümüz çəkək da...

Oradan suyu süzülə-süzülə evə qayıtdım. O vaxt rəhbər vəzifədə çalışan qardaşıma dedim ki, deyəsən vəziyyət çətindir. Uşaqları aparıb şəhərə qoyum, sonra qayıdım görək neyləyirik.

Qardaşımı od götürdü. Dedi ki, sən də dünyadan xəbər-siz insanlar kimi danışırsan. Sənin mənə ən böyük köməyin o ola bilər ki, anamızı və öz uşaqlarını götürüb təcili şəhərə aparasan...

Məsələ çox ciddi idi. 1993-cü il avqust ayının 19-da şəhərə qayıtmaq qərarına gəldim. Sübh tezdən yuxudan durub başı çıxanlar kimi maşının kapotunu açdım, alışma şamlarını təmizləmək istədim. Elə bu vaxt bir nərilti-gurultu qopdu ki, gəl görəsən...

Bizim evimiz çayın Ermənistan olan sahilində, dağın yamacında idi. Mərmilər başımızın üstündən uçub çayın o biri sahilindəki evlərin üstünə düşür, tüstü-duman göyə qalxırdı...

Ara sakitləşən kimi üzü şəhərə sarı yola düşdük. Rayo-nun çıxacağında post qoyub yerli adamların şəhərə getmə-sinə icazə vermirdilər. Anam Allaha yalvarırdı ki, kaş məni geri qaytaralar...

Adamlar mənim şəhərdən gəldiyimi bildiklərindən heç maşınımı saxlatdırmadılar da. İşarə elədilər ki, sür get...

Qubadlıdan çıxıb Cəbrayıl rayonunun ərazisinə daxil olanda gördüyüm mənzərə indi də gözlərimin önündən getmir. Sən demə, qubadlılar “fil qulağında yatıbmışlar”. Füzüli də, Cəbrayıl da işğal olunubmuş. Araz boyu yolu qəsdən açıq saxlayıbmışlar ki, adamlar başlarını götürüb qaçsınlar. Yoldakı sıxlıq, ətrafa səpələnmiş yorğan-döşək, mal-qara, qoyun sürüsünü, ağlartı dolu ürəkgöynədən mənzərələri heç vaxt unuda bilmərəm...

Yolda görüşüb salamlaşdığım adamların bir neçə gündən sonra öldürüləcəyi xəbərini alacağım heç ağlıma da gəlməzdi o vaxt. Sonradan eşitdiyim hadisələr indi də içimi göyüm-göyüm göynədir...

Rayonda yaşayan bir qadın aşağı kəndlərdən birinə, qardaşıgilə qonaq gedibmiş. Gecə ermənilər tankla, hərbi texnika ilə kəndə hücum eləyiblər. Adamları xüsusi amansızlıqla öldürüblər. Qardaşıgilə qonaq gələn qadının yanında partlayan mərmi onu yerə sərib. Qadın ölməyib, ancaq qarnı deşilib, içalatı yerə tökülüb. O, qardaşına yalvarıb ki, qaçıb canınızı qurtarın, mən onsuz da ölürəm...

Qardaş çar-naçar bacısını bir dalda yerə uzadıb, üstünü şax-şəvəllə örtüb... Hamı çıxıb gedib. Qadın isə ağrılardan zillət çəkə-çəkə özündən gedib. Huşu başına gələndə sürünə-sürünə yola çıxıb. Təsadüfən özümüzünkülərə rast gəlib. Onu Saatlıya, xəstəxanaya aparıblr. Əməliyyatdan sonra qadın özünə gəlib.

Şəhərdə anasının ölmədiyini, xəstəxanada yatdığını eşidən oğlu və kürəkəni bir maşın tutub gediblər ki, onu gətirsinlər. Yolda qəza olub. Oğlu və kürəkəni dünyasını dəyişib həmin qadının... Bir nəsil ocağı beləcə kor qalıb...

Bu danışdığım hadisə hələ yüzlərlə buna bənzər hadisələrdən biridir. Alçaqlar sadə insanların başına müsibətlər gətiriblər. Onlara işgəncə veriblər, şərəf və ləyaqətlərini tapdalayıblar...

Şairin danışdığı bu əhvalat İntiqamı lap duyğulandırdı. Ona məlum oldu ki, hərənin özünə görə dərdi var imiş... Müharibə hamıya fəlakət gətiribmiş...

Sonra söhbət qızışdı, qar yaddan çıxdı. Bir-biri ilə dərdləşən qoca ilə gəncin hər ikisinin ürəyini yurd həsrətinin sazağı üşüdürdü...

İntiqam şairdən bayaq oxuduğu şeirləri istədi. Şair cibindən həmin şeirlərin çap olunduğu bir qəzet parçası çıxardı və oğlana verdi. "Qoy bunlar məndən sənə yadigar qalsın", – dedi...

Elə bu vaxt başqa bir oğlan onlara yanaşdı və dedi ki, müəllim, içəridə Sizi gözləyirlər...

Şair oğlanla xudahafizləşib getdi. Qismət olsa, Qubadlıda görüşərik, – dedi...

İntiqam bu nurani insandan tez ayrıldığı üçün təəssüfləndi. Ancaq ürəyində bir arzu baş qaldırdı ki, kaş mən də gedib, bir vaxt atamın pənah apardığı el-obanı görəydim...

İntiqamın oxuduqları, gördükləri onun məsələ ilə bağlı biliklərini əhəmiyyətli dərəcədə genişləndirmişdi. Saysız-hesabsız faktlar bu vətənpərvər gəncin düşüncə dəyirmanını susuz qoymur, onu düşünüb-daşınmağa, nəticə çıxarmağa istiqamətləndirirdi. Atası kimi ona da yer eləyən bu idi ki, dünyanın əksər ölkələri haqqın danılmaz faktlarına göz yumur, nahaqqın yalanlarına inanır, ona qahmar çıxmağa çalışırdılar...

30 illik Qarabağ savaşının ayrı-ayrı mərhələlərində məsələnin mahiyyətindən xəbərsiz bəzi ölkə rəhbərlərinin haqqın yox, nahaqqın, zalımın, işğalçının, oğrunun tərəfində durmaları Ümidə, onun oğlu İntiqma yaman yer eləyirdi. Bu qədər haqsızlıqmı olar? Döyülən də, söyülən də, ev-eşiyi dağıdılan, ailə üzvləri qəddarcasına qətlə yetirilən, var-dövləti talan edilən, mədəniyyət nümunələri oğurlanan, müqəddəs məbədləri dağıdılan, dini təhqir edilən, yurd-yuvasından qovulan da sən, günahkar da sən? Heş belə haqsızlıq olarmı? Özünü mədəni, sivil sayan xalqın nümayəndələri niyə mərdin yox, namərdin tərəfini saxlayırlar? Heç Allah bu haqsızlığı götürərmi?

Ümidin ermənilərin tərəfini saxlayan fransızlara bərk qəzəbi tuturdu. Öz-özünə deyirdi ki, görəsən Faransanın rəhbər şəxslərinin öz böyük yazıçılarının, **Aleksandr Dümanın** *"Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər"* – qənaətindən xəbərləri yoxdurmu? Fransız səyyahı **qraf De-Şolye** bu sözləri təsadüfənmi yazmamışdı: ***"****Mən onlarla (ermənilərlə) heç zaman dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir."*

Fransızlar öz soydaşları, Xocalı faciəsinin şahidi, fransız jurnalisti **Jan İv Yunetin** sözlərinə də inanmırlar? Gördüklərindən dəhşətə gələn həmin insan yazırdı**:** *"Biz Xocalı faciəsinin şahidiyik. Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinlərinin – qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük... Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa*

*çatdıra bilmədik. Amma elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək üçün kifayət edirdi. Bu, tükürpədici mənzərə idi. 5-6-yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər".*

Bəs fransızlar öz alimləri **de-Banın** Eçmiadzin kilsəsinə səfəri zamanı söylədiyi bu fikirlərələ tanış deyillərmi? *"Bu kilsə bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Bu monastr məndə dini mərkəzdən çox, siyasi mərkəz təəssüratı yaratdı."*

Ermənilərin fitnəkarlığı, nəinki saxta pul kəsmələri, saxta xəritə, saxta tarix "yaratmaları", utanmadan, qızarmadan başqasının evinə girmələri bir yana, "bura mənim dədə-baba evimdir" demələri, misli görünməyən həyasızlıqları kimə məlum deyil ki?

Azərbaycan ərazilərində olan qədim alban kilsələrini öz adlarına çıxmaq üçün onların hansı yollara əl atmalarından bəşəriyyətin xəbəri yoxdurmu? Onların xüsusi sexlərdə "qədim kitabələr", "əşyayi dəlillər" hazırlayıb torpağa basdırmaları, bir neçə ildən sonra həmin yeri qazıb "qədim erməni mədəniyyətinin nümunələri" tapmalarını bəyan etmələri azmı olub? Bu faktlar azmı ifşa olunub? Niyə dünya ölkələri qatığa qara deyənlərin tərəfini saxlayırlar? Əgər onlar özlərinin dedikləri kimi həqiqət tərəfdarıdılarsa, heç olmasa **P.Kerop Patkanovun** 1981-ci ildə nəşr edilən "Van yazıları və onların Ön Asiyanın tarixi üçün əhəmiyyəti" kitabının 36-37-ci səhifəsindəki bu sözləri oxusunlar: *"Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ermənilərin səpələndiyi coğrafi termin olub, güclü xalqların – assuriyalıların,*

*midiyalıların, iranlıların, yunanların, monqalların, rusların öz mübahisələrini həll etdikləri yer olmuşdur.”* Əgər şübhələri varsa, həmin fikirlərin öz əksini tapdığı **Maqdı Neymanın** 1999-cu ildə nəşr olunan (SPB) “Ermənistan” kitabına nəzər salsınlar...

Təkcə ruslar, fransızlar yox, erməniləri yaxından tanıyan digər xalqların nümayəndələri də onların iç üzünü açan fikirlər söyləmiş, gələcək nəsilləri ayıq-sayıq, ehtiyatlı olmağa səsləmişdilər...

Məşhur fars şairi **Sədi Şirazi** erməniləri yer üzünün ilanı, insanlğın düşməni hesab etməkdə çox haqlı idi. İngilis səyyahı **Vilson** ermənilərin acgöz və tamahkarlıqlarından bəhs edir və söyləyirdi ki, onlar (yəni ermənilər) istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və yalnız bunları özlərindən başqalarına edirlər.

Alman səyyahı **Alferd Kertenin** fikirləri də çox maraqlıdır: *“Türklərlə iş görəndə sözlə danışmaq kifayətdir, müqavilə bağlamağa da ehtiyac yoxdur... Əgər yunanla iş görmək istəyirsinizsə, mütləq müqavilə bağlayın, erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, sadəcə şərə rast gələcəksiniz. Erməni ilə rastlaşmaq təhlükəlidir, onu yuxuda görmək də xeyir gətirmir...”*

Hadisələr göstərir ki, bu görkəmli adamlar erməniləri nə qədər yaxından tanıyırmışlar. Xocalı faciəsini törədən bu şərəfsizlər bir tərəfdən bunu abırsız-abırsız etiraf edir, elədikləri bəd əməllərlə öyünürdülərsə, bəzən də vəziyyətə uyğun şəkildə həmin faciəni ermənilərin yox, türklərin törətdiklərini söyləyirdilər.

Yazıçı **Jemçuynikov** bu haqda çox doğru qənatə gələrək belə yazırdı: "*Qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir. Özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər.*"

**Musa Xorenatsi** heç bir dəyərli folklor nümunəsi yarada bilməyən ermənilərin onun-bunun malına sahib çıxmasının köklərini çox gözəl dərk eləyərək yazırdı: *"İndi olduğu kimi keçmişdə də qədim hayların ağızlardan-ağızlara keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır."*

Ən dəhşətlisi budur ki, bu "kəmağıllar" bəşəriyyətə "ağıl qoymaq" istəyində olublar həmişə... Erməni xisləti tərəqqipərvər ziyalılar tərəfindən pislənib tarixin müxtəlif dönəmlərində...

Ancaq nədənsə onların sözləri də çox zaman qulaq ardına vurulub... Ancaq fakt faktlığında qalır. El demişkən, cidanı çuvalda gizləmək olmur.

İnsan onunla toxtaqlıq tapır ki, dünyada tərəqqipərvər, haqqın mövqeyini dəstəkləyən qüvvələr də var. Lakin bir həqiqət var ki, mədəni məntiq mədənilər üçündü. Özgəsinin torpağını talan eləyən, heç nədən çəkinmədən cinayətlər, terrorlar törədən insanları sivil dillə başa salmaq mümkün deyil. Onlarla öz anlayacaqları güc, hərb dilində danışmaq-dan başqa çarə qalmır...

Ataların goruna qurban olum, onlar doğru deyiblər ki, dua oxumaqla donuz darıdan çıxmaz...Ancaq məsələ bunda idi ki, donuz xislətlilər donuzdan belə murdar, ləyaqətsiz idilər...

X fəsil

## APREL DÖYÜŞLƏRİ VƏ ÜMİD KÖZƏRTİLƏRİ

Bir an da olsun keçmişini unutmayan, atalı-analı günləri, xoşbəxt ailə həyatını yadından çıxara bilməyən Ümid o gözəl ayların, illərin xiffətini eləyirdi... Bəzən düşüncələrə dalıb xəyalən o günlərə qayıda bilir, bəzən də bu mümkün olmurdu... Nastalgiya – xiffət əzablı olsa da, şirin idi. Əzablı idi ona görə ki, o günləri geri qaytarmaq mümkün deyildi. Ömrün xoşbəxt anlarına xəyalən də olsa qayıda bilməkdə isə əzabla yoğrulan bir şirinlik var idi...

Bu xəyali xoşbəxtlik yolunun dağa, dalana dirəndiyi ağrılı məqamlar o qədər idi ki... Ümid atasının söylədiyi “Örkən nə qədər uzun olsa da, axırı doğanaqdan keçər” kəlamını tez-tez xatırlayırdı. Bədbəxt taleli insan o xoşbəxt günlərə qayıtmaq istəyərkən yolunun üstündə ağrılı, əzablı Xocalı soyqırımı günü dayanırdı... Bu doğanaqdan keçmək qıl körpüsündən keçmək qədər çətin bir iş idi... Nalə, fəryad səsləri qır qazanında yananların tükürpədici harayına, qışqırığına oxşayırdı... Ancaq dəhşət idi, bu qazanda cəlladlar, qatillər yox, günahsız körpələr, uşaqlar, qadınlar, qocalar zillət çəkirdilər... Necə deyərlər, Şər Xeyirin anasını ağladırdı... Şər istədiyini eləyirdi, Xeyirin isə harayına gələn yox idi... Yerin, göyün qulağı kar idi elə bil... 20 Yanvarda əliyalın adamlara divan tutan “xilaskar ordu”nun əsgərlərinin pəncəsindən xilas olmaq mümkün deyildi... Əslində onlar idi haqsız “hay”ların əli ilə müstəqil yaşamaq istəyən xalqı cəzalandıranlar, onların gözünü qorxutmağa çalışanlar...

Torpaqların azad edilməsi uğrunda müzakirələr davam etsə də, danışıq olmaqdan o tərəfə keçmirdi. Ümid kimi qaçqınlıq, köçkünlük taleyi yaşayanlar, doğmalarını, əzizlərini Birinci Qarabağ müharibəsində itirənlər, ev-eşiklərindən didərgin salınanlar həsrətlə doğma yurda dönəcəkləri günü gözləyirdilər...

İllər keçdikcə ürəyində yurd həsrəti dünyadan köçənlərin də sayı artırdı. Ümid neyləyəcəyini, necə eləyəcəyini bilmirdi. Öz-özünə həmişə deyirdi ki, gücsüzlük, kimsəsizlik nə yaman pis şey imiş... Doğrudanmı bu dünyada səsimizə səs verən ədalətli xalq, ölkə yoxdur? Doğrudanmı Şər həmişə Xeyirə qalib gələcək?!

Günlər keçdikcə, yaşıdları, həmdərdləri dünyalarını dəyişdikcə Ümid dərdləşməyə adam da tapmırdı elə bil... Düzdü, oğlu ilə, həyat yoldaşı ilə arabir bu məsələlərdən söhbət eləyirdi, ancaq bu söhbətlər zamanı arada olan pərdə hər şey haqqında danışmağa imkan vermirdi. Digər tərəfdən, ailə üzvləri bu mövzuda olan söhbətlərdən mümkün qədər uzaq qaçmağa çalışırdılar. Ona görə ki, nə fərli-başlı təskinlik verə bilirdilər, nə də məsələni həll etmək gücündə idilər...

Camaat öz işində idi... Qara bazar, dolanışıq problemləri hər şeyi, hətta yurd həsrətini də arxa plana keçirmişdi elə bil. Televiziyalarda çal-çağır davam eləyirdi... Elə bil o qədər çox sayda şəhid verən, ərazisinin 20 faizini itirən xalq deyildi bu xalq... Bu, Ümidə çox pis təsir eləyirdi...

İldırımsürətli Lələtəpə döyüşləri xalqımızın sadə adamları kimi Ümidin də kül altında qalan ümidlərini yenidən közərtdi... Bu döyüşdə onun İntiqamı da iştirak eləyirdi... Ancaq böyük qəhrəmanlıqlar göstərsələr də, kütləvi

sayda düşmən əsgərlərini məhv eləsələr də, bu dəfəki intiqam yarımçıq intiqam idi... Yenə də ermənilərin havadarları zəfər yürüşümüzün qarşısını aldılar, hər şeyi "sülhlə həll eləyəcəklərinə" söz verdilər... Ancaq həmişəki kimi yenə də sözlərinin ağası olmadılar...

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndininn yaxınlığındakı Lələtəpə adlanan yüksəkliyin mühüm tarixi, etnoqrafik, dini və mədəni əhəmiyyət kəsb eləməsini Ümid yaxşı bilirdi... Onu da bilirdi ki, işğal olunmuş ərazilərimizdə belə müqəddəs məkanlar, ziyarətgahlar, məbədlər, tarixi abidələr çoxdur. Lələtəpə həm işğaldan azad edilən ilk ziyarətgahlardan biri, həm də strateji əhəmiyyət kəsb edən yüksəklik idi... Lələtəpə qələbəyə sarı atılan ilk inamlı addım idi... Bu qədər sürətli hücum gözləməyən düşmənin toparağını qoparmışdı Azərbaycan ordusu...

Lələtəpənin üstündə dalğalanan Azərbaycan bayrağı düşməni qorxuya salmışdı... Lələtəpə ucalığından işğal altında olan torpaqlarımız daha yaxşı görünürdü... Bu yüksəklik uğrunda döyüşlər düşmən ordusunun məğlubedilməzliyi haqqında mifi qırıb dağıtdı... Ancaq təəssüf ki, döyüş hansı səbəbdənsə dayandırıldı...

Təbii ki, sadə adamların bilmədiyi çox şey var idi. Elə buna görə də onlar döyüşü yarımçıq dayandıranları qınayırdılar... Əslində bu, təbii bir hal idi... Ümid bilmirdi ki, Xocalı soyqırımının əsl təşkilatçılarından biri, xarici jurnalistin "Xocalı hadisələri nəyə lazım idi?" sualına "Bunu etmək o baxımdan vacib idi ki, onlar bu torpaqları unutsunlar" cavabını verən Ermənistanın o vaxtkı prezidenti Sərkisyan məsələnin çətinləşdiyini, Azərbaycan ordusunun gücünü görəndə Rusiya prezidenti vasitəsilə xahiş eləmişdi

ki, müharibəni dayandırın, torpaqları geri qaytarmağa söz veririk. Elə buna görə döyüşlər dayandırılmışdı...

Lakin bu söz kişi sözü yox, hiyləgər, ikiüzlü bir xəbisin, namərdin sözü idi, sözünün ağası olan türkün yox... Vədlərinə xilaf çıxanlar yenə də vaxt uzadırdılar. Hakimiyyət dəyişikliyinə razılaşmanın əsas səbəblərindən biri də bu idi əslində...

Əliyalın, dinc sakinləri qırdıran köçəryanlar, sərkisyanlar elə bilirdilər ki, Xocalı qətliyamından gözləri qorxan azərbaycanlılar bir də bu torpaqların adını tutmayacaqlar. Lakin onlar unudurdular ki, bu cinayətləri törətməklə əslində özləri üçün qəbir qazırmışlar... Bu hadisələr insanların ürəyində intiqam odunu görünməz bir vüsətlə alovlandırırdı...

Əslində Aprel döyüşlərinin səbəbkarı da elə onların özləri idi... Bu "hay"lar elə bilirdilər ki, Azərbaycan ordusu özünü müdafiə eləməyə qadir deyil. Elə buna görə də bizə addımbaşı "xox gəlir", insanların ürəyinə vahimə toxumu səpməkdən zövq alırdılar. Aprel döyüşləri də məhz onların təxribatlarından sonra baş vermişdi...

Bu döyüşlərdə Ümidənin (Sədaqətin) qardaşı Elşən də əfsanəvi qəhrəmanlıqlar göstərənlərin sırasında idi. O, həmişə deyirdi ki, ay Ümid dayı, mən uşaq evində böyümüşəm. Mənim atam da, anam da vətəndi... Məni böyüdüb boya-başa çatdıran Vətənin dar günündə onun köməyinə çatmasam, mən nə oğulam ki? Heç bu mənə yaraşarmı?

Bu sözləri eşidən Ümidənin (Sədaqətin) gözləri bahar buludu kimi dolurdu həmişə... Şəlalə ana nə qədər ovundurmağa çalışsa da, qız təskinlik tapa bilmirdi ki, bilmirdi...

Ümid Elşənə deyirdı ki, insanlara verilən adlarda onların gələcək taleyinin rüşeyimi var imiş. Sənin adın da "el" sözü ilə başlayır. "Şən" isə ayrı məna daşıyır. Deməli adı Elşən olan insan elin şən, firavan günləri üçün mübarizə aparmalıdır.

– Düz deyirsən, ay Ümid dayı. Heç bu mənin ağlıma gəlməmişdi. Aprel döyüşlərinin əfsanəvi qəhrəmanlarından birinin də adı Elnur idi...

Ümid maraqla soruşdu:

– Kim idi o Elnur? Elə bil bu ad mənə tanış gəlir.

– Tanımamış olmazsınız. Bu oğlan haqqında çox yazılıb, hətta ona həsr olunan film də çəkilib.

– Yəqin o da dərdli, başı müsibətlər çəkən bir ailənin oğlu imiş...

– Düzdü, ay Ümid dayı. Mayor Elnur Əliyev əslən Füzuli rayonunun Dədəli kəndindəndir. Mənim komandirim idi. Bəzən ona "Dəli Elnur" da deyirdilər. Əslində Elnur çox ağıllı, düşüncəli, peşəkar bir zabit idi. Sadəcə vətən torpağının dəlisi olan bu insan düşmən görəndə dəliyə dönür, şir kimi onların üstünə atılırdı... Elə axırıncı döyüşümüzdə də belə oldu. İgid, əfsanəvi komandir özünü qumbaranın üstünə atıb əsgərlərini xilas eləyən bir oğul idi...

Ümid kişinin gözləri yaşarsa da, qürur hissi keçirdi. Düşündü ki, gör bizim nə qədər mərd, qəhrəman oğullarımız var... Əl-qollarını bağlayan olmasa, onlar mütləq düşməni məhv eləyərlər.

Handan-hana xəyaldan aylan Ümid sonra sakit, lakin qürurlu səslə dedi:

– Belə igidləri olan Vətən basılmaz...

– Elədir, ay Ümid dayı... O qədər döyüşkən, vətənpərvər oğullarımız var ki, imkan versələr, onlar erməninin daşını daş üstə qoymazlar... Aprel döyüşlərində “ara, gəlırlər, qaçın” deyən bu şərəfsizlər aradan çıxmaqda da mahir olduqlarını əyani şəkildə nümayiş etdirdilər... Çətinliyə düşən kimi “şivən-qiyamət” eləyib havadarlarından kömək istədilər...

– Ay oğul, bu onların çoxdankı xasiyyətidir. Elə ki, işləri çətinə düşür, quyruq bulayırlar. Əllərinə imkan düşdükdə isə zalımlar zalımına dönürlər...

Qələbə itkisiz olmur. Aprel döyüşlərində saysız-hesabsız düşmənləri məhv edən ordumuz da itkilər verdi. Vətən uğrunda şəhidlik zirvəsinə ucalanlar xalqımızın qələbə yolunu xeyli qısaltdılar. Aprel döyüşləri Azərbaycan ordusunun nəyə qadir olduğunu göstərdi.

General Mais Bərxudarov, Milli Qəhrəmanlar Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanov kimi yüzlərlə oğlumuz düşmənin göz dağına çevrildilər... Vətən uğrunda ölümüylə yeni nəslə ölməz bir ruh yadigar qoyub gedən şəhidlərimizin ömür yolu əsl kişilik məktəbinə çevrildi...

O vaxt gözə görünməsə də, Azərbaycan diplomatiyası da öz işində imiş... Bunu hadisələrin sonrakı gedişi də göstərdi...

Başı daşdan-daşa dəyən Ümid ürəyinin dərinliyində həmişə dərk eləyirdi ki, bu xəmir hələ çox su aparacaq. O, bilirdi ki, xalqımızın başına gətirilən müsibətlərin baş memarları kimlərdir... Ümid həmişə deyirdi ki, bizi bu tarixi bəlaya salanlar istəmirlər ki, öz başımızın çarəsini qılaq. Köməkləri təpələrinə dəysin, əl-qolumuzu bağlamasalar, qorxaq, özündən güclü görəndə quyruq bulayan düşmən-

lərimiz başlarından yekə bu qələti eləyə bilərdilərmi? Əslində xalqımızı məhv etməyə çalışanlar, onun azadlıq istəyini məngənəyə salıb sıxanlar “insan ovu” zamanı haylardan tula kimi istifadə eləyiblər. Haylar ovçu yox, həmişə ov tulaları olublar...

Lələtəpə döyüşləri Azərbaycan oğullarının hünərinin, qüdrətinin göstəricisi oldu... Böyük qüvvələr imkan versəydilər, elə onda torpaqlarımızı tamamilə azad etmək mümkün idi... Ancaq namərdlər həmişə olduğu kimi yenə də əl-qolumuzu bağladılar, bizə yalançı vədlər verdilər...

Ümid müharibənin dayanmasını istəməsə də, yaxşı dərk eləyirdi ki, bu, təkcə erməni – Azərbaycan müharibəsi deyil. Həmişə böyük dövlətlərin girovu, qurbanı olub kiçik dövlətlər... O, yaxşıca anlayırdı ki, Azərbaycan müstəqilliyini bərpa edən kiçik dövlətlərdən biri olsa da, Azərbaycan xalqı böyük xalqdır. Sayca da az deyilik. Ancaq böyüklüyümüzü şərtləndirən təkcə sayca çoxluğumuz deyil. Biz sözünün ağası olan ləyaqətli, namuslu, sülhpərvər bir xalqıq. Elmimiz də, mədəniyyətimiz də, incəsənətimiz də, qəhrəmanlığımız da dünyaya bəllidir... Əslində bizi istəməyənləri qorxudan da elə budur. Onlar bizim birliyimizdən qorxduqları üçün aramıza nifaq toxumu səpmək istəyiblər həmişə... Erməniləri gətirib türk, müsəlman dünyasının arasına pərçim eləyənlər tarix boyu birliyimizi sarsıtmağa çalışıblar...

Həmişə bu məsələlər haqqında düşünürdü Ümid. Övladları böyüyəndən sonra da söhbətlərinin əsas mövzusu elə bu idi... Ümidin ürəyindəki intiqam hissi indi təkcə şəxsi, fərdi intiqam hissi deyildi. Bu hiss 30 ilə yaxın bir

müddətdə böyüyərək xalq intiqamı səviyyəsinə yüksəlmişdi...

***

Ağrılı-əzablı bir ömür yolu keçən Ümid kişi yurdunu, kəndini, ailəsini, övladlarını, qohum-qardaşını, dost-tanışını, gəncliyini itirmişdi... Dərd, ağrı, keşməkeşli ömür yolu müdrikləşdirmişdi bu insanı. Elə buna görə də təslim olmaq istəməmiş, ömrünə yeni gələn Şəlalənin, qızı Ümidənin, oğlu İntiqamın, qızı Lalənin sayəsində itirdiklərinin bəzilərini qaytara bilmişdi... Təzə ailəsi də var idi, övladları da. Özünə təzə dost tanış da, həmsöhbət də tapmışdı. Ancaq dilində deməsə də, ürəyində həmişə düşünürdü ki, heç kəs heç kəsi əvəz eləyə bilmir ömür yollarında... Ancaq bu da danılmaz həqiqətdir ki, əbədi heç nə yoxdur bu dünyada...

Ona əzab verən də, onu xəyalən xoşbəxt eləyən də bitib-tükənmək bilməyən düşüncələri idi... İnsan duyduğu, fikirləşdiyi hər şeyi hər kəsə deyə bilmir. Acı həqiqət, səmimiyyət bəzən insanları incik salır, onları bir-birindən uzaqlaşdırır.

Ümid necə gözünün qabağında olan dəhşətli hadisələri dilinə gətirəydi axı? Sevimli həyat yoldaşının döşünün murdar əllərlə kəsilib dərisi soyulan 13 yaşlı uşağın ağzına basılması səhnəsini necə unutmaq olardı? Belə dərdi kiminləsə bölüşmək kişilik qürunu alt-üst eləmək olmazdımı? Bir də bu necə kişilikdi ki, öz həyat yoldaşını, oğlunu murdar əllərdən xilas eləyə bilməyəsən? Bu dərdə, bu ağrıya, bu əzaba dağ da dözə bilməzdi... İnsan çox üzübərk məxluq imiş...

Ümid nə gəncliyini qaytara bilirdi, nə itirdiyi doğmaları... Onu da çox gözəl bilirdi ki, bunları qaytarmaq heç

vaxt mümkün olmayacaq. Ancaq doğma yurda qayıtmaq ümidini itirməmişdi... Həyat yollarında ona gələn ikinci nəfəs kişini dirçəltmişdi. Zahirən hər şey yaxşı idi. Ailə də qurmuşdu, oğul-uşaq sahibi də olmuşdu, təzə həyat köhnə yaraların sızıltısını azaltmışdı bir az. Ancaq Ümid qəlbinin dərinliklərində hiss eləyirdi ki, hətta xoşbəxt ailə, oğul-uşaq da insanın içindəki boşluğu doldurmaq gücündə deyilmiş... Bu boşluğu bəlkə işğaldan azad edilmiş yurd yeri doldura biləydi... Ancaq o torpaqları geriyə qaytarmaq mümkün olacaqdımı?

Otuz ilə yaxın vaxt keçirdi. Bu illər onun içindəki boşluğu daha da dərinləşdirirdi...

Adamlar isə elə bil fil qulağında yatmışdılar. Xırda qayğılar elə bil böyük problemlərin həlli yolundan insanları çəkindirirdi... Qara bazar qara camatın gününü bir az da qara eləmişdi. Bir tikə çörək qazanmaq üçün mütləq zəhmət çəkmək lazım idi... Yaşamaq istəyirsənsə, istər-istəməz digər canlılar kimi yaşamaq uğrunda mübarizəyə qoşulmalı, ailəni, övladlarını yaşatmaq yolunda mücadilə aparmalısan... Ümid dərk eləyirdi ki, daha "hazıra nazir olmaq" zamaını deyil... Mütləq çalışmalı, tər tökməli, işləmli, özünə yeni gün-güzəran qurmalısan...

Həyat insanları hər şeyə məcbur eləyir... Ayağı yalın, başı açıq qaçıb canlarını qurtanlar ölümün pəncəsindən xilas olduqları, əsir düşmədikləri üçün istər-istəməz təskinlik tapırdılar... Topdağıtmaz evləri yağmalananlar, yerlə yeksan edilənlər illər uzunu çadır şəhərciyinin sakinlərinə çevrilmək məcburiyyətində qaldılar...

Dərd eyni olsa da, hərə dərmanı bir cür axtardı. Ehtiyac müəllimə çevrildi, insanlara çox şeylər öyrətdi... Gecə-

gündüz çalışmaları hesabına özlərinə yaxşı gün-güzəran quran qaçqınları qınaq hədəfinə çevrənlər də tapıldı...

Ancaq deyinənlərdən çox başını aşağı salıb işləyənlər uğur qazandılar. Hərə bir yolla özünə ev aldı, maşın aldı... Kapitalizmin canavar qanunları qoyun kimi yaşamağa öyrəşənləri ya ölmək, ya da canavara çevrilmək məcburiyyətində qoydu...Ancaq zəhmətsevərlikləri hesabına var-dövlət sahiblərinə çevrilmələri belə qaçqınların, məcburi köçkünlərin ürəyindəki yurd həsrətini, ağrını, niskili səngidə bilmədi...

Zaman isə öz işində idi... Nə qədər körpə doğuldu, nə qədər uşaq böyüdü, nə qədər qoca yurd həsrəti ilə dünyasını dəyişdi... Qaçqınların çadır şəhərciyinin ardınca qaçqınlar, qəriblər qəbristanı yarandı... Onların təkcə özləri yox, doğma yurda qayitmaq arzuları da torpağa gömüldü...

Torpağın üzü soyuq olur deyirlər... Zamanın amansız qanunları öz işində idi... İşğal altında inləyən ulu yurd yerlərindən xəbərsiz yeni nəsil dünyaya gəlir, ailə qurur, oğul-uşaq sahibinə çevrilirdi... Hərə öz işində, gücündə idi...

Ümid kişi yaşıdları ilə söhbət zamanı öz narahatçılığını gizlətmirdi... Deyirdi ki, bu yeni nəsildən heç ağlım bir şey kəsmir. Bir az da keçsə, yolumuzu gözləməkdən gözlərinin kökü saralan yurd yerlərimiz, dədə-babalarımızın dəfn olunduğu müqəddəs torpaqlar tamam unudulacaq...

Bu narahatçılıq əbəs deyildi... Ümid kimi düşünənlərin sırası seyrəldikcə, yurd yerindən, doğma torpaqdan əbədi ayrı düşmək vahiməsi də güclənirdi. Zaman isə öz axarında idi... Onu yolundan saxlamaq mümkünsüz bir iş idi... Ancaq bir yandan boşalan dünya bir yandan da dolmağında idi... Kimlərisə dünyadan aparan zaman kimlərisə dünyaya gətirməyində idi həmişə olduğu kimi..

XI fəsil

## QİSAS MÜHARİBƏSİ

Zaman öz axarında olsa da, günlər həftələri, həftələr ayları, aylar illəri əvəz eləsə də, üzüntülü qaçqınlıq, köçkünlük günləri bitmək bilmirdi ki, bilmirdi... Dədə-baba torpağına qayıtmaq ümidini itirənlər də az deyildi... Nəsillər bir-birini əvəz elədikcə düşüncələr də dəyişir, bu isə yaşlı nəsli əməlli-başlı üşəndirir, qorxudurdu... Bir yandan ötən illərin göynərtisi, bir yandan da xalqın gələcək taleyindən nigarançılıq adamın ürəyini lap üzürdü...

Nəhayət, bir gün... Hə, çox şükür, o gün gəldi... Döyüş meydanında general Polad Həşimov və onun zabit dostlarının Qarabağdan uzaqda, Tovuz zonasında öldürülməsi xalqın səbr kasasını daşdırdı. Bu xəbər nəinki yaşlı və orta nəsli, hətta bütün Azərbaycan gəncliyini ayağa qaldırdı... Körpə, hələ təzəcə dil açan uşaqların belə "Qarabağ Azərbaycandır" demələri vətənpərvərlik hissini alovlandırdı, bütün xalq ayağa qalxdı...

Müharibə xəbərindən ağır, dəhşətli bir xəbər yoxdu yer üzündə. Ancaq çox qəribə idi... Əlində bütün günü telefon oynadan, ilk nəzərdə xalqın taleyinə laqeyd görünən, yaddaşı itirilən cavanların müharibənin başlanması xəbərini sevinclə, coşquyla qarşılamaları, könüllü surətdə döyüşlərə getmək arzuları ümidlərinə çat düşən yaşlı adamlara çox təəccüblü gəldi... Sən demə insanlarda qan yaddaşı, genetik yaddaş çox güclü olurmuş...

Bəli, Ümid kişinin illərdən bəri başlanmasını həsrətlə, böyük zəfər ümidləri ilə gözlədiyi müharibənin başlanması günü gəlib çıxmışdı... 27 sentyabr 2020-ci il.

Uşaqlığı ikinci dünya müharibəsindən sonrakı illərə düşən Ümidin yadına o illərin ən dəbdə olan bir şüarı düşdü: “Hər şey cəbhə üçün, hər şey qələbə üçün”. Ümid o müharibəni görməmişdi, ancaq müharibənin ağrı-acıları onların ailəsindən də yan keçməmişdi. Babalarının, iki dayısının, bir əmisinin müharibədə həlak olmasını bilirdi. Həmin doğma insanlardan təkcə böyüdülüb divara vurulmuş şəkillər yadigar qalmışdı...

O vaxtın bütün uşaqları kimi Ümid də müharibəyə nifrət ruhunda böyümüşdü. Tez-tez gördükləri davalı filmlərdə sovet əsgərlərinin keçdikləri döyüş yolu, onların böyük çətinliklərə dözərək qalib gəlməsi arzuları əks olunmuşdu... Ümid haqqın, ədalətin tərəfdarı kimi böyümüşdü bütün sovet dövrünün uşaqları kimi... Lakin uzun illərdən sonra gördü ki, o vaxtın haqq, ədalət meyarları heç də bizim xalqın xeyirinə deyilmiş...

Demokratik Azərbaycan Respublikasının 23 aydan sonra süquta uğraması hadisəsinin mahiyyəti gizlədilirdi həmişə sovet dövrünün insanlarından. “Rəngi, qabarı bir olan tarixi yaradan əllər”dən söhbət açılırdı hər zaman. Sosialist beynəlmiləlçiliyi təbliğ olunurdu həmişə... Ancaq bütün bu dostluq pərdəsinin altında cərəyan edən hadisələrin mahiyyətindən xəbərsiz idi Ümidin valideynləri də, özü də... İrəvan şəhərinin “qardaş” ermənilərə hədiyyə edilməsi, “Ermənistan” dövlətinin yaranması təqdir olunurdu... Ancaq o zaman böyük ürəkli, səxavətli xalqımızın sadə adamları məsələnin mahiyyətindən xəbərsiz idi... Xəbər tutan ayıq

insanları isə bir-bir "xalq düşməni" damğası ilə aradan götürürdülər... Bizi tariximizdən, soykökümüzdən ayırmaq siyasəti yerinə yetirilirdi... Dili bir, canı bir, qanı bir qardaşlarımızdan bizi ayrı salmaq üçün əllərindən gələni edirdi xalqımızın düşmənləri... Biz isə onları "xalq atası" kimi sevməyə məhkum idik. Kimin hünəri var idi həqiqəti dilinə gətirsin? Xalqımızın gələcək taleyinə ləkə olan 26-ların elədiklərindən kimin xəbəri var idi ki? Onları tərifləyən şeirlər, hekayələr, povestlər, romanlar yaranırdı...

Məmməd Əmin Rəsulzadəni xalqın düşməni kimi təqdim etməyə çalışanlar bizim yanımıza "yan"ları qoşurdular... Şaumyan kimi fırıldaqçı, xalqımızın qanını içən daşnakları isə dost kimi sırıyırdılar bizə... Onun ardıcılları, "bolşevik" libaslı "yan"lar isə bizə yandıq verirdilər Əhməd Cavadları, Hüsen Cavidləri, Mikayıl Müşfiqləri aradan götürmələri ilə. Cismani terroru mənəvi terror əvəz eləyirdi... Dostumuzu, düşmənimizi tanımağa imkan vermirdi bulanıq suda balıq tutmaq sevdasına düşənlər...

Müharibədən sonra Qərbi Azərbaycandan – öz dədə-baba torpaqlarından didərgin salınanlar, aran zonasına köçürülənlər böyük və iyrənc bir siyasətin qurbanları imiş əslində... Ümid və onun yaşıdları sonradan öyrənmişdilər bunları... "Bakının sayrışan ulduzlarından, Çadrasız, boyasız türk qızlarından" rəhbərə, xalqımızın ən qəddar düşmənlərindən birinə – Stalinə salam aparanlar isə ya məsələnin mahiyyətindən xəbərsiz idilər, ya da canlarının hayında idilər...

"Qardaşlıq, dostluq" pərdəsi altında xalqımızın başına gətirilən oyunların mahiyyətini təəssüf ki, çox gec anladıq... Pərdə cırılanda isə ermənilərin də, onların havadarları olan

"böyük qardaş"ın da iç üzü açıldı... Qarabağ savaşını törədənlər naxələf "yan"ların yanında durdular, onları silahlandırdılar, dığaların əli ilə bizimkilərə zülm elədilər. "Dovşana qaç, tazıya tut" deyənlər sadə insanların başına müsibətlər gətirdilər...

Ümidə ağır gələn də elə bu idi... Həmişə düşünürdü ki, gör biz kimlərə inanmışıq, gör biz kimlərdən haqq-ədalət ummuşuq?!

***

Bir vaxt danışıqlar yolu ilə Qarabağ problemini "həll eləmək" istəyənlər xalqın olan-qalan ümidini də qırdılar... Hələ bu azmış kimi ermənilər bizə yandıq verdilər, hədə-qorxu gəldilər... Qaya kölgəsində yatan köpəklərə elə gəldi ki, bu kölgə elə öz kölgələridi...

Bıcaq sümüyə dirənmişdi artıq... Qisas eşqiylə alışıb yanan cavanlar köhlən atlar kimi cilov gəmirirdilər... Həmişə sülh tərəfdarı olan, münaqişə odunu söndürməyə çalışan ağsaqqallarımızın "səbirli olun" deməyə dili, ağbirçəklərimizin isə dava eləyən tərəflərin arasına yaylıq atmağa əli gəlmirdi daha...

Havadan müharibə qoxusu gəlirdi... Bu qoxu çoxdan komanda gözləyən cavanların intiqam eşqini alovlandırır, dədə-baba torpaqlarımızı düşmən tapdağından xilas etmək istəyini yaxınlaşdırırdı...

Ancaq hamının ürəyi səksəkədə idi... Ona görə yox ki, müharibənin nə demək olduğunu bilənlər qorxurdular. Atalar demişkən, islanmışın yağışdan nə qorxusu? Şərəf və ləyaqətlərindən başqa itirəcəkləri bir şeyləri qalmamışdı qaçqınların... Hamı müharibə istəyirdi, qisas müharibəsi...

Ümid həmişə deyirdi ki, bu qara camaatı siyasətçilər həmişə böyük oyunun qurbanlarına çeviriblər. Tarix boyu belə olub. Ölən, qırılan, şikəst olan sadə insanlar, qazanc götürən isə siyasətçilər olub... İlahi, müharibədən də pul çıxaranlar var imiş?!

Ancaq indi hamı, müharibənin dəhşətlərini bilənlər belə müharibə istəyirdilər. Hamı yaxşı bilirdi ki, torpaqları qanımız bahasına xilas eləməli, problemlərimizi gələcək nəsillərə yadigar qoymamalıyıq...

***

Müharibə xəbərini eşidən Ümidin gözlərinin qarşısında ötən günlərin ağrılı-acılı mənzərəsi kino lenti kimi canlandırırdı. Fərq bunda idi ki, Ümid bu müharibə səhnələrinin tamaşaçısı yox, iştirakçısı idi... Fərq onda idi ki, təcavüzə, təhqirə, işgəncəyə məruz qalan onun ailə üzvləri, kəndliləri, qohumları və özü idi... Bu ağrılara, əzablara, təhqirlərə cavab verilməliydi... Qisası qiyamətə saxlamaq olmazdı...

Gənclik illərinin əzablı xatirələrindən ayılan Ümid üzüntülü Xocalı faciəsinin məşəqqətlərindən yaxa qurtarmaq üçün bu günə, bu günün reallığına qayıtdı. Faşizmlə müharibə zamanı səslənən bir şüarı müharibənin ilk günündən son gününədək hər gün xəyalından keçirirdi Ümid: “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!”

Ümid çox istəyirdi ki, könüllü surətdə cəbhəyə getsin. Qarabağın, Zəngəzurun hər qarış torpağına bələd olan, sinəsinə çalın-çarpaz dağlar çəkilən bu insanın ürəyində alovlanan intiqam hissini söndürmək mümkünsüz idi... Ancaq yaş da o yaş deyildi... Heç ikinci dəfə ailə qurandan sonra adını

İntiqam qoyduğu oğlunun da, kürəkəni Vüsalın da, qızlığının yetimxanada böyüyən, uzun illərdən sonra bacısını axtarıb tapan doğma qardaşı Elşənin də əsgərlik vaxtı çoxdan bitmişdi. Onlar həqiqi hərbi xidmətdə olub tərxis edilmişdilər... Necə deyərlər, zaman öz işini görməkdə idi...

Ümidi bu düşüncələrdən oğlu İntiqam ayırdı. Qəribə idi, onun da üzündə narahatçılıqdan əsər-əlamət yox idi. Müharibənin başlanması xəbəri ürəyi intiqam hissi ilə yanan bu gənci də sevindirirdi. O, içəri girən kimi üzündə bir az narahatçılıq sezilən atasına baxıb soruşdu:

– Nə olub, ay ata? İllərdən bəri gözlədiyin müharibə başlayıb e, xəbərin var?

– Var, ay oğul, var...

– Bəs onda üzündəki bu narahatçılıq, nigaramçılıq nədir?

Ümid xəyalından keçənlərdən özü utansa da, səmimi şəkildə nə düşündüyünü söylədi:

– Ay oğul, nəslimizin davamçısı təkcə sənsən. Bütün ümidlərim sənə bağlıdı. Dilim-ağzım qurusun, birdən döyüşdə sənin də başına bir iş gəlsə, mən neyləyərəm?!

– Nə danışırsan, ay ata? El-aləm bizə nə deyər?! Mənim dünyaya gəlməyimin səbəbkarı Ulu Yaradanımız qoruyacaq məni. Bəs bu gün mənim döyüşə getməyimi istəməyəcəkdinsə, niyə təzə övlad, oğul arzulayırdın? Niyə mənə İntiqam adı qoyurdun?

“Xocalıdan ayaqyalın, başıaçıq çıxmışdım, ora da ayaqyalın, başıaçıq qayıdacam” deyən analardan birinin sözləri mənə rahatlıq verərmi? Heç elin bu dar günündə evdə rahat otura bilərəmmi, ay ata?

Kaş o Zori Balayan çıxaydı qarışma... Üzünü tüpürcək yağışına tutardım ən azı... Dizin-dizin süründürərdim o rəzili...

Ümid çar-naçar oğlunun dedikləri ilə razılaşmalı oldu. Narahatçılığının səbəbini izah eləməyə çalışdı. Lakin elə bu vaxt həyətdən hay-küy səsi gəldi. Müharibə xəbərini eşidən qızlığı Ümidə, onun doğma qardaşı Elşən və kürəkəni Vüsal Ümid kişiyə gözaydınlığı verməyə gəlmişdilər:

– Gözlərin aydın, ata. Deyəsən illərdən bəri gecikdiyi üçün qarasına danışdığın o Lazım kişi gəlib çıxdı.

Uşaqlar gülüşdülər, zarafatlaşdılar.

– Ay Ümid dayı, Sədaqəti və balacaları sənə əmanət eləyirik...

Ümid kişinin üzünü yenə narahatçılıq buludu örtdü. Özünü bilməməzliyə vurub soruşdu:

– O nə sözdü danışırsınız, ay bala? Siz də əsgər gedirsiniz elə bil...

– Hə, Ümid dayı, düz tapmısan. Əsgərlik bir az yüngül səslənir. Yava-yava danışan, bizə hədə-qorxu gələn o azğınların ağzını cırmağa, analarını ağlatmağa gedirik... Bizə xeyir-dua ver, ağsaqqal xeyir-duası!

Ümid kişinin gözləri alacalandı. “İlan vuran ala çatıdan qorxar”, – deyirlər. O da ağlına gələndən üşəndi, qorxdu. Ancaq özünü sındırmadı:

– Yaxşı yol! Allah sizi qorusun, mənim balalarım! Tezliklə sizdən qələbə xəbərini gözləyirəm.

Gözləri yaşarmış Şəlalə ana da onlara xeyir-dua verdi:

– Sağ-salamat gedib qayıdın...

Bir neçə gündən sonra İntiqam da, Vüsal da, Elşən də çətinlklə də olsa müharibəyə getmək icazəsi aldılar...

***

Övladları döyüşə yollanan bütün əsgər anaları, əsgər ataları kimi Ümidlə Şəlalə də çox həyəcanlı günlər keçirirdilər. İnternet bağlı olduğu üçün nəvələri də onlara bir səhih məlumat verə bilmirdilər. Bütün ümidlər televiziyaya idi. Səhərin gözü açılmamışdan gecə yarıya qədər televiziyaya baxırdılar. Elə bil ölkənin bütün televizorları da hərbi rejimdə işləyirdi...

Arabir döyüş səhnələri göstərirdilər. Bu səhnələr Ümidə çox qəribə gəlirdi. Bu nədir, belə də müharibə olar? İndi əvvəlki müharibələrdə olduğu kimi əsgərlərin döyüşə-döyüşə irəli getmələri səhnələri yox idi elə bil. "Vətən uğrunda" deyib, özünü tankın üstünə atan əsgərlər də gözə dəymirdi... Bir də görürdün ki, dronlar düşmən tanklarının, hərbi texnikalarınını hədəf seçir və partladır. Toz-duman göyə qalxır... Bu təsvirlərin fonunda xəbər verilirdi ki, ordular hansı istiqamətdə hərəkət eləyir...

Necə deyərlər, müharibənin zahiri tərəfi göz önündə idi. Əsgərlərin hansı ruhda olması, döyüşlərdə necə iştirak eləmələri isə gözə görünmürdü. Uşaqlar arabir zəng eləyib Ümidə hər şeyin yaxşı olduğunu söyləsələr də, harada döyüşdüklərini, nə iş gördüklərini söyləmirdilər... Bu, hərbi sirr idi... Ehtiyatsız bir məlumat əsgərlərin ölümü ilə nəticələnə bilərdi... Ümidlə Şəlalə yüzlərlə ata, ana kimi gecə-gündüz dua eləyir, balalarının sağ-salamat qalmalarını arzulayırdılar. Ancaq hamı kimi onlar da bilirdilər ki, heç bir müharibə ölümsüz, qansız, qadasız başa gəlmir. Sadəcə bu mümkün olan iş deyildi... Lakin hamı kimi onlar da toxtaqlıq tapırdılar ki, indi iyirmi birinci əsrin döyüşüdü... Əsas işi hərbi texnika görür. Əsas hədəf də hərbi texnikadır.

Ancaq hərbi texnika da insan zəkası ilə idarə olunur. Yalnız ağıllı, düşüncəli, peşəkar hərbçilər mükəmməl bilir bu texnikanın dilini, ondan necə istifadə eləməyin qaydalarını...

Müharibə təkcə cəbhədə getmirdi. İnformasiya müharibəsi daha şiddətli, amansız idi. Burada döyüşün ön cəbhəsində dayanan, böyük dövlətlərin gözlənilməz atəşlərinə birbaşa sinə gərən bir insan var idi: Ali Baş Komandan...

Hamı kimi Ümid də qürurlanırdı. Öz-özünə deyirdi kı, Allah qorusun xalqımızın bu müdrik, qətiyyətli oğlunu... Mən onun bu qədər məlumatlı, bilikli, hazırcavab, qətiyyətli, uzaqgörən olduğunu bilmirdim...

***

Döyüşlərdən çox azğın ermənilərin və onların havadarlarının dinc əhalini hədəfə alması səhnələri göstərilirdi televizorda. Tərtərin, Gəncənin qadağan edilmiş raketlərlə vurulması, dinc əhalinin hədəf seçilməsi adamların gözünü qorxutmaq məqsədi daşıyırdi... Ancaq bizim xalqın iradəsini qırmaq mümkün deyildi... İnsanlar müharibənin dayandırılmasını qətiyyən istəmirdilər. Hamı intiqam alovu ilə yanıb-yaxılırdı...

Heç bir cinayət cəzasız qalmırdı... Ali Baş Komandan intiqam müjdəsi verirdi tez-tez... Ordumuzun uğurları hamını sevindirirdi...

Hər gün döyüş səhnələrini əks etdirən fraqmentlər verilirdi televiziyada. Hamı kimi Ümid də bu səhnələrə dronların gözü ilə baxırdı... Hər şey, hər şey ovuc içi kimi aydın görünürdü... Tankın nə qədər dəhşətli döyüş texnikası olduğunu yaxşı bilirdi Ümid... Bu tankların əliyalın insanların üstünə gəlməsi, amansızcasına onları tapdalayıb keçməsi dəhşət idi... İndi isə rusların ermənilərə hədiyyə

etdikləri ən müasir tanklar göydə Azərbaycan ordusunun dronlarını görəndə qaçıb gizlənməyə yer axtarırdılar... Elə bil qaravuş – qartal toyuq-cücəyə hücum eləyirdi. Dronlar tankları çəyirtkə kimi dimdikləyir, el demişkən, onları cəhənnəmə vasil eləyirdi. Bu möcüzəli uçuş aparatları erməni əsgərlərinin, muzdlu qatillərin gözünü necə qorxut-muşdusa, canlarını ölümün pəncəsindən xilas etmək üçün tanklardan, digər zirehli döyüş maşınlarından düşüb qaçır, siçan kimi "akoplara" – yer altı daldalanacaqlara girməyə can atırdılar. Düşmənin döyüş meydanında atıb qaçdıqları texnika, mərmi-sursat o qədər çox idi ki, adam dəhşətə gəlirdi... Deməli, alçaqlar bu texnikaya arxayın olduqları üçün xoruzlanırmışlar... 30 ilə yaxın bir müddətdə yarat-dıqları "topdağıtmaz" səngərlərə, sığınacaqlara güvənirmiş bunlar...

Hər gün darmadağın edilən, eyni zamanda qənimət kimi ələ keçirilən saysız-hesabsız hərbi texnikaya baxanda adam heyrətə gəlirdi... Görəsən bu qədər bahalı texnikaya ac-yalavac bir ölkə necə sahib olmuşdu? Kim idi onları silahlandıran?

Dövlət başçısının ayrı-ayrı ölkələrin jurnalistlərinə ver-diyi müsahibələrdə bu məsələlərə elə incəliklə toxunulurdu ki, elə bil Ümidin ürəyindən tikan çıxırdı...

Müharibə vaxtı Rusiya televiziyalarında Qarabağ döyüşləri ilə bağlı aparılan müzakirələr kimin kimliyini aydınca göstərirdi... Adam yanıb tökülürdü... Gəncə bombalanır, Tərtər bombalanır, Mingəçevir bombalanır, dinc sakinlər qırılır, imansız, ləyaqətsiz, şərəfsiz "polito-loqlar" sürüsü isə bunları görməzliyə vurur, ermənilərin tərəfini saxlayırdılar... Qarabağ ərazisində bir məscidin,

binanın, məktəbin, kitabxananın salamat qalmaması onları qətiyyən narahat etmirdi. Şuşada kilsəyə düşən kiçicik bir mərmi qırıntısı isə az qala xristian dünyasına atılan atom bombası kimi səciyyələndirilirdi...

Bu ədalətsiz münasibət insanları hiddətləndirirdi. Hər kəs öz bildiyi kimi etiraz eləyirdi bu haqsızlığa. Uşaqlar həyətdə meyxana deyir, siyasətçiləri lağa qoyur, onlara etirazlarını belə ifadə eləyirdilər:

Məlhəm oldu ordumuz
Qəlbimizin çatına.
Uymusunuz hamınız
Erməni fəryadına...
Yetmək istəyirsiniz,
Siz onların dadına...
Zatulin, lənət olsun
Sənin yeddi zatına!
Haqqın tərəfdarıydı
Bir zaman baban, atan.
Ay yekəpər Tolstoy,
Öz soyadından utan!
Bəsdir, Jirinovski,
Vurursan nala-mıxa.
O dünyada səni də
Çəkəcəklər çarmıxa...
Niyə haqqın zəfəri
Sizi belə ağrıdır?
Başınızı qoruyun
Türkün daşı ağırdır...

Küçədə, bazarda hamı bu məsələni müzakirə eləyirdi. Solavyov kimi ləyaqətsiz bir jurnalist xalqımıza təhqiramiz münasibətinu gizlətmirdi. Hərzə-hədyan danışır, özü kimi şərəfsizləri başına toplayıb bizə hürdürürdü... Onun utanmaz-utanmaz dediyi söz Ümidi lap yandırıb yaxırdı. Sən demə bu şərəfsizin qarnını ağrıdan arvadının onu bir göysatan azərbaycanlıya dəyişməsi, "bu, səndən qat-qat yaxşı kişidir", – deməsi imiş...

Bunu eşidən Ümid özündən asılı olmayaraq arvad-uşağın yanında ağzından bu sözü qaçırmışdı:

– Tüpürüm sənin kişiliyinə!

"Haqq nazilər, üzülməz" – deyib babalar. Bizim xalqımızın haqq işini qorxmadan, çəkinmədən müdafiə eləyən Korotçenko, Şevçenko kimi ədalətli adamların olması insanların haqqa inamının birdəfəlik ölməsinə imkan vermirdi...

***

İntiqam xüsusi təyinatlı əsgərlər qrupunun zabitlərindən biri idi... Aprel döyüşlərində iştirakı onun döyüş təcrübəsini xeyli dərəcədə artırmışdı... Ancaq tükü tükdən seçməyi bacaran zabit çox yaxşı bilirdi ki, hər anın öz hökmü var... Reallığı dəyərləndirmək, ağıllı taktika ürəkdəki vətənpərvərlik hissi qədər vacib bir məsələ idi. Nəyin nə zaman edilməsi ordu rəhbərliyindən asılı idi... İntiqam bu məsələnin vacibliyini imkan düşdükcə cavan döyüşçülərə başa salırdı. Deyirdi ki, fəxr eləyirəm ki, sizin hamınız vətən uğrunda şəhid olmağa hazırsınız. Ancaq bunu unutmayın ki, siz ölməyə yox, öldürməyə gəlmisiniz. Sizin yaşamağınız haqqın, ədalətin yaşamağı, düşmənin darmadağın edilməsi

isə şərin ölümü deməkdir. Ona görə mümkün qədər ağıllı hərəkət etməli, özünüzü qorumağa çalışmalısınız.

Bizim hamımız vətənin ayrılmaz bir parçasıyıq. Biz özümüzü qoruya bilsək, vətənin bir övladını qorumuş oluruq. Biz özümüzü qorusaq, bir atanın, ananın oğlunu, bir bacının qardaşını, bir ismətli qızın, gəlinin sevgilisini, həyat yoldaşını, bir körpənin atasını qorumuş oluruq. Bunu heç zaman unutmayın. Şəhidlik isə ali bir məqamdır. Şəhid təkcə döyüşlərdə gülləyə, mərmiyə tuş gəlib həlak olan insan deyil, şəhid öz ölümü ilə qələbəni yaxınlaşdıran bir döyüşçü olmalıdır.

İlk günlər itkilər çox oldu. Əsgərlərimiz düşmənin yeraltı səngərlərdə gizlənmələrindən xəbərsiz idilər. Bəzən pusquya düşürdülər. Real döyüş şəraiti gənc əsgərlərə çox şey öyrətdi... Onlar komandirlərinin nə qədər haqlı olduğunu öz gözləri ilə gördülər. Onu da öyrəndilər ki, orduda hərbi intizam qələbəni şərtləndirən ən əsas amillərdən biridir. Hər kəs öz istədiyi kimi hərəkət eləsə, bu ümumi işə istər-istəməz xələl gətirə bilər...

***

İntiqamın yadına uşağlıq illəri düşürdü. Atası həmişə ona deyirdi ki, ay oğul, ən çətini bir işi başlamaqdır. Sonra istər-istəməz hər şey qaydasına düşür. Bu mənada işin çətini başlanmışdı. İllərdən bəri döyüşə hazırlaşan ordumuz 27 sentyabr 2020-ci ildə Ali Baş Komandanın əmri ilə Vətən torpaqlarını işğaldan azad etmək uğrunda döyüşə başlamışdı... Bu döyüş yarımçıq qalan Aprel döyüşlərinin davamı idi. O döyüş cəmi dörd günə böyük uğurlar qazanan,

"məğlubedilməz erməni ordusu" mifini darmadağın eləyən çox önəmli bir hadisə idi...

Hələ müharibəyə alışmayan cavan döyüşçülərimiz ilk vaxtlar nə edəcəklərini o qədər də yaxşı dərk eləmirdilər. Hər iki tərəfdən vurulan artilleriya zərbələri nəinki irəli gedib döyüşməyə, hətta göz açmağa belə imkan vermirdi... Düşmənin özü görünmürdü... Uzaqda idi... Ancaq atdıqları mərmilərin törətdikləri fəlakətlər göz qabağında idi... İlk şəhidlərimiz, ilk yaralılarımız...

Komandirlərin əmri ilə həyatlarını risqə ataraq şir kimi irəli şığıyan döyüşçülərimiz şəhidlərimizin cəsədini döyüş meydanından çıxarıb arxaya gətirirdilər ki, düşmənin əlinə keçməsin. Mərmi qəlpələrindən yaralananlar, əlini, qolunu, qıçını itirənlər də az deyildi. Ancaq neyləmək olar, bu ölüm-dirim müharibəsi idi... Ya ölməli, ya öldürməlisən. Başqa yol yoxdur...

Cavan döyüşçülərimiz komandirlərin verdikləri kordinantlar əsasında atəş açsalar da, gördükləri işin nəticəsindən xəbərsiz idlər. Atdıqları bombalardan kimin ölüb-ölmədiyini, haranın dağılıb-dağılmadığını bilməyən gənc əsgərlər ilk vaxtlar nə edəcəklərini bilməsələr də, tezliklə vəziyyətə uyğunlaşdılar. Mübarizənin ilk nəticələri onları sevindirdi. Elə ilk gün itkilər bahasına olsa da Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklərin ələ keçirilməsi böyük uğur idi... Bu qələbə əsgərlərin ruh yüksəkliyini artırır, onları ildırımsürətli müharibəyə həvəsləndirirdi...

Sonrakı günlərdə də müharibə döyüş planına əsasən davam edir, düşmənin canlı qüvvəsi, döyüş texnikası məhv edilir, hərbi əsirlər və qənimətlər götürülürdü. Cavan əsgərlərdən biri İntiqama danışırdı ki, ilk dəfə idi ki, düşmən öldürürdüm. Əvvəlcə bir az tərəddüd elədim, fikrimdən bu sual keçdi ki, heç insan da insanı öldürərmi? Bu tərəddüd vaxtı ermənilərin Xocalıda törətdikləri amansız qətliyam gözümün önünə gəldi və əllərim əsmədən tətiyi çəkdim. Düşməni öldürəndən sonra ciblərini axtardım. Gördüm ki, onun cibində ayrı-ayrı ölkələrin vətəndaşlıq sənədləri var. Komandir, bilmirəm düz eləmişəm, yoxsa səhv?

İntiqam döyüşçüyə toxtaqlıq verdi:

– Əlbəttə, düz eləmisən. Götürdüyün bu sənədlər çox hərbi sirrin üstünü açmağa yardımçı ola bilər.

Döyüşçü sənədləri İntiqama verdi. Komandir isə həmin hərbi dəlilləri araşdırma üçün lazımi yerə göndərdi...

Atışma səsləri ara verəndə əsgərlərdən biri soruşdu:

– Komandir, ilk günlər xeyli kənd azad elədik. Ancaq nədənsə neçə gündür ki, əhəmiyyətli bir iş görə bilməmişik.

– Yox, elə deyil. Bu bir neçə gündə kəndlər, şəhərlər ala bilməsək də, xeyli düşmən əsgəri, hərbi texnika məhv eləmişik... Müharibənin də öz qanunları, öz problemləri, öz çətinlikləri var...

Oktyabr ayının 3-də Tərtər rayonunun Suqovuşan və Talış; Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq; Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndinin alınması komandirin dediklərinin təsdiqinə çevrildi... Əsgərlər çox sevinirdilər.

Səhərisi gün, oktyabr ayının 4-də Cəbrayıl şəhərinin və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən,

Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndlərinin işğaldan azad edilməsi xəbəri əsgərlərin sevincini birə on artırdı. Bu xəbər hamı kimi Ümidi də çox kövrəltmiş, ürəyindəki qələbə inamını artırmışdı...

***

Döyüşdə məğlub olan düşmən namərdcəsinə dinc əhalini hədəf seçirdi... Bərdənin, Gəncənin, Tərtərin ayrı-ayrı vaxtlarda qadağan olunmuş silahlarla, raketlərlə atəşə tutulması xalqın iradəsini qıra bilmir, döyüşçülərin qələbə əzmini bir az da artırır, onları intiqama səsləyirdi... Xoşbəxtlikdən atılan raketlərdən bəziləri partlamamış yerə düşürdü... Ən ağır məqamda belə adamlar lətifə düzəldib danışmaqlarından qalmırdılar. O lətifələrdən biri belə idi:

“Düşmən rəhbərliyi öz havadarının rəhbərinə zəng eləyib deyir ki, bəs sizin bağışladığnız toplar, mərmilər yerə düşəndə partlamır, bu nə məsələdir?!

Hayları müftə-müsəlləh silahlandıran ölkənin rəhbəri deyir ki, düdüyün biri düdük, partlayan mərmilər, raketlər havayı deyil e, pul ilədi...”

Burda incə yumorla bərabər, erməniləri kimin silahlandırması da eyhamla xatırlanırdı...

***

Ümid də digər soydaşlarımız kimi müharibəyə dron ucalığından baxırdı... Elə bizim döyüşçülərimizlə də düşmən əsgərləri arasında zəmin-asiman fərq var idi. Ümid düşünürdü ki, bu ucalığın əsas səbəbi haqq işi uğrunda mübarizə ilə əlaqəlidir... Allah ordumuza elə bir güc verib ki, elə bir imkan yaradıb ki, qisasımızı alaq, torpaqlarımızı azad eləyək...

Bir vaxt 366-cı ordunun silahları ilə üstümüzə gələnləri indi Qarabağın hər qarışında yerləşdirilən havadar, “ilana zəhər verən kərtənkələ” silahları da xilas eləyə bilmirdi... Təkcə düşmənlər yox, onlara arxa duranlar da çaş-baş qalmışdılar. Anlaya bilmirdilər ki, bu nə silahdı, bu nə ilahi gücdü ki, onlara göz açmağa belə imkan vermir...

Bir vaxt adamlar adamlıqlarını itirmişdilər, indi onların düzəltdikləri tanklar tanklığını... Qrad qurğuları mövqelərimizə atəş açmağa hazırlaşan kimi hardansa gözəgörünməz dron dəstəsi peyda olur, texnika qarışıq əsgərlərin külünü, özlərinə, himayədarlarına güvənən düşmənin olan-qalan qələbə ümidini də göyə sovururdu... Nə “S-300-lər” bir qələt eləyə bilirdi, nə də “İsgəndər”lər...

Bu səhnəni görən erməni rəhbərləri, Cıdır düzündə yallı gedib bizə yandıq verən, “hünəriniz çatır müharibə eləyin” deyən qudurğanlar “Quduran qırx gün gedər” məsəlindən yəqin ki, xəbərsiz idilər. Ordumuz təkcə yerin üstündəki dığa-mığa ilə yox, illər boyu yerin altında lağım atıb oranı silah-sursatla dolduranlarla, guya müharibəyə qarışmayanlarla da müharibə aparırdı.

İllər boyu “Saman altdan su yeritmək siyasəti” yeridənlərin də iç üzü açılırdı yavaş-yavaş... Gözləmədikləru bu məğlubiyyətə dözə bilməyənlər televiziya kanalları vasitəsi ilə xalqımıza şər-şəbədə qoşur, onu alçaltmağa çalışırdılar. Haqqı alçaltmağa çalışanlar əslində bütün dünyanın gözü qarşısında öz alçaqlıqlarını nümayiş etdirirdilər...

Necə deyərlər, çax-çax nə qədər başını ağrıtsa da, dəyirman öz işində idi... Bu sehrli dəyirman düşmən texnikasını dən kimi üyüdürdü... Bunu görənlərin elə özləri

də üyüdürdülər "bir millət, iki dövlət"in siyasətindən, onların qələbə əzmindən...

Demək olar ki, hər gün Ali Baş Komandanın kəndlərin, şəhərlərin, yüksəkliklərin alınması ilə bağlı verdiyi xəbərlər bizi sevindirir, düşmənlərimizin, onların havadarlarının başında bomba kimi partlayırdı...

5 oktyabrda Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə; 9 oktyabrda Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur; Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər, Qışlaq; Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı; Tərtər rayonunun Çaylı; 14 oktyabrda Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu; Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser; 15 oktyabrda Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz; Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu; 16 oktyabrda Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu; 17 oktyabrda Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərinin  və Füzuli şəhərinin alınması xəbəri müharibənin necə sürətlə davam etməsinin, uğurların miqyasının böyüklüyünün göstəricisi idi...

Düşmən və onun havadarları bu hadisələri qətiyyən həzm edə bilmir, döyüşməkdən, müdafiə olunmaqdan çox təxribatla məşğul olurdular. Ayrı əlacları da yox idi. Peşəkar Azərbaycan ordusunun əzmi, iradəsi öz sözünü deyirdi...

Altı da, üstü də silah-sursatla doldurulan, düşmənin "alınmaz, keçilməz bir sədd" hesab elədiyi Füzuli şəhərinin işğaldan azad edilməsi düşmənləri də, onların havadarlarını da çaş-baş qoymuşdu... Onlar başlarını itirmişdilər. Nə eləyəcəklərini, necə eləyəcəklərini bilmirdilər. Bütün gücləri

ilə öz təxribat silahlarını işə salmağa, Rusiyanı da açıq şəkildə müharibəyə cəlb etməyə çalışırdılar. Ancaq bütün təzyiqlərə, təxribatlara baxmayaraq rəhbərliyin göstərdiyi dözümlülük siyasəti "hay"ların arzularını gözlərində qoydu.... "Hay"ların "hay-hayları getmişdi, qalmışdı "vay-vay"ları...

Oktyabrın 18-də isə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağının qaldırılması düşmənlərə də, onların gizli havadarlarına da ötürülən bir simvolik qələbə mesajı idi... Öz tarixinə güvənən xalq babaların yolunu ləyaqətlə davam etdirmək əzmini nümayiş etdirirdi əslində...

Bu, məsələnin hamı tərəfindən görünən zahiri tərəfi idi... Bu qələbəni təmin eləyən isə yeni təfəkkürlü, yeni düşüncəli, texnikadan məharətlə istifadə eləməyi bacaran Azərbaycan əsgəri və zabiti idi... Hamı bu qələbənin hansı qurbanlar, ağrılar, çətinliklər hesabına başa gəlməsindən lazımi səviyyədə xəbərdar deyildi...

Atalar doğru deyir ki, kənardan döyüş asan görünər... Döyüşün iştirakçılarının isə nə müzakirələr, söhbətlər aparmağa, nə də istirahətə vaxtları yox idi... Onlar döyüşür, döyüşür, döyüşürdülər...

Ümid və onun kimi yüzlərlə, minlərlə vətən övladı isə narahatlıqla müharibənin gedişini izləyirdilər. Düzdür, döyüşdə olan əsgərlər imkan tapdıqca öz valideynləri, qohumları ilə əlaqə saxlayırdılar. Ancaq müharibənin gedişi haqqında heç nə demir, sadəcə hər şeyin yaxşı olduğunu söyləyir, valideynlərinin nigarançılığını azaltmağa çalışırdılar. Haranın, nə vaxt azad edilməsi haqqında müfəssəl xəbəri döyüşçülər də elə valideynləri kimi sosial şəbəkədən

öyrənirdilər... Şad xəbərlər onların da qəlbindəki dost itkisinin göynərtilərini əhəmiyyətli dərəcədə azaldırdı...

Hər gün qələbə, hər gün zəfər sevinci... 19 oktyabrda Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı; oktyabrın 20-də Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhərinin; Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdür-rəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı; Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndlərinin azad olunması haqqında xəbərləri də elə səngərdə eşitmişdi əsgərlər...

Yer-yurd hamısı bir-birinə bənzəyirdi. Ermənilər kənd-də kəndlik, şəhərdə şəhərlik qoymuşdular ki, onları da tanı-yasan?! Əsgərlərin əksəriyyəti bu yerləri görməmişdi... Hamı böyüklərin sözünə əsasən bir cənnətməkan Qarabağ uydurmuşdu xəyalında... İşğaldan azad olunan bu Qarabağ isə cənnətdən çox cəhənnəmə bənzəyirdi...

Bu mənzərələri görən İntiqam kimi cavanlar vali-deynlərinin çəkdikləri əzabın mahiyyətini elə bil indi-indi bütün dərinliyi ilə görürdülər. İntiqam düşünürdü ki, yüzlərlə sinəsi dağlı qaçqın və köçkünlərimizin yarasına məlhəm qoymaq üçün bu torpaqları azad etməkdən başqa bir yol yoxdur...

Müharibə haqqındakı bir-birini əvəz edən qələbə xəbər-ləri komandirləri, döyüşçüləri daha əzmlə vuruşmağa sövq edirdi... Orduda ruh yüksəkliyi çox böyük idi...

21 oktyabrda Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı; Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli; Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər; 22 oktyabrda Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulu-bəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi; Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri; Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli; 23 oktyabrda Xocavənd rayonunun Dolanlar, Bünyadlı; Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli; Zəngilan rayonunun Vənədli, Mirzəhə-sənli; Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri işğaldan azad edildi...

İntiqam sevinirdi. Deyirdi kı, axır ki, atamın bir vaxt pənah gətirdiyi Qubadlı torpağına da gəlib çıxdıq... Doğrudan da, bu yerlərin təbiəti təsəvvür elədiyimdən də qat-qat gözəl imiş...

İntiqam arabir bacısının həyat yoldaşı Vüsal, Ümidənin qardaşı Elşənlə də zəngləşir, hal-əhval tuturdu. Bu qohumlar hərəsi ayrı-ayrı istiqamətlərdə döyüşsələr də, ürəkləri bir ahənglə vururdu. Onların üçünün də qəlbində vətən torpağını işğaldan azad etmək istəyi ilə yanaşı, Ümid atanın yaralarına qələbə məlhəmi qoymaq arzusu baş qaldırırdı...

***

Bir zaman Qarabağın üzünü belə görməyən İntiqam atasının sözlərinə əsasən həmin yerləri xəyalən gözləri önündə canlandırmağa çalışırdısa, indi də Ümid 27 il üzünə

həsrət qaldığı doğma yerləri oğlunun göndərdiyi şəkillər, videolar vasitəsilə yenidən görürdü. Bu uçuq divarlar, kol-kos basmış yollar, cığırlar onu həyəcanlandırır, eləcə də qəlbində illər boyu basdırılan mənəviyyat minalarının işə düşməsinə zəmin yaradırdı... Bu viranə şəhərlər, kəndlər o ağrıları-əzabları illər boyu sinəsində gəzdirən insanın viranə könlünün, tar-mar olmuş arzularının torpaq üstündə görüntüsü idi elə bil...

Ümidin bu mənzərələrə baxarkən halı çox pisləşirdi. Keçən günlər, faciələrlə dolu ömür yolları gözlərinin önündən kino lenti kimi gəlib keçirdi. O, həyəcanlanır, özünü-sözünü bilmirdi... Gözləri bir cüt bulağa dönürdü...

Hər dəfə ərini dilə tutub onu ürək həkiminə aparmaq, kardioqram çıxartdırmaq istəyən qadına gözləri alacalanan Ümidin həyəcanlı şəkildə dediyi sözlər onun iç dünyasını ağrılar, məşəqqətlər səltənətinə döndərmişdi:

– Bax, mənim yaralı ürəyimin kardioqramıdı bu uçuq evlər, çatlayan divarlar, ay Şəlalə...

Cəbrayılın, Füzulinin, Zəngilanın "yaralı" mənzərələri kişinin ürəyini çox ağrıdırdı. Ancaq o, bu videolara, şəkillərə baxmaya da bilmirdi... Dərd də, dərman da bir-biri ilə qol-boyun idi elə bil. O görüntülərə baxanda bir tərəfdən dağıdılmış evlər, məhəllələr, küçələr, mədəniyyət ocaqları, məscidlər ürək ağrısı yaradırdısa, düşmənə təslim olmayan ana torpağın möcüzələri, hətta çaylaqlarda belə meşəliyin əmələ gəlməsi, qıjıltılı dağ çaylarının yenə də əvvəlki kimi köpüklənə-köpüklənə axması, doğma dağların əzəmətli görkəmi, azad olunan "yaralı" törpaqların başı üzərundə üçrəngli Vətən bayrağının əzəmətlə dalğalanması Ümidin

sağalmaz dərdlərinin üstündə möcüzələrə qadir bir məlhəmə çevrilirdi...

Uzun illərdən bəri düşmən tapdağı altında qalan Vətən torpağının qərib mənzərələri elə bil onlara baxan Ümid kimi yüzlərlə insanın həsrətli baxışları altında dirçəlir, cana gəlir, gülümsəyirdi. Narkozdan ayılan ölümcül xəstə başının üstündə doğma insanları görəndə necə qürurlanır, sevinirdisə, işğaldan azad olunan kəndlər, şəhərlər də eləcə gülümsəyirdi sanki...

Hər halda, bu, Ümidə belə görünürdü... Doğma əsgər ayaqları elə bil sətəlcəm olan torpağın quluncunu sındırır, onu dirçəlməyə, ayağa qaldırmağa çalışırdı...

İşğaldan azad edilmiş şəhərlərimizin, kəndlərimizin başının üstündə dalğalanan üçrəngli zəfər bayrağı ümid çırağı kimi şöləlınirdi. Əsgərlərin ana dilində oxuduqları mahnılar bu doğma səs, bu doğma dil üçün qəribsəyən yerlərin qamətini dirçəldirdi elə bil.

Xudayar adlı bir gənc gülümsəyə-gülümsəyə, köksündən qələbə sevincinə bələnən nur daşa-daşa oxuyurdu:

Dumanlı dağların başında durdum,
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum,
Dumanlar başımda duman göründü.

Xəzər dənizi tək eşqinlə coşdum,
Xülyalar içində sanki bihuşdum,
Vətən arzusuyla nəğmələr qoşdum,
Tufanlar qarşımda dastan göründü.

Könüllər cəlb edən bu xoş mənzərə,
Şövqümü artırdı, şeirə, qəzələ,
Gəldikcə vətənim, elim nəzərə,
Təbiət də mənə heyran göründü...

Deyirlər bülbülə çəmən yaxşıdır,
İnsancün laləzar vətən yaxşıdır,
Vahid, sorma vətən nədən yaxşıdır?
Adı gəlcək könül xəndan göründü...

"Vətən arzusuyla, qaynadım, coşdum" söyləyən bu igidin səsinə bütün qəhrəman övladlarımızın harayı qarışmışdı elə bil. Bu səsin, bu sonsuz yurd sevgisinin qarşısında düşmən tankları, topları, zirehli maşınları, illər uzunu havadarlarının yardımı ilə yaratdıqları  sədlər, səngərlər dayanmaq gücündə deyildi...

***

Ümid öğlunun göndərdiyi bu videolarla nəfəs alırdı elə bil. Həm döğma övladının – bir  nəslin ümidgahının sağ-salamat olması, həm də onun Azərbaycan oğulları ilə birlıkdə düşmənlərə divan tutması  kişini duyğulandırır, sevindirirdi... Onun yol çəkən gözlərində ümid qığılcımları şöləlınirdi. Bu qığılcımların alova çevrilib sönən ocaqları yandırmasına isə az qalmışdı...

İntiqam Azərbaycan oğulları ilə birlikdə düşmənin üstünə od yağdırırdı. Əvvəlcə kəşfiyyat, sonra döyüş dronları havaya qalxırdı. Bayraqdarlar elə bayraqdar idi, həmişə ön cəbhədə olurdu. Onların üstündə qoşa bayraq dalğalanırdı: Azərbaycan və türk bayrağı. Bu bayraqların kölgəsi uzun illərdən bəri işğal altında qalan, cəhənnəm alovunda bişən

yaralı şəhərlərimizin, kəndlərimizin "ürəyinə" bir sərinlik gətirir, torpaqlarımızı dəlmədeşik edib səngərlər qazan, Qarabağın hər qarışını topla, tankla, silah-sursatla dolduran, elə buna görə də arxayınlaşıb sinəsinə döyən, "hünəriniz var gəlin" deyən ermənilərin, onların havadarlarının, dünyanın müxtəlif ölkələrindən gətirilən muzdluların başına od yağdırırdı göydən...

Tanklar hacıleylək dimdiyindən canını qurtarmağa çalışan biçarə qurbağaları xatırladırdı. Dron leyləklər isə onları bircə dimdiklə cəhənnəmə vasil eləyirdi. Tankçılar havada dron kölgəsi görən kimi vahimə içində öz zirehli maşınlarını atıb qaçır, girməyə deşik axtarırdılar...

Düşmənlər indi-indi anlayırdılar ki, 30 il səngər yox, əslində özlərinə öz əlləri ilə qəbir qazırmışlar.

Kənardan baxana döyüş asan görünür həmişə. Çoxları elə bilir ki, uzaqdan atılan top mərmiləri, bombalar, raketlərlə həll olunur hər şey... Dronlar tankları, topları, zenit qurğularını, hərbi obyektləri asanlıqla məhv edir, bununla da hər şey bitir... Bunlar böyük şərtdir. Lakin hər şey hərbi texnıka ilə həll olunmurmuş. Qələbə ağrılar, əzablar, ölümlər, itkilər hesabına əldə edilirmiş. Ağılagəlməz situasiyalar insanların qəlbindəki mürgüləyib yatan vətənpərvərlik, insanpərvərlik duyğularını oyadan vasitəyə çevrilirmiş. Hərbi güclə bərabər, döyüş əzmi imiş qələbəni şərtləndirən ən böyük amil...

***

İntiqamgil səngərə yatıb gözləmə mövqeyində dayanmışdılar. Əmr gözləyirdilər. Duman çəkiləndə gördülər ki, onların beş-on addımlığında olan düşmən əsgəri əlindəki

qumbaranı onlara sarı atmağa hazırlaşır. Qaçıb daldalanmağa nə yer, nə də vaxt var idi...

Birdən əsgərlərin arasındakı ən çəlimsiz oğlan gözlənilmədən özünü havadakı qumbaranın üstünə atdı. Dəhşətli partlayış oldu. İntiqamgil düşünürdülər ki, dostlarını xilas etmək üçün özünü qumbaranın üstünıə atan bu cəsur əsgərin tikəsi belə ələ gəlməz.

Lakin möcüzə idi... Oğlan sağ qalmışdı. Qumbara onu qoryan bronojiletə toxunub, top kimi geri qayıtmış, düşmənlərin öz üstünə düşəndən sonra partlamışdı...

Doğrudan da, gözəgörünməz, qadir Allah insanları sınağa çəkir, bu sınaqdan mərdliklə çıxanları isə mükafatlandırır. İstər bu dünyada, istərsə də o dünyada....

Dronlar, artilleriya öz işində idi... Başını götürüb qaça bilənlər qaçır, ölənlər ölürdü. Ancaq qaçanları qovmaq təhlükəli idi. Müharibənin öz sərt qanunları var. Hər yan minalanmışdı... Bunları nəzərə almamaq böyük fəlakətlərlə nəticələnə bilərdi. Mina axtaranlar xüsusi aparatların köməyi ilə döyüş mövqeyini yoxlayır, minaları zərərsizləşdirirdilər. Sonra xüsusi təyinatlılar şir kimi irəli atılır, orda-burda pusquda dayanan düşmən əsgərlərini əlbəyaxa döyüşdə məhv eləyirdilər.

Bir çətinlik də onda idi ki, üzbəüz döyüşdə Azərbaycan əsgərlərinin qarşısında duruş gətirə bilməyən düşmən porsuq kimi illər boyu eşib hazırladıqları yeraltı lağımlara girir, səslərini içlərinə salb gözləyirdilər. Onlar Azərbaycan əsgərlərini maneəsiz irəli buraxıb, sonra yeraltı gizli səngərlərdən çıxıb onları mühasirəyə almaq, məhv etmək planı qurmuşdular. İlk vaxtlar pusquya, mühasirəyə düşənlərimiz də olurdu. Lakin düşmənin hiyləsindən xəbər tutan kəşfiyyatçı-

larımız siçovulları elə öz zağalarında məhv eləməmiş irəli getmirdilər. Bu isə istər-istəməz döyüşün sürətini aşağı salırdı.

Bir dəfə qızğın döyüşlərin birində İntiqamgilin yanına bir top mərmisi düşdü. Şəhid olanlar da oldu, yaralananlar da... Sağ olsunlar həkimlərimiz. Təkcə yaralılara ilk tibbi yardım eləmək yox, onları döyüş ərazisindən çıxarıb, əməliyyat otağına daşımaq da tibb işçilərinin boynuna düşürdü. Necə deyərlər, hərənin öz işi var idi döyüş meydanında. Heç kəs öz qüvvə və bacarığını əsirgəmirdi... Vətənpərvərlik hissi, düşmənə olan sonsuz nifrət bu döyüşlərin hərəkətverici qüvvəsi idi...

İntiqam gördü ki, həmişə döyüşün ön sıralarında olan komandirin səsi bu dəfə arxadan gəlir. Geri baxanda gördü ki, komandir yerdə uzanıb. Narahatçılıqla soruşdu:

– Komandir, yaralanmısan?

– Yox, bayaq partlayışın dalğası məni kənara atdı. Yaralanmağına yaralanmamışam, ancaq ayaqlarım əzilib deyəsən.

– Bu dəqiqə köməyə gəlirəm!

–Yox, – deyə komandir amiranə şəkildə qışqırdı. – Qaçan düşmənə qətiyyən aman vermək olmaz. Siz gedin, bir az özümə gəlim, mən də indi durub arxanızca gələcəm...

Qızğın döyüşlər gedir, Azərbaycan əsgərləri vətən torpağını qarış-qarış təmizləyə-təmizləyə irəliləyirdilər...

Aradan xeli keçdi. Döyüş bir az səngiyəndən sonra əsgərlər bir-birlərindən hal-əhval tutmağa başladılar. Kimsə soruşdu:

– Ə, bəs komandir hanı?

İntiqam əminliklə dedi:

– Harda olsa, indilərdə gəlib çıxar...

– Bəlkə yaralanıb?

– Yox, bir neçə saat bundan əvvəl soruşdum, dedi ki, yaralanmamışam, bir az ayağım zədələnib. Mən qayıdıb ona kömək eləmək istəyəndə üstümə acıqlanıb əmr elədi ki, irəli gedim, döyüşdən ayrılmayım...

– Bəs onda niyə gəlib çıxmadı?

– Harda olsa gələr. Təcrübəli adamdır...

Şər qarışdı, qaranlıq düşdü. Komandir isə gəlib çıxmadı...

***

Döyüşçülərin düşmənləri məhv edə-edə irəliləmələri komandiri sevindirirdi. Lakin onun özü ayağa durub gedə, öz uşaqlarına çata bilmirdi. O, sürünə-sürünə irəliləyirdi. Hiss eləyirdi ki, düşmən snayperinin nəzarəti altındadır. Arabir yan-yörəsinə atılan güllələr də bunu sübut eləyirdi. Ona görə kapitan ayağa durmur, sürünə-sürünə irəliləməyinə davam eləyirdi... Öz ağrılarını unutmuşdu. Öz-özünə düşünürdü ki, görəsən mənim əsgərlərim bir iş görə bildilərmi?

Ancaq ürəyində bir az arxayınçılıq var idi. Bilirdi ki, dar məqamda müavini İntiqm onu əvəz edə biləcək... Qısa da olsa, ona öz tapşırığını vermişdi... İntiqamın təcrübəli və səriştəli zabit olmağına güvənirdi komandir.

Qaranlıq bir gecə idi. Kapitan Asif Quliyev hansı tərəfdə olduğunu da dəqiq bilmirdi. Ancaq sürünə-sürünə ehtiyatla irəliləyirdi... Bütün bədəni gizildəyirdi. Bir tərəfdən də aclıq onu taqətdən salmışdı. Dodaqları qurumuşdu. Su içmək istəyirdi. Ancaq su qabı boş idi...

Ümid gecəyə idi. Komandir düşünürdü ki, gecə yəqin ki, şeh düşəcək. O da bu damcıları ovcuna yığıb içəcək, yanğısını söndürəcək... Allaha yalvarırdı ki, sağ qalsın, döyüş yoldaşlarını tapıb onlara qoşulsun...

Ancaq vaxt keçmirdi ki, keçmirdi... Hardasa yadına sevdiyi bir mahnının sözləri düşdü: "Gecə yaman uzundur"...

Doğrudan da, çox uzun oldu bu gecə... Arabir mürgüləyirdi komandir, onu huş aparırdı. Yarım saatmı, bir saatmı, onu bilmirdi... Bircə onu bilirdi ki, susuzluqdan dodqları qupquru quruyub. Canının ağrısı da, acısı da yadından çıxmışdı...

Gecəni səhər əvəz elədi, səhəri yeni bir gecə... Nəm torpaq, ağrıyan bədən, susuzluqdan çat-çat olan dodaqlar... Kapitan yuxudan ayılan kimi irəli sürünürdü. Öz-özünə deyirdi ki, mən bu tısbağa yerişi ilə nə vaxt əsgərlərimə çatacam?

Vaxt uzandıqca, taqəti də azalırdı... Kapitan uşaqlığından tutmuş məhz bu günə qədər olan hadisələrin hamısını bir-bir xatırlayır, ailəsini, həyat yoldaşını, uşaqlarını düşünürdü...

Birdən eşitdiyi söhbət səsləri onun xatirələr dünyasını alt-üst elədi. Bir neçə erməni əsgəri nə haqda isə danışır, mübahisə eləyirdilər.

Komandirin avtomatı da, tapançası da üstündə idi. Ürəyindən keçdi ki, bir neçə güllə ilə havanı murdarlayan, onun gözəlliyini pozan bu it mırıltısına bənzər səsləri kəssin. Ancaq ağıl emosiyaya güc gəldi. Bildi ki, atəş açsa, ətrafdakı düşmənlər gəlib onu əsir götürə bilərlər...

Bir az keçdi... Kapitan yenidən huşa getdi. Gecənin bir aləmi yuxudan ayıldı... Aydınlıq bir gecə idi. Ayın solğun ziyası hər yeri işıqlandırırdı. Oğlan bir az dikəlib ətrafa göz gəzdirdi... Gördü ki, uzaqda, ayın işığı düşən yerdə bir parıltılı sahə var. Əvvəl bir şey başa düşə bilmədi. Sonra düşündü ki, bəlkə də orda göl, ya çay var?

Hissləri onu aldatmamışdı. Ancaq həmin gölün yanına getmək o qədər də asan məsələ deyildi... Özü də sürünə-sürünə, tısbağa yerişi ilə...

Nağıllarda olduğu kimi qəhrəmanımız az getdi, üz getdi, dərə təpə düz getdi, az süründü, çox süründü, axır ki, gözünə ay işığı altında cilvələnən göl sataşdı...

Ətraf bataqlıq idi. Oğlan qamışlardan yapışıb ayağa durmaq istədisə də, bacarmadı. Öz-özünə toxtaqlıq verdi ki, yəqin aclıqdan, susuzluqdan taqəti qalmayıb, ona görə belədi...

Yaraları hələ isti olan kapitan iki ayağının ikisinin də sınmasından xəbərsiz idi hələ...Susuzluqdan ölürdü. Ancaq gölə girməyə qorxurdu. Düşünürdü ki, birdən dərin olar, bu taqətsiz vəziyyətdə yıxılıb bataqlıqda qalaram...

Bir az dayandı. Ancaq ayın şöləsi altında bərq vuran göl susuz insanı maqnit kimi özünə çəkirdi... Öz-özünə düşündü ki, əşşi, islanmışın yağışdan nə qorxusu?

Nə qədər süründüynü, azmı, çoxmu məsafə qət elədiyini bilmədi. Ancaq ayılanda onu gördü ki, gölün lap yaxınlğındadı. Əlini uzadıb su götürmək istədi. Sağ qolu sözünə baxmadı. Nə qədər cəhd elədisə, bir şey alınmadı ki, alınmadı. Yadına anasının tez-tez dediyi bir söz düşdü: “Əri döymüş arvadı it də tutdu bir yandan”.

Bu anda, bu dəqiqədə onu su içməkdən başqa heç nə düşündürmürdü. Ancaq bu işi necə görsün? Bu sudan heç olmasa bircə ovuc götürüb içə bilsəydi, dərdi olmazdı...

Bir az da sürünüb yaxınlaşmaq istəyəndə gözünə boş bir konserv qutusu sataşdı. Ona sarı süründü. Sol əlini çətinliklə də olsa qaldırıb konserv qutusunu götürə bildi...

Bəzən fikri qarışırdı. Nə eləmək istədiyini heç özü də bülmirdi. Ancaq çətin vəziyyət, ehtiyac istər-istəməz insanı doğru qərar verməyə vadar eləyir. Düşündü ki, bu qutu ilə dolu su içə bilsəydim, dərdim olmazdı. Ancaq bu istəyi reallaşdırmaq o qədər də asan deyildi. Oğlan qutunu gölə sarı uzatsa da, istədiyinə nail ola bilmədi. Batmaqdan qorxduğu üçün irəli sürünmürdü. Uzatdığı konserv qutusu isə suya çatmırdı.

Komandir çox düşündü, daşındı, axırda ağlına qəribə bir fikir gəldi. Bıçaqla bir qamış kəsib hamarladı. Sonra qamışın ucunu çərtib, konserv qutusunun qapağını onun arasına keçirdi... Çömçəyəbənzər bir şey alındı... Acı təbəssümlə düşünüb dedi ki, kaş indi anam mənə bir çömçə düşbərə çəkib verə biləydi...

Özü də öz istəyinə acı-acı güldü. Ac döyüşçünün düşbərə arzusu gözündə qalsa da, qamışa bağlanmış qutunu gölə uzadıb ordan su götürə bildi. Acgözlüklə bir neçə konserv qutusu su içdi... Elə bil gözlərinə işıq, dizlərinə güc gəldi...

Qamışlardan tutub qalxmaq istədisə də, ayağa dura bilmədi. Səndələyib yerə yıxıldı. Handan-hana özünə gələndə qərara aldı ki, nəyin bahasına olur olsun qaranlıq düşməmiş bu qamışlıqdan çıxmalıyam... Yoxsa yuxuya gedəndə çaqqal-çuqqal gəlib məni parçalayar...

Xeyli süründü, süründü, axır ki, qamışlıqdan uzaqlaşa bildi. Yenə onu huş apardı. Gecənin bir aləmi qulağına səs gəldi. Elə bildi ki, yuxu görür. Ancaq bu yuxu deyildi...

Adamlar doğma bir dildə danışırdılar... Bu dil onu dərin bir quyudan qaldırmağa qadir bir güc, qüvvə idi. Yadına bir rus atalar sözü düşdü. “V çujoy stranişke, rad svoy voronişka” (“Qürbətdə vətənin qarğası da adamı sevindirir”)... Ancaq illərdən bəri düşmən tapdağı altında olan bu vətən torpağı qürbət deyildi... Onun gölünün suyu, ayının ziyası qəlbindəki həyat eşqini sönməyə qoymamışdı...

Sevincdən komandirin gözləri yaşardı. Bu doğma səs, bu doğma dil necə gözəl imiş, ilahi!

İstədi əsgərləri səsləsin, onlardan kömək diləsin. Ancaq çəkindi. Düşündü ki, birdən məni Azərbaycan dilini bilən hiyləgər düşmən sanıb güləfləyərlər...

Yenə huşa getdi. Yenə doğma səsə ayıldı... İntiqam sevinə-sevinə deyirdi:

– Gözünüz aydın, ay uşaqlar, komandir sağdı. O mənə söz vermişdi ki, gəlib bizə çatacaq, sözünə də kişi kimi əməl elədi... Axır ki, gəlib bizə çatdı...

Sonra İntiqam sevinə-sevinə döyüş əməliyyatının uğurla keçməsi, Füzuli şəhərinin işğaldan azad edilməsi haqqında ona məlumat verdi...

– Gözlərin aydın, ay komandir! İllər boyu yeraltı səngərlər düzəldən düşməni məhv elədik, saysız-hesabsız tanklar, zenit qurğuları, hərbi maşınları qənimət götürdük...

Şərəfsizlər o boyda gözəl şəhərdə bir salamat bina da qoymayıblar. Otuz ilə yaxın böyük bir şəhəri söküb, dağıdıb

daşları ilə keçilməz sədlər, yeraltı səngərlər yaradan dığa-mığanı mığmığa kimi məhv elədik...

Gözün aydın, qardaşım! Hamımızın gözü aydın! Üzümüz dədə-babalarımızın məzarı uyuyan Zəngilana, Qubadlıya, Laçına tərəfdi...

Komandir sevindi... Həm də kövrəldi bir az. Şəhid olan bir əsgərin yemək payı neçə gün ac-susuz qalan komandirə qismət imiş...

***

Döyüşçülər torpaqları azad eləyə-eləyə irəliləyirdilər. Viranə qalan evlər, məscidlər, abidələr, dağıdılmış qəbirlər əsgərlərimizin ürəyindəki intiqam hissini daha da alovlandırırdı. Bu cinayətləri, vəhşilikləri törədənlərə nə ad vermək olardı görəsən?

Döyüşçülər söhbət zamanı deyirdilər ki, Allah eləməmiş, əgər bu vandalizmin yüzdə birini bizim əsgərlərimiz eləsəydilər, indi bütün dünya azərbaycanlıların vəhşiliyindən, qaniçənliyindən danışardı... Ermənilərin elədiklərinə isə göz yumurdu ədalətdən, insan hüquqlarından dəm vuran böyük ölkələrin ürəksiz, haqsız, riyakar rəhbərləri...

Zaman göstərdi ki, Qarabağ probleminin sülh yolu ilə həlli yox imuş... Sülhdən dəm vuranlar Qarabağın hər qarışını silah-sursatla doldurmuşdular. Havadarlarının köməyi ilə atəşkəs dövründən səmərəli istifadə edən düşmənlər təpədən dırnağa qədər silahlanmışdılar. Özü də onlar bu silahları pul verib almamışdılar, bu silahlar "sülh tərəfdarı" olanların hədiyyəsi idi ermənilərə. Onları silahlandırır, bizimsə başımızın altına "sülh yastıqları" qoyub yatızdırmağa çalışırdılar...

"Münaqişə yalnız sülh yolu ilə həll oluna bilər", – deyənlərin istəyi bu idi ki, vaxt uzansın, qaçqınların, köçkünlərin yaşlı nəsli dünyadan köçsün. Onlar güman eləyirdilər ki, Qarabağın, ətraf rayonların üzünü görməyən yeni nəsil bu torpaqlar uğrunda döyüşməyə həvəsli olmayacaqlar. Məcburiyyət qarşısında qalıb, istənilən sülh təklifi ilə barışacaqlar...

Lakin düşmənlərin arzuları gözlərində qaldı. Onlar unutdular ki, qəhrəmanlar diyarı olan Azərbaycan yeni-yeni oğullar yetişdirəcək. Onlar unutdular ki, iqtisadi qüdrət hərbi potensialı yüksəldən ən aparıcı amillərdəndir... Onlar düşünürdülər ki, biz fil qulağında yatmışıq... Lakin xəbərləri yox idi ki, iqtisadi, hərbi qüdrətini artıran ölkədə vətənpərvərlik tərbiyəsi də lazımi səviyyədə imiş...

Onlar unutdular ki, genetik qan yaddaşı yeni nəsli intiqama səsləyəcək nə vaxtsa... Belə də oldu...

Hərbi uğurlar davam eləməkdəydi... Oktyabrın 25-də bir sıra kəndlərlə bərabər Qubadlı şəhərinin işğaldan azad olunması Azərbaycan ordusunun zəfər yürüşünü finişə yaxınlaşdırırdı...

Amansız döyüşlər gedir, düşmən əsgərləri məhv edilir, hərbi qənimətlər ələ keçirilirdi... Dron səksəkəsi düşmənləri tankın içində də rahat qoymurdu. Onlar tarakan sürüsü kimi tanklardan, döyüş maşınlarından düşüb ora-bura qaçışır, canlarını qurtarmağa çalışırdılar...

Bu döyüşlərdə də itkilərimiz az olmadı. Əslən Qubadlıdan olan, Aprel döyüşlərində göstərdiyi misilsiz qəhrəmanlığa görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Şükür Həmidov doğma torpaq uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanlardan biri oldu.

Bu istiqamətdə gedən döyüşlərin rəhbəri general Mais Bərxudarovun qəhrəmanlığı əsgərlərə nümunə idi. Onun hərbi səriştəsi, qələbəyə hədsiz inamı, sadəliyi, təvazökarlığı əsgər və zabitlərin ürəyində ruh yüksəkliyi yaradırdı...

İntiqam ilk dəfə idi ki, haqqında çox eşitdiyi Həkəri çayını görürdü... Döyüş səslərindən sonra Həkərinin səsi məlhəm kimi yayılırdı döyüşçülərin ürəyinə... Əslən bu yerlərdən olan əsgərlərin, zabitlərin dizlərini yerə qoyub çaydan su içmələri İntiqamı əməlli-başlı kövrəltmişdi... İlahi, təbiətimiz necə gözəl imiş...

Həkəri boyu sıralanan Xanlıq, Çaytumas, Mollu, Sarıyataq kəndlərinin bir-birinin ardınca işğaldan azad edilməsi həm Laçına, həm də Qubadlı şəhərinə yaxınlaşdırırdı döyüşçüləri...

Yazı düzündə gedən qanlı vuruşlarda xeyli itki verən düşmən əsgərləri Qubadlını təhvil vermək məcburiyyətində qaldılar.

Mahmudlunun üstündən Bərgüşada gözəl bir mənzərə açılırdı... İntiqam bilirdi ki, bu çay onun da dədə-baba yurdunun içindən keçib gedən bir çaydır... O, həm mənzərələrə baxıb ləzzət alır, həm də onu lentə alıb atasına göndərirdi...

Təbiətin gözəlliyi dağıdılan evlərin, kəndlərin, şəhərlərin ağrısını unutdururdu. Yenidən bu yerlərə qayıtmaq, ata ocağının çırağını yandırmaq arzusu bütün ağrıları, acıları arxa plana keçirirdi sanki... Düşmənlərə təslim olmaq istəməyən təbiət elə bil onlara meydan oxuyurdu. Hətta sahilində yulğun kollarından başqa bir şey bitməyən çaylaq da meşəyə çevrilmişdi. Ağaclar torpağın əlində nizələrə bənzəyirdi...

***

Zabitlərə, əsgərlərə qələbə əzmi verən Haqq işi uğrunda mübarizə aparmaları, sonsuz vətən sevgisi idi. Həm də bu müharibə namus, qeyrət məsələsi idi. Xocalı faciəsini görən insanın ürəyindəki intiqam hissini çətin ki, söndürmək mümkün olaydı. Özü də bu hiss otuz il yığılıb, yığılıb nəhəng bir dəryaya çevrilmişdi.

Ali Baş Komandanın bircə əmri kifayət idi səbr bəndinin dağılmasına, nifrət, intiqam selinin qaynayıb daşmasına... Əsgərlər döyüşə toy-bayrama gedirmiş kimi gedir, müqəddəs torpaqlarımızın imdadına çatmağa tələsirdilər.

Komandirlərin "vur" əmri əsgərləri ruhlandırır, "dur" əmri isə onları məyus edirdi...

***

Yanına düşən qrad mərmisi neçə-neçə əsgərimizi şəhid, neçə-neçə əsgərimizi qazi eləmişdi. Bunların hamısı İntiqamın gözləri qarşısında baş vermişdi. O da ya qazi, ya şəhid ola bilərdi, ancaq şahid oldu. Gözlərinin qarşısında baş verən bu qanlı döyüş səhnələri, düşmənlə ölüm-dirim mübarizəsi yaddaşdan silinə bilməzdi. İntiqamın bu döyüşlərdən salamat çıxması əsil möcüzə idi. Oğlan ölməkdən qorxmurdu, ancaq ölmək də istəmirdi. Ən azı ona İntiqam adı qoyan sinəsi dağlı atasına döyüş hesabatı verməli idi İntiqam. Bu, onun alın yazısı idi...

Atasının arzularını reallaşdırmaq, analarımızın, bacılarımızın qisasını almaq, torpaqlarımızı işğaldan azad etmək missiyası var idi İntiqamın boynunda. O, mütləq, mütləq yaşamalı, bu tarixi missiyanı yerinə yetirməliydi...

İntiqam döyüş yollarında kimlərlə üz-üzə gəlməmişdi? Vətən uğrunda ölüm-dirim müharibəsində gözlərini itirən,

buna zərrə qədər də peşman olmayan igidlərimizi görəndə oğlan kövrəlirdi. İstər-istəməz Laçının Güləbird kəndində dəfn olunan Sarı Aşığı, onun dərin mənalı bayatıları düşürdü yadına.

"Sağ gözüm sənə qurban,

Sol gözümlə dolannam", – deyən Sarı Aşığın müdrikliyi İntiqamı heyran edirdi. Bax budur, vətənə öz gözünü qurban verməyə hazır olan əsgərlərin, vətən övladlarının sonsuz yurd sevgisinin göstəricisi...

Yanına bomba düşəndə kontuziya alan, yaddaşını itirən atasının, anasının adını da, hətta öz adını da unutmuşdu. Ancaq unutmadığı bircə şey var idi: Vətən, Azərbaycan bayrağı...

Vətəni vətən eləyən məhz bu cür oğullar imiş, doğrudan da. Oğul vətənin dayağı, vətən oğulun mayağı imiş...

Xarıbülbülün yanında başını yerə qoyub dincəlmək istəyən əsgərin əbədiyyət yuxusuna getməsi də çox təsirli bir mənzərə idi...

Bunların heç biri nağıl, uydurma deyildi. Gözləri ilə gördüyü, şahid olduğu hadisələr İntiqamın yaddaşına əbədi həkk olunmuşdu...

...Bu döyüşlərdə şəhid olanlar da oldu, ayağını, gözünü, əlini, qolunu, yaddaşını itirənlər də... Bircə ləyaqətini itirmədi heç kim... Qələbəyə inamını itirmədi heç kim...

Yaralı Vətən torpağı xoşbəxt idi. Onun övladlarının ürəyi eyni ahənglə vururdu...

XII fəsil

# ŞUŞA DÖYÜŞLƏRİ

Düşmən bütün gücünü, qüvvəsini Füzulidən sonra Ağdama toplamışdı. Hücumu da elə burdan gözləyirdi... Silahların bolluğuna, yeraltı səngərlərinin "topdağıtmaz"lığına arxayın olan yağı ümid eləyirdi ki, məhz burda Azərbaycan ordusunun zəfər yürüşünü dayandıra, onu biabırcasına məğlubiyyətə uğrada biləcək... Bu bədbəxtlər unudurdular ki, Ali Baş Komandanın rəhbərliyi altında hər gün yeni-yeni taktiki variantlar hazırlanır...

Müharibə də şahmat oyunu kimi bir şeydi əslində... Yalnız güc, silah bolluğu yox, həm də ağıllı taktiki gediş qələbəni şərtləndirən ən böyük amildir. Yüksək rütbəli komandirlərdən başqa heç kəsin xəbəri yox idi bu taktiki planlardan...

Düşmən Ağdamda gözləyə-gözləyə qalanda, Azərbaycan ordusunun Cəbrayılda, Zəngilanda, Qubadlıda baş tutan uğurlu əməliyyatları onları məyus eləmişdi... Həkəri çayı boyu kəndlərin bir-bir azad olunması Laçın dəhlizini tutmaq ehtimalını artırırdı... Bu, erməniləri və onların havadarlarını çıxılmaz vəziyyətə salmışdı... Əslində nə eləyəcəklərini, necə eləyəcəklərini bilmirdilər onlar... Vahimə içində devikə-devikə qalmışdılar... Bir tərəfdən Zəngilan, Qubadlı, o biri tərəfdən Xocavənd, Ağdərə istiqamətində olan hərbi uğurlar lap tezliklə düşmənin üzük qaşı kimi mühasirəyə alınacağından xəbər verirdi...

İntiqamın Zəngilan, Qubadlı, Laçın istiqamətindən, Vüsalın Suqovuşandan, Elşənin Hadrutdan çəkib göndərdiyi şəkillərə, videolara baxmaqdan doymurdu Ümid kişi. Şəlalə onu arabir məzəmmət eləyir, ərkyana deyirdi ki, nə olar, ay kişi, qoy bir az da biz baxaq neçə illərdən bəri üzünə həsrət qaldığımız yerlərə...

Ümid bu mənzərələrə baxdıqca, tanınmaz hala düşən, xaraba qalan yurd yerlərini gördükcə ürəyindən qara qanlar gedirdi... Bərgüşada, Həkəriyə isə həyəcansız baxa bilmirdi... Dağıdılan möhtəşəm körpülər onu nə qədər məyus eləyirdisə, çaylaq boyu yaranan meşələr kişinin gözlərini oxşayırdı... Öz-özünə deyirdi ki, biz başımızı götürüb qaçsaq da, bizsiz qalan ana torpaq düşmənə təslim olmayıb...

***

Azərbaycan torpağının hər qarışı əziz idi onu azad eləyən əsgərlər, zabitlər üçün... Bir az bundan əvvəl səninlə çiyin-çiyinə addımlayan, məqam gələndə sürünə-sürünə, özünü qoruya-qoruya düşmən hədəfinə sarı irəliləyən döyüş dostunun beş-on dəqiqədən sonra yoxluğu ilə adam barışmaq istəmirdi... Ancaq ölüm saçan mərmilər nə “mən ölüm” bilir, nə “sən öl”.... Yanına düşüb partladımı, hər şeyə son qoyur bir anın içində...

Torpağa hopan əsgər qanı elə bil onun dəyərini, müqəddəsliyini birə on artırırdı... Ulu babaların damarında axan qanın öz məkanını dəyişə-dəyişə keçmişdən üzü gələcəyə axmasında da böyük bir hikmət var idi... Əslində bu, bir nəslin, bir xalqın varlığını təmin eləyən həyat çayı idi... Bu nəslin damarından o biri nəslin damarına ötürülən bu qan

yeni nəslin genetik yaddaşını itməyə qoymur, onu daim təzələyirdi...

Aralarında bu yerlərə bələd olan, onun hər qarışını tanıyan bələdçi döyüşçülər olsa da, yeni nəsil bu yerləri görməmişdi... Ancaq qəribə idi, qan yaddaşı çox güclü idi... İlk dəfə gördükləri bu dərələri, təpələri, dağları, qıjıltılı dağ çaylarını görən yeni nəslin həmin yerlərə qanı qaynayırdı bircə dəfə baxmaqla. Bu vurğunluq onların mübarizə əzmini bir az da artırırdı.

İntiqam Şuşanın sıldırımlı bir dağın üstündə salındığını bilirdi. Hələ onun bu şəhərə ayağı dəyməmişdi. Hələ onun gözləri Cıdır düzündən ətrafa baxmamışdı. Ancaq Daşaltı tərəfdə gizləndikləri yerdən Şuşaya tərəf baxan oğlan öz-özünə düşünürdü ki, aşağıdan belə gözəl mənzərə açılırsa, gör Şuşadan aşağılara baxmağın ləzzəti necə olarmış...

Şuşanın Qala adlandırıldığını da bilirdi İntiqam. Şəhər elə yerdə salınmışdı ki, o, elə təbii bir qalanı xatırladırdı...

Düşmən əsas qüvvəsini Şuşanın girişinə toplamışdı. Arxayın idi ki, Azərbaycan əsgərləri məhz burdan hücum eləyəcək, şəhərə daxil olmaq istəyəcəklər. Ona görə bu hissədə hərbi texnikadan keçilməz bir sədd yaratmışdılar... Arxayın idilər ki, şəhərə can atan Azərbaycan əsgərlərini məhz burda kütləvi şəkildə qırmağa, onların Şuşaya girmək arzusunu gözlərində qoymağa nail olacaqlar...

Hərbi rəhbərlik bütün bunları bilirdi. Ona görə şəhərin alınması üçün ağılagəlməz döyüş planı hazırlanmışdı... İnriqamgilin kəşfiyyat qrupunun üzvləri Daşaltı kəndi yaxınlığındakı dərədə gizlənmişdilər. Onlar gecə-gündüz ermənilərin nə iş gördüklərini müşahidə edirdilər...

Sıldırım qayanın dibindəki Daşaltı kəndində yaşayanların başına daş düşmüşdü elə bil. Onlar çox narahat idilər. Buldozerlə yeri qazıb sığınacaq düzəldir, sonra onun üstünü ağaclarla örtürdülər. Kəşfiyyatçılar müşahidə əsasında öyrəndilər ki, hərbi təchizat, qida əvvəlcə bura gətirilir, sonra Şuşaya göndərilir...

İntiqam onu da yaxşı bilirdi ki, birinci Qarabağ müharibəsinin başlanğıcında düşmənlər məhz bu kənddə təcrübəsiz, ancaq vətənpərlik ruhu güclü olan döyüşçülərimizi pusquya salıb hamısını qırmışdılar. İntiqam onu da bilirdi ki, Xəlil Rza Ulutürkün oğlu Təbriz də məhz burda şəhid olanların sırasında imiş...

Kəşfiyyatçılar səbrlə neçə gün gözlədilər, hər şeyin "cikini-bikini" öyrəndilər. Sonra gecə ikən qəflətən düşmənin başının üstünü aldılar. Onların hamısını məhv edib səssizcə səngərdə dayandılar...

Səhərisi gün hərbi təchizat gətirən düşmən əsgərlərinin hərbi kalonu kəndə daxil oldu. Maşınları boşaltmaq üçün Daşaltı müdafiəçilərini səsləyəndə cavab eşitməyib şübhələndilər. Dönüb geriyə qaçmaq istədilər. Ancaq mümkün olmadı... Düşmənlərin it mırıltısını xatırladan danışıq səsləri kəsildi...

Gecənin bir aləmi Azərbaycanın igid oğullarına, xüsusi təyinatlı döyüşçülərinə sıldırımı qalxmaqla Şuşaya girmək əmri verildi... Əməliyyat dəqiq planlaşdırılmışdı... Sıldırımdan Cıdır düzünə qalxan, kol-kos basdığından unudulan, ermənilərin varlığından xəbərziz olduqları Qırxpilləkən Azərbaycan ordusunun kəşfiyyat qrupunu zəfər zirvəsinə qaldırdı o gecə...

Ermənilər çaş-baş qalmışdılar. Nə edəcəklərini, hara qaçacaqlarını bilmirdilər. "Allahü əkbər" səsi onları vahiməyə salırdı. Hər kolun, ağacın dibindən bir igid çıxıb düşmən əsgərlərini cəhənnəmə vasil eləyirdi. Özü də hadisələr bircə göz qırpımında baş verirdi. Necə deyərlər, düşmən göz açmağa belə macal tapmırdı. Elə bil Şuşanın hər daşı, hər ağacı, hər kolu bir əsgər idi... Erməni dığaları Vətən sevdalı döyüşçülərimizin yaratdıqları vahiməli hiddət selinin üstündə çör-çöpə bənzəyirdilər...

Sonralar həmin günün Şuşa döyüşlərini dəhşətlə xatırlayan muzdlu peşəkarın, Fransadan könüllü olaraq Qarabağa gəlmiş erməninin etirafları əsgərlərimizin şücaəti haqqında çox söz deyir.

Həmin xatirələrdən biri belə idi: *"Şuşa döyüşləri dəhşət idi. Onların gəlişi sanki ölüm mələyinin gəlişi idi. Gecələr ova çıxmış ac canavara bənzədirdik biz onları.*

*Ən böyük qorxumuz onların bəd duaları idi. Duaların səsini eşitdinsə, artıq ölmüsən. Onlardan qaçmaq mümkünsüzdü. Vızıltı eşitdinsə, deməmk artıq nişangahdasan. Və nə etsən də, hara qaçsan da ölümdən qurtuluşun yoxdu.*

*Onlar ən çox gecələr, dumanlı və çiskinli havalarda gəlirdilər. Üç-dörd nəfərlə səngərdəki silahlanmış 20-30 erməni əsgərini öldürərək gəldikləri kimi də yoxa çıxırdılar.*

*Bir az real çıxmasa da, bəzən düşünürdük ki, onlar real insan deyillər. Bəlkə də ya zombi, ya da remboçu idilər. Üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar. Bir az yerdə eşələnirdilər. Sonra yenə qalxıb üstümüzə şığıyırdılar.*

*Mən özüm dəfələrlə şahidi olmuşam kı, bu gün öldürdüyün əsgər sabah diriləərək üstümüzə gəlirdi. Deyirlər ki, 1500 erməni əsgəri 3-4 Azərbaycan əsgərinin qarşısından*

*qaçırdı. Bəli, qaçırdıq, çünki qaçmasaydın, ölümün mütləq idi.*

*Yenə deyirəm, onlar insan deyillər, nəsə ölümsüz bir şey idilər. Öldürmək olmurdu, yenidən dirilib üstümüzə gəlirdilər.*

*Şuşa döyüşləri daha dəhşətli idi. Biz onların gəlişini başqa yerdən gözləyirdik. Ancaq bir də ayılırdıq ki, onlar canavar sürüyə girən kimi aramıza giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini dişləriylə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişləri ilə qoparmışdılar. İnsan bunu edə bilərmi? Əlbəttə ki, yox. Deyirlər ki, Arsakda bir də müharibə eləyəcəyik. Bu zombiləri görən əsgər və zabitlər bir də Arsakda döyüşlərdə iştirak edə bilməz. “*

Düşmən hardan biləydi ki, əsgərlərimizə bu gücü, qüvvəni verən sonsuz Vətən sevgisidir? Onlar hardan biləydilər ki, Xocalı soyqırımını unutmayan qəhrəman oğullarımızın ürəyindəki intiqam alovudur? Bu vaxta qədər məğlubiyyətlərinin səbəbini dronlarda, müasir hərbi texnikada görənlər dərk elədilər ki, Azərbaycanın qəhrəman oğulları əliyalın olsalar belə, çox güclü, çox qadirdilər! Onların qarşısını ən müasir silahlarla da almaq mümkün deyildi...

Bizim əsgərlər iş görməyi xoşlayırlar, boş-boş danışmağı, lovğalanmağı yox. Uzun illərdən bəri döyüşə can atan igidlərimizin səbr kasası dolmuşdu. Bircə himə bənd idi onların hamısı. Mərd oğullar özlərinə çox güvənirdilər. Onlar düşməni məhv eləmək üçün xüsusi hazırlıqlar keçmişdilər. Bu hazırlıq ürəkdəki vətən sevgisi ilə yoğrulanda qarşısıalınmaz bir qüvvəyə çevrilirdi.

Ümid Şuşa döyüşləri ilə bağlı öz əsgərlərimizin xatirələrini oxumağı çox xoşlayırdı. Bu xatirələri ermənilərin xatirələri ilə müqayisə edir, nəticə çıxarmaq, toxtaqlıq tapmaq istəyirdi. Onu da bilirdi ki, xüsusi təyinatlılarımız Şuşanı ağır artilleriyadan, dronlardan istifadə etmədən xilas etmişdilər. Əlbəyaxa döyüşlər, bıçaqdan, tapançadan istifadə etməklə aparılan döyüşlər Azərbaycan əsgərinin nələrə qadir olmasının göstəricisi idi.

XTQ üzvü, Şuşa qazisi Alik Məmmədovun sözləri Şuşa döyüşləri haqqında dolğun təsəvvür yaradırdı. Döyüşçünün sözləri adamın ürəyində qürur hissi doğururdu: *"Yarım metr qarda 14 saat kəşfiyyatdan sonra, 400 nəfər o dağı dırmaşmalı idi. Bıçaq, tapança, limonka ilə döyüşə gedirdik. Bizi nə gözləyir, bilirdik. 500 erməni dığasının biz daxil olan tərəfdə olduğu məlumatını əldə eləmişdik. Ən az sayda bu tərəfdə yerləşmişdilər, başqa mövqelərində ağır artilleriya və canlı qüvvə sayı burdakından azı üç dəfə çox idi. Çünki onlar bizim oradan hücum edəcəyimizi güman edirdilər. Heç bir insanın ağlına gəlməyəcəyi sıldırımları dırmaşıb, döyüşə artilleriyasız girəcəyimizi düşünmürdülər. Nəinki onların, heç kəsin ağlına gəlməzdi ki, biz bıçaqla Şuşanı almağı düşünürük. Generalımızın (XTQ komandanı Hikmət Mirzəyev) düzgün döyüş tapşırığı, düzgün koordinatları olmasaydı, məhv ola bilərdik. Amma hər şey zərgər dədiqliyi ilə ölçülüb biçilmişdi. Biz qayaları dırmaşıb, əlbəyaxa döyüşə girdik. Dəqiq deyə bilməyəcəm, təxmini desəm, 40-a yaxın erməniyə bıçaq salıb çıxartmışam həmin hücum anı. Onların arasına düşən təşviş belə general tərəfindən hesablanmışdı. Təşviş yaranan kimi tapşırıq əsasında hərəmiz dəstə-dəstə əks istiqamətlərdə dağılışdıq. Ermənilər*

*artıq həyəcan və qorxudan özlərinə atəş açırdılar. Onlar hətta öz əsgərlərinə belə inanmırdılar, yaxınlaşan erməni erməni vururdu, çünki onların formasında belə biz ola bilərdik”.*

XTQ kəşfiyyatçısı, Şuşa qazisi Sirus Müsüzadənin xatirəsi də Azərbaycan əsgərinin nəyə qadir olması haqqında təsəvvürü əhəmiyyətli dərəcədə genişləndirirdi, çox maraqlı idi: *“Biz iki gün Şuşanın Daşaltı hissəsində şəhərin kəşfiyyatında qaldıq. İki gündən sonra hücuma keçdik. Gecə saat təxminən 2 olardı ki, Şuşaya doğru irəlilədik. Əlimizdə olan tək silah avtomat idi, ancaq onlar bizim üstümüzə bütün silahlardan atırdılar. Aşağıdan yuxarı sıldırım qayaları qalxırdıq. Çox çətin idi, dizin-dizin dağı qalxırdıq. Düz qalxmaq qeyri-mümkün idi. Qayadan əlimizlə tuturduq, dizlərimiz yerdə, iməkləyə-iməkləyə qalxırdıq sıldırım qayaları... Dağa qalxanda inilti eşitdim. Bildim ki, kimsə yaralanıb. Gördüm döyüş yoldaşımdır. Düzdür, tanımırdım şəxsən, ancaq mən ona kömək etməli idim. Vicdanım yol verməzdi ki, onu bu vəziyyətdə, yaralı halda qoyub gedim. Qolundan tutdum, yuxarı qaldırdım, bir qolumda yaralı yoldaşım, digər əlimdə silah, o vəziyyətdə döyüşdüm. Sürünə-sürünə qalxdıq yuxarı. Hətta orada ağır çəkidə olan döyüşçülər var idi. Onları daşımaq çox çətin idi. Biz nə şəhid olan yoldaşımızı, nə də yaralanan qardaşlarımızı döyüş meydanında qoya bilərdik... Şuşaya qədər təxminən 4 gün yol getdik. Gecə saat 2-də Şuşaya girdik, səhər saat 8-ə qədər döyüşdük. Ora ən vacib yüksəklik idi, biz həmin yeri yaralı-yaralı qoruyub saxladıq ki, şəhərin özünə girənlər üçün çətinlik olmasın. Döyüş yoldaşlarım Şuşaya girəndə mərmiləri bitib, mühasirədə qalmışdılar. Ürəkləri rahat*

*olsun deyə silahı atıb əlbəyaxa davaya girirdilər. Qisaslarını bu cür alırdılar".*

366-cı alayın tankları, topları ilə silahsız insanları qətlə yetirənlər, Xocalı faciəsini törədənlər bilməli idilər ki, nə vaxtsa bir gün onların yaxası haqqın, ədalətin qadir əllərindən qurtula bilməyəcək! Axır ki, o gün gəlib çıxdı. Əlbəyaxa döyüşdə yüzlərlə erməni döyüşçüsünü məhv edən Azərbaycan əsgərinin qəhrəmanlığı təkcə düşmənlərin yox, onların havadarlarının da canına qorxu, vicvicə saldı...

Hücuma keçən döyüşçülərin uca səslə "Allahü əkbər" söyləməsi yeri-göyü titrədirdi. Ermənilər silah-sursatlarını atıb dovşan kimi qaçır, canlarını qurtarmağa çalışırdılar... Bir vaxt əli yalın, ayağı yalın, başı açıq günahsız insanları: qocaları, qadınları, uşaqları qurd-quşa yem eləmək istəyənlər unudurdular ki, buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz... Çaqqallar unudurdular ki, əvvəl axır onların murdar leşləri çaqqal sürüsünün bayram süfrəsinə çevriləcək... "Yan"lar yanlarına nə qədər "yan"lar yığıb bizə yandıq versələr də, öz yandırdıqları oda özləri yanırdılar... "Yan"lar yana-yana gedirdilər.

Elə bil Qarqar çayı bu gün ayrı dildə nəğmə oxuyurdu. Onun dediyi "bala, yan!", "bala, yan!" "bala, yan!" sözləri sıldırımlarda əks-səda verirdi. Balayanlar isə quyruqlarını qısıb qaçırdılar. Nə qədər qulaqlarınu yummağa çalışsalar da, əks-səda verən bu sözlər onların ürəyini partladırdı:

– "Bala, yan!"
– "Bala, yan!"
– "Bala, yan!"

XIII fəsil

## YUXU VƏ REALLIQ

Yaşadığı faciəli həyat həmişə yuxu kimi gəlirdi Ümidə. Bu dəhşətli, qara-qorxulu yuxular bitmək bilmirdi ki, bilmirdi... Doğrudur, Şəlalə ilə ailə qurması, oğul-uşaq sahibi olması onun sağalmaz yaralarına məlhəm olmuşdu istər-istəməz. Həyat mücadiləsi onu ümidsizlik diyarından qismən də olsa, xilas eləyə bilmişdi. Ancaq bu xoşbəxt həyat belə onun bitib-tükənmək bilməyən ağrılarının, əzablarının, sızıltılarının, göynərtilərinin üstündən çalın-çarpaz xətt çəkə bilmirdi ki, bilmirdi...

Danılmaz fakt idi ki, Ümidin içindəki boşluq xərabələrini heç onun təzə həyatı da, mehriban, xoşbəxt ailəsi də, övladlarının xoşbəxtliyi də, nəvələrinin gülüş səsləri də doldura bilmirdi. Bu xoşbəxtliyin alt qatında bitib-tükənməyən ağrılar seli çağlayırdı...

Ümidin bir gözü gülsə də, o biri gözü daim qan ağlayırdı... Elə hesab eləyirdi ki, düşmənlərin sonsuz əzabla öldürdüyü keçmiş həyat yoldaşının ruhu daim onu qınayır. Dərisi soyulan on üç yaşlı uşağın üsyan dolu fəryadı, pərən-pərən düşən arvad-uşağın ah naləsi qulaqlarından getmirdi ki, getmirdi...

Əslində qara-qorxulu həyatla qara-qorxulu yuxular bir-birinə elə qaynayıb qarışmışdı ki, Ümid bəzən nəyin yuxu, nəyin reallıq olmağını da ayırd eləyə bilmirdi... Reallıqla yuxu arasındakı sərhədi müəyyənləşdirmək mümkünsüz

idi... Ona görə ki, elə onun həyatı da arzuolunmaz yuxuya bənzəyirdi...

Yenə dünyanın ən nəhəng ağ kəfəninə bənzəyən qarlı düzlər, yenə qanla yoğrulan qırmızı qar, yenə hərəsi bir tərəfə sərilmiş saysız-hesabsız cəsədlər, "hay"ların it hürüşünə bənzəyən "qalibiyyət" mırıltısı, onlarla həvirləşən quduz sarı köpəklərin amansız züy səsləri, zingiltisi... Yenə nahaqqın pəncəsində inləyən zavallı haqqın ürək göynədən fəryad səsləri...

Bu qədər haqsızlıq olarmı, ay Allah?! Bu zülm nə vaxta qədər davam eləyəcək, İlahi? Bu namərdlər, kafirlər təkcə bizim özümüzü, ailəmizi yox, inancımızı, dinimizi, imanımızı da təhqir eləməkdən çəkinmirlər. Ya Rəbbim, mərdi namərdin pəncəsindən xilas elə!

Yuxu ilə reallıq arasında sərgərdan qalan Ümid nə eləyəcəyini bilmirdi. Bitib-tükənmək bilməyən ağrılı düşüncələr onun ürəyini üzürdü...

Birdən elə bil möcüzə baş verdi... Qarlı düzlər bəyaz yüyrük kimi yellənməyə başladı. Ümidin Nəsimi kimi dərisi dabanından soyulan on üç yaşlı oğlu ayağa qalxıb erməni cəlladlarının üstünə yeriməyə başladı. Düşmən vahiməyə düşdü... Ay aman, bu nədi, başı dağılan, qolu, qıçı kəsilən, gözləri oyulan, döşləri kəsilən insanlar ayağa qalxıb düşmənlərə sarı yeriməyə başladılar...

Elə bil qarın altından saysız-hesabsız novruzgülülər baş qaldırırdı... Elə bil bənövşələr kol dibindən boylanırdılar... Xarı bülbül alayı düşməni mühasirəyə almışdı... Balayan zor bəla ilə ayağa durub zingildəyə-zingildəyə qaçır, o birilər siçan kimi girməyə deşik axtarırdılar...

Havada İtiqovanlar uçur, Bayraqdarlar şığıyırdı...

Qara zurnanın səsi yeri-göyü götürmüşdü... “Cəngi” səsi igidləri cəngə səsləyirdi... Bu da “Yallı”... Azərbaycan əsgərləri Cıdır düzündə “Yallı” gedirdilər... Həmişə havadarlarının verdikləri yalla yallanan köpəklər isə ümidsizcəsinə hürə-hürə, ləhləyə-ləhləyə, yalmana-yalmana, quyruq bulaya-bulaya Qarabağdan, Şuşadan qaçırdılar...

Ümid gördüklərinin yuxumu, həqiqətmi olduğunu dərk eləyə bilmirdi. Azərbaycan əsgərləri Cıdır düzündə “Yallı” gedirdilər... Onların çəkmələri altında bir vaxt lovğalanıb bu yerlərdə bizə yandıq vermək üçün “Yallı” gedən düşmən ayaqlarının izləri ufuldayır, nalə çəkirdi...

Ümid televiziya ekranına baxırdı. Yox, bu, deyəsən yuxu deyildi. “Yallı” gedənlərin sırasında öz oğlunu da görən Ümidin arzuları çin olmuşdu bu gün...

Şuşada üçrəngli Azərbaycan bayrağı ilə qoşa ay-ulduzlu qızıl türk bayrağı da yellənirdi... Bu bayraqların yellənməsindən yaranan tufan, qasırğa düşməni də, onun havadarlarını da çör-çöp kimi qabağına qatıb Qarabağdan aparırdı...

Ümidə elə gəlirdi ki, indi bu əzəmətli qələbə yallısına Şuşanın dağları da qoşulub... Üçmıx dağı da, Kirs də, Qırxqız da, Murov da, Qoşqar da, Dəlidağ da, Kəpəz də, Zəngəzur, Mehri dağları da, Savalan da qoşulmuşdu. Dəstənin başında gedən Ağrı dağının zirvəsində isə qoşa türk bayrağı yellənirdi...

***

44 günlük müharibə zəfərlə başa çatmışdı. Qələbə xəbəri başqa soydaşları kimi Ümidi də sevinc göz yaşlarına qərq eləmişdi və bu göz yaşları saralıb solan ümid çiçəklərinin də yenidən qönçələnməsinə səbəb olmuşdu… Ancaq başı daşdan-daşa dəyən, ailə itirməyin, övlad itirməyin nə

deməк olduğuni yaxşı bilən, ev-eşiyi yağmalanan, öz dogma ocağından didərgin salınan, xalqımızın başına gətirilən müsübətlər tarixindən xəbərdar olan bütün soydaşlarımız: qaçqınlar, köçkünlər, didərginlər kimi Ümidin də ürəyi səksəkədə idi, narahatçılığı davam eləməkdə idi… Neyləsin bu zavallı insanlar? Onları qınamaq da olmurdu. Atalar demişkən, "İlan vuran ala çatıdan qorxar"...

Bu məsələ ilə bağlı çox müzakirələr olurdu qonşular arasında. Deyirdilər ki, başımıza gətirilən bu müsibətlərin əsl səbəbkarlarının ipinin üstünə indi də odun yığmalı deyil… Ancaq toxtaqlıqları əsrlər boyu zəfərlər tarixinə imza atan Türk qardaşlarımızın, pak niyyətli pakistanlı qardaşlarımızin bizim haqq işimizə dəstək verməsi idi. Ali Baş Komandanın məntiqli, tutarlı arqumentlərlə ayrı-ayrı ölkənin jurnalistlərinə verdiyi müsahibələr həqiqətin geniş miqyasda yayılmasına səbəb olur, xalqımız, onun haqq işi, tarixi, mədəniyyəti, əxlaqı haqqında yeni fikir formalaşdırırdı…

Döyüş təkcə cəbhədə getmirdi. İnformasiya müharibəsi də kimin kimliyini açıqca nümayiş etdirirdi…

Ümid çox yaxşı bilirdi ki, tərəqqipərvər rus ziyalıları həmişə haqqın, ədalətin tərəfdarı olublar. Onlar həmişə haqsızlığa qarşı öz səslərini qaldırıblar. Lakin bu, imperiya siyasətini yerinə yetirən yuxarı dairənin adamlarına qətiyyən sərf eləməyib. Ya bu fikirləri qulaqardına vurub unutdurmağa çalışıblar, ya da fikirlərində israrlı olan ziyalıları bu və ya digər yollarla aradan götürüblər. Həmin məsələ ilə bağlı o qədər sirli, gizli məqamlar var ki, yəqin ki, əvvəl-axır üzə çıxacaq. Tarixdə heç nə gizli qalmır. Hər bir cinayətin üstü

əvvəl axır açılır, həqiqət üzə çıxır. Açılmalı məqamlar, gizli xəyanət planları o qədərdi ki…

Lakin gün kimi aydın olan məsələlər də var. Həmişə həqiqət carçısı kimi tanınan, ermənilərin, eləcə də onların havadarlarının iç üzünü açan əsərlər yazan "Sən qulsan, sən qorxaqsan, sən ermənisən" deyən böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin taleyini hansı məlumatlı ziyalı xatırlamır ki? Onun taleyini başqa şəkildə yaşayan Mixail Yuriyeviç Lermontovun "Şairin ölümünə" adlı şeiri çox qaranlıq mətləblərin üstünə işıq salmırmı? Həmin məşhur şeir bu misralarla bitirdi:

Siz ey həyatında föhşə dadanmış,
Məşhur rəzalətlə şöhrət qazanmış
Xain atalardan nişan xələflər!
Taleyin qurduğu əyləncələrlə,
İncik nəsilləri işgəncələrlə
Qul kimi tapdayıb aşan xələflər!
Ey taxt ətrafında üşüşən yığın,
Şərəfin, namusun və azadlığın
Qəddar cəlladları, enin, enin siz!
Qanun arxasında pərdələnin siz!
Sussun qarşınızda qanun, ədalət,
Sussun qarşınızda bu qara dəhşət.
Fəqət ey rəngbərəng əxlaqsızlığın
Qarşısında gedən şərəfsiz yığın.
Bilin ki, Tanrının məhkəməsi var,
O dəhşətli hakim sizi qarşılar.
Altun cingiltisi uzaqdır ondan,
O hər fikri, işi uzaqdan bilir.
Yapdığınız işə sizin o zaman

Nifrət yağdırmanız hədər bir işdir.
O, sizə bir kömək etməyəcəkdir,
Şairin günahsız qanını hey siz,
Qara qanınızla təmizləsəniz,
Nə qədər yusanız getməyəcəkdir...

Ümid bu şeiri hələ tələbə vaxtı əzbərləmişdi. Şeirdəki üsyanı, harayı, etirazı indiki kimi dərk eləməsə də, taleyi elə Puşkinin, Lermontovun taleyinə uyğun gələn Müşfiqin tərcüməsində bu şeiri hər üç şairə ehtiram əlaməti kimi əzbərləmişdi... O vaxt dərk eləməsə də, indi anlayırdı ki, elə xalqını, torpağını, dilini, dinini sevən, əsərlərində türkçülük təbliğ eləyən Müşfiqin ölümündə də erməni barmağı varmış. Şairi "Buruqlar arasında" poemasında Qurgenlə Güləndamın sevgisindən yazmağa vadar edənlər yaxşı bilirdilər ki, Müşfiq son dərəcə istedadlı bir düşməndir. Elə o vaxt "taxt ətrafında üşüşən yığın"ın böyük bir qismi elə ermənilər idi. Müşfiq o vaxt hardan biləydi ki, onu da qarşıda öz sənət müəllimlərinin – Hüseyn Cavidin, Əhməd Cavadın taleyi gözləyir?

"Başına gələn başmaqçı olar", – deyirlər, Ümid də başına gələn müsibətlərdən sonra çoxdan oxuduğu əsərləri bu günün reallığı prizmasından dəyərləndirməyə çalışırdı. Bütün bunlar isə məsələnin mahiyyətini anlamaqda ona çox kömək edirdi.

Cəfər Cabbarlının "1905-ci ildə" əsərində söylənilən "Atan kazaklardır" ifadəsinin mahiyyətini də indi daha yaxşı anlayırdı Ümid. Uzun illər, əsrlər "Parçala, hökm sür" siyasətinin qurbanına dönübmüş insanlar... Düzdür, zaman dəyişib, ancaq o siyasət indi də başqa formada özünü göstərir. Ümid şeirin son misralarında kiçik bir dəyişiklik

eləmişdi. Şairin sözünü çıxarmış, onun əvəzinə “xalqların” sözünü əlavə eləmişdi:

Xalqların günahsız qanını hey siz,
Qara qanınızla təmizləsəniz,
Nə qədər yusanız getməyəcəkdir...

Ümid oxuduqları ilə gördüklərini müqayisə edərək anlayırdı ki, Çarizmə öz imperiya siyasətini yerinə yetirmək üçün “qul, qorxaq, oğru” xislətli ermənilər tərəqqipərvər ziyalılardan daha çox lazım imiş. Bu mütərəqqi düşüncəli ziyalılar ən yaxşı halda “Cənub Sibiri”nə – Qafqaza, “quldurlar, başkəsənlər, mədəniyyətsizlər” yaşayan mühitə göndərilirdilər ki, onlar məhrumiyyətlərə məruz qalsınlar, sınsınlar, əyilsinlər. Ancaq tükü tükdən seçməyi bacaran bu tipli adamlar mədəniyyətsiz, əxlaqsız deyilən zümrədən mədəniyyət, əxlaq dərsi aldılar, çox şey öyrəndilər. Burada yaşayan “vəhşi tayfa”nın – türklərin yüksək mədəniyyəti, əxlaqı, quldur damğası vurulan insanların kişiliyi, mərdliyi, sözübütövlüyü onları heyran etdi…

Ermənilər isə həyasızcasına öz əməllərini davam etdirirdilər. Ümid Amerikadan gələrək Kəlbəcərdə özünə restoranlar şəbəkəsi yaradan bir erməninin ayrı-ayrı zamanlarda lentə alınmış iki çıxışına qulaq asmışdı. Ürəyində bu süjeti hazırlayanlara əhsən demişdi...

Birinci çıxışında lovğa-lovğa danışan, azərbaycanlılara “özünüzü yaxşı aparmasanız, Bakını da əlinizdən alacağıq”, – deyən daşnak indi hönkürə-hönkürə fəryad edirdi… O, Kəlbəcəri tərk etmək məcburiyyətində qalmışdı. Tikib-qurduğu restoranı türklərin əlinə keçməməsi üçün yandırması, ona baxa-baxa fəryad eləməsi, hönkür-hönkür ağla-

ması səhnəsi Ümidə ləzzət eləmişdi. Azərbaycan ordusunun qəhrəman oğulları ermənilərin anasını ağlar qoymuşdu...

Yekə "kişi"ni, bir zaman hünərdən, qoçaqlıqdan dəm vuran, indi isə çarəsiz şəkildə ağlayan ermənini görəndə Ümid kinayəli şəkildə belə demişdi o vaxt:

– Sənin kişi boyunu yerə soxum! Sizin hamınız belə-siniz…

Kəlbəcərdən köçmək, neçə illər öz evləri kimi yaşadıqları azərbaycanlıların evindən çıxmaq məcburiyyətində qalan ermənilər elə şivən-qiyamət qoparırdılar ki, guya öz dogma evlərindən ayrılmaq zorunda qalıblar… Onlar əllərinə keçən nə vardısa öz dədələrinin malı kimi maşınlara doldurub aparırdılar. Ağacları da kəsib daşıyırdılar. Hələ bu harası idi? Tualetin oturacaq hissəsini çıxarıb maşına qoyan cındır ermənini görən Şəlalə də özünü saxlaya bilməmişdi:

– Kül başınıza, bax, siz busunuz…

Ümid də arvadının sözünə haqq vermişdi:

– Sən Allah, bir bunların həyasızlıqlarına bax! Neçə il yaşadıqları özgənin evini öz evləri hesab eləyirlər. Naxələflər bu evlərdən çıxanda həyasızcasına onlara od vururlar…

– Hə, ay kişi! Özün də yaxşı bilirsən ki, bu, onların köhnə vərdişidi… Zaman-zaman nə qədər evləri xaraba qoyublar bu şərəfsizlər… Allah onların kökünü kəssın!

– Amin!

Zaman dəyişsə də, quruluş, ictimai formasiya dəyişsə də "böyük siyasət elementləri – planları" dəyişmədi. Puşkinlərdən, Lermontovlardan sonra gələn Sergey Yeseninləri, Vladimir Mayakovskiləri, onlarca ziyalıları da öz xələflərinin taleyi gözləyirdi. Bütün mütərəqqi düşüncəli

ziyalıların həm türklər, həm ermənilərlə gündəlik ünsiyyəti onların gözünü açdı, insanlar haqqın hansı tərəfdə olduğunu gördülər və bu haqda həqiqəti yazmaqdan çəkinmədilər. "Böyük planın icrasını" isə öz axarından saxlamaq gücündə deyildi bu cür tərəqqipərvər ziyalılar… Ona görə ki, "parçala, hökm sür" siyasətinin böyük fiqurlarına bu cür ziyalılardansa, "satqın, etibarsız, ləyaqətsiz, əxlaqsız, həyasızcasına ağa qara deməyi bacaran ermənilər" daha çox lazım idi. Belə olmasaydı, onlar ermənilərin iç üzünə bələd olan A.Qriboyedovun həyəcan siqnalını xatırladan məktublarını nəzərə alardılar.

Böyük diplomat Rusiya imperatoruna göndərdiyi məktubda yazırdı: *"Bu ermənilər nə murdar adamlardır! Onlardan heç biri məni tanımaq istəmir. Ancaq həmişə qulağıma pıçıldayaraq deyirlər ki, ruslar onların havadarlarıdır. Sözdə belə deyir, ancaq əslində erməniləri təpik altına salmağa hazır olan farslara satılırlar."*

Hadisələrin inkişaf istiqaməti, ağılasığmaz qanlı olaylar, sadə, günahsız insanların başına gətirilən müsibətlər diplomatın bu qənatlərində nə qədər haqlı olduğunu göstərdi.

O dövrdə hadisələrin başqa iştirakçılarının fikirləri də həm ermənilərin rəzil simasını, həm də bütün bunlara rəğmən, çarizmin çirkin, riyakar siyasətini ifşa edən faktlar kimi çox dəyərlidir.

Ərzurum artilleriyasının komandanı və İkinci Ərzurum qala artilleriya alayının komandiri, tanınmış podpolkovnik **Tverdoxlevun** xatirələrindən götürülən bu cümlələr erməni xislətinin indi də nə üçün dəyişməməsini mahiyyətini anlamağa kömək edir: *"Biz, Ərzurumda müsəlman*

*əhali ilə, demək olar ki, iki il yaşamış və onlara yaxşı bələd olmuş rus zabitləri, üsyanın olmasına inanmırdıq və erməni qorxaqlığını açıq şəkildə lağa qoyurduq". "Ermənilər, bu qaniçən və azadlıq uğrunda qorxaq mübarizlər, bizim arxamızdan türklərin aciz qoca, qadın və uşaqlarını doğra-yaraq incitməyə başlayırlar". "Mənfur ermənilər döyüş meydanındakı əsl əsgərlərdən qorxaqcasına qaçırlar, əsasən qocaların, qadınların, uşaqların və əliyalın insan-ların üstünə kütləvi hücumlarda mərd və cəsurdurlar".*

Bu da rus tarixçisi **N.Şavrovun** həqiqəti açmağa kömək edən sözləri**:** *"Ermənilər yalançı şahidlərdən geniş istifadə edərək, torpaqsız gəlmələr kimi, böyük həcmdə dövlət torpaqları ələ keçirdilər".*

Rus diplomatı, general **Mayevskinin** "Ermənilərin törətdiyi kütləvi qətllər" kitabındakı bu sətirlər olduqca dəyərlidir və hayların xisləti haqqında dolğun təsəvvür yaradır: *"Görəsən kimsə ermənilərin xalq qəhrəmanlığı haq-qında eşidibmi? Onların azadlıq uğrunda döyüşçülərinin adları harada həkk olunub? Heç yerdə! Ona görə ki, ermənilərin "qəhrəmanları" öz xalqının xilaskarından daha çox onun cəlladı olublar".*

Diplomatın bu qənaətləri də tarixi həqiqəti əks etdirir: *"Qarabağın tarixi kökləri antik dövrə gedib çıxır. Qarabağ Azərbaycanın tarixi əyalətlərindən biridir. Bu region Azər-baycanın mühüm siyasi, dini, mədəni mərkəzidir. Bədnam Qarabağ problemi ermənilərin tarixi saxtalaşdırma ideya-sının məhsuludur."*

Məşhur tarixçi **Anninskinin** bu fikirləri də çox maraqlı görünürdü Ümidə, məsələnin mahiyyətini öyrənməkdə ona kömək edirdi: **"***Qədim ermənilərin keçmiş siyasi qüdrətinin*

*və mədəniyyətinin əhəmiyyətini sübuta yetirən heç bir sənədin qorunub-saxlanmaması göstərir ki, onların heç nəyi olmamışdır. Bu onu göstərir ki, qədim ermənilər azsaylı vəhşi qəbilə üzvləri olmuşlar. Ermənilərin bədii yaradıcılığının son dərəcə miskinliyi də bununla əlaqədardır. Onların elmliliyi barədə danışmağına da dəyməz. Ermənilər mövcudluqlarının bütün dövrü ərzində heç bir orijinal şey meydana çıxara bilməmişlər."*

Onlarla xalq mahnılarımızı, milli xörəklərimizi, maddi və mədəni abidələrimizi öz adlarına çıxan ermənilərin bu hərəkətinin mahiyyətini anlaya bilməyən Ümid bu haqda söylənilən fikirləri toplayıb oxuduqca hər şey ona aydın olurdu. O, öz faciəsinə də bu tarixi həqiqətlər prizmasından baxmağa çalışır, bu nifaqın tarixi köklərinin çox qədimlərə getməyinin şahidi olurdu.

Tədqiqatçı **V.Yelixovskayanın** bu fikirləri məsələnin mahiyyətini anlamaqda Ümidə çox kömək eləmişdi: *"Dünyaya səpələnmiş ermənilər birgə yaşadıqları xalqların adətlərini, ənənələrini, geyimlərini tez mənimsəyirlər. Buna görə də Türkiyədə ermənini türkdən, İranda isə farsdan seçmək olmur."*

Ümid bu materialları səbrlə toplayır, dönə-dönə oxuyur və düşünürdü ki, həmin siyasət indi də davam edir. Yoxsa heç Xocalı faciəsi də baş verməzdi…

Dərd, ağrılar Ümidi tədqiqatçıya döndərmişdi. Əldə eləyib topladığı yüzlərlə faktlarla tanışlıqdan sonra öz-özünə düşünürdü ki, görəsən bunlardan 21-ci əsrdə yaşayan sivil insanların xəbəri yoxdurmu? Haqqın, ədalətin zəfər çalacağına ümidini heç zaman itirməyən Ümid qəlbinin dərinliyində günahkarın kim olduğunu anlayırdı. Ancaq onu da bilirdi

ki, gücsüzün söylədiyi həqiqət güclünün yalanları ilə mübarizədə çox acizdir hələ də…

"İt itin ayağını basmaz", "İtlə dostluq eləsən də, çombağını əlindən yerə qoyma" və sair bu tipli onlarca atalar sözləri baba-nənələrimizin, əcdadlarımızın zaman-zaman başına gətirilən müsibətlər haqqında az söz demirdi… Ümid yaxşı dərk eləyirdi ki, dövr, zaman dəyişsə də, müdrik ataların bu tipli qənaətləri öz aktuallığın indi də saxlayır. Onu da bilirdi ki, erməniləri türk dünyasının arasına soxan böyük qüvvələr birliyimizi həmişə pozmağa çalışıblar.

Dili bir, qanı bir, dini bir xalqı bir-birindən ayıran kimlər idi? Bəs erməniləri Qərbi Azərbaycanda, onun dilbər guşələrində məskunlaşdıranlar necə? Qərbi Azərbaycandakı qədim türk torpaqlarının hamısını ermənilərə hədiyyə edənlər əslində onlardan çox özləri haqqında düşünürdülər və indi də düşünürlər. Özlərini "sülhməramlı" kimi ortaya soxanların tarixi məramları indi də bu yeni pərdə altında davam edir… Allah axırını yaxşı eləsin. Bu cür dostu olana heç düşmən lazım deyil...

Ümidi narahat eləyən ayrı bir məsələ də var idi. Başı daşlardan daşlara dəyən, zəngin həyat təcrübəsinə malik bu insan  yaxşı bilirdi ki, hər xalqın öz namus, əxlaq meyarları var. Bu da təsadüfi deyildi. Çünki, o, namusa, ləyaqətə xüsusi önəm verən, "Namusi itə atdılar, o da yemədi", – deyən bir xalqın nümayəndəsi idi axı…

Bu xalqın əxlaqi meyarları onun müdrikliyindən, sözübütövlüyündən, ləyaqətindən, sülhpərvərliyindən, humanizmindən xəbər verib həmişə. Bir-birinin qəddar düşməni olan əsl Azırbaycan kişiləri qanını belə içməyə hazır olduqları düşmənlərini öz qadınlarının yanında heç vaxt alçaltma-

yıblar. Bu məsələ ilə bağlı o qədər saysız-hesabsız faktlar var ki, saymaqla qurtarmaz.

Uzaq getməyək, elə yaxın keçmişdə Qarabağda qan tökülməsın, faciələrin miqyası böyüməsin deyə qızışan, intiqam alovuyla yanan gənclərimizin ortaya atılan yaylığı tapdalayb keçməmələri çox önəmli, xalqın əxlaqi keyfiyyətlərini üzə çıxaran bir detaldır…

Bu sözləri arvadlarını başqa xalqların kişilərinə satan ilk "xalq" – ermənilər haqqında demək mümkündürmü? Dünyanın görkəmli, sayılıb-seçilən adamları bu haqda nələr deməyiblər?

Hələ bu bir yana, indinin özündə də hamı yaxşı bilir ki, bütün dövrlərdə ermənilər öz iyrənc məqsədlərinə çatmaq üçün qadın faktorundan istifadə ediblər. Hələ oxuduqları bir yana, həyatda gördükləri Ümidə bu fikirləri söyləməyə əsas verirdi ki, kişiləri "yan"lamaq, onların qılığına girmək "yan"ların əsas peşəsi olub zaman-zaman.

Elə uzaq getməyək, sovet dövründə idarə müdirlərinin əksəriyyətinin katibəsinin erməni qızlarının, qadınlarının olması hamıya məlumdur. Hələ başıboş müdirlərin əksəriyyəti onlarla ailə də qurublar. Erməni bətnindən çıxanlar öz cildlərini dəyişib maskalansalar da, indi də iş başındadılar, millətin başına turp əkməklə məşğuldular… Necə deyərlər, südlə girən sümüklə çıxar...

Ümid lətifə danışmaq hayında olmasa da, o vaxt eşitdiyi bir hadisəni xatırladı. Əslində bu lətifə deyildi, olmuş əhvalat idi. Ancaq hamı onu lətifə kimi danışar, ünvanı azdırardı... Çünki bu tipli "lətifə qəhrəmanları" o vaxt az deyildi...

Belə deyirdilər ki, idarələrin birinə təzə müdir təyin edirlər. Bütün təzə gələnlər kimi, o da yeniliyə öz kabinetindən başlayır, artıq olan əşyaları çıxartdırır, yerinə başqasını gətirirdi.

Elə birinci gün müdir işdən çıxıb evə getmək istəyəndə görür ki, milliyyətcə erməni olan katibəsi hönkür-hönkür ağlayır. Təəccüblənən müdir ondan soruşur:

– Ay xanım, niyə ağlayırsan?

Sualı eşidən qadın bir az da bərkdən ağlayır və yanaqlarından yaş axa-axa soruşur ki, müdir, məni nə üçün işdən çıxarırsan?

Müdir təəccüblənir:

– Nə danışırsan, ay qız? Mənim hələ kimsəni işdən çıxarmaq fikrim yoxdur.

Qadın nazlana-nazlana deyir:

– Müdir, əgər belə fikrin yoxdursa, otaqdakı divanı nəyə görə çıxartdırıb atmısan?

Ümid indinin özündə də ermənibaz müdirləri, erməniləri özlərinə həyat yoldaşı eləyənləri görəndə həmin lətifəyəbənzər hadisəni tez-tez xatırlamalı olurdu istər-istəməz...

Xocalı facisəni törədənlər bizim xalqın namus məsələsinə münasibətini bildiklərindən, yaralı yerimizə toxundular, gözümüzü qorxutmağa çalışdılar. Onlar bilirdilər ki, qorxmaz, döyüşkən, ölümün gözünə dik baxmaqdan qorxmayan millətin nümayəndələrinin yalnız bir qorxusu var: “Namus ləkəsi”… Bu ləkə isə yalnız qanla yuyulur…

Elə ikinci Qarabağ müharibəsində də ermənilər öz köhnə üsullarından, köhnə silahlarından istifadə eləməyə çalışdılar. Kişilərinin müharibədə biabırcasına uduzmaları

onları qadınlardan ibarət batalyonlar yaratmağa vadar elədi…

Şəlalə yarı kinayə, yarı zarafat ərinə dedi ki, ay kişi, bu əxlaqsızların qadın batalyonu yaratmaları məni yaman qorxudur. Bizimkiləri ram eləsə, bu batalyon ram eləyəcək…

Ümidin dodaqlarının səyridiyini, əllərinin əsdiyini görən Şəlalə sözünü malalamağa, onun qılığına girməyə çalışdı:

– Ay kişi, hirslənmə, vallah yandığımdan deyirəm bunu.

Ümid heç nə demədi. Ancaq ürəyinin dərinliyində arvadının dediklərində həqiqət olduğunu anladı və bu, onu bir az üşəndirdi də… Ancaq bir az toxtaqlıq tapdı ki, dövrün tələbi ilə vətənpərvərlik ruhunda tərbiyə alan cavanlar bizim buraxdığımız səhvləri yəqin ki, təkrar eləməzlər. Onlar ayrı dövrün uşaqlarıdılar… Tükü tükdən seçməyi, dostu düşməndən ayırmağı bacarırlar. Elə bu sonuncu müharibədə onların şir kimi döyüşmələri, xalqımızın əxlaqi meyarlarını nə dərəcədə uca tutmaları bir daha sübut olundu. Ermənilərdən fərqli olaraq onlar qocalara, qadınlara, uşaqlara, ümumiyyətlə aman diləyənlərin heç birinə əl qaldırmadılar, onları alçatmadılar, təhqir eləmədilər…

Televiziyada baxdığı bir səhnə Ümidi lap duyğulandırmışdı. Başlarını götürüb qaçan ermənilər nəinki taqəti olmayan qocaları, hətta uşaqları da atıb getmişdilər. Balaca bir uşaq tək qalmışdı. Azərbaycan əsgərləri ona mərhəmət göstərəndə, başını sığallayanda, yemək verəndə Ümid kövrəlmişdi. Özündən asılı olmayaraq demişdi:

– Bu biz, o da siz, ay insanlıqdan dəm vuran vəhşilər. Bizim əsgərlərin yerinə siz olsaydınız, o uşağın dərisin soy-

muşdunuz indi. Şaqqalayıb ətini ac itlərin qabağına atmışdınız...

Ən dəhşətlisi o idi ki, o şərəfsizlər öz qocalarına, uşaqlarına, yerdə qalıb üfunət iyi verən əsgərlərinin meyitlərinə belə sahib çıxmaq istəmirdilər... Bu qədər amansızlığı, şərəfsizlyi görənlərin matı-qutu quruyurdu... Onların özlərinin isə heç nə veclərinə deyildi...

Ermənilər erməniliklərindən əl çəkmək istəmirlər ki, istəmirlər. Gürcü yazıçısı **Serqi Sacaya** çox doğru deyirdi ki, ermənilər şir yox, güclü dövlətlərə qulluq göstərən çaqqallardır**.**

Ümidi hətta qələbədən sonra da narahat eləyən bu idi ki, bu çaqqallar yenə də öz çaqqallıqlarından əl çəkməmişlər... Onların sülhməramlıların qılığına girmək cəhdləri də bu narahatçılığın əsas səbəblərindən idi... Özünü dost göstərənlərə belə inanmaq istəmirdi Ümid.

Hələ uzaq tarix bir yana, Xocalı hadisələrini törədənlər 366-cı alayın əsgərləri və zabitləri deyildilərmi? İndi özlərinin imam, peyğəmbər övladları kimi göstərməyə çalışırlar... Ancaq Ümid onu da dərk eləyirdi ki, xalq da, onun rəhbəri də kimin kimliyini çox yaxşı bilir... Müharibə qələbə ilə bitsə belə, hələ görüləsi işlər çoxdur... Sərvaxt olmaq, ayıq olmaq, ehtiyatı əldən verməmək, öz hərbi qüdrətini artırmaq, iqtisadiyyatı gücləndirmək bu xalqa hava-su kimi lazımdır. Çünki kim güclüdürsə, o haqlıdır. Çünki qalibi mühakimə edən olmur...

***

Düşmən məğlubiyyətdən sonra da öz inadından, məkrindən əl çəkmirdi. Müqaviləyə əsasən Qarabağda bir nəfər də olsun əlisilahlı erməni əsgəri olmamalı idi. İlk nəzərdə bu

müqaviləyə əməl olunurdu. Ancaq müqavilənin şərtlərini gizli şəkildə pozub hər an təxribat törətməyə hazır olanlar tülki kimi pusquya yatıb məqam gözləyirdilər. Onlar həm də sülhməramlılara arxayın idilər. Ağdərədə, Xocavənddə quruculuq işlərinə maneçilik törədirdi bu rəzillər... İşıq xətlərini, yolları, digər komunikasiya xətlərini bərpa eləmək istəyənləri snayper hədəfinə çevirirdilər. Ərazinin demək olar ki, hər yeri minalanmışdı.

Elə Vüsal da, Elşən də bu ərazidə minaya düşüb həyatlarını itirmişdilər. Bu, bir ailənin faciəsi idi... Ümid də, Şəlalə də, Ümidə də göz yaşlarına hakim ola bilmirdilər. Ancaq el ilə gələn qada-bala toy-bayramdır deyiblər. Şəhidlər xiyabanına dəfn olunmaq üçün o qədər gül üzlü, el demişkən "bığ yeri təzəcə tərləmiş" balalar gətirirdilər ki, ağrının böyüklüyündən adamın öz şəxsi kədəri də yadından çıxırdı...

İntiqamın isə doğmalarının qəhrəmancasına həlak olmasından xəbəri yox idi hələ. Ancaq burada qeyri-adi bir şey də yox idi. Müharibəyə gedənlərin heç biri şəhid olmaqdan qorxmurdu... Hamı öz canını ana vətən yolunda qurban verməyə hazır idi...

Azərbaycan ordusunun igid döyüşçüləri qarlı bir gündə tülkü kimi marıqda yatan erməni quldurlarının dərsini verdilər. Təslim olmayanlar öldürüldü. O birilər isə silahlarını atıb yalmanmağa, yalvarmağa başladılar. Düşmən döyüşçüləri əsgərlərimizin qarşısında suyu süzülmüş cücəyə dönmüşdülər. Onların bu görkəmini görən komandirin üzünə acı bir təbəssüm qondu. Əsir düşən ermənilərə əmr elədi ki, "Cücələrim" mahnısının oxusunlar... Cücəyə

dönmüş rəzillərə, qorxaqlara bu mahnı elə yaraşırdı ki... Ləzzətli, həm də ibrətamiz bir tamaşa idi...

Əsgərlərdən biri söz atdı:

– A şərəfsizlər, bizi görməyəndə xoruzlanırdınız, nə oldu bəs? İndi lap yoluq cücəyə dönmüsünüz ki!

Təkcə düşmən əsgərləri yox, onları məqsədli şəkildə bura göndərənlər də cücəyə dönmüşdülər. Onların hərbi əsirlər kimi geri almaq istəyənlərin ümidləri gözlərində qaldı. Məntiq qarşısında aciz qaldılar. Onlardan soruşuldu ki, əgər bunlar təxribatçılar yox, hərbiçilərdilərsə, niyə müqavilə vaxtı bitəndən sonra Qarabağı tərk etməyiblər?

Ermənilərin bu oyunlarının mahiyyətini təkcə siyasətçilər yox, adi insanlar da anlayırdılar. Başı daşdan-daşa dəyən, ermənilərin hər üzünə bələd olan Ümid həmişə dediyi sözü tez-tez xatırladırdı: “Harda erməni toxumu varsa, mütləq orda münaqişə cücərməlidi. Ta buna şəkkin-şübhən olmasın. Dünyanın hər yerində törənən terrorun arxasında bir erməni barmağı var...”

Sapı özümüzdən olan baltalar isə Ümidi lap yandırıb yaxırdı. Deyirdilər ki, başqa millətin nümayəndələri ilə evlənməkdə qəbahət yoxdur. Buna şəriətimiz də icazə verir. Ancaq bəla burdadır ki, bunların arvadları müsəlmanlığı qəbul etməkdənsə, özləri erməniliyi qəbul eləyiblər, erməni dəyirmanına su tökməklə məşğuldular... Gör bunlardan törəyənlər nə olacaq hələ?

XIV fəsil

## ZƏFƏR YOLU

44 günlük müharibənin uğurları hamını, hamını sevindirirdi. Ancaq bu qələbə necə qazanılmışdı, bu qələbə hansı qurbanlar bahasına əldə edilmişdi, bunu o hadisələrin içində olanlar daha yaxşı bilirdilər. 44 günlük müharibənin 44 günlük zəfər yürüşündən, Azərbaycan oğullarının dillə ifadə eləmək mümkün olmayan qəhrəmanlığından, mərdliyindən, qeyrətindən, hünərindən 44 il fasiləsiz yazsan belə deməyə sözün tükənməz. 44 günlük müharibənin ağrısını, acısını, məşəqqətini, əzabını, onun ürəklərə vurduğu yaranı 44 ilə sağaltmaq da mümkün olmayacaq yəqin ki... Ancaq qələbə sevinci, azğın düşməndən intiqam almaq rahatlığı, namus və qeyrətin, xalqın şərəf və ləyaqətinin qorunması, torpaqlarımızın azad olunması xəbəri gözəgörünməz sehrli məlhəmə dönmüşdü xalqın yaralarının üstündə. Ümumi, böyük qələbə fərdi ağrıları, fərdi itkilərin əzabını arxa plana keçirmişdi...

"Mənə başsağlığı vermək üçün gəlmisinizsə, çıxın bu evdən, şəhid anası olduğuma görə gözaydınlığı vermək, təbrik etmək istəyirsinizsə, xoş gəlmisiniz", – deyən şəhid anaları necə vüqarlı, necə müdrik, necə uzaqgörən imiş, ilahi! Onların qarşısında necə baş əyməyəsən, onların əlindən necə öpməyəsən! Vətəni Vətən eləyən, onu alınmaz bir qalaya çevirən təkcə oğullarımız deyil, həm də ləyaqətli analarımız, bacılarımızdır...

Könüllü şəkildə müharibəyə gedən, şəhidliyi gözünün altına alan cavanlarımızın böyük əksəriyyətinin "bax, mən ölsəm, ağlamayın, ha" söyləmələri də təsadüfi deyildi...

Ailəli cavanların müharibəyə getməmişdən əvvəl uşaqları ilə oynayıb bunu videoya çəkdirməsi də nəzərə alınası faktlar sırasındadır... Kiçik oğullarına “Bax, mən Vətəni qorumağa gedirəm, sən də evdə ananı, bacını qoruyarsan” – deyənlər də az deyilmiş...

Qələbəni şərtləndirən amillər çox idi. Ən əsas amillərdən biri isə o idi ki, Azərbaycan xalqı, Azərbaycan dövləti öz torpaqlarını azad etmək üçün peşəkar döyüşçülər yetişdirmişdi. Bu günün əsgəri ilə 30 il bundan əvvəlki əsgərin arasında zəmin-asiman fərq var idi peşəkarlıq baxımından.

Bir vaxt 20 Yanvar şəhidlərinin məzarlarının üstünə qoylan gülləri götürüb döyüşə gedən igidlərimiz nə qədər vətənpərvər, cəsur olsalar belə, Daşaltıda pusquya salınıb öldürülmüşdülər. Buna bir tərəfdən sıralarımızda olan xainlər səbəb olmuşdusa, bir tərəfdən də hərb elminin sirlərini bilmədən döyüşlərə atılmaq uğursuzluğa səbəb olmuşdu... İndi isə Azərbaycan ordusunun Hikmət Mirzəyev, Mais Bərxudarov kimi peşəkar generalları var idi. Onların böyük peşəkarlıqla, incəliliklərinə qədər hazırlanmış döyüş planlarını yerinə yetirən zabitlər, əsgərlər də peşəkar idilər...

Ümid müharibədən sonra qazilərin xatirələrini dinləyir, elə bilirdi ki, onlarla birlikdə cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə o da iştirak etmiş, o da yaralanmışdır.

Budur, o qəhrəman, vətən sevdalı döyüşçülərdən biri danışır. Minaya tuş gəlməmək üçün gecələr onların çay yuxarı necə hərəkət etmələri səhnəsini öz gözləri ilə görürdü elə bil Ümid əsgər danışdıqca... Onların kəşfiyyata gedərkən sıldırımlı dağlarla necə hərəkət etmələri, qalxmaları,

enmələri əsl möcüzə idi... Hələ silahların, sursatların ağırlığı... Ancaq kəşfiyyatçılar bu ağırlığı çiyinlərində vətənin haqqı kimi daşıyırdılar və bu düşüncə işlərini xeyli dərəcədə asanlaşdırırdı onların...

Beş-altı, on-on iki nəfərlik qruplar çəkinmədən düşmən mövqeyinə girir, onların hərəkətlərini izləyir, əsas hədəflərin koordinatlarını ötürürdülər mərkəzə... Səhərisi gün dəqiq artilleriya zərbəsi ilə düşmənin külü göyə sovrulurdu... Nə qədər çətinliklər çəksələr belə, dizlərini qayalar çapsa da, sıldırıma dırmanmaqdan əlləri, barmaqları qan içində olsa da, düşmən snayperinin gözlənilməz güllələrinə tuş gəlsələr belə, qələbə həzzi onları bütün ağrıları, acıları unutdururdu... Qəribə idi, bu həzzin ömrünü bir az da uzatmaq üçün döyüşçülər müharibənin də tezliklə bitməsini heç istəmirdilər. İstəyirdilər ki, düşmən ordusunun daşını daş üstündə qoymasınlar...

Ölüm-dirim müharibəsində göstərdikləri qəhrəmanlıqdan çox döyüşçülərimizin xarakteri, mərdliyi, düşüncə tərzi duyğulandırırdı Ümidi. Telefonla danışıb kiçik qardaşına vəsiyyət eləyən, “mən ölsəm, övladlarıma həyan ol” deyən igid qardaşının da həmin zaman döyüşdə olduğunu bilib çox qürurlanmışdı... Ataları, dayıları Birinci Qarabağ müharibəsində şəhid olan bu oğullar o şərəfli yolu davam etdirmək əzmində idilər. Qardaşlardan biri yaralanmışdı, o birisi isə çoxlu düşmən gəbərtsə də, sağ-salamat evinə, ailəsinin üstünə qayıtmışdı. O, deyirdi ki, indiyədək atamın, dayımın qəbrini ziyarətə gedəndə onlardan utanırdım elə bil. İndi isə şax gedirəm, vüqarlıyam. Bilirəm ki, atamın da, dayımın da ruhu şaddır. Onların getdiyi döyüş yolunu biz davam etdirmişdik, onların torpağı azad etmək, Xocalının intiqa-

mını almaq arzusunu biz reallaşdırmışdıq... Cəbrayıl Dövlətzadə adlı bir gəncin erməni generalını boğub öldürməsi xəbəri qəhrəmanımızın illərdən bəri qövr eləyən ürəyindən tikan çıxarmışdı elə bil... Onun arzuladığını bu cavan yerinə yetirə bilmişdi...

Bu cür igidlərin çoxluğu Ümidi qürurlandırır, onun xalqın gələcək taleyinə inamını artırırdı... Deyirdi ki, halal olsun igidlərimizə, bizim görə bilmədiyimiz işləri onlar gördülər. Var olsunlar ki, hamımızı xəcalətdən xilas elədilər...

***

Müharibə bitmişdi... Ancaq gözləri yollara dikilən nigaran anaların, bacıların ürəyi səksəkədə idi... Hamı döyüşlərdən zəfərlə çıxan övladını, qardaşını, sevgilisini, atasını sinəsinə muştuluq kimi sıxmaq arzusuyla yaşayırdı... Ancaq sən saydığını say deyib atalar...

Qarabağdan ölkənin kəndlərinə, şəhərlərinə bayraqlarla bəzədilmiş küçələr, yollar uzanırdı... Əlində bayraq döyüşə gedənlərin bir qismi o bayraq örtüklərin altında doğulduqları kəndlərə, şəhərlərə qayıdırdılar... Adamlar bu bayraqları çiyinlərinin üstünə qaldırıb ölkənin müqəddəslik, qeyrət rəmzinə çevrilən şəhidlər xiyabanına aparırdılar.

Qarabağdan ölkənin ayrı-ayrı kəndlərinə, şəhərlərinə bayraqlarla bəzədilmiş yollar uzanırdı... Bayraq örtüklərin altında, çiyinlərin üstündə yol gedirdi şəhidlər... Xalqın sonsuz sevgisi, ehtiramı onların ruhunu şad eləyirdi...

***

Şəlalə ana döyüşdən zəfərlə qayıdan oğlunun qarşısına yüyürdü, onun boynuna sarılb öpdü, öpdü… Sevinc yaşları oğlunun üzündə çaya döndü… Ümidləri, arzuları çin olan

Ümid kişi də oğlunun qarşısına qaçmaq, onun boynuna sarılmaq, təşəkkürünü bildirmək istədi. Ancaq ayaqları sözünə baxmadı kişinin. Oğlunu çağırmaq istədi. Səsi çıxmadı. Həyəcandan onun ayaqları da, dili də tutulmuşdu elə bil…

Handan-hana özünə gələn İntiqamın gözləri uzaqda heykəl kimi dayanan atasına sataşdı. Kişi elə bil qəm heykəliydi… Üzünün hər qırışından ağrılar boylanırdı... Bəmbəyaz saçları Xocalının ucsuz-bucaqsız qarlı düzlərindən rəng almışdı elə bil. Yol çəkən gözləri harasa uzaqlara baxır, baxırdı… Bu gözlərin önündə qarlı, qanlı mənzərələr canlanırdı. Qulaqlarına vay-şivən səsləri gəlirdi…

İntiqam atasının yanına qaçdı. Onu qucaqladı. Öpüşlərə qərq elədi. Gözaydınlığı vermək istədi… Ümidin isə elə bil qolları da tutulmuşdu, sözünə baxmırdı ki, oğlunu qucaqlasın…

…Ayaqları, dili tutulan Ümidin qollarına girib onu içəri apardılar, çarpayısına uzatdılar… Şəlalə qorxdu ki, kişinin beyninə qan sızmış olar… Ancaq həmin anda heç ağlına da gəlmədi ki, Ümidin yaraları otuz ildi ki, qan verir… Otuz ilə yaxındı ki, Ümid şam kimi yanır, əriyir, gözlərindən ipisti damlalar düşür yerə… Otuz ilə yaxındı ki, Ümidin küskün baxışları bütün dünyaya dilsiz üsyan eləyir…

***

Azərbaycan əsgərinin hünər və şücaəti qarşısında diz çökən, məğlubiyyət aktına qol çəkən düşmənin torpaqları sahiblərinə qaytarmaqdan başqa çarəsi yox idi. Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Bu xəbəri Ali Baş komandanın dilindən eşidən Ümid özünü ağlamaqdan saxlaya bilməmişdi. Bu, adi sevinc ağlaması deyildi, könüllər yaxan, yeri-

göyü silkələyən bir üsyan hönkürtüsü, zəfər himni idi elə bil.

10 noyabrda imzalanan sənədə əsasən Kəlbəcər, Ağdam, Laçın boşaldıldı, Azərbaycan ordusuna təhvil verildi... Laçın dəhlizi ilə şivən qopara-qopara öz xarabalarına qayıdan ermənilər sözün həqiqi mənasında həyasızlıq eləyir, ah-nalə qoparırdılar. 27 il özgənin evində yaşayanlar hər şeyi söküb aparır, evlərə od vurub yandırırdılar.

Əslində yanıb külə çevrilən təkcə azərbaycanlıların evləri deyildi, xəbis, məkrli niyyətləri gözlərində qalan ermənilərin arzuları, xam xəyalları idi... Bizimkilər yenə humanistlik eləyirdilər. Azərbaycanlıları 27 il əvvəl qırıb-çatan, sağ qalanları ayaqyalın, başıaçıq qarlı düzlərlə qovanlar indi maşınlara dolub rahatca geri qayıdırdılar. Ancaq hikkələrindən ürəkləri partlayırdı, həyasızlıq eləyirdilər, bütün günahları bizimkilərin üstünə atmaq cəhdi göstərirdilər. Kimin kimliyini aydınca görürdü dünya...

27 il öz yurdundan ayrı düşən, valideynləri gözlərinin qarşısında öldürülən o dövrün uşaqları bu dövrün müzəffər əsgərləri kimi qayıdırdılar öz el-obalarına. Xarabaya çevrilmiş evlərinin görüşünə dizin-dizin sürünərək gedən insanlara həyəcansız baxmaq olmurdu... Adamlar öz həmkəndlilərinin uçulub xarabazara çevrilmiş evlərinin video görüntüsünü çəkib yurd yerlərinin sahiblərinə göndərirdilər...

Bu videolara göz yaşlarını boğa bilməyən, kövrələn, ağrılar içində belə özünü xoşbəxt sanan nə qədər insan baxırdı... Bu videolar dost-tanışa göndərilir, sosial şəbəkələrdə paylaşılırdı... Ümid bu videolara baxanda kövrək səslə deyirdi ki, İlahi, bu vaxta qədər Azərbaycan torpağının,

dağlarının, dərələrinin, çaylarının, bulaqlarının gözəlliyini indiki qədər duymamışıq... İgidlərin qanı bahasına geri qaytarılan bu torpaqları cana gətirmək, şəhərləri, kəndləri bərpa etmək, vətəni yenidən gülüstana, Cənnətin bir guşəsinə çevirmək hamımızın, hamımızın borcudur indi...

Ancaq qarşıda o qədər işlər durur ki, hələ... O qədər xarici köpəklər xalqımızın taleyinə mırıldayır ki, hələ... Ancaq hər şey, hər şey gücə tabedir... Nə qədər hürsələr, zingildəsələr belə quduz köpəklərin boynuna zəncir vurub Azərbaycan əsgərləri... Ancaq onlar indən belə babaların bu sözünü gərək heç vaxt unutmasınlar ki, itlə dostluq eləyənin gərək çombağı həmişə əlində ola... Əslində daha dostluqdan keçib. O xainlərin iç üzünü görənlər heç vaxt dostluğa can atmazlar. Ancaq bir danılmaz həqiqət də var ki, onlarla qonşuluq şəraitində yaşamağa məhkum edilmişik...

Müharibə qələbə ilə bitsə də, onun söz-söhbəti hələ də bitmək bilmir ki, bilmir... Çox qaranlıq mətləblərin üstü açılıb. Ermənilərі bütün tarix boyu silahlandıranların özləri də məğlub olublar əslində... Ancaq onlar öz sülhməramlı libaslarında belə altdan-altdan yeni nifaqlar üçün zəmin hazırlayırlar... Onlar üçün kimin qalib, kimin məğlub olması o qədər də önəm kəsb eləmir. Ancaq önəmli olan bir şey var ki, onlar Qarabağı həmişə münaqişə ocağı kimi saxlamaq istəyirlər. “Parçala, hökm sür” siyasəti indi başqa bir tarixi şəraitdə altdan-altdan davam etdirilir. İndi bunu təkcə siyasətçilər yox, böyükdən kiçiyə hamı bilir...

Rəzillər həyasız-həyasız ən dağıdıcı silahları müzakirə eləyir, bizə “xox gəlmək” istəyirlər yenə də... Özü də gizli yox, açıq-açığına müzakirələr gedir... Bu söhbətləri eşidəndə adamın üzünə acı bir təbəssüm qonur. Açıq-açığına

düşmənçilik eləyəndən daha qorxuludur pambıqla baş kəsənlər, sənə dost deyib, özgə dəyirmanına su tökənlər...

Bunların "İsgəndər"ləri də elə bizm Mirzə Cəlilin yaratdığı Kefli İsgəndər kimi bir şey imiş sən demə… Müharibə qələbə ilə bitib, bunların "İsgəndər" davası bitmir ki, bitmir. Biri deyir ki, "İsgəndərlər" keyfiyyətsiz idi, atırdıq, partlamırdı. İnsanları məhv eləmək üçün düşməni "İsgəndər"lə silahlandıran isə deyirdi ki, sən mənim silahıma şər atma. Bu silah yeri-göyü məhv eləmək gücündədi. Sadəcə sən onu vaxtında atmalı idin…

İşə baxın, "sülhməramlı" düşməni silahlandırmağını heç gizlətmir də… Aydınca görünür ki, nə qədər günahsız insanın qırılması, məhv edilməsi onun üçün əhəmiyyətli deyil, ən əhəmiyyətlisi silahın dağıdıcı gücünü nümayiş etdirmək, ölkələrə "xox gəlmək"dir… Ancaq onlar unudurdular ki, indi Azərbaycan ordusu 90-cı illərin əvvəlinin ordusu deyil…

İllər, aylar, qərinələr boyu müsəlmanı silaha yaxın qoymayan, əsgərlikdə onları tikintidə, mətbəxdə işlədənlərin ağlına da gəlməzdi ki, Azərbaycan oğulları nə vaxtsa hərbin sirlərinə mükəmməl yiyələnəcəklər.

Hərbi güc, hərbi texnika, hərbi məharət vətən sevgisi ilə yoğrulanda onun qarşısını heç nə ilə almaq mümkün olmayacaqdı… Bunu 44 günlük müharibə də əyani şəkildə sübut elədi… Düşmənlər və onun havadarları gördülər ki, Artıq Azərbaycan əvvəlki Azərbaycan deyil. O, inkişaf edir, ayağa qalxır, dirçəlir, dost-düşmənini tanıyır...

***

Müharibədən sonra işğaldan azad edilmiş torpaqlarımız minalardan təmizlənirdi... Əsgərlərin özlərinin çəkib göndərdikləri videolara baxan Ümid və onun kimilərin ürəyindən qara qanlar gedirdi. Peşəkar çəkilişlər ümumi mənzərəni, faciənin miqyasını göstərmək baxımından daha əhəmiyyətli görünürdü Ümidə... Bir-bir işğaldan azad edilmiş kəndlərin, şəhərlərin ürək göynədən mənzərələrini verirdilər televiziyalar...

Alçaqlar daş üstündə daş qoymamışdılar. Evləri talan eləyəndən, var-dövlətimizi oğurlayıb daşıyandan sonra yerdə qalan nə var idisə, uçurub dağıtmışdılar. Şəhərləri, kəndləri, evləri, məhlələri, küçələri tanınmaz hala salmışdılar. Ağacları kəsmişdilər, meşələrimizi talan eləmişdilər...

Gördüklərindən dəhşətə gələn insanlar düşünürdülər ki, doğrudanmı dünya ictimaiyyəti bu hadisələrə göz yumacaq? Ümid yana-yana deyirdi ki, bu müsibətləri ermənilərin başına biz gətirmiş olsaydıq, indi bütün dünya ayağa qalxmışdı, türkləri qəddar, qaniçən adlandırmışdılar. İndi isə bu vəhşilikləri öz gözləri ilə görən, ayrı vaxt haqq-ədalətdən, insan hüquqlarından dəm vuranların heç tükü də tərpənmirdi elə bil...

Səfirliklərin nümayəndələrinin tez-tez dağıdılmış şəhərlərə, kəndlərə aparılması faciəni bütün dünyaya çatdırmaq missiyasını yerinə yetirirdi. Bunun çox böyük əhəmiyyəti var idi... Ancaq adamı yandıran o idi ki, bizdən erməni tərəfə atılan hər güllənin haqq-hesabını soruşanlar, dillərini soxmuşdular qarınlarına. Jurnalistlər qır-saqqız olub belələrindən söz qoparmaq istəsələr də, məqsədlərinə nail ola bilmirdilər. Ermənilərin havadarları burda da susmağa

üstünlük verirdilər... Ancaq Ümid ümid eləyirdi ki, gec-tez bu sükut pozulacaq. Çünki dünya yaxşı adamlardan xali deyil. Haqq-ədalət əvvəl axır öz yerini tutacaq.

İnsafən, haqq işimizi dəstəkləyənlər də az deyildi. Onlar açıq-aşkar gördüklərindən dəhşətə gəldiklərini söyləyir, erməni vandalizmini pisləyirdilər. Çox şeydən xəbərsiz dünya ictimaiyyəti artıq kimin kimliyini görürdü istər-istəməz. Xalq demişkən, cidanı çuvalda gizləmək mümkün deyildir...

Bir yəhudi qadının dünyasını dəyişən ərinin gözlərini donor kimi gözləri tökülən bir azərbaycanlı döyüşçüyə hədiyyə verməsi hamı kimi Ümidi də çox duyğulandırmışdı. Bu jestin əvəzi yox idi... Düşmən də, dost da dar gündə bilinir. Yaxşı insanlar yaşamağa stimul verir həmişə...

Ancaq Ümid onu da bilirdi ki, bu xəmir hələ çox su aparacaq... Neçə ki, belə nankor, rəzil qonşularımız var, neçə ki, onları dəstəkləyənlər var, bizə rahatlıq olmayacaq... Bu münaqişə nəsil-nəsil davam eləyəcək... "Parçala, hökm sür" siyasətini yürüdənlərə də bundan artıq daha nə lazımdı ki?

Ancaq Ümid onunla təskinlik tapırdı ki, artıq dünya dəyişib. Yeni reallıqlar meydana gəlib. Xalq öz həqiqi dostunu və düşmənini yaxşı tanıyır... İndi arxamızda qadir Türkiyə dayanır. İndi Pakistan kimi haqq işinə qahmar çıxan ölkələr var... Əlbəttə, sapı özümüzdən olan baltalar da az deyil. Düşmən dəyirmanına gizlicə su tökən bəzi müsəlman dövlətləri əsl müsəlman olsaydılar, haqqın tərəfini saxlayardılar, nahaqqın yox. Onlar müsəlman olsaydılar, cəhənnəm odunda yanmaqdan qorxar, haqlı olan müsəlman qardaşlarının tərəfini saxlayardılar...

Ancaq yaxşı ki, dilindən, dinindən asılı olmayaraq haqqın tərəfini saxlayanlar da az deyilmiş yer üzündə... Məsələnin mahiyyətindən yavaş-yavaş xəbərdar olan beynəlxalq ictimaiyyətin yavaş-yavaş haqqın tərəfini saxlaması da bu günün reallığı idi...

***

Ümid müharibədən sonra şəhidlər haqqında verilən verilişlərə baxdıqca həm ürəyindən qara qanlar gedir, həm də qürur duyurdu... Bəşəriyyəti fəlakətə sürükləyən, insanlar, xalqlar arasında nifaq toxumu səpənlər onsuz da cəhənnəmlikdilər. Ancaq onlar elə bu dünyada da öz acgözlükləri, murdar əməlləri ilə bütün bu qanların, qadaların, müharibələrin səbəbkarına çevrilirlər. Nə özləri adam kimi yaşayırlar, nə də başqalarını adam kimi yaşamağa qoyurlar...

Xaraba şəhərlər, kəndlər, dağıdılan müqəddəs məbədlər, ölən igidlər, övlad dağı çəkən valideynlər, sevib-sevilmək, dünyadan həzz almaq vaxtında ərsiz qalan gəlinlər, ata nəfəsinə, ata nəvazişinə, ata qayğısına əbədi tamarzı qalan uşaqlar müharibənin yadigarlarıdır...

Birinci Qarabağ müharibəsində atasını, anasını, sevimli həyat yoldaşını, oğlunu, qızını, bütün qohumlarını itirən Ümid İkinci Qarbağ müharibəsində uşaq evindən götürüb adını Ümidə qoyduğu qızlığının doğma qardaşını – Elşəni, kürəkəni Vüsalı itirmişdi... Utandığından bir zaman evinə təzə həyat gətirən, bu ailənin yenidən dirçəlməsi üçün Uğur mələyinə çevrilən Ümidənin yol çəkən nəmli gözlərinə, üzünə baxa bilmirdi Ümid... Hardasa özünü də günahkar sayırdı... Öz-özünə deyirdi ki, bəlkə də bu qızı mən yox, başqa bir xoşbəxt taleli insan övladlığa götürsəydi, heç yazığın başına da bu müsibətlər gəlməzdi...

İnsan gec, ya tez öz taleyi ilə barışmalı olur... Ümidə də atasının əzab çəkdiyini görürdü. Ürəyindən qara qanlar getsə də, atasının – Ümidin üzünə təbəssümlə baxmağa çalışırdı, gününün çoxunu öz evində qalmır, oğlunu da götürüb atasının evinə gəlirdi... Dərdi bir yerdə çəkəndə bir az yüngülləşir elə bil...

Yeni il axşamı idi... Ancaq bu yeni il əvvəlkilərə bənzəmirdi... Onlar əllərində gül Şəhidlər xiyabanında uyuyan Vüsalın və Elşənin qəbrini ziyarət eləməyə getmişdilər... Gözlərinə inanmadılar... Burada o qədər adam var idi ki, iynə atsan yerə düşməzdi...Bayraqlar dalğalanır, cavanlar bir ağızdan deyirdilər: "Şəhidlər ölməz, Vətən bölünməz"..

Xalqın bu sayğı və ehtiramı Ümidi çox kövrəltmişdi. Elə bil ayaqları da tutulmuşdu, yeriyə bilmirdi. Bunu hiss eləyən Ümidə atasının qoluna girdi... Birlikdə irəli gedib gətirdikləri gülləri Elşənlə Vüsalın qəbrinin üstünə qoymağa tələsdilər. Ancaq o qədər adam var idi ki, irəli yeriyə bilmədilər. Gülləri elə yaxınlıqdakı şəhid məzarlarının üstünə qoydular.

Ümid dərk elədi ki, burda mənim, sənin söhbəti yoxdu... Hər bir şəhid kimliyindən asılı olmayaraq hamının övladı kimi bütün xalq üçün doğmadır, əzizdir... Qələbə sevincimiz də ümumidi, kədərimiz də...

Onlar Şəhidlər Xiyabanından evə qayıdanda artıq köhnə il öz yerini təzə ilə təhvil verməyə hazırlaşırdı. Ümid divanın üstündə əyləşsə də, fikri uzaqlarda idi... Əlli dərənin suyu bir-birinə qarışmışdı xəyalında...

Elə bu vaxt nəvəsi, Ümidənin oğlu babasının yanına gəlib dedi:

– Ay baba, deyəsən Şaxta baba da şəhid olub, bu il heç bizə hədiyyə gətirmədi...

Kişinin bütün bədəni titrədi. Şəlalə ananın gözləri bahar buluduna döndü qışın bu oğlan çağı...

Ümidə hönkürtü ilə ağladı. Nə Şəlalə, nə də Ümid ona təskinlik vermək gücündə deyildilar. Onların da gücü elə göz yaşlarına çatırdı...

Gecəni dirigözlü açdı Ümid də, Şəlalə də. Ümidə qızlarından çox narahat idilər. Qorxurdular ki, bu talesiz qız həyat yoldaşının, doğma qardaşının itkisinə tab gətirə bilməyə. Şəlalə pıçıltı ilə ərinə deyirdi ki, bu qız havalanmasa yaxşıdır... Qızın gözlərini içinə baxmağa da qorxurdu Ümid. Elə bilirdi ki, bütün bu müsibətlərin səbəbkarlarından biri də elə onun özüdür...

Səhər Ümidə hamıdan tez yuxudan durmuşdu. Çay süfrəsi düzəltmişdi. Uşaqlar hələ yuxudan oyanmamışdılar. Ümid qızı ilə söhbətləşməyə, onu ovundurmağa məqam gəzirdi... Ancaq söhbəti hardan, necə başlayacağını bilmirdi...

Ümidə atasının köməyinə çatdı:

– Ay ata, yuxumda Elşənlə Vüsalı gördüm. Onların ikisi də məni danladılar. Bilirsən nə dedilər? Dedilər ki, biz ona görə şəhid olmamışıq ki, ömrünüz boyu yasımızı saxlayasınız, uşaqlarımızı əylənməyə qoymayasınız. Biz özümüzü ona görə qurban verdik ki, siz rahat, xoşbəxt yaşayasınız...

Ümid doluxsundu. Qızına bir cavab verə bilmədi. Ancaq ürəyinin dərinliyində bu yuxuda söylənilənlərə haqq qazandırdı. Ataların "ölən ilə ölmək olmaz" kəlamının mənasını elə bil indi anladı. Özünə də söz verdi ki, indən

belə nikbin olmağa çalışacaq, nəvələrinin kədərli olmalarına imkan verməyəcək...

Həyat davam eləyirdi... Dədə Qorqud təsadüfi demirdi ki, "Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya"... Ancaq Ümid onu da dərk eləyirdi ki, nə dünyanın, nə də dərdin, kədərin sonu yoxdur... Ancaq nə yaxşı ki, gedənlərin yeri boş qalmır. Nə yaxşı ki, nəsillər bir-birini əvəz eləyir...

...Müharibə bitmişdi, düşmən məğlubiyyət sənədinə imza atmışdı... Suallar isə bitmək bilmirdi ki, bilmirdi... Hələ qarışda keçilməsi o qədər də asan olmayan ağrılı-əzablı yollar dayanırdı ki... Bəlkə də, daşı daş üstə qalmayan bu qədər xarabalıqları çox sürətlə bərpa edə bildik. Ancaq insanların ürəyinə vurulan yara o qədər dərin idi ki, bu dağıdılmış yurd yerləri onların yanında lap toya getməli idi... Hər şeyə çarə var bu yer üzündə, bircə ölümdən başqa...

Ümid onu da yaxşı bilirdi ki, 44 günlük zəfər yürüşü 200 ildən çox sürən bir müharibənin davamı, yekunu idi... Axır ki, xalqımz 200 illık əzabların, ağrıların haqq-hesabını çəkmişdi bu qırx dörd gündə...

Bu müharibə ikiqat önəm kəsb eləyirdi. Əslində bu qalibiyyət təkcə düşmənlərimizin yox, onların havadarları üzərində də qələbəmiz idi. Bunu düşmənlərin özləri də etiraf edirdilər...

Yerevanda keçirilən mətbuat konfransında Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi, general-polkovnik Movses Akopyanın çıxış edərkən söylədiyi bu sözlər çox qaranlıq mətləblərin üstünə işıq saçır: *"Rusiya müharibə dövründə Ermənistana tələb olunan bütün silahları, hətta daha artığını çatdırırdı. Rusiya müharibənin ilk günlərindən Ermənistana elə silahlar çatdırırdı ki, biz bu haqda xəyal belə edə bilməzdik. Bunlar Ermənistanın*

*hökumət rəhbərinin Rusiya prezidenti ilə danışığından əvvəl edilirdi"*...

Ümid deyinirdi:

– Bu da rəsmi adamın rəsmi etirafı. Biz danışsaydıq, deyəcəkdilər ki, camaat ağzına gələni danışır...

Əslində "ağzına gələni danışan" camaat çox şeyi bilirdi, çox mətləblərdən xəbərdar idi. Ancaq "qara" camatın, sıravi insanların dediklərinə məhəl qoyan kim idi ki... Həmişə döyülən də, söyülən də, əzab çəkən də elə sadə insanlar olur...

O vaxt ermənilər Qarabağın işğalını lovğa-lovğa "Dağlarda toy" adlandırmışdılar. 28 ildən sonra Azərbaycan ordusu onlara elə bir toy tutdu ki, səsi, sədası bütün dünyaya yayıldı...

Bəlkə də bu qalibiyyət, zəfər, illərdən bəri bütün xalqın həsrətlə gözlədiyi qələbə olmasaydı, saysız-hesabsız itkilərin, yaraların, ağrıların, əzabların göynərtilərinə dözüb yaşamaq da mümkün olmazdı...

Bəşəriyyətin keçdiyi yol ağrılar, əzablar, qazanclar, itkilər, məğlubiyyətlər, zəfərlər tarixidir. Əsrlər boyu Xeyirlə Şər amansız mübarizə aparıb... Şər nə qədər güclü olsa da, Xeyir əvvəl-axır qalib gəlib həmişə... Bu mübarizə isə bitməyib, hələ də davam eləyir...

Yolumuzu gözləyən Zəngəzura yaxınlaşdırdı bizi bu qələbə... Nə qədər əlimizdən alınıb yadların əsarətində qalan yurd yerlərimiz, torpaqlarımız var hələ... Qarşıda hələ mübarizələrlə dolu illər, qərinələr, əsrlər var...

Hər şey axır, hər şey dəyişir... Zamanın qatarı isə dayanmadan üzü gələcəyə sarı yol gedir...

# EPİLOQ

Ömür zülmətlərin, ağrıların, əzabların içindən keçən bir yoldur. Bu yolu keçmək o qədər də asan məsələ deyil. Hamı həyatın sınağından alnıaçıq, üzüağ çıxa bilmir. Kimin ki, ürəyində ümid işıqları yanır, ən qatı zülmət belə bu insan üçün qorxulu deyil, ona zaval yoxdur. Bu işıq iman nuru ilə yoğrulanda ən güclü tufanlar, qasırğalar, sellər-sular belə onu söndürə bilmir... Bu işıq zülmətə təslim olmağa, doğru yolu azmağa qoymur...

Ümidi həyatın sərt, amansız sınaqlarından salamat çıxaran da, onu sınmağa, əyilməyə qoymayan da elə onun qəlbində yanan ümid çırağı idi... Durna çırağı gecələr uçan durna qatarına doğru yol göstərdiyi kimi, ümid çırağı da insanı mübarizəyə, qurub yaratmağa, sevib-sevilməyə, həyatdan zövq almağa səsləyir həmişə...

Ömür yolu nə qədər uzun, keşməkeşli, hadisələrlə zəngin, şirinli-acılı olursa, xiffətin sərhədləri də o dərəcədə böyüyür... Xiffətin gələcəyi yoxdur, xiffət bu gündən keçmişə olan həsrətli baxışdır...

Hər dəfə günəş qüruba əyiləndə Ümid bu haqda düşünürdü istər-istəməz... Xiffət onun ürəyini üzürdü, qəlbini göyüm-göyüm göynədirdi... Ancaq qəribə idi ki, içini güvə kimi hər gün yeyən bu xiffət insan həyatının dadı-duzu idi elə bil... Özü də sağalmaz yaraların üstünə səpilən duz kimiydi o, adamı göyüm-göyüm göynədirdi...

İman adamıydı Ümid. Ancaq ağlına gələn qəribə fikirlərdən bəzən üşənirdi bu başı daşdan-daşa dəyən insan. Dərd adamı filosof eləyərmiş, İlahi! Ümid düşünürdü ki, biz

keçmişi anıb düşüncələrə daldığımız kimi, görəsən o dünyada olan əzizlərimiz də bu dünyanın xiffətini eləyirlərmi?

Bu düşüncələrə dalan Ümid bir şair dostunun "Xiffət" şeirini tez-tez oxuyurdu. Ona elə gəlirdi ki, bu şeiri özgəsi yox, elə onun özü yazıb. Ona görə ki, bu şeirin ruhuna, canına, mayasına yurd həsrətindən, gəlimli-gedimli dünyanın ürəkgöynədən itkilərindən əzab çəkən bir şairin düşüncələri hopmuşdu...

Düz deyirlər ki, insanların taleyi arasında bir oxşarlıq var... Ulu Yaradan ömür yollarında hərəni bir cür sınağa çəkir. İnsanlar ölüb getsə də, insanlıq həmişə yaşayır. Ümid onu da dərk eləyirdi ki, neçə ki, gəlimli-gedimli dünya var, neçə ki, insanlıq var, neçə ki, nəsillər bir-birini əvəz edir, xiffətdən də yaxa qurtarmaq mümkün deyil...

Payız, qış tanımır həsrət gülləri,
Şirin xatirələr bizi isidir.
Xiffət – nastalgiya ötən günlərin
İçimizdə qalan ayaq izidir...

Zənginə döndərir bizi əzablar,
Baxırıq nisgilli təbəssüm ilə…
Xiffətin içində sevgi, əzab var,
Doğma dərdimizlə xoşbəxtik hələ…

Həsrətin əlində qalıbdır yaxam,
Xiffət acı-acı gülümsəməkdir.
Xiffət bir dəfəlik əlindən çıxan
Gözəl günlər üçün qəribsəməkdir…

Bəzən xoşbəxt olur xəyala dalan,
Xiffət sanki ümid piyaləsidir…
Xiffət bir qəribin gözündə qalan
Vətən həsrətinin son şöləsidir…

Həsrətdir közərdən sevgi odunu,
Xiffət qarı deşən  çiçək kimidir.
Xiffət içimizdə qəm buludunu
Yağışa döndərən şimşək kimidir.

O, zülməti yaran işıq səsidir,
Bizi tənha qoymur qarda, sazaqda.
Xiffət xatirələr xəzinəsidir,
Açarı bizdədir, özü uzaqda…

Başıma zamanın qarı ələnmiş,
Arxadan doğmalar səsləyir bizi…
Xiffət diyarında qəmə bələnmiş
Sevdalı bir mələk gözləyir bizi…

Ümid zəmisini döyür qar, dolu,
Özü yox olanlar qəlbimə köçür…
Keçmişə uzanan xiffətin yolu
Ağrılar körpüsü üstündən keçir…

Xiffət ürəyimi qəmə bələyir,
Ona nə əl çatır, nə də ün yetir…
Xiffət haray çəkir, aman diləyir,
İlan ağzındakı quş kimi ötür…

Yaralı bir nəğmə dinləyirəm mən,
Xiffət qəm sazının sarı simidir…
Xiffət uca dağlar ardına enən
Qürub günəşinin təbəssümüdür…

... İşğaldan azad olunmuş Xocalıda, öz evinin xərabəlikləri üstündə təzə bir ev tikdirmişdi Ümid kişi. Həyat öz axarına düşmüşdü. Hamı yatmışdı. Ümid kişinin gözlərinə isə yuxu getmirdi. O, öz balkonunda oturub xəyala dalmışdı... Arabir üzünü xiffət buludları örtsə də, qəlbində ümid qığılcımları sayrışırdı... Xocalının, Şuşanın, Kəlbəcərin, Laçının, Qubadlının, Zəngilanın, Cəbrayılın, Füzulinin, Ağdamın, Xocavəndin, Suqovuşanın işıqları yanırdı... Şəhidlərin ruhu isə pərvanələrə çevrilib o işıqların başına fırlanırdı elə bil...

**2013-2021**

# KİÇİK POVESTLƏR

## MƏKTƏB İLLƏRİ

Orxan qəribə uşaq idi. Ağlına batmayan işə qətiyyən qol qoymazdı. İstəyirsən lap boynuna diri ilan sal, dediyindən dönən deyildi. Ancaq təzə sinifdə onu heç kim tanımırdı. Əslinə qalsa, heç onun da sinfin uşaqları haqqında məlumatı yox idi. Təkcə bir nəfəri tanıyırdı. Buna da heç tanışlıq demək olmazdı. Ancaq Orxana elə gəlirdi ki, o qızı yaxşı tanıyır, özü də lap çoxdan.

Bu tanışlığın tarixçəsi belə idi. Orxan rayon mərkəzinə gələndə təsadüfən o qızı görmüşdü. Özü də bir neçə dəfə. Geriyə – evlərinə qayıdanda özündən asılı olmayaraq elə hey onun haqqında düşünmüşdü. Orxan kimi xəyalpərvər bir oğlanın yaddaşına düşən bu ilk iz getdikcə dərinləşməyə, ətə-qana dolmağa başlamışdı. Adını bilmədiyi o qız Orxanın ən yaxın dostuna, sirdaşına çevrilmişdi. Odun yığanda da, ot biçəndə də, su daşıyanda da onun gözlərinin qarşısında bu çəlimsiz qız canlanırdı. Bəzən onlar saatlarla üz-üzə dayanıb "söhbət edər", ətirli yamacları, uca dağları, geniş biçənəkləri birlikdə gəzər, dolanardılar. Orxan bir gid – ekskursavod kimi öz dostuna dağlardan, dərələrdən, bulaqlardan, meşədən, onun qoynunda yaşayan heyvanlardan, quşlardan söhbət açar, dil-boğaza qoymazdı. Bir də ayılardı ki, ya meşədə təkcə odun yığır, ya da hansı bir taladasa ot biçir.

Günlər ötüb keçdi. Tale elə gətirdi ki, Orxan rayon məktəbində oxumalı oldu. Sinfə girəndə gözlərinə inanmadı. Onun dostu da burada idi. Təbii ki, o, Orxanın üzünə heç baxmadı da. Bu, oğlanın xətrinə dəydi. Bəs necə, neçə ilin dostu olasan, heç adamla salamlaşmayasan da?

Orxanın xəyalındakı qız nə qədər mehriban, istiqanlı idisə, onun cildinə girmiş bu qız bir o qədər soyuq, laqeyd idi. Həmin qızın bircə adı xoşuna gəldi. Əslində bu ad sinifdəki qızdan çox, onun xəyalındakı qıza daha çox yaraşırdı: Nurtən…

İlk günlər düz-əməlli dərs keçən də olmadı. Hələ sabit dərs cədvəli olmadığından, bir fənn müəllimi sinfə iki dəfə girir, o biri isə heç bir dəfə də dərs demirdi.

Sinif rəhbəri təzə uşaq gəlib-gəlmədiyini soruşdu. Orxan ayağa qalxdı. Müəllim üzünü Nurtənə tutub dedi:

– Bu oğlanın adını da müvəqqəti jurnala yaz. Sonra baxarıq, görək o, sizinlə ayaqlaşa biləcəkmi?

Bununla da hər şey qurtardı. Orxan tamamilə unuduldu. Heç onunla maraqlanan da olmadı. Sinfin diqqəti isə Azadda, Elçində və Vüqarda idi. Uşaqların yanında onlar nüfuz sahibi idilər. Dedikləri qanun idi. Əgər desələr ki, dərsdən qaçaq, kimin həddi var idi ki, sinifdə otursun.

İlk vaxtlar Orxan da deyilənlərə əməl etdi. Dəstədən geridə qalmamaq üçün hərəkət etdi. Ancaq bu, onun xarakterinə qətiyyən uyğun deyildi.

Nurtən sinfin yaxşı oxuyan uşaqlarından idi. Müəllimlər də həmişə ondan dərs soruşar, yaxşı qiymətlər yazardılar. Orxanı isə elə bil heç kəs görmürdü. Bir aydan artıq vaxt keçmişdi. Ancaq ondan dərs soruşmaq heç kəsin

yadına düşməmişdi. Uşaqlar da onunla "xala xətrin qalmasın" salamlaşar, sonra tamamilə unudardılar.

Bir gün ədəbiyyat dərsi olmalı idi. Müəllim evə Füzulinin "Məni candan usandırdı" qəzəlini vermişdi. Zəng içəri vurulmamış Azad sinfə elan etdi:

– Heç kim dərs danışmamalıdı.

Hər şey aydın idi.

Müəllim sinfə girdi. Adəti üzrə adları yoxladı. Sonra soruşdu:

– Kim dərsimizə hazırdır?

Sinfə sükut çökdü. Heç kəs əlini qaldırmamışdı. Azadgil məmnun halda uşaqlara baxırdılar. Birdən onların gözü Orxana sataşdı. O, əlini qaldırmışdı. Hamı təəccüblə, kinayə ilə təzə şagirdə baxırdı. Orxan isə həyəcandan heç kəsi görmürdü…

Müəllim təzə, hələ tanımadığı şagirdi qabağa çağırdı. Orxan ilk dəfə idi ki, dərs danışmağa çıxırdı. O, qıpqırmızı qızarmışdı. Əvvəlcə heç nə edəcəyini də bilmədi. Uşaqların çoxu iztehza ilə qımışdı.

Birdən oğlan özünü ələ aldı və Füzulinin şerini ahəngdar bir səslə söyləməyə başladı:

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahımdan, müradım şəmi yanmazmı?

Uşaqlar da, müəllim də heyranlıqla qulaq asırdılar. Elə bil hamı onu birinci dəfə idi ki, görürdü. Orxan isə hər şeyi unutmuşdu. Onun gözlərinə heç nə görünmürdü, qulaqları öz səsindən başqa heç nəyi eşitmirdi.

Şeiri qurtardı. Sinfə ani bir sükut çökdü. Müəllimdən qabaq uşaqların pıçıltısı eşidildi. Sonra müəllim dilləndi:

– Əhsən! Axır ki, bu sinfə də bir yaxşı ədəbiyyatçı gəldi…

Müəllim orxana “5” yazdı.

Hər şey elə bu qiymətlə başlandı. O gündən Orxanın əsl adı unuduldu. O, yeni, özü də dəhşətli bir ad qazandı: “əclaf”.

Sinifdə uşaqların hamısı ona bu adla müraciət edirdi. Özü də ən dəhşətlisi bu idi ki, o da – Nurtən də Orxana “əclaf” deyirdi.

Yazıq uşaq əzab çəkirdi, için-için inləyirdi. Ancaq dözürdü. Bu haqda heç kəsə bir kəlmə də demirdi.

Şagirdlər tərəfindən təklənən bu oğlan qətiyyən ruhdan düşmürdü. Sinifdə isə hamı ona düşmən gözü ilə baxırdı. Ancaq Orxanın bir etibarlı dostu var idi: məşhur Amerika yazıçısı Cek Londonun “Martin İden” əsərinin qəhrəmanı Martin İden.

Orxan ən çətin anlarda öz dostu ilə “məsləhətləşər”, onun kimi dözümlü olmağa çalışardı. Bu oğlanın dostu o qədər güclü, dəyanətli idi ki, “düşmənlər” onun yanında çox cılız görünürdülər. Orxanın qəlbinin dərinliyindən bir Martin İden boylanırdı. Orxan öz sadiq dostu ilə fəxr edirdi. Ancaq uşaqlar bilmirdilər ki, belə etibarlı dostu olana “batmaq” çox çətindir.

Orxana şagirdlərin hərəkətindən çox müəllimlərin davranışı təsir edirdi. Ondan qat-qat zəif dərs hazırlayan uşaqlar “5” alırdılar. Orxan dərs danışanda isə fikri ayrı yerdə olan müəllimlər ona ya “3”, ya da “4” yazırdılar.

Orxan müəllim ailəsində dünyaya göz açmışdı. Hələ bir dəfə də olsun görməmişdi ki, atası ona güzəştlə qiymət versin. Əksinə, o, həmişə oğlunu sıxışdırardı. Rüblükdə başqaları "5" alanda Orxana "4" yazılırdı. Burada isə hər şey əksinə idi. Müqəddəs müəllim adının arxasında gizlənənlər əslində alverçi idilər. Şagirdlərə biliklərinə görə yox, onların valideynlərinin mövqeyinə görə qiymət verirdilər… Lakin Orxan susur, heç nə demirdi. Bir də ki, o nə deyə bilərdi axı?!

Təkcə ədəbiyyat müəllimi onun ürəyinə yatırdı. Ona görə yox ki, ədəbiyyat Orxanın sevdiyi predmet idi, həm də ona görə ki, Novruz müəllim həm tələbkar, həm də ədalətli idi.

Orxanın eşitdiyinə görə, onun üstündə Novruz müəllimi pedaqoji şuranın iclasında bərk danlayıbmışlar. Direktor deyibmiş:

– Müəllim, bu nədir, medala namizəd olan uşaqlara aşağı qiymət verirsən, o biri fənlərdən zorla "3" alana isə "5" yazırsan?

Novruz müəllim isə sözünün üstündə möhkəm durmuşdu. Direktorun, müəllimlərin xahişinə qulaq asmadığına görə çox adamın onu görən gözü yox idi.

Novruz müəllim Martin İdendən sonra Orxanın ikinci dostuna çevrilmişdi. O, çox maraqlı dərs keçirdi. Hiss olunurdu ki, öz üzərində çox ciddi çalışır, daim mütaliə edir. Bu gənc müəllim o biri müəllimlər kimi dərslikdə yazılanlarla kifayətlənmir, həmişə həyati faktlardan istifadə edir, şagirdləri bədii əsərlərin müsbət qəhrəmanları kimi olmağa səsləyirdi.

Direktor o biri müəllimlərin dərsinə girəndə onların çoxu özlərini itirir, tez-tez çaşırdılar. Novruz müəllimin isə heç nə vecinə deyildi. İxtisasını yaxşı bildiyindən ona irad tuta bilmirdilər. Direktor ədəbiyyat dərsini dinləyəndə müəllim elə bil ona acıq vermək məqsədilə daha da şövqlə dərs keçərdi. Bu, Orxana ləzzət eləyərdi. Ürəyində Novruz müəllimi alqışlayardı.

Novruz müəllim heç kəsə güzəştə getməzdi. Ən zəif şagird dərsə yaxşı hazırlaşsa, ona yüksək qiymət verər, əlaçıya aşağı qiymət verəndə əli əsməzdi.

İnşa yazdıranda o, şagirdlərə tam sərbəstlik verər, o biri ədəbiyyat müəllimləri kimi konspektləri – icmalları yığmaqla məşğul olmazdı. Onun prinsipi belə idi: nədən, hardan istifadə edirsənsə et, təki yaxşı inşa yaz. Ancaq yazıları elə bil zərrəbinlə yoxlayardı. Bir səhv belə onun gözündən yayınmazdı. Köçürülən yerləri səhifəsinəcən inşanın yanında qeyd edərdi. Uşaqlar məəttəl qalmışdılar. Hamı deyirdi:

– Deyəsən bu Novruz müəllimin oxumadığı kitab, jurnal, qəzet yoxdur.

Əslində isə Novruz müəllimin oxumadıqları oxuduqlarından çox idi. O, özü bunu bildiyi üçün öz üzərində daha artıq bir səylə çalışardı.

***

Bir dəfə Azad uşaqlara dedi:

– "B" sinfi bizi futbol oynamağa çağırır. Nəyin bahasına olursa olsun onlara qalib gəlməliyik. Bu gün dərsdən sonra məşq edəcəyik. Mütləq hamınız gələrsiniz. Təkcə "əclaf"dan başqa.

Oğlanlar iki hissəyə bölünüb məşq edirdilər. Dəstələrin birinə Azad, o birinə isə Elçin rəhbərlik edirdi. Xeyli oynadılar. Sonra evə dağılışdılar.

Səhər dərsdə hamı futboldan danışırdı. Orxanın da futbola böyük həvəsi var idi. O, kəndin futbol "ulduzu" idi. Ancaq kənd başqa, rayon mərkəzi başqa. Digər tərəfdən futbol kollektiv oyundur. Kollektiv isə ona etimad bəsləmirdi. Əvvəlcə o, futbola getmək haqqında qətiyyən düşünmürdü. Evdə oturub dərslərini hazırlayırdı. Lakin fikrini bir yerə cəlb eləyə bilmirdi. Futbol meydançası onu maqnit kimi özünə çəkirdi.

O, gözünü açanda özünü rayon stadionunda gördü. Qızğın oyun gedirdi. "B" sinfinin oyunçuları bir qol vurdular. "A" sinfinin kapitanı Azad özündən çıxmışdı. O, uşaqların üstünə qışqırır, ağzına gələni deyirdi. Kapitan günahın hamısını müdafiəçi Qəribdə gördüyü üçün onu oyundan çıxardı:

– Çıx cəhənnəm ol! Sənsiz də keçinərik.

Birdən onun gözləri kənarda dayanıb futbola baxan Orxana sataşdı. Kapitan onu meydançaya çağırdı. Müdafiədə oynamağı tapşırdı.

Orxanın üzü işıqlandı. O, qətiyyən bunu gözləmirdi. Fikirləşməyə isə vaxt yox idi.

Oğlan meydançaya sıçradı. Rəqib komandanın oyunçusu uşaqları aldada-aldada irəli keçirdi. Vəziyyət çox gərgin idi. Arxada təkcə Orxan qalmışdı. Hücumçu onu da aldatmaq istədi. Ancaq necə oldusa top Orxanın ayağına dəyib geri qayıtdı. Oğlan topun dalınca qaçdı, öz komanda yoldaşlarına pas verdi. Kapitan isə onun bu xidmətini belə qiymətləndirdi:

– Sağ ol, "əclaf"!

Söz cərəyan kimi Orxanın qanına işlədi. Acığından bilmədi ki, neyləsin. Birdən top ona sarı gəldi. O, topu götürüb irəliləməyə başladı. Rəqib komandasının oyunçuları bir-bir arxada qalırdılar. Azad qışqırır, top tələb edirdi. Orxan isə heç nə eşitmir, elə hey irəliləyirdi. O, qapıçı ilə təkbətək çıxdı. Hamı həyəcan keçirirdi. Tamaşaçılar qışqırırdılar: vur, vur!

Qapıçı topun üstünə atıldı. Orxan onu da aldadıb boş qapı ilə üz-üzə qaldı. Topla düz qapı xəttinin üstünə çıxdı. Dayandı. Birdən ağlına nə gəldisə kosu geriyə, meydançanın mərkəzinə vurdu.

Hamı çaşıb qalmışdı. Orxanınsa üstünə qışqırırdılar:

– Əclafın biri əclaf, satqın.

Onunsa heç nə vecinə deyildi. Vüqarla, təntənə ilə, acı-acı gülə-gülə meydançadan çıxdı. Bu, onun öz nankor, vicdansız yoldaşlarına cavabı idi. O, həm də yaxşı futbol oynamağı bacardığını da sübut eləmiş oldu.

Səhər sinifdə hamı dünənki oyun haqqında danışırdı. "B" sinfinə uduzmaq onlara bərk yer eləmişdi. Bütün günahları isə Orxanın üstünə yıxırdılar. Azad dil-boğaza qoymadan deyirdi:

– Əclafdan nə gözləyəsən. Əclaf elə əclafdı da.

Birdən necə oldusa Orxan yerindən qalxdı. İrəli yeriyib ikiəlli Azadın xirtdəyindən yapışdı. O, elə qəzəbli idi ki, gözünə yer-göy görünmürdü. Azad isə xırıldayırdı…

Elə bu vaxt müəllim içəri girdi. Hərə keçib öz yerində oturdu. Azad isə Orxanı hədələməyə başladı:

– Yaxşı, görərsən!

Heç kəsin fikri dərsdə deyildi. Uşaqlar pıçıltıyla bir az əvvəl baş verən hadisəni müzakirə edirdilər.

– Pah atonna, xəmir də daşarmış!

Kimsə dilləndi:

– Neyləsin, adamı nə qədər təhqir etmək olar?

Başqası dilləndi:

– Sənə əclaf desələr dözərsən?

– Azad onda bu qisası qoymaz.

Elçin isə Azada məsləhət verirdi:

– Məktəbdə onunla işin olmasın. Başqa bir yerdə aşını, suyunu verərik.

Dərs qurtardı. Orxan sinifdən çıxdı. Heç kəsin üzünə baxmadan evə sarı yollandı. Onun ürəyi bərk döyünürdü. Əslində o, heç kəsdən qorxmurdu. Birinci dəfə deyildi ki, dava-dalaşa düşürdü.

Yolda onun qarşısını kəsdilər. Çantasını əlindən aldılar. Nə qədər etsə də cantanı vermədilər. Onu top kimi ora-bura atdılar. Gündəliyini açdılar. Onlar “5” yazılmış səhifələri cırdılar, kağız təyyarələr düzəltdilər. Onları körpünün üstündən bir-bir havaya atdılar. Təyyarələr uçdular, uçdular. Onların sərnişini də, pilotu da Orxanın “5”-ləri idi.

Təyyarələr uçur, uçur, elə bil ki, halal “5”-ləri ləyaqətsiz uşaqlardan qorumaq istəyirdi.

Təyyarə uçdu, uçdu… Birdən hava qaraldı. Göy üzünü buludlar aldı. Orxanın başı uğuldamağa başladı. Onun üzünə, başına, qarnına saysız-hesabsız zərbələr enirdi…

Orxan ayılanda özünü yerə sərilmiş gördü. O, hönkürmək istədi. Ancaq gözləri qupquru idi. İçində qəzəb tufanı baş qaldırmışdı. Yadına bir atalar sözü düşdü: “Mərdi qova-qova namərd eləyərlər.” Yox-yox, Orxan heç vaxt istəməzdi

ki, ona namərd desinlər. Ancaq əclaf sözü məgər namərdlikdən yüngül idi?

O, üst-başını çırpıb bibisigilə gəldi. Nə qədər çalışdılarsa, Orxandan söz qopara bilmədilər. “Yolda yıxılmışam”, – dedi.

Ancaq Orxan dərs oxuya bilmirdi. Sətirlər gözləri önündə qatmaqarışıq düşürdü. Gündəliyini açdı. Onun üstündə iri hərflərlə yazılmışdı: “Əclaf”.

Orxanın bütün bədəni ağrıyırdı. Əvvəl istədi ki, dərsə getməsin. Sonra fikirləşdi ki, bunu qorxaqlıq əlaməti hesab edərlər. Ona görə özünü cəmləşdirib məktəbə yollandı. Onun partasının üstündə də yazmışdılar: “Əclaf”.

Orxanın gözlərində bu söz artır, çoxalır, hər biri bir uşağa çevrilirdi. Əclaf– Azad, əclaf– Elçin, əclaf – Vüqar…

Orxanı yandıran bu idi ki, sinifdə heç kəs ona qahmar çıxmırdı. Təkbaşına isə bütün sinfə qarşı çıxmaq ağılsızlıq idi.

Sinif iclası keçirildi. Hamı yer-yerdən durub Orxanın tərbiyəsizliyindən, davakarlığından danışırdı. Gülməli iş idi. Orxan hələ belə ədalətsizlik görməmişdi. Yalnız bir nəfər – Adil adlı bir oğlan onu müdafiə etdi. Ona qarşı olan ədalətsizlikdən danışdı. Lakin onun da sözünü ağzında qoydular. Orxana da söz verdilər. Ancaq o heç nə demədi. Heç kəsdən şikayət eləmədi.

Müəllim ondan soruşdu:

– Oğlum, istəyirsən səni başqa sinfə keçirək?

Orxan qəti səslə cavab verdi:

– Yox, mən bu sinifdə oxuyacağam.

Müəllim uşaqları danladı. Onlara dedi ki, Orxan heç də pis oğlana oxşamır. Ona kömək etmək lazımdır.

İclasdan sonra kimsə sinfə müraciətlə dedi:

– Uşaqlar, yazıqdır, onunla işiniz olmasın.

Orxanı elə bil ildırım vurdu. Yazıq sözu əclafdan daha dəhşətli idi. O, gücü gəldikcə qışqırdı:

– Yazıq sizin özünüzsünüz…

***

Orxanın gecəsi-gündüzü yox idi. O, dərslərini yaxşı oxumağa çalışır, boş vaxtlarında idmanla məşğul olur, intiqam hissi ilə alışıb yanırdı. Ancaq onu da yaxşı bilirdi ki, tək əldən səs çıxmaz. Bütün bir sinfə qarşı neyləmək olardı?

Yuxarı siniflərin də atamanları var idi. Azadgil öz uşaqlarının yanında lovğalansalar da, həmişə onlara yaltaqlanırdılar. Bir dəfə həmin uşaqlardan üçü sinfə girdi. Saymazyana partanın arası ilə gəzdilər. Sonra üzlərini sinfin atamanına tutub soruşdular:

– Ə, Azadçik, bu qızlardan hansını bizə verirsən?

Azad hırıldaya-hırıldaya dedi:

– Hamısı sizə qurbandı!

Kimsə arxadan qışqırdı:

– Biqeyrət!

Bu sözü deyən Orxan idi. Uşaqlar da onun sözünü təkrar etdilər. Yuxarı sinfin atamanı İsa isə Orxanı təpədən dırnağacan süzdü. O, bu oğlanı birinci dəfə idi ki, görürdü.

Hamı nəfəsini içinə çəkmişdi. Kimsə pıçıldadı:

– Yazıq, özünü yenə də işə saldı.

İsa Orxanın yanına gəldi. Orxan döyüşə hazırlaşan xoruz kimi qabardı. Öz rəqibinin üstünə atılmağa hazır vəziyyət aldı.

İsa güldü və dedi:

– Əhsən! Bu sinifdə bir kişi varsa, o da sənsən. Bu gündən dostam səninlə.

Onlar getdilər. Sinfə sakitlik çökmüşdü. Oğlanlar başlarını aşağı dikmişdilər. Qızlar isə təbəssümlə, minnətdarlıq duyğusu ilə Orxana baxırdılar. Bu baxışların arasında Nurtənin də baxışları var idi. Orxana elə bil dünyanı bağışladılar.

O gündən əclaf sözü öz ünvanını dəyişdi, əsl sahibini tapdı.

***

Bu hadisədən sonra Orxana münasibət tamamilə dəyişdi. Hamı onu öz adıyla çağırırdı. Orxan isə heç kəsə isinişə bilmirdi. Hər şeyi unutmağa çalışırdı. Lakin bacarmırdı. Bir zaman ona "əclaf" deyə müraciət edənlərin indi quyruq bulaması, dəqiqəbaşı Orxan, Orxan deməsi ona çox eybəcər görünürdü.

Nurtən də dil-boğaza qoymur, elə hey onu söhbətə çəkirdi. Ancaq Orxan Nurtəndən də qaçırdı. Onun xəyalı ilə yaşamaq daha maraqlı idi:

– Nurtən, heç səndən gözləməzdim.

– Bağışla məni, Orxan. Mən səni yaxşı tanımamışam.

– Yaxşı-yaxşı, gəl ayrı şeydən danışaq. Görürsənmi bu çiçəklər necə gözəldir?

– Sən gülləri xoşlayırsanmı, Orxan?

– Əlbəttə.

– Onda gəl mənimlə bizə gedək. Həyətimizdə o qədər gül var ki. Nə qədər istəsən dərib sənə verərəm.

– Mənə torpaqda bitən yox, gəzən gül lazımdı.

– Heç gəzən də gül olpr?

– Niyə olmur ki? Bəs sən gəzən gül deyilsənmi?

Orxanın yanaqları od tutub yandı. Xəyalından keçirdiklərindən özü də utandı. Yaxşı ki, Nurtən bu haqda heç nə bilmirdi…

Bir dəfə Nurtən sinifdə şəkil çəkirdi. Kimsə ucadan dedi:

– Oy, Nurtənin nə qəşəng karandaşları var! Mən heç beləsini görməmişəm.

Nurtən güldü. Özündən razı halda dedi:

– Bunlar karandaş deyil. Dayım Moskvadan göndərib. Adına bir cür deyirlər e… Hə, tapdım, flomaster.

Biz birinci dəfə idi ki, flomaster görürdük. Doğrudan da, onlarla yazmaq da, şəkil çəkmək də çox rahat idi.

Axırıncı tənəffüs idi. Uşaqlar həyətə çıxıb oynayır, istirahət eləyirdilər.

Zəng vuruldu. Hamı içəri girdi. Birdən Nurtən rəfiqəsi Əzizədən soruşdu:

– Mənim flomasterimi görməmisən?

– Yox, atam canı xəbərim yoxdu.

Kimdən soruşdularsa, gördüm deyən olmadı. Müəllim dedi:

– Qızım, oğru gəlsə, çox şey aparardı. Yəqin yadından çıxıb evdə qalıb.

Əzizə dedi:

– Yox e, müəllim, tənəffüsdə burada idi.

Elçin qışqırdı:

– Yəqin, kimsə oğurlayıb.

Vüqar səsləndi:

– Bura başqa sinifdən heç kəs gələ bilməz. Gəlin çantaları axtaraq.

Axtarış başlandı. Orxan da çantasını açdı. Gözlərinə inanmadı. Nurtənin flomasterləri onun çantasından çıxdı.

Azad qışqırdı:

– Oğru!

Yer-yerdən qışqırdılar:

– Ar olsun!

Nurtən dedi:

– Müəllim, yadıma düşdü. Flomasteri ona mən özüm vermişdim. Gör ha, hər şeyi unutmuşam.

Orxan çaşıb qalmışdı. Uşaqların gözünün içinə düz baxa bilmirdi. O, utanırdı. Nurtənin onu müdafiə etməsi isə qəribə idi. O, yalan deyirdi. Orxan ondan flomaster istəməmişdi. Yox, burada özgə əli var. Ancaq necə sübut edəsən?

Orxan evdə də özünə yer tapa bilmir, elə hey düşünürdü:

– Gör indi Nurtən mənim haqqımda nə fikirləşir?

O, xəyalən qızla söhbət edirdi:

– Nurtən, vallah, bu işdən mənim xəbərim yoxdu.

– Hansı işdən?

– Sənin flomasterlərini mən götürməmişdim.

– Bilirəm, onları mən özüm sənə vermişdim. İstəyirsən həmişəlik sənə bağışlayım?

– Yox-yox, lazım deyil…

– Götür, utanma!

– Nurtən, mənə inanmırsan?

– Niyə inanmıram ki?

– Heç mən oğruya oxşayıram?

– Sənə kim oğru deyir ki?

Xəyali söhbət baş alıb gedir, Orxanın isə ürəyi sıxılırdı. Bu dərdə necə dözəsən? Uşaqlar əclaf sözünü təzəcə

unutmuşdular ki, bu oğru söhbəti də bir yandan çıxdı. Nə isə… Heç deyiləsi iş deyildi.

Həftələr bir-birini əvəz edirdi. Orxan isə Nurtənin, eləcə də o biri uşaqların üzünə baxa bilmirdi. Düzdür, ona açıq-açığına oğru demirdilər, ancaq sifətlərindən bir istehza oxunurdu. Azadın da qırışığı yavaş-yavaş açılırdı.

Bir dəfə Orxan sinfə girəndə dəhşətə gəldi. Onun partasının üstündə bıçaqla “oğru” sözü cızılmışdı. O, tez bir şüşə qırığı tapıb yazını pozdu. Ürəyi isə hey titrəyirdi:

– Bircə bu sözü də üstümdən götürə bilsəydim?!

Bu gün növbətçi Azadla Vüqar idi. Onlar böyük tənəffüsdə uşaqları çölə çıxartdılar. Dedilər ki, sinifdə təmizlik işləri aparacağıq.

Orxanın dalağı sancdı. O da uşaqlara qoşulub həyətə qaçdı. Birdən ağlına qəribə bir fikir gəldi. Siniflərinin bağa baxan pəncərəsi yadına düşdü. Tez ağaca dırmaşdı. Buradan sinfin içi apaydın görünürdü. Vüqar qapının dalında durmuşdu. Azad kiminsə çantasını açdı. Oradan nə isə götürüb, Orxanın çantasına qoydu.

Məsələ aydın idi. Orxan açıq pəncərədən özünü içəri atdı. Azad çantanı bağlamağa macal tapmamış başının üstünü aldı.

Orxan: – Əclaf, al payını, – deyib, Azada bir-iki yumruq vurdu. Sonra onu yerə yıxıb dizini sinəsinin üstünə qoydu.

Azad yalvarmağa başladı:

– Burax, bir də eləmərəm.

Orxansa heç nə eşitmirdi. Uşaqlar içəri girəndə qəribə bir mənzərə ilə rastlaşdılar. Orxan az qalırdı ki, Azadı boğub öldürsün. Elə hey deyirdi:

– Əclaf, al payını!

Uşaqlar Azadı Orxanın əlindən zorla alıb nə baş verdiyini soruşdular. Orxan əsəbi halda dedi:

– Qoy bu yaramazın özü desin. Başqasının şeylərini çantadan götürüb mənim çantama soxur. Üstümə şər atıb məni oğru adlandırmaq istəyir. Üzr istə, əclaf!

Hamı Azada nifrətlə baxırdı. O, Nurtənin flomasterini Orxanın çantasına qoymağını da boynuna aldı. Vüqarın da aşını, duzunu verdilər. Bəs necə, cinayətdə o da iştirak eləmişdi.

***

Bir gün Nurtən Orxana yanaşdı. Orxan qıpqırmızı qızarsa da, özünü ələ almağa çalışdı. Qız saçlarının ucunu didə-didə oğlana dedi:

– Orxan, sənə bir işim düşüb.

– Buyur.

– Mənə inşa yazmaqda kömək edərsənmi?

– Əlbəttə. Hansı mövzunu seçmisən?

– Sərbəst mövzunu. “Sən həyatın mənasını nədə görürsən?” Əslində inşanı yazmışam. Ancaq istəyirəm ki, onu sən də oxuyasan, fikrini deyəsən. Lazım gəlsə, əlavələr də edə bilərsən.

Orxan razılaşdı. O, inşanı alıb getdi. Ürəyi döyünə-döyünə Nurtənin yazısını oxumağa başladı. Əslində inşa pis alınmamışdı. Lakin bəzi yerlərdə ardıcıllığın pozulması hallarına yol verilmiş, bəzi cümlələrdə isə uzlaşma qaydaları pozulmuşdu. Orxan asanlıqla cümlələri düzəltdi. Rabitə olsun deyə bir neçə abzasın arasına əlavələr etdi.

İnşa hazır idi. Ancaq Orxan nəsə yazmaq, ürəyini boşaltmaq istəyirdi. Ancaq utanırdı.

Səhərisi gün qız Orxandan inşanın necə çıxmasını soruşdu. Oğlan mızıldandı, yaxşıdır, – dedi. Qız inşasını istəsə də, o vermədi, axırıncı dərsdə verərəm, – dedi. Hələ bəzi yerlərini yenidən nəzərdən keçirmək istəyirəm.

Sonuncu zəng vurulanacan Orxan haldan-hala düşdü. O, əlləri titrəyə-titrəyə Nurtənin inşasını özünə qaytardı və cəld addımlarla qızdan uzaqlaşdı.

Nurtən inşasını alıb evə getdi. Çörəyini yeyib, dərs cədvəlini nəzərdən keçirdi. Sonra inşanı açıb Orxanın etdiyi əlavələrə, düzəltdiyi cümlələrə baxdı. Ürəyində ona "sağ ol!" deməyi də unutmadı. Birdən elə bil qızı ildırım vurdu. Yanaqları od tutub yandı, başı gicəlləndi. İnşanın sonunda karandaşla bu sözlər yazılmışdı: "Nurtən, sənin hər bir təbəssümün mənim qəlbimi nurla doldurur. Sənə olan təmiz eşqimi həyatımın mənası hesab edirəm"…

***

Orxan Nurtənə rast gəlməkdən qorxurdu. Nurtən də çox qaş-qabaqlı, qaradinməz olmuşdu. Onlar bir-birlərinin üzünə baxmadılar da. Yaxşı ki, bu gün ədəbiyyatdan inşa yazırdılar. Hərənin başı özünə qarışmışdı. Uşaqlar sakitcə yazır, Novruz müəllim isə qəzet oxuyurdu.

O gündən sonra Nurtənlə Orxan bir-birlərindən gen qaçmağa, üz-üzə gəlməməyə çalışırdılar. Elə bil onların hər ikisinin dilinə qıfıl vurulmuşdu. Qabaqlar heç olmasa hərdən bir söhbət edirdilər. İndi isə onlar küsülü adamlar kimi dolanırdılar. Guya ki, heç bir-birlərini görmürdülər.

İnşaların müzakirəsi idi. Novruz müəllim yazıları diqqətlə yoxlamış, şagirdlərin səhvlərini ümumiləşdirmişdi. O, başlıca nöqsanı uşaqların dərslikdən kənara çıxa bilməmə-

lərində görürdü. Müəllim Nurtəni, xüsusilə Orxanı təriflədi. Dedi ki, onların yazılarında bəzi nöqsanlar olmasına baxmayaraq, hər iki şagird sərbəst mühakimə yürütməyə meyl edir ki, bu, çox yaxşıdır.

Nurtən qızardı. Orxan da özündə deyildi. O, yamanca utanırdı. Özü də tərifə görə yox, Nurtənin qaralamasının arxasında yazdığı iki cümləyə görə.

Qəribədir ki, elə bu zaman Nurtən də həmin cümlələr haqqında fikirləşirdi.

***

Bir gün İsa yenə başının dəstəsi ilə sinfə girdi. Dişlərini ağarda-ağarda uşaqlara nəzər saldı. Sonra üzünü Orxana çevirib soruşdu:

– Orxan, bu qızların hansını bizə verirsən?

– Məgər mən qızların dədəsiyəm? Hansını istəyirsən, evlərinə elçi göndər. Verərlər, verməzlər, o valideynlərin öz işidi…

Hamı güldü. İsagil də uşaqlara qoşuldular. İsa üzünü dostlarına tutub dedi:

– Gördünüz, mən deyirdim, inanmırdınız?! Əsl aktyordur…

Sonra o, Orxana dedi ki, dərsdən sonra qaçıb getmə, səninlə vacib işimiz var.

Orxanın ürəyi həyəcanla döyünürdü. Sinfin bəzi uşaqları da narahat idilər. Düşünürdülər ki, İsa çağırıbsa, deməli, mütləq əzişdirəcək.

Dərsdən sonra heç kəs sinifdən getmək istəmirdi. Təkcə Azadla Elçin bir-birlərinə baxıb pıqqıldaşırdılar. Onlar Orxanın necə döyüləcəyini təsəvvürlərinə gətirib ləzzət alırdılar.

Oğlanlardan bir neçəsi Orxana yaxınlaşıb dedilər ki, biz də səninləyik. Gəl bir yerdə onların yanına gedək.

Nurtən də gözünün ucuyla Orxana baxırdı. Oğlan bunu hiss etdi və qəti səslə dedi:

–Yox, mənim heç kəsin köməyinə ehtiyacım yoxdu. Özüm tək gedəcəyəm.

O, iti addımlarla sinifdən çıxdı. İsagil məktəbin həyətində onu gözləyirdilər. Orxan onlara yaxınlaşdı. Nə haqda isə danışdılar və birlikdə addımlamağa başladılar.

Orxanın sinif yoldaşları hiss etdirmədən onları izləyirdilər. Qərara almışdılar ki, dava başlansa, onlar da Orxanın köməyinə getsinlər.

Qəribə idi. İsagil həmişə dalaşdıqları dalda yerə yox, birbaşa mədəniyyət evinin qarşısına getdilər. Onlar qabaqda, Orxan isə arxada mədəniyyət şöbəsinə getdilər.

Uşaqlar qapıda həyəcanla gözləyirdilər. Yarım saatdan sonra İsagil binadan çıxdılar. Onlar əl verib Orxandan ayrıldılar. İsa bərkdən dedi:

– Yadından çıxmasın ha!

– Arxayın ol!

Orxan evə gedəndə sinif yoldaşlarının qapıda dayandıqlarını gördü. Onlar Orxanı dövrəyə aldılar. Yer-yerdən bir-birlərinin sözünü kəsə-kəsə soruşdular:

– Nə oldu?

– Nə olmalı idi ki?!

– Mədəniyyət evinə niyə girmişdiniz?

– İşimiz var idi.

– Nə iş?

– Bu hələlik sirdir. Vaxt gələr, özünüz bilərsiniz…

***

Avtobus tərpəndi. İçəridəkilər çalıb-oynayırdılar. Orxan da burada idi, kəndə tamaşa göstərməyə gedən aktyor truppasının arasında. Dünən İsagil onu bu məqsədlə çağırmışdılar. Həvəskar aktyorların arasında Orxan yaşda olanı yox idi. Ancaq nə olsun, madam ki, dəvət ediblər, getmək lazımdır.

Həvəskar aktyorlar, artistlər yol boyu məşq edə-edə gedirdilər. Onların arasında yekə kişilər də var idi. Tar çalınırdı. Qaval Çayçı Dadaşın əlində idi. Çalmağından hiss olunurdu ki, onun da bu işdə az-çox səriştəsi var. Birdən o, məlahətli bir səslə o vaxt modda olan "Lalələr" mahnısını oxumağa başladı. Hamının üzü gülürdü. Mahnı Orxana ləzzət elədi. Ürəyində dedi:

– Yaxşı ki, İsagilin təklifinə razı oldum…

Maşın yolüstü kəndlərdən birinin içərisində dayandı. Burada raykomun işçilərindən kimsə yaşayırdı. O, əlində bayraq yolun kənarında gözləyirdi. Maşın dayanan kimi o, içəri girdi. Bayrağı bir kənara söykədi. Salamsız-kalamsız özünü qızlardan birinin yanına yıxdı. Heç kəs dinmirdi. Ancaq İsa özünü saxlaya bilmədi:

– Ə, a müəllim, yekə kişisən, əməlli-başlı otur…

Raykomun onsuz da sifəti qırmızı olan işçisinin rəngi xoruz pipiyinə döndü:

– Ə, düdüyün biri düdük, kəs səsini!

İsa qırmızı kişinin yaxasına əl atdı. Onun köynəyi şırım-şırım oldu. Burnu qanadı. Uşaqlar yerə düşən şlyapa ilə futbol oynamağa başladılar. Çox qəribə, arzuolunmaz bir mənzərə yarandı. Hamının şən əhvali-ruhiyyəsi pozuldu.

Raykom işçisi düşüb evlərinə qayıtdı. Mədəniyyət şöbəsinin müdiri İsanın üstünə acıqlandı:

– Gör bir başımıza nə oyun gətirdin?

Çayçı Dadaş dedi:

– A bala, İsa, sən aradan çıx. Biz geri qayıdanda yolda maşının qabağını kəsə bilərlər.

İsa və onun dostlarından iki nəfər çayın qırağına enib piyada evə qayıtdılar. Avtobus isə geri qayıda bilməzdi. Kənddə əməlli-başlı hazırlıq görülmüşdü. Onlara bu gün keçici bayraq təqdim edilməli idi.

Kənddə həyəti geniş olan evlərdən birinə girdilər. Kəllə otaqlardan biri qrim guşəsinə çevrildi, dəhliz isə səhnə oldu.

Mədəniyyət şöbəsinin müdiri keçici bayrağı kolxoz sədrinə təqdim etdi. Sonra konsert başlandı.

Orxan ömründə belə konsert görməmişdi. Onlar dəhlizdə çalıb-oynayır, adamlar isə həyətdə ayaq üstə dayanıb qulaq asırdılar.

Mirzə Fətəli Axundovun "Molla İbrahimxəlili kimyagər" əsərindən bir səhnə göstərilməli idi. Aktyorları, o cümlədən "nuxulular"dan birinin rolunu ifa edəcək Orxanı da qrimlədilər.

Kimsə ev sahibini çağırdı:

– Ay dayı, xoruzun var?

– Vay, xoyuzu neyləyiysən?

– Tamaşa göstərəndə lazım olacaq. Xoruzun ayağına ip bağlayıb, yerə çalacayıq…

Tamaşa pis keçmədi. Molla İbrahimxəlili Kimyagər rolunu mədəniyyət şöbəsinin müdirinin özü oynadı.

Tamaşadan sonra çayçı Dadaş xoruzu aktyorların paltarlarının arasına bükdü və götürüb maşina qoydu.

Hamı avtobusa minmişdi. Elə tərpənmək istəyirdilər ki, ev sahibi qışqıra-qışqıra gəldi ki, xoyuzumu veyin!

– Nə xoruz, a kişi?

– Yekə kişisiniz, xoyuzumu veyin!

Xoruz isə çayçı Dadaşın bükdüyü paltarın içində idi. Orxan bunu görmüşdü. O, vicdan əzabı çəkirdi. Nə ev sahibinə bir söz deyə bilirdi, nə də saç-saqqalı ağarmış çayçı Dadaşa.

Rayon mərkəzinə gecəyarı gəlib çıxdılar. Hərə öz evinə getdi. Orxan isə evdəkiləri oyatmaq istəmədi. O, qəsəbənin küçələrini ölçməyə başladı. Hamı yatmışdı. Küçələr bomboş idi. Uzaqdan çayın şırıltısı eşidilirdi. Birdən, Orxanın ağlına qəribə bir fikir gəldi. O, Nurtəngilin evinin qarşısına getdi. İşıqlar sönmüşdü. Sözsüz ki, Nurtən də yatmışdı. Bəlkə də o, yuxusunda gecəyarı küçələri ölçən Orxanı görürdü…

***

Orxanı divar qəzetinə redaktor seçdilər. Nurtən də redaksiya heyətinin üzvü idi. Məqalələri Orxan redaktə edir, Nurtən isə hazır materialların üzünü köçürürdü. Əntiqə bir divar qəzeti alınmışdı. Adı isə "Arzu".

Baş məqalədə sinfin qarşısında duran vəzifələrdən, ürəkləri riqqətə gətirən arzulardan söhbət açılırdı. Elə bil ki, Nurtənin gözəl xətti Orxanın fikirlərinin boyuna biçilmişdi. Hər halda, bu, Orxana belə gəlirdi.

Qəzetin son sütunundakı satirik yazılar daha çox xoşuna gəlmişdi. Ancaq bundan qəzəblənənlər də az deyildi. Dərslərini yaxşı oxumayan, səhərdən axşamacan küçələrdə veyillənən avaralar tənqid atəşinə tutulurdu. Uşaqlar qəzetə baxıb gülüşürdülər:

– Bəh, bəh! Vüqara, Elçinə, Azada bax e! İkilər arı kimi canlarına darışıb…

Əlbəttə, heç kəsin adı yazılmamışdı. Ancaq sözlər, rəssamın çəkdiyi ştrixlər elə dəqiq idi ki, hər şey aydın olurdu. Necə deyərlər, kor-kor, gör-gör…

Azad bərk qəzəblənmişdi. Ağzı köpüklənə-köpüklənə deyirdi:

– Bu şəxsi-qərəzlikdir. Sinif rəhbərimizə şikayət edəcəyəm.

Kimsə söz atdı:

– Ay qoçaq, soğan yeməmisən, için niyə göynəyir?

Uşaqlar gülüşdülər. Azad isə hirslə sinifdən çıxıb getdi…

***

Səməd Vurğunun "Vaqif" dramının məzmunu üzərində iş gedirdi. Müəllim doqquzuncu şəkli əzbərləməyi tapşırmışdı. Demişdi ki, istədiyim rolu istədiyim adama verəcəyəm.

Müəllimin bu dəfə dərs soruşması əvvəlkilərə bənzəmirdi. O, bir neçə şagirdi lövhə qabağına çağırdı. Hərəyə bir surətin sözünü demək tapşırıldı. Orxana Qacar rolu düşdü. İşlər yaxşı gedirdi. Hamı həvəslə öz sözlərini əzbər söyləyirdi. Orxan Qacarın aşağıdakı sözlərini söylədi:

– Təlxək, söylə məni çoxmu sevirsən?

Titrək bir qız səsi cavab verdi:

– Şahim, yaranmadan qulunuzam mən…

Uşaqlar gülüşdülər. Orxanın başı uğuldadı. Nurtən isə hıçqırırdı. Təlxək rolu təsadüfən ona düşmüşdü.

Bundan sonra müəllim israr etsə də, nə Orxan, nə də Nurtən ağızlarını açıb bir kəlmə də danışmadılar. Müəllim acıqla onların hər ikisinə “2” yazdı.

Qəribə idi. “2” alsa da, Orxan narahat deyildi. Daxilində qəribə bir sevinc duyğusu baş qaldırmışdı.

Tənəffüsdə o, kağızın üstünə nəsə yazıb bükdü. Fürsət düşən kimi onu Nurtənin qarşısına atdı. Nurtən kağızı açdı və daha bərkdən ağladı. Qızlar ona nə qədər yalvardılarsa, bir söz qopara bilmədilər. Nurtən kağızı əsəbi şəkildə cırıb atdı. Onun üstündə tələsik xətlə yazılmışdı: “Məhəbbət qurban tələb eləyir”…

***

Kimya dərsində isə müəllim ebonit haqqında danışırdı. O, izah edirdi ki, eboniti ipəyə sürtəndə maqnit sahəsi yaranır. Müəllim ebonit çubuğunu ipək parçaya sürtüb, dediyini əyani şəkildə göstərdi. Elə bu zaman Nurtən dilləndi:

– Müəllim, eboniti saça sürtəndə də maqnit sahəsi yaranır.

Müəllimdən qabaq Orxan dilləndi:

– Yəqin sənin saçların da ipəkdəndi.

Uşaqlar gülüşdülər. Nurtən isə qıpqırmızı qızardı. Müəllim zarafatla Orxanı hədələdi və dedi:

– A şeytan, sən də az aşın duzu deyilsən ha… Özünü yığışdır.

Sonra müəllim ciddiləşdi. Heç nə olmayıbmış kimi dərsi davam etdirdi. Ancaq nə Nurtənin, nə də Orxanın fikri müəllimdə idi. Onlar öz dünyalarına qapılmışdılar. Nurtən ürəyində Orxanı məzəmmət edirdi:

– Ay axmaq, heç adam uşaqların yanında elə söz deyər?! Dil-ağıza düşməkdən qorxmursanmı? İraq olsun, əgər bu söz-söhbət evimizə çatsa, biabır olduq.

Nurtənin yadına M. Füzulinin "Leyli və Məcnun" əsəri düşdü. Poemanın ayrı-ayrı parçalarını müəllim əzbərlətmiş, əsərin məzmunu üzərində iş aparılmış, əsas qəhrəmanlar səciyyələndirilmişdi. Ancaq Nurtənə elə gəlirdi ki, poemanı indi daha yaxşı başa düşür. Əsərdəki bu misralar qızın qulağında səsləndi:

Oğlan əcəb olmaz olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?

Və qıza elə gəldi ki, bu misraları Leylinin anası yox, elə onun öz anası söyləyir. Öz-özünə düşündü:

– Yox, Orxan lap ağ eləyir. Mütləq ona təpinmək lazımdır. Dinmədikcə özündən çıxır. Yaxşı, mən ona bir toy tutum ki!

Müəllim sinifdən çıxan kimi Nurtən elə uşaqların yanındaca Orxanın abırını ətəyinə bükdü və acıqlı-acıqlı dedi:

– Dilini dinc saxla, yoxsa sənin üçün pis olar!

Orxan qətiyyən bu hücumu gözləmirdi. Ona görə çaşıb qalmışdı. Bircə kəlmə söz deyə bilmirdi. Bir də ki, axı o nə deməli idi?

Məsələnin mahiyyətini bilməyən qızlar Nurtəni danladılar:

– Nə dəymə-düşər olmusan, ay qız? Yazıq sənə nə dedi ki? Zarafat eləyirdi da!

– Zarafat xoşuna gəlir, qoy elə səninlə eləsin də.

Bununla da söhbət kəsildi. Nurtən qapını hirslə çırpıb getdi. Orxan isə elə bil qəribə bir yuxu görürdü…

***

Sinfin qızları son vaxtlar Orxana yaman yaxınlıq edirdilər. Tənəffüslərdə onun başına toplaşır, zarafatlaşırdılar. Onlar elə bil ki, Nurtənə yandıq vermək istəyirdilər. Adamın heç inanmağı da gəlmirdi ki, şən, dilli-dilavər, sinifdə yetdiyinə yetib, yetmədiyinə bir daş atan Nurtən indi qaraqabaq, ətiacı bir qıza çevrilmişdir. Bunun səbəbini heç kəs bilmirdi. Tək bircə nəfərdən başqa.

***

O gündən sonra Orxan öz taktikasını dəyişdi. Sən demə adətən sakit, ciddi görünən bu oğlanın qəlbinin dərinliyində incə bir yumor da var imiş. O, tənəffüslərdə uşaqlara lətifələr danışar, onları güldürərdi. Əslində fikri Nurtənin yanında olsa da, qətiyyən qıza baxmaz, sinfin qızları ilə zarafatlaşardı.

"Ailə həyatının etika və psixologiyası" dərsi idi. Məhəbbətdən, onun qarşılıqlı olmasının vacibliyindən söhbət gedirdi. Sual belə idi: "Əsl məhəbbət necə olmalıdır?"

Özlərini sərbəst hiss edən uşaqlar çox maraqlı cavablar verirdilər:

– Hər şeydən əvvəl, ülvi, təmiz, təmənnasız olmalıdır.

– Xoşbəxt o adamdır ki, qızıla, gümüşə, var-dövlətə yox, məhəbbətə baş əyir.

– Məncə, əsl məhəbbətdə qısqanclıq da olmalıdır.

– Əsl məhəbbət o adamda olur ki, gec yatır, bir dəri bir sümük olur.

Kimsə kinayə ilə əlavə elədi:

– Bəli-bəli, şalvar adamın belində qalmamalıdır, köynəyin düymələri olmamalıdır. Gözlər dombalmış, ağız açılmış vəziyyətdə…

Uşaqlar gülüşdülər. Müəllim üzünü Adilə tutdu:

– Bəlkə sən də öz sözünü deyəsən?

Adil zarafatından qalmadı:

– Müəllim, bu sahədə Orxan daha "opıtnıdı", qoy o danışsın.

Yenə də hamı güldü. Söz Orxana verildi. O, məhəbbətin qarşılıqlı olmasının zəruriliyindən danışdı. Rayon qəzetində Novruz müəllimin "Birtərəfli məhəbbət" adlı bir şeri çap olunmuşdu. Oğlan fikrini izah etmək üçün həmin şeri əzbər dedi:

Milyon təbəssümlə qarşımda dursan,
Yoxdur məhəbbətim zərrəcən sənə.
Unutma, sıfırı milyona vursan,
Axırı sıfırdır, sıfırdır yenə.

Sonra o, belə bir lətifə danışdı:

– Bir oğlan bir qızı sevirmiş. Onun gecə-gündüzü yox imiş…

Kimsə söz atdı:

– Elə sənin kimi…

Uşaqlar yenə də gülüşdülər. Orxan isə onlara əhəmiyyət verməyib söhbətinə davam etdi:

– Oğlan hər gün qızı izləyirmiş. Bir dəfə qız dağın üstündə – həyətlərində inək sağırmış. Oğran isə aşağıdan oğrun-oğrun ona baxırmış. Birdən məsələdən hali olan bir

nəfər oğlanı danlayır. Deyir ki, qız səni sevmir. Çıx get, birtərəfli məhəbbətin heç kəsə faydası olmaz. Oğlan isə ah çəkib deyir:

– Sevgilim dağ başında inək sağır,
Əgər qız məni sevmir,
Bəs inək mənə niyə baxır?

Uşaqlar gülüşdülər. Novruz müəllim də onlara qoşuldu. Sonra o, mövzunu yekunlaşdırdı. Məhəbbətin qadir gücündən həyati misallarla söhbət açdı, bədii əsərlərdən nümunələr gətirdi…

***

Azadə Orxana daha çox yaxınlıq edirdi. Onlara göz qoyan Nurtən yanıb yaxılırdı. Ancaq elə bil ki, Orxan ona qəsdən əzab vermək istəyirdi…

Son günlər Nurtən çox qayğılı görünürdü. Müəllim bünövrəsi qarşılıqlı məhəbbət üzərində qurulmayan ailələrdən danışanda istər-istəməz Nurtənin yadına öz ailələri düşdü. Həmişə evə gec gələn, adi bir şey üstündə hər şeyi alt-üst edən, günahsız qadını döyən atası yadına düşürdü. Öz-özünə fikirləşirdi:

– Ah, mənim anam bədbəxtdir.

Qız istər-istəməz düşünürdü: "Görəsən Orxanın atası necə adamdır? Orxan da öz həyat yoldaşına qarşı qəddar olacaqmı?"

Bütün bu düşüncələr yazıq qızı lap üzürdü. Bir yandan da Orxan ona qəsdən yandıq verir, qızı heç adam yerinə qoymurdu.

Nurtən məsləhətləşməyə, dərdini açmağa adam axtarırdı. Ancaq elə bir adam təsəvvür etmirdi ki, ona

kömək edə bilsin. Uşaqlara heç nə demək olmaz. O saat adamı lağa qoyarlar. Anamın öz dərdi özünə bəsdir. Bəs kiminlə məsləhətləşməli?

Bir dəfə ədəbiyyat dərsi qurtardı. Uşaqlar kabinetdən çıxıb getməyə başladılar. Nurtən isə özünü qəsdən məşğul göstərib geri qaldı. Hamının sinifdən çıxdığını yəqin edəndən sonra əlləri əsə-əsə, qəhərdən boğula-boğula Novruz müəllimə bükülü bir kağız uzatdı.

Qız danışa bilmirdi. Müəllim onu çətin vəziyyətdən qurtardı:

– Bu yazını mənə oxumağa verirsən?

Qız titrək səslə dedi:

– Bəli.

– Yaxşı, oxuyub fikrimi sənə deyərəm.

Nurtən duruxdu:

– Müəllim, xahiş edirəm fikrinizi heç kəsə yox, təkcə mənim özümə deyəsiniz.

Qız getdi. Novruz müəllim isə məktubu açmağa tələsmədi. O, özünü o cəhətdən xoşbəxt sayırdı ki, uzun illərdən bəri dərs dediyi şagirdlərin etibarını qazanmışdı. Çətinliyə düşən yeniyetmələr ona yaxın bir sirdaş kimi etibar edirdilər. Müəllim isə bütün varlığı ilə bu etimadları doğrultmağa çalışırdı.

Bir dəfə onuncu sinfi bitirən Sənubər adlı bir qız Novruz müəllimə yaxınlaşıb ona bir dəftər vermişdi. Xahiş etmişdi ki, yazıları oxuyub, onlar haqqında fikrini yazsın.

Novruz müəllim bu dəftəri həyəcanla, maraqla oxumuşdu. Yox, bu adi dəftər deyildi, məktəb həyatının aynası idi. Ən maraqlısı bu idi ki, öz səmimi ürək sözlərini yazan uşaqlar məktəbdəki çatışmayan cəhətləri elə həssas-

lıqla sezib qələmə almışdılar ki, gəl görəsən. Ancaq dəhşət idi. Şagirdlər müəllimlərin çoxuna nifrət edirdilər. Onların ədalətsizliyi, ixtisaslarını yaxşı bilməmələri tənqid olunurdu. Qızlardan biri yazmışdı: "Bütün müəllimlər mənim düşmənlərimdir. Əlimdə imkan olsaydı, onların hamısını qulaqlarından trolleybus xəttindən asardım." Digər bir şagird açıq-açığına yazırdı: "Müəllimlərdən zəhləm gedir."

Bir sözlə, "Ürəyinizdən keçənləri kiminləsə bölüşə bilirsinizmi? Həmin adam müəllim ola bilərmi?" sualına mənfi cavab verirdilər. Özü də cavablar kinayəli ifadələrlə dolu idi…

Bütün bunlar Novruz müəllimi bərk narahat edirdi. Doğrudur, "Sizcə, hansı müəllimin dərsi daha maraqlıdır?" sualına cavab verən uşaqların əksəriyyəti onun adını çəkirdilər. Lakin bununla iş bitirdimi?

Cavablardan bəziləri Novruz müəllimin yadına düşdü: "Novruz müəllimin dərsləri çox maraqlı və canlıdır. Adam həm dərsə qulaq asır, həm də onun məzəli söhbətlərinə. Onun dərslərində adam qətiyyən darıxmır." "Novruz müəllimin və Həsən müəllimin dərslərindən xoşum gəlir. Birindən yaxşı şeylər öyrənirik, ikincidə özümüzdən gedirik"…

Novruz müəllim çox düşünüb daşınmış, axırda Sənubərin xatirə dəftərinə aşağıdakı sözləri yazmışdı: "Sənubər, tərtib etdiyin sualları və onlara verilən cavabları oxudum. Xahişini nəzərə alıb öz münasibətimi bildirmək istəyirəm. Əvvəla, onu deyim ki, mən səndə öz qızımda görmək istədiyim ən yaxşı keyfiyyətlərin təcəssümünü görürəm. Sənin paklığın, səmimiyyətin, çalışqanlığın,

böyüyə ehtiramın, təvazökarlığın mənim xoşuma gəlir. Digər tərəfdən, tərtib etdiyin müsahibə sualları da sənin səviyyən haqqında az söz demir. Bu suallardan birinə – mənim fikrimcə, ən maraqlısına – "Ürəyinizdən keçənləri həmişə kiminləsə bölüşə bilirsinizmi? Bu adam müəllim ola bilərmi?" – sualına özün sözünlə yox, işinlə cavab verirsən. Müsahibə dəftərini müəlliminə etibar etməklə, onun fikirlərini bilmək arzusunu söyləməklə demək istəyirsən ki, ürəkdən keçənləri müəllimlə bölüşmək olar. Ancaq bəs bu müəllim necə olmalıdır? Burada məsələ bir az qəlizləşir.

Yer üzündə müəllim adından şərəfli heç nə təsəvvür edə bilmirəm. Elə bir görkəmli adam – alim, yazıçı, bəstəkar, rəssam… yoxdur ki, müəllimini dərin minnətdarlıq hissi ilə xatırlamasın. Ancaq təəssüf ki, sənin sinif yoldaşlarının bəzisi bu və ya digər dərəcədə müəllim, şagird münasibətlərini əks etdirən birinci, ikinci, doqquzuncu, onuncu və iyirmi birinci suallara lovğa-lovğa, elementar etika gözləmədən cavab verirlər. Onlara bir şeyi xatırlatmaq yerinə düşərdi ki, ustadına kəm baxanın gözlərinə qan damar.

Ancaq onu da etiraf edək ki, şərəfli müəllim adına layiq olmayan, öz ixtisasını lazımi səviyyədə bilməyən müəllimlər də az deyil. Yaxşıdır ki, sənin dostların bunu görə bilirlər. Pisdir ki, özgələrində nöqsan axtaranlar özlərinə tənqidi yanaşmaq haqqında düşünmək belə istəmirlər. Atalar demişkən, öz gözündə tiri görə bilməyənlər özgə gözündə tük axtarırlar. Nə isə...

Bütün bunlar çox düşündürücü məsələlər olduğu üçün sosioloji tədqiqat predmetinə çevrilə bilər.

Qoyduğun digər suallara dostların bəzən elə maraqlı cavablar verirlər ki, düşünməyə bilmirsən. Sözü ifadə tərzi də, incə yumor da yaxşıdır. “İlhamə oxuyanda televizorumuz bayraq kimi dalğalanır” ifadəsi xoşuma gəldi. Əminənin dördüncü suala cavabı maraqlıdır. On altıncı suala Şəfəqin kinayəli cavabı da yaxşıdır və i. a.

Mənə elə gəlir ki, insan öz dərdini, sevincini kiminləsə bölüşməlidi. Hətta müəllimlə də.

Yazıqsan, yoxdursa könül həmdəmin,
Dünyada hər kəsin bir sirdaşı var.
Dərdini bölüşsən, azalar qəmin,
Sevinci bölüşsən, sevincin artar.

Bir ürək həmdəmi halımı sorsa,
Açaram dərdimi, ürək dinc olar.
Ən ağır kədərin ortağı varsa,
O kədər özü də bir sevinc olar.

Ancaq elə məsələlər var ki, onu nəinki müəllimlə, heç kəslə bölüşmək olmur. Bu vaxt ağ kağız insanın imdadına çatır. Qələm insanla kağız arasında körpüyə dönür.”

Novruz müəllim xəyaldan ayrıldı. Onun qarşısında yeni bir məktub var idi. Həmin məktubun hər səhifəsində yelkənsiz bir qayığa bənzəyən, hələ həyatın bərkinə, boşuna təzəcə düşən bir qızın ürək çırpıntıları eşidilirdi: “Əziz və sevimli müəllimim. Nə yaxşı ki, Sizin kimi insanlar var həyatda. Daha doğrusu, nə yaxşı ki, Siz varsınız həyatda. Siz olmasaydınız mən nə edərdim? Kimdən kömək istəyərdim? Elə düşünürəm ki, məktubumu səbr və təmkinlə oxuyub mənə

bir yol göstərəcəksiniz. Bəlkə də 16 yaşlı bir qızın öz uğursuz məhəbbəti, öz ailəsi haqqında yazıb Sizdən kömək umması qəribə gələcək Sizə. Bəlkə də, bu, Sizin həyatınızda rast gəldiyiniz ilk hadisə deyil. Bəlkə də? Nə bilmək olar? Adətən Sizin kimi şəxslər elə düşünürlər ki, bu yaşda sevmək olmaz. Məktəb illərində sevgi boş şeydir. Sadəcə olaraq, kimsə xoşumuza gəldikdə elə bilirik ki, sevirik. Düzdür, məktəb illərinin sevgisi çox zaman ötəri olur və sonralar bu öyrəşmə tədricən soyuyur. Əlbəttə, bu sevgi deyil, bir-birinin xoşuna gəlməkdi. Mən isə belə deyiləm. Müəllim, mən onu – vicdansızı bütün varlığımla, saf qəlbimlə, təmiz ürəyimlə sevirəm. Lakin o, məni sevmir. Hər vasitə ilə mənə iztirab, əzab-əziyyət verməyə qadirdir. Mən bilirəm ki, o, məni anlamır, duymur. Vaxt gələcək ki, o, özü hər şeyi başa düşəcək. Onda isə gec olacaq. Çox gec. Bütün həyatı boyu peşmançılıq hissi onu tərk etməyəcək. Vaxtilə mənə verdiyi əzab-əziyyətdən özü utanacaq, xəcalət çəkəcək. Gərək ürəyin tutsun ki, sevəsən. Ürəyə zor etmək olmaz. Mən onu heç vədə dostlarımın, sinif yoldaşlarımın, yaxud başqa bir kimsənin yanında yamanlamaq istəməmişəm. Ona kin-küdurət bəsləməmişəm. Əfsuslar olsun ki, onun heç kəsi ürəyi tutmayıb. O, ildə birini "sevir". Fəqət çox yanıram ki, nə üçün onu unutmuram? Bacarmıram ürəyimlə. Bütün varlığımla ona elə bağlanmışam ki, heç bir qüvvə mənim ona olan sevgimi məhv edə bilməz. Bacarsam, özüm boğacağam sevgimi. Bacarmasam da, daha neyləmək olar.

İndi fikrinizdən keçəcək ki, əgər mən özüm unuda bilmirəmsə, buna Siz nə edəsiniz? Ancaq hər halda Sizin məsləhətiniz vacibdir. Sizin sözünüzdən çıxmaram.

Müəllim, ailəmiz haqqında da Sizə bir neçə söz demək istəyirəm. Bizim dərdimizə heç bir çarə edə bilməzsiniz. Heç mən özüm də razı ola bilmərəm ki, Siz mənim atama nəsihət verəsiniz. Çünki bu hadisədən sonra bizim evdə daha çox dava, münaqişə olar. Üç uşağıq. İki qardaş, bir bacı. Anam da işləyir, atam da. Bu yaxınlarda anam çox ağır xəstəliyə tutulub. İndi xəstəxanada yatır. Atam anamın kəsilib atılan bir dırnağı da ola bilməz. O, çox qəddar adamdır. Hər gün heç nəyin üstündə yazıq anam döyülür, söyülür. Mənim anam kimi bir adamı o zarıncı etdi, yorğan-döşəyə saldı. Məgər belə ata olar? Müəllim, ürəyim partlamaq dərəcəsinə gəlir. Nə yaxşı ki, Siz varsınız. Dərdimi Sizə deməklə yüngülləşmişəm. Çox rahat olmuşam. İnanın ki, evdə oturmaq istəmirəm. Məktəb də bir tərəfdən. Evdə atam, məktəbdə o. Siz deyin, mən nə etməliyəm? Mənə bir yol göstərin. Ürəyim az qalır partlasın. Əsəblərim pozulub. Kaş Siz məni başa düşəydiniz, müəllim! Hər şey mənə cansıxıcı görünür. Həyatdan bezmişəm. Elə ölmək istəyirəm ki! Mən ondan özgəni sevə bilmirəm. Anamın dərdi də bir tərəfdən. Bircə anam sağalsaydı, bircə onu unutsaydım?! Gör nə qədər məcbur olmuşam ki, Sizə məktub yazıram. Əgər mən onu unuda bilsəm, ömrüm boyu Sizə minnətdar olaram… Hörmətlə, N.”

Novruz müəllim düşüncələrə daldı. Öz şagirdinin taleyi onu kövrəltdi. Onu ovundurmaq üçün yollar axtardı…

Səhərisi gün dərs qurtaranda müəllim Nurtənə dedi:

– Qızım, sən getmə, sənə bir-iki sözüm var.

Uşaqlar sinifdən çıxmağa başladılar. Orxanın ürəyi həyəcanla döyündü. Ürəyində qısqanclıq duyğuları baş qaldırdı. Elə bil Nurtən də bunu hiss etdi.

Hamı gedəndən sonra müəllim aramla sözə başladı.

– Nurtən, səni iki məsələ narahat edir. Ailənizlə bağlı məsələ məni daha çox düşündürür. Bax budur qarşılıqlı olmayan məhəbbətin aqibəti. Sən elə etməlisən ki, ananın səhvlərini təkrar etməyəsən. Bir də məsləhətim budur ki, özünü ləyaqətli aparmağa çalış. Tez ruhdan düşmə. Xətainin "Dəhnamə" əsəri yadına düşürmü? Yalnız dözüm, inam nəticəsində aşiq öz sevgilisinə qovuşa bilir. Özünü vüqarlı aparır. Ulu Füzulinin bu sözlərini heç vaxt yadından çıxarma:

Qızsan, ucuz olma, qədrini bil!

Əgər dediklərimə qulaq assan, hər şey yaxşı olacaq. Axır vaxtlar gözümə bir təhər dəyirsən. Çalış həmişə nikbin olasan…

Bununla da söhbət qurtardı. Nurtən məktəbdən çıxıb vüqarlı addımlarla evə tərəf getdi. O, öz kürəklərində Orxanın odlu baxışlarını hiss edirdi…

***

Riyaziyyat müəlliminin tərifini göyə qaldırmışdılar. Direktor həmişə ondan ağızdolusu danışar, müəllimlərə nümunə göstərərdi. Orxanın isə həmin müəllimdən qətiyyən xoşu gəlmirdi. Çünki o, müəllimdən daha çox cəllada oxşayırdı. Onun dərsində milçək uçsa, vızıltısı eşidilərdi. Dərs deməyə gəldikdə isə… Müəllim mövzunu anlaşılmaz bir dildə izah edər, sonra soruşardı:

– Başa düşdünüz?

Hamı bir ağızdan deyərdi:

– Bəli.

Kimin həddi var idi ki, ona sual versin.

Orxan ilk vaxtlar Baba müəllimə sualla müraciət etmişdi. Müəllimin onsuz da qara olan sifəti bir az da qaralmışdı. O, hikkəli- hikkəli çımxırmışdı:

– Ə, düdük, məni imtahana çəkirsən?

Əlbəttə, Orxan da onu cavabsız qoymamışdı. Ürəyində "Düdük sənin özünsən", – demişdi. Ancaq o gündən riyaziyyat müəllimi yazığı gözümçıxdıya salmışdı.

Yaxşı ki, Orxanın dayısının riyaziyyatdan əməlli-başlı başı çıxırdı. O, öz bacısı oğlunun bilmədiyi mövzuları əməlli-başlı izah edirdi. Lakin Orxanın məsələ-misal dəftərini Mısmırıq Ciddizadə (Orxan riyaziyyat müəlliminə belə ad vermişdi) bir dəfə də olsun yoxlamamışdı. Yoxlama işlərinə isə "3"-dən başqa qiymət yazılmırdı. "İki eşşəyin arpasını bölə bilməyən" uşaqlar isə "4" və "5" qiymətlər alırdılar. Mısmırıq Ciddizadə qiyməti biliyə görə yox, uşaqların davranışına görə verirdi. Bu, Orxana çox pis təsir edirdi. O, hey fikirləşir, vəziyyətdən çıxış yolu axtarırdı.

Orxan dözə bilmirdi. O, düşündüklərini açıq-açığına müəllimin üzünə deməyə hazırlaşırdı. Heç nədən çəkinmirdi. Təkcə fikirlərinin hamısını deyə bilməməkdən qorxurdu. Ona görə qərara gəldi ki, Mısmırıq Ciddizadəyə açıq məktub yazıb divar qəzetinə versin. O, məktub yazdı, ancaq divar qəzetinə yox, elə Mısmırıq Ciddizadənin özünə verdi.

Mısmırıq Ciddizadə kömür kimi qaraldı. O, uşaqların hamısını çölə çıxarıb qapını örtdü və Orxanın üstünə cumdu.

Orxan elə bil yuxu görürdü. Ağzına, burnuna dəyən zərbələr onu yerə sərdi. Bir də ayılanda gördü ki, üzünə su çiləyirlər. Uşaqların arasında Nurtəni görəndə lap kövrəldi, qəhər onu boğdu. Xəcalətdən yerə girmək istədi.

Uşaqlar onu evə apardılar. Orxan yenə də dayısına heç nə demədi. Futbol oynayanda yıxıldığını söylədi.

***

Mısmırıq Ciddizadə bərk qorxmuşdu. Ona elə gəlirdi ki, Orxan evdə hər şeyi deyəcək, bundan sonra isə vəziyyət tamamilə korlanacaqdı.

Aradan bir həftə keçdi Heç bir səs-səmir çıxmadı. Mısmırıq Ciddizadə yavaş-yavaş arxayınlaşdı. O, jurnalı oxuyanda belə Orxanın adını çəkmirdi. Uşaqların əksəriyyəti bundan narahat olsalar da, Orxandan söz qopara bilmirdilər.

Orxan isə ruhdan düşmürdü. Elə hey Martin İdenlə xəyali söhbət edirdi. Qəribədir, bu söhbətlərdən sonra Mısmırıq Ciddizadə ona çox cılız görünürdü. Orxan heç nəyi vecinə almırdı. Bircə Nurtəndən utanırdı.

Orxan çox düşündü, daşındı, axırda redaksiyaya aşağıdakı məzmunda bir məktub yazdı: "Hörmətli redaksiya. Bu məktubu Sizə yazmağa məni bəzi məsələlər, məktəbimizdə təlim-tərbiyə işlərinin aşağı səviyyədə olması vadar etdi. Direktorumuz təlim işlərini tamamilə unudub. O, məktəbi bəzəməklə gələnlərin gözünə kül üfürür. Təsadüfi deyil ki, öz aramızda ona Bəzək Düzəkzadə adı vermişik. Nə isə…

Bir az da özüm haqda. Desəm ki, yaxşı oxuyuram, bu ağ yalan olar. Ona görə ki, qiymətlərimin əksəriyyəti korlanıb. Əlbəttə, burada əsas günahlar mənim özümdədir, ancaq müəllimlərimin də təqsiri az deyil.

Mən ədəbiyyatçı olmaq istəyirəm. Bunun üçün çox oxumalı, çalışmalıyam. Əlbəttə, oxuyuram. Amma müəllimlərin vicdansız hərəkətlərini görəndə adamın özünə olan

inamı itir. Bütün arzularım məhv olub gedir. Bu qiymətlərlə ali məktəbə qəbul ola biləcəyəmmi?

Bir dəfə riyaziyyat müəllimimizə təxminən aşağıdakı məzmunda bir məktub yazdım:

"Hörmətli baba müəllim. Öz-özümə düşünürəm ki, həyat niyə belədir? Niyə vicdansızlar, öz işlərinə səhlənkar yanaşanlar, yalançılar, ikiüzlülər öz cəzalarına çatmırlar? Siz müəllimdən çox despota oxşayırsınız.

Müəllimin birinci vəzifəsi öyrətməkdir, hərbə-zorba gəlmək yox. Siz azad fikirlərin inkişafını Xudayar bəy kimi dəyənək gücünə boğursunuz. Özünüz başqa vaxt düzgünlükdən, təmizlikdən dəm vurursunuz. Lakin Sizin hərəkətlərinizlə sözlərinizin arasında dərin bir uçurum var. Siz qiymətləri düzgün yaza bilmirsiniz. Mən başa düşə bilmirəm ki, Siz müəllim kimi şərəfli adın ağır yükünü öz çiyninizdə necə gəzdirirsiniz?

Nə isə, sözü uzatmaq istəmirəm, lakin yadınıza bir məsəli salmaq istəyirəm. Nəhayət, elə bir vaxt gələcək ki, dəmir qapının da taxta qapıya işi düşəcək.

Mənə riyaziyyatdan "3" yazmısınız. Ancaq heç Sizin özünüz də riyaziyyat fənnini düz-əməlli bilmirsiniz. Nə isə… Siz müəllimlər hamınız bir bezin qırağısınız. Mənim üçün təkcə Novruz müəllim əzizdir…

Sağ olun. Hörmətlə, şagirdiniz Orxan."

Əlbəttə, məktubu bura olduğu kimi köçürə bilmirəm. Təxminən yadımda qalanları yazdım.

Məktubu oxuyan müəllim bomba kimi partladı. Uşaqları sinifdən çıxarıb, məni yumruğun altına saldı. Mən bunu açıb-ağartmadım. Üstəlik direktorumuz məndən tələb

edir ki, gedib Baba müəllimdən üzr istəyim. Ancaq məni məktəbdən qovsalar da, üzr istəyən deyiləm.

Sinif yoldaşlarım məni müdafiə etmək istəyirlər. Ancaq özüm razı olmuram. Qorxuram ki, onları da mənim günümə salalar.

Üzdə özlərini hər şeydən xəbərsiz göstərmək istəsələr də, hiss edirəm ki, başqa müəllimlər də mənə qərəzli münasibət bəsləyirlər. Hələ evdə heç kəsə bir söz deməmişəm. Ümidimi Sizə bağlamışam.

Hörmətlə, Orxan Vəlizadə."

Orxan məktubu zərfə qoydu Üstünə ünvan yazıb onu poçt qutusuna atdı. Elə bil ki, onun çiynindən dağ götürüldü…

***

İmtahanlara az qalırdı. Orxanın gözü yolda, qulağı səsdə idi. Bir gün katibə sinfə girdi və soruşdu:

– Vəlizadə Orxan kimdir?

– Mənəm.

– Direktorun yanına get.

Hamının nəzərləri Orxana sarı çevrilmişdi. Narahat baxışlar onu sinifdən çıxanadək müşahidə etdi.

Direktor Orxanı qaş-qabaqla qarşıladı:

– Sən redaksiyaya məktub yazmısan?

– …

-Səninləyəm, eşitmirsən?

– Yazmışam.

Söhbətdən hiss olunurdu ki, direktor məktubun məzmunundan xəbərdardır. O, Orxana dedi:

– Oğlum, bu sənin işin deyil. Gəl sən doğrusunu boynuna al. Qorxma, bundan sonra sənin dərslərinə özüm

nəzarət eləyəcəyəm. Qiymətlərinin hamısını düzəltdirəcəyəm. Ancaq sən mənə düzünü de, kimin öyrətməsi ilə məktub yazmısan?

– Heç kimin. Məktubu özüm yazmışam.

– A bala, mən məktəbdə saç-saqqal ağartmışam. Bilirəm ki, sənin bu işdə zərrə qədər də günahın yoxdur. Yəqin ki, səni Novruz müəllim öyrədib. Elə o, bizim də canımızı boğazımıza yığıb.

– Xeyir, bu yalandır, məktubu özüm yazmışam.

– Səfeh, inadkarlıq eləmə. Onsuz da hər şey bizə aydındır. Məktubunun dalınca rayona müxbir gəlib. O, hələlik təhsil şöbəsindədir. Bura gələndə ona deyərsən ki, məktubu Novruz müəllimin diqtəsi ilə yazmısan. Qalanı ilə işin olmasın.

Orxan dinmədi. İndi ona hər şey aydın idi. O, heç vaxt belə iş görməzdi. Novruz müəllim kimi savadlı, uşaqların psixologiyasını dərindən bilən, ədalətli, pedaqoji şuranın iclaslarında xəncər kimi iti sözləri ilə müəllimciklərin bağrını yaran bir adamı ləkələmək istəyirdilər.

Direktor susmağı razılıq əlaməti kimi qəbul etdi:

– Yaxşı get, dediklərimi unutma!

***

Müxbir çəlimsiz, lakin boyca çox hündür bir oğlan idi. O, direktorla sinfə girəndə uşaqlar gülümsündülər. Direktorun başı müxbirin çiyninə zorla çatırdı.

Müxbir uşaqlarla salamlaşandan sonra soruşdu:

– Orxan kimdir?

Orxan ayağa qalxdı.

– Orxan, bu məktubu sənmi yazmısan?

– Bəli.

Direktor əlavə etdi:

– Başqalarının, işimizə mane olmaq istəyənlərin diqtəsi ilə.

Orxan özünü saxlaya bilmədi:

– Xeyir, qətiyyən belə deyil. Cənab jurnalist, əgər məsələnin mahiyyəti Sizi maraqlandırırsa, bizimlə direktorun iştirakı olmadan söhbət edin.

Direktor əvvəlcə getmək istəmədi. Müxbirin xahişindən sonra qapını hirslə çırpıb çıxdı.

Orxan başına gələnlərin hamısını bircə-bircə danışdı. Sonra uşaqlara söz verildi. Azad ayağa qalxdı:

– Bizim sinfimiz çox yaxşı sinif idi. Orxan bu sinfə gələndən işləri korlayıb. O, katalizator kimi bizim uşaqların arasına, hətta bütün məktəbə qatışıqlıq salıb.

Sonra Azadə söz istədi:

– Yalandır. Orxanın gəlişi Azad kimi atamanlıq eşqində olanların əl-qolunu əməlli-başlı bağlayıb. Orxan yaxşı ictimaiyyətçidir. Divar qəzetinin redaktorudur. Baba müəllimə gəldikdə isə, adam ona heç müəllim də demək istəmir. Müəllimliklə qoluzorluluq eyni araya sığmaz. Sinfə məsələ, misal verib özü çayxanaya qaçan müəllimdən nə gözləyəsən? İki sinfi birləşdirib dəhlizə çıxan, başqa müəllimə “iki sinfi birləşdirmişəm, bekaram, gəl söhbət eləyək!” – deyən Baba müəllimin sözlərini öz qulaqlarımla eşitmişəm…

Sonra o biri uşaqlar danışdılar. Hamının ürəyi dolu idi. Orxanı tənqid eləyənlər də tapıldı. Lakin onu müdafiə edənlər daha çox idi.

Müxbir çox şey öyrəndi. Sinif jurnalını nəzərdən keçirib, müəyyən qeydlər apardı. Sonra o, direktorun otağına getdi…

***

Aradan bir müddət keçdi. Baba müəllim yenidən əl-qol açmağa başladı:

– İndi də şikayətə qurşanmısan? Demaqoqun biri demaqoq. Elə bilir sən qəzetə şikayət yazmaqla məndən yaxşı qiymət alacaqsan? Örkən nə qədər uzun olsa, yenə doğanaqdan keçəcək, bala.

Hay-küy qopdu. Uşaqlar bir-bir sinifdən çıxırdılar. Müəllim nə qədər qışqırdısa, əhəmiyyət verən olmadı. Səs-küyə direktor çıxdı:

– Bu nə hay-küydür, keçin sinfə.

Uşaqlar hamısı birağızdan qışqırdılar:

– Biz Baba müəllimi istəmirik.

Sinif coşmuşdu. Kollektivin səsi yaman gur olurmuş. Təəssüf ki, Orxan bunu uzun müddət hiss edə bilməmişdi…

***

İmtahanlara lap az qalmışdı. Azadə əlində qəzet hay-küylə içəri girdi. Orxana üz tutub dedi:

– Təbrik edirəm.

Orxan əvvəlcə bir şey başa düşə bilmədi. Azadə qəzetdə məktəb haqqında çıxan geniş tənqidi məqaləni göstərdi. Məqalənin başlığı belə idi: “Məktəbdə hər şey nurlu olmalıdır.”

Azadə məqaləni oxuyur, uşaqlar isə qulaq asırdılar. Məqalədə göstərilirdi ki, məktəbdə təlim-tərbiyə işi aşağı səviyyədədir. Müəllimlər öz nüfuzlarını itiriblər və i. a.

Kəskin tənqidi məqalədən sonra Baba müəllimə şiddətli töhmət verildi. Pedaqoji şuranın qərarı ilə onu yuxarı sinifdə dərs keçmək hüququndan məhrum etdilər. Direktoru da vəzifədən götürdülər. Sən demə onun işində uşaqların bilmədiyi çox-çox ciddi nöqsanlar var imiş.

Orxan çox sevinirdi. Haqq işin qalib gəlməsi onun həyata inamını artırmışdı. O, məktəbdən çıxanda qapıda Nurtənlə qarşılaşdı. Orxan məhəbbətlə gülümsədi. Qızın da üzünə təbəssüm qondu. Orxan bu təbəssümün işığında öz gələcəyini, xoşbəxt günlərini görürdü elə bil. O günlərə qovuşmaq üçün isə çox mübarizə aparmaq lazım gələcəkdi. Qarşıda hələ çoxlu imtahanlar dururdu…

**1990**

# MEDAL

Hər şey bu medal sözündən başladı. Gülyaz əvvəllər bu sözü çox eşitmişdi. Ancaq onun bu qədər hökmə, qüdrətə malik olduğunu birinci dəfə hiss edirdi.

Üçüncü rübün axırları idi. Məktəbin təzə direktoru ən fəal, çalışqan uşaqlardan biri hesab olunan Gülyazı yanına çağırdı. Ona bərk-bərk tapşırdı ki, atan mütləq məni görsün.

Gülyazın atası düzlüyə, həqiqətə güvənən bir adam idi. Həyat yollarında o, çox haqsızlıqlar görmüşdü. Ancaq heç vaxt öz sözündən dönməmiş, arzuları, əməllləri uğrunda yorulmadan mübarizə aparmışdı.

Orta məktəbdə tarix imtahanı idi. İki sinifdə oxuyan 72 şagirddən təkcə o, bilet çəkib suallara ətraflı cavab vermişdi. Qalanlar isə bilet götürmüş, onun nömrəsi imtahan protokoluna daxil edilmiş, bununla da iş bitmişdi. Lakin hər şey əksinə olmuşdu; ağzını açıb danışmayanların əksəriyyətinə “ədalətli” müəllimlər “5”, Gülyazın atasına isə “4” yazmışdılar. Lakin bu hələ harası idi. Ali məktəbi bitirəndə ondan qat-qat səviyyəsiz adamlar institutda saxlanılmış, onun qismətinə isə adicə bir fəhlə yataqxanasında tərbiyəçi müəllim olmaq payı düşmüşdü. Ancaq o, fəhlələrin arasında ikinci bir məktəb keçmişdi, həyat məktəbi.

Raufun, yəni Gülyazın atasının ilk dəfə idarə rəisinin qəbuluna girməyi lap aləm bir mənzərə idi. Yüz çək-çevirdən sonra onu işə götürmək istəyirdilər. Ali məktəb partası arxasından təzəcə aralanmış, işıqlı ideallar uğrunda qanad çalan, uca-uca zirvələr fəth etmək istəyən bir adamın birdən-birə qanadı qırılmış, özünü “on beş şahılıq beçə kimi

çəkən", təpədən dırnağacan inzibatçı bir Mənzil İstismar İdarəsi müdirinin kabinetinə düşmüşdü. Bu kabinetdə Raufun diqqətini ən əvvəl cəlb edən kor-kobud rezin parçasından düzəldilmiş yekə bir milçəköldürən olmuşdu. Özü də o, rəisin stolunun üstündə idi. Qəribə idi ki, bu kabinetdə rəisə yaraşan bircə əşya var idisə, o da bu milçəköldürən idi. Hiss olunurdu ki, rəis işçilərini də bu milçəköldürənlə vurmaq arzusundan o qədər də uzaq deyil.

Rauf dönüb kabineti nəzərdən keçirdi. Gözünə bir dənə də olsun milçək dəymədi. Elə təzəcə rəisin təmizkarlığı haqqında düşünmək istəyirdi ki, idarə müdiri qəflətən milçəköldürəni götürüb divara çırpdı. Ancaq sən demə bu milçəköldürən zəngi əvəz edirmiş. O, divara çırpılan kimi qapı açıldı, dodaqları, sir-sifəti çərşənbə yumurtası kimi boyanmış katibə içəri daxil oldu. Rəis Raufun sənədlərini ona verib tapşırdı ki, kadrlar şöbəsinin müdirinə de, qoy əmrini versin.

Beləliklə, Rauf – Gülyazın atası fəhlə yataqxanasında tərbiyəçi kimi işə başlamışdı. Onun dikbaşlığı, müdir qarşısında boyun əyməməsi, yeri gəldikcə həqiqəti açıq-aşkar rəisin üzünə deməsi adamlara çox qəribə təsir bağışlayırdı.

Raufun tərbiyəçi təyin edildiyi yataqxananın komendantı çox sərt, acıqlı, ağzına gələni deyən, söyüş söyməkdən belə çəkinməyən bir arvad idi. Bir dəfə idarə rəisi iclasda komendanta acıqlanıb deyibmiş ki, ay arvad, o müəllimi niyə sıxma-boğmaya salmırsan? Qulağından tut, işlət.

Hamının söyüşkən, həyasız bir qadın kimi tanıdığı komendant isə çox gözlənilməz bir cavab vermişdi:

– Yoldaş rəis, mənim müəllimim o qədər mədəni bir oğlandır ki, ona söz deməyə belə utanıram.

İclasdakılar gülüşmüşdülər. Yerdən söz atanlar da olmuşdu:

– Baho, müəllim bu ipə-sapa yatmayan arvadı ram eləyə bilibsə, deməli, xalis ovsunçudu.

Zalda yenə gülüşmə qopmuşdu. Rauf müəllim yaşca özündən qat-qat böyük, saçlarına dən düşmüş, ehtiyac ucbatından yataqxanaya qısılmış adamlara nə tərbiyə verməli idi ki?! Ancaq o, eləcə də onun özü kimi cavan, ali məktəbi bitirən kimi tərbiyəçi təyin edilən yaşıdları işə girəndən yataqxanalarda ümumi ab-hava dəyişmişdi. Tez-tez maraqlı disputlar təşkil edilir, şair və yazıçılarla görüşlər keçirilirdi. Qırmızı guşələrin qapısı sakinlərin üzünə taybatay açılmışdı. “Sakit otağ”ın sakit günləri pozulmuşdu. Ali məktəbə daxil olmaq istəyənlər həmin otağa gəlir, gecə yarıdan keçənə kimi imtahanlara hazırlaşırdılar.

Dəstə ilə işə qoyulmuş cavan müəllimlər yataqxana sakinlərindən çox Mənzil İstismar İdarəsinin kobud, yonulmamış işçilərini, qışqır-bağır salmaqdan, “müəllimləri qulağından tutub işlətməkdən” başqa heç nəyi bilməyən komendantları tərbiyələndirirdilər. Qəribə idi ki, bu adamların çoxu söyüş söyməyi tərgitmişdilər.

“Belə ola həmişə” mahnısı təzəcə efirdə səslənirdi, dəbdə idi. Rauf mahnının sözlərini dəyişmiş, gülməli bir mətn alınmışdı. Özü də bu mahnı yataqxanada dillər əzbəri olmuşdu:

…Gör nə qədər qısaltdıq həsrətin mənzilini,
İclasda çıxartdılar Qəzənfərlə Zilini,
Əsgəralı iclasda işə salcaq dilini,

Zaldakılar hamısı başladılar gülüşə,
Belə ola həmişə!

İncimə, ay Qəzənfər, dünya belə dünyadı,
Komendat elədilər tərbiyəçi Bünyadı,
Heç kəs rast gəlməmişdi,
Hələ belə bir işə,
Belə ola həmişə!

Mahnının sözləri uzanıb gedirdi. Özü də bu qondarma mahnıdan sonra işçilər bir-birlərinə salam vermək əvəzinə deyirdilər:

– Belə ola həmişə!

Gülyazın atası sonra uzun müddət orta məktəbdə müəllim işləmiş, uşaqların, valideynlərin, müəllimlərin rəğbətini qazanmışdı. O, məktəbdə də haqsızlıqla üzləşmişdi. Ancaq öz üzərində daim işləməsi, ixtisasını yaxşı bilməsi onun dilini uzun eləmişdi. Elə buna görə də məktəbin bürokrat rəhbərləri arxada onun kölgəsini qamçılasalar da, üzdə heç nə deyə bilmirdilər.

Rauf aspiranturaya sənəd verəndə çoxu ona kinayəli sözlər deyirdi. İztehza ilə ağız büzənlərin isə sayı-hesabı yox idi. Lakin Rauf aspiranturaya qəbul olundu, namizədlik minimumlarının hamısından əla aldı. Müvəffəqiyyətlə dissertasiya müdafiə etdi…

Gülyazın atası son vaxtlar bərk xəstələnmişdi. Hamı çalışırdı ki, onu əsəbiləşdirməsin. Ona görə də qız əvvəlcə direktorun çağırışı haqqında atasına bir söz demək istəmədi. Çox fikirləşdi. Sonra əlverişli məqam tapıb dedi ki, ata, məktəbimizin direktoru səni görmək istəyir.

Rauf narahat oldu Ancaq Gülyazın məktəbdə nəsə ləyaqətsiz bir iş görməsinə də inana bilmədi. Çünki bu on ildə qızı haqqında bir dəfə də olsun şikayət eşitməmişdi. Doğrusu, o, valideyn iclaslarına da çox az-az gedirdi. Çünki müəllimlərin boş-boş, lüzumsuz söhbətləri, uşaqların nadincklikləri haqqında giley-güzarları onu əsəbiləşdirirdi. Dərsdə uşaqları sakitləşdirə bilməyən müəllimlərdən onun zəhləsi gedirdi. Deyirdi ki, belələrini müəllim hesab etmək də günahdır.

Gülyaz atasının narahat olduğunu hiss etdiyi üçün əlavə etdi:

– Ata, narahat olma, işlərin hamısı öz qaydasındadır. Bəlkə də Şakir müəllimin səninlə şəxsi işi var?

Direktor Raufu çox mehribanlıqla qarşıladı. Dedi ki, Rauf müəllim, maşallah, Sizin qızınız çox yaxşı uşaqdır. O, həm tərbiyəli, həm də çalışqandır. Məktəbin ictimai işlərində də yaxından iştirak edir. Qiymətlərinin də hamısı əladır. Müəllimlərinin hamısı ondan razılıq edir. Doğrusu, biz istəyirik ki, onu medala təqdim edək. Bilmirik Sizin fikriniz necədir?

Raufu elə bil cərəyan vurdu. Çünki o, medalın nə demək olduğunu çox yaxşı bilirdi. Ona görə bir qədər duruxdu. Sonra açıq-açığına, mərdi-mərdanə dedi:

– Hörmətli direktor, qızımı təriflədiyinizə, ona bəslədiyiniz etimada görə çox sağ olun. Amma yadıma ataların bir sözü düşür: “Örtülü bazar, dostluğu pozar.”

Direktorun gözlərinə elə bil işıq gəldi. Rauf isə öz söhbətini davam etdirdi:

– Siz mənim qızımın medala layiq olmağına əminsinizmi?

– Bəli, heç buna şəkkim-şübhəm də yoxdur.

– Əgər layiqdirsə, nə deyirəm, verin. Hansı ata istəməz ki, onun övladı orta məktəbi medalla bitirsin?

– Rauf müəllim, özünüz bilirsiniz də… Zəmanə bir az xarab olub axı…

Rauf o saat məsələni anladı. Sifəti daha da ciddiləşdi:

– Şakir müəllim, gəlin açıq danışaq. Mən bilirəm ki, medalı elə-belə vermirlər. Onun qiyməti də camaat arasında ağızdan-ağıza gəzir. Mən hələ bu vaxtadək haram tikə yeməmişəm. Heç kəsin yanında gözüm kölgəli də deyil. Bir adama rüşvət verdiyim də yadıma gəlmir. Sizinlə açıq danışdığım üçün məni bağışlayın. Əgər qızım medala layiqdisə, verin, layiq deyilsə, yox. Bəri başdan deyirəm, əvvəla, mənim maddi imkanım yoxdur. İkincisi, imkanım olsa da, bir kəsə qara qəpik də verən deyiləm.

Müdir duruxdu. Əvvəlcə nə deyəcəyini bilmədi. Sonra handan-hana dilləndi:

– A kişi, Sizdən pul istəyən kimdi? Ayıb deyil?

Beləliklə, söhbət qurtardı. Pedaqoji şuranın qərarı ilə Gülyaz medala təqdim olundu. Elə həmin andan ailənin narahat günləri başlandı…

Sən demə medalın iki üzü var imiş. Onun bir üzündə təmizlik, halallıq bərq vurur, o biri – gözə görünməyən üzündə isə xəbislik, natəmizlik, haramlıq uyuyurmuş. Medalın ikinci üzündəki cılız, mənəviyyatsız müəllimlər, öz ciblərini güdən yaxşı geyimli, qalstuklu, dilləri həqiqət, ədalət sözündən qabar tutan, əslində isə hər şeyi pulla ölçən "mədəni dilənçilər" – rüşvətxorlar marıqda dayanıbmışlar.

Bu mənəviyyatsız adamlar üçün əsl meyar bilik yox, verilən pulun, edilən "hörmət"in qədəri imiş. Nağıllardakı

suyun önünü kəsən, qurban almamış şəhərə, kəndə bir qətrə su buraxmayan əjdahalar kimi bu qalstuklu əfilərin də gözü puldadır. Pul görəndə o gözlərin dərinliyində hərislik, tamahkarlıq hissləri ulduzlar kimi bərq vurur. Beləlkəri paylarını almasalar, qatığa qara deməkdən də çəkinməzlər. Müəllimdən direktora, direktordan maarif şöbəsinə, maarif şöbəsindən nazirliyədək uzanan bu al-al, ötür-ötür oyunu bizim gələcəyimizi kor qoyur, uşaqlarımızın təmiz, pak ürəyinə ilk ləkə kimi daxil olur. Parlaq, işıqlı və əlçatmaz medalla onu almaq istəyən istedadlı uşağın arasında elə bir dərin uçurum var ki, onun üstündən yalnız pulla körpü salmaq mümkün imiş. Gülyazın atasında isə o qədər pul nə gəzirdi…

Tutalım ölüm-zülüm, əsəblərinin, mübarizənin hesabına bir təhər medal aldın. Lakin bununla iş bitirmi? Özləri bir zərif çiçəyi xatırladan, həyatın bərk-boşuna, isti-soyuğuna hələ öyrəşməmiş bu yeniyetmələrin yolunu ali məktəblərdə yeni-yeni əjdahalar gözləyir…

***

Tanışım olan, sirrini, sözünü məndən gizləməyən bir məktəb direktoru neçə il bundan əvvəl belə bir medal əhvalatı danışmışdı. O deyirdi ki, atası kalan olan bir uşağa medal vermişdik. A kişi, sən demə dəymiş olub lüt olmaqdansa, kal olub kalan olmaq yaxşı imiş. Həmin kalan valideynin səxavəti nəticəsində hamının payı artıqlaması ilə çatmışdı. Sözün düzü, uşaq da əfəl deyildi. Əslində elə medala layiq idi. Ancaq vahimə içindəydik. Bilirdik ki, uşaq ali məktəbə qəbul olunmasa, nazirliyin kollegiyasında bizi məhşər ayağına çəkəcəklər. Ona görə səxavətli dostumuza

bərk-bərk xahiş etmişdim ki, nəyin bahasına olur olsun, oğlunu ali məktəbə düzəltsin. O da söz vermişdi ki, heç nəyi qızırğalanmayacaq.

Həmin valideyn müəyyən vasitələrlə qəbul imtahanına düşən müəllimlərdən birini tapır, ona külli miqdarda pul təklif edir. Ümumi razılığa gəlirlər. Uşağın özü ilə də tanış olan müəllim tapşırır ki, siyahı oxunanda adın başqa yerə düşsə də, qorxma. Mən hansı otağa girsəm, sən də mənim dalımca gələrsən. Təsadüfən elə uşaq elə həmin müəllimin imtahan götürəcəyi qrupa düşür. Bir qədər arxayınlaşır. Ancaq atalar demişkən, sən saydığını say, gör fələk nə sayacaq?

Müəllim ona tapşırılan oğlanın imtahan vərəqinə "2" yazır. Yazıq uşaq tamamilə çaş-baş qalır. Sizə elə gəlməsin ki, müəllim oğlanı tanımayıb. Yox, qətiyyən belə deyil. Haqqı əvvəldən çatmayan müəllim valideynin dəbbələyəcəyindən qorxub və medalla qurtaran oğlana "2" verməkdən başqa çarəsi qalmayıb.

Ta haray hara çatasıdı? Valideyn kor-peşiman, başı alovlu mənim üstümə gəldi. Təsadüfən qəzetlərin birində Rusiya şəhərlərinin birindəki ali məktəbin əlavə qəbul haqqında elanını oxumuşdum. Valideyni tovlayıb, ona uşağı başqa şəhərə aparmağı məsləhət gördüm.

Bir-iki həftədən sonra həmin valideyn şad xəbərlə qayıtdı. Oğlu kənar şəhərdə ilk imtahandan "5" alıb ali məktəbə qəbul olunmuşdu.

Valideyn mənim xahişimlə başına gələnləri danışdı:

– Mən güc-bəla ilə, tanışlıqla bilet alıb özümü həmin şəhərə çatdırdım. Qəbul komissiyasında bir suyu şirin adama yaxınlaşdım. İşdən sonra onu restorana apardım.

Yedik-içdik, səmimiləşdik. Dərdimi ona söylədim. Məlum oldu ki, dünəndən sənədlərin qəbulu dayandırılıb.

Təzə tanışım çox düşündü, daşındı, nəhayət, mənə məsləhət gördü ki, sənədləri poçtlardan birinə aparım. Bir təhər dil tapıb "banderol"un üstünə üç-dörd gün əvvəlki tarixli poçt möhürü vurdurum.

Taksi ilə poçtları ələk-vələk elədim. Heç kəs xahişimi yerinə yetirmədi. Nəhayət, üz-gözündən yeyib-içmək tökülən bir poçt müdiri ilə dil tapa bildim. İki konyak verib, banderolun üstünə köhnə tarixli möhür vurdurdum. Sənədləri qoltuğuma vurub həmin tanışımın yanına getdim. Onun diktəsi ilə institutun rektorunun adına bir şikayət ərizəsi yazdım. Ərizədə göstərdim ki, övladımın sənədlərini beş gün əvvəl göndərmişəm, ancaq nədənsə oğlumun adını imtahana buraxılanların siyahısına daxil etməyiblər.

Bu ərizədən sonra poçtla "vaxtında" gələn sənədləri gözündən qaçırdığına görə təzə dostuma töhmət verdilər və mənim oğlumu imtahana buraxdılar. Gözlərimə inanmadım. Oğlum elə birinci imtahandaca "5" aldı.

Qəbul komissiyasındakı dostumla restorana getdik. Yedik, içdik, oğlumun, yaxşı adamların sağlığına qədəh qaldırdıq. Ona üzrxahlıq elədim. Utana-utana beş min manat vermək istədim. Lakin dostum etiraz elədi. Pulun üstündən üççə yüz manat götürüb, qalanını qaytardı. Bu, mənim bəsimdir, – dedi.

…Direktor tanışımdan maraqla işin axırını soruşdum. O, özündən razı halda gülümsündü. Dedi ki, həmin valideyn sevinə-sevinə yanıma gəldi. Məsləhət üçün mənə də şirinlik verdi. Nazlandım, götürmək istəməyəndə o dedi:

– Medalın payı ayrı, bu ayrı. Götür, halal xoşun olsun. Sən məni azı on min manat qabağa salmısan…

Elə bil çiynimdən dağ götürüldü. Məzunumuzun imtahan verdiyi instituta teleqram vurub orada imtahan verən medalçımızın taleyini soruşdum. Cavab gəldi ki, bəs Sizi təbrik eləyirik. Məzununuz ilk imtahandan “5” aldığı üçün tələbələr sırasına daxil edilib.

Sevincimdən uçmağa qanadım yox idi. Hazırki şəraitdə bu teleqram mənim üçün valideynin verdiyi “şirinlik”dən də qiymətli idi. Bəs necə, bu teleqram mənim səngərim, xilas-garım idi!…

Nazirlikdə imtahandan kəsilən medalçıların üstündə məni danlayanda əzizləyə-əzizləyə saxladığım teleqramı üzə çıxartdım. Elə bil qurbağa gölünə daş atdılar. Bir az əvvəl qılıncını sıyırıb mənə hücüm edənlərin qılıncı o sehrli teleqrama dəyib xıncım-xıncım oldu…

***

Direktorun təcrübəsizlik edib Gülyazı haqqını almamış medala təqdim eləməsi yuxarıdakıları narahat etməyə başladı. Özü də biləndə ki, Gülyazın atasından pul qopar-maq mümkün deyil, lap dilxor oldular. Əsib-coşdular, təcrü-bəsiz direktoru qorxutdular:

– Heç bilirsən medal verdiyin uşaq ali məktəbə qəbul olunmasa səni nə gözləyir?

– Haqq-ədalət olsa girəcək.

– Nə haqq-ədalət, ə? Bu dünyanın işlərini görə-görə gəlmirik?

– Bəs mən neyləyim?

– Onu bil ki, qız qəbul olunmasa, səni məhşər ayağına çəkəcəklər.

Bu söhbətdən sonra direktor bərk narahat olmağa başladı. Üzdə bir şey deyə bilməsə də, ürəyində Allaha yalvarırdı ki, ay Allah, necə eləyim ki, bu qız medal almasın?

Bəli, bu andıra qalmış medal sözü çox adamın kürkünə birə salmışdı. Savadsız müəllimləri əsməcə tutmuşdu:

– Vay dədə, məktəbə komissiya komissiya dalınca gələcək.

Az-çox təcrübəsi olan, bu işdə səriştəliləri isə bircə şey narahat edirdi:

– Ələ yaxşı fürsət düşüb, necə eləyək ki, valideyndən bir şey qopara bilək?

Ən çox əl-ayağa düşənlərdən biri də fizika-riyaziyyat müəllimi idi. Gülyazın valideynlərinin bir dəfə də olsun ona yaxınlaşmaması müəllimə çox yer eləyirdi. Öz-özünə deyirdi:

– Örkən nə qədər uzun olsa, yenə axırı doğanaqdan keçəcək. Elə bilirlər ki, havayıca medal almaq olar. Ay aldın ha?!

O, dərslərdə Gülyazı sıxışdırmağa başlamışdı. Ancaq iş-işdən keçmişdi. Rüb axıra çatırdı. Tərslikdən qızın qiymətlərinin hamısı “5” idi. Birdən-birə bu “5”-ləri dördə çevirmək şübhə doğura bilərdi.

Təhsil şöbəsindən də tez-tez məktəbə gəlməyə başladılar. Gülyaz verilən məsələ və misalları asanlıqla həll etdi. Vaxtın yarısı getməmiş yazı işini təhvil verdi. Onun sınaq yazısına “5” verdilər.

Direktor da yoxlama yazı işləri apardı. Fizikadan verilən məsələni doğru-düzgün həll edən Gülyazın yazı

işinin altından müəllim əsəbi xətlə belə bir rəy yazmışdı: “Məsələ rasional yolla həll edilməyib”.

Və Gülyaza ilk “4” yazıldı. Bu, həyəcan siqnalı idi. Valideyni silkələmək, xəbərdar etmək üsulu idi. Ancaq bunun da heç bir faydası olmadı. Çünki valideynin cibi də adı kimi təmiz idi.

Raufun onsuz da zəif olan əsəbləri yerindən oynadı. Direktor onu yenə də məktəbə çağırdı. Rauf müəllim üzünü ona tutub dedi:

– Bizə uzaq qohum olan bir kişi var idi. Onun qaynını milis idarəsinə sürücü qoydular. Bir dəfə dayım zarafatla Cavanşir kişiyə dedi ki, daha işlərin yaxşı olar. Qaynın heç səni maşina mindirirmi?

Kişi özünəməxsus bir əda ilə dedi:

– Maşına mindirməyi gözünə girsin, heç olmasa yolda görəndə məni tapdalamasın.

Rauf zarafatla əlavə eləmişdi:

– Ay Şakir müəllim, demirəm ki, mənim qızıma şişirtmə qiymətlər versinlər. İstəyim budur ki, onun haqqını tapdamasınlar. Siz məktəbin direktoru kimi şagirdin mənafeyini müdafiə etməyə, həqiqətin bərqərar olmasına borclusunuz.

Şakir müəllim gülümsünmüş, bu söhbətlə çar-naçar razılaşmışdı. Çalışmışdı elə eləsin ki, nə şiş yansın, nə də kabab. Ancaq bu, heç də mümkün deyildi. Bu işdə kimsə güdaza getməli idi. Məktəbdə isə söz-söhbət gəzirdi ki, bəs Gülyaza medal verirlər, özü də atasına görə. Düzdür, Gülyaz hazırlıqlıdır, medala layiqdir. Ancaq pulsuz nə medal?

Bu söz-söhbət qızın qulağına çatır, onu bərk narahat edirdi. Atası qızıyla da açıq danışmışdı. Demişdi ki, qızım, ən böyük biclik düzlükdü. İndiyə qədər nə bir kəsə rüşvət vermişəm, nə də almışam. Bu ad-sanı da, işi də öz halalca zəhmətimlə qazanmışam. Sən də belə olmalısan. Həmişə düzlük, təmizlik, mənəvi saflıq haqqında düşünməlisən. Mənim sənə yeganə maddi köməyim ondan ibarət olar ki, səni hazırlamaq üçün xüsusi müəllim tutum. Çünki görürəm ki, məktəbdə dərs deyən müəllimlər öz işlərinə can yandırmırlar. Digər tərəfdən onların əksəriyyəti öz ixtisasını əməlli-başlı bilmir. Bilmədiyin şeyi də başqasına necə öyrədəsən?

Rauf dediyinin üstündə durmuşdu. Gülyazı imtahana hazırlaşdırmaq üçün biologiya və kimya fənnindən müəllim tutmuşdu. Zarafatla deyirdi:

– Bizdə təhsil "pulsuz"dur. Ona görə də pul verib müəllim tutmaq məcburiyyətindəyik. Atalar deyib ki, ucuz ətin şorbası olmaz.

Müəllimlər Gülyazı çox yaxşı hazırlaşdırırdılar. Qız dəhşətə gəlirdi. Dəhşətə gəlirdi ona görə ki, məktəbdə ona dərs deyən müəllimlər çox hazırlıqsız idilər. Onların öyrətdikləri ilə nəinki "5", heç "3" də almaq olmazmış… Nə yaxşı ki, atası onun üçün müəllim tutubmuş…

Qayğılı günlər baş alıb gedirdi. Gülyazın fikri dərs oxumaqla məşğul olduğundan, ayrı heç nə haqqında düşünmürdü. Onun valideynləri isə çox narahat idilər. Onlar söhbət zamanı deyirdilər: "Təzəcə öz qayğımızdan qurtarmışdıq ki, övladların qayğısı aldı başımızın üstünü."

Doğrudan da, uşaq böyüdükcə, onun qayğısı da artırmış. Ərəblər demişkən: "Uşaq balaca vaxtı yatmağa qoymur, böyüyəndə yaşamağa."

Üçüncü rübün axırlarında Gülyazgilin ədəbiyyat müəllimi ailə vəziyyəti ilə əlaqədar olaraq işdən çıxıb getdi. Yerinə hay-küyçü, ancaq biliyi uşaqların səviyyəsindən o qədər də fərqlənməyən Narınc müəllimi qoydular. Üçüncü və dördüncü rübün inşalarını yoxlayan müəllimə çox böyük səhvlərə yol verir, düzgün yazılan sözləri də yenidən "düzəldirdi". Gülyaz neçə dəfə səhvsiz yazdığını sübut etmiş, müəllim onunla çar-naçar razılaşmış, lakin şagirdin qiymətini düzəltməmişdi.

Nəhayət, ilk imtahan gəldi. Ədəbiyyatdan yazılı imtahan. Gülyaz sərbəst mövzunu seçdi. Hərə bir "konspekt" çıxarıb köçürməyə başladı. Gülyazın isə başının üstünü kəsmişdilər. Hətta müntəxabat kitabından istifadə etməyə də icazə vermirdilər. Bəs necə, axı o, medala namizəd idi? Əslində qız bundan daha da xoşhal olurdu. Çünki o, heç vaxt başqasının hazırladığı konspektdən istifadə etməmişdi. Ordan-burdan köçürməklə qətiyyən arası yox idi. Bu qız mövzuya da, həyata da, ədəbi qəhrəmanlara da öz şəxsi gözləri ilə baxmağı xoşlayırdı.

Gülyaz inşa yazırdı. Gözəl-gözəl arzulardan, ədalətdən. Ancaq o, bilmirdi ki, müəllimlər onun medal almasından çox, almamasına çalışırdılar.

Gülyaz gecə yuxusunda almaq istədiyi medalı görmüşdü. O, ulduzların arasında bərq vururdu. Birdən möcüzə oldu. Medal üzünü Gülyaza tutub yanıqlı bir bayatı çəkdi:

Gündüz ulduz görməzlər,
Solğun gülü dərməzlər,

Atanın cibi boşdu,
Məni sənə verməzlər…

Yazı diqqətlə, az qala zərrəbinlə yoxlanıldı. Müəllimlər çoxlu səhv, heç olmasa vergül tapmaqdan ötrü əldən-ayaqdan gedirdilər. Onlar qorxurdular ki, xalq təhsili şöbəsində, eləcə də nazirlikdə verdikləri qiymət aşağı salınar. Şagirdin taleyi isə onları qətiyyən maraqlandırmırdı. Assistentlərdən kimsə dedi ki, inşanın məzmununa "5" vermək olar. Direktor onun sözünü kəsdi:

– Ən salamatı dörddü. Beş verib bizi cəncələ salmayın…

Hə, belə-belə işlər. İdman diliylə desək, itirilməli xalların ikisi də itirildi. Ata narahat oldu, direktor isə onu sakitləşdirdi. Dedi ki, arxayın ol, çətini elə bu idi. O birilərdən qoymaram aşağı qiymət versinlər…

Kimyadan imtahan müvəffəqiyyətlə keçdi. Gülyazın cavabları müəllimləri tam qane etdi. Ona tərəddüd etmədən "5" yazdılar.

Fizika imtahanında isə ikinci həyəcan siqnalı çalındı. Dərs dediyi müddətdə hətta gündəlikdə belə bir dəfə "4" almayan Gülyazı sıxma-boğmaya saldılar. Dörd yazmaqla hədələdilər. Müəllim lovğa-lovğa qıza dedi:

– Elə bilirsən medala namizədə "4" vermək olmaz? Sənə "4" yazacağam.

Gülyaz evə gözü yaşlı gəlmişdi. Ancaq o, özünü tox tutmağa çalışırdı:

– Ata, hirslənmə. Onların medalı başlarına dəysin. Sənə söz verirəm ki, mütləq onlara kim olduğumu sübut eləyəcəyəm, ali məktəbə qəbul olunacağam…

Gülyazın atası məktəbin direktoruna zəng elədi. Öyrəndi ki, "4" yox, "5" yazıblar. Ancaq direktor ona xəbərdarlıq elədi ki, mütləq müəllimi görmək, onunla söhbət eləmək lazımdır.

Ata məktəbə getmək istəsə də, qız razılaşmadı. Dedi ki, qoy neçə verirlər versinlər, mənə heç onların medalı lazım da deyil. Ancaq, ata, çox xahiş edirəm, sən məktəbə getmə. Çünki Ədhəm müəllim tipin biridi. Hər il bir dəfə uşaqlar vurub dişlərini qırırlar, o biri il o, özünə yeni protez düzəltdirir. Onun damarında mərdimazar qanı axır. Elə buna görə də uşaqların Ədhəm müəllimi görən gözü yoxdu. Bilikli olmağına biliklidir, ancaq şagirdləri incitməkdən, qan qaraltmaqdan xüsusi zövq alır. Birinin hərəkəti, sözü xoşuna gəlmədi, deməli hər şey qurtardı. Lap əla dərs hazırlasa da, "3"-dən yuxarı qiymət verən deyil ki, deyil. Özü də bunu açıqca etiraf edir. Ona görə havayı yerdən gedib qanını qaraltma.

Riyaziyyatdan yazılı imtahan idi. Gülyaz məsələ və misalları həll etdi. Ancaq onun üçün elə pis psixoloji iqlim yaratmışdılar ki, qızın əlləri əsirdi. Nə isə… İmtahan qurtardı. Gülyazdan köçürənə "5" yazdılar, onun özünə isə "4". Bu o demək idi ki, əlvida gümüş medal…

Evdə çox əsəbi vəziyyət yarandı. Ata hirsindən əsirdi. O, məktəbə getdi. Ədhəm müəllimi tapa bilmədi. Acığını direktorun, dərs hissə müdirinin üstünə tökdü:

– Aşağı sinifdən ta buraxılış sinfinədək qızıma Ədhəm müəllim dərs deyib. Bu müddət ərzində Gülyaz bir dəfə də olsun "4" qiymət almayıb. Müəllim onun potensial imkanlarına, eləcə də xarakterindəki zəif cəhətə – tez əsəbiləşməsinə sözsüz ki, çox yaxşı bələddir. Əgər qızım həmişə

"5" alıbsa, imtahandan ona nə üçün "4" verirlər. Yox, əgər bu uşaq "4"-ə layiq idisə, nə üçün il boyu "5"-lər yan-yana düzülüb?

Məsələ aydın idi. Direktor Gülyazın atasını sakitləşdirməyə çalışdı. Ədhəm müəllimin qəliz xasiyyətindən, hər il ən azı bir neçə qəliz hoqqa çıxarmasından yana-yana danışdı…

Gülyazın atası bərk hirslənmişdi. O, xalq təhsil şöbəsinə getdi. Açdı sandığı, tökdü pambığı. Medalların necə verilməsindən xəbərdar olduğunu söylədi. Sual verdi ki, necə olur ki, maddi cəhətdən imkanlıların uşaqları həmişə medal alır? Necə olur ki, iki-üç ilin jurnalını bir medal vermək xatrinə dəyişənlər, atası pul vermədiyi üçün həmişə "5"-lə oxuyan bir şagirdin mexaniki səhvini üfürüb filə döndərirlər?

Burada da Gülyazın atasını sakitləşdirməyə çalışdılar. Həqiqət naminə deməliyik ki, onu səbrlə dinlədilər. Söz verdilər ki, imtahan işini diqqətlə yoxlayacaqlar. Söz arası şöbənin Rauf müəllimə ərki çatan işçilərindən biri zarafatla dedi:

– Sağ olmuş, gərək müəllimin ağzına bir iki yüz manat ataydın…

Raufu od götürdü. İlahi, gör necə müəllimlər var imiş? O, əsəbi-əsəbi dostuna cavab verdi:

– Mən elə simasız adamın ağzına heç sümük də atmaram.

Aradan bir-iki gün keçdi. Şəhər xalq təhsili şöbəsinin komissiyası işi təzədən yoxlayıb, Gülyazın yazısına "5" verdi. İmtahan işi nazirliyə göndərildi.

Gülyazın atası nazirliyə getdi. Öyrəndi ki, yazı işinin qiymətini yenə "4" eləyiblər. Nazirliyin məsul işçilərindən biri dedi ki, məktəbin verdiyi qiyməti düzəltməyə ixtiyarımız yoxdur.

Sonradan Rauf öyrəndi ki, qızını gözümçıxdıya salan müəllim həmin məsul işçinin yaxın adamı imiş. Hə, belə-belə işlər…

Bütün bunları təkcə Gülyazın atası bilirdi. Nə Gülyazın, nə xalq təhsil şöbəsinin, nə də məktəbin hələ heç nədən xəbərləri yox idi.

Rauf yanıb tökülürdü. Öz-özünə düşünürdü. Necə olur ki, "3"-ə layiq olmayan işlərə verilən "5"-ə nazirlik işçiləri göz yumurlar? Məgər onların dəyişdirilən jurnallardan, şişirdilən qiymətlərdən xəbərləri yoxdurmu? Var, əlbəttə, var. Ancaq neyləyəsən ki, rüşvət onların həyat idealına çevrilib. Onlar üçün bilik yox, verilən pulun miqdarı həqiqətin meyarıdır.

Ən qəribəsi odur ki, bu dəhşətli həqiqəti hamı bilir, hamı danışır və adi bir hal kimi qəbul edir. Rüşvətin adi həyat normasına çevrilməsi, doğrudan da, dəhşətdir, fəlakətdir. İstər-istəməz bu sərt həqiqətlə barışmalı olursan. Necə deyərlər, "tutulmamış oğru, bəydən, xandan doğru"…

Atanın öz qızına təskinlik verməkdən başqa çarəsi qalmamışdı. O, asta-asta deyirdi:

– Qızım, ilk dəfədir ki, sən həyatın sərt həqiqəti ilə üz-üzə gəlirsən. Qarşına hələ çox haqsızlıqlar çıxacaq. Bu mübarizələrdən qalib də olmasa, sağ-salamat çıxmaq üçün özünü psixoloji cəhətdən hazırlamalısan. Eh, a bala, dünya əzəldən belə qurulub. Haqqın yolunun üstündə nahaqqın yüz tələsi var…

Verdiyi qiymətin xalq təhsili komissiyası tərəfindən yuxarı qaldırıldığını eşidən Ədhəm müəllim özündən çıxmışdı. O, Gülyazın əlindən cilov gəmirirdi. Uşaqların yanında döşünə döyə-döyə deyibmiş ki, görsün həndəsə imtahanından onun başına nə oyun gətirəcəyəm?

İngilis dilindən imtahan idi. Gülyazın atası imtahana girmək istədi. Təlimatda göstərilirdi ki, valideyn imtahanda iştirak edə bilər.

Gülyazın atasının fikrini bilən müəllim əvvəlcə kinayəli şəkildə soruşdu:

– Məgər Siz ingilis dilini bilirsiniz?

– Az çox xəbərim var. İngilis dilindən namizədlik minimumu verib "5" almışam.

Müəllim həsdədi:

– Bəlkə məndən bir narazılığınız var?

– Xeyir.

– Mən Sizin qızınıza həmişə "5" yazmışam, indi də "5" verəcəm. Heç kəs mənim verdiyim qiyməti dəyişə bilməz. Gülyaz çox ləyaqətli qızdır. Başqalarını bilmirəm, mən ondan çox razıyam.

– Çox sağ olun, bunda Sizin də əməyiniz var.

– Borcumuzdur. Ancaq…

– Sözlü adama oxşayırsınız.

– Mümkünsə imtahana girməyin. Çünki kənar adamın iştirakı uşaqları həyəcanlandıra bilər.

Razılığa gəldilər. Gülyaz imtahandan "5" aldı. Üstəlik müəllim onu komissiya qarşısında çox təriflədi.

Növbəti imtahan isə… Əslində bu imtahanın heç bir əhəmiyyəti yox idi. Çünki xəbislər istədiklərinə nail ola bilmişdilər.

Ədhəm müəllim çox kinli idi. Bunu onun özü də etiraf edirdi. Sonralar o, direktora deyibmiş ki, son zəngdə çıxış edən Gülyaz mənim adımı bir dəfə də olsa çəkmədi. Elə buna görə də medal üzünə həsrət qaldı.

Möhtərəm oxucu, müəllimin əməyinə qiymət verməyi Sizin öz öhdənizə buraxıram. Bircə onu xatırlatmaq istəyirəm ki, zorla, hədə-hərbə ilə insan ürəyini ələ almaq, onun məhəbbətini, hörmətini qazanmaq hələ heç kəsə qismət olmayıb.

Nazirlikdə Gülyazın qiymətini “4”-ə endirdilər. Bundan isə nə müəllimlərin, nə direktorun, nə də xalq təhsili şöbəsinin işçilərinin xəbəri yox idi. Gülyaz isə bunu bilirdi. Ancaq özünü sındırmırdı. O elə gözəl imtahan verdi ki, Ədhəm müəllimin deməyə sözü qalmadı. Gücü ona çatdı ki, şəhər partiya komitəsinin işçisinə şikayət elədi:

– Nə üçün mənim verdiyim qiymətə düzəliş eləyiblər?

Rauf Təhsil şöbəsində Ədhəm müəllimlə üz-üzə gəldi. Xəbis müəllim rəng verib rəng aldı. Xəcalətindən nə eləyəcəyini bilmədi. Bu, Raufun gözündən yayınmadı. Ancaq o, heç Ədhəm müəllimi saya da salmadı. Otağa keçdi. İmtahanların ədalətli keçməsinə çalışan, az-çox Gülyazın haqqını müdafiə eləyən işçiyə öz təşəkkürünü bildirdi. Bir məsəl çəkdi. Həmin müəllimin xidmətlərini alovun üstünə bir dimdik su tökən, bununla insanlara öz dostluğunu bildirən sərçənin fədakarlığı ilə müqayisə elədi. Və elə oradaca bildirdi ki, Gülyaz artıq medaldan məhrum olub.

Lakin Rauf əvvəlki kimi əsəbi deyildi. O, bir şeir yazmışdı. Elə bununla da bir qədər təskinlik tapmışdı. Onun qızına müraciətlə yazdığı şer belə idi:

Xəbərin yox fırıldaqdan, hiylədən
Xoş təbəssüm qərar tutub üzündə.
Ürcahına pislər hələ çıxmayıb,
Tərtəmizdi dünya sənin gözündə.
Çiçək sanıb boylandığın qar imiş,
Tale cibi dolulara yar imiş,
Bir medalın iki üzü var imiş,
Çömçətutan möhkəm durdu sözündə.
Paklıq mənə hər nemətdən əzizdi,
Arzularım kükrəyən bir dənizdi,
Adım kimi cibim də tərtəmizdi,
Qızım, bunu sən bilirsən özün də.
Qalstuklu dilənçilər pay dilər,
Ürəyimi kündə kimi yaydılar,
Haqq aradıq, bizi haqsız saydılar,
Düzlük gəzdik, qaldıq çölün düzündə…

Gülyazın atası çox düşündü, daşındı. O, çoxlarına necə medal verildiyini, kimlərin uşaqlarına nə vasitə ilə bu ali mükafatın qismət olmasını yaxşı bilirdi. Lakin o, mərdi-məzarlıq etmək istəmirdi. Əgər könlünə düşsə bu haqda söhbət açar, çox örtülü bazarları alt-üst edərdi. Lakin o, bu yolu tutmadı. Həqiqətin bərpa olunmasına inanmasa da, nazirin adına aşağıdakı məzmunda bir teleqram vurdu: "Hörmətli nazir. Haqq vermədiyim üçün mənim qızımı – Gülyazı medaldan məhrum elədilər. İnşanın məzmunundan ona "5" əvəzinə dörd verdilər. Riyaziyyatdan müəllim onu qəsdən dolaşdırıb "4" yazdı. Xalq təhsili şöbəsinin komissiyası onun qiymətini "5" eləsə də Sizin nazirlikdə qiymət

yenidən aşağı endirildi. Necə medal verilməsi haqqında müxtəlif söz-söhbət gəzir. Ədalətin bərpasına kömək etməyinizi xahiş edirəm.”

Təbii ki, teleqramın heç bir nəticəsi olmadı. Ən dəhşətlisi o idi ki, bu, nazir üçün yeni xəbər deyildi. Ona görə tədbir görmək bir yana, cavab yazmağa belə lüzüm görülmədi. Yoldaş nazirin başı bərk qarışıq idi. Belə xırda-para şeylərlə məşğul olmağa onun vaxtı, həvəsi nə gəzirdi? Güman ki, o, öz-özünə deyirdi: “Pəh, əcəb yeni xəbərdir. Camaat da qəribədir ey. Əllərini ciblərinə salanda elə bil canları çıxır. Hələ bir utanmırlar, pulsuz-parasız medal sevdasına da düşürlər. Bir deyən lazımdır ki, ay zalım, tutaq ki, sənin övladına medal verdilər, məgər bununla iş bitirmi? Əlin cibində olmasa qəbul imtahanında ona kimdi “5” verən?”

Hə, belə-belə işlər. Nazirin başı bərk qarışıq idi. O, televiziyada eləyəcəyi çıxışın mətnini nəzərdən keçirirdi. Çıxışın məzmununu isə bircə tezislə ifadə etmək mümkün idi: “Bilik yeganə meyardır”…

***

Təəssüf ki, bizdə qanun fırıldaq adamların çirkin əməllərini müdafiə etmək üçün sipər rolunu oynayır. Qanun adi adamlar üçündür. Qanun vəzifə sahiblərinin əlində sadə, zəhmətkeş adamları əzmək üçün maşındır. Yaxşı ki, həyatın obyektiv, insan şüurundan, insan iradəsindən asılı olmayan qanunları var. Əgər belə olmasa idi, imkanlılar pul, var-dövlət gücünə baharı, yayı, barlı-bəhərli payızı qamarlayar, qarlı-çovğunlu qışdan başqa kasıba heç nəyi verməzdilər…

Gülyaz həkim olmaq arzusu ilə yaşayırdı. "Azərbaycan gəncləri" qəzetində Tibb İnstitutunun verdiyi elan dərc edilmişdi. Buradakı qəbul qaydaları da ədalətsiz idi. Belə ki, qəbul kontinigentinin 70 faizi əmək stajı olanlar, "Gənc təbib" məktəbinin dinləyiciləri və ordu sıralarından qayıdan adamlar üçündür. Əcəb məntiqdir. Təki stajın olsun. Zorbəla "3" alsan da kifayətdir. Necə istedad olursan ol, sənin üçün cəmi 30 faiz yer ayrılıb. Dayılıları, imkanlıları, var-dövlətliləri nəzərə alsaq, yazıq orta məktəbi bitirən istedadlı uşaq, sənin ali məktəbə girə bilmək imkanın çox azdır, çox az…

Zorla "3" alıb instituta – özü də tibb institutuna girənlərin, oranı bitirib "həkim" olanların əlinə düşəcək xəstələrə adamın elə indidən yazığı gəlir. Elə ona görə də xəstəxanalarımızda həkimlərimizin sayı çoxdur, ancaq sanbaldan söhbət eləməyə belə dəyməz.

Qəribədir, bizdə təhsil "pulsuz" olduğu üçün xəstələri müalicə etmək də pulsuzdur. Ancaq pul almamış xəstəyə yaxınlaşmayan həkimin gözlərini nədənsə Hippokrat andı kor eləmir. Bir tərəfdən həkimi də qınamalı deyil. Ən aşağı maaş onlarınkıdır. Gözlərinin qarası gedə-gedə neçə il zəhmət çəkəsən, oxuyasan, öyrənəsən, işə gələndə qəpik-quruş alasan… Di həmin pulla yaşa görüm necə yaşayırsan…

Tərs kimi Gülyaz da həkim olmaq istəyirdi. Onun fikri qəti idi. Elə düşünürdü ki, biliyə zaval yoxdur. Lakin ilk dəfə onun xoş arzuları, inamı müqəddəs saydığı "medal" sözünə dəyib çilik-çilik olmuşdu.

Gülyazın atası yaxşı bilirdi ki, "sifarişlə həcc qəbul olunmaz". Axı indi kimdi kimn ərizəsini oxuyan? Lakin bütün bunlara baxmayaraq vurulan teleqram onun alovlanan

qəlbinin üstünə çilənən bir dimdik suya bənzəyirdi. Əslində elə bu "bir dimdik su"yun xətrinə yaşamağa da dəyərdi. Yer üzündə tək-tük də olsa ədalətli adamların yaşaması üçün onun ümid tonqalını sönməyə qoymurdu. Ömrü boyu haqsızlıqla, ədalətsizliklə üz-üzə gəlsə də, o, həqiqətin nə vaxtsa bərqərar olacağına inanırdı…

***

Gülyaz əlində kamal attestatı evə tələsirdi. Onun qulaqlarında atasının sözləri səslənirdi: "Həqiqətin yolu daş-kəsəklidir, bala. Ancaq çətin olduğu qədər də şərəflidir."

Gülyaz qızıl, gümüş medalla yox, onlardan qat-qat qiymətli bir medalla evə qayıdırdı. Özü də bu medalı köynəyin yaxasına taxmaq mümkün deyildi. O medal qızın ürəyinin başında idi. O medal həyatın ilk zərbəsi idi. Bu zərbəni dadmayanlar qalibiyyət sevincini də hiss edə bilməzlər.

Qız çox məğrur idi. O, dolu döymüş çiçək kimi sınmamışdı, əksinə son dərəcə vüqarlı və məğrur idi. Onu medaldan məhrum edənlər isə xəcalət təri tökür, vicdan əzabı çəkirdilər. Onlar utandıqlarından bağa kimi öz qınlarına çəkilmişdilər. Qız isə məğrur addımlarla irəliləyirdi. Onun yolu sabaha, üzü gələcəyə idi…

**1990, iyun.**

## QƏBUL

Orta məktəbi bitirən hər bir oğlanın, qızın arzusu ali məktəbə qəbul olunmaqdır. Gülyazın da ürəyində belə bir arzu qönçə tutmuşdu. O, tibb institutuna qəbul olunmaq istəyirdi. Sənədlərinin hamısı hazır idi. Kamal attestatı, üç fəndən – biologiya, kimya və fizikadan tərifnamə, tibbi arayış və fotoşəkillər qoyulmuş qovluğu qoltuğuna vurub tibb institutuna yollanan qız bərk həyəcanlı idi.

İnstitutun binasının qarşısında iri hərflərlə yazılıb vurulmuşdu: "Bilik yeganə meyardır."

Qız xeyli dayanıb bu lövhəyə tamaşa elədi. Qəlbindəki ümid qığılcımları yenidən közərdi. Həqiqətin, ədalətin varlığına inandı. İstər-istəməz orta məktəbdə üz-üzə gəldiyi haqsızlıqlar yadına düşsə də, özünü sındırmadı. Ora başqa, bura başqa, – deyə düşündü və qorxaq addımlarla ali məktəbin qapısından içəri girdi. Orada bir gurultu, hay-küy var idi ki, gəl görəsən. Gülyaz heç bazarda da belə səs-küy görməmişdi.

Bir təhər, soraqlaşa-soraqlaşa müalicə fakültəsinə sənəd qəbul olunan yeri tapdı. Ancaq sənəd vermək o qədər də asan iş deyildi. Bir bashabas var idi ki, gəl görəsən.

Qız duruxdu. Uzun müddət nə eləyəcəyini bilmədi. Nəhayət, anası onun köməyinə gəldi. Axırıncı adamı soruşub növbə tutdular. Beş-altı saatdan sonra güc-bəla ilə sənədləri təhvil verə bildilər.

Qıza elə gəldi ki, ən çətini elə bu idi. Biləndən sonra imtahana nə var ki? Ancaq hər halda imtahanın zəhmi də ağır idi…

Bir neçə gündən sonra Gülyaz anası ilə yenidən instituta gəldi. Güc-bəla ilə olsa da, üstünə şəkil yapışdırılmış imtahan vərəqini, eləcə də imtahan cədvəlini ala bildi.

İlk imtahana cəmi-cümlətanı beş-altı gün qalırdı. Bu beş-altı günün necə keçdiyini heç özü də bilmədi. O qədər oxumuşdu ki, mövzular başında bir-birinə qarışmışdı…

Ali məktəbin qapısı çox izdihamlı idi. Bir tərəfdən qəbula gələn uşaqlar, digər tərəfdən valideynlər, qohum-əqrəba. Yan-yörədə maşın əlindən tərpənmək olmurdu.

Uşaqları dəmir darvazadan içəri buraxdılar. Valideynlər onlardan da həyəcanlı görünürdülər. Gülyaz da içəri keçdi. Onları qrup-qrup auditoriyalara yığdılar.

Kim nə deyir desin, imtahanın ən çətini bilet götürənə qədərdi. Bilet çəkəndə adamın nələr çəkdiyini bir Allah bilir.

Abitruyentlər bir-bir bilet verən maşina yaxınlaşır, növbə ilə düyməni basıb, bilet götürürdülər. Gülyaz da titrək barmaqları ilə düyməni basdı. Əvvəlcə tıqqıltıya bənzər bir səs çıxdı. Sonra bilet bir damcı göz yaşı kimi maşının “kirpiyindən” qopdu.

Əlbəttə, kağızla göz yaşı arasında uyğunluq tapmaq o qədər də asan deyildi. Ancaq nədənsə qıza elə gəldi ki, düşən bilet yox, elə göz yaşıdı…

O, bileti götürüb, ilk sıradakı partalardan birində əyləşdi. Sualları oxudu. Əvvəlcə bir şey başa düşə bilmədi. Çünki o, bərk həyəcanlı idi. Sonra yavaş-yavaş həyəcanın, qorxunun kor dumanı çəkildi.

Biologiya imtahanının ilk sualı quşlar haqqında idi. Ani olaraq qızın gözünün önündə gördüyü, tanıdığı quşlar canlandı. Sonra qələm yavaş-yavaş işə düşdü. Kimi fikir-

ləşir, kimi isə yazırdı. Eləsi də var idi ki, mat-məəttəl dayanıb gözləyirdi.

Belələrindən bir neçəsinə iki yazıldı. Ona görə ki, verilən standart vərəqin üstünə heç nə yazılmamışdı. Kor-kor, gör-gör. Beləsinin "məni kəsdilər" deməsi ən azı insafsızlıqdır.

Gülyaz suallara cavab yaza-yaza imtahanın gedişinə də qulaq asır, onunla birlikdə imtahan verənlərin böyük bir qisminin keyliyinə, elementar şeyləri bilməməsinə təəccüb qalırdı.

Qələm isə hey işləyirdi. Gülyaz ürəklənmişdi. Çünki valideynləri də imtahana buraxılmışdılar. Onun atası da içəridə oturan, imtahanın gedişini həyəcanla izləyənlərin arasında idi.

Arada gəzən müəllimlər uşaqları nəfəs çəkməyə belə qoymurdular. Çalışırdılar ki, heç kəs fürsət tapıb konspekt-lərdən köçürə bilməsin. Gülyazın sərbəst yazmağı arada gəzənlərdən birini şübhələndirmişdi. O, qızın başının üstünü kəsib durmuşdu. Gülyazın isə heç nə vecinə deyildi. Onun qələmi hey işləyirdi.

Birdən müəllim siçan görmüş pişik kimi qızın üstünə atıldı. Yazı işinin altındakı kağızı hirslə dartıb çıxardı. Ancaq gözlərinə inanmadı. Kağız ağappaq idi. Gülyaz atasının təkidiylə onu götürmüşdü ki, yeri gəlsə üstündə hesablama aparsın.

Müəllimin kağızı götürüb işığa tutması lap gülməli idi. Valideynlərin üzünə istehzalı bir təbəssüm qondu. Qız isə öz yazısını davam etdirməyə başladı.

İki nəfər imtahan götürürdü. Nəhayət, Gülyaz onlardan biri ilə üz-üzə əyləşdi. Müəllim imtahan biletini diqqətlə

nəzərdən keçirdi. Sonra əlində qırmızı qələm imtahan işini oxumağa başladı. Duruxa-duruxa oxudu, oxudu, nəhayət, son səhifəyə çatdı. Sonra yenidən imtahan biletlərinin suallarına baxdı. Yazı işini bir də nəzərdən keçirdi və qıza dedi:

– "4" alırsan.

Gülyaz etiraz elədi:

– Mənim nə səhvim var ki, "4" verirsiniz?

– Bax, bura bir cümlə də yazmaq olardı.

– Nəinki ora, başqa yerə də cümlələr əlavə etmək olar. Siz hələ məndən heç nə soruşmamısınız, təkcə qeydlərimə baxıb, mənə "4" vermək istəyirsiniz. Axı, bu şifahi imtahandır?

Müəllim çaşıb qalmışdı. O biri müəllim onun köməyinə gəldi. Onların ikisi birləşib uşağın üstünə düşdülər. Sual sual üstündən yağdı. Qız isə ötkəmliklə sualların hamısına cavab verirdi.

Valideynlərdən kimsə pıçıldadı:

– Maşallah, uşaq yaxşı bilir.

Müəllimlər isə çalışırdılar ki, uşağı çaşdırsınlar, ona "5" verməsinlər. Çünki bu "5"-dən ötrü onları əməlli-başlı tənbeh gözləyirdi. Özü də gizli tənbeh. Bəs necə, gizli siyahıda adı olmayan hər uşağın yüksək qiymət alması haqqı əvvəldən alınmışların işini xeyli çətinləşdirə bilər, problem yaradardı.

Mübahisə çox çəkdi. Müəllimlər qızı dolaşdıra bilmədilər ki, bilmədilər. Arada bir-iki dəfə dedilər ki, səhv cavab verirsən. Qız isə israr elədi:

– Xeyir, düz deyirəm. İnanmırsınız, kitabı açıb baxın.

Lakin bundan əvvəl bir neçə dəfə səhv yazanlara səhvlərini sübut eləmək üçün dərslik çıxaran müəllimlər fəaliyyətsiz qaldılar. Dinməz-söyləməz qızın imtahan vərəqinə "4" yazdılar. Bu, çox böyük haqsızlıq, qatığa qara demək kimi bir şey idi.

Gülyazın atasının əsəbləri tab gətirmədi. O, ədalətsiz müəllimlərə dişinin dibindən gələni dedi. Qeyd elədi ki, mənim qızım biologiyanı sizin ikinizdən də yaxşı bilir.

Elə bil qurbağa gölünə daş atdılar. Müəllimlər nə üçün "4" yazdıqlarını əsaslandıra bilmədilər. Onların boğazı qurumuşdu. Üzlərinə tüpürsəydin belə dinməzdilər. Çünki pul, var-dövlət hərisliyi onların daxilindəki bütün insanlıq hisslərinin, o cümlədən vüqarın, mənliyin üzərindən çalın-çarpaz bir xətt çəkmişdi.

Gülyaz atası ilə birlikdə institutdan çıxdı. Qapıda dayananlar ondan neçə aldığını soruşdular. Qız əsəbi-əsəbi "4" deyəndə adamların çoxu təəccübləndi:

– Məgər "4" pisdir? Bunlar onsuz da "4"-dən yuxarı qiymət vermirlər.

Qapıda onların qanı bir az da qaraldı. Öyrəndilər ki, Gülyazın ən yaxın rəfiqəsi elə birinci imtahandaca kəsilib.

Gülyazın atası qiyməti düzəltmək üçün şikayət eləmək istədi. Ancaq qohum-qardaş, dost-tanış razı olmadı. Dedilər ki, xuduru yerə əsəblərini korlama. "4" pis qiymət deyil. Bunlar elə əclafdılar ki, o biri imtahanlardan uşağı kəsdirə də bilərlər. Bəs necə, rüşvət alan adamdan hər cür alçaq hərəkət gözləmək olar.

Gülyazın anasının iş yoldaşı qəbul vaxtı öz başına gələnləri danışıb, rəfiqəsinə toxtaqlıq verdi. O, danışırdı ki,

qəbul vaxtı mənə də “5” vermədilər. Bütün suallara cavab verib “5” tələb etsəm də xeyri olmadı. Müəllim dedi:

– Gəl bizi işə salma. “4” elə yaxşı qiymətdi…

Həmin il müsabiqədən keçə bilmədim. Növbəti il güc-bəla ilə ali məktəbə qəbul olundum. Dərsləri yaxşı oxuyurdum. Birinci semestr mənə “4” yazanda etiraz elədim. Kənarda dayanan bir müəllim mənim adımı, familimi soruşdu. Dedim. Hiss elədim ki, onun yanaqlarına qızartı çökdü. Mənə dedi ki, qızım, arxayın get, sabah gələrsən, səndən özüm imtahan götürəcəyəm. Sən demə o müəllim kafedra müdiri imiş.

Səhərisi gün qardaşımla birlikdə həmin müəllimin yanına getdim. Zaçot kitabçamı aldı. Heç nə soruşmadan mənə “əla” yazdı. Təəccübləndim. Müəllim üzünü mənə tutub dedi:

– Qızım, keçən il qəbulda sənə “4” yazdığım üçün il boyu vicdan əzabı çəkdim. Səni tələbələrin arasında nə qədər axtardımsa, tapa bilmədim. Xəcalətdən bilmirdim ki, nə eləyim. Çox şükür, ali məktəbə qəbul olunmusan. Bu “5” sənin halalca “5”-indi.

Gülyaz bu söhbəti eşidəndə acı-acı gülümsündü. Fikirləşdi ki, nə yaxşı dünya vicdanlı adamlardan xali deyil.

O, növbəti imtahana, kimyaya hazırlaşmağa başladı. Hazırlaşmaq deyəndə ki, qız il boyu hazırlaşmışdı. Onu öyrədən müəllim kimya elmləri namizədi idi. O, Gülyazdan çox razılıq edirdi. Deyirdi ki, hələ belə uşaq görməmişəm. Çox istedadlı və çalışqandır. Mütləq ali məktəbə qəbul olunacaq. Ancaq onun bir nöqsanını müşahidə etmişəm. Ən mürəkkəb məsələlərin öhdəsindən çox asanlıqla gələn Gülyaza qəflətən ən adi sual versən çaşıb qalar...

Yenə də imtahandan qabaq institutun həyatində adam əlindən tərpənmək mümkün deyildi. Bir tərəfdən də fürsəti fota verməyən dilənçilər meydan sulayırdılar. Qapıda dayanan, qayda-qanun "yaradan" qoluzorlulardan biri dilənçilərin üstünə çımxırdı:

– Əşi, rədd olun burdan. Sizin qazancınız bizimkindən çoxdu…

Adamlar gülüşdülər.

Bir azdan imtahan verəcək abituriyentləri içəri dəvət etdilər. Adamlar kənara çəkildilər. Balaca bir "cığır" yarandı. Uşaqlar ürəkləri əsə-əsə həmin dar "cığır"la içəri addımladılar.

Aradan xeyli keçdi. Valideynləri də içəri buraxdılar. Bir vurhavur qopdu ki, gəl görəsən. Adamlar bir-birini itələyə-itələyə içəri soxuldular. Nə qadına, nə qocaya məhəl qoyan yox idi…

İçəridə valideynləri institutun rəhbərləri qarşıladılar. Rektor and-aman elədi ki, bilik yeganə meyardır. Kim pul veribsə, gedib geri alsın.

Validenlərin çoxunun üzünə istehzalı təbəssüm qondu. Görkəmindən daha çox zəhmət adamına oxşayan bir kişi bərkdən dedi:

– Allah pul verənin də, alanın da evini yıxsın.

İnstitut müəllimlərinin üzlərinə güclə seziləcək bir qızartı çökdü. Bunu görən həssas valideynlər qımışdılar. Gülyazın atasının yadına bir dostunun danışdığı aşağıdakı lətifə düşdü:

– Bir kürd qazaxlı müəllimə çoxlu pul verib uşağını ali məktəbə düzəldibmiş. İlk mühazirə imiş. Müəllim döşünə döyə-döyə ədalətdən dəm vururmuş. Dil-boğaza qoymadan

deyirmiş ki, mən heç kəsi saymerəm. Ona görə ki, heç kəsdən rüşvət almerəm. Tapşırığa baxmerəm…

Elə bu yerdə müəllimin sözü yarımçıq qalır. Onun gözü təəccüblə baxan kürdün oğluna sataşır. Acıqlı-acıqlı deyir:

– Nə gözünü bərəldersən, ə?

Uşaq gülə-gülə ona cavab verir:

– Müəllim, soxersən ha…

… Hərə öz uşağı imtahan verən otağı axtarmağa başladı. İçəridə o qədər adam var idi ki, bilmək olmurdu müəllim kimdi, valideyn kim. Belə işlərdə az çox səriştəsi olan valideynlərdən biri – Gülyazın atası hiss elədi ki, bu, əməlli-başlı bir oyundur. Ayrı vaxt qonşu otaqda imtahan götürən, həmkarlarına "sifariş verməyə", adam tapşırmağa çətinlik çəkənlər indi sərbəst şəkildə içəri girir, tapşıracağı uşağın yanında xeyli dayanır. İmtahan götürən müəllimlə him-cimdən sonra öz işinin dalınca gedir. Çünki o, çox yaxşı bilir ki, göz yaddaşı daha etibarlıdır.

Gülyazgilin otuz nəfərlik qrupundan cəmi 13 nəfər qalmışdı. Bilet çəkənlər oturub fikirləşir, bildiklərini kağız üzərinə köçürürdülər. Müəllimlər isə oturub gözləyirdilər. Onların başı kompüter kimi işləyirdi. Qiymət yazmaq lazım gələcək adamların imtahan vərəqəsinin nömrəsi onların beynində ulduzlar kimi sayrışırdı. Bu adamlar özlərini nə qədər tox tutmağa çalışsalar da, bir şey çıxmırdı. Atalar çox doğru deyirmişlər ki, xain xoflu olar. Amma əslində bu müəllimlərin heç xofu-zadı yox idi. Yeganə qorxu alınan külli miqdarda pulun əldən çıxması ola bilərdi.

Nəhayət, vaxt tamam oldu. İki nəfər imtahan verməyə dəvət olundu. Qırmızı qələmlər işə düşdü, nə düşdü. Yazılar diqqətlə yoxlanıldı. Arabir müəllimlər uşaqlara sual verir,

cavabı yazmağı tələb edirdilər. Abituriyent bir şeyi səhv yazanda elə bil müəllimlərin üzü sevincdən işıqlanırdı. Cəld qırmızı qələmlə sual işarəsi qoyur, qiyməti salmaq üçün fürsət gəzirdilər.

İlk iki nəfərə "2" verildi. Kəsilənlərdən birinin anası şikayət elədi. Dedi ki, mən də müəlliməm. Özü də ali məktəb müəllimi. Xahiş edirəm ədalətlə imtahan götürün.

Şikayətin, dara-baranın heç bir xeyri olmadı. Valideyn acıqlı-acıqlı üzünü müəllimə tutub dedi:

– Allah Sizi elə xəstə eləsin ki, qəbul elədiyiniz küt həkimlərin umuduna qalasınız.

Sonra daha iki nəfəri də kəsdilər. Vəziyyət çox gərgin idi. Müəllimlə imtahan verən arasında pıçı-pıçı söhbət getdiyindən onların nə danışdıqlarını da eşitmək olmurdu. Bü üsul həm abituriyentin qiymətini kəsmək, həm də istənilən adamı vəziyyətdən çıxarmaq üçün gözəl vasitə idi.

Gülyazın da yazı işini yoxladılar. İlk iki sual orta məktəb dərsliyində, demək olar ki, yox idi. Xomçenko adlı müəllifin ali məktəbə qəbul olunanlar üçün yazdığı dərslikdə nə var idisə, Gülyaz onları yazmışdı. Ancaq imtahan götürən müəllim bununla kifayətlənmədi, dedi ki, çox az yazmısan.

Gülyaz çaşıb qalmışdı. Bilmirdi nə eləsin. Orta məktəb dərsliyində öz əksini tapmayan mövzunun qəbul imtahanına salınması nə demək idi? Gülyazın atasına elə gəldi ki, bu, uşaqları kəsmək üçün müəllimlərin əlində bir vasitədir. Doğrudan da, belə idi.

Minnət qoya-qoya Gülyaza "3" yazdılar. Bu, yazıq qızın ömrü boyu aldığı ilk "3" idi. O, pərt olmuşdu, xəcalət çəkirdi, atasından utanırdı…

Üçüncü imtahana gedəndə Gülyaz bir qızla tanış olmuşdu. O qız deyirdi:

– Ədəbiyyatdan yazılı imtahan idi. Mövzuları elan etdilər. Məni soyuq tər basdı. Hiss elədim ki, vəziyyət xarabdır. Əvvəlki iki mövzunu qətiyyən bilmirdim. Yenə gümanım sərbəst mövzuya gəldi. Xatın haqqında yazmaq tələb olunurdu. Qələm yavaş-yavaş işləməyə başladı. İndi mətbuatda haqqında çox söhbət açılan Stalin və onun represiyası haqqında gen-bol yazıb imtahan işimi təhvil verdim. Evdə məndən inşanı necə yazdığımı soruşdular. Hər şeyi olduğu kimi dedim. Atam bərk təəssüfləndi. Məlum oldu ki, mən heç Xatın sözünün mənasını da başa düşməmişəm. Sən demə Xatın Belorusiyada bir kənd imiş. Müharibə illərində faşistlər bu kəndi sakinləri qarışıq yandırıbmışlar.

Hər şey aydın idi. Mən inşanı tamamilə başqa istiqamətdə işləyibmişəm. Səhərisi gün naümid halda instituta getdim. Yüz faiz bilirdim ki, “2” almışam. Ancaq divardakı siyahıya baxanda gözlərimə inanmadım. Mənim inşama “4” yazmışdılar.

…Bunun əksinə olan söz-söhbətlər də gəzirdi. Bu danışıqlardan belə nəticə çıxarmaq olurdu ki, ədəbiyyat imtahanı da ədalətsiz aparılır, ya da ixtisas müəllimləri zır savadsızdırlar. Görünür institut rəhbərliyinə də elə belə müəllimlərin olması sərfəlidir.

İnşa çox mürəkkəb yazıdır. Onda səhv tapmaq da problem deyil. Adamı dəhşətə gətirən budur ki, heç bir səhvi olmayan yazıya “3” yazılır. Müəllimlər verdikləri qiyməti əsaslandıra bilmirlər. Bütün narazılıqlar da elə buradan doğur. Sırtıq ticarət işçiləri çəkidə, qiymətdə

aldatdıqları kimi, bəzi üzdəniraq müəllimlər də bilə-bilə aşağı qiymət yazırlar. Onu yaxşı bilirlər ki, şikayət eləyənlər az olacaq. Çox vaxt şikayətə əhəmiyyət də verilmir.

Bir qoca müəllim istehzayla deyirdi:

– Əlli üç ildir ki, burada işləyirəm, hələ qiymətin düzəldiyini görməmişəm…

Üçüncü imtahan fizikadan idi. Uşaqlar yazır, valideynlər isə bir kənarda əyləşib həyəcanla müşahidə edirdilər. Kimin ki, uşağının qələmi işləyirdi, o, rahatca nəfəs alırdı. Qələm dayananda isə elə bil adamın ürəyi də dayanırdı…

Atası him-cimlə qızından vəziyyətin necə olduğunu soruşdu. Qız işarə elədi ki, narahat olmağa dəyməz. Hər şey qaydasındadır.

Müəllimlər də narahat idilər. Çalışırdılar ki, heç kəs köçürə bilməsin. İmtahanın vaxtı qurtarhaqurtarda xeyli konspekt tutuldu. Ancaq heç kəsi imtahandan yarımçıq çıxarmadılar. Onsuz da köçürən köçürmüşdü. Məsələ aydın idi. Xoruzun quyruğu yenə də görünürdü…

Gülyaz qaralamada yazdıqlarının hamısını köçürüb qurtara bilmədi. Müəllim imtahan işini istəyən kimi o da təhvil verdi. Yeddi-səkkiz nəfər isə hələ yazmaqda idi…

Nə isə… Yazılı imtahan qurtardı. Dedilər ki, axşam saat yeddidə qiymətləri öyrənməyə gələrsiniz.

Yeddi saat yeddi ilə döndü. Vaxt getmirdi ki, getmirdi. Adamlar institutun qarşısına toplaşıb həyəcanla qiymətlərin oxunmasını gözləyirdilər.

Gülyaz qulaqlarına inanmadı. Onun adını “2” alanların siyahısında oxudular.

Heç kəs danışmırdı. Peşman-peşman evə qayıtdılar.

Səhərisi gün apilyasiyaya – qiymətin düzəldilməsi üçün ərizə verdilər. Gülyazın atası bilirdi ki, bu, havayı şeydir. Ancaq məsələnin mahiyyətini öyrənmək üçün yenidən instituta gəldilər. Apilyasiya üçün ərizə verildi.

Gülyaz, atası, bir də onların qohumları olan bir professor içəri girdilər. İmtahan işi yenidən nəzərdən keçirildi. Məlum oldu ki, qız birinci sualı tam əhatə eləyib. Nyutonun qanunları yazıda öz dolğun əksini tapıb. Ancaq vərəqdə yer qurtardığından ikinci sual tam əhatə edilməyib.

Professor heyrətə gəldi. Qeyd elədi ki, biz universitetdə bu cür yazılara “4” veririk.

Bərk mübahisə qopdu. Gülyaz ağlaya-ağlaya komissiyanın sədrinə sual verdi:

– Siz bu iki sualın cavabını bu vərəqə sığışdıra bilərdinizmi?

Müəllim etiraf etdi ki, sığışdıra bilməz. Məlum oldu ki, ilk nəzərdə sadə görünən sualların hər birini tam əhatə etmək üçün ən azı bir dəftər lazımmış…

Gülyazın atası da etirazını bildirdi. Dedi ki, Siz elə bil uşaqlardan namizədlik minimumu qəbul edirsiniz.

Müəllimlərdən biri etiraf etdi:

– Bəli, elədir.

Gülyazın atası əsəbi-əsəbi dilləndi:

– Bu, qətiyyən düzgün deyil. Biletlərdə konkret, yığcam cavab tələb olunan suallar olmalıdır. Məsələn, Nyutonun hər qanunu bir sualda olmalıdır.

Müəllim özlərinə haqq qazandırmaq üçün açıqca dedi:

– Bizim instituta çox qüvvətli uşaqlar, medalçılar gəlir. Suallar mürəkkəb olmayanda uşaqları kəsmək də mümkün olmur. Adam çətin vəziyyətdə qalır.

Komissiya üzvlərindən kimsə ağzından qaçırdı ki, bu işi rektorun qohumu yoxlayıb. Belə çıxdı ki, qiymətə düzəliş etməkdən çəkinirlər…

Uzun sözün qısası, qiyməti düzəltmədilər. Gülyazın atası rektorun qəbuluna girmək istədi. Elə bir ötür-ötür oyunu başlandı ki, gəl görəsən. Sən demə o "mədəni", haqq-ədalətdən dəm vuran kişinin qəbuluna düşmək müsibət imiş…

Onlar əsəbi halda institutdan çıxdılar. Bir qədər getdikdən sonra qız dayandı. Gözləri dolmuş halda qapıda vurulmuş iri lövhəyə baxdı. Onun üstündə yazılmışdı: "Bilik yeganə meyardır."

Gülyaz yol boyu vaxtilə atasının ona verdiyi sözlər haqqında düşündü. O, yavaş-yavaş həyatın ilk zərbələrini dadırdı. Qarşıda isə hələ çox əzablı, məşəqqətli yollar dururdu…

**1990**
**Qubadlı**

## ÇƏTİNLİKLƏRLƏ ÜZ-ÜZƏ

Evə qayıdandan sonra bir müddət günlər fərəhsiz keçdi. Ürəyə, arzuya, inama vurulan ilk yara getdikcə qövr eləməyə, dərinləşməyə başladı. Özündən qat-qat zəif uşaqların sorağı ali məktəblərdən gəldikcə onun ürəyinin ağrıları daha da şiddətləndi...

Qız hər şeyi unutmağa çalışdı. Lakin bu mümkün deyildi. Hər rast gələn imtahanların nəticəsini soruşur, sonra da toxtaqlıq verirdi. Özü də bu toxtaqlıqların hamısı bir-birinin eyni idi: canın sağ olsun, qocalmamısan ki, gələn il girərsən.

Lakin bu sözlərin, toxtaqlıqların içərisində yalnız atasının Şillerdən gətirdiyi hikmətli cümlə qızın qulaq-larında daha tez-tez səslənirdi: "Madam ki, həyat sənin qarşına maneələr çıxardır, deməli, səndən böyük adam hazırlamaq istəyir…"

İmtahanların ağrılarını unutmaq üçün yeganə bir vasitə var idi: işləmək, oxumaq…

Gülyazı doğum evində işə düzəltdilər. O, yavaş-yavaş çətinliyə alışdı. Diribaşlığı, savadlılığı ilə tezliklə hamının diqqətini cəlb etdi. Hazırladığı sənədlərin düzgünlüyünə söz ola bilməzdi. Elə buna görə də baş həkim onu özünə katibə təyin elədi. Bu müddət ərzində Gülyaz çox şey öyrəndi, müəyyən mənada həyat dərsi keçdi.

O, qəbul otağında kimlərlə üzləşmədi? Bunların ara-sında haqqı tapdalanan da var idi, haqsız da. Abırlı, həyalı da vardı, həyasız da. Bir-birinin zahirən eyni olan iki insan

tapmaq çətin olduğu qədər, eyni xasiyyətli adam tapmaq da çətin imiş. Əlbəttə, ümumi cəhətlər hamıda var. Lakin insanları bir-birindən fərqləndirən o qədər fərdi cəhətlər var ki, gəl görəsən.

Gülyaz saat üçə qədər işləyir, sonra isə müəllimlərin yanına gedib inadla imtahanlara hazırlaşırdı.

Valideynləri kimyadan yeni müəllim tutmuşdular. Əlbəttə, bu, əvvəlki elmlər namizədi deyildi, lakin aralarında zəmin-asiman fərq vardı. Qız bunu açıqca hiss edirdi. Çoxlu təzə şeylər öyrənirdi. Aldığı maaşı demək olar ki, bütövlükdə həmin müəllimə verirdi. İş elə gətirirdi ki, adicə cib xərcliyini də atasından almalı olurdu.

O biri fənlərin müəllim pulunu ödəmək isə valideynlərin üstünə düşürdü.

Müəllimlərin hamısı qızdan razı idilər. Ondan ağız dolusu danışır, çox istedadlı, çalışqan uşaq olduqlarını söyləyirdilər. Gülyazın atası da qızını psixoloji cəhətdən hazırlaşdırmağa çalışırdı. Tez-tez "Boksçu" bədii filmini birlikdə yada salırdılar. Çalışqanlığın, zəhmətsevərliyin, inadla məşq eləməyin gözəl nəticələr verə biləcəyi tez-tez xatırlanırdı.

Bir dəfə xalq təhsili şöbəsinin inspektorlarından biri Rauf müəllimə yanaşıb dedi ki, nazirlik Sizin teleqramın nəticələrini yoxlamaq üçün bizə göndərib.

Rauf müəllim acı-acı gülümsündü. Yadına xalq yazıçısı Süleyman Rəhimovun "Su ərizəsi" hekayəsi düşdü. İndi həmin əsərin qəhrəmanı Qədim kişi ilə Rauf müəllimin taleyi arasında qəribə bir yaxınlıq var idi. Qışın oğlan çağında Qədim kişiyə bostan suvartdırdıqları kimi, iş-işdən keçəndən sonra Rauf müəllimin teleqramı yada düşmüşdü…

Rauf çox gözəl bilirdi ki, vəzifəli şəxslərin əksəriyyəti təpədən dırnağacan rüşvətxordurlar. Medal alan uşaqların da valideynləri imkanlı adamlardır. Uzunmüddətli pedaqoji təcrübəsi nəticəsində qəti əmin olmuşdu ki, heç kəsə havayı medal verilmir. Müəllimdən tutmuş nazirəcən hərənin öz payı var. Ancaq necə deyərlər: "Tutulmamış oğru, bəydən, xandan doğru."

Elə ona görə də gülümsündü:

– Qardaş, gecikmisən, özünə havayı əziyyət verirsən. Kimin necə medal aldığını, lap Sizin müdirin uşaqlarının da dalbadal ali mükafata layiq görülüb ali məktəbə qəbul olunmasını da bilirəm. İmtahan vaxtı ürəyi sıxılan, özündən gedən uşaqların dalda evlərə aparılıb hazır məsələ-misalları imtahan kağızına köçürmələrindən də xəbərim var. Ancaq mən heç kəsə mərdimazarçılıq eləmək istəmirəm. Mənim işim düzəlməyəndən sonra başqalarına, özü də eyni şəhərdə həmişə üz-üzə gəldiyim adamlara pislik eləməyin nə mənası?

İnspektorun çiynindən elə bil dağ götürüldü. Səmimiləşdi, hər şeyi etiraf etdi:

– Düz deyirsən, qardaş, heç bilmirik necə cəmiyyətdə yaşayırıq. Özün yaxşı bilirsən ki, biz xırda adamlarıq, buyruq qullarıyıq. Digər tərəfdən heç dara-bara salmağın da xeyiri yoxdu. Çünki aşağıdan alınan rüşvətin bir ucu lap yuxarılara gedib çıxır.

Rauf köks ötürdü:

– Elədi, qardaş. Yazıq Lenin yazırdı ki, o yerdə ki, rüşvət var, orada sosializmin adını belə çəkmək olmaz. Bizdə isə rüşvət həyatın adicə normasına çevriləndə utan-

maz-utanmaz “inkişaf etmiş sosializm cəmiyyəti”ndən danışırdıq.

Gülyaz atasının da, anasının da əzab çəkdiyini, boğazlarından kəsib müəllimlərə zəhmət haqqı verdiklərini də çox gözəl bilirdi. Ona görə məsuliyyəti birə on qat artır, gecəsini gündüzünə qatırdı.

Nəhayət, əzablarla dolu bir il də arxada qaldı. Qəzetlərdə ali və orta ixtisas məktəblərinin elanları çıxmağa başladı. Tibb institutunun da adı çevrilib oldu tibb universiteti.

Gülyaz atası ilə birlikdə sənəd verməyə gəlmişdi. Dedilər ki, əvvəl akt zalına keçmək lazımdır. Ali məktəb rəhbərliyi valideynlərlə görüşmək istəyir. Rauf müəllim lüzumsuz, gözdən pərdə asmaq məqsədi ilə keçirilən bu görüşün necə keçəcəyini əvvəlcədən bilirdi. Elə düşündüyü kimi də oldu. Ali sovetin sədri prezidenti tərifləyib göylərə qaldırdığı kimi, prorektor da rektoru təriflədi, onun qayğıkeşliyindən, xalqın qeyrətli oğlu olmasından ağızdolusu danışdı. Qeyd elədi ki, hörmətli professorumuzun atalıq qayğısı nəticəsində bu il də imtahanlar ədalətlə aparılacaq, universitetimizə ən ləyaqətli oğlanlar və qızlar qəbul ediləcək.

Gülyazla atası istər-istəməz bir-birlərinə baxdılar. Gülümsündülər. Prorektor isə öz söhbətinə davam eləyirdi:

– Məslək haqqı, bizim universitetimizdə pul söhbəti yoxdu…

Yerdən kimsə qımıldandı:

– Düz deyir, indi yoldaşlar xarici valyuta ilə işləyirlər.

Gülyaz gülümsündü. Rauf müəllim isə fikirləşdi:

– Görəsən hörmətli prorektor məslək deyəndə nə haqda düşünür? Bəlkə yenidənqurma şəraitində bu söz də yeni məna kəsb edir? Bəlkə elə bu söz indi “pul” sözünün sinonimi kimi işlənir?

Valideynlərdən bəziləri ayağa qalxıb, əvvəlcədən universitetin rektorluğuna, ədalətli müəllim kollektivinə öz minnətdarlığını bildirirdilər.

Rauf müəllim dözə bilmədi. İmtahan suallarının mürəkkəbliyini, müəllimlərin ədalətsizliyini tənqid elədi. Qeyd etdi ki, ali məktəbə qəbul imtahanlarının sualları orta məktəb proqramı həcmində olmalıdır. Lakin təcrübə göstərir ki, xüsusi müəllim hazırlaşdırmayan uşaqlar, hətta əlaçılar belə tibb universitetində qiymət ala bilmirlər. Axı hamının müəllim tutub uşaq hazırlatdırmağa imkanı yoxdur. Digər tərəfdən, medalçılar istisna olunmaqla, heç kəsə “5” verilmir. Adamda elə təsəvvür oyanır ki, “5” qiymət ancaq rektorun, “4” isə ən aşağısı imtahan komissiyasının sədrinin icazəsiylə, razılığıyla verilir. Gözüyumulu aşağı qiymət verməyi bacarmayanlar rəhbərlik tərəfindən sıxma-boğmaya salınır. Əgər tapşırılmamısansa, xeyri yoxdu, istəyirsən lap “15”-ə yaz, yenə sənə “3' -dən artıq qiymət verilməyəcək.

Prorektor yenə and içdi hər şeydən əziz olan məsləkinə. Dedi ki, rektor müəllimlərə tapşırıb ki, “3” bilənə “4”, “4” bilənə “5” yazsınlar…

Nə isə… Bununla da söhbət bitdi.

Gülyaz pediatriya fakültəsinə sənəd vermək istədiyini bildirdikdə atası təəccübləndi:

– Qızım, bəs müalicə fakültəsini istəmirdin?

– Oraya ancaq…

– Nə ancaq, qızım?

– Yox, ata, pediatriya yaxşıdı. Elə əvvəldən uşaq həkimi olmaq istəyirdim.

– Nə deyirəm, bala, özün bilən yaxşıdı.

Onlar sənədləri göstərib anket aldılar. Ata anketdəki “pol”, yəni cinsiyyət sözünü oxuyanda güldü. Yadına bir dostunun ona danışdığı lətifə düşdü:

– Bizim müğənnilərdən biri Moskvaya gedibmiş. Onlara anket veriblər ki, doldursunlar. Dostumuz “pol” sözünün qarşısında düşünmədən yazıb: “parket”.

Lətifə Gülyazın da, sənəd götürən oğlanın da xoşuna gəldi.

İlk imtahan kimyadan idi. Universitetin həyəti adamla dolu idi. Nurani, ağsaçlı bir kişini görəndə ata düşündü:

– Görəsən mən bu kişini harada görmüşəm?

Çox fikirləşmək lazım gəlmədi. Hər şey yadına düşdü. Gülyaz soruşdu:

– Ata, bu kişini tanıyırsan?

– Nəsə tanış gəlir.

– Xatının atasıdı.

– Hansı Xatının?

– Keçən il tanış olduğun qızın. Xatın haqqında inşa yazıb “4” alan qızın.

– Hə, yadıma düşdü. Yəqin ki, o da kəsilib.

Doğrudan da, belə idi. Məlum oldu ki, o qız da iki “4”-dən sonra üçüncü imtahandan – biologiyadan kəsilibmiş…

Ata acı-acı gülümsündü:

– Yəqin ki, bu yazıq da sənin kimi canının dərdindən sənədlərini bu il pedfaka verib.

Doğrudan da, belə imiş.

Bu il pediatriya fakültəsinə xeyli ərizə verilmişdi. Əvvəlcədən hiss olunurdu ki, vəziyyət çox çətindir.

Uşaqları içəri buraxdılar. Valideynlər qapının ağzına toplaşmışdılar. Bir bashabas var idi ki, gəl görəsən.

Bir saat keçdi. Valideynləri də içəri buraxdılar. Dəhlizdə universitet rəhbərliyi onların yolunu gözləyirdi.

Rektor dilləndi:

– Kimin nə sualı var?

Bir valideyn dedi:

– Sizin ali məktəb haqqında çox söz-söhbət gəzir.

Rektor gülümsündü:

– Gəzsin da. Mən öz vicdanım qarşısında cavabdehəm. Sizə and içirəm ki, bizim ali məktəbə qəbul üçün pul havayı söhbətdi. Çox fırıldaqçılar, arada gəzənlər var. Onlara inanmayın. Hələ ki, vaxt var. Kim pul veribsə, gedib geri alsın. Bizim universitet haqqında söz-söhbət çıxaranlar o biri ali məktəblərin adamlarıdı. Onlar görürlər ki, biz valideynləri də qəbul imtahanlarına buraxırıq. Ona görə də paxıllıqdan belə söz-söhbət çıxarırlar. Siz hamınız sərbəstsiniz. İmtahanları müşahidə edə, çölə çıxıb yenidən qayıda biərsiniz.

Bir valideyn yuyulmamış çömçə kimi özünü ortaya atdı:

– Ay camaat, respublikamızda burdan ədalətli institut yoxdur. Dünən mənim qızım ilk imtahandan "5" alıb bura qəbul olunub.

Kimsə söz atdı:

– Dünən sənin qızın "5" alıb qəbul olunubsa, bu gün sənin bu bashabasda nə azarın var?

Rektoru tərifləyən kişi nə qədər yasalasa da, məntiqin qarşısında çox aciz və cılız göründü.

Rauf müəllimin yadına dünən onların idarəsinə gələn, uşağı ilk imtahandan "5" alıb Tibb Universitetinə qəbul ediləndən sonra qəzetə minnətdarlıq məktubu yazdıran kişi düşdü. Hə, deyəsən xoruzun quyruğu görünür axı?

İnstitut rəhbərləri getdilər. Valideynlər öz uşaqları imtahan verən otaqları axtarmağa başladılar. Rauf müəllim də kimya imtahanı gedən üçüncü mərtəbəyə qalxdı. Qızını tapdı. Məlum oldu ki, onlar hələ imtahana girməyiblər.

Bir azdan universitetin işçiləri, imtahana nəzarət edən qoluzorlular valideynləri dəhlizdən də çıxarmağa başladılar. Məlum oldu ki, rektorun verdiyi vəd havayı imiş. Valideynlərin imtahan gedən binanın içərisinə buraxılması gözdən pərdə asmaqdan başqa bir şey deyilmiş. İmtahana girməyəndən sonra ya pilləkənin üstündə durdun, ya da həyətdə. Bunların bir-birindən nə fərqi oldu axı?

Bir azdan ağlaya-ağlaya imtahanlardan çıxanların ağzı açıldı. Kimisi "2" aldığına görə ağlayırdı, kimisi "3". Valideynlərin də ürəyi əsməyə başladı. Nəhayət, Gülyaz da gəldi. "4" almışdı. O özü sevinməsə də, atası bərk sevindi. Çünki burada gördüyünü görmüşdü. Düzdür, bilirdi ki, qızı kimya proqramını "5"-ə layiq bilir, ancaq kim idi ona "5" verən?

Ata ilə qız universitetdən çıxıb evə yollandılar. Rauf qızına dedi:

– Bala, görürsən, haqqı əysələr də, sındıra bilmirlər. Bunlardan "4" almaq özü də böyük şeydi…

Gülyazın anası da bərk sevindi. Xahiş elədi ki, bu haqda heç kəsə bir söz deməsinlər. Çünki düşər düşməzi olar. Uşağı keçən ilki kimi yenə dilə-dişə salarlar.

Ancaq nə Rauf müəllim, nə də Gülyaz yalan deməyi bacarmırdılar. Bir də ki, zəng eləyib soruşana yalandan necə cavab verəsən axı? Necə deyəsən ki, imtahanın vaxtını bilmirəm, qiymət almışam və i. a.

İkinci imtahan fizika idi. Gülyazı hazırlaşdıran müəllim deyirdi:

– Mütləq "5" alacaq…

Ancaq sən saydığını say… Nə qədər bilikli olursan ol, imtahanın da qanunları var.

Yazılı imtahandan çıxan qız dedi:

– Ata, iki sualın ikisinin də cavabını tam yazmışam. Ancaq məsələni düzgün həll etdiyimə şübhəm var.

Onlar birlikdə qızı imtahana hazırlaşdıran fizika müəlliminin yanına getdilər. Məlum oldu ki, məsələ orta məktəb proqramında olmayan məsələdir. Ancaq müəllim dedi:

– Nahaq tələsmisən. Gərək elədiyin qaydada işi davam etdirəydin. Sən bundan qat-qat çətin məsələlər həll etmisən.

Qız elə müəllimin yanındaca məsələni həll etdi. Ancaq nə fayda? Sonrakı peşmançılıq fayda verərmi?

Axşamı intizarla gözlədilər. Hamı universitetin qabağına qiymətləri öyrənməyə gəlmişdi. Nəhayət, saat 7-də qiymətləri oxumağa başladılar. Qəribə mənzərə idi; sevinən kim, ağlayan kim... Bir tərəfdən də dilənçilər zəli kimi adama yapışıb, qopmaq bilmirdilər ki, bilmirdilər.

Gülyaza imtahandan "3" yazmışdılar.

Atası da, o da, xalası da bərk dilxor oldular. Ata qızını danladı:

– Bütün bunların hamısı sənin tələskənliyinin nəticəsidir.

Qız heç nə demədi. Onun gözləri dolmuşdu. Evə gələnəcən onlar bir kəlmə də kəsmədilər. Maşında küsülü adamlar kimi oturmuşdular.

Evdə atası qızına toxtaqlıq verdi. Dedi ki, möhkəm hazırlaş, hələ heç nə itirməmişik. Keçən il kimyadan "3" almışdın, bu il "4", keçən il fizikadan "2" almışdın, bu il "3". Keçən il biologiyadan "4" almışdın, bu il gərək "5" alasan.

Qız doluxsundu:

– Ata, əvvəldən heç nə demə. İmtahandır də, görək axırı necə olur?

Gülyazgilin qrupundakı uşaqlar çox say-seçmə idilər. Onların əksəriyyəti yaxşı qiymət alırdı. O biri qruplarda 3-4 nəfər adam qaldığı halda, Gülyazgilin qrupunda imtahanı 19 nəfər davam etdirməli idi. Uşaqların 10 nəfərə yaxını artıq bir-birinə qaynayıb-qarışmışdı. Onlar imtahanların gedişində həm bir-birlərinin gücünə, potensial imkanına, eləcə də xarakterlərinin müəyyən cizgilərinə bələd olmuşdular. Qrupdakı 6 uşaq isə qətiyyən onlara qaynayıb-qarışmır, kənarda dayanırdılar.

Üçüncü imtahanda məlum oldu ki, bu uşaqların hamısı tapşırılıb. Onlara xüsusi qayğı, nəvaziş göstərilirdi. Yalandan "3" almışıq desələr də, məlum oldu ki, sifarişli "4"-lər yan-yana düzülürmüş.

İmtahanların ən ədalətsizi biologiya idi. 12 nəfəri əvvəlcə içəri saldılar. Tapşırılan 7 uşaq isə ayrı otaqda saxlanıldı. 12 nəfərin on ikisinə də "3" yazıb çölə çıxardılar. Dəhşətli bir mənzərə idi. Müəllimlər on ikisi də "5"-ə layiq olan uşaqlara dəlilsiz-sübutsuz, heç nədən çəkinmədən, vic-

dan əzabı çəkmədən “3” yazdılar. On iki uşağın üzünə qəm buludu çökmüşdü…

İmtahan komissiyasının sədri qapının ağzındakı otaqda oturmuşdu. İmtahandan əvvəl o, valideynlərə demişdi:

– Ay yoldaşlar, keçin o tərəfə, heç narahat olmayın. Müəllimlər nə ikini, nə də dördü mənsiz yaza bilməzlər…

Rauf müəllim acı-acı gülümsündü. Qəribə idi, “5” vermək üçün daha yuxarı dairələrdən, “4” üçün isə ən azı imtahan komissiyasının sədrindən razılıq almaq lazım imiş… Müəllimlər isə vicdanlarını itirən, yalnız “3” və “2” yazmağa ixtiyarı olan bambılılar imişlər. Pul onların gözünü elə tutubmuş ki, ayrı heç nə görmürmüşlər. Başqa vaxt vətəndən, millətdən, suverenlikdən dəm vuran bu “itilgetlər”, şərəfli müəllim adına ləkə vuran mənəviyyat caniləri yaşadıqca, yer üzündə ədalət bərqərar olmayacaq. Ay səni, gidi dünya…

Gülyaz sualların üçünü də əla bilirdi. Hər üç sualın ən əsas tezislərini imtahan kağızına yazmışdı. Vərəq tamamilə dolmuşdu. Yalnız qiymət yazılmaq üçün balaca bir yer qalmışdı. Qız yazdıqca keçən il ondan imtahan götürüb “4” yazan müəllim ona oğrun-oğrun göz qoyurdu. İntiqam almaq üçün əlinə yaxşı fürsət keçmişdi.

Şifahi imtahan idi. Müəllim Gülyazın işini nəzərdən keçirib qurtardı. Sonra bir yer göstərdi:

– Bura daha nə əlavə etmək olardı?

Qız tez cavab verdi. Müəllim razılaşdı:

– Düz deyirsən, ancaq görürsən, bildiklərini bura yazmamısan.

Bü münvalla yazı işinin yanına qırmızı xətlər çəkildi və axırda “3” yazarkən qızın əsəbləri tab gətirmədi. O, hələ

belə ədalətsizlik görməmişdi. Mane olmaq istədi. Üstünə qışqırdılar. “3” yazıb çölə çıxardılar.

Atasını görəndə qız hönkürdü. Onun nifrəti, qəzəbi göz yaşına çevrilib çağladı…

Rauf qızı ilə birlikdə imtahan komissiyasının sədrinin yanına keçdi. Prorektor da burada idi.

Rauf müəllim olanları danışdı, işə təzədən baxılmasını xahiş etdi.

İmtahan komissiyasının sədri dilləndi:

– Mən “3”-ə baxmıram.

– Hörmətli müəllim, bəs Siz imtahan komissiyasının sədri deyilsiniz?

– Sadrəm, nə olsun ki! (Bədbəxt sədr sözünü də düzgün tələffüz edə bilmirdi.)

– O olsun ki, hər bir qiymətə Siz cavabdehsiniz. Bütün münaqişəli məsələləri Siz həll etməlisiniz.

Elə bu vaxt prorektor söhbətə qoşuldu:

– Yoldaş, əgər qiymətdən narazısınızsa, gedib münaqişə komissiyasına ərizə verin.

– Hörmətli professor, mən mətbuat işçisiyəm, Sizdən də şişirtmə qiymət istəmirəm. Təkcə mənə inandırın ki, qızın həqiqətən “3”-ə layiqdi, mən də Sizə minnətdarlığımı bildirib gedim.

– Yaxşı, əyləşib gözləyin.

Elə bu vaxt imtahan komissiyasının sədri çölə çıxdı. Prorektor qıza suallar verdi. Onun cavablarından razı qaldı. Elə bu vaxt kimsə gəlib dedi:

– Professor, Sizi rektor çağırır.

Prorektor: – indi gəlirəm, – deyib getdi və bir daha geri qayıtmadı.

İmtahan komissiyasının sədri gəldi:

– Ay yoldaş, dedim ki, mən “3”-ə baxmıram, ixtiyarım yoxdu.

– Prorektorunuz dedi ki, mənə sübut eləyəcəksiniz ki, bu iş üçlükdü. Sizdən ayrı heç bir təmənnam yoxdu.

– Yaxşı, onda qoy müəllimlərlə məsləhətləşib gəlim.

Onun müəllimlərlə nə danışdığını deyə bilmərəm, ancaq geri qayıdanda dedi:

– Mən bu işə baxa bilmərəm, ixtiyarım yoxdu. Hər şeyi müəllimlər özləri həll eləyirlər.

Elə bu vaxt sifarişlə göndərildiyi açıqca hiss olunan universitet işçilərindən bir nəfər gəlib dedi:

– Talış müəllim, rektor deyir ki, “3” yazılan işlərin heç birinə baxmasınlar.

Elə bil sədrin çiynindən dağ götürüldü:

– Ay yoldaş, eşitdiniz, manim (mənim deyə bilmir) ixtiyarım yoxdu…

Mübahisənin yersizliyini başa düşən Raufgil çarəsiz çölə çıxdılar. O, rektorun qəbuluna girmək istədisə də, içəri buraxmadılar. Dedilər ki, buraxmağa ixtiyarımız yoxdu. Gedin prorektorun yanına…

Ay dadi-bidad, sən demə bu yekəlikdə universitetdə yalnız bircə nəfər ixtiyar sahibi imiş, onun da qəbuluna düşmək hər oğulun işi deyilmiş…

Rauf acı-acı gülümsündü. Kənddən gələnlərin o dəqiqə qəbul olunmaları, işlərinin düzəldilməsi də ona qəribə gəldi…

Rauf odsuz-alovsuz yanırdı. O, qızından utanırdı. Ona görə ki, övladını haqqa, ədalətə inam ruhunda tərbiyə eləmişdi. İndi o inam sabun köpüyü kimi bir şeyi xatırladırdı.

Onlar əvvəlcə münaqişə komissiyasına ərizə vermək istədilər. Raufun orta məktəbdə direktor işləyən dostlarından biri dedi:

– Havayı zəhmət çəkirsən. Apilyasiya gözdən pərdə asmaqdan başqa bir şey deyil. Apilyasiya müəllim səhvən uşağa aşağı qiymət yazanda onu düzəltmək üçündür…

Axırıncı imtahan ədəbiyyat yazılı idi. Gülyaz Maksim Qorkinin "Həyatın dibində" əsəri üzrə inşa yazmışdı. Həmin inşadan da "3" yazdılar ona. Dörd imtahandan cəmicümlətanı 13 bal toplaya bildi.

Axşam saat 7-də ali məktəbə qəbul olunan uşaqların siyahısı oxunmalı idi. Nə qədər elədilərsə də, Gülyaz getmədi. Dedi ki, onsuz da havayı şeydi…

Universitetin qarşısında canlanma var idi. Fakültələrin əksəriyyətində qiymət alanlar qəbul olundular. Hətta dörd dənə "3" alanlar da müsabiqədən keçdi. Gülyazgilin şöbəsində isə 15 bal toplayanlar belə kənarda qaldılar. Onlardan bəziləri başqa fakültələrə keçirildi. Gülyaz yenə də qəbul oluna bilmədi…

Atası onu danlayanda, daha yaxşı hazırlaşmaq mümkün olduğunu söyləyəndə qızın gözləri doldu:

– Ata, bundan artıq hazırlaşmaq imkanım yoxdu. Bütün gücümü sərf eləmişdim…

Doğrudan da, belə idi. "5" -ə layiq uşaqların hamısına "3" yazırdılar. Çünki onların adı universitet rəhbərliyinin gizli siyahısında yox idi…

Gülyazla işləyən, atası kalan olan qızlardan biri "3" imtahandan dalbadal "3" alıbmış. Pulun gücünə üçlərin üçünü də dörd elətdiriblər. Dördüncü imtahanın haqqını isə

bəribaşdan veriblər. Beləliklə qız ali məktəbə qəbul olunub…

Bütün bunları bilən Gülyaz da, atası da mənən əzab çəkirdilər. Necə hazırlaşırsansa hazırlaş, fərqi yoxdur. Təki…

Raufun dostlarından bir neçəsinin uşağı da qəbul imtahanı verirdilər. Onların da heç biri qəbul oluna bilmədi. Naxçıvanlı bir şairin qızına ədəbiyyatdan “2” yazmışdılar. Yazını təkrar yoxladanda məlum oldu ki, elə bir əhəmiyyətli səhv yox imiş inşada. Yazıq şair od tutub yanırdı. Deyirdi ki, 20 yanvarda gərək təpədən dırnağa hamımızı qıraydılar. Təkcə körpələri saxlayıb onları yeni ruhda, təmiz, rüşvətin nə olduğunu bilməyən adamlar kimi tərbiyə edəydilər.

Fizikadan “4” yazmaq üçün Raufun başqa bir dostundan çoxlu pul istəmişdilər…

İlahi, görəsən bu pulu halal zəhmətlə yığmaq mümkündürmü? Özü də maaşların az, hər şeyin od qiymətinə olduğu bir vaxtda…

Ancaq Rauf onu da yaxşı bilirdi ki, bir imtahan üçün istənilən iyirmi min manat başqaları üçün iyirmi manat kimi bir şeydir.

Rauf rektorun adına bir ərizə yazmışdı. Xahiş edirdi ki, mümkünsə onun qızını başqa fakültələrə dəyişsinlər. Hər ehtimala qarşı ərizəni Gülyazın anasına verib özü işə getdi. Axşam məlum oldu ki, ana birtəhər rektorun qəbuluna girə bilib. O deyib ki, qızım savadsız olsa, heç məni yandırmaz.

Rektor deyib:

– Savadsız olsa dörd imtahandan qiymət ala bilərdimi?

Uzun sözün qısası, rektor söz verib ki, Gülyazın hazırlıq şöbəsinə qəbul edilməsinə kömək edəcək…

Rauf bu xəbəri də istehza ilə qarşıladı. Bunu görən həyat yoldaşı dedi:

– İstehza eləmə, hamı deyir ki, o, sözünün ağasıdı, söz verdi, qurtardı.

– Neynək, bunu da yoxlayarıq. Necə deyərlər, ölməz Xədicə, görər nəvə-nəticə…

Aradan xeyli keçdi. Onlar birlikdə rektorun qəbuluna getdilər. Gözləmə otağı adamla dolu idi. Göyə iynə atsaydın yerə düşməzdi. Rektorun sehrli, müəmmalı qapısı açılmaq bilmirdi ki, bilmirdi.

Raufun yadına təzəcə baxdığı "Lətifə" filmi düşdü. Gülümsündü. Düşündü ki, filmdə olduğu kimi bu qapını da çöldən çalın-çarpaz taxta ilə mıxlamaq lazımdır.

Ancaq qapı açıldı. Zaldakı kafedra müdirlərini içəri çağırdılar. Aradan xeyli keçdi. Sonra müəllimləri, daha sonra texniki işçiləri qəbul etdilər. Yerdə qalanlara isə cəmi-cümlətanı on-on beş dəqiqə vaxt ayrıldı.

Raufgil öz gəlişlərinin məqsədini deyəndə rektor onların sözünü kəsdi:

– Gedin, hazırlıq şöbəsinə qəbul haqqında elan çıxanda gələrsiniz.

– Hazırlıq şöbəsinin dekanı deyir ki, məktəb illərindəki iş stajı nəzərə alınmır.

– Uşağın trudavoyu (əmək kitabçası) var?

– Bəli.

– Gedin, elan çıxanda gələrsiniz…

Onlar suyu süzülə-süzülə otaqdan çıxdılar. Gözləmə otağında Rauf dostlarından birinə rast gəldi. Dərdləri eyni idi. O da qızını hazırlığa düzəltdirmək istəyirdi.

Rauf qapıda xeyli dayanıb içəri girən dostunun çölə çıxmasını gözlədi. Nəhayət, o da qəbuldan suyu süzülə-süzülə çıxdı. Rəngi tamam qaçmışdı. Dili söz tutmurdu. Rauf həyəcanla soruşdu:

– Mehralı, nə olub sənə?

– Soruşma, gəl tez burdan çıxaq.

Sakitləşəndən sonra Mehralı başına gələnləri danışdı:

– Rektora dedim ki, imtahanlar ədalətsiz keçir. Qızımla bir qrupda imtahan verən uşaqların adlarını çəkdim. O, bərk hirsləndi. Üzünü mənə tutub dedi:

– Çox təəssüf ki, Sizin kimi millətin adını batıranlar var…

Çaşıb qalmışdım. Həqiqətdən danışmaq millətin adını batırmaqmı imiş? Çarəsiz çölə çıxdım. Onlardan nə desən gözləmək olar…

Nəhayət, elan da çıxdı. Gülyazın valideynləri yenidən qəbula getdilər. Yenə o tanış mənzərə, yenə üzüntülü qəbul otağı. Yenə pıçıltıyla danışan, üzlərinə qəm buludu çökən adamlar…

Gülyazın anası dərdini dedi:

– Professor, Siz demişdiniz ki, elan çıxanda gələk…

Rektorun mülayim sifəti ciddiləşdi:

– Elanda nə yazılıb? Yazılıb ki, rektorun yanına gedin?

– Axı Siz demişdiniz ki…

– Aparın sənədləri verin, sonrasına baxarıq…

Yenə də ötür-ötür oyunu başlandı. Hazırlıq şöbəsinin dekanı daş atıb başını tutdu ki, mən bu sənədləri götürə bilmərəm. Sizin uşağın iki il beş aylıq stajı olsa da, onun bir ili məktəbdə oxuduğu dövrə aiddir.

– İnsafla deyin, heç belə sənədləri götürdüyünüz olub-mu?

– Olub. Aparın Sizin də ərizənizin üstünü nazir yazsın, mən də götürüm…

Yenə də uzun, qarmaqarışıq, gedər-gəlməz yollar…

Dost-tanışın məsləhəti ilə onlar rektorun adına rəsmi ərizə yazdılar. Əvvəlcə dəftərxana müdiri ərizəni qəbul eləmək istəmədi. Dedi ki, darıxmayın, gələn il gələrsiniz, qızınızı hazırlıq şöbəsinə düzəldərik…

Çox isrardan sonra o, ərizəni götürdü. Ancaq dedi ki, bunun heç bir faydası olmayacaq.

Ancaq neyləyəsən? Suda boğulan saman çöpündən yapışdığı kimi, Gülyazın valideynləri də ümidlərini bu ərizəyə bağladılar.

Beləcə, narahat, üzüntülü günlər uzandı. Bir gün institutdan məktub aldılar. Onların xahişi yenə də müsbət həll edilməmişdi. Qəribəsi bu idi ki, göndərilən məktubda bir neçə orfoqrafik səhv var idi…

Bunları görən Rauf müəllim acı-acı güldü. Yadına heç nədən ötrü ədəbiyyat yazılı imtahanından kəsilən uşaqlar düşdü. Kim bilir, bəlkə də bu məktubu elə həmin müəllim-lərdən biri hazırlayıbmış… Ay səni, gidi dünya!

Gülyazın anası yenə qırsaqqız olub yapışdı həyat yoldaşının yaxasından ki, yenə də qəbula getmək lazımdır. Elə də etdilər. Çox yüngül formada dedilər:

– Professor, əgər bu iş düzələn deyildisə, bizi niyə get-gələ salırdınız?

– Mənə elə gəlirdi ki, Sizə kömək eləyə biləcəyəm. Ancaq bir şey alınmadı. Yenə də ümidinizi üzməyin. Yayda

qəbul vaxtı yanıma gələrsiniz. Təşkil edərik ki, qızınız xüsusi komissiya ilə imtahan versin…

Bununla da söhbət qurtardı. İntizarlı, ağrılı günlərin ömrü bir il də uzandı…

**1991**

PS. Dövran dəyişdi. Gülyaz ilk dəfə təşkil edilən test imtahanından ən yüksək bal toplayaraq müalicə fakültəsinə qəbul olundu. Ali məktəbi fərqlənmə diplomu ilə bitirdi, ölkənin nüfuzlu həkimlərindən biri kimi hörmət qazandı…

Həyat davam edir. Çətinliklər isə tükənmək bilmir ki, bilmir…

# QƏLƏBƏYƏ GEDƏN YOLLAR

## VƏTƏN HƏSRƏTİ

Uzun illər xaricdə vətən həsrətiylə yaşayan qoca bir kişi təyyarə ilə Azərbaycana uçurdu. O, bərk həyəcanlı idi. Nəvəsi isə dil-boğaza qoymur, elə hey ondan soruşurdu:

– Baba, Azərbaycan çox gözəldir?

– Gözəldir, mənim balam. Dünyanın heç bir ölkəsi Azərbaycana tay ola bilməz. Onun Göygölü, Maralgölü, başı qarlı uca dağları, yaşıl meşələri, gül-çiçəkli çəmənləri üçün yamanca qəribsəmişəm.

Baba xəyala dalmışdı. Nəvə isə təyyarənin pəncərəsindən aşağı baxırdı. Birdən o, qışqırdı:

– Baba, mən Xəzər dənizini görürəm.

Baba bir az həyəcanlandı. Neçə illər üzünə həsrət qaldığı Xəzəri yenidən görmək onun üçün çox xoş idi.

Təyyarə Heydər Əliyev adına təyyarə limanında yerə endi. Baba təyyarədən düşən kimi diz çöküb Azərbaycan torpağını öpdü. Qocanın gözlərində yaş gilələndi. Onun dilindən bu kəlmələr qopdu:

– Vətənə gəldim, imana gəldim...

Azərbaycanı ilk dəfə görən nəvə də kövrəlmişdi... Onun qulağında isə babasının ona qürbətdə əzbərlətdiyi şeirin bir bəndi səslənirdi:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

## BİZSİZ QALAN YURD YERLƏRİ

Baba ilə nənə nəvələri Fatehi görməyə getmişdilər. Fateh də, onun ata-anası da çox sevindilər. Ordan-burdan danışdılar. Söhbət zamanı nənə dedi:

– Kəndimizdən ötrü burnumun ucu göynəyir. Kaş bir quş olub uça, evimizə baxıb geri qayıda biləydim.

Araya sükut çökdü. Fatehin atası kompüteri işə salıb internetə qoşuldu. Düymələri basıb, özünə lazım olan saytı açdı. Üzünü nənəyə tutub dedi:

– Ana, quş olmağa ehtiyac yoxdu. Gəl rayonumuza, məhləmizə, evimizə bax.

Baba da, nənə də həyəcanlandı. Onlar stullarını yaxına çəkib, gözlərini monitora – kompüterin ekranına dikdilər. Peyk vasitəsilə çəkilib internetdə yerləşdirilmiş şəkillər onları heyrətə gətirdi, kövrəltdi.

Bomboş küçələr, dağıdılmış evlər, ağacları kəsilmiş viranə bağlar, qırılıb talan edilmiş meşələr, kol-kos basmış əkin sahələri ürək ağrılırdı.

Bax, bu da bizim evimiz. Üstü sökülüb, divarları dağıdılıb. Həyətindəki gözəl bağdan əsər-əlamət belə qalmayıb.

Babanın üzünü bulud aldı. Nənənin gözündə yaş selləndi…

Vəhşi ermənilər tərəfindən dağıdılmış evlər, tarixi abidələr elə bil imdad diləyirdi. Boş qalmış həyətlər, gülü solmuş bağlar, dağıdılmış yollar, körpülər adamın ürəyini göynədirdi. Bizsiz qalan ulu yurd yerlərimizin gözləri elə bil yol çəkirdi. Onlar səbirsizliklə öz sahiblərinin yolunu gözləyirdilər.

Baba bir ah çəkib dedi:

– İnsan doğulduğu torpaqdan ayrı düşəndə qərib olur. Sən demə doğma ev-eşik də öz sahibləri üçün qəribsəyirmiş. Biz burda qəribik, kəndimiz, rayonumuz orda. Mütləq qisas

almalı, işğal altında olan torpaqlarımızı yağı düşmənlərdən təmizləməliyik. Ulu yurd yerlərimiz yolumuzu gözləyir…

Fatehin atası nənəylə babanın kövrəldiyini görüb, kompüteri söndürdü. Araya başqa söhbət qatdı ki, gərginliyi aradan götürsün.

Fatehin qulağında isə babanın dediyi sözlər səslənirdi:

– Mütləq qisas almalı, işğal altında olan torpaqlarımızı yağı düşmənlərdən təmizləməliyik. Ulu yurd yerlərimiz yolumuzu gözləyir…

## QƏLƏBƏYƏ GEDƏN YOLLAR

Uşaqlar kitabxanaya tələsirdilər. Burada hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilməli idi. Ancaq nədənsə yollar bağlı idi. Bir azdan bunun səbəbi aydın oldu. Azərbaycan bayraqları ilə bəzədilmiş maşınlar Şəhidlər xiyabanına məhz bu küçədən keçirdi…

Uşaqlar dayandılar. Vətən uğrunda şəhid olan igid oğullarımızdan birini dəfn eləməyə aparırdılar. İnsan axını ara vermirdi. Bayrağa bürünmüş tabut insan dalğalarının başının üstündə əbədiyyət dünyasına üzən bir qayığa bənzəyirdi… Yavaş-yavaş hərəkət eləyən insan axını öz çiynində o müqəddəs qayığı da aparıb getdi…

Uşaqlar kitabxanaya tələsdilər. Onların ürəyində düşmənə nifrət, vətən uğrunda həlk olanlara isə məhəbbət baş qaldırmışdı.

Tədbir Azərbaycanın himni ilə başladı. Hamı ayağa qalxıb himn oxuyurdu… Elə bil ki, bu möhtəşəm himnin sədaları yeri-göyü yerindən oynadır, insanları qələbəyə səsləyirdi…

Sonra vətən uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Ancaq uzaqdan gələn güllə səsləri bu sükutun rahatlığını pozurdu…

Nəhayət, qocaman bir şairə, müəllimə söz verdilər. Uşaqlar bu şairi çox gözəl tanıyırdılar. Onun “Üçrəngli bayraq” şeirini əzbərdən bilirdilər… Ancaq şair bu dəfə şeir oxumadı… Şəhidlərimizə rəhmət dilədi. Dedi ki, əziz balalar, siz indi gördünüz ki, torpaqlarımız uğrunda dünyasını dəyişən igid oğullarımızdan birini əbədiyyət evinə yola saldıq. Həmin igid oğlumuz bir zaman bizim bu kitabxananın ən fəal oxucularından biri idi. Məhz oxuduğu kitablar onu vətənpərvər ruhda tərbiyə eləmişdi…

Şairin çıxışını hamı bəyəndi. Onun son sözləri isə uşaqları çox düşündürdü: “Əziz balalar, düşmənə qalib gəlmək üçün təkcə ona güllə atmaq kifayət eləmir. Bütün qələbələrin yolu kitabxanadan, məktəbdən keçir. Kitab oxuyan insan mənən çox zəngin, güclü olur. Siz hələ balaca olsanız da qələbəyə öz töhfənizi verməlisiniz. Daim oxumalı, öyrənməlisiniz. Elə təsəvvür eləyin ki, hər oxuduğunuz bir kitab öldürdüyünüz bir düşmən əsgəridi. Bütün qələbə yolları oxumaqdan keçir”…

**07.04. 2016**

## HƏMRƏYLİK GÜNÜ

Tənəffüsdə Fatehin gözləri bir elana sataşdı. Oğlan yaxına gəlib zərli hərflərlə yazılmış mətni oxudu:

“Uşaq Yaradıcılıq Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə şeir müsabiqəsi keçiriləcək. Kim iştirak etmək istəyirsə mərkəzə müraciət edə bilər”.

Yığıncaqlarda şeir söyləmək Fatehin çoxdankı arzusu idi. Ona görə də o, dəstə rəhbərinə yanaşıb müsabiqədə iştirak etmək istədiyini bildirdi. Onu mehribanlıqla qarşıladılar. Dediyi şeirləri dinləyib dedilər ki, sənin də adını çıxış eləyəcək uşaqların siyahısına yazdıq.

Nəhayət, müsabiqə günü gəlib çatdı. Uşaqlar növbə ilə səhnəyə dəvət olundular. Bu balaca fidan balalar elə gözəl görünürdülər ki… Ancaq onlar şeir söyləyəndə elə bil ki, bircə anın içində böyüdülər. Ürəklərindəki birlik, həmrəylik arzusu idi onları böyük göstərən.

Aparıcı Fatehin adını elan eləyəndə oğlan əvvəlcə çaşdı. Elə bil yanaqları od tutub yanırdı. Ayaqları dolaşa-dolaşa səhnəyə qalxsa da, şeir deyəndə onun dili dolaşmadı. Qəribə bir ahənglə şeir oxumağa başladı. Bu şeir dünyanın müxtəlif ölkələrində yaşayan dili bir, dini bir bütün soydaşlarımızı birliyə səsləyirdi. Şeirin son misraları isə uşaqların daha çox xoşuna gəldi:

İstəyimiz budur ki,
Böyüyüb yaşa dolaq.
İlin bircə günü yox,
Həmişə həmrəy olaq!

Fatehi alqışladılar. Sonda bütün iştirakçılar əl-ələ verib "Yallı" rəqsini ifa elədilər. Elə bil vətənin gözünün nuru, dizinin taqəti bir az da artdı. Çünki vətəni vətən eləyən onun ləyaqətli övladlarıdır.

**16.02.2013**

## ZƏFƏR YOLU – GÖZƏLLİYƏ SƏFƏR YOLU

Çox sevdiyimiz "Şuşanın dağları" mahnısında belə bir misra var idi: "Şuşanın dağları başı dumanlı... "

Bu mahnıda Şuşanın əsrarəngiz gözəlliyi, onun bənzərsiz təbiəti öz əksini tapmışdı. Şuşa öz dumanı, çisgini, yağışı, qarı, qışı, baharı, yayı, payızı ilə gözəl idi. Bu şəhərə bəzən Qala da deyirdilər. Şuşa sözün həqiqi mənasında alınmaz bir qala olmuşdu həmişə...

Çox təəssüf ki, bir gün ağlımıza gəlməyən başımıza gəldi. Şuşanın başının üstündə qara-qara buludlar oynadı...

Torpaqlarımız xəyanət nəticəsində yad əllərə keçdi... Şuşa otuz ilə yaxın bizdən ayrı qara-qara yuxular gördü, bizim ürəyimizdən qara-qara qanlar axdı... İllər uzunu Şuşa həsrətiylə yaşadıq. İllər uzunu doğma Şuşa doğma nəfəslərə həsrət qaldı. Düşmənlərimiz torpaqlarımıza əzab, bizə yandıq verdilər...

Ancaq bir gün intiqam günü gəlib çatdı... Müzəffər Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi altında Şuşanın dağlarını azad etdi, sinəmizə vurulan Şuşa dağlarını sağaltdı... Şuşa yenə də mədəniyyətimizin paytaxtına çevrildi...

Şuşa yolu zəfər yoluna, gözəlliyə səfər yoluna çevrildi...

Yaradıb müzəffər ordunu,
Şad etik ərənlər yurdunu...
Xoşbəxtdir Şuşanın dağları,
Sağalıb köksünün dağları.
Zirvədə yellənir bayrağım,
Yenə də gur yanır ocağım.

**08.03.2022**

## ZƏFƏR YALLISI

Cıdır düzündə payız idi. Topxana meşəsindəki ağacların hamısının gözlərinin kökü sapsarı saralmışdı. Bu dağlar, bu meşələr neçə illər idi ki, həsrətlə öz sahiblərinin yolunu gözləyirdilər. Küskün xarıbülbüllər ayrılıqdan zillət çəkirdilər. Hər yaz ümidlə torpaqdan baş qaldırıb ətrafa baxır, doğma insanları görməyib, yenidən küskün-küskün başlarını aşağı salırdılar.

Doğma insanların həsrəti, bəxtəvər günlərin xiffəti çiçəkləri də boynubükük eləmişdi bu yerlərdə. Neçə vaxt idi ki, doğma nəfəs, doğma səs üzünə həsrət qalmışdı xarıbülbüllər. Onlar bitəndə də elə yerdə bitirdilər ki, düş-

mənin gözünə görünməsinlər. Namərdlərin murdar nəfəsindən ürəkləri bulanırdı burdakı bütün güllərin, çiçəklərin. Onlar ətirlərini də öz içlərinə çəkirdilər ki, düşmənləri ləzzətdən məhrum eləsinlər. Elə bil quşlar da qəsdən oxumurdular. Bülbüllər perikmişdi Kirsdən, Üçmıx dağından, Cıdır düzündən... Onların cəh-cəh vurmağa da həvəsləri qalmamışdı.

Dağlar, dərələr mürgüləyəndə onların yuxusuna "Qarabağ şikəstəsi" gəlirdi... Xan əminin qavalı ay kimi görünürdü quşların, böcəklərin gözünə... Zəngülə şəlalə kimi çağlayırdı...

Hər yaz doğma insanların yolunu ümidlə gözləyən xarıbülbüllər bu payız da öz çiçək qoşunlarını torpağın altına çəkib mürgüyə getmişdilər.

Birdən elə bil möcüzə oldu. Çiçəklər doğma bir hənir, səs eşitdilər yerin üstündən. Elə bildilər ki, yenə yuxu görürlər... Ancaq bu yuxu o biri yuxulara bənzəmirdi... Bu yuxu həqiqət idi...

Qara zurna ildırım kimi şaqqıldayırdı Şuşanın dumanlı dağlarının üstündə... Azərbaycan əsgərləri Cıdır düzündə "Yallı" gedirdilər. Onların ayaqları altından elə bil qələbə, zəfər qığılcımları qopurdu. Bu qığılcımlar sönən ocaqlarımızı yenidən yandırırdı Qarabağda. Bütün Şuşa xoşbəxtlik nuru içində bəxtəvərlər bəxtəvərinə dönmüşdü... Payız çiçəklərinin ləçəyində xoşbəxtlik şehi bərq vururdu...

Müzəffər Azərbaycan əsgərinin ayaqları düşmənin ləpirlərinə çalın-çarpaz dağ çəkir, yağıları böcək kimi xıncım-xıncım əzir, toza döndərirdi. Əsgərlərimizin nəfəsi zəfər küləyinə dönüb, yağıların izini-tozunu murdarlar diyarına qovurdu... Cıdır düzündə yenidən xoşbəxt çiçəkləri baş qaldırırdı...

İllər boyu küskün-küskün axan, suyu quruyan Qarqar çayı da kövrəlmişdi eşitdiyi bu doğma səsdən. Elə bil indi o, adi çay deyildi. Hönkürən dağların gözündən çağlayan

sevinc yaşları onu coşdurub, daşdırmışdı. İndi o, bu pak diyardan murdar ayaq izləri yuyub aparmağa tələsirdi. Topxana meşəsindəki hər ağac bir top lüləsinə dönmüşdü...

İllər boyu otun, çayırın, şax-şəvəlin içində itib görünməz olan, dərədən sıldırım qayalıqların sərt sinəsi ilə Cıdır düzünə qalxan qırx pilləkən doğma ayaqlar altında ləzzət çəkirdi indi...

Dağlar sevincindən uçum-uçum uçunurdu... Elə bil ki, onlar da "Yallı" gedən igidlərimizə qoşulmuşdular. Elə bil Murov əlində Azərbaycan bayrağı cərgənin başında irəliləyirdi. Kirs, Şah dağı, Dəlidağ, Savalan, Qoşqar, Kəpəz, Səngər yallı gedirdi elə bil. Yallının o biri başında qoşa türk bayrağına bürünmüş Ağrı dağı yağılara yandıq verirdi elə bil. Düşmənlər vahimə içindəydilər. Dostlar isə sevinirdilər.

Qara zurna ildırım kimi şaqqıldayır, əllərində üçrəngli bayrağımız dalğalanan Azərbaycan əsgərlərinin ayaqları altından qeyrət qığılcımları qopurdu... Bu qığılcımlar ölüləri də diriltmək, cansızlara da can vermək gücündə idi...

...Pənahəli xanın, Mehdiqulu xanın, Natəvanın, Mir Möhsün Nəvvabın, Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Üzeyir Hacıbəylinin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin, Sultan Hacıbəyovun, Bülbülün, Xan Şuşinskinin, Süleyman Ələsgərovun... ruhları bir-birlərinə qoşulub bu Zəfər yallısının tamaşasına tələsirdilər...

**07.12.2020**

# ZƏFƏR SİMVOLU

Şuşada qəribə görkəmi ilə insanı heyrətə, riqqətə gətirən möcüzəli bir çiçək bitir. Onu otların, çiçəklərin arasından seçmək o qədər də asan deyil. Ancaq tapdınmı, gözlərini çəkə bilmir, saatlarca ona baxır, Allahın yaratığı bu çiçəyə heyranlıqla tamaşa eləyirsən...

Yadımdadır, ailəlikcə Şuşada istirahət eləyirdik. Bu, müharibədən bir az əvvəl olmuşdu. Atam sübh tezdən yuxudan qalxıb şehli çəmənlərdə, Cıdır düzündə, Üçmıx dağında gəzir, qayıdanda özü ilə təzə-tər xarıbülbül çiçəkləri gətirirdi. Mən yuxudan duranda güldanda qoyulmuş bu çiçəklərə heyranlıqla baxırdım.

Səhər yeməyindən sonra atam bizi də özüylə gəzməyə aparırdı. Cıdır düzündən sıldırımlı dağlara heyranlıqla baxırdım. Qoynundan qıjıltılı Qarqar çayı axan dərənin o tayında Topxana meşəsi göz oxşayırdı. Hələ sıldırımın sinəsindəki əlçatmaz, ünyetməz sehrli qala hörgüsünün qalıqları...

Bir dəfə atamdan soruşdum ki, nə üçün ora Topxana meşəsi deyirlər. O, mənə Ağaməhəmməd Şah Qacarın qoşunu ilə gəlib, həmin ərazidə öz toplarını yerləşdirməsindən, Şuşanı atəşə tutsa da, onu fəth edə bilməməsindən söhbət açdı... Sonralar bu tarixi hadisələrlə bağlı “Xacə şah”, “Qan içində” romanlarını oxumuşdum.

Yaxşı yadımdadır, Cıdır düzündəki sıldırımın başından Qarqar çayına tamaşa eləyirdik. Atam əslən Şuşadan olan, elə orada da yaşayan Ramiz dayı ilə söhbət eləyirdi. Ordan-burdan danışırdılar. Birdən atam soruşdu ki, burdan çayın yanına düşməyə bir yol yoxdumu?

Ramiz dayı gülümsündü:

– Var, burda təbiətin əliylə düzələn gözəl bir məkan var. Adına Qırx pilləkən deyirlər. Bu çətin, yorucu pilləkənlə enib qalxanların sayı az olduğundan, ətrafı şax-şəvəl basıb.

Gəzməyə, görməyə böyük həvəsi olan atam Ramiz dayıdan əl çəkmədi:

– Bəlkə, o pilləkənlə enməyə mənə bələdçilik eləyəsən?

Ramiz dayı dedi:

– İndi axşam tərəfidir, özüm də işdən təzə gəlib yorulmuşam. Bir dəfə qismət olsa, səni o pilləkənlə çayın sahilinə endirərəm.

Atam inadkarcasına:

– Sən yorulmusan, getmə. Ancaq istiqaməti göstər, özüm gedərəm, – dedi.

Ramiz dayı tərəddüd elədi:

– Yox, sən nabələd adamsan. Gedib qayadan yıxılarsan, işə düşərık...

Atam susdu. Gözləri ilə sıldırımın sinəsi ilə çaya enən pilləkəni axtardı...

Birdən Ramiz dayı nə fikirləşdisə atama dedi:

– Gəl dalımca. Ancaq bir az cəld ol ki, qaranlıq düşməmiş çayın sahilinə enib, geri qayıda bilək...

Onlar bir-birinə qoşulub getdilər. Biz isə Cıdır düzündə oynayırdıq. Anamgil isə xalçanın üstündə sərilmiş süfrənin arxasında əyləşib, samovar çayı içə-içə söhbətləşirdilər.

Şər qarışanda atamgil qayıdıb gəldilər. Onlar bərk yorulmuşdular...

Həmişə öz-özümə düşünürdüm ki, atam bu gəzməkdə nə görüb e? Səhər-səhər doyunca yuxu da yatmır.

O, sübh gəzintisinə gedəndə məni də özü ilə aparmaq istəyirdi. Ancaq tənbəllikdən özümü yuxululuğa vururdum...

Atam isə sübh gəzintisindən qayıdıb gəlir, səhər yeməyindən sonra bizi də gəzməyə aparırdı. Üçmıx dağının yamacındakı biçənəkdə o qədər gül-çiçək var idi ki... Ancaq mən xarıbülbül axtarırdım. Qəribə idi, hamı bu çiçəkdən tapıb dərir, mənim gözlərim isə güllərin arasında gizlənən xarıbülbülləri seçə bilmirdi... Bunu özümə dərd eləmişdim.

Gileylənəndə atam zarafatla dedmişdi ki, kimin ki, ürəyində vətən sevgisi yoxdur, xarıbülbül onun gözünə görünmür.

Bu söz mənə yaman yer eləmişdi. Gözlərim yaşarmışdı. Əlimin arxasıyla tez göz yaşlarımı silmişdim ki, kimsə görməsin...

O gündən sonra özümə söz verdim ki, mən də hər səhər yuxudan tez durub Şuşanın dağlarında, yamaclarında gəzəcəyəm...

Elə də etdim. İlk dəfə ləçəklərində şeh bərq vuran xarıbülbülü tapanda elə sevinmişdim ki... İndi də o çiçəyin şehli ləçəkləri gözümün önündən getmir...

Doğulduğum rayonun, Şuşanın işğalı məni illər boyu göyüm-göyüm göynətdi...

Aradan uzun illər keçdi. Böyüdüm, hərbçi oldum. Axır ki, Şuşa uğrunda döyüşlər başladı. Fəxr eləyirəm ki, mən də komandir kimi o əməliyyatlarda iştirak elədim. İgid döyüşçülərimizin qarışsını sıldırım qayalıqlar belə kəsə bilmirdi. Bölməmdəki şir biləkli cavanlar canavar kimi düşmən ordusunun içərisinə girir, onları didib parçalayırdılar...

Çox şükür, Şuşanın üstündə üçrəngli bayrağımız dalğalandı... İgidlərimiz Cıdır düzündə elə yallı gedirdilər ki, gözlərimdən sevinc yaşları çağlayıb axdı. Ötən günləri xatırladım. Gözümdə bərq vuran bu sevinc damlaları uzun illər bundan qabaq dərdiyim şehli Xarıbülbül çiçəyini xatırlatdı mənə...

Bu da qələbə! Bu da zəfər! Bu da yumruqları düyünlənmiş Ali Baş komandandan eşitdiyimiz zəfər müjdəli sözlər:

– Cəbrayıl bizimdir! Füzuli bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Kəlbəcər bizimdir! Laçın bizimdir! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

“Əziz Şuşa, sən azadsan”, – deyən komandanın səsindəki titrəyiş bütün xalqın ürəyini titrətdi... Anladım ki, kimin qəlbində vətən sevgisi varsa, ona zaval yoxdur...

Gözləri şehlə siləlenmiş xarıbülbüllərə baxa-baxa düşünüürəm: "Ürəyində vətən sevgisi olmayanlar qalib gələ bilməzlər."

Xarıbülbül xoşbəxtdir... Şəhidlərimizin, qazilərimizin qanından su içən bu çiçəklər indi zəfər simvoluna, igid döyüşçülərimizin talismanına çevrilib. Xarıbülbülün ləçəklərində bərq vuran bir damla şehin içində şəhidlərimizin ruhu şəfəq saçır elə bil...

**12.12.2020**

## ŞUŞAYA DÖNƏN HEYKƏLLƏR

Heykəllər qara-qura yuxu görürdülər elə bil. Üstlərinə güllə yağışı yağırdı onların. Başlarına, sinələrinə dəyən mərmilər bu dahiləri öldürə bilmirdi ki, bilmirdi... Ancaq Şuşanın təmiz havasını zəhərləyən murdar səslər, murdar nəfəslər onları darıxdırırdı. Elə bil heykəl Natəvanın, heykəl Üzeyirin, heykəl Bülbülün havası çatmırdı bu gözəl, doğma məkanda... Nə dilləri var idi danışalar, nə ayaqları var idi gedələr. Ancaq təskinlikləri bu idi ki, heykəldilər. Heç olmasa, bu qədim şəhərdə qalıb yurdun keşiyini çəkəcəklər nəvə-nəticələri geriyə dönənəcən...

Heykəllərin şax duruşundan yamanca qorxdu yağılar. Onları yerə yıxmaqla da ürəkləri soyumadı. Yük maşınına qoyub şəhərdən çıxardılar, başqa bir ölkəyə aparıb satmaq, pul qazanmaq eşqinə düşdülər bu rəzillər...

Bu əzəmətli heykəllərin əslində heç nədən, heç kimdən qorxusu yox idi. Əksinə, onlardan qorxurdular. Bu heykəllərin güllələnmişi belə üşəndirirdi yağıları... Mədəniyyət oğruları dərk elədilər ki, xalqın ürəyində heykəlləşən insanları tarixin ucalığından endirmək mümkün deyilmiş. Bu heykəl sahiblərinin müdrik sözləri, əsrarəngiz musiqisi, ecazkar səsi hopmuşdu insanların yaddaşına. Hətta başqa ölkələrdə belə bu güllələnmiş heykəlləri məhəbbətlə süzən

gözlər görəndə düşmən yanıb-yaxılırdı. Bu tarixi şəxsiyyətlərin nəinki özlərinin, əsərlərinin, hətta abidələrinin də dəyəri çox böyük imiş sən demə...

Uzun, məşəqqətli yollar keçəndən sonra Bakıya, doğma muzeyin həyətinə gəlib çıxdı bu qaçqın heykəllər. İnsanlar axın-axın onların görüşünə gəldilər. O qədər gül-çiçək gətirdilər ki...

Heykəllər kövrəldilər, ancaq bunu büruzə verməyi bacarmadılar... Otuz ilə yaxın gözləri yol çəkdi bu heykəllərin... Nə gecələri gecə oldu, nə gündüzləri gündüz... Özləri burda olsalar da, ruhları Şuşadan ayrıla bilmirdi...

Nəhayət, arzuladıqları gün gəlib çıxdı... İgid oğullarımız əfsanəvi qəhrəmanlıqlar göstərdilər. Sıldırım qayalardan dırmaşıb, düşməni pərən-pərən saldılar. Yeni qəhrəmanlıq salnaməsi yazdılar. Uzun illərdən bəri yolumuzu həsrətlə gözləyən doğma Şuşa yağılardan azad olundu. Cıdır düzündə üçrəngli bayrağımız dalğalandı...

Heykəllərin ayaqları olsaydı qaça-qaça, qanadları olsaydı uça-uça qayıdardılar Şuşaya... İgid övladlarımız bunu duydular. Düşündülər ki, doğma diyara qayıtmaq birinci onların haqqıdı...

Heykəllər doğulduqları doğma şəhərə qayıdırdılar. Yol boyu düşmənlər tərəfindən dağıdılmış evləri, tarixi abidələri, məscidləri, xarabazara çevrilmiş kəndləri, qəsəbələri, şəhərləri görən abidə sahiblərinin ruhu qan ağlayırdı elə bil. Ancaq onların bir gözləri ağlasa da, bir gözləri gülürdü.

Şuşaya çəkilən təzə yolla vətənə qayıdan heykələr sevinirdilər. Şuşadan son çıxan onlar olmuşdu, Şuşaya ilk qayıdan da onlar oldu... Heykəllər üçrəngli bayrağın kölgəsində özlərini xoşbəxt hiss eləyirdilər. Ancaq heykəl olaraq qalırdılar hələ də. Birdən möcüzə baş verdi. Cıdır düzündə səslənən "Qarabağ şikəstəsi" heykəlləri cana gətirdi elə bil... İllərdən bəri Qarabağ dağlarında sərgərdan qalan tarixi

şəxsiyyətlərin ruhları sevinə-sevinə öz sahiblərinin heykəl cisminə - bədəninə qayıtdılar.

Elə bu vaxt göy guruldadı, ildırım şaqqıldadı. Qızılı şimşəklər dirijor çubuğuna bənzədi... Xarıbülbüllər torpaqdan baş qaldırıb Cıdırdüzünə boylandı...

Uzaqdan lap uzaqdan, qəhrəman babalarımızın köhlən atlarının kişnərti səsi eşidilirdi elə bil. Bu səsi təkcə heykəllər duya bilirdi... Göylərdən səpələnən sevinc yağışları Şuşaya yeni həyat gətirirdi...

**05.04.2021**

## SƏKKİZİN NAĞILI

Biri var idi, biri yox idi, yer üzündə çoxlu rəqəmlər var idi. Var idi deyəndə rəqəmlər indi də var, gələcəkdə də olacaq... Ancaq bu gün noyabr ayının 8-də Səkkiz rəqəminin bir yaşı tamam olurdu... Bəli, bəli, düz eşitdiniz, Səkkizin bir yaşı... Bu münasibətlə bütün rəqəmlər onun ad gününə gəlmiş, xoş sözlər söyləmək üçün növbəyə dayanmışdılar... Əslində rəqəmlərin növbəyə dayanmağına heç ehtiyac da yoxdu. Rəqəm özü elə növbə kimi bir şeydi. Elə buna görə də Bir heç bir təklif gözləmədən özünü irəli verdi:

– Əzizimiz Səkkiz. Özün bilirsən ki, səninlə dostluğumun tarixçəsi uzun və çoxşaxəlidir. Biz yanaşı dayananda 18 rəqəmi alınır. 18 isə tariximizin ən gözəl günlərindən biridir. Mayın 18-də Beynəlxalq Muzeylər Günü, Sentyabrın 18-də Milli Musiqi Günü qeyd olunur həmişə. Ən önəmlisi isə oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi Gününün bayram kimi qeyd edilməsidir.

Sonra İki özünü qabağa verdi:

– Atalar təsadüfi deməyiblər ki, tək əldən səs çıxmaz. Rəqəmlər arasında mənim də öz yerim var. İnsana iki göz, iki əl, iki ayaq verib Yaradan. Bütün rəqəmlərlə dost, qardaşam. Ancaq mən də Səkkizlə yanaşı dayanmaqdan qürur duyuram. Biz çiyin-çiyinə dayananda gözəl bir rəqəm, 28

yaranır. Mayın 28-də  Azərbaycan Demokratik Respublikasının yaranması günüdür. Tariximizin ən şərəfli səhifələrindən biri bu rəqəmlə bağlıdır.

Sonra o biri rəqəmlər də növbə ilə danışıb Səkkizi təbrik elədilər. Arada özlərindən dəm vurmağı da unutmadılar. Üç “Atalar üçdən deyib” kəlamını, üçrəngli bayrağımızı, Dörd ilin dörd fəsli olmasını, Beş uşaqların ən sevdiyi rəqəmə çevrilməsini, Altı dünyanın altı günə yaradılmasını, Yeddi göyqurşağının rənglərini,  Doqquz Azərbaycanda on bir iqlim qurşağından doqquzunun olmasını xatırlatdı.

Səkkiz bütün rəqəm dostlarına öz təşəkkürünü bildirdi. Dedi ki, əziz dostlar, mənim qismətimə gözəl günlər düşüb həmişə. Fevralın 8-də Azərbaycanın ilk peyki göyə uçub. Martın 8-də Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur həmişə. Ancaq nə gizləyim, mayın 8-də Şuşanın işğal edilməsi dilimi yaman qısa eləmişdi. Utandığımdan rəqəmlərin üzünə də baxa bilmirdim. Çox şükür, qəhrəman Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi altında məni bu xəcalətdən qurtardı. Noyabrın səkkizində Şuşanın azad edilməsi sevincimə sevinc caladı. Həmin gün zəfər günü kimi tarixə düşdü. Həmin gün bayarağımızin üstündəki səkkiz guşəli ulduzun parlaqlığını bir az da artırdı elə bil...

Rəqəmlər əl-ələ verib Yallı getdilər. Mahnı oxuya-oxuya Səkkizin ad gününü təbrık elədilər.

– Bir yaşın, mübarək, əziz Səkkiz! İnanırıq ki, rəqəmlərin sayı qədər ad gününü qeyd eləyəcəyik həmişə. Gözün aydın, gözümüz aydın! Ümid eləyirik ki, dövlətimizin gördüyü işlər, xalqımızın qazandığı uğurlar bütün rəqəmləri unudulmaz tarixi günlərə çevirəcək...

**17.07.2021**

## UŞAQLIĞA GEDƏN AVTOBUS

Şuşaya gedən ilk avtobusun sərnişinləri arasında atam ilə mən də var idim. Özümü çox xoşbəxt hiss eləyirdim. Bəs necə, üzünü görməsəm də, haqqında hər gün eşitdiyim ata yurduma – Şuşaya idi səfərim. Çox həyəcanlı idim. Avtobusun pəncərəsindən dəyişən mənzərələrə baxır, ilk dəfə gördüyüm dağlara, dərələrə maraqla tamaşa edirdim.

Yol boyu gedə-gedə atamın Şuşa ilə bağlı söylədikləri yadıma düşürdü. O deyirdi ki, bir dəfə mən balaca olanda atamla, anamla birlikdə Cıdır düzünə getmişdik. Valideynlərimin başı söhbətə qarışanda mən qaça-qaça gedib sıldırımın lap yanına çatmışdım. Birdən atamın həyəcanlı qışqırıq səsini eşitdim. Başımı qaldıranda bir qartalın qanadlarını yığıb göydən mənə sarı endiyini gördüm. Atam qışqıra-qışqıra əlindəki ağacı göydəki quşa sarı atdı. Səs-küydən qorxan nəhəng quş qanad çala-çala bizdən uzaqlaşdı... Atam qaça-qaça gəlib məni quçağına aldı. Onun bütün bədəni titrəyirdi. Anam isə mənim boynumu qucaqlayıb ağlayırdı... Əvvəlcə heç nə başa düşmədim, sonra atamın sözündən anladım ki, göydə uçan bir qartal yerdə, sıldırımın başında bir uşaq görüb onun üstünə şığıyıbmış...

Yol boyu mənzərələrə baxa-baxa atamın Şuşa ilə, öz uşaqlığı ilə bağlı söylədiyi nağılabənzər söhbətləri xatırlayırdım. Düşünürdüm ki, o vaxt qartal atamı apara bilməsə də, zaman bir gözəgörünməz qartal kimi onun yurd həsrətiylə dünyalarını dəyişən valideynlərini, mənim üzünü görmədiyim babamı, nənəmi də caynağına alıb harasa nağıllar dünyasına aparıb...

Zəfər yolu sıldırımların arasından keçir, bizi zirvəyə, Şuşaya sarı aparırdı. Babamdan eşitmişdim ki, Şuşanın ilk adı Pənahabad olub. Səbəbini soruşanda demişdi ki, bu

şəhəri sıldırımlar üstündə saldıran Pənahəli xan olduğuna görə Şuşaya Pənahabad deyirmişlər. Şuşa isə bu şəhərin şiş bir zirvədə salınması ilə bağlı yaranan bir addır.

Mən rəhmətlik babamdan "şiş" sözünün mənasını soruşanda demişdi ki, "şiş" ən uca bir yer deməkdir. Sonra mənə Cəfər Cabbarlının "Ölkəm" şeirindəki bu misraları xatırlatmışdı:

"Şiş ucları buludlarla öpüşən,
Dağları var, düzləri var ölkəmin..."

Zəfər yolu zirvələrə dırmandıqca xatırlayırdım ki, bu cığırla ilk dəfə müzəffər Azərbaycan ordusunun əsgərləri gediblər. Sıldırımdan qalxıb Şuşanı fəth eləyən, onu düşmənlərdən azad eləyən şəhidlərimizin, qazilərimizin qanıyla yoğrulub Zəfər yolu... Bizi qalibiyyət zirvəsininə aparan bu yol düşmənin arzularının üstündən keçir, sehrli, qızmar bir şiş kimi onların havadarlarının gözünə batır. Bu yolun son ucunda üçrəngli Azərbaycan bayrağı dalğalanır...

Müharibə vaxtı hamı kimi mən də televiziyanın qarşısından çəkilmir, xoş xəbər gözləyirdim. Ali Baş Komandan "Əziz Şuşa, sən azdsan" deyəndə atamın sevincdən hönkür-hönkür ağladığını heç zaman unuda bilmərəm... Bu hönkürtü aylardan, illərdən bəri ürəklərdə yağılıb qalan həsrətin göy gurultusu idi elə bil.

Avtobusda heç kəs danışmırdı. Ancaq hiss eləyirdim ki, hamı öz ürəyində danışır. Çünki, maşındakı sərnişinlərin hamısı uşaq kimi Şuşadan çıxıb, indi ata, baba, nənə kimi doğma yurda qayıdan insanlar idi. Eynən xəyallara dalan atam kimi...

Atamdan o qədər sualım var idi ki, ancaq soruşmağa cəsarət etmirdim. Hiss eləyirdim ki, bu müqəddəs, sirli, qoynunda fırtınalar yatan  sükütu pozamağa mənim sadəcə olaraq haqqım yoxdur. Hiss eləyirdim ki, atam kimi avtobusdakıların hamısı çox həyəcanlıdır. Ona görə ki, Şuşaya gedən ilk avtobusun sərnişinlərinin hamısı uzun

illərin ayrılığından sonra uşaq vaxtı ağlaya-ağlaya çıxdıqları doğma şəhərə böyük kimi, ata, ana, baba, nənə kimi qayıdırdılar.

Bu da Şuşa... Sərnişinlər maşından düşüb diz çökdülər müqəddəs şəhərin önündə... Şəhərə həsrət qarı yağmışdı elə bil. Şuşa bəmbəyaz, ağ örtüyə bələnmişdi...

Hamı, hamı sevinir, Şuşanın əsrarəngiz mənzərələri telefonların foto, video yaddaşına köçürülürdü. İndiki şəraitdə Şuşada çox qalmaq mümkün deyildi, ona görə hamı geriyə qayıdanda Şuşadan nə isə aparmaq, evdəkilərə, qohumlara, dostlara göstərmək istəyirdi...

Şuşadan geri qayıdanda sükut əməlli-başlı pozulmuşdu. Hamı danışır, hamı bir-birinə gözaydınlığı verirdi. Səfər təəssüratını bir-biriylə bölüşənlər xoşbəxtlərin xoşbəxti idilər. Cəsarətlənib mən də atamı təbrik elədim. Ancaq elə bil o, sevinmirdi. Atamın gözlərinin dərinliyindən həsrət boylanırdı elə bil. Dediyi bu sözləri isə heç unuda bilmirəm:

– Uşaqlığım keçən yerlərə qayıda bilsəm də, uşaqlığımla görüşə bilmədim... Çünki uşaqlığa gedən heç bir nəqliyyat vasitəsi, qatar, təyyarə, avtobus yoxdur, oğul...

**29.01.2022**

## ŞUŞADAN GƏLƏN AZAN SƏSİ

Allahü Əkbər! Allahü Əkbər!

Sübhün alatoranında çiçəklər, otlar, ağaclar, böcəklər müqəddəs bir səsin sədaları altında gözlərini açdılar. Dağlar, yamaclar, dərələr, təpələr həyəcandan titrəyir, bulaqların quruyan gözlərinə su gəlirdi... Qulaqları eşitməyən, gözləri görməyən dağların, qayaların qulaqları eşidir, kor gözləri görürdü elə bil. Qarqar çayı həyəcanla axır, quşlar, böcəklər, ceyranlar, cüyürlər səslərini içlərinə salıb bu ilahi sədanı heyranlıqla dinləyirdilər. Bu nə səs idi, ilahi?

O səsdən işıq süzülürdü elə bil. O səs təkcə gecənin yox, ürəklərin də zülmətini əridirdi. Topxana meşəsi, Cıdır düzü, Üçmıx dağı, Kirs dağı əsim-əsim əsirdi. Dağların əyilmiş qəddi düzəlirdi elə bil. Yerin altından çiçək qoşunu baş qaldırır, gözəllik qənimlərinə meydan oxuyurdu. Xarıbülbüllər səngərdən qalxan igidlər kimi yerin altından baş qaldırır, yerin üstündə gəzməyə haqqı olmayanlara meydan oxuyurdu...

Xankəndində qəflət yuxusuna dalanlar qara-qura yuxular görürdülər. O səs ildırım şaqqıltısını, göy gurultusunu xatırladırdı. O səs qəflət uyğusuna gedənlərin yuxusunu qaçırır, hamını, hamını düzlüyə, təmizliyə, mənəvi saflığa, haqqa, ədalətə, paklığa haraylayırdı.

Pənahabadın – Şuşanın yaradıcısı Pənahəli xanın, İbrahim Xanın, Molla Pənah Vaqifin, Xan qızı Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün, Xan Şuşinskinin ruhu şad idi... Xankəndindəki, İrəvandakı, Zəngəzurdakı murdar gədələrin yuxusu isə ərşə çəkilmişdi. Bu səs dağı, dərəni, daşı, qayanı onların başına fırladırdı.

Bu səs yeri, göyü, havanı yad nəfəslərdən, bəd niyyətdən təmizləyirdi. Bu səs bulaqların, çayların duruluğunu artırır, Qarabağa təzə hava, təzə nəfəs gətirirdi...

**08.03.2022**

## QUBADLIDAN GƏTİRİLƏN BİR OVUC TORPAQ

Bitdilicə yanında mürgüləyən Civirtdəyi dümsüklədi:

– Bəsdir bu qədər yatdın. Dur bir az söhbət eləyək.

– Sən də vaxt tapdın da söhbət eləməyə. Gecənin bu vaxtı nə söhbət?

– Nağılçı baba ilə Amerikaya getdiyimiz yadındadı?

– Hə, nə olsun ki.

– Məsələ bundadı ki, Nağılçı baba indi də illərdən bəri üzünə həsrət qaldığı Qubadlıya gedir.

– Nə bildin?

– Axşam telefonla danışanda eşitdim. Ona dedilər ki, hazırlaş, sübh tezdən yola çıxırıq.

– Urra! Nə gözəl. Bəlkə biz də onunla gedək?

– Necə? Axı ora hər adamı buraxmırlar. Ancaq adı siyahıya düşənləri aparacaqlar.

– Ay sağ olmuş, Bitdilicəyə, Civirtdəyə nə siyahı, nə buraxılış vəsiqəsi? – Keçən dəfə Amerikaya necə getmişdik, indi də elə gedərik. Girərik babanın kompüterinin içinə.

– Yox, bu mümkün deyil. Çünki bu dəfə baba özü ilə kompüter aparmayacaq.

– Onda əl çantasının içinə girib gizlənərik.

– Hə, bu yaxşı fikirdi. Heç mənim ağlıma gəlməmişdi. Tez elə, baba yuxudan durmamış qaçıb çantanın içində gizlənək.

– Heç baba yatıb ki, yuxudan da dura? Bir də babanın o qədər çantası var ki, birdən biz içində gizləndiyimiz çantanı aprmadı özüylə?

– Yox, onun hansı çantanı aparacağını bilirəm. Axşamdan içinə kağız, qələm qoyanda görmüşəm.

– Bu qapının ağzına qoyulan sumkadı bəlkə?

– Hə, tez elə. Baba əl-üzünü yuyana, çay içənəcən girib onun içində gizlənək.

Onlar cəld çantanın içinə gerdilər.

Baba bir fincan çay içib evdəkilərlə sağollaşdı. Sonra çantanı götürb həyətə düşdü. Qapıda onu maşın gözləyirdi...

Dörd mikroavtobus bir-birinin ardınca üzü Qubadlıya sarı şütüyürdü. Hər avtobusda 7 adam var idi. Onlar elə bil toya gedirdilər. Deyib-gülür, zarafatlaşır, “bu günə min şükür”, – deyirdilər.

“Az getdilər, üz getdilər, dərə, təpə, düz getdilər”, axır ki, gəlib “Qarabağ” mehmanxanasının qarşısında dayandılar. Yolçular bir gecə burda qaldılar. Sübh tezdən yenə maşınlara minib yollarına davam elədilər.

Yol boyu bir şəhərə, bir kəndə rast gəlməmələri Bitdilicə ilə Civirtdəyi lap təəccübləndirdi. Ancaq evlərin xarabalıqları qalmışdı. Dostlar danışanların söhbətindən başa düşdülər ki, evlərin hamısı düşmənlər tərəfindən dağıdılıb, nənki tikinti materialları, hətta qəbir daşları da sökülüb aparılıb. Yol boyu minaaxtaranlar işləyir, ərazini təmizləməyə çalşıırdılar...

Axır ki, bir abad əraziyə rast gəldilər. Söhbətdən başa düşdülər ki, Ağalı kəndinin xarabalıqları yerində gözəl bir qəsəbə salınır. Özü də adına “Ağıllı kənd” deyirlər buranın. Qaçqınların ilk məskunlaşacağı yerin bura olacağını da öyrəndilər gözəgörünməz dostlar. Pıçıltı ilə dedilər ki, belə gözəl, müasir qəsəbədə kim yaşamaz ki...

Necə oldusa Bitdilicə ilə Civirtdəyi yuxu tutdu. Onlar adamların həyəcanla dedikləri “Min şükür” sözünü eşidib ayıldılar. Danışıqlardan başa düşdülər ki, bura Qubadlı rayonunun ərazisidir. Xanlıq körpüsündən keçəndə baba telefonunu çıxarıb illərdən bəri üzünə həsrə qaldığı Həkəri çayının videosunu çəkməyə başladı. Çay elə gözəl idi ki... Dupduru su günəşin şəfəqləri altında bərq vururdu... Babanın da sifəti nurlanmışdı elə bil...

Maşın Həkəri ilə Bərgüşadın arasındakı dağın üstünə qalxanda baba həyəcanlandı. Yanındakılara dedı ki, baxın, indi gözünüzün qarşısında dünyanın ən gözəl mənzərələrindən biri canlanacaq. Bura Bərgüşadın axdığı vadidir.

Doğrudan da, mənzərələr o qədər gözəl idi ki, uçurdulub dağıdılmış, viranə qoyulmuş kəndlərin ağrısını belə unutdururdu... Ancaq çay 30 ilə yaxın bir müddətə yaranmış meşənin, ağacların, otların, şax-şəvəlin içində görünməz olmuşdu. Təbiət uçurdulub xarabaya döndərilmiş kəndlərin yaralarını yaşıl bir tənziflə sarımışdı elə bil...

Axır ki, maşınlar dayandı. Adamlar həyəcanla yerə düşdülər. Elə bil doğma ayaqların altında sevinirdi yaralı torpaq. Ziyarətçilər yuvası dağıdılmış quşlar kimi nə

edəcəklərini, hara gedəcəklərini bilmirdilər. Öz evlərinin yerini tapmaq qətiyyən asan məsələ deyildi...

Elə bu vaxt Ali Baş Komandan gəlib çıxdı. Hamı ilə bir-bir əl verib görüşdü. Dedi ki, hamınızı bu tarixi gün münasibətilə təbrik eləyirəm. Bu gün Qubadlının işğaldan azad olunmasının düz bir ili tamam olur. İndi Qubadlıda siz mənim qonağımsınız, şəhər abadlaşanda isə mən sizin qonağınız olacam... Burada əvvəlkindən də gözəl bir şəhər salacağıq. Qubadlı Şərqi Zəngəzurun, ən gözəl, ən abad, ən müasir şəhərlərindən birinə çevriləcək.

Sonra adamlar Ali Baş komandanla birlikdə şəhərin dağıdılmış küçələrində gəzdilər, söhbət elədilər. Yerində bir daşı belə qalmayan məktəbin yanından keçib, körpüsü dağıdılmış Bərgüşad çayının yanına getdilər. Çay elə bil sevincdən kükrəyib daşırdı. Adamlar da sevinirdilər...

Nağılçı babanın əyilib yerdən bir ovuc torpaq götürməsi Bitdilicənin gözündən yayınmadı. Pıçıltı ilə Civirtdəkdən soruşdu ki, gördün babanın torpaq götürdüyünü?

– Yox, başa düşmürəm, torpaq babanın nəyinə lazımdı ki?

– Eh, indi bu gözəlliklər diyarında Vətən torpağından qiymətli nə var ki! Yəqin Nağılçı baba buna görə torpaq götürür...

Onların dediyində həqiqət var idi. Ancaq Bitdilicə ilə Civirtdək nə biləydilər ki, baba bu torpağı nə üçün götürüb? O, bu torpağı el-obasından, ev-eşiyindən ayrı düşən, yurd həsrəti ilə dünyasını dəyişən anasının nigaran, gözləri yol çəkən qəbrinin üstünə səpmək üçün aparırdı...

**15.01.2022**

# XATİRƏ QARINA BÜKÜLÜB GƏLƏCƏYƏ GÖNDƏRİLƏN ŞƏKİL

Qışın ikinci ayı olsa da, qar üzünə həsrət idim… Hər səhər yuxudan durub balkondan həyətə baxar, qarın yağıb-yağmadığını öyrənmək istəyirdim. Ancaq hər dəfə bomboz şəhəri görəndə istər-istəməz üzüm də bozarırdı… Öz-özümə deyinirdim: “Böyük çillə az qalıb qurtarsın… Bir iki günə kiçik çillə gələcək… Yalandan da deyirlər ki, kiçik çillənin soyuğu, təndirə təpər toyuğu… Heç belə də qış olar?” söylədiyimi eşidən atam deyirdi:

– Ay qızım, qarı neyləyirsən axı?! Qar özüylə qara günlər gətirəcək…

– Başa düşmədim, ay ata, bu nə deməkdi…

– Qar yağanda çox zaman şəhərdə işıqlar sönür, qaz kəsilir… Küçələr buz bağlayır… Qış özyüylə problemlər gətirir…

Ürəyimdə atama haqq versəm də, qarın yağmağını səbirsizliklə gözləyirdim…

Nəhayət, bir gün qar yağdı… Əsl mən istəyən qar… Lopa-lopa… Elə bil ki, bəmbəyaz kəpənəklər dəstə ilə uçub küçəmizə qonurdular…

Bütün uşaqlar sevinirdilər… Bomboz şəhər bəmbəyaz bir örtüyə bələnmişdi… Balkondan baxanda elə gözəl görünürdü ki…

Axır ki, həyətə düşdüm… Dostlarımla qartopu oynadım… Elə bil qış da sevindiyindən dişlərini ağardır, uşaqların gülüşünə bəmbəyaz bir rəng qatırdı…

Qartopu oynayan kimi, sürüşən kim…

Birdən atama dedim ki, gəl qardan bir adam düzəldək. Atam razılaşdı… Bir saatdan çox əyləşdik… Və axır ki, böyük, qəşəng, yaraşıqlı bir qar adam düzəltdik…

Atam güldü… Qızım, sən lap heykəltaraş imişsən ki…

Qar heykələ kökdən burun da qoyduq, göz də, qaş da düzəltdik…

Dedim ki, ay ata, birdən mənim heykəlim üşüyər, papağını çıxart qoyaq onun başına…

Atam gülsə də mənimlə razılaşdı. Papağını qar adamın başına qoyan kimi, o bir az da çox adama oxşadı…

Sonra atamdan xahiş elədim ki, heykəllə mənim şəklimi çəksin…

Düzəltdiyim qar adamla yanaşı durdum… Atam bir neçə dəfə şəklimizi çəkdi…

Axır ki, yoruldum, üşüdüm… Soyuqdan əllərim göynəyirdi…

Atam heykəlin başından papağını götürüb qarını çırpdı, sonra onu öz başına qoydu…

Qar adamla sağollaşıb evə qalxdıq…

Səhərisi gün gün çıxdı… Qar heykəl əriyib suya döndü… Bir az təəssüfləndim… Ancaq yadıma düşdü ki, həmin heykəlin şəklini çəkmişik…

Mənim düzəltdiyim o qar heykəl əriyib suya dönsə də, birlikdə çəkdirdiyimiz şəkil həmişə məndə qalacaq…

Babam mənim qar heykəllə çəkdirdiyim şəklə baxıb qəşəng bir şeir də yazdı. Son misraları belə idi:

Qoru, əziz nəvəm, bu şəkli qoru,
Mən də onu evimin ən əziz
xatirəsinə döndərəcəyəm…
Əriməyəcək heç zaman
bu qışın xatirə qarı,
sənin şəklini o qara büküb,
gələcəyə –
nəticələrimə
göndərəcəyəm…

Doğrusu, bu şeir də mənim çox xoşuma gəldi. Bu qışın qarlı xatirələri boylanacaq həmişə o misralardan…

**29.01.2017**

## GÖYGÖLÜN SAHİLİNDƏ

Yay tətilində Anar Hacıkənddə yaşayan babasıgilə getdi. O, hər gün uşaqlarla dağa çıxır, dərman bitkiləri dərirdi.

Bax, bu, qantəpər, o isə kəkotudur. Boy çiçəyinə baxanda adamın gözü gülür. Bu çiçəklərin, bitkilərin hərəsi bir dərdin dərmanıdır.

Bir gün babası Anardan soruşdu:

– Oğlum, Göygölü görmək istəyirsən?

Anar sevindi:

– Əlbəttə, baba…

Onlar maşina minib Göygölə getdilər. Təbiətin gözəlliyi Anarı heyran qoymuşdu. Meşənin içindən keçən yol Kəpəzə sarı uzanırdı. Uzaqdan əzəmətli Kəpəz dağı görünürdü.

Göygöl Dövlət Qoruğunun ərazisinə çatanda onlar maşından düşüb piyada getməyə başladılar. Buradakı çiçəklər, bitkilər, quşlar, marallar Anarı heyran qoymuşdu.

Birdən onların gözlərinin qarşısında gözəl bir mənzərə açıldı. Dağların qoynundakı Göygöl sehrli bir aynanı xatırladırdı. Sulara sahildəki ağacların, çiçəklərin əksi düşmüşdü. Meh əsdikcə Göygöl nazlı-nazlı cilvələnirdi…

Baba nəvəsinə Göygölün necə yaranması haqqında məlumat verdi. Dedi ki, zəlzələ nəticəsində dağlar uçaraq Ağsu çayının önünü kəsib. Beləliklə də gözəl göllər yaranıb: Göygöl, Maralgöl, Zəligöl, Güzgügöl, Qaragöl…

Gözəl mənzərələr oğlanı heyrətə gətirmişdi. O, Göygölün sahilində də çoxlu qantəpər çiçəyi gördü. Ancaq qəribə idi. Buradakı çiçəklər daha gözəl, daha ətirli idi. Görünür təbiətin gözəlliyi bitkilərə də öz təsirini göstərirmiş...

Anar Göygöldən geri qayıdanda öz-özünə düşünürdü: “Doğrudan da, Azərbaycan gözəlliklər diyarıdır. Bu gözəlliyi isə göz bəbəyi kimi qorumaq lazımdır”.

## GÖLLƏR DÜNYASI

Kəpəz gün işığının altında mürgüləyirdi. Ağsu çayı şırıltıyla axır, elə bil ona layla çalırdı.

Ovçu isə dağ cığırı ilə yuxarı qalxırdı. O, nişan alıb bir maralı vurmaq istəyəndə yer-göy lərzəyə gəldi. Amansız bir zəlzələ başladı.

Toz-duman yavaş-yavaş çəkildi. Özünə gələn ovçu hündür bir yerə çıxıb ətrafa baxdı. O, gözlərinə inanmadı. Dağların qoynunda gözəl-gözəl göllər əmələ gəlmişdi: Göygöl, Maralgöl, Qaragöl, Güzgügöl, Zəligöl...

Yaradanın əmrinə tabe olan təbiət ana çox müdrikdır. O, birini uçuranda, ondan daha gözəlini yarada bilir...

## HEYKƏLLƏR

Baba nəvəsi ilə Bakıda gəzirdi. Onlar İçərişəhər metrosundan çıxıb İstiqlal küçəsi ilə getməyə başladılar. Qala divarlarının yanındakı heykələ çatanda nəvə soruşdu:

– Baba, bu kimin heykəlidir?

– Mirzə Ələkbər Sabirin.

– Hə, hə, bildim. Mən onun “Uşaq və buz” şeirini əzbər bilirəm.

Baba gülümsündü. Onlar küçəni keçib daha əzəmətli bir heykəllə üz-üzə durdular.

– Baba, bəs bu kimin heykəlidir?

– Bu da Nizami Gəncəvinin heykəlidir, mənim balam. Nizami beş ölməz poemanın müəllifidir. Bu əsərlərə birlikdə

"Xəmsə" deyirlər. Böyüyəndə sən onun əsərlərini oxuyacaqsan.

Nəvə fikrə getdi. Bir qədər düşündükdən sonra soruşdu:

– Baba, nə üçün adamlara heykəl qoyurlar?

Fatehin sualı babanın xoşuna gəldi. O, nəvəsinin saçlarını tumarlayıb, danışmağa başladı:

– Qəhrəman, müdrik insanları həmişə yaşatmaq, gələcək nəsillərə nümunə göstərmək üçün onların şərəfinə heykəllər ucaldılır. Özü də heykəli hər adama yox, vətən üçün ləyaqətli işlər görənlərə qoyurlar.

Bakı heykəllər şəhəridir. Bu şəhərdə ucaldılan heykəllər onu daha da gözəlləşdirir.

Nəvə soruşdu:

– Baba, şəhərimizdə daha kimlərin heykəli var?

– Ulu öndərimiz Heydər Əliyevin, Füzulinin, Nəsiminin, Üzeyir Hacıbəyovun, Şah İsmayıl Xətainin, Hüseyn Cavidin, Həzi Aslanovun, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mikayıl Müşfiqin və başqa görkəmli adamların heykəlləri Bakımıza yaraşıq verir. Siz böyüyəndə bu insanların həyatını öyrənəcəksiniz. Biləcəksiniz ki, onlara nə üçün abidə ucaldılıb.

Nəvə xəyala dalmışdı. O, yol gedə-gedə düşünürdü. "Kaş mən də böyüyəndə xalqım üçün ləyaqətli işlər görə biləydim. Kaş nə vaxtsa mənə də heykəl qoyaydılar."

# KİÇİK HEKAYƏLƏR

## BAYRAMIN İLK GÜNÜ

Sübh tezdən dəniz sahilində gəzişirdik. Xəzər yüngül mehin təsiri ilə cilvələnirdi. Üfüq od tutub yanırdı. Buludlar hələ özü görünməyən günəşin şəfəqlərini don kimi əyninə geyinmişdi… Hiss olunurdu ki, bir azdan günəş boylanıb hər yanı öz nuruna qərq edəcək.

Belə də oldu. Günəş nə vaxtsa sulara baş vuran bir gözəl kimi başını Xəzərin sularından çıxarıb dörd yana baxdı. Aləm nura qərq oldu…

Birdən şəfəqlərin altında gözümüzə balıqçı toru dəydi. Bir qarabatdaq balıq yemək istəyərkən tora düşmüşdü. Yazıq çırpına-çırpına qalmışdı. Dostlarımızdan biri özünü saxlaya bilmədi. Paltarını soyunub özünü buz kimi suya vurdu. Üzüb qarabatdağın yanına getdi.

Canın hayında olan yazıq quş çırpındı, xilaskarının əlini dişlədi. Ancaq ovçu dostumuz səbrlə quşu tutdu. Xeyli əlləşəndən sonra onu tordan xilas edə bildi. Quşu buraxan kimi o, çətinliklə uçub sulara baş vurdu...

Ayrı vaxt ovçuluqla məşğul olan dəniz dostumun bu hərəkəti çox xoşuma gəldi. Dünya gözümdə bir az da gözəlləşdi. Bu hadisəni seyr eləyənlərin hamısının üzündə təbəssüm var idi… Orucluq bayramının ilk günü sevinclə başladı…

**30.08.2011**

## KƏKLİK

Müxtəlif peşə sahibi olan çoxlu dostlarım var. Onların əksəriyyəti ilə dəniz sahilində tanış olmuşam.

Dostlarımdan biri gözəl idmançı olmaqdan əlavə, həm də ovçudur. Bizi həmişə dadlı ov ətinə qonaq eləyir…

Ovçuluqda bir qəddarlıq var. Ancaq mənim dostum çox kövrəkdir. Ovda onun başına çox maraqlı əhvalatlar gəlib… Danışır ki, bir dəfə çoxlu ördək, qaşqaldaq vurub evə gətirmişdim. Evdə ördəklərin biri dirildi. Məlum oldu ki, heç ona güllə dəyməyibmiş. Oğlum israrla dedi ki, bu çöl ördəyini evdə saxlayaq…

Ördəyi televiziyanın karton qutusunun içinə qoyduq. Nə qədər dən, su versək də dilinə vurmadı ki, vurmadı…

Aradan bir həftə keçdi. Quşa çox yazığım gəldi. Oğlum dərsdə olanda onu açıb buraxdım. Ördək uçub getdi. Oğlum gələndə yalandan ona dedim ki, qutunu örtməmisən, ördək də uçub gedib…

Dostumun danışdığı başqa bir əhvalat da maraqlıdır. O deyir ki, yayın istisində ailəmi də götürüb rayona gedirdim. Hava isti olduğu üçün maşının pəncərələri taybatay açıq idi… Birdən qəribə bir hadisə baş verdi. Maşının pəncərəsindən nəsə özünü içəri soxdu. Hamımız çaşbaş qaldıq. Sonra uşaqlar gördülər ki, pəncərədən içəri girən bir kəklik imiş… Sən demə qırğı onu qovanda daldalanmağa yer tapmayan kəklik özünü maşının içinə soxmaqla canını qurtara bilibmiş…

Kəkliyi uşaqların əlindən alıb çölə buraxmaq istəyəndə onlar təəccübləndilər:

– Ay ata, bir kəklik ovlamaqdan ötrü dağda-daşda ərəsən olursan. Bəs necə olur ki, Allahın yetirdiyi ovu açıb buraxmaq istəyirsən?

Bir təhər uşaqlara başa salmağa çalışdım ki, o ayrı işdi, bu isə ayrı. Qırğının caynağından canını xilas eləmyə çalışan quş bizə pənah gətirib… Onu öldürmək olmaz, mütləq azadlığa buraxmaq lazımdır…

Bundan sonra uşaqlar mənimlə razılaşdılar. Kəkliyi maşının pəncərəsindən çölə buraxdıq…

**20.01.2006**

# SƏFƏRİN DƏNİZ SƏFƏRİ

Mənim çoxlu dəniz dostum var. Dəniz dostum deyəndə elə bilməyin ki, biz dənizçiyik. Yox, hərəmiz bir peşənin sahibiyik. Aramızda alim də var, şair də, mühəndis də var, xalq hakimi də, daş karxanasının müdiri də var, tikinti rəhbəri də, mağaza müdiri də var, sürücü də, idmançı da var, kababçı da… Ancaq bizim hamımızı bircə şey – dənizə məhəbbət birləşdirir. Hər səhər gün çıxmamış dəniz sahilinə gedib orada gəzişir, söhbətləşir, zarafatlaşırıq. O qədər doğmalaşmışıq ki, hərə öz başına gələn maraqlı, məzəli əhvalatları danışmaqdan belə çəkinmir…

Zaman öz işini görüb. Bəzi dəniz dostlarımızı itirmişik, dəstəmizə yeni qoşulanlar da az deyil. Sahildə gəzişən adamlar həmişə, hətta indinin özündə də bu şən, hay-küylü dəstəyə qibtə ilə baxır, gülümsəyərlər. Bu dəstəyə qoşulmaq isə hər oğulun işi deyildi… Ona görə ki, "dəniz quldurları" kimi məşhur olan bu dəstənin özünəməxsus qayda-qanunları olub həmişə…

Kababçı həmişə fəxrlə deyir ki, mən VDNX-da, yəni Moskvada keçirilən kənd təsərrüfatı sərgisində kabab bişirəndə siz heç kababın dadını da bilmirdiniz. Yekə-yekə, saç-saqqalı ağarmış, nəinki oğul-uşaq, hətta nəvə sahibi olan kişilər isə bic-bic gülür, həmin məşhur, özləri ilə yaşıd olan kababçıya əmi deyə müraciət edərək məzələnirdilər. Bu söz isə keçmiş kababçının, indiki kababxana müdirinin canına sarı yağ kimi yayılır, öz səxavət kisəsinin ağzını açır, qonaqlıq verir, ötən günlərdən söhbət açırdı.

Birdən həmin ağsaqqal kişilər "əmi-əmi" deyə elə ağız-ağıza verirdilər ki, qəribə, arı vızıltısına bənzəyən səslər çıxarırdılar. Daha doğrusu, onlar analarını görəndə ağız-ağıza verib yanıqlı-yanıqlı mələyən, onlara sarı qaçan quzu-

lara bənzəyirdilər: – Əmi… Əmi… Əmi… Sonra gülüş-gülüşə, zarafat zarafata qarışırdı…

Ancaq əmi də əmi idi ha! Yalançı əmi sözü ilə ürəkdən gələn əmi sözünün fərqini yaxşıca bir-birindən ayırmağı bacarırdı. Elə ki, "yediyiniz yeməyin, yaxud da soyuq yeməklərin pulunu verin" – deyirdi, o dəqiqə başa düşürdün ki, deyilən əmi sözləri onun o qədər də xoşuna gəlməyib…

Bir sözlə, dəniz gözəldi, dəniz nağıllar dünyasıdı… Əlli ildi ki, hər səhər dəniz sahilinə gedən bir insan kimi onun gözəlliklərini da yaxşı bilirəm, əsəblərə necə sığal çəkməyini də, coşub daşanda nələrə qadir olduğunu da görmüşəm, hətta bir il qış şaxtalı keçəndə donmağının da şahidi olmuşam. Bir sözlə, dəniz məni çox sevindirib, çox heyrətləndirib, ən əsası odur ki, ürəyimdəki həyat eşqini sönməyə qoymayıb. Dənizlə bağlı o qədər xatirələrim var ki…

Hamımızı narahat eləyən bir məsələ var. Gözügöynük iş adamları dəniz sahilində kababxana tikdirmək yarışına giriblər. Pul hərisliyi onların gözünü elə örtüb ki, əllərində əlac olsa, dənizin özünü də çəpərləyərlər…

Bir gün küləkli havada dəniz sahilinə gedəndə qəribə bir mənzərə ilə rastlaşdıq. Gecə dənizdə qopan tufan düz sahildə yan-yana sıralanan təzə köşkləri kibrit qutusu kimi götürüb kənara atmışdı. Bunu görüb acı-acı gülümsündük. Bir dənizçi dostumun, bizim kimi yox, ixtisasça dənizçi olan, bir sıra dənizlərdə, okeanlarda öz gəmisi ilə üzən dostumun sözlərini xatırladım. O deyirdi ki, ən çətin dəniz Xəzərdi. Ona görə ki, o coşub-daşanda dalğalar arasındakı məsafə – interval çox az olur. Dalğaların fasilə vermədən gəmiyə çırpılması isə adamı göz açmağa belə qoymur…

Sözlərimi eşidən Səfər adlı yeni dostlarımızdan biri dənizlə bağlı başına gələn maraqlı bir əhvalat danışdı. Onu da deyim ki, Səfər adı bu insana çox yaraşır. Ona görə ki, o, ixtisasca sürücüdür. Bizim kimi sürücü yox e, əsl sürücü. Uzun müddət böyük, nəhəng maşınları idarə edən Səfər çox

yerlərə səfər eləyən bir insandır. Demək olar ki, onun ömrünün çoxu yollarda keçib.

Hə, Səfər danışdı ki, iri, upuzun, yüklə dolu maşınlarımızla Poti limanına getdik. Məsafəni yaxınlaşdıraq deyə o biri sahilə gəmi ilə keçmək qərarı verilmişdi. Hamımız növbə ilə maşınlarımızı nəhəng yük gəmisnin içinə sürdük. Bizim yekə-yekə maşınlarımız o gəminin içində çox kiçik göründü bizə. Onları yerbəyer eləyəndən sonra bizim üçün ayrılan kayutalara getdik.

Gəmi yola düşdü. Biz isə süfrə açıb yeyib-içməyə, söhbətləşməyə başlamaq istədik. Əlimi stolun üstündəki butulkaya uzadanda onun aşması mənə qəribə gəldi. Elə bildim ki, şüşə bizdən canını qurtarmaq üçün aşıb yerə düşdü. Ancaq bu azmış kimi süfrəyə düzdüyümüz bütün nemətlər aşıb yerə töküldü. Sürücü dostumla təəccüblə bir-birimizin üzünə baxdıq. Elə bil ki, zəlzələ başladı. Gəmi vahiməli şəkildə yırğalandı. Elə bil nəhəng dağ silkələnirdi. Qaça-qaça göyərtəyə qalxanda gözlərimizə inanmadıq. Gəmidəkilər vahimə içində qışqırır, dənizçilər isə onları sakitləşdirməyə çalışırdılar. Dəniz elə kükrəyib daşırdı ki, içi ağır yüklə, maşınlarla, adamlarla dolu nəhəng gəmini kibrit qutusu kimi atıb-tuturdu. Hər an batmaq, dənizdə qərq olmaq təhlükəsi gözləyirdi bizi. Kapitan səsgücləndirici ilə deyirdi ki, narahat olmayın, lazımi yerə xəbər vermişik, “SOS” siqnalı çalmışıq. İndicə köməyimizə gələcəklər…

Üstümüzə gələn dalğalar nəhəng dağları xatırladırdı. Onlar gəmiyə dəyəndə, qorxudan gözlərimizi yumurduq. Vahimə içində gəminin aşacağı dəqiqələri gözləyirdik…

Nəhayət, bir fit səsi eşitdik. Bizim gəmidən qat-qat böyük bir gəmi suları yara-yara bizə yaxınlaşırdı. O, bizim gəmiyə yaxınlaşıb lövbər saldı, üstümüzə gələn dalğaların qarşısını aldı. Bir az özümüzə gəlsək də, hələ təhlükə tam sovuşmamışdı. Bir azdan başqa bir nəhəng gəmi də üzüb gəldi. O da bizim gəmimizin digər tərəfində dayanıb lövbər

saldı. Bu nəhəng gəmilər elə bil ki, öz körpə balalarını dövrələyib onu quduz dalğalardan xilas etməyə çalışırdılar.

Aradan üç saatmı, dörd saatmı, on saatmı keçdiyini bilmirəm, ancaq axır ki, dalğalar sakitləşdi. Bizi xilas edən nəhəng gəmilər üzüb gedəndən sonra öz yolumuza davam elədik. Gəmimiz limana yaxınlaşında çox sevindik. Maşınlarımızı sürüb sahilə çıxanda isə sevincimizin həddi-hüdudu yox idi. Özümüzü çox xoşbəxt sanırdıq…

Səfər başına gələni danışıb qurtardı. Dedim ki, dəniz zarafat sevmir. Dar ayaqda insan insana, dağ-dağa, gəmi gəmiyə həyan olmalıdır…

Sonra hamımız susduq, düşüncələrə qərq olduq. Özümüzü həmin gəmidə olanların yerində hiss elədik. Ləpədöyəndə gəzməyə başladıq. Şükür elədik ki, dalğaların qoynunda yox, sahildəyik. Dəniz isə həmişə olduğu kimi kükrəyib daşır, bizi yaşamağa, yaratmağa, onunla dostluq etməyə səsləyirdi…

**08.06.2015**

## XOŞBƏXT QƏBİRLƏR

Möhtərəm oxucu, bəri başdan deyim ki, bu əhvalat uydurma deyil, həyatda baş verən ibrətamiz bir hadisədi. Onu mənə əslən Zəngilandan olan bir dostum danışıb… Qərara almışam ki, neçə gün mənə rahatlıq verməyən bu əhvalatı qələmə alıb iki sevən insanın xatirəsini əbədiləşdirim…

…Bulaq başında görüşdülər, sevişdilər. Ürəklərindəki sevgi bulaq kimi çağladı. Nəhayət, bir gün el adəti ilə nişanlandılar, sonra evləndilər…

İllərlə ürəkləri eyni ahənglə döyündü, eyni həsrətdən göynədi… Bu həsrət səhər-axşam bir cüt göz yaşına dönüb gəlinin kirpiklərindən asıldı. Bu həsrət onun həyat yoldaşının qəlbinə gecə-gündüz çalın-çarpaz dağ çəkdi… Övlad həsrəti…

On il beləcə ötüb keçdi… On il qonum-qonşunun qınaqlı baxışlarına dözdülər. On il verilən ehtiyatsız suallar onların ürəyindəki övlad həsrəti yarasının üstünə duz səpdi. On il bu suallar əyri bir orağa dönüb onların ürəyində xəyalən qurulan, ümidlə əkilib göz yaşıyla suvarılan sevgi zəmisini biçdi, biçdi, biçdi…

İllər ötdü… Heç müqəddəs sevgi də bu boşluğu doldura bilmədi… Ancaq nə gileyləndilər, nə taleylərinə üsyan elədilər. Susdular, susdular, axır ki bir gün sevgi ocağını öz əlləriylə söndürməyə, ayrılmağa qərar verdilər…

Kişi çox yalvardı, getmə, – dedi. Qaynata-qaynana öyüd-nəsihəti də kömək eləmədi. Qadının qərarı qəti idi. O, dərin məhəbbətlə sevdiyi insanı övladsız qoya bilməzdi…

Ayrılanda ona and içdirdi, yalvardı ki, başqasıyla evlənsin…

Axır ki, onlar taleyə boyun əydilər. Kişi evləndi, boşanmış gəlinsə özgəyə ərə getdi. Aradan illər, aylar ötüşdü… Kişinin üç oğlu, bir qızı dünyaya gəldi. Gəlinsə başqa kişinin qızını öz övladı kimi böyütdü…

İllər-illərə, aylar aylara calandı… Bir-birini dərin məhəbbətlə sevən iki insanın üz-üzə gələndə keçirdiklərini Allahdan başqa kim bilərdi ki?! Sən demə ayrılıq da sevgi odunu söndürməyə qadir deyilmiş. Sən demə ailənin dağılmasına səbəb olan övlad da, oğul-uşaq da sevgini unutdura bilməzmiş…

Hələ bu azmış kimi bu iki bir-birini dəlicəsinə sevən, eyni kəndin havasından udmaq, suyundan içmək səadəti ilə ovunan, arabir göz-gözə gələndə dünyanın xoşbəxtinə çevrilən insanların taleyinə qaçqınlıq-köçkünlük payı da qismət imiş...

Hərə bir yerə səpələndi, hərə bir kəndə, bir şəhərə sığındı… Bir-birindən ayrı düşənlər torpaqların alınmasına ümid bəslədilər, doğma kənddə arabir də olsa uzaqdan-uzağa bir-birinə baxmaq ümidi ilə yaşadılar… Çoxları vətən

həsrətinə dözməyib dünyalarını dəyişdilər. Bir elin, bir obanın qəbirləri də pərən-pərən düşdü. Biri o kənddə dəfn olundu, biri bu kənddə. Biri bu şəhərdə dəfn olundu, biri o şəhərdə…

Təzə qərar çıxdı. Qəbirlər üçün əvvəlcədən yer götürmək qadağan olundu. Kimliyindən, nəçiliyindən, qadınlığından, kişiliyindən asılı olmayaraq dünyasını dəyişənlərin cərgə ilə dəfn olunmasına qərar verildi…

Bu da bir dərd, bu da bir ağrı… Bu münvalla doğmaların, əzizlərin bir-birinin yanında dəfn olunmaq arzusu da onların əlindən çıxdı… Bu qərar bir-birindən pərən-pərən düşənlərin yanaşı dəfn olunmaq səadətinin də üstündən çalın-çarpaz dağ çəkdi… Qəbirlər də ölüm tarixi ilə cərgələndi, sıralandı…

Bir gün şəhər qəbristanlığında qoşa qəbir qazıldı. Mərhumları dəfn edərkən qonum-qonşu heyrətə gəldi. Vaxtilə övlada görə bir-birindən ayrı düşən iki insana indi qoşa dəfn olunmaq səadəti nəsib olmuşdu…

İndi onları bir-birindən heç kəs, heç kəs, doğmalar da, əzizlər də, oğul-uşaq da ayıra bilməzdi… Xoşbəxt insanları çox görmüşdüm, xoşbəxt qəbirləri isə birinci dəfə idi ki, görürdüm…

**19.07.2015**

## QOYUN İTİ

Bu olmuş əhvalatı mənə dəniz dostlarmdan biri, ömrü boyu sürücü işləyən Səfər adlı bir nəfər danışıb. O deyir ki, İsmayıllıda qohumlarımgildə idim. Dedilər ki, gedib gözəl bulaqlardan birindən su gətirək. Su qablarını maşına yığıb yola düşdük. Yolda qəribə bir mənzərə ilə rastlaşdım. Məftilə ilişən bir qoyun gördüm. Bir çoban iti onun keşiyini çəkirdi... Lap uzaqda isə sürü görünürdü. Elə bu vaxt qohumlardan biri də maşınla gəlib çıxdı. Ona dedim ki,

maşını itlə qoyunun arasına sür, itin başı qarışanda qoyunu götürüb atım maşına.

Dostum belə də elədi. Qoyunu götürüb tələm-tələsik maşına atanda, gördüm ki, nəsə məni arxadan tutub geri çəkir. Elə bildim itdi. Sən demə məftil imiş...

Qoyun əlimdən düşən kimi it gəlib onun boynundan yapışıb kənara çəkdi. Sonra onu qabağına qatıb qova-qova ayrı düşdüyü sürüyə sarı apardı... İtin sədaqəti, etibarlılığı həm bizi təəccübləndirdi, həm də duyğulandırdı...

**26 mart 2019**

## SƏNSIZ DARIXMIŞIQ

Boz ay girəndən hava açılmırdı ki, açılmırdı. Yağış yağır, çiskin göz açmağa imkan vermirdi. Küçələrdə palçıq dizə çıxır, adamın üst-başını batırırdı.

Nəhayət, bir gün günəş çıxdı. Sara sevinə-sevinə ona baxıb dedi:

– Ay Günəş, neçə vaxt idi ki, sən harda qalmışdın? Gəl çıx da, axı sənsiz darıxmışıq…

**05.03.2011**

## PAYIZ, YOXSA BAHAR

Sara nənəsi ilə gəzməyə getdi. Mən isə evdə işlərimlə məşğul oldum. Bir xeyli keçəndən sonra qapı döyüldü. Nəvəm əlində bir dəstə saralımış yarpaq içəri girdi. Yarpaqlar elə gözəl idi ki… Mən söz deməyə macal tapmamış nəvəm dilləndi:

– Ay baba, bax, mən sənin evinə payız gətirmişəm.

Gülə-gülə söylədim:

– Ay mənim ağıllı balam! Sən mənim evimə payız yox, bahar gətirmisən…

**03.10.2011**

## TÜRKİYƏ SƏFƏRİ

Sara babası, nənəsi, atası və anası ilə Türkiyənin gözəl istirahət şəhəri olan Bodrumda dincəlirdi. Hər gün Egey dənizində çimir, günəşlənirdi. Dərisi qapqara olmuşdu bu sarışın qızın… Hündürdə dayanıb dənizi seyr etmək, Egeyin ortasına səpələnmiş adalara baxmaq, çörəklə balıqları yemləmək onun çox xoşuna gəlirdi… Bu xəyalpərvər qız özünü nağıllar dünyasında hiss eləyirdi…

Gəmiyə minib adalara üzməkləri də, sahilə yan alan gəmidən düşüb çimmələri də, adalarda yaşayan keçilərə, dovşanlara baxmaları da, dağın başındakı köhnə dəyirmanın yanından Bodrumu seyr etmələri də, qədim şəhərin küçələrində gəzmələri də, axşamlar konsert proqramlarında uşaqlarla birlikdə rəqs eləmələri, mahnı oxumaları da onun yaddaşında silinməz izlər qoymuşdu…

Sara Bakıya qayıdırdı. O, vətənin bir parçası olan təyyarənin içində idi… Ancaq Sara xəyalların, düşüncələrin qanadında təyyarədən də ucada, təyyarədən də hündürdə, təyyarədən də sürətlə uçurdu… O, evlərinə, dayısı oğlu Fatehin, dayısı qızı Fatimənin və bağçadakı dostlarının yanına tələsirdi… Onun uşaqlara deməyə o qədər sözü var idi ki…

**2010**

## ÇOMADAN

Saranın anası Almaniyaya üç aylıq kursa getməli oldu. Atası bu balaca qızcığazı babasıgilə gətirdi. Elə bil Saranın üzünü kədər buludları örtmüşdü. Verilən suallara cavab vermir, yemək yemək istəmirdi.

Elə bu vaxt babanın mobil telefonu zəng çaldı. Danışan Saranın anası Gülzar idi. O, xəbər verirdi ki, narahat olmayın, sağ-salamat gəlib çıxdım Almaniyaya.

Sara anası ilə danışdı, ona sifarişlər verdi. Fatehlə Fatiməni də unutmadı. Dedi ki, onu al, bunu al… O qədər pal-paltar, oyuncaq adı saydı ki…

Telefon danışığı bitəndən sonra babası Saraya dedi:

– Mənim balam, niyə anaya demədin ki, bizə də bir şey alıb gətirsin?

Sara həyəcanla söylədi:

– Ay baba, Siz böyüksünüz, anamın çomadanı isə balaca. Sizə də şey-şüy alsa çomadanı partlayar axı…

Baba güldü:

– Qoy onda sənə də, Fatehə də, Fatiməyə də bir şey almasın…

Sara babanın sözünü kəsdi:

– Yox, alsın! Axı biz balacayıq, bizə alınan paltarlar da, oyuncaqlar da balaca olacaq, rahatca çomadana yerləşəcək…

**27.09.2011**

## AYAQLI GÜNLƏR

Saranın anası xarici ölkələrdən birinə ezamiyyətə getməli idi. Ona görə də öz balaca qızını gətirib nənənin, babanın yanına qoydu. Gedəndə tapşırdı ki, nənənin, babanın sözünə bax, onları incitmə. Bir həftə nədi ki, qayıdıb gələcəm.

Sara mısmırığını sallasa da, bir söz demədi. Razılaşmaqdan başqa çarə yox idi… Ana getdi, qızcığaz isə qaldı. Gözləri bahar buludu kimi doldu. Nənə ilə baba onu ovundurmağa çalışdılar. Ancaq Sara sözə baxmır, kürlük eləyirdi…

Aradan iki gün keçdi. Nənə gözləri yol çəkən nəvəsini ovundurmaq üçün dedi ki, mənim balam, bax iki gün getdi, qaldı beş gün…

Sara tərs-tərs baxıb, bic-bic gülümsündü:

– Ay nənə, günün ayağı var gedə?

**23.06.2015**

# QUMRU YUVASI VƏ YA BABANIN YENİ NƏVƏLƏRİ

Babanın yeni bir nəvəsi – Fatimə dünyaya gəldi. Onu doğum evindən çıxarıb baba ocağına gətirdilər. Körpə səsi evin ahəngini bir az da dəyişdi, onu bir az da gözəlləşdirdi… Çoxlu-çoxlu uşaqlar böyüdən bu evin nağıllı dünyası yenidən özünə qayıtdı…

Ancaq ən maraqlısı, nağılı bir az da gözəlləşdirən, şirinləşdirən bu idi ki, Fatimə evə gələn gün onun yatdığı otağın pəncərəsində, televiziya antenasının üstündə bir quş yuvası gördülər. Sara ilə Fateh hay-harayla babalarını çağırıb yuvanı ona göstərdilər. Yuvada bir quş yatmışdı. Baba quşu görən kimi gülümsündü. Uşaqların bu quşun adı nədir? Sualına baba şeirlə cavab verdi:

Qumrudu bu, qumrudu,
Yumurtası yumrudu…

Doğrudan da, quş uçanda gördülər ki, yuvada iki kiçik yumurta var. Bu yumurtalar bir cüt doluya bənzəyirdi: yupyumru, bəmbəyaz, qəşəng… Lap nağılların sonunda göydən düşən üç almaya bənzəyirdi bu yumurtalar… Ancaq onlar üç deyil, iki idi… Digər tərəfdən nağıl hələ bitməmişdi, nağıl təzəcə başlayırdı… O nağılın qəhrəmanları bax bu bir cüt yumurtanın içindən çıxmalı idi…

Baba nəvələrinə dedi:

–Mənim balalarım, bu quş evimizə pənah gətirib; alıcı quşlardan: qırğıdan, çalağandan qorunmaq üçün pəncərəmizin küncündə yuva qurub. Onu qorxutmaq, yuvasına əl uzatmaq olmaz. Yoxsa quş perikib uçar…

Bir azdan ana quş qayıdıb gəldi. Yumurtaların üstündə kürt yatdı. Uşaqlar həmişə pəncərədən onu müşahidə edir-

dilər. Quş çox nadir hallarda uçub gedir, tez də qayıdır, sinəsiylə isitdiyi yumurtaları soyumağa qoymurdu. Nə günün istisi, nə arabir əsən külək onu qorxutmurdu. Quş səbrlə, dözümlə balalarının yumurtadan çıxacağı günü gözləyirdi. Arabir yerindən qalxıb yumurtaları ayağı ilə o üzə-bu üzə çevirirdi…

Uşaqları hər səhər yuxudan qumrunun səsi oyadırdı. Elə bil bu quş sehrli səsiylə hər gecə onlara layla çalır, səhər uşaqları yuxudan oyadırdı…

Günlər ötdü… Uşaqlar bir səhər civilti səsinə yuxudan oyandılar. Yumurtadan təzəcə çıxan ətcəbalalar başlarını analarının tükləri arsından çıxarır, qumru isə dimdiyi ilə onların körpə dimdiklərinə quş südü verirdi… Quşlar sürətlə böyüdülər. Onların ikisi bir yuva boyda oldu. Ona görə də ana quş gecələmək üçün harasa uçub gedir, səhər yenə qayıdıb gəlirdi. Ən maraqlısı isə bu idi ki, yuvanın üstünə gün düşəndə qumru gəlib yuvanın bir kənarına qonur, balalarının üstünə kölgə salırdı…

Bir gün ana quş uçub gedəndə baba telefonla balaların şəklini çəkdi… Bunu görən Sara gülə-gülə dedi:

– Ay baba, bu quşlar da sənin nəvələrindi…

Söz babanın çox xoşuna gəldi. O güldü, nəvələri də ona qoşuldular. Yuvadakı quşlar da elə bil bunu duydular və qəribə səslər çıxardılar…

Babagil Nabrana istirahətə getdilər. Qayıdanda yuvanı boş gördülər… Başa düşdülər ki, bala quşlar böyüyüb və uçub gediblər…

Sara dedi ki, ay baba, yəqin quşlar xəstələnib, anaları onları həkimə aparıb…

Qəribə idi, Sara bu sözünü təzəcə deyib babanı güldürmüşdü ki, üç qumru uçub həmin yuvaya qondu.

Sara qaça-qaça gedib nənəsini muştuluqladı:

– Ay nənə, gəl bax, babanın quş nəvələri də qayıdıb gəldilər…

Aradan bir neçə gün keçdi… Bir gün baba yuvada təzə bir yumurta gördü… Gülümsündü. Öz-özünə düşündü: nağıl davam eləyir… Bu ev çoxlu uşaqlar böyüdüb yola saldığı kimi, bu yuva da hələ çox balalar böyüdüb yola salacaq…

**24.07.2010**

## GÜLÜŞÜN RƏNGİ

Baba nəvələrini başına toplayıb onlarla əylənirdi. Söhbət rənglərdən düşmüşdü. Uşaqlar rəngli karandaşlarla şəkillər çəkib yorulmuşdular. İndi albomlarını kənara qoyub dincəlirdilər…

Baba onlara rənglər haqqında suallar verir, uşaqlar isə həvəslə onu cavablandırırdılar…

– Yarpağın rəngi necədir?

– Yaşıl.

– Bəs torpağın rəngi?

– Qara, sarı…

– Zoğal nə rəngdə olur?

– Qırmızı.

– Bəs böyürtkənin rəngi necədir?

– Böyürtkən çiçəkdən çıxandan sonra rəngi yaşıl olur. Sonra yavaş-yavaş günəşin şüası onları qızardır. Böyürtkən dəyəndə isə onun rəngi qara olur. Lap Fatimənin gözləri kimi…

– Bəs limonun rəngi necədir?

– Sarı.

– Bəs xiyarın?

– Yaşıl.

– Bəs pomidorun?

– Qırmızı…

Sullar bir-birini əvəz elədikcə uşaqlar ona həvəslə cavab verirdilər. Baba yorulmuşdu. Uşaqları başından elə-

mək istəyirdi. Nəvələri isə onun yaxasından əl çəkmirdilər ki, çəkmirdilər.

– Baba, yenə sual ver…

– Baba, birini də soruş da, nə olar?

Babanın ağlına qəribə bir fikir gəldi. Bir sual da verəcəm, ancaq onun cavabını tapmamış yanıma gəlməyin.

Nəvələr razılaşdılar. Baba soruşdu:

– Kim deyər, gülüşün rəngi necədir?

Uşaqlar çaşıb qaldılar. Fikirləşdilər, fikirləşdilər… Baba isə şaqqanaq çəkib güldü. Ona baxan Fateh dedi:

– Baba, mən gülüşün rəngini bilirəm?

– De görüm.

– Gülüşün rəngi ağdır.

– Niyə?

– Ona görə ki, adam güləndə dişləri ağarır…

Baba güldü, uşaqlar da ona qoşuldular… Onların inci dişləri bəmbəyaz qar kimi ağarır, babanın ürəyindəki zülməti əridirdi…

**24.07.2010**

## RƏNGLİ SÖZLƏR

– Bir yaşıl söz de görüm?
– Yarpaq.
– Bir ağ söz de görüm?
– Qar.
– Bir qırmızı söz de görüm?
– Lalə.
– Bir qara söz de Görüm?
– Kömür…

# RƏNGLİ AYLAR

Rəngli aylar. – Yəqin ki, bu söz sizə qəribə gəldi, elə deyilmi? Öz-özünüzə düşündünüz ki, heç ayın da rəngi olar? Əlbəttə, belə düşünməkdə haqlısınız, aylar rəngli olmur. Ancaq hər sözün, hər deyimin öz məqamı, öz yeri var. İnsan düşüncəsində hər fəslin, hər ayın, hətta hər günün belə özünəməxsus rəng çaları olur. Rəngli aylar sözünün də qəribə, maraqlı bir tarixçəsi var… Əgər bu ifadənin necə yaranmağını bilmək istəyirsinizsə, mənə yaxın gəlib söhbətimə qulaq asın.

Bayırda qar yağırdı. Hava bərk soyuq, şaxtalı idi. Nəvələrimlə həyətə düşdüm. Soyuq heç onların vecinə də deyildi, ora-bura qaçır, qartopu düzəldib bir-birlərinə atırdılar. Qış pəncərələrə buz naxış, uşaqların üzünə isə təbəssüm bəxş eləmişdi. Bəxtiyar-bəxtiyar şaqqanaq çəkib gülən nəvələrimin dişləri də qar kimi bəmbəyaz idi və bu ağlıq elə bil ki, qışın gözəlliyini bir az da artırırdı…

Axır ki, uşaqlar yorulub əldən düşdülər. Onlar evə gəlib paltarlarını dəyişəndə nənə soruşdu:

– Mənim balalarım, hava necədi?

Uşaqlar bir-birlərinin sözünü kəsə-kəsə dedilər:

– Gözəldi, çox gözəldi… Ancaq hava yaman soyuqdu.

Baba gülə-gülə dedi:

– Bəs necə, axı indi kiçik çillədi! Atalar əbəs yerə deməyiblər ki, kiçik çillənin soyuğu, təndirə təpər toyuğu…

Çillə sözünü uşaqlar birinci dəfə idi ki, eşidirdilər. Ona görə soruşdular ki, baba, çillə nədi?

Baba gülümsündü. Öz-özünə düşündü ki, özümü işə saldım. Uşaqlar yenə də məni rahat buraxmayacaq, öz qəribə suallarını üstümə yağdıracaqlar…

Baba çillə sözünün mənasını bilirdi. Eşitmişdi ki, uşaq dünyaya gələndən sonrakı qırx günə bəzi regionlarda çillə deyirlər. “Qırxı çıxdı” ifadəsi ilə yanaşı “çilləsi çıxdı”

sözünü də işlədənlər az deyildi. Qışın ilk qırx gününə böyük çillə, sonrakı iyirmi gününə kiçik çillə deyildiyini də bilirdi baba. Ancaq bütün bunları uşaqlara başa salmaq o qədər də asan məsələ deyildi. Baba çillə sözünün mənasını başa salmağa çətinlik çəkdi. Yazıq baba neyləyəydi, heç "İzahlı lüğət"də də bu sözün mənasını tapa bilmədi. Ancaq çarə yox idi, Sara, Fateh, Faimə ondan cavab gözləyirdilər.

Baba- çar-naçar, sözə başladı:

– Mənim balalarım, qışın ilk ayına el arasında Böyük çillə, ikinci ayına Kiçik çillə, üçüncü ayına isə Boz ay deyirlər… Böyük çillə dekabr ayının iyirmi ikisindən fevral ayınadək davam edir. Fevralın birindən iyirmisinədək Kiçik çillə, fevralın iyirmisindən martın iyirmi birinədək isə Boz ay adlanır…

Sonuncu ifadə babanın köməyinə çatdı. "Boz ay" sözü uşaqlara çox qəribə gəldi və onlara çillə sözünü bir növ unutdurdu.

Sara soruşdu:

– Baba, heç ayın da rəngi olar?

Baba gülümsündü. İçində qəribə duyğular oyandı. Elə bil çiynindən ağır bir yük götürüldü:

– Boz aya ona görə Boz ay deyirlər ki, həmin vaxt, doğrudan da, çox şey bozumtul rəngdə olur. Buludlar da, duman da, çiskin də… Elə bil ki, dünyanın üstünə boz rəng çökür… Yaz gələndə isə hər şey yaşıllaşır…

Yaşıl sözünü eşidən Fateh dilləndi:

– Baba, bəs onda yazın ilk ayına niyə Yaşıl ay demirlər?

Söz babanın çox xoşuna gəldi. O, gülə-gülə nəvələrinə dedi:

– Gəlin biz özümüz yazın ilk ayını Yaşıl ay adlandıraq…

Söz uşaqların xoşuna gəldi. Sara dedi:

– Ay baba, onda gəl qışın ilk aylarına da Ağ ay deyək. Axı qış gələndə qar yağır, hər tərəf ağappaq rəngə bürünür…

Bu söz də babanın xoşuna gəldi…

Sara xəyallara dalıb düşündü və belə söylədi:

– Ay baba, gəl onda payız aylarına da Sarı ay deyək. Axı payız gələndə yarpaqlar saralır…

Bu söz də babanın xoşuna gəldi.

Fateh dedi ki, ay baba, onda sən bizə "Rəngli aylar" adlı bir şeir yaz.

Fatimə qələm, Sara dəftər gətirdi. Baba kağızın üstünə belə bir şeir yazıb nəvələrinə oxudu:

Dövranını sürdü yay,
Gəlib çıxdı Sarı ay.
Yarpaqlar xəzəl oldu,
Təbiət gözəl oldu.
Buludlar qar çilədi,
İndi böyük çillədi.
“Kiçik çillənin soyuğu,
Təndirə təpdi toyuğu”…
Qar xeyir-bərəkətdi –
Göylərdən gələn paydı.
Böyük çillə Ağ aydı,
Kiçik çillə Ağ aydı…
Çən gəldi, duman gəldi,
Boz ay nə yaman gəldi.
Hey bozara-bozara,
Saldı bizi azara…
Çox döyürdü döşünə,
O da getdi işinə…
Hər yan döndü yaşıla,
Xoş gəlmisən, Yaşıl ay!
Ürək istər quş ola,
Durnalara qoşula.

Təbiət nəğmə yazdı,
İndi çiçəkli yazdı.
Gözəl nəvələri var,
Babanın kefi sazdı…

Şeir uşaqların çox xoşuna gəldi. Bir şey başa düşməyən Fatimə də sevinirdi. Sara ilə Fatehə baxıb o da gülə-gülə əl çalırdı... Babanın sevinci isə yerə-göyə sığmırdı…

**18.02.2011**

## YAZ YAĞIŞI

Narın-narın yağış yağır, yaz yağışı… Bu yağış yır-yığış eləyir, səliqə-səhman yaradır elə bil… Həm yazın gəlişinin müjdəsini çatdırır mürgülü dağlara, düzlərə, meşələrə, kolluqlara, həm də onlara həyat, can verirməyə çalışır…

Narın-narın yağış yağır, yaz yağışı… Orda-burda qalan qarın üstünə səpilib onu deşik-deşik eləyir iti dimdikləriylə…

Narın-narın yağış yağır, yaz yağışı… Budaqlar yuyunur, çimir… Yağış səliqə ilə, aramla ağacların quru budaqlarının üstündən toz-torpağı, qışın son izlərini belə yuyub təmizləyir… Yaz yağışında çimib təmizlənən budaqların üstünə tezliklə yarpaq bəylər, çiçək gəlinlər köçəcək…

**22.03.2017**

## ŞEH

Nabranda istirahət eləyirdik. Biz yuxudan duranda babam həmişə sübh gəzintisindən qayıdırdı. Geri dönəndə hər səhər mənə və bacıma bir dəstə çəmən çiçəyi dərib gətirməyi də unutmurdu.

Bir dəfə dedim ki, baba, nə olar, sabah gəzməyə gedəndə məni də özünlə apar.

Babam razılaşdı. Ancaq dedi:

– Mən gəzintiyə sübh tezdən, hələ günəş çıxmamışdan gedirəm. Sən isə o zaman yuxuda olursan.

Babama söz verdim ki, səhərisi gün mən də yuxudan tez duracam.

Sözümün ağası oldum. Babam evdən çıxmaq istəyəndə mənim qapının ağzında dayandığımı görüb təəccübləndi:

– Oğul bala, nə tez qalxmısan yuxudan?

– Axı mən sənə söz vermişdim…

Babam sevindi. Qapıdan çıxdıq. Həyətdəki kolun dibində gizlədiyi ağacı əlinə götürəndə təəccübləndim:

– Ay baba, bu payanı neyləyirsən?

Babam gülümsündü:

– Diqqətli olmağın xoşuma gəlir. Ağacı ona görə götürürəm ki, birdən qarşımıza it-qurd çıxar.

Babam dənizə sarı yox, meşəyə tərəf yollananda təəccüblə ondan soruşdum:

– Ay baba, bəs dənizə getmirik?

– Yox, dəniz elə şəhərdə də var. Orada hər səhər dənizə getdiyimi də bilirsən. Gəl meşəyə gedək…

İstirahət evinin qapısından çıxıb meşəyə sarı yollandıq. Yolumuz gül-çiçəkli bir çəməndən keçirdi. Gördüm ki, hər yer islanıb. Babama dedim:

– Deyəsən gecə yağış yağıb.

– Yox, yağış yağmayıb.

– Onda otun-çiçəyin üstündəki saysız-hesabsız bu yağış damcıları nədi?

Babam gülümsündü:

– Bunlar yağış damcıları deyil, şehdi.

– Şeh nədi, ay baba?

– Şeh gecə bitkilərin, otların, çiçəklərin üstünə düşən su damcılarıdı…

– Su damcıları elə yağışdı da, ay baba…

– Yox, yağış ayrı, şeh ayrıdı. Yağış buludlu havada olur. Şeh isə aydınlıq yaz, yay gecələrində olur. İsti vaxtlarda gecə yarısından sonra, səhərə yaxın havanın soyuması nəticəsində su damlaları yaranır ki, buna şeh deyirlər. Zəif küləkli aydın havada şeh daha çox düşür.

Biz şehli çəmənlə gəzə-gəzə meşəyə sarı gedəndə babam söhbətini davam elədi. Dedi ki, şehə jalə də, şəbnəm də deyirlər. Fars dilində "şəb" gecə, "nəm" isə yaş mənasını verən sözdü. Şəbnəm, yəni gecə nəmi…

– Ay baba, qızlara verilən Jalə, Şəbnəm adları da mənasını buradan götürüb?

– Hə, elədi… Şeh çox gözəl olduğu üçün onunla bağlı adlar qoyurlar insanlara.

– Ay baba, Jalə də var, Şəbnəm də. Bəs Şeh adı niyə qoyulmur qızlara?

Babam güldü:

Hə, düz deyirsən, mənim balam. Mən də şeh adına rast gəlməmişəm… Amma istəsən, sənin qızına Şehanə adı qoyarıq…

Doğrusu, bir az utandım. Amma ad xouma gəldi. Öz-özümə fikirləşdim ki, Şahanə varsa, niyə də Şehanə olmasın?

Söhbət eləyə-eləyə gedirdik. Günəş yavaş-yavaş qalxdı. Onun şəfəqləri şehli çəmənlərə düşəndə elə gözəl görünürdü ki…

Babamla hərəmiz bir dəstə şehli çəmən çiçəyi dərdik. Geri qayıdanda gördüklərimi bacıma danışmağa tələsirdim. Bilmirdim ki, şehli çiçəkləri qoxlayan bacıma şeh sözünün mənasını başa sala biləcəm, ya yox?! Çalışırdım ki, evə tez dönək. Bacım çiçəklərin üstündəki şeh damcılarını öz gözləri ilə görsün… İnanmasa, sabah xahiş eləyərəm babam onu da bizimlə sübh gəzintisinə aparar. Sübh çağı səhər şəfəqlərinin altında gəzməyin ayrı ləzzəti var…

**27.01.2017**

# QIROV

Bir dəfə payız vaxtı həyətə düşəndə gördüm ki, babamın bağı bəmbəyaz qarla örtülüb. Elə sevindim, elə sevindim ki… Hay-haray saldım ki, qar yağıb…

Sübh gəzintisindən qayıdan babam dedi ki, ay bala, qar nə gəzir. Bu, qırovdu…

Təəccübləndim. İlk dəfə idi ki, bu sözü eşidirdim: qırov…

Babam gülə-gülə dedi:

– Oğlum, yadındadı şehli çəmənlərdə gəzdiyimiz?

– Hə, yadımdadı, baba…

Qırov məhz şehdən yaranır. Hava soyuq olduğu üçün gecə otların, çiçəklərin, evlərin üstünə düşən şeh damcıları kristallaşır, yəni qırova dönür… Günəş çıxanda şeh buxarlandığı kimi, qırov da əriyib yoxa çıxır…

Doğrudan da, bir azdan günəş çıxdı. Payız günəşi yay günəşi kimi isti olmasa da, tezliklə bağımızda qırovdan əsər-əlamət qalmadı. O mənzərə isə yaddaşıma əbədi həkk olundu…

Qırov sözü də, qırovun özü də çox xoşuma gəldi. Doğrudan da, təbiət möcüzələr aləmi imiş…

**27.01.2017**

# FONARLI KƏPƏNƏK

Sara darıxmasın deyə ona şəkil çəkmək üçün albomlar, rəngli karandaşlar, flomasterlər almışdı nənəsi. O, bir karandaşı götürüb birini qoyur, kağızın üstündə qəribə şəkillər çəkirdi…

Saranın çəkdiyi bir şəkil babanın xoşuna gəldi. Bu, kəpənək şəkli idi. Ancaq Sara nədənsə kəpənəyin bığlarının ucunda dairəvi bir şəkill də çəkdi, onu sarı rənglə rənglədi. Elə bil ki, kəpənək o sarı şeyi bığında tutub saxlamışdı.

Baba soruşdu:

– Sara bu nə şəklidi çəkmisən?

– Baba, görmürsən, kəpənəkdi.

– Bəs bu sarı nədi?

– Bu da fonardı…

Baba təəccübləndi:

– Fonar kəpənəyin nəyinə lazımdı?

– Ay baba, fonar çəkmişəm ki, kəpənək gecə uçanda yolu işıqlı olsun…

**27.09.2011**

## İKİ KƏPƏNƏK

Çəməndə uçuşan kəpənəklər Saranın çox xoşuna gəldi. Dedi ki, ay nənə, nə olar o kəpənəklərdən birini tut da mənim üçün.

Nənə-bala köməkləşib bir kəpənək tutdular. Onu bankanın içinə salıb ağzını bağladılar. Kəpənək o başa, bu başa uçmağa başladı. Sara ona baxıb dedi:

– Ay nənə, gəl bir kəpənək də tutub bu kəpənyəin yanına salaq. Axı o təkdi, darıxa bilər.

Nənə bu dəfə də bir kəpənək tutub onu bankadakı kəpənəyin yanına saldı. Kəpənəklər ora-bura uçuşub yoruldular. Onlara baxan baba dedi:

– Mənim balam, kəpənəklər bankanın içində çox yaşaya bilməzlər. Gəl onları açıb çəmənə buraxaq.

Sara razılaşdı. Bankanın qapağını açan kimi kəpənəklər qanad çalıb birlikdə uçdular. Onlar bankanın içində elə dostlaşmışdılar ki, daha bir-birindən ayrılmaq istəmir, birgə uçurdular.

Elə bil ki, onlar qanad çala-çala Saraya təşəkkür eləyirdilər. Axı onları dostlaşdıran Sara idi!

Qızcığaz da öz kəpənəklərinə baxıb sevinirdi… Kəpənəklər isə birgə uçur, gül-çiçəyin üstünə birgə qonurdular…

**27.07.2014. Nabran**

# ŞOKOLADLI PORTRET

Saranın, Fatehin və Fatimənin babasını işi ilə əlaqədar tez-tez məktəblərə görüşə çağırırlar. Həmişə tədbirdən qayıdanda baba özü ilə gül gətirib nəvələrinə verməyi çox xoşlayır. Güllər gül balaların əlində bir az da gözəl görünür elə bil.

Bir gün baba görüşdən qayıdanda uşaqlar çox təəccübləndilər. Bu dəfə onları heç babanın verdiyi güllər o qədər də sevindirmədi. Çünki baba özü ilə yekə, yepyekə bir portret də gətirmişdi. Bu, babanın ağ kostyumda nə vaxtsa çəkdirdiyi şəklin böyüdülmüş variantı idi. Onu yubileyi münasibətilə babaya hədiyyə eləmişdilər.

Uşaqlar gülə-gülə, təəccüblə deyirdilər:

– Uy da, babanın şəkli özündən böyükdü!

Portreti babanın iş otağının bir küncündə yerə qoydular. Qərara gəldilər ki, münasib bir yer tapıb divara vursunlar bu böyüdülmüş şəkli…

Aradan bir neçə gün keçdi. Portreti onun üçün hazırlanmış yerdən asmaq istəyəndə təəccübləndilər. Babanın şəklinin üzü, dodaqları ləkə-ləkə idi. Nənə deyindi:

– Ay balam, bu nədi belə şəklin üzünə yaxılıb?

Ləkələri nəm əski ilə siləndə hər şey aydın oldu. Sən demə nəvələr fürsət düşəndə şokoladlı dodaqları ilə babanın portretini öpüşlərə qərq eləyirmişlər…

Bu ləkələr – dodaq izləri nəvələrin öz sevimli babalarının şəklinin üstünə “atdıqları” şirin, şipşirin, bənzərsiz avtoqraflar idi… Məhəbbət, sevgi avtoqrafları…

**08.03.2012**

## İDARƏETMƏ QUTUSU

Nənə ilə baba həftənin altıncı gününü səbirsizliklə gözləyirdilər. Çünki həmin gün nəvələri Sara onlara qonaq gəlirdi. Atası altıncı gün bu şeytan qızı gətirb Sumqayıtda qoyar, bazar günü axşam isə gəlib onu Bakıya, öz evlərinə aparardı…

Saranın gəlməyi toy-bayram idi, ancaq bu balaca qız öz şıltaqlıqları ilə aləmi bir-birinə qatardı. Kimin nə həddi var idi ki, “Yumurcaq” TV-dən başqa ayrı bir kanalın verilişlərinə baxaydı… Baba “Xəbərlər”, nənə “Serial” üzünə həsrət qalırdı Sara onlara gələn gün…

Əvvəllər yenə onun başını birtəhər qatmaq olurdu, deyirdilər ki, bəs “Yumurcaq” yatmağa gedib, yuxudan oyananda gələcək. Ancaq sonra Sara pultdan – idarəetmə qutusundan istifadə eləmək qaydalarını öyrəndi.

Bu ərköyün qız evə gələn kimi birinci pultun üstünə cümardı. Onun 1 və 9 nömrəli düymələrini basar, səhərin gözü açılandan yatana qədər “Yumurcaq” TV-yə baxar, heç kəsi televiziyaya yaxın qoymazdı. Əslində elə belə yaxşı idi… Nəvə evə gələn gün baba ilə nənənin dünyada baş verən qan-qadadan, zəlzələdən, sunamidən xəbərləri olmazdı… Onlar da cizgi filmlərinə baxa-baxa öz uşaqlıqlarını yada salardılar…

Bir gün nənə Saranı cəzalandırmaq, pultu onun əlindən almaq istədi. Baba öz nəvəsinə qahmar çıxdı, onun tərəfini saxladı. Gülə-gülə dedi ki, mənim balamla işiniz olmasın, indi bizim evimizin idaretmə qutusu odur... Kimin nə həddi var ki, onun bir sözünü iki eləsin… Qoy bütün dünyanın nənələri, babaları, əmiləri, dayıları, bibiləri, xalaları heç olmazsa həftədə bir-iki gün qayğıdan uzaq olub sehrli, məsum, tərtəmiz uşaq dünyasında yaşasınlar… Bu sehrli uşaq dünyası onların qəlbindəki ağrını, əzabı, kini-küdurəti

azaltsın, kiri-pasağı yuyub təmizləsin, dünyanı bir az da gözəlləşdirsin, yaşamağın gözəlliyini insanların yadına salsın…

**13.03.2011**

## ADI PİRAT, ÖZÜ XIMIR

Sara gözlərini dünyaya açanda evlərində bir pişik görmüşdü. Pirat adlı bu pişik də evin elə pişik boyda təzə sakininə maraqla baxırdı. Onu həm təəccübləndirən, həm də qəlbində həsəd hissi oyadan bu idi ki, evin bu təzə, balaca sakini sürətlə böyüyür, boy atır, o isə elə əvvəlki görkəmindəcə qalmışdı. Sara gündən-günə böyüdükcə evin bu qocaman sakini özü öz gözündə gündən-günə balacalaşır, kiçilirdi...

Sonralar atası bu pişiyi necə tapıb evə gətirməsinin tarixçəsini bir az nağılvari dillə Saraya danışmışdı. Sara bilirdi ki, atası çoxdan, lap çoxdan, Sara hələ dünyaya gəlməmişdən çox-çox əvvəl məktəbdən qayıdarkən yağışın altında miyoldayan balaca bir pişik balasına rast gələndə onu evlərinə gətiribmiş… Uzun müddət tək yaşayan gələcək ata öz mehrini bu balaca pişiyə salıbmüş…

Bu pişiyin iki adı var id: pirat, xımır. Əslində birinci ad bu pişiyə qətiyyən yaraşmırdı. Ona görə ki, ömrü boyu evdən bayıra çıxmamışdı bu pişik. O, sobanın yanında mürgüləyəndə hərdən yağışlı havada küçədə tənha qaldığı günləri xatırlayır, bərkdən miyoldayıb yuxudan ayılırdı. Sahibini görən pişik sevincdən onun qucağına atılır, öz xilaskarına minnətdarlığını bildirməyə çalışırdı…

Bəli, bu pişiyin iki adı var idi: pirat və xımır. İkinci ad ona daha çox yaraşırdı… Xımır-xımır yedi, xımır-xımır yaşadı və bir gün də xımır-xımır öz dünyasını dəyişdi…

Pişiyin ölümü Saraya çox pis təsir elədi. O, hönkür-hönkür ağlamağa başladı. Günahı atasında, anasında gördü. Dedi ki, günah sizdədi, əgər balkonun qapısını açıq qoymasaydınız, xımır da çölə çıxıb xəstələnməzdi… Elə xımırın

ölməyində mənim də günahım var. Mən qorxduğum üçün onu vaxtında çoxlu-çoxlu sığallaya bilmədim…

Söz uşağın ağzından çıxan kimi atası da, anası da Saraya qoşulub hönkür-hönkür ağladılar. Əlbəttə, onları ağladan 22 yaşlı pişiyin ölümü yox, ürəklərindən kükrəyib daşan insani duyğular idi… Xımır isə bəlkə də dünyanın ən xoşbəxt pişiyi olmuşdu. Ömrü boyu heç nədən korluq çəkməmiş, xımır-xımır yeyib, xımır-xımır yaşayıb, xımır-xımır da dünyasını dəyişmişdi…

**16.02.2013**

## RAMAZANIN NAĞILI

Ramazan dərsdən gələndə çox fikirli idi. Bu, anası Elnarənin gözündən yayınmadı. Oğlunun başını sığallayıb soruşdu:

– Oğlum, nə olub? Bəlkə dərslərindən pis qiymət almısan?

Ramazan könülsüz-könülsüz cavab verdi:

– Yox, ana. Heç nə olmayıb.

Elnarə onun sözlərinə inanmadı. Ramazanın gündəliyini açıb baxdı. İki beş almışdı. Bəs görəsən uşağın kefsiz olmağının səbəbi nədir? Bəlkə kiminləsə dalaşıb?

Handan-hana Ramazan dilləndi:

– Ay ana, kaş mən bacılarımdan – Sevildən və Elvinadan tez doğulaydım…

Ana təəccübləndi. Heyrətlə oğlunun gözlərinin dərinliyindən boylanan zərif qüssəyə baxdı. Bir az qorxdu, həyəcanlandı. Axı bu fikir balaca Ramazanın, ailənin sevimlisinin hardan ağlına gəlib? Axı Ramazanı ailədə hamı – Rəşid baba da, Nəcabət nənə də, atası Vüqar da, əmiləri Eldar da, Anar da çox sevirlər! İki bacıdan sonra on bir ayın soltanı olan Ramazanda dünyaya gələn bu oğlana Ramazan adının

verilməsi də təsadüfi deyildi. Bəs indi görəsən ikinci sinifdə oxuyan bu oğlanı narahat eləyən nədir axı?

Ramazan anasına dedi:

– Mən də Sevil kimi, Elvina kimi əvvəlcə doğulsaydım, yəqin Rafiq baba mənə də şeir yazardı!

Elnarə gözləri yaşarana qədər güldü və dedi ki, narahat olma, mənim balam, babaya deyərik sənə də şeir yazar.

Ramazan təəccübləndi:

– Doğru deyirsən, ana? Yəni yazar?

– Əlbəttə, yazar. Rafiq baba səni Sevildən də, Elvinadan da çox istəyir. Yadında deyil, həmişə Qusara gəzməyə gələndə səni də bacılarınla birlikdə meşəyə gəzməyə apardı Rafiq baba…

Aradan bir neçə gün keçdi. Bir gün Ramazan səhər-səhər məktəbə gedəndə çantasının üstündə bir kağız gördü. Həyəcanla onu oxumağa başladı:

Salam, Ramazan bala,
Sabahın xeyir olsun!
Ürəyinə həmişə
Sevinc selləri dolsun!

Sən babanın, nənənin
Arzusunun barısan.
Elnarənin sevinci,
Vüqarın vüqarısan.

Sevilə, Elvinaya
Sən arxa ol, dayaq ol!
Nur saç şəhərə, kəndə,
El yolunda çıraq ol!

Gəz Cibirdə, Ləzədə,
Uca Şahdağına qalx!

Vətənin bayrağını
Uca zirvələrə tax!

Öz əslinlə, kökünlə,
Bu torpağa bağlısan.
Unutma ki, heç zaman
Azərbaycan oğlusan!

Ramazanın uçmağa qanadı yox idi. O, çantasını götürüb məktəbə tələsdi. Xəyalına gəldi ki, bu şeiri dinləyəndə dostları ona necə qibtə ilə baxacaqlar…

**20.02.2015**

## GÖYDƏN ÖLÜ QUŞLAR YAĞIRSA

Nəvələr oynayır, baba isə "Xəbərlər"ə baxırdı. Birdən qəribə bir süjet göstərdilər. Dünyanın hansı yerindəsə göydə uçan quşların kütləvi şəkildə yerə düşüb ölməsindən danışırdılar. Dəhşətli bir mənzərə idi. Gözəl-gözəl, rəngbərəng quşlar dörd yana səpələnmişdi.

Uşaqlar da oyundan ayrılıb televiziyaya baxdılar. Bir şey anlamadıqları üçün babadan soruşdular:

– Ay baba, bu quşların ölümünün səbəbi nədir?

Baba narahatlıqla, həyəcanla belə dedi:

– Mənim əzizlərim, səbəb odur ki, biz insanlar tüstü ilə atmosferi, havanı, çirkabla, sənaye tullantıları ilə suları, torpağı zəhərləmişik. İndi təbiət bizdən intiqam alır. Vəziyyəti düzəltmək üçün bütün dünyanın insanları əl-ələ verməli, təbiəti çirklənməkdən qorumalıdır.

Babanın mənalı-mənalı dediyi bu sözlər isə uşaqları daha çox düşündürdü:

– Ay aman, göydən ölü quşlar yağırsa, deməli dünyanın axırı gəlib… Dünyanı xilas etmək üçün ağac, gül əkməli, meşələr salmalı, təbiəti çirklənməkdən qorumalıyıq.

Göylərdə quşlar qanad çalaraq xoşbəxt-xoşbəxt uçursa, havamız, dənizlərdə, göllərdə, çaylarda balıqlar üzürsə suyumuz, çöllərdə, çəmənlərdə əlvan çiçəklər-güllər bitirsə, torpağımız təmizdi…

Havası, suyu, torpağı təmiz olan diyarda yaşamağa, yaratmağa dəyər…

**22.06.2015**

## YARIMCADAN GƏLƏN BİR DƏSTƏ ÇİÇƏK

Evdə darıxdığımı görüb babam mənə dedi ki, gəl səni gəzməyə aparım. Razılaşdım. Babam qarajın qapısını açıb maşını çölə çıxardı. Keçib arxa oturacaqda oturdum və təhlükəsizlik kəmərini bağladım. Babam qarajın qapısını bağlayandan sonra keçib sükan arxasında əyləşdi. Ya Allah, deyib maşını sürməyə başladı. Yol boyu sıralanan evlərə baxırdım. Şumqayıtın çıxacağındakı yol boyu cərgə ilə əkilən qarağaclar çox xoşuma gəldi. Babam dedi ki, bu ağaclar keçən il çox hündür idilər. Budaqları o qədər uzanmışdı ki, yolun üstünə kölgə salırdılar. Adama elə gəlirdi ki, yaşıl bir tunelin içi ilə gedirsən. Ancaq təəssüf ki, bu ağacların qol-budağını budadılar.

– Budamaq nədi, ay baba?

– Ağacın qol-budağını kəsməyə budamaq deyirlər.

– Ağacların qol-budağını nə üçün kəsirlər ki?

– Ona görə belə eləyirlər ki, qocalan ağaclar cavanlaşsın, təzədən pöhrə versin. Görürsən, bu ağaclar yaşlı olsalar da, onların qol-budağı cavandır, ancaq onlar sürətlə uzanır. Ona görə ki, gövdə onları lazımi şirə ilə təmin edə bilir. Bir neçə ildən sonra o yaşıl tunel bir də bərpa olunacaq.

Söhbət eləyə-eləyə bir də gördük ki, şəhərin çıxışına çatmışıq. Babam diqqətlə sola baxdı. Yolun boş olduğuna əmin olandan sonra sağa döndü və sürəti artırdı.

– Ay baba, niyə sürəti artırdın?

– Ona görə ki, bura magistral yoldu.

Maşınımız sürətlə irəliləməyə başladı. Hacı Zeynalabdin Tağıyev qəsəbəsinə çatanda babam sürəti azaldı.

– Ay baba, bəs nə üçün sürəti azaltdın, bəs bura magistral deyil?

– Magistral olmağına magistraldı, ancaq yol yaşayış sahəsinin içindən keçəndə maşını saatda 60 kilometrdən yuxarı sürmək olmaz. Dairədə yazılan 60 rəqəmi də məhz buna işarədi.

– Hə, başa düşdüm. Ay baba, bu qəsəbəyə niyə Hacı Zeynalabdin Tağıyev qəsəbəsi deyirlər? Kimdi axı Hacı Zeynalabdin Tağıyev?

– Hacı Zeynalabdin Tağıyev Bakı milyonçusu olub. Onu digər milyonçulardan fərqləndirən bu olub ki, qazandıqlarını xeyirxah işlərə xərcləyib. Məktəblər açdırıb, yollar salıb, su çəkdirib. Bu milyonçu öz xərci hesabına Şollar suyu çəkdirib. Su öz təbii axarı ilə bax bu gördüyün qəsəbəyə qədər gəlib. Buradan isə xüsusi qurğular, nasoslar vasitəsi ilə su şəhərə – Bakıya vurulub. Ona görə bu əraziyə vaxtilə Nasosnı deyirdilər. Sonra burada böyük bir qəsəbə salındı. Qərara alındı ki, Nasosnı qəsəbəsinin adı dəyişdirilib Hacı Zeynalabdin Tağıyev olsun.

– Hə, başa düşdüm, baba…

Maşınımız qəsəbədən çıxanda gördüm ki, yolun kənarında saatda 110 kilometr yazılmış lövhə var. Babam bu lövhəni görən kimi sürəti artırdı. Geniş, hamar magistral yolla şütüyə-şütüyə Xəzər dənizini seyr eləmək mənə ləzzət elədi. Nə qədər getdiyimizi bilmirəm, ancaq bir neçə dəqiqədən sonra Giləzi kəndinə çatdıq. Üstündə yaşayış məntəqəsinin adı yazılmış lövhəyə baxıb soruşdum:

– Ay baba, Giləzi nə deməkdi?

– Giləzi bu kəndin adıdı.

– Yox e, mən onu soruşmuram. Soruşuram ki, Giləzi sözünün mənası nədir?

Babam deyəsən mənim sualımı eşitməməzliyə vurdu. Maşını dərə yuxarı qalxan asvalt yolla sürə-sürə handan-hana dilləndi.

– Bax bu dərəni görürsən? Buradan balaca bir çay axır. Yağış yağanda, sel gələndə bu çayın suyu artır, yağış kəsiləndə, su quruyanda isə selin dağlardan yuyub gətirdiyi gilin izi aydınca görünür. Əslən bu kənddən olan bir alim dostum var idi. O mənə demişdi ki, Giləzi "gil izi" sözündəndir. Seldən sonra burada gil izi görən adamlar yerin adını Giləzi qoyublar…

Maşınımız dağların arası ilə üzüyüxarı şütüməyə başladı. Yolun sağında və solunda olan çılpaq, qırmızı, boz zolaqlı dağlar məni heyrətə gətirdi. Bura birinci dəfə gəlsəm də, mənə elə gəldi ki, bu yerləri görmüşəm. Bu haqda babama deyəndə o gülümsündü. Soruşdu ki, "Başsız atlı" filminə baxmısanmı?

– Əlbəttə, baxmışam.

– Oradakı çılpaq dağları necə, xatırlayırsanmı?

– Xatırlayıram, baba, xatırlayıram… A… Doğrudan e, ordakı dağlar bu dağlara çox bənzəyir…

– Səbəbini necə, bilirsənmi?

– Dağ dağa oxşayar da…

– Düz deyirsən, dağ dağa oxşayar. Ancaq məsələ bundadı ki, həmin filmin xeyli səhnəsi məhz bu dağlarda çəkilib.

Heyrətləndim. Bu çılpaq, qırmızı, boz zolaqlı dağlara daha böyük maraqla baxmağa başladım. Mənə elə gəldi ki, mustanger Moris Cerald indicə öz atının belində bizim qarşımıza çıxacaq… Ancaq belə olmadı. Yolun sol kənarında gözümə bir ev sataşdı. Babam bu evin qarşısında maşını saxladı. İkimiz də yerə düşdük. Arxa bənzəyən çayın üstündəki körpüdən keçib evə yaxınlaşdıq. Babamdan soruşdum:

– Baba, bu ev kimin evdi?

– Mikayıl Müşfiqin.

– Mikayıl Müşfiq kimdi, ay baba?

– Mikayıl Müşfiq Azərbaycanın görkəmli şairlərindən biridi.

– Baba, şair dostun bizi qonaq çağırıb?

Babam gülümsündü. Nə hə dedi, nə yox.

– Ay baba, Mikayıl Müşfiqin nəvələri var?

– Müşfiqin heç övladı da olmayıb, nəinki nəvələri. Ancaq bütün Azərbaycan uşaqları elə onun nəvələridi…

Babamın sözündən bir şey başa düşmədim. Onun narahatçılığını hiss edib ta heç sual da vermədim. Mən gözləyirdim ki, bizi babanın dostu qarşılayacaq. Ancaq belə olmadı. Sən demə bura Müşfiqin öz evi yox, onun ev muzeyi imiş…

Mən sual verməsəm də, babam mənə Müşfiq haqqında danışdı, onun başına gələnlərdən söhbət açdı. Dedi ki, bu evin yerində vaxtilə bir kənd var imiş. Adına Sayatlı deyirmişlər. Müşfiqin şeirlərinin birində belə bir misra var: "El içində mənə deyirlər Sayatlı"…

İndi Sayatlı kəndindən əsər-əlamət yoxdu. Adamların hamısı köçüb gediblər. Vaxtsız dünyasını dəyişən Müşfiqin ruhu isə həmişə bu dağlardadır. Qədirbilən insanlar şairin xatirəsini yaşatmaq üçün onun evinin yerində bir ev tikib adını da Müşfiq ocağı qoyublar. İndi ölkəmizin hər yerindən bu evə qonaqlar gəlir…

– Ay baba, bəs Müşfiqin məzarı hardadı?

– Müşfiqin məzarı yoxdu, mənim balam. Onun harda öldürüldüyü, harda dəfn olunduğu bilinmir. Elə buna görə də Müşfiqsevərlər onu ziyarət etmək istəyəndə bu evə gəlirlər… Əslində xalq üçün yaşayıb yaradanlar cismən ölsələr də, mənən ölmürlər, daim yaşayırlar. Həmişə şeirləri, nəğmələri ilə xalqın yaddaşında yaşayan insana əslində heç məzar yaraşmır…

Geri, maşının yanına qayıdanda Müşfiq ocağı ilə üzbəüz dağın sinəsində bir tar modeli görüb heyrətləndim. Bu nə idi belə, dağlar tarı sinəsinə basıb onu çalmaqmı istəyirdi? Tarın yanında yazılmış sözləri bərkədən oxudum:

– Oxu, tar!

Elə bil babam bu sözə bənd imiş. Xüsusi bir şövqlə tar haqqında gözəl bir şeir söylədi. Sonra mənə dedi ki, mənim balam, bu gözəl şeirin müəllifi Mikayıl Müşfiqdir.

Şeirin çox xoşuma gəldiyini görən babam dedi ki, evə qayıdanda sənə Mikayıl Müşfiqin kitablarını verəcəm, yavaş-yavaş oxuyarsan…

Maşınımız yenə dağ yuxarı şütüməyə başladı. Mənzərələr bir-birini əvəz elədikcə xəyalımdan "Başsız atlı" filminin səhnələri keçir, qulaqlarımda isə Müşfiqin misraları səslənirdi:

Oxu, tar!
Səni kim unudar?!

Doğrudan da, sevimli insanlar heç zaman unudulmur…

Boz, otsuz dağların arasından üzüyuxarı qalxdıqca gördüyüm mənzərə məni bir az da heyrətləndirdi. Ağlıma gələn ilk söz bu oldu:

– Nağıllar dünyası!

Babam mənim fikrimi təsdiqlədi:

– Hə, doğrudan da, Azərbaycan gözəlliklər diyarıdı. Bir yanda Xəzər dənizi, bir yanda boz dağlar, sonra isə gül-çiçəkli yamaclar, zümrüd donlu meşələr…

Xızıya çatmamış, yolun sağındakı yaşıllıq olan dərəyə baxıb düşündüm ki, yəqin burada su var. Babam elə bil fikrimi duydu. Dedi ki, burada gur sulu bir bulaq var. Ancaq suyu içməli deyil, qara sudu.

– Ay baba, qara su nədi? Suyun da ağı, qarası olur?

– Yox, suyun rəngi hər yerdə eynidi, billur kimidi. Ancaq hər bulaq suyunun özünəməxsus dadı var. Suda olan

bu dad onun hansı süxurlardan süzülüb gəlməsi ilə əlaqə-lidir. El arasında içməyə yaramayan suya qara su deyirlər.

Heç söhbəti bitirməyə macal tapmamış maşınımız Xızıya daxil oldu. Dağ üstündəki düzənlikdə gördüyüm müasir şəhər çox xoşuma gəldi. Maşın irəlilədikcə mən maraqla gözəl binaları seyr edirdim…

Maşından düşüb xeyli gəzdik, mənzərələri seyr elədik. Təsəvvür eləməzdim ki, Xızı şəhərə bu qədər yaxındı…

Sonra yenə yolumuza davam elədik. Xızıdan çıxhaçıxda gözlərim önündə gözəl bir mənzərə canlandı. Sol tərəfdə yamacları meşəli dağlar, ön tərəfdə dağlar, biçənəklər…

Dolama yollarla aşağı endik. Burada yol iki tərəfə ayrılırdı. Mən babamdan xahiş elədim ki, sola, dağlara sarı gedək.

Maşınımız dağ yuxarı dırmanmağa başladı. Qalın, sıx meşənin arasındakı asfalt yol dolma olsa da, çox hamar idi. Yol boyu o qədər ağac var idi ki… Palıd, vələs, göyrüş, ağcaqayın, nə bilim nələr, nələr…

Yolun sağ tərəfində gözəl bir lalə gördüm. Xahiş elədim ki, ay baba, o laləni mənim üçün dər.

Babam maşını yolun kənarına çəkib saxladı və həmin laləni dərib mənə verdi. Bu lalə o qədər gözəl, o qədər iri idi ki, ürəyimdən keçdi ki, kaş lalə ləçəyindən bir donum olaydı… Ancaq bu haqda babama heç nə demədim. Qorx-dum ki, mənə gülə…

Nəhayət, sonuncu aşırımı da qalxıb Qızılqazma kəndinə çatdıq. Babam taxtadan tikilmiş gözəl bir binanın yanında maşını saxladı. Düşüb dağlara tamaşa eləməyə başladıq. İlahi, buralar necə gözəl imiş…

Yenə yolumuza davam elədik. Qızılqazmadan keçib üzü Yarımcaya sarı enməyə başladıq. Yuxarıdan aşağı baxmaq mənə ləzzət elədi. Nəhayət, dərənin dibindəki kəndə çatdıq.

Balaca bir kənddi, evlərin sayı o qədər də çox deyil. Həyətlərdəki arı pətəkləri diqqətimi cəlb elədi. Dörd tərəfə baxanda hər yanın gül-çiçək olduğunu görəndə anladım ki, bu pətəkləri niyə bura qoyublar. Axı arılar gül-çiçkdən bal çəkirlər. Bəxtəvər burdakı arıların başına. Təmiz, şirin hava, bal kimi şirin çiçəklər…

Kənddən keçəndə diqqətimi laləli bir tala cəlb elədi. Burada o qədər lalə var idi ki… Hər yan qıpqırmızı idi.

Bir az da qabağa gedəndə gözlərim ünvanını dəyişdi. Ağacların budağındakı bəmbəyaz çiçəklər diqqətimi cəlb elədi. Elə bil meşə gülümsəyir, bu çiçəklər isə onun bəmbəyaz dişləri kimi ağarırdı…

Düşündüklərimi babama deyəndə gülümsündü. Özündən razı halda dedi ki, şair nəvəsi belə olar da!

Babamdan ağ çiçəkli bu ağacların adını soruşanda dedi ki, bunlar yemşan ağaclarıdır. Çiçəklərin ətrini görürsən! Bu ətir maqnit kimi arıları özünə çəkir…

Babam xəyala getdi. Nə düşündüyünü bilmirəm. Ancaq handan-hana o mənə dedi ki, bu dağlar lap bizim Qubadlı dağlarına bənzəyir.

– Ay baba, Qubadlıda da bu ağaclardan var idi?

– O qədər var idi ki… Ancaq qəribədi ki, orada bu ağaca yemşan yox, givic deyirdilər!

– Givic nədi, ay baba?

– Doğrusu, o sözün mənasını mən heç özüm də bilmirəm. Ancaq çox maraqlı sözdü. Axtarışlar aparıb onun mənasını tapmaq o qədər də asan məsələ deyil…

Babam Ovçular evi deyilən restoranın yanında maşını saxladı. İkimiz birlikdə meşəyə getdik. Buradakı bulaq çox xoşuma gəldi. Doyunca onun suyundan içdik. Maşından su qabı götürüb doldurduq ki, evdəkilərə də aparaq bu təmiz, dadlı sudan…

Meşədə xeyli gəzdik, istirahət elədik, kabab yedik… Anama aparmaq üçün bir dəstə çəmən çiçəyi dərdim…

Evə qayıdanda da bir az əvvəl gördüyüm mənzərələri təkrar-təkrar seyr etmək çox xoşuma gəldi. Özümü bir nağıl qəhrəmanı kimi hiss eləyirdim. Bu nağılın son nöqtəsi isə anama verdiyim bir dəstə çiçək oldu… Əlbəttə, o güllər, çiçəklər əvvəl-axır solacaq. Ancaq mənim ciyərlərimdən o ətir heç zaman getməyəcək, gözlərimin önündən o mənzərələr heç zaman çəkilməyəcək… O bulağın suyu həmişə damarlarımda çağlayacaq və mənə hansı torpağın övladı olduğumu xatırladacaq…

**11.07.2015**

## QUMRU VƏ QARTAL BALASI

Bir neçə il bundan qabaq babamgilin balkonundakı antenanın üstündə qumrular yuva qurmuşdular. Onlar hər il iki yumurta qoyur, kürt yatıb cüt bala çıxarırdılar. Balalar elə sürətlə böyüyürdü ki, yuva onlara darlıq eləyirdi. Qanadları bərkiyəndən sonra isə onlar uçub gedirdilər. Babam bizə bərk-bərk tapşırmışdı ki, yuvaya əl vurmayaq. Deyirdi ki, belə etsəniz quşlar perikər, bir də bura gəlməzlər. Biz isə hər il quşların necə yumurtlamağını, bala çıxarmağını maraqla izləyərdik. Quşlar bizə elə öyrəşmişdilər ki, gəlib yaxından baxanda belə bizdən çəkinmir, uçmurdular. Bəlkə də dilləri olsa bizimlə söhbət eləyərdilər.

Bir il ustalar evi təmir eləməyə gəlmişdilər. Yuvada bala olduğu üçün babam qoymadı ki, pəncərəni dəyişsinlər. Yalnız quşlar uçub gedəndən sonra ustalar öz işlərini gördülər. Antenanı yenidən öz yerinə vurub, yuvanı da onun üstünə qoydular. Ancaq növbəti il quşlar bu yuvaya qayıdıb gəlmədilər. Babam həmişə ustaların qarasına deyinir, bizsə ümidlə quşların nə vaxtsa geri qayıdacağı günü gözləyirdik.

Aradan bir xeyli keçmişdi. Bir dəfə babam namaz qılanda mən balkona çıxdım ki, ona mane olmayım. Balkondakı gül qabının yanına qonan əyri dimdik, iti caynaqlı bir

quşu görüb heyrətləndim. Qışqıra-qışqara evə qaçıb dedim ki, ay nənə, balkonumuza qəribə bir quş gəlib.

Nənəm quşa baxsa da, onun nə quşu olduğunu bilmədi. Dedi ki, sakit dayan, baba namazını qurtaranda gəlib ona baxar.

Balkondakı quşa baxanda babam gözlərinə inanmadı. Sakitcə dedi ki, bu qumru deyil, qartal balasıdı. Görmürsən necə böyük və vüqarlıdı! Doğrudan da, hələ ayaqlarının, dimdiyinin sarısı getməsə də, qanadları bərkiməsə də, qartal balasının əyri dimdikləri iti, caynaqları möhkəm, görkəmi vüqarlı idi. Gözləri elə bil ki, yol çəkirdi…

Babam yaxına gəlib onun şəklini çəkdi. Quş heç yerindən tərpənmədi də. Mən onun yanına dən səpdim, balaca bir qabda su qoydum. Ancaq qartal balası nə su içdi, nə dən yedi. Xeyli dayandı, dayandı və birdən qanad çalıb harasa uçdu. Biz onun arxasınca baxa-baxa qaldıq.

Nənəm quşun hara getdiyini soruşanda ağlıma qəribə bir fikir gəldi. Nənəmə dedim ki, ay nənə, qumrular, göyərçinlər bizim yanımıza gəlirdilər, qartal babanın…

**14.07.2015**

## BABALAR SÖZÜ

Nəvəm Sara şənbə günü bizə gələndə özü ilə "Azərbaycan dili" dərsliyini də gətirmişdi. Dedi ki, ay baba, müəlimə tapşırıb ki, bu kitabdakı atalar sözlərini əzbərləyək, mənasını izah etməyə çalışaq.

Nəvəm xeyli atalar sözü əzbər söylədi. Sonra bir az susub nə haqda isə fikirləşdi. Üzümə baxıb gülümsündü. Səbəbini soruşanda belə dedi:

– Ay baba, analar atalardan çox danışırlar, niyə bəs analar sözü yoxdu, elə hamısı atalar sözüdü?

Nəvəmin sualı məni təəccübləndirdi və düşündürdü. Onun düşüncə tərzi çox xoşuma gəldi. Başını sığallayıb Saraya dedim:

– Söhbət çox danışmaqda deyil, mənim balam, necə danışmaqda, nə söyləməkdədi! Gərək dediyin söz mənalı olsun ki, camaat onu bəyənsin, yadında saxlasın.

– Hə, başa düşdüm. Atalar daha ağıllı söz deyirlər…

Mən güldüm. Sara da məzəli şəkildə üzümə baxıb qımışdı.

Bir az keçəndən sonra nəvəm dedi:

– Ay baba, ata da, ana da həmişə sənin sözünə qulaq asırlar. Deyirlər ki, böyük sözünə baxmayan böyürə-böyürə qalar. Ən mənalı sözləri əslində babalar deyir. Olmaz ki, atalar sözlərinin adını dəyişib babalar sözü qoyaq?!

Nəvəmin dərrakəsinə heyran qaldım. Ona nə cavab verəcəyimi bilmədim. Əslində heç nəvəm də məndən cavab gözləmirdi…

**04.06.2016**

## TAVANDA GƏZƏN QIZ

Maşallah, nəvəm çox çevik uşaqdı… Elə akrobatik hərəkətlər eləyir ki, adam baxanda lap heyran qalır… Allah bəd nəzərdən qorusun onu da, bütün uşaqlarımızı da…

Qızımgil ailəlikcə Kanadaya qonaq getmişdilər. Gələndə özləri ilə çox maraqlı şəkillər də çəkib gətirmişdilər. Mənə göstərib həvəsləndirirdilər ki, mən də o ölkəyə səyahət eləyim… Bu əfsanvi Niaqara şəlaləsi… Bu…

Qızım mənə bir şəkli göstərib dedi:

– Babası, bax, nəvən evin tavanında necə gəzir?!

Şəklə diqqətlə baxıb təəccübləndim. Sara, doğrudan da, tavanda gəzirdi elə bil… Divan, kreslo aşağıda idi…

Nə qədər baxdımsa, bir şey başa düşə bilmədim. Elə bu zaman nəvəm də bizə yaxınlaşdı. Şəklə təəccüblə baxdığımı görüb güldü:

– Ay baba, görürsən, tavanda gəzirəm…

– Əgər tavanda gəzməyi bacarırsansa, mənə sübut elə…

– Bundan yaxşı sübut?! Bax da şəklə…

– Şəkli neyləyirəm. Əgər tavanda gəzməyi bacarırsansa, çıx elə mənim evimin də tavanında gəz… Gəzə bilsən, inanaram…

Analı, balalı ikisi də susdular. Araya sükut çökdü. Qızım bir söz deməyə macal tapmamış, nəvəm dedi:

– Ay baba, gəzərəm… Ancaq sən də mənə kömək elə…

Təəccüblə soruşdum:

– Nə kömək, necə kömək?

Nəvəm bic-bic üzümə baxıb güldü:

– Əvvəlcə sən evi tərsinə çevir, mən də çıxıb tavanda gəzim…

Qızımla bir-birimizin üzünə baxıb güldük. Sara da bizə qoşuldu…

Əvvəl mən elə bilirdim ki, bu şəkli montaj eləyiblər. Sonra məlum oldu ki, Kanadada turistləri əyləndirmək üçün tərsinə çevrilmiş bir ev var. Adamlar bura gəlib, tavanda gəzişir, xatirə şəkli çəkdirirlər…

Hə, sən demə mənim nəvəm də o "tavanda gəzən" adamlardan biri imiş…

**29.01.2017**

## DAŞ DÖVRÜ VƏ YA MƏN NECƏ DAŞ ATMAĞIN DAŞINI ATDIM

Bir dəfə məktəbdə uşaqlarla söhbətləşəndə kimsə belə bir təklif irəli sürdü:

– Gəlin elə yalan deyək içində həqiqət olsun. Ya da elə həqiqət söyləyək ki, yalana bənzəsin…

İdeya maraqlı gəldi hamımıza. Hərə bir söz dedi, bir əhvalat danışdı… Əməlli-başlı zarafatlaşdıq, gülüşdük, fikir mübadiləsi etdik… Mənim dediyim söz isə daha çox diqqəti çəkdi, müzakirə predmetinə çevrildi.

Uşaqlara dedim:

– Mən bir daş atdım, uça-uça daş dövrünə getdi…

Uşaqlar gözləri yaşarana qədər mənə güldülər. Ay səni, fantazyor, heç bu qədər də yalan olar?

– Yox, mən yalan demirəm. Dediyim tam həqiqətdi. Qulaq asın, danışım…

Hamı diqqətlə məni dinləməyə başladı.

– Keçən il məktəbdən evə qayıdırdım. Necə oldusa ayağımın altında bir balaca daş qaldı. Az qala yıxılmışdım. Hirslə onu götürüb atdım…

Dostlarımdan biri istehza ilə sözümü kəsdi:

– Daş da uçub getdi daş dövrünə…

– Hə, eynən elə… Atdığım daş "Daş dövrü"nin pəncərəsinə dəyib onu çilik-çilik elədi…

– Ə, bu qədər gop olar. Daş dövründə şüşə nə gəzirdi?

– Düz deyirsən, daş dövründə şüşə olmayıb… Ancaq dediklərimdə zərrə qədər yalan yoxdu… Atdığım daş "Daş dövrü" restoranının pəncərəsinə dəymişdi…

Dostlarım yenə şaqqanaq çəkib güldülər. Mən isə onlar sakitləşəndən sonra başıma gələn hadisəni onlara danışdım.

– "Daş dövrü"nün pəncərəsi qırılandan sonra qorxudan oradan qaçdım. Evdə heç kəsə heç nə demədim… Fikirli olduğumu görən atam, anam nə qədər elədilərsə, onlara heç nə demədim…

Ad günüm yaxınlaşırdı. Birdən ağlıma qəribə bir fikir gəldi. Atamla anama dedim ki, mən istəyirəm ki, ad günümü "Daş dövrü" restoranında keçirək…

Valideynlərim təəccüblə üzümə baxdılar. Atam soruşdu:

– Ad gününü keçirməyinə keçirək, ancaq niyə bəs "Daş dövrü" restoranında? Şəhərdə o qədər kofelər, restoranlar var ki…

– Yox, mən "Daş dövrü" restoranını istəyirəm…

Mənim israrım valideynlərimə qəribə gəlsə də, razılaşdılar. Atam dedi ki, yaxşı, sabah restorana gedib danışaram.

Bununla da söhbət bitdi. Ancaq qərbə bir istək məni axtarış aparmağa, düşünməyə sövq etdi. İnternetdən daş dövrü haqqında materialları axtarıb tapdım.

Öyrəndim ki, 1,5 milyon il bundan qabaq Daş dövrü olub. Bu dövrə paleolit dövrü də deyiblər. Həmin vaxt yaşayan ulu əcdadlarımızın heyvanlar kimi sürü şəklində yaşamaları mənə çox qəribə gəldi. Sonra öyrəndim ki, alt paleolit dövründən sonra orta paleolit dövrü gəlib. Bu dövrdə insanlar əkib-biçməyi, ov eləməyi, oddan istifadə eləməyi öyrənmişlər. Onların əsas aləti isə daşdan düzəldilən çapacaqlar, digər əşyalar olmuşdur. Əmək, ov prosesi neondertal, yəni bacarıqlı insanların meydana gəlməsinə, onların digərlərindən seçilməsinə zəmin yaratmışdır. Zaman keçdikcə üst paleolit dövrü gəlmişdir. Bu dövr eramızdan əvvəl qırxıncı minillikdə yaranmışdır. Bu dövrdə bacarıqlı insanları ağıllı insanlar (home sapienis) əvəz etmişdir. Qəbilə quruluşu şəklində yaşayan insanlar bu dövrdə də yığıcılıq və ovçuluqla öz yaşayışlarını təmin etmişlər.

Bundan sonra, yəni eramızdan əvvəlki on ikinci minillikdə mezeolit dövrü başlamışdır. Eramızdan əvvəlki səkkizinci minilliyə qədər davam edən bu dövrdə ox və kamanın ixtira edilməsi də, heyvanların əhliləşdirilməsi də mənə maraqlı gəldi. Onu da byrəndim ki, bu illərdə insanlar təkcə ovçuluqla, meyvə, digər qidaya yararlı bitkilər toplamaqla yox, həm də əkinçilik və maldarlıqla məşğul olmuşlar. Onlar bu dövrdə təkcə hazır məhsulun sahibinə çevrilməmiş, əkib becərməyi, heyvandarlıq məhsulları istehsal eləməyi öyrənmişlər…

Sonrakı dövrün neolit adlandırılmasını da öyrəndim. Məlum oldu ki, bu dövr eramızdan əvvəl yeddinci minillikdə yaranmış, eramızdan əvvəlki altıncı minilliyə qədər davam etmişdir. Əkinçilik, maldarlıq, toxuculuq, dulusçuluqla məşğul olan əcdadlarımız oturaq həyat keçirməyə başlamışlar…

Söhbətim dostlarıma çox maraqlı gəldi. Bilmədən atdığım bir daş, doğrudan da, mənim Daş dövrü ilə maraq-

lanmağıma səbəb oldu. İstər-istəməz daş haqqında düşünməyə başladım. Öz-özümə sual verdim ki, daşın nə dövrü axı? Daş elə həmişə daşdı da…

Daş alət olub, silah olub. Daşla ov eləyiblər, düşməndən qorunublar. Daşla nişangah qoyublar.

Daş olmasa, evləri nə ilə tikərdilər? Daş olmasa, çayların önünə nə ilə bənd vurardılar? Daş olmasa insanlar öz fikir və mülahizələrini nəyin üstünə yazıb gələcək nəsillərə göndərərdilər?

Xəyalımdan sirli-sehrli Qobustan, Gəmiqaya keçdi… Tariximiz də daşlaşıb, əbədiyyət qazanıb… İndinin özündə də daşa çox böyük ehtiyac var.

Sonra dostlarıma necə "Daş dövrü" restoranında ad günümün keçirilməyini danışdım…

– Restorana girəndə qəribə hisslər keçirdim. Elə bildim ki, doğrudan da, daş dövründəyəm… Daşdan yaranan silahlar, əşyalar, divardan asılan heyvan dəriləri…

Sağ olsunlar, valideynlərim çox gözəl ad günü keçirdilər mənə… Babam, nənəm, əmim, dayım mənə o qədər hədiyyə almışdılar ki…

Axırda sözü mənə verdilər və xahiş elədilər ki, nə üçün məhz bu restoranda ad günümün keçirilməsini istəmişəm.

Mən ayağa qalxdım. Xahiş elədim ki, restoranın işçiləri də gəlib məni dinləsinlər.

Hamı təəccüblə mənə baxırdı… Mən başıma gələn ərvalatı onlara danışdım. Restoran sahiblərindən üzr istədim və atamdan xahiş elədim ki, sındırdığım şüşənin də pulunu ödəsin…

Araya dərin bir sükut çökdü. Nəhayət, atam dilləndi… Qəribə idi, o məni danlamadı… Dedi ki, oğlum, mən səninlə fəxr edirəm…

Hamı əl çaldı. Hətta restoran işçiləri də… Onlar sınan şüşənin pulunu götürməkdən imtina elədilər. Dedilər ki, qoy bu, sənin ad gününə bizdən hədiyyə olsun…

Kövrəldim. Dedim ki, hamının yanında deyirəm. Mən bu gündən daş atmağın daşını atdım… Daşı atmaq lazım deyil, daşı üst-üstə qoyub evlər, saraylar tikmək lazımdı…

Hamı kövrəlmişdi… Anamın gözündəki yaş damlalarını isə heç zaman unutmaram… O da məni öpdü… Ancaq atdığım daşa görə yox, elədiyim etirafa görə…

Başıma gələn bu əhvalat dostlarımı da kövrəltdi… Onlar dedilər ki, biz fəxr eləyirik ki, sənin kimi sinif yoldaşımız, dostumuz var… Hamı bir səslə dedi:

– Biz də bu gündən kiməsə daş atmağın daşını atdıq…

**02.02.2017**

## QARANLIQDA İŞIQ SÖHBƏTİ

Güclü külək əsirdi. Ağaclar iri yelpiklər kimi yellənirdi. Birdən işıqlarımız söndü. Nənəm deyindi. Babam isə dedi:

– Yəqin ki, hardasa işıq xətti qırıldı.

Qaranlıqda babama sığındım. Ondan soruşdum:

– Ay baba, işıq xətti nədi? Heç işığın da xətti olar?

– Küçələrdə basdırılan hündür dirəkləri görməmisən?

– Görmüşəm.

– Bu dirəklə o biri dirəyi birləşdirən məftilləri necə, xatırlayırsanmı?

– Hə, baba, bu xətlər nə üçündü?

– Bax o xətlərlə uzaqdan, Su Elektrik Stansiyalarından işıq gətirirlər şəhərlərə, kəndlərə.

Söhbət maraqlı oldu. Ancaq bəzi şeyləri başa düşə bilmədim.

– Ay baba, işıqları diraksiz çəkmək olmazmı?

– Bu, gələcəyin işidi. Hələlik isə müəyyən məsafədə yerə dirəklər basdırıb, onları bir-birinə birləşdirilən məftillər çəkirlər. Bax beləcə, məftillər uc-uca bağlana-bağlana gəlib çıxır hər hansı şəhərə, kəndə…

– Ay baba, iki-üç xətt bu boyda şəhərə necə bəs eləyir?

– O xətlərdə cərəyan axını çox güclüdür. Onu birbaşa evlərə vermək olmaz. Kanaldan gur su gəlib hovuza, su anbarlarına yığıldığı, oradan kiçik borularla evlərə paylandığı kimi, elektrik enerjisi də birbaşa şəhərlərə verilmir. Böyük transformatorlara, tənzimləyici, paylayıcı qurğulara birləşdirilir, oradansa lazımi miqdarda küçələrə, evlərə paylanılır.

Maraqla soruşdum:

– Cərəyan nədi, ay baba?

– Cərəyan axındı… Bax, borunun içiylə su axdığı kimi, məftillərlə də işıq seli fasiləsiz surətdə şəhərə, kəndə, fabrikə, zavoda axır.

– Axı məftilin içində deşik yoxdu, necə olur ki, cərəyan axır onunla?

Babam dedi:

– Düzdür, məftilin içində deşik yoxdu, ancaq onun özü yüksək keçiricilik qabiliyyətinə malikdir. Lap uzaqda olsa belə, məftilin bir ucuna cərəyan qoşulan kimi, bir göz qırpımında gəlib bu biri ucuna çatır. Bax elə ona görə işıq sürəti deyirlər da… O başda işıq yanan kimi, bu başda görünür…

Öz-özümə düşündüm. Nə qəribə işdi. İşıq xətləri qarın, yağışın altında qalır bütün günü… İçindəki işığı isə heç kim, heç kəs nə söndürə, istiliyi heç kim, heç nə azalda bilmir…

Bəlkə də işıqlarımız sönməsə, babamla işıq haqqında söhbət eləməzdik. Dünyanın işinə bax e… Bir şey olanda qədrini bilmirik, olmayanda onun yoxluğu bizə əziyyət verir.

Qaranlıqda babamla əməlli-başlı işıq söhbəti elədik… Elə bu vaxt elektrik lampalarımız közərdi, çil-çırağımız evimizi nura bələdi. Evlərimiz isinməyə başladı.

Yəqin ki, işıqçılar qırılan məftillləri bir-birlərinə birləşdirdilər…

**18.02.2017**

## BABANIN ŞEİRİNDƏN ALINAN BEŞ

Nəvəm Sara beşinci sinifdə oxuyur. Azərbaycan dili müəllimi mənim "Əl" şeirimi tədris eləyirmiş. Şeiri uşaqlara oxudub, mətn üzərində iş aparıb. Sonra tapşırıb ki, şeiri əzbərləsinlər. Üzünü Saraya tutub deyib:

– Sara, görək babanın şeirini necə əzbərləyəcəksən?

Sara evə gələn kimi başlayıb şeiri əzbərləməyə. Mətnin uzun olduğunu görüb gileylənib:

– Ana, bu boyda şeir olar? Babaya deyəcəm indən belə bütün şeirləri qısa yazsın. Axı uşaqlar yazıqdılar, əzbərləyə bilmirlər?!

Qızım gülüb. Sara şeiri əzbərləyib əvvəlcə anasına söyləyib. Sonra məktəbdə müəllimə danışıb və "5" alıb. Elə sevinirmiş ki… Deyirmiş ki, babanın şeirindən "5" almışam. Sumqayıta gedəndə əzbər söyləyəcəm, görüm babam mənə neçə qiymət verəcək?

Anası deyib:

– Sara, əzbərlədiyin bu şeir babaya ən böyük hədiyyədi.

**20.02.2017**

## QARAJIN NAĞILI

Biri var idi, biri yox idi, bir qaraj var idi… Bu qaraj çox maşınlar yola salmışdı… Əvvəlcə bir az xiffət eləyər, köhnə maşının ayrılığına dözə, təzə maşınınsa naz-qəmzəsinə öyrəşə bilməzdi… Lakin günlər keçdikcə taleyiylə barışmalı olardı…

Düzü-dünyanı gəzib qayıdan dostunu – maşını səhərəcən dincəlməyə qoymaz, onu sorğu-suala tutardı…

Ancaq neçə gün idi ki, sahibi maşina minib getmiş, hələ də geri qayıtmamışdı… Qaraj narahat idi, çox narahat…

Gecələr tək qalmağa öyrəşməyən qaraj səhərəcən qəribə-qəribə yuxular görərdi…

Aradan bir neçə gün keçdi. Nəhayət, bir gün qaraj mühərrikin səsinə mürgüdən ayıldı. Sahibinin doğma barmaqlarının ona toxunduğunu hiss eləyən kimi sevindi… Kimsənin eşidə bilməyəcəyi bir dildə danışmağa başladı:

– Şükür, gəlib çıxdı. Şükür, tənhalığıma son qoyuldu…

Qarajın qapıları həsrətli qollar kimi taybatay açıldı… Ancaq o, çox təəccübləndi… Qarşısında dayanan hisinə, qoxusuna öyrəşdiyi köhnə yox, təptəzə, yağın içindən təzəcə çıxmış bir maşın idi… Özü də bu, daha gözəl, əvvəlkindən xeyli böyük, yaraşıqlı bir maşın idi…

Ancaq balaca maşina öyrəşən qaraj bir az üşəndi…

– Ay dadi-bidad, bu yekəlikdə maşın mənim qoynuma necə yerləşəcək?

Sahibi təzə maşını ehtiyatla içəri saldı. Doğrudan da, maşın böyük idi, qaraja güclə yerləşirdi. Ancaq neyləmək olar? Qapılar yarımçıq açıldı, sahibi ehtiyatla düşüb qapını örtdü. Düyməni basan kimi işıqlar göz qırpdı və maşının qapıları kilidləndi…

Qarajın sahibi maşının o yanına, bu yanına keçdi, sonra qapıları bağlayıb evə getdi…

Ömründə ilk dəfə bu qədər dar qaraj görən maşın vahimələndi:

– Vay dədəm vay, mən burda necə qalacam?! Oy, buranın nə pis havası var!

Birdən qaraj dil açıb danışdı:

– Xoş gəlmisən, təzə dost!

Maşın səksəndi:

– Bu kimidi belə?

– Mən çox-çox təzə maşınlar yola salan köhnə qarajam! Narahat olma, sən də öyrəşəcəksən!

– Yox-yox, mən burda bir gün də qala bilmərəm… Köhnə maşının iyi-qoxusu mənim lap ürəyimi bulandırır…

Qaraj acı-acı gülümsündü:

– Bütün təzə gələnlər belə deyir. Ancaq əvvəl-axır öyrəşirlər bu həyata…

– Bu nə dəmir-dümürdü rəflərdə?

– Köhnə maşının ehtiyat hissələri…

– Bura bax e, təzə maşın alır, köhnənin ehtiyat hissələrini burda saxlayır…

– Bu səndən əvvəl də belə idi…

– Bəlkə mənə göz dağı vermək istəyir…

– Yox, bu heç onun ağlına da gəlmir…

– Bəs o rəflərdəki bağlamalar nədi?

– Kitablardı.

– Nə, kitablar? Bura qarajdı, ya kitabxana?

– Qaraj olmağına qarajdı. Ancaq bizim sahibimiz borc xərc öz kitablarını nəşr elətdirib gətirib yığır bura…

– Versin kitabxanaya da…

– Kitabxanaların hamısına paylayır o kitablardan… Bunlar artıq qalanlardı…

– Mağazaya versin da!

– Ay dünyadan bixəbər! İndi kitab oxuyan var?!

– Necə-necə? Kitab oxuyan yoxdu? Mənim istehsal olunduğum ölkədə hamı kitab oxuyur… Qocalar da, uşaqlar da… Kitab mağazalarında heç bilirsən necə növbə olur?

– Sənin istehsal olunduğun ölkədi da bizi pis günə salan… Orada gözəl-gözəl, bahalı-bahalı telefonlar istehsal olunur.

– Başa düşmədim, bunun mətləbə nə dəxli?

– Ən usuz qiymətə ən faydalı kitabları almayanlar ən bahalı telefonlar almaq növbəsinə dayanırlar… Bu telefonlarla danışmaqdan çox şəkil çəkirlər… Hələ bu azmış kimi, mənim sahibimin dərsliklərinin fotosurətini çəkib yığırlar telefonun yaddaşına…

– Onu neyləyirlər ki?

– Neyləyəcəklər? İmtahan suallarını cavablarını telefondan köçürürlər vərəqlərə və qiymət alırlar…

– Vay, işə bax e!

– Heyf ki, kitab oxuya bilmirəm…Yoxsa səhərəcən sahibimin kitablarını oxuyardım…

Səhərisi gün sahibi qarajın qapısını açdı. Qarajın yanından keçib məktəbə gedən uşaqlar ayaq saxladılar:

– Uy da, nə qəşəng maşındı!

Bunu eşidən maşının sahibi dedi:

– Gün o gün olsun ki, sizin də gözəl maşınınız olsun! Bunun üçün bilirsiniz nə lazımdı?

Uşaqlar maraqla soruşdular:

– Nə, əmi?

– Çoxlu-çoxlu kitab oxumaq…

Uşaqlar təəccüblə bir-birinin üzünə baxdılar:

– Əmi, kitabı hardan alaq? Bu boyda şəhərdə bir dənə də olsun kitab mağazası yoxdu…

Birdən maşının sahibinin ağlına nə gəldisə gülümsündü:

– Yaxına gəlin, indi mən sizə kitab verəcəm. Ancaq bu şərtlə ki, oxuyasınız…

Kişi kitab bağlamalarını açıb hər uşağa bir kitab verdi…

Bunu görən başqa uşaqlar da qaraja yanaşdılar… Hərə öz kitab payını alıb məktəbə tələsdi… Qəribə bir mənzərə yaranmışdı… Məktəb yolunda qarışqalar kimi qaynaşan hər uşağın əlində bir kitab var idi…

Bir neçə saatdan sonra qarajın içində bir dənə də olsun kitab, jurnal qalmamışdı… Qarajın sahibi süpürgəçiləri çağırıb onlara pul verdi və xahiş elədi ki, mən gedirəm, qayıdanacan bu rəflərdəki hər şeyi atarsınız zibil yeşiyinə, içərini yuyub təmizləyər, tozu silərsiniz…

Axşam işdən yorğun qayıdan sürücü maşını qaraja salıb qapını bağladı… Maşınla tək qaldığını görən qaraj dilləndi:

– Dostum, ayağın düşərli oldu… Məni tərtəmiz yudular, tozumu aldılar. Sənin üçün gözəl şərait yaratdılar…

Səhərisi gün kitab eşqiylə qarajın qapısına yanaşan uşaqlar qəribə bir mənzərə ilə rastlaşdılar… Kitab baglamalarının yerinə indi səliqəli meyvə qutuları düzülmüşdü…

Nağıl sona yetmişdi… Göydən isə üç alma yerinə çoxlu almalar düşmüşdü…

**05.05.2017**

## BABANIN ƏN DADLI KİTABLARI

Sinif yoldaşları Saraya qibtə eləyirdilər. Çünki bilirdilər ki, onun babası şairdir. Hələ kitabları bir yana, dərs kitablarında onun o qədər şeirləri var idi ki... Uşaqlar bu şeirlərin çoxunu əzbərləmişdilər. Ancaq Sara bir dəfə də olsun deməmişdi ki, bu əsərlərin müəllifi mənim babamdır...

Bir dəfə necə oldusa müəllim bundan xəbər tutdu. Uşaqlara dedi ki, heç xəbərimiz olmayıb. Sən demə neçə illərdən bəri əsərlərini oxuduğumuz, öyrəndiyimiz şair Saranın doğmaca babası imiş...

Tənəffüsdə uşaqlar Saranın başına toplaşdılar. Gileyləndilər ki, niyə indiyə qədər bunu bizə deməmisən?

Qızcığaz heç nə demədi. Daxilən qürurlansa da bunu üzə vurmadı.

Uşaqlardan kimsə soruşdu:

– Babanın neçə kitabı var?

– Çoxdu...

– O kitablardan hansını daha çox sevirsən?

– Bir “Tanrının ömür payı”, “Bir də daha uşa deyiləm” kitablarını...

– Nəyə görə?

– Ona görə ki, bu kitablar babanın ən dadlı kitablarıdı...

Uşaqlar gülüşdülər:

– Necə, necə? Dadlı kitab? Heç dadlı da kitab olar?

Sara bic-bic güldü:

– Olar, niyə olmur ki?

Hamı təəccübləndi. Kimsə kinayə ilə dedi:

– Kitabın dadlı olduğunu birinci dəfədi eşidirəm...

Sara güldü:

– Uşaqlar, doğru sözümdü... Babanın o kitablarını qaşıq-qaşıq oxumuşam...

Uşaqlar gülüşdülər. Kimsə dedı ki, ya bu qızın başı xarab olub, ya da bizı dolayır...

Sara qalib ədayla güldü:

– Ciddi sözümdü... Babanın ad günündə o iki kitabını tort formasına salıb hədiyyə gətirmişdilər... Anam tortu dilim-dilim kəsib qonaqlara payladı. Biz də qaşıq-qaşıq onu yedik, "oxuduq"... Çox dadlı kitablar idi...

Uşaqlar gülüşdülər...

Kimsə zarafatla dedi:

– Sara, sən də öz ad günündə babanın o kitablarından gətirərsən, biz də oxuyarıq... Onda bilərik ki, dadlıdır, yoxsa yox!

Sara güldü. Söz verdi ki, mütləq babanın o dadlı kitablarından birini öz ad günündə gətirəcək...

**23.02.2019**

## İLHAM GƏLƏNDƏ ƏKİLƏN AĞAC

Təzə mənzilə köçmüşdük. Həyətdə hələ bir dənə də ağac yox idi. Ona görə dostlarımdan xahiş eləmişdim ki, mənə ağac tingləri gətirsinlər həyətdə əkmək üçün.

Aradan bir neçə gün keçdi. Dostlarımdan biri mənə bir cüt iynəyarpaqlı şam ağacı göndərdi. Ona təşəkkürümü bildirdim. Sonra oğlum Gurseli çağırıb dedim ki, apar bu ağacları ək!

Oğlum o vaxt orta məktəbin yuxarı sinfində oxuyurdu... Dediyim sözə könülsüz reaksiyası xoşuma gəlmədi. Bunu hiss edən oğlum soruşdu:

– Ata, ilhamın gəlməyəndə şeir yaza bilirsən?

Cavab verdim ki, yox.

Gursel bic-bic gülümsəyib dedi:

– Bax, ağac əkmək də şeir yazmaq kimi bir şeydi. Mənim həvəsim yoxdu, sən isə məcbur eləyirsən ki, get ağac ək...

Güldüm və ona dedim ki, yaxşı get dərslərini oxu. Özüm aparıb əkərəm...

Ağacları aparıb qarajın yanında əkdim. Diblərinə su tökdüm...

Bir neçə gündən sonra başqa bir dostum mənə bir qovaq şivi göndərdi. Onu da aparıb əkmək istəyəndə Gursel dedi:

– Ata, icazə ver, bu ağacı da mən aparıb əkim.

Üzünə tərs-tərs baxıb dedim:

– Nədi, bəlkə ilhamın gəlib?

Gursel gülə-gülə dedi:

– Hə, ata, bu gün ağac əkməyə çox həvəsim var...

Sonra o, qovaq şitilini aparıb, düz pəncərəmizin qarşısında əkdi, daim ona qulluq elədi...

İndi o qovaq hündür bir ağaca şevrilib. Budaqlarına qonan sərcələr civildəşir, elə bil minnətdarlıq nəğməsi oxuyurlar...

Həmin ağacın şəklini, onun budaqlarında sərçələrin çoxdan bəri eşidilməyən civilti səsini lentə alıb okeanın o tayında yaşayan oğluma göndərdim ki, quşların minnətdarlıq nəğməsini özü dinləsin...

**02.11.2019**

## CÜCƏ QOŞUNU VƏ YA AĞ CIĞIR

Bütün kənddə böyüyən adamlar kimi mən də şəhərdə darıxıram. Bəzən baş götürüb qayır-qayır qaynayan küçələrin səs-küyündən uzaqlaşmaq keçir ürəyimdən.

Bu dəfə də belə oldu. Həyətə düşdüm. Maşını qarajdan çıxarıb sürməyə başladım. Yenə də şəhərdə zəhlətökən tıxac var idi. Öz-özümə düşündüm ki, bu dar küçələr elə bil ilan boğazıdı… Maşınlar isə bu heybətli boğazdan çanını qur-

tmağa tələsən qurbağalara bənzətdim xəyalən. Çünki bu saysız-hesabsız maşınlar da tıxacdan çıxan kimi ilan boğazından qurtulan qurbağalar kimi "qaçmağa" başlayırdılar.

Bu cür düşüncələr başımı xeyli qatdı. Aradan nə qədər keçdiyini bilmirəm, bir də gördüm ki, canım tıxacdan qurtardı.

Rahatca nəfəs aldım. Bir az gedəndən sonra saga dönüb, torpaq yolla hərəkət eləməyə başladım. Öz-özümə düşündüm ki, heyif deyil kənd yolu. Toz-torpaq olsa da, burada hərəkət eləmək adama lap ləzzət eləyir...

Ancaq sevincim o qədər də uzun sürmədi. Bir az getmişdim ki, qarşıda bir neçə maşının dalbadal dayandığını, yolu tamam kəsdiyini gördüm. Lap dilxor oldum. Öz-özümə deyindim ki, bu dünyada maşın əlindən tərpənmək olmur da…

Xeyli gözlədim. Maşınlar tərpənmədi ki, tərpənmədi. Nə qədər siqnal verdimsə, əhəmiyyət verən olmadı. Qarşıda səs-küy, gülüş səsləri eşitdim. İstər istəməz maşından düşdüm. Qabağa getdim ki, görüm orada nə olub…

Xeyli gedəndən sonra qəribə bir mənzərə ilə rastlaşdım. Elə bildim ki, məni qara basır… Sol tərəfdəki zibilxana qayır-qayır qaynayır, oradan yumurtadan təzə çıxmış cücələr civildəşə-civildəşə yola çıxır, yaxındakı kəndə sarı gedirdilər…

İlahi, bu nə mənzərə idi mən görürdüm… Elə bil möcüzəli bir nağıllar dünyasında idim… Ancaq sürücülərin səs-küyü, cücələri öz halalca malları kimi tutub maşınlara doldurmaları məni nağıllar dünyasından ayırıb, qeyri-adi, real bir mənzərə ilə üz-üzə qoydu…

Aydın oldu ki, istifadə müddəti keçdiyinə görə mağazalardakı saysız-hesabsız yumurtaları gətirib bu zibilxanaya töküblər. Havanın istisi belə bir möcüzənin yaranmasına səbəb olub. Günəş nəhəng bir kürt toyuq kimi qanadlarını bu günahsiz, dünyaya gəlməyə haqqı olan yumurtaların üstünə

gərib, Allahın izni ilə onlara həyat-can verib… Ana nəvazişi, ana istisi hiss eləyən cücələr öz balaca dimdikləri ilə yumurtaları deşib, bayıra çıxıblar…

Zibilxanaya atılmış yumurtalar cücəyə dönüb bir topa ağ bulud kimi kəndə sarı gedirdi… Cücə qoşunu irəliləyirdi… Cücülər baş götürüb qaçmağa tələsirdilər. Ac cücələrin dimdikləri kəlbətin kimi sıxa bilərdi onları…

Mənə elə gəldi ki, bütün kəndin toyuqları yuxusunu qarışdırıbmış bu gecə… Qəribə idi, atılmış yumurtalardan çıxan saysız-hesabsız cücələr elə bil üsyan edir, dəstə-dəstə, qarışqa sürüsü kimi kəndə doğru irəliləyirdilər… Hamı heyrətlə baxırdı. Ac cücələr isə civildəşə-civildəşə dimdikləməyə nəsə axtarırdılar… Zibilxanadan kəndə sarı ağ bir cığır uzanırdı…

**11.04.2020**

## EYNƏK ŞÜŞƏSİ

Nənəm həmişə babamın qarasına deyinirdi:

– Ay kişi, bu kompüterin qarşısında az əyləş, uşaq kimi telefonla az oyna! Gözlərinə yazığın gəlmir...

Babam kompüteri söndürdü. Telefonu da, eynəyini də divanın söykənəcək hissəsinə qoyub getdi. Evdə o başa-bu başa gəzişdi... Xeylı keçəndən sonra gəlib yenidən divanda əyləşdi. Könülsüz-könülsüz televizora baxdı. Sonra nə fikirləşdisə, eynəyini taxıb, telefonu əlinə götürdü. Sifətində qəribə bir dəyişiklik, narahatçılıq hiss eldım. Mən altdan-altdan babama baxırdım. O, telefonu gah gözündən uzaqlaşdırır, gah da yaxınlaşdırırdı. Hərdən bir gözünü, hərdən o biri gözünü əli ilə tutub baxdığını görüb təəccübləndim. Sonra o, eynəyini çıxarıb yerinə qoydu. Telefonu da hirslə stolun üstünə atıb getdi.

Divanın boşaldığını görüb, cəld onun üstündə əyləşmək istəyəndə hiss elədim ki, ayağımın altında nəsə qaldı. Əyilib

götürəndə gördüm ki, bu, babamın eynəyinin şüşəsinin bir tayıdı.

Mənə hər şey aydın oldu. Babamı çağırdım:

– Ay baba, tez bura gəl. Gör mən nə tapmışam.

Eynəyin şüşəsini ona verəndə babam sevindi. Sən demə eynəyin bir gözünün şüşəsi düşübmüş deyə babam yazını yaxşı oxuya bilmirmiş.

O, şüşəni öz yerinə taxıb, yenidən telefonu əlinə götür-dü. Gülə-gülə dedı ki, mən də elə bildim ki, bir gözüm qəflətən görmə qabiliyyətini itirdi... Bunu özümə dərd eləmişdim... Çox şükür ki, belə deyilmiş...

Sən demə, görməmək bədbəxtlik, görmək isə böyük xoşbəxtlik imiş... Mən bunu babamın üzünə baxanda aydınca hiss elədim.

**25.05.2020**

## ADAM OL

Anası sözə baxmadığı üçün Fatehi bərk danladı. Üstünə qışqırıb dedi:

– Fateh, adam ol!

Fateh heç nə deməyib qonşu otağa keçdi. Rəsm dəftər-lərini, karandaşlarını götürüb sakitcə şəkil çəkməyə başladı…

Dovşan şəkli çəkə-çəkə öz-özünə dedi:

– Adam ol! Adam ol!

Birdən uşaq gülümsündü. Çəkdiyi dovşanın əvəzindən belə söylədi:

– Bəlkə heç mən adam olmaq istəmirəm?!

Kənardan Fatehə göz qoyan ata ilə ana özlərini gül-məkdən saxlaya bilmədilər. Fateh isə ciddi şəkildə sözünü bir də təkrar elədi:

– Bəlkə heç mən adam olmaq istəmirəm?!

**08.10.2012**

# XATİRƏ SOVQATI

## ÖMRÜMÜN İLK ÜNVANI

Hansı bir şerin misrasısa yadımda qalıb: "Sığmaz xəyalına böyük bir vətən, sığar xəyalına doğulduğun kənd."

Doğrudan da, belədir. İnsan üçün dünyaya göz açdığı yerdən doğma, əziz heç hara ola bilməz.

Mən Azərbaycanımızın ən ucqar kəndlərindən birində – Çardaxlıda anadan olmuşam. O kəndin hər qarış torpağında acılı-şirinli bir xatirə yatır. Dağlar qoynunda yerləşən Çardaxlı respublikamızın ən ucqar kəndlərindən biri olsa da, mənim Vətən məhəbbətimin mərkəzində dayanır bu kənd. Pasportumda atamın, babamın adları ilə qoşa yazılıb bu kəndin adı.

Çardaxlıda çardaq görməmişəm. Ancaq o elə yerdədi ki, elə bil təpə dirəklərin üstündə qərar tutmuş çardaqdı. Bəlkə də buna görə kəndimizin adına Çardaxlı deyiblər?!

Nədənsə, "Koroğlu" dastanını oxuyanda bu kəndin dağları, düzləri, kövşənləri, meşələri qarış-qarış canlanır xəyalımda.

Hər ömür bir çaya bənzəyir. Öz mənbəyini insanın doğulduğu yerdən götürən bu çayların itib-batanı da olur, ümmanlara qovuşanı da. Suyu çox olan çay daha uzaq mənzillərə baş alıb gedir. Lakin bu, əslində, doğulduğu yerdən uzaqlaşmaq deyildir. Çay nə qədər böyük sürətlə öz mənbəyindən uzaqlaşsa da, ona bu gücü, qüdrəti verən də doğulduğu məkandır. Ömür çayı nə qədər sürətlə axsa da, insan doğulduğu yerdən nə qədər uzaqda olsa da, onun fikri, xəyalı suyun axarının əksinə üzən balıqlar kimi yenə də geriyə – ömrün ilk ünvanına doğru can atır.

Dostum, bu kənddə doğulan bir uşaqla tanış olmaq, onu dinləmək istəyirsənmi?!

Elə isə yaxın gəl. Diqqətlə mənə qulaq as. Əlbəttə, bu oğlan sənin oxuduğun, dinlədiyin nağılların qəhrəmanlarına, başına gələnlər isə sənin sevdiyin macəralara oxşamır. Bu söylədiklərim onun həyatının yaddaş səhifələrində qalan fraqmentlərdir.

## AT BELİNDƏ

Çardaxlının altından Çayzəmi deyilən səfalı bir yerə yol gedir. Bu yola poçt yolu deyirdilər bir vaxt. Haqqında söhbət açdığımız oğlan – İnam bu yolun üstündəki birmərtəbəli evdə yaşayırdı. Onun atası da, anası da müəllim idi. Ana son dərəcə mülayim, ata isə övlada qarşı həmişə sərt, lakin ürəyi kövrək bir kişi idi. O, çalışırdı ki, oğullarını əməyə məhəbbət ruhunda tərbiyə etsin. Ailənin yazılmamış qanunlarını pozan uşağa güzəşt yox idi bu evdə.

Dağların əlində xonçaya bənzəyən Çardaxlının dörd tərəfində şəfa qaynağı olan bulaqlar çağlayıb axsa da, kəndin içində su yox idi. Camaat suyu səhənglə ən gur bulaqdan – kəndin arxa tərəfindəki dərədə çağlayıb axan Qısraqdan gətirirdi.

Qışda, qar hər tərəfi bağlayanda, ev heyvanları örüşə çıxmadığı üçün onları da novlu bulağa aparıb suvarmaq lazım idi. İnam, eləcə də onun bir yaş kiçik qardaşı camışın quyruğundan tutub bulağa qədər sürüşmək üstündə tez-tez dalaşardılar.

Ev heyvanları içərisində İnamın atasının ən çox sevdiyi at idi. O, bir yaxşı at sorağı alan kimi nəyin bahasına olursa-olsun həmin atı alıb gətirər, özününkünü isə dəyər-dəyməzinə satardı. Onun mindiyi atlar ətraf kəndlərdə məşhur idi.

Bir gün atası İnamı yanına çağırıb dedi:

– Oğlum, sən daha yekə kişisən, məktəbə getməyə hazırlaşırsan. Camışın quyruğundan qoy qardaşın tutsun. İndən

belə sənə atımızı səhər-axşam aparıb suvarmaq vəzifəsi tapşırılır.

Əlbəttə, İnam atdan qorxurdu. Lakin bunu üzə vurmağı şəxsiyyətinə sığışdırmırdı. Bir neçə gün o, Sarı madyanı yedəyində suya aparıb gətirdi. Nəhayət, bir gün ata ananın etirazına baxmayaraq, İnamı ata mindirdi və tapşırdı:

– Cilovu bərk saxla, özün də heç nədən qorxma!

At çəpərlərin arası boyu uzanan yoldan çıxan kimi sürətini artırdı. İnam bərk həyəcanlı idi. Sarı madyan elə bil ki, bunu hiss etdi. Birdən o, bulaq yolundan dönüb, Daşlı dərəyə sarı götürüldü. Oğlan cilovu buraxıb, bərk-bərk yəhərdən yapışdı. Yüyəni boşalanda yerə-göyə sığmayan Sarı madyana bundan artıq daha nə lazım idi?! O, təzə şumlanmış tarlanın qırağı ilə qaçmağa başladı. Inam özünü saxlaya bilməyib atın belindən yerə yıxıldı. Bunu görən Sarı madyan dayandı. Elə bil ki, o, balaca sahibinin yıxılmasına təəccüb edirdi.

Atın uşağı götürüb qaçdığını görən kənd adamları İnamın atasının qarasına deyinə-deyinə Sarı madyanın dalınca yüyürdülər.

İnamın qolu sivrilsə də, sağ-salamat idi. Bunu görən adamlar sevindilər. İnamın bibisi isə qardaşının abırını ətəyinə bükdü:

– Sənin də qəribə xasiyyətin var. Körpə uşağı mindirmisən öz dəli atına ki, nədir-nədir iş bilmişəm…

Ata da həyəcanlı idi. Lakin bunu üzə vurmaq istəmirdi. O, oğlunu yenidən qaldırıb atın üstünə qoydu. Ancaq bu dəfə özü atın yedəyindən tutub çəkdi.

Günlər keçdi. İnam daha atdan qorxmurdu. Yayda atası ot biçib Sarı madyana yükləyər, İnama tapşırardı ki, aparıb evdə atın yükünü boşaltsın.

İlk vaxtlar İnam çətinlik çəkirdi, lakin yavaş-yavaş hər şeyə alışdı. O, ot biçməyi də, xorumlayıb bağlamağı da, atı yükləməyi də öyrəndi.

Bir gün ot yükləyəndə İnam gördü ki, atın döşü torbalanıb, şişib. O, bunu atasına dedi. Məlum oldu ki, atı ilan vurub. Baytar çağırdılar. O, dərhal işə başladı. Şişən yerləri neştərlə deşib sığadı, sonra dərman vurdu. Müalicə bir aydan çox çəksə də at sağaldı…

Atası 178 at dəyişmişdi ömrü boyu. İnama isə bu atlardan yalnız altısını: Sarı madyanı, Kəhər ürgəni, Göy dayçanı, Qara atı, Boz atı və onun balası Qaşqa qulanı minmək qismət olmuşdu.

Bu atların hərəsinin öz alınma, satılma tarixi var idi. Özü də hamısı bir-birindən maraqlı. Məsələn, elə götürək Boz madyanı.

İnamın atası heç zaman qoca at almazdı. Əksinə, o, həmişə xam at alıb özü öyrədərdi. Boz atı isə hay-hayı gedib, vay-vayı qalan, öz keçmiş şöhrətini itirən vaxt almışdı. Vaxtilə bu atın qabağına at keçməzdi. Ancaq at sahibi tərslik edib onu İnamın atasına satmamış, yalnız at qocalandan sonra bu sövdəyə razılıq vermişdi:

Atası ilə zeyvəli Qurgenin sövdələşməsini İnam yaxşı xatırlayırdı:

– Ay kibrə, atı sənə bir şərtlə satıram.

– Nə şərtin var, de gəlsin.

– Eşitmişəm ki, sən aldığın heyvanlara onların keçmiş sahiblərinin adını verirsən. Bu mən ölüm, ata Qurgen adı verməyəsən.

İnamın atası gülümsəyib dedi:

-Yaxşı, arxayın ol. Sən qiymət de!

-Yüz on manat.

-Yox əşi, at çox qocalıb. Bir bax, dodağı da sallanıb.

-Yaxşı, bəs sən nə verərsən, ay kibrə?

-Yüz manat.

– Ay kibrə, on manat atın ağzını düzəldəcax? Di yaxşı, xeyirli olsun!

İnamın atası "Ot kök üstə bitər" məsəlini xatırlamağı çox xoşlayardı. Oğlu soruşanda ki, ay ata, nə üçün qoca at aldın? O belə cavab vermişdi:

– Qarğa yumurtasından bülbül çıxmaz, oğlum. Bu atı özünə görə yox, doğacağı quluna görə almışam. Onun balası elə bir məşhur at olsun ki, gəl görəsən!

Doğrudan da, belə oldu. Boz atın balası Qaşqa məşhur bir at oldu.

İnamın atası sonralar maşın alsa da, könlü yenə də atların yanında qalmışdı. İnam sonralar böyüyəndə "Atamın mindiyi atlar" adlı belə bir şeir də yazmışdı:

Kənddə onu at keçməzdi,
Yaman qoçaq ürkə idi.
Ancaq bir az bu çər dəymiş
Dingiş idi, hürkək idi.

Minilməkçün yaranmışdı
Güc-bəlayla yüklənərdi.
Bir şıqqıltı gələn kimi
Qulaqları şəklənərdi.

Atamın mindiyi atın
Gözü sanki almaz idi.
Atamın mindiyi ata
Qamçı gərək olmaz idi

Dəyməzdi atın xətrinə,
Cilovunu boşlayardı.
Qəribəydi, o atların
Dəlisini xoşlayardı.

Yaxına da buraxmazdı
Onun atı yad adamı.
Cıdırlarda, yarışlarda
Sındırmazdı at adamı.

Atam yəhərə qalxanda
Deyərdin bəs qızıl quşdu.
Atamın mindiyi atı
Keçən at doğulmamışdı.

Zaman atamın ömrünü
Öz əlinə dəstələdi.
Atam atdan düşən kimi,
Azar onu üstələdi.

**1984**

## ÜZƏNGİ YARASI

Babamın bir ağ atı var idi. O, həmişə nəvələrinin görüşünə bu atın üstündə gələrdi.

Ağ at ağsaçlı babaya çox yaraşırdı. Həm də bu at atamın atları kimi dəlisov, hürkək deyildi.

Bir dəfə səhərin alatoranında dayım ağ atı yəhərlədi. Baba ata minəndə gördü ki, üzənginin bir tayı yoxdur. Oğlunun qarasına deyinsə də, o, yoldan qayıtmaq istəmədi, atı qamçılayıb çapmağa başladı.

Ağ at heç həmişəki ağ ata oxşamırdı. Həmişə yumurta kimi yortan, yorğa yerişi ilə baxanları heyran qoyan ağ at bu gün nədənsə babanın altında ilan kimi qıvrılırdı. Ağ at qamçını da vecinə almırdı.

Baba öz-özünə fikirləşdi:

– At da mənim kimi qocalıb yəqin.

Kəndə çatanda babamın qabağına yüyürdüm. Təəccüblə ata baxıb dedim:

– Babamın ağ atı qırmızı olub.

Əvvəlcə mənim sözümə inanmaq istəmədilər. Lakin nə görsələr yaxşıdır?! Atın belindən qan süzülürdü.

Babam atdan düşüb tapqırı açdı. Yəhəri götürəndə gözlərinə inanmadı. Sən demə, üzənginin bir tayı yəhərin altında qalıbmış.

Atın belində dərin bir yara əmələ gəlmişdi. Qan hey axır, kəsmək bilmirdi.

Tez əski yandırıb qarasını isti-isti atın yarasına basdılar. Nəhayət, qan kəsildi. Lakin atın belindəki yara uzun müddət sağalmadı.

**1984**

## NAĞARA

**Babam Nuşirəvanın əziz xatirəsinə**

Özlərindən böyük əmisi oğlanlarına baxıb, dayılarım da atalarına əmi deyirdilər. Mən də onlardan nümunə götürmüşdüm. Babama əmi deyə müraciət edirdim.

Babamın ilk nəvəsi idim. Ona görə məni çox istəyir, əzizləyirdilər. Uşaqlığım, demək olar ki, ata-anamın yanında yox, babamın, nənəmin yanında keçmişdi. Əslində, mənə nəvədən çox evin sonbeşiyi kimi baxırdılar.

Gündüzlər həyət-bacada oynayır, evimizdən on-on beş addım kənarda, həyətimizin ayağından keçən dağ çayının səsinə qulaq asırdım. Çayın o tayında – həyətimizlə üzbəüz sahədə yaxşı bir bağımız var idi. Ora getmək üçün mütləq çaydan keçmək lazım gəlirdi. Körpü yox idi. Ayaqlarımızı çayın içində müəyyən məsafədə düzülmüş daşların – addamacların üstünə qoya-qoya o taya keçirdik.

Quşlar ağaclara dırmanmış tənəklərin üstündəki üzümlərə dadanmışdılar. Babamın düzəltdiyi sapandla bu taydan o taya daş vızıldatmaq ən sevimli məşğələlərimdən biri idi. Mən bununla faydalı iş görür, quşları hürküdür, üzümləri qoruyurdum. Ancaq quşlar da əl çəkən deyildilər. Pırıldaşıb uçan kimi yenidən geri qayıdırdılar. Yetişmiş üzümlər maqnit kimi onları özünə çəkirdi.

Musiqiyə böyük həvəsim var idi. Patefona maraqla qulaq asırdım. Arabir dayımın öyrətdiyi kimi darağın üstünə kağız qoyub dodaqlarıma yaxınlaşdırar, eşitdiyim nəğmələri, rəqsləri yamsılayardım. Bəzən də vedrəni qucağıma alar, nağara əvəzinə onun arxasını çör-çöplə döyəcləyərdim. Bu, evdəkilərin çox xoşuna gələrdi.

Bir gün babam mənə dedi ki, sənə nağara düzəldəcəyəm. O, aşılanmış keçi dərisini suya salıb islağa qoydu. Başqa bir dəridən köşə çəkdi. Dedi ki, əriştə kimi kəsdiyim bu ensiz dəridən – köşədən ip yerinə istifadə edəcək.

Babam aramla işləyir, elə bil ki, heç tələsmirdi. Əlindəki iynəni, bizi yerə qoyan kimi onları götürür, kişini tələsdirirdim. Tez-tez uşaq marağı ilə soruşurdum:

– Əmi, bu toyu – nağaranı kimə düzəldirsən?

Babam işindən ayrılmadan sakitcə deyirdi:

– Sənə, əlbəttə, sənə.

Onun cavablarından xüsusi ləzzət aldığım üçün sualı tez-tez təkrarlayar, mənə sərf eləyən cavablar alıb fərəhlənərdim. Lakin bir dəfə qulaqlarıma inanmadım. "Əmi, bu toyu kimə düzəldirsən?" – deyə soruşanda o mənim yox, atamgilin yanında qalan kiçik qardaşımın adını çəkdi:

– Razimə düzəldirəm.

İçimdə bir fırtına baş qaldırdı. Əlimdəki bizi hirslə kişinin gözünə sarı uzatdım. Babam gözünü tutub qışqırdı:

– Vay dədə, gözüm çıxdı!

Onun səs-küyünü eşidən nənəm, dayım çöldən evə qaçdılar. Kişi gözünü açdı. Xoşbəxtlikdən biz onun gözünə yox, göz qapağının küncünə batmışdı.

Mən nəfəsimi içimə çəkmişdim. Babam birdən hirslə nağaranı yerə çırpıb qışqırdı:

– Lap Razimə düzəldirəm, Razimə, Razimə…

Məsələdən xəbərdar olan dayım gülməkdən özünü saxlaya bilmirdi. Mən isə ağlamaq istəyirdim.

Aradan bir az keçdi. Babamın hirsi soyudu. O, yarımçıq qalmış işini tamamladı. Nağara hazır idi. Elə qəşəng çıxmışdı ki, baxanda ağlım başımdan çıxırdı. Ancaq mən onu istəməyə qorxurdum. Elə bilirdim ki, babam nağaranı qətiyyən mənə verməyəcək. Həsrətlə durub nağaraya baxırdım.

Babam onu sobanın yanına qoymuşdu ki, qurusun, dərisi tarıma çəkilsin. Ancaq dəqiqələr keçdikcə dəri ilə birlikdə elə bil mənim ürəyim də tarıma çəkilmişdi.

Dayım mənə göz elədi:

– Götür çal, nəyi gözləyirsən?

Ancaq qorxudan yerimdən tərpənə bilmirdim.

Babam gözaltı mənə baxıb gülümsündü. Bu məni bir az ürəkləndirdi. Deməli, onun hirsi soyumuşdu. Ancaq yenə nağaranı götürməyə cəsarət etmədim.

Nənəm də işə qarışdı:

–Yaxşı, get götür çal görək bu nağaranın səsi necə çıxır?

Babam ciddiləşdi:

– Nağaranın səsi Razim gələndə çıxacaq…

Əlim yerdən-göydən üzüldü. Gözlərim doldu. Bunu görən babam yumşaldı:

– Yaxşı, get götür, ancaq bir də elə qələt eləmə…

Mən sevinə-sevinə nağaranı götürdüm. Dayım darağın üstünə kağız parçası qoyub bir hava çaldı. Mən də onun ahənginə uyğun şəkildə nağaranı döyəcləməyə başladım. Babam da gülümsünürdü. Elə bil onun gözünün ağrısı yad-dan çıxmışdı.

Bir azdan mənim nağaramın səsi bütün kəndi başına götürmüşdü…

**1990**

## QƏDİR GECƏSİ

İlin axır çərşənbəsinə cəmi-cümlətanı on gün qalırdı. Sinfimizin uşaqları tənəffüsdə çox qayğılı görünürdülər. Elə bil oynamaq, hay haray salmaq heç kəsin yadına düşmürdü. Hamı Əzizzadə Arifin sözünə diqqətlə qulaq asırdı:

– Uşaqlar, gəlin bu il qədir saxlayaq.

Sadəlövh uşaqlardan biri soruşdu:

– Qədir neyləyib ki? Onu tutub saxlasaq, evdə ata-anası narahat olmaz?

Uşaqlar gülüşdülər. Arif izah etməyə başladı ki, hər ilin axır çərşənbəsində qədir gecəsi olur. Həmin gecəni yatmayıb səhərəcən oyaq qalmaq müqəddəs bir iş sayılır.

Kimsə dilləndi:

– Heç bütün gecəni oyaq qalmaq olar?

– Olar, olar…

– Eh, həmin gecə heç adamın boş vaxtı olur ki, yuxusu da gəlsin? Qodu gəzdirmək, çalıb oynamaq, nağıl danışmaq, bulaq başına getmək…

Arif daha sonra əlavə etdi:

– Hələ bayram keçirməyə razı olmaqla iş bitmir. Gərək əvvəlcə valideynlərimizdən icazə alaq. Sonra boş bir ev tapaq. Hərəmiz evdən bir stəkan düyü, bir az yağ gətirək…

– Düyü, yağ nəyə lazımdır ki?

– Bəs gecə nə yeyəcəyik? Gərək bayram plovunu da özümüz bişirək.

– Baho, bu lap çətin iş oldu ki? Bizdən plov bişirən olar?

Arif gülə-gülə əlavə etdi:

– Siz düyünü, yağı gətirin, plov bişirmək mənim boynuma.

– Ən çətin məsələlərdən biri də ev tapmaqdır.

Mən dedim:

– Ev də mənim boynuma.

– Ay-hay, boş evi haradan tapacaqsan? Bir də ki, sizin evdə müəllimlərimizdən ikisi yaşayır. Orada şənlənə bilmərik. Bizə elə ev lazımdır ki, bir az sərbəst olaq, çalıb-oynayaq, istədiyimizi eləyək…

Kimsə dilləndi:

– Tapdım, tapdım. Adilin qardaşı şəhərdə yaşayır. Burada özünə yay evi tikdirib. Otaq bom-boşdur. Razı olsalar, onlar üçün də pis olmaz. Evin içində peç yandırarıq, divarları quruyar. Bir də ki, içində yaşanılmamış evdə ilk dəfə bayram şənliyi keçirməyin özü də savabdır. Bu, hər ev yiyəsinə nəsib olmur.

– Ay, hay. Mülayim xala adama ev açarı verər?

– Verər, verər, niyə vermir ki?

Qərara aldıq ki, dərsdən sonra Mülayim xalagilə gedək. Elə də etdik. Arvad bizi çox yaxşı qarşıladı. Ancaq məsələdən xəbərdar olanda bir az duruxdu:

– Balalarım, hələ o evdə heç kim yaşamayıb. İçinin toz-torpağı da hələ təmizlənməyib.

– Heç narahat olmayın, toz-torpağı təmizləmək bizim boynumuza.

– Yox e, a bala, məsələ onda deyil. Adam gərək tikdiyi evdə birinci özü qalsın.

– Bunun üçün də narahat olmağa dəyməz. Evdə ya Akif dayının özü qaldı, ya da qardaşı. Özü də yaşanmamış evdə ilk dəfə bayram gecəsi keçirməyin özü də savabdır.

Söz Mülayim xalanın ağlına batdı. Ondan birtəhər razılıq aldıq. Açarı alıb evin içini təmizlədik. Su səpib torpaq döşəməni süpürdük.

Ramiz evlərindən peç gətirdi. Tüstü soran boru da tapdıq. Peçi qurduq. Hərəmiz evdən bir qucaq doğranmış odun da gətirdik.

İşlər hələ ki, yaxşı gedirdi. Bircə valideynlərimizdən icazə almaq məsələsi qalırdı. Düzü, qorxurdum ki, mənə

icazə verməyələr. Ancaq nədənsə razı oldular. Heç bir etiraz əlaməti hiss eləmədim.

Dərslər hələ davam edirdi. Ancaq fikrimiz yatmayacağımız bayram gecəsinin yanında idi. Dərsdə də bir-birimizlə göz-qaşla danışırdıq. Tənəffüslərdə, dərsdən sonra sözümüz-söhbətimiz ancaq bu haqda idi.

Qodular üçün qoyun dərisindən papaq da düzəltmişdik. Eyvazda nağara var idi Ancaq çalmağa başqa musiqi alətimiz yox idi. Lakin heç narahat deyildik. Darağın üstünə nazik kağız qoyub, istədiyimiz havanı çala bilirdik. Özü də daraqdan balaban səsinə oxşar qəribə bir səs çıxırdı.

Mənim üçün ən çətin məsələlərdən birisi "tapança" məsələsi idi. Uşaqlardan çoxunun belə "tapançası" var idi. Əslində tapança düzəltmək problem deyildi. Əsas məsələ maşın şininin, daha doğrusu, kamerin üstündə hava doldurmaq üçün qoyulmuş dəmirdən birini tapmaq idi. Nə qədər axtarırdımsa, ondan birini tapa bilmirdim ki, bilmirdim. Öz-özümə düşündüm: "Tapançasız qodu gəzdirməyin axı nə ləzzəti?"

Evimizdə atamın maşın üçün aldığı iki kamer var idi. Ancaq nə olsun, onu çıxartmaqmı olardı?

Aradan bir neçə gün keçdi. Mən çox bikef idim. Fikrim kamerlərin yanında qalmışdı. Nəhayət, bir gün şeytan məni yoldan çıxardı. Kameri kəsib, mənə lazım olan dəmiri çıxartdım. Onu döyüb, gözəl bir tapança düzəltdim. Mismarı həmin dəmirin içindəki boşluğa salıb əydim. Hazırladığım rezinin bir ucunu mismarın başına, o biri ucunu "tapança"nın arxa tərəfinə keçirdim. Hər şey hazır idi. Hələ istifadə eləməmiş onu dostlarıma göstərdim. Kim isə soruşdu:

– İnam, tapançanın içinə qurğuşun əridib tökmüsən?

– Yox.

– Onda yaxşı atılmayacaq. Bircə damcı qurğuşun töksən, lap əla olar. Çünki qurğuşun deşiyi hamar tutur. Çox kükürd itkisinə yol verilmir.

Nəhayət, silahımın içinə bir damcı qurğuşun da əridib tökdüm. Hə, indi tapançam hazır idi. İndi onu sınaqdan çıxarmağın vaxtı gəlib çatmışdı. İki kibrit dənəsinin kükürdünü lüləyə doldurdum. Mismarı taxıb, bir qədər fırlatdım. Sonra rezini saldım. Mismarı çəkib, ucunu lülənin bir küncünə söykədim. İndi bircə "çaxmağı" – rezini sıxmaq lazım idi. Rezini çəkən kimi mismar lülənin içinə girdi və partlayış oldu. Sevincim yerə-göyə sığmırdı.

Çərşənbə axşamı şənlik keçirəcəyimiz evin qarşısına toplandıq. Mərasimimiz həyətdə tonqal qalayıb üstündən tullanmaqla başlandı. Biz növbə ilə tonqalın üstündən tullanıb deyirdik:

– Ağırlığım, uğurluğum, köhnə ilin üstünə.

İçəridə sobanı qalamışdıq. Divar boyu kötüklər qoyub, üstünə taxta düzmüşdük. Evdən gətirdiyimiz palazları qatlayıb taxtanın üstünə uzatmış, özümüzə oturmaq üçün rahat yer düzəltmişdik. Peçi nəzərə almasaq, orta bomboş idi.

Hamı oynayıb gülürdü. Təkcə Arifin başı qarışıq idi. O, aşı dəmə vururdu. Bir xeyli keçəndən sonra aşpazımız bizə dedi:

– Uşaqlar, yeyəndən sonra qodu gəzdirək, yoxsa qodu gəzdirəndən sonra yeyək?

Hərə bir söz dedi:

– Əvvəlcə qodu gəzdirək.

– Yeyək, sonra gedək…

Səs çoxluğu ilə birinci təklif keçdi. Həsənlə Adil qodu olmağa razılıq verdilər. Qoduların sir-sifətini elə günə salmışdıq ki, heç doğma ata-anaları da onları tanıya bilməzdilər.

Çala-çala, oxuya-oxuya kəndin qaranlıq küçələrinə çıxdıq. İtlər hürüşməyə başladı, biz isə tapançalarımızdan atəş açmağa. Bir vurhavur qopdu ki, gəl görəsən.

Gecə tapança atmağın ayrı ləzzəti varmış. Atəş səsiylə birlikdə balaca lülələrdən qığılcımlar sıçrayırdı. İtlər bunu görəndə vahiməyə düşür, biz isə sevinirdik. Onu deyim ki, bayram gecəsi heç kəs tutağan itləri zəncirdən açmırdı. Çünki adamlar bilirdilər ki, əziz gündə qapılarına qonaqlar gələcəklər. O biri itləri isə heç it də saymırdıq. Bir dəfə ayağımızı yerə döyən, atəş açan kimi zingildəyə-zingildəyə qaçıb özlərini künc-bucağa soxurdular.

Biz hay-harayla evlərə girirdik. Adamların üzündə xoş bir təbəssüm oynayırdı. Biz çalırdıq, qodular isə meymunluq edir, ev sahiblərini güldürürdülər. Onların çiynindəki yekə, boş torbalar getdikcə şişirdi.

Torbada nə desən tapmaq olardı: qoz, fındıq, püstə, badam, iydə, şəkərbura, paxlava, bəzəkli yumurtalar…

Biz qapı-qapı gəzir, torbalar isə dolurdu. Hansı evə gedirdiksə, aş üstünə çıxırdıq. Biz öz gedişimizlə ev sahiblərinə sevinc aparır, onları şənləndirirdik. Qodular isə oyunbazlıq edir, həm bizi, həm də ev sahiblərini güldürürdülər.

Ən məzəli hadisə Həsəngilin öz evlərində oldu. İçəri girəndə gördük ki, bizim qodularımızdan birinin – Həsənin anası aşı təzəcə çəkib ortaya qoyub. Aşın altına qoyulmuş toyuq da hələ parçalanmamışdı. Boşqabların birində süfrəyə qoyulmuşdu.

Qodular oynadılar, oynadılar, birdən onlardan hansısa əl atıb toyuğu götürdü və yel kimi qapıdan çıxdı. Ev sahibləri çaşıb qaldılar, biz isə gülməkdən ölürdük.

Əlacı kəsilən Mehriban xala gülə-gülə qışqırdı:

– Aparın yeyin, halal xoşunuz olsun.

Evə girəndə burnumuza yanıq iyi dəydi. Sən demə peçin üstündə qoyub getdiyimiz aş qazanının dibi yanıbmış.

Amma belə xırda şeylər bizim bayram ovqatımıza qətiyyən təsir etmədi.

Həsən toyuğu çıxarıb aş qazanının üstünə qoydu və gülə-gülə dedi:

– Bayram aşımızın altına toyuq qoymağı unutmuşduq, bu da toyuq.

Qazanın dibini yanmış görən uşaqlardan kimsə Həsənə zarafat etdi:

– İndi yəqin Mehriban xala da belə yanır e…

Hamımız gülüşdük. Yerə palaz sərib, üstünə süfrə açdıq. Dibi yanmış plovu elə iştahla yedik ki, gəl görəsən.

Yeməyi yeyib, süfrəni yığışdırdıq. Uşaqlardan kimsə dedi ki, qızlar da bayram şənliyi keçirirlər. Özü də Nabat xalagilin evində.

Biz dəstə ilə qızlara qonaq getməyə hazırlaqşdıq. Yığdığımız bayram sovqatını da özümüzlə götürdük.

Qızlar içəridə çalıb-oynayırdılar. Əvvəlcə nə qədər elədiksə, onlar qapını açmadılar. Arif dedi:

– Yaxşı, indi sizə göstərərəm. Özünüz oynaya-oynaya həyətə çıxarsınız. O, bunu deyib, evin arxasına keçdi. Biz isə qızların qapısında çalıb-oynayır, onların səsini batırmağa çalışırdıq.

Aradan nə qədər keçdi, deyə bilmərəm. Ancaq bir də gördük ki, içəridən mahnı, haxışta, şən qəhqəhələr əvəzinə öskürək səsi eşidilir.

İçəri boylandıq. Tüstüdən göz-gözü görmürdü. Sən demə Arif əski ilə borunun ağzını tutduğundan, tüstü qayıdıb içəri dolurmuş.

Qızlar qapını açıb həyətə çıxdılar. Onlar qəzəblə, nifrətlə bizim üstümüzə qışqırdılar:

– Ay avaralar, bu əziz gündə belə iş tutarlar?

Arif gülə-gülə cavab verdi:

– Bəs belə əziz gündə qapıya gələn qonağı geri qaytararlar?

Biz Arifi məzəmmət etdik. Əskini borudan çıxarıb atdıq. Bir azdan tüstü çəkildi. Qızlar bu dəfə bizi də içəri dəvət etdilər. Apardığımız bayram sovqatlarını onlara payladıq.

Ancaq qızlar oğlanlardan, oğlanlar isə qızlardan utanırdılar. Ona görə də heç kəs nə çalır, nə oxuyur, nə də oynayırdı. Çıxıb getməkdən başqa çarəmiz qalmadı. Öz evimizə qayıtdıq. Bir az çalıb oynadıq. Ancaq yorulduq. Axı nə qədər çalıb oynamaq olar?

Birdən mənim ağlıma qəribə bir fikir gəldi. Uşaqlara dedim:

– Nənəm deyir ki, qədir gecəsi bulaq başına getmək adamın ürəyinə təmizlik, paklıq gətirər. Həmin gecə su bir anlığa kəsilir. Ancaq bu hamının yox, təkcə əməli-saleh, yəni təmiz, pak adamların gözünə görünür. Uşaqlar, bəlkə bulaq başına gedək?

Hamı getmək istəməsə də, özümə tərəfdarlar tapdım. Altı nəfər bulaq başına yollandıq. Hamımızı qaranlığın vahiməsi basmışdı. Ancaq heç kəs bunu hiss etdirmək istəmirdi. Yavaş-yavaş dərəyə – Qısraq bulağının yanına sarı enməyə başladıq. Hər tərəfdə sakitlik olduğundan, bulağın şırıltısı lap uzaqdan da aydınca eşidilirdi.

Biz bulağın yanına gəldik. Əl-üzümüzü yuduq ki, yuxumuz qaçsın. Həm də bahar suları ilə yuyunmaq özü də bir xoşbəxtlikdir.

Sonra kənara durub gözümüzü axan, nəğmə oxuyan sulara dikdik. Heç birimiz danışmırdıq. Bulaq isə dünyanın ən gözəl nəğməsini oxuyurdu…

Suya nə qədər baxdıqsa, onun dayandığını görə bilmədik ki, bilmədik. Uşaqlar mənə dedilər ki, yəqin nənən səni aldadıb. Onlar məni lağa qoydular.

Geri qayıtdıq. Mən öz-özümə düşündüm: “Günah bulaqda deyil, bizdədir.” Uşaqların nə günahı olduğunu deyə bilməzdim. Öz günahımı isə unuda bilmirdim. Atamın

aldığı təptəzə kameri ondan icazəsiz kəsmiş, üstündəki dəmiri götürmüşdüm. Özüm-özümü danlayırdım. Tutduğum əməldən peşiman olmuşdum. Öz-özümə deyirdim ki, əlbəttə, bulaq suyunun dayanması mənim kimi adamın gözünə görünməz…

Özümə möhkəm-möhkəm söz verdim ki, gələn qədir gecəsi mütləq, mütləq suyun ani kəsilməsini öz gözlərimlə görə biləcəyəm. Bəs necə, hər şey insanın öz əlində deyilmi?

**1989**

## KARTOF DƏRSİ

Məktəb kəndimizdən iki kilometr aralı idi. Yağışlı havalarda işimiz xeyli çətinləşirdi. Qar yağanda isə elə bilirdik ki, toy-bayramdı. Yol gedə-gedə sürüşür, qartopu oynayırdıq.

Üçüncü sinifdə oxuyurduq. Sinfimizdə cəmi-cümlətanı üççə nəfər oxuyurdu. Bəli, bəli, üççə nəfər. Müəllim hər gün hərəmizdən bir neçə dəfə dərs soruşurdu. Ona görə də müntəzəm surətdə dərsə hazırlaşmaqdan başqa çarəmiz yox idi.

Bir dəfə əmək dərsi idi. Hərəmiz bir bel götürüb, məktəbyanı sahəni belləyirdik. Yeri qazdıqca adda-budda kartof çıxırdı. Azad müəllimin göstərişi ilə kartofları bir yerə yığdıq. İki-üç kilo olardı.

Müəllim nə haqdasa fikirləşdi və bizə dedi ki, kartofları yuyub, sinfə aparaq. Elə də etdik. Sonra onun göstərişi ilə odun peçini qaladıq. Köz düşəndən sonra kartofları peçə doldurduq. Xoş bir ətir sinfi bürüdü. Ancaq biz nəfsimizi boğur, müəllimin gəlməsini gözləyirdik.

Nəhayət, o gəldi. Dəhlizdəki uşaqlar eşitsin, şübhələnməsin deyə bərkdən dedi:

– Baho, hələ mənim bir dərsim də var e!

Biz tez içəri girdik. Müəllim gülə-gülə dedi:

– Hə, qoçaqlar, yaxın gəlin görüm. Kartof bişirmək özü də elə bir dərsdi.

Sonra o, peçin qapağını açdı. Kartofları bir-bir maşa ilə çıxarmağa başladı. Bəh-bəh eləyə-eləyə stolun üstünə düzdü və dedi:

– Hə, yeyin, qoçaqlarım!

Biz isə müəllimin yanında kartof yeməyə utanırdıq. Ancaq iştah bizə güc gəldi. Ləzzətlə kartof yeməyə başladıq. Sonra şad-xürrəm evə yollandıq. Tox olduğumuzdan evdə heç nə yeyə bilmədik.

Aradan xeyli keçdi. Dərslər qurtardı. Azad müəllim bizi dördüncüyə keçməyimiz münasibətilə təbrik etdi. Sonra o, gülümsəyərək soruşdu:

– Kim deyər, üçüncü sinifdə ən çox yadda qalan dərsimiz hansıdır?

Necə oldusa, özümdən asılı olmayaraq dedim:

– Kartof dərsi.

Uşaqlar güldülər. Müəllim də onlara qoşuldu…

**1990**

## SEHRLİ DƏRMAN

Bir dəfə atam rayon mərkəzinə gedirdi. Qonşuda yaşayan Həvəsə qarı əlində bir şüşə – butulka ona sarı gəldi.

Atam soruşdu:

– Bu nədi belə, ay arvad?

– Qadan alım, ayaqlarım bərk ağrıyır. Mənə bu şüşəylə bir ayaq ağrısı dərmanı alıb gətirərsən.

Atam çar-naçar şüşəni alıb xurcuna qoydu və dedi:

– Arxayın ol, Həvəsə arvad, mütləq alaram.

Axşam üstü atam kəndə qayıdırmış. Yolun yarısında yadına düşür ki, Həvəsə xalaya dərman almağı unudub. Geri qayıtmağın da mənası yox imiş. Aptek çoxdan bağlanıbmış.

Atam bir xeyli fikirləşir. Birdən ağlına nə gəlirsə, atı dərəyə sürür. Dərədən axan su elə şor imiş ki, heç heyvanlar da onun suyundan içmirmiş.

Atam atdan düşür, şüşəni həmin su ilə doldurub, ağzını qəzet parçası ilə bağlayır. Sonra onu xurcuna qoyub kəndə yollanır.

Həyətə çatan kimi Həvəsə qarı soruşur:

– Qadan-balan mənə gəlsin, dərman aldınmı?

– Hə, aldım, Həvəsə xala, aldım.

Həvəsə qarı hər gün atamın gətirdiyi “sehrli dərman”la ayaqlarını ovuşdurur, “oxxay!” – deyə ləzzət alırdı.

Bir həftəyə onun ağrıları tamam kəsildi. Sevincək olmuş qarı kənddə kimi görürdüsə deyirdi:

– Əli köməyi olsun Yusif müəllimin, aldığı dərman ayaqlarımı əməlli-başlı sağaltdı…

**1984**

## QORXU

Bir dəfə gizlənpaç oynayanda qardaşımı qorxutmaq istədim. Babam üstümə acıqlandı. Dedi ki, adam qorxutmaq heç yaxşı xasiyyət deyil. Babamın sir-sifəti dəyişdi. Gözləri alacalandı. Ötən günlər kino lenti kimi onun xəyalında canlandı. Bir xeyli düşünəndən sonra bizə dedi:

– Balalarım, yaxına gəlin. Sizə qəmli, lakin ibrətamiz bir hekayət danışacağam. Sonra o, köks ötürüb danışmağa başladı:

– Uzaq-uzaq illərin arxasında mən də sizin boyda bir uşaq idim.

Qardaşım güldü:

– Uy can, baba da uşaq olub.

Mən qardaşımın üstünə acıqlandım:

– Adam böyüyün sözünü kəsməz. Qoy baba qurtarsın, sonra sən danışarsan.

Babam gülümsündü. Ancaq elə bil bu gün onun təbəssümü kədərlə yoğrulmuşdu. O, handan-hana söhbətinə davam etdi:

– Hə, sizin kimi uşaq idim. Çox ağıllı, dilli-dilavər bir bacım var idi. Həmişə birlikdə oynayardıq. Bir dəfə evin içində olanda gördüm ki, çöldən bacımın səsi gəlir. Tez yerə sərilmiş qoyun dərisini götürüb ona büründüm. Qapının dalında gizləndim. Bacım içəri girəndə quzu kimi mələyə-mələyə onun üstünə atıldım. Yazıq qız bərk qorxdu. Rəngi ağappaq ağardı. Tir-tir titrədi.

Mən dərini bir kənara atıb güldüm. Bacım isə elə hey uçunurdu. Yazıq qız bərk xəstələndi. Xəzan vurmuş çiçək kimi solmağa başladı. Dava-dərman da ona kömək eləmədi.

Bir gün bacım bizimlə əbədi olaraq vidalaşdı. Ağlamaqdan gözlərim qıpqırmızı olmuşdu. Ancaq nə fayda? Dünyadan köçəni geri qaytarmaq olmaz.

O vaxtdan nə az, nə azacıq, düz 60 il keçib. Ancaq yenə də dünyadan vaxtsız köçən bacımı unuda bilmirəm. Onun saralıb solmasının başlıca səbəbi mənim düşüncəsiz hərəkətim idi.

Babam susdu. Biz də danışmağa cəsarət etmirdik. Nəhayət, o özü sükutu pozdu:

– Mənim ağıllı nəvələrim. Bir-birinizi qorxutmağa çalışmayın. Qorxu çox pis şeydir. Əgər o, ürəkdə yuva saldısa, yaşamağın özü də cəhənnəm əzabına dönəcək.

Biz babama söz verdik ki, bir daha bir-birimizi qorxutmayacağıq.

**1990**

## GÜLÜŞ QONAQLIĞI

Nənəm çox təmizkar bir arvad idi. Bir dəfə o, bizi qonşu kəndə göndərdi ki, gedib əməli-saleh adamların birindən yağ alıb gətirək.

Üç qardaş yağ qabını götürüb, payi-piyada yola düşdük. Yol boyu zarafatlaşır, gülüşürdük. Balaca qardaşımız lap itoynadan idi. Gülməli iş elə bil qəsdən gəlib onun rastına çıxırdı.

Getdik, getdik, axır ki, gəlib nənəmin xalasıgilin kəndinə çıxdıq. Bizi xoş-beşlə qarşıladılar, evdəkilərin halını xəbər aldılar.

Günorta yeməyinin vaxtı idi. Duru xörək bişirmişdilər. Üçümüzə bir qabda şorba çəkib ortaya qoydular. Nənəmin xalası dedi:

– Yeyin, başınıza dönüm!

Üçümüz də bir-birimizin üzünə baxdıq. Hələ eyni qabdan, özü də qaşıqsız xörək yediyimiz yadımıza gəlmirdi. Ona görə çaşıb qalmışdıq. Elə təzəcə yuxanı kürməkləyib yemək istəyirdik ki, balaca qardaşımız əlini qaba uzatdı. Guya yeməyi bölürmüş kimi barmağıyla onu üç hissəyə ayırdı. Gülməkdən özümüzü saxlaya bilmədik. O qədər güldük, güldük ki, gözlərimizdən yaş gəldi.

Ev sahibi pərt oldu:

– Nəyə gülürsünüz, ay saqqalı ağarmışlar?

Qəribə bir vəziyyət idi. Gülməkdən dilimiz söz də tutmurdu ki, arvada cavab verək…

Nəhayət, yağı gətirdilər. Elə bil üstümüzdən dağ götürüldü. Yağ qabını götürüb, qalxdıq. Nə qədər elədilərsə xörək yemədik. Birtəhər özümüzü toplayıb, "toxuq", – dedik. Sonra gülə-gülə öz kəndimizə qayıtdıq.

Nənəm yağı görüb sevindi. Sonra soruşdu:

– A bala, xalam sizə nə qonaqlığı verdi?

Üçümüz də birdən güldük. Balaca qardaşım dedi:

– Nənə, hələ belə qonaqlıq görməmişdik. Xalan bizə gülüş qonaqlığı verdi. Özü də lap əlasından.

Nənəm təəccübləndi. Biz məsələnin nə yerdə olduğunu açıb ona danışdıq. Xalasının qonaqlığından gətirdiyimiz gülüş payını nənəmə verdik. O da bizə qoşulub gülməyə başladı.

**1990**

## OV HƏRİSİ

Evimizdə təklülə tüfəng var idi. Bütün oğlan uşaqları kimi mənim də fikrim-zikrim bu silahın yanında idi.. Hərdənbir atamın icazəsi ilə güllə atırdım. İçinə qırma əvəzinə arpa doldurulmuş patronlarla. Ancaq bu cür patronlarla nə atam bir şey vura bilirdi, nə də mən.

Altıncı sinifdə oxuyurdum. Qoyun nobatımız idi. Atam məni həvəsləndirmək məqsədilə tüfəngi götürməyə icazə verdi. Həvəslə qoyun otarmağa razılıq verdim. Tüfəngi çiynimə aşırıb, kəndin qoyun-keçisini qabağıma qatdım.

Elə istəyirdim ki, dost-tanışdan, kənd uşaqlarından kimsə qarşıma çıxa, çiynimdəki doğruçu tüfəngi görə. Ancaq kövşəndə uşaq nə gəzirdi?! Qoyun-keçi də öz hayında idi.

Qarşıma çoxlu qaratoyuq, cığcığ çıxsa da, onları vura bilmirdim. Tüfəngi qaldıran kimi uçub gedirdilər.

Sürü söyüdlərin dibindən çıxan şor bulağın üstündəki talada otlayırdı. Axşam yaxınlaşırdı. Ancaq mən sürünü kəndə qaytarmağa heç də tələsmirdim. Əliboş, ovsuz qayıtmağa da üzüm gəlmirdi.

Bir qaratoyuğu izləməyə başladım. Qaratoyuq çox bic quşdu. Qırt-qırt eləyə-eləyə o koldan bu kola uçur, gizlənir. Ancaq bir xasiyyəti var: girdiyi yerdə çox qalmağa hövsələsi

çatmır. Əgər səbrin olsa, bir də görəcəksən ki, yenidən qırtıldaya-qırtıldaya açıqlığa çıxdı.

Bir xeyli gözlədim. Qaratoyuq kolun dibindən çıxıb budağa qondu. Deyəsən o məni görmürdü. Fürsəti əldən vermədim. Çaxmağı çəkib, onu nişan aldım. Tətiyə barmağımı basan kimi qulağım uğuldadı, tüfəng məni geri itələdi. Bir müddət özümə gələ bilmədim. Sonra cəld kolun yanına qaçdım. Gülləm qaratoyuğa dəymişdi…

Sürünü haylayıb kəndə qayıtdım. Sevincimin həddi-hüdudu yox idi. Sonralar çoxlu qaratoyuq, cığcığ vurmuşdum, ancaq ən çox yadımda qalan ilk ovum idi…

Sevindirici cəhətlərdən biri isə atamın mənə tüfəng etibar etməsi idi.

Qış tətili təzəcə başlamışdı. Atamla anam Bakıya getməli idilər. Atamın xalası oğlu Ədil dayı onları qatar ayağına aparmağa gəlmişdi. Yemək yeyirdik. Birdən necə oldusa Ədil dayı dedi ki, Sizin tüfəng xarab olub, gərək aparıb onu düzəltdirəm.

O saat başa düşdüm ki, arxayın getsinlər deyə atam məni tüfəngdən ayırmaq istəyir.

Söhbət dəyişdi. Sakitcə, hiss etdirmədən onların yanından durdum. Asılqandan tüfəngi götürüb o biri otağa keçdim. Onu yorğan-döşək yükünün altında gizlətdim. Ancaq ürəyim yenə də sakit olmadı. Yaxşı bilirdim ki, atam bir dəfə gözünü ağartsa, dinməz-söyləməz tüfəngin yerini deyəcəyəm. Bu isə qış tətilində ov ləzzətindən məhrum olmaq demək idi.

Qaçıb gizlənməkdən başqa çarə qalmırdı. Hər yan qar idi. Axşamtərəfi şaxta şiddətlənirdi. Qonşulara da etibar etmək olmazdı. Məni ələ verə bilərdilər. Bəs hara getməli?

Birdən ağlıma gəldi ki, evimizin damına çıxım, şiferlərin altında gizlənim. Çardaq ağzına kimi otla dolu idi. Otların arası ilə sürünə-sürünə lap ortaya getdim. Yerimi rahatlayıb uzandım.

Bir də gördüm ki, məni çağırırlar. Səsimi içimə saldım. Atam bərk hirslənmişdi. Tüfəng də, mən də yoxa çıxmışdıq. Məni nə qədər axtardılarsa da, qonşulardan soruşdularsa da, gördüm deyən olmadı. Qatarın getmək vaxtına isə az qalırdı. Nəhayət, onlar çarəsiz qalıb yola düşdülər.

Aradan bir-iki saat keçəndən sonra yerə düşüb evə getdim. Soyuqdan tir-tir əsirdim. Afərim nənəm məni xeyli danladı. Ancaq nə faydası, artıq iş işdən keçmişdi.

İki gün qəşəng qar yağdı. Dağlar, düzlər ağ libasa bürünmüşdü. Kəndin heyvanları da naxıra getmirdi. Bircə günortaüstü onları aparıb qısraq bulağında suvarırdıq.

Gecə göyə baxırdım. Ayaz idi. Göydə ulduzlar sayrışırdı. Ürəyim sevincdən atlanırdı. Sabah əntiqə ov havası olacaqdı. Neçə gün yuvasında ac qalan dovşanlar gecə səyahətinə çıxacaq, səhər isə yuvalarına dönəcəkdilər. Onların izi ilə gedib ov tapmaq o qədər də çətin deyildi. Ancaq nənəm çətin ki, mənə tüfəng verəydi.

Yuxudan lap erkən oyanmağa adət etmişdim. Heyvanlara səhər yemi verəndən sonra peyinliyin başına çıxıb həsrətlə məndən aşağıdakı dağlara, dərələrə tamaşa edirdim. Ürəyim atlanırdı. Ah, kaş nənəmin könlündə insaf olaydı. Belə havada evdə oturmaq, ova getməmək günah idi.

Bir də gördüm ki, Bəndalı dayı əlində tüfəng evlərindən aşağı enir. O, deyəsən dovşan ləpirinə düşmüşdü. Bir xeyli getdi. Birdən qarşıdakı koldan dovşan çıxıb qaçdı. Bəndalı dayı nişan alıb atəş açdı. Ancaq güllə hədəfə dəymədi. Dovşan qaça-qaça bizim evin tuşundakı dərəyə enib gözdən itdi.

Bəndalı dayının gözü mənə sataşdı. Qışqırıb dedi ki, evdən bir şiş gətir. Giliz şişib, lülədən çıxmır.

Elə bu sözə bənd idim. Tez evə qaçdım. Nənəmə dedim ki, Bəndalı dayı məni çağırır. Deyir ki, tüfəngi də götürüb tez gəl. Bir dənə də şiş gətir.

Nənəm etiraz etməyə macal tapmamış dörd patron və bir şiş götürdüm. Tüfəngi çiynimə salıb Bəndalı dayının yanına qaçdım. Bəndalı dayı şişlə gilizi lülədən çıxartdı. Elə bu zaman onun bacısı oğlu Balay da gəldi. Bəndalı dayı özü bərədə dayandı. Balaya dovşanın iziylə getməyi, mənə isə hər ehtimala qarşı dərənin sağ tərəfindəki yamacda dayanmağı tapşırdı.

Balay dərəyə endi. Birdən dovşan kolluqdan çıxıb dik yuxarı – Bəndalı dayıya sarı qaçdı. Balay arxadan nişan alıb bir güllə atdı. Ancaq dəymədi. Dovşan dağı aşıb, kəndin o biri üzündəki dərəyə endi.

Nə qədər yalvardımsa, məni özləri ilə aparmadılar. Dedilər ki, uşaqsan, qayıt evə. Özləri isə dovşanın ləpirinə düşüb getdilər.

Kor-peşiman evə qayıdırdım. Evimizin altındakı daş armuduna çatmağa təxminən yüz, yüz əlli metr qalmışdı. Qarın üstündə ləpirlər bir-birinə qarışmışdı. Onların birini tutub gedirdim. Birdən koldan bir dovşan çıxıb qaçdı. Qabağına sal qaya çıxdığından sağa sarı döndü. Mən böyüklərdən eşitmişdim ki, dovşan qaçanda qabaq tərəfini nişan alıb atmaq lazımdır. Elə də etdim. Dovşanın başı nişangahla tuşlaşan kimi çaxmağı çəkdim. Gülləm sərrast idi. Sevindiyimdən atılıb-düşür, qışqırırdım. Qardaşımı çağırdım ki, tez bıçaq gətirsin, murdar olmamış ovun başını kəsək.

Mən dovşan əlimdə yuxarı, o isə bıçaq əlində aşağı yüyürürdü. Armudun dibində bir-birimizə çatdıq. Dovşanın üzünü qibləyə çevirib başını kəsdim.

Sevincimdən yerə-göyə sığmırdım. Hamı mənim ovçuluq məharətimdən danışırdı. Ancaq məni cırnatmaq üçün bəziləri deyirdilər ki, dovşan xəstə imiş. Bəziləri isə insafsızcasına deyirdilər ki, qıçları sınıq imiş. Ancaq maraqlı bu idi ki, məni ova aparmayanların özləri evə həmin gün əliboş dönmüşdülər. Nə isə…

Atamgil Bakıdan gəldilər. Onun hirsi soyumuşdu. Dovşan vurduğumu eşidəndə sevinsə də, o da deyirdi ki, bu bir təsadüfdür. Bu inamsızlıq mənə lap yer eləyirdi. Sübut etmək istəyirdim ki, mən ov etməyi, sərast atəş açmağı bacarıram. Ancaq bunu sübut eləməyə bir fürsət, imkan düşmürdü.

Bir dəfə axşamüstü atam gecə məktəbinə dərs deməyə getmişdi. Mən dostlarımla ova yollandım. Rasim də atasının tüfəngini götürmüşdü. Muxtarın tüfəngi olmadığü üçün o, ova qara itləri ilə çıxmışdı.

Kənddən çıxdıq. Onlar dərənin o tayı ilə üzüaşağı enirdilər, mən isə bu tayı ilə. Elə bir az getmişdim ki, bir dovşan izinə rast gəldim. Qarın üstündə aydınca hiss olunurdu ki, ləpirlər təzədir. Bərk həyəcanlandım. Səsimi içimə salıb izə düşdüm. Ancaq qar ayağımın altında hey xırtıldayırdı. Birdən kolun içində bir qaraltı gözümə dəydi. Diqqətlə baxdım. Dovşan üzü o tərəfə sarı şöngümüşdü. Nişan alıb atəş açdım. Dovşan çapaladı, onu dartıb koldan çıxartdım. Yenə də cibimdə bıçağım yox idi. Dostlarımı hayladım. Onlar o taydan, mən isə bu taydan dərəyə sarı yüyürdük. Muxtardakı bıçağı alıb dovşanın başını kəsdim.

Onlar mənə dedilər ki, ta sən evə qayıt. Mən ovumu götürüb sevinə-sevinə kəndə qayıtdım. Həyətdə dovşanı soyanda atam məktəbdən qayıtdı. Gözlərinə inanmadı. Sonra gülümsünüb dedi:

– Hə, bu başqa məsələ. İndi inandım ki, əsl ovçusan.

Dişimdə şirə qalmışdı. Bir dəfə də qarlı bir gündə bir dovşan izinə düşdüm. İz qarın altındakı deşiyə girmişdi. Lüləni həmin deşiyə uzadıb atəş açdım. Dovşan çıxıb elə qaçdı ki, təəccüb qaldım. Sən demə o, qarın altı ilə “lağım” atıb kənardakı kolun dibinə giribmiş.

İzə düşüb gedir, yorulmaq bilmirdim. Ancaq qarşıma dovşan çıxmırdı ki, çıxmırdı. Birdən önümdən bir tülkü

qaçdı. Çaxmağı çəkmək əvəzinə çaşıb lüləni açan tətiyi çəkdim. Lülə açıldı. Onu bağlayınca tülkü gözdən itdi.

Nə qədər gəzdimsə bir şey vura bilmədim. Kəndə qayıtdım. Kəndin altında qarşıma Cəfər dayıgilin iti çıxdı. Qorxudan geri qayıtdım. Sən demə, elə qismət bunda imiş. Koldan bir dovşan çıxıb qaçdı. Nişan alıb onu vurdum…

Nədənsə o qədər də sevinmədim. Daha dovşan vurmaq mənim üçün adi hal idi. Kənddə hamı mənim yaxşı güllə atmağımı etiraf edirdi. Əsl ov hərisi idim. Ən yaxşı cəhət bu idi ki, ov həvəsiylə kəndin bütün dağlarını, dərələrini, kövşənlərini, meşələrini, pöhrəliklərini qarış-qarış gəzmişdim.

**1989**

## DANANIN ÖLÜMÜ

Ovdan gəlirdim. Bircə dənə cığcığ vura bilmişdim. Evimizin altına çatanda gördüm ki, anam danamızı döyə-döyə kövşənə ötürmək istəyir. Çər dəymişsə evə qayıtmağa can atır. Məlum oldu ki, o, inəyi əmməyə dadanıb. İmkan düşən kimi onu əmir, nə buzova, nə də bizə süd qalmır.

Anam mənə dedi ki, dananı qov aşağı, qoy gedib dərədə otlasın. Dana yuxarı can atır, mən isə onu aşağı qovmağa çalışırdım. Hirsimdən bilmirdim neyləyim. Yerdən daş götürüb ona atırdım ki, geri qayıtsın. Bir dəfə də aşağı əyiləndə əlimə qoz boyda bir daş gəldi. Onu hirslə danaya atdım. Daş sapanddan çıxıbmış kimi vızıltıyla uçdu və düz dananın buynuzlarının arasına dəydi. Dana elə o dəqiqə yerə yıxıldı. Nə qədər elədimsə onu qaldıra bilmədim.

Evə xəbər göndərdim ki, bəs dana yıxılıb, yəqin ki, beli sınıb. Cəlal dayı, Fərman dayı və kəndin başqa kişiləri gəldilər. Ancaq dananın dərdini tapa bilmədilər ki, bilmədilər. Soruşdular ki, bəlkə onu vurmusan?

Hər şeyi boynumdan atdım. Fərman dayı Cəlal dayıya dedi ki, heyvan vuran adam əlinə tüpürsə, mütləq o sağalır.

Üzümü o tərəfə döndərib əlimə tüpürdüm. Sən demə mənim bu hərəkətimə göz qoyurmuşlar. Gülüşdülər. Dana isə sağalmadı. Onu kəsməkdən başqa çarə qalmadı.

Atamın qorxusundan daş atdığımı boynuma almadım. Elə hey deyirdim ki, əgər vurmuşamsa, onun əti niyə qaralmayıb?

Daş dəyən yeri yaxşı bilirdim. Dananın başını soymaq isə yaxşı ki, heç kəsin ağlına gəlmirdi.

Sonralar söz düşəndə atam mənə deyirdi:

– Yaman ağır əlin var…

**1989**

## ALMA OĞRUSU

Xarab olmasın deyə almaları qonaq evimizdəki çarpayıların altına düzürdük. Belədə almalar qışa qala bilirdi. Otağa girəndə adamı alma qoxusu vururdu.

Bir dəfə ürəyim meyvə istədi. Anamadan xahiş elədim ki, icazə ver, gedib alma götürüm. O, əvvəlcə razı olmadı, sonra yumşaldı.

Qapını açıb içəri otağa girmək istəyəndə kimsə "bö!" eləyib üstümə atıldı. Özümü itirdim.

Sən demə məndən kiçik qardaşım hamıdan xəbərsiz otağa girib xəlvətcə alma yeyirmiş. Mən içəri girəndə işin üstü açıldı. Necə deyərlər, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı…

**1989**

## YARIM YÜK ODUN

Beşinci sinifdə oxuyurdum. Atam mənə ovxarlı bir dəhrə aldı. Uzunqulağı minib Aslan bəyin bağının yanındakı meşəyə yollandım. Eşşəyi hörükləyəndən sonra odun yığmağa başladım. Əvvəlcə ağacları kökləyir, yəni dibindən kəsir, sonra qol-budağını arıtlayıb, eyni bərabərdə doğra-

yırdım. Bir də ayıldım ki, gün bathabatdadır. Canıma qorxu düşdü. Meşədən gələn qəribə səslər həyəcanımı daha da artırdı.

Şivərək bir ağacı kəsib ondan taytutan düzəltdim. Atamın öyrətdiyi qaydada eşşəyi yüklədim. Həm tələsdiyimdən, həm də gücüm çatmadığından sicimi lazımi qaydada çəkib yükü bərkidə bilməmişdim.

Uzunqulağı qabağıma qatdım. Özümə toxtaqlıq verə-verə enli cığıra düşdüm. Tez getsin deyə eşşəyi arabir ağacla vururdum. Ancaq səsimi çıxarmağa qorxurdum.

Qoşa cəvizlərin yanından Qarağac bulağına sarı sallananda bir az toxdadım. Ancaq yükü möhkəm sarıya bilmədiyimdən enişdə odun eşşəyin belinə sarı sürüşür, yazıq heyvan yeriyə bilmirdi.

Daşlı dərəyə yaxınlaşanda hava tamam qaraldı. Məni vahimə bürüdü.

Bilmirəm səbəbi nədir, elə ki, hündür yerə, açıqlığa çıxır, adamın qorxusu çəkilib gedir. Dərəyə enəndə isə insanı vahimə bürüyür.

Daşlı dərəyə enəndə yük sol tərəfə əyildi. Soldan qaldırdım, yenə xeyiri olmadı, indi də sağ tərəfə əyildi.

Bir tərəfdən qorxu, vahimə, bir tərəfdən də yükün əyilməsi qanımı lap qaraltmışdı. Gücüm gəldikcə odunun əyilən tərəfini qaldırdım. Elə bu vaxt eşşək yük qarışıq aşıb dərəyə düşdü. Nə edəcəyimi bilmədim. Kəndə sarı götürüldüm. Elə qaçırdım ki… Tər dabanımdan süzülürdü.

Yol boyu atamın danışdığı bir lətifə yadıma düşdü. Bir kişi eyni ilə mənim kimi yüklü öküzü uçurumun qırağından itələyib yola çıxarmaq istəyirmiş. O, aşağıdan güc verdikcə elə hey deyirmiş:

– Ya Həzrət Abbas, kömək elə!

Kişi görəndə ki, öküzü çıxarmaq mümkün deyil, bir az daləngisə özü yükün altında qalacaq. Öküzə dayaq verdiyi çiynini çəkib yana qaçır və qışqırır:

– Ya Həzrət Abbas, qaç, öküz gəldi!

Qapımıza çatanda atam soruşdu:

– Ə, bəs eşşək hanı?

Ağlaya-ağlaya dedim:

– Eşşək uçdu…

– Ə, eşşək quşdu uça?

– Yox e, yolla getdiyi yerdə birdən aşıb dərəyə düşdü. Yəqin yükü ağır imiş…

Canımın qorxusundan yükü qaldıranda eşşəyin dərəyə aşdığını demədim.

Atamla Daşlı dərəyə yollandıq. O, arxada gəlir, mən isə qabaqda qaçırdım. Daha qorxmurdum. Arxada atam, onun səsi var idi.

Dərəyə çatıb eşşəyi tapdım. Yazıq heyvan yükün altında uzanmışdı. Atam uzaqdan qışqırdı:

– A bala, eşşək ölüb?

– Yox, gözləri baxır…

Sonradan uşaqlar "gözləri baxır" deyə məni lağa qoyurdular. Nə isə… Atam da gəlib çıxdı. O, eşşəyin yükünü açdı. Bir dəfə "çu" deyən kimi uzunqulaq ayağa qalxdı. Atam onu təzədən yüklədi. Acıqlı-acıqlı dedi:

– Yaman da çox odun yığmısan.

Doğrudan da, yığdığım odun heç yarım yük də deyildi…

Eşşək rahatca qabağımıza düşdü. Elə sürətlə gedirdi ki, elə bil qəsdən yandıq verir, məni atamın yanında utandırmaq istəyirdi…

**1989**

# QƏHQƏHƏ

## TROLLEYBUSUN KƏNDİRİ

Trolleybus dayandı. Qapılar açıldı. Başında yay şlyapası olan bir kişi sakitcə içəri girdi. Kassaya pul atıb, bilet cırdı. Keçib pəncərənin yanındakı boş yerdə əyləşdi.

Onun geyimi səliqəli idi. Ancaq sir-sifətindən, əllərindəki qabarlardan, götürdüyü sumkadan və hərəkətlərindən o dəqiqə hiss olunurdu ki, kənd adamıdı.

Şlyapalı adam pəncərədən çölə baxır, nə haqdasa düşünürdü. Birdən onun gözləri pəncərədən içəri sallanan kəndirə sataşdı. Fikrindən nə keçdisə qızardı. Dönüb yan-yörəsinə baxdı. Gözləri yenə yanındakı kəndirə zilləndi. Öz-özünə düşündü:

– Necə yaxşı kəndirdi. Əsl dana-buzov hörükləməlidi. Özü də istifadəsiz atılıb qalıb burda.

O, kəndiri çəkib, yavaş-yavaş sumkaya yığmağa başladı. Ancaq nə qədər elədisə, kəndir dartılmadı ki, dartılmadı. Kişi yenə yan-yörəsinə baxdı. Gördü ki, hərənin fikri özünə qarışıb. Heç ona baxan da yoxdu.

Birdən var gücü ilə kəndiri dartdı. Trolleybus dayandı. Sürücü düşdü ki, elektrik ötürücüsünü yerinə salsın. Nə qədər dartdısa, kəndir gəlmədi. O, təəccübləndi. Kəndir tarıma çəkilmişdi.

Sürücü içəri girdi. Təəccübündən gözləri bərəli qaldı. Kəndirin bir tərəfi kişinin əlində bərk-bərk tutduğu sumkanın içində idi.

Sürücü əvvəlcə nə edəcəyini bilmədi. Sonra əlini utana-utana kişinin çiyninə qoyub dedi:

– Əmi, ay əmi!

Kişi heç dönüb baxmadı da.

Oğlan bir də təkrar etdi:

– Əmi, ay əmi!

Kişi ona baxmadan hirsli-hirsli cavab verdi:

– Nə əmi, əmi salmısn? Niyə məni narahat eləyirsən? Bilet deyirsən, almışıq…

– Ay əmi, bilet nədi, trolleybusun kəndiri necə olubsa Sizin sumkanıza girib…

Kişinin əlləri boşaldı. Sürücü kəndiri dartıb çıxardı. Kişi isə öz-özünə deyinirdi:

– A kişi, ölmədik, bu gunu də gördük. Maşını da heyvan kimi kəndirlə hörükləyirmişlər…

Sərnişinlər gülüşdülər. Trolleybus yenidən hərəkətə gəldi. Kişi isə tərs-tərs pəncərədən sallanan kəndirə baxırdı…

**1989**

## ÇƏKMƏ ƏHVALATI

Sinif yoldaşlarımdan birinin çox pis adəti var idi. Dərs vaxtı ayaqları rahat olsun deyə çəkmələrini çıxarar, heç kəsi saya salmazdı. Nə qədər öyüd-nəsihət eləmişdiksə də xeyri olmamışdı. Necə deyərlər, dəyirman bildiyini eləyər, çax-çax başın ağrıdar.

Bir gün tənəffüsə çıxanda sinif yoldaşımıza göz qoyduq. O, yerindəcə qurcuxurdu. Həmişə tənəffüsə birinci çıxan dostumuzun yerində qalması təəccüblü idi. Məlum oldu ki, onun ayaqqabıları itib.

Oğlan nə qədər hədə-hərbə gəlsə də, yalvarsa da xeyiri olmadı. Ayaqqabını gördüm deyən tapılmadı. Zarafatla dedilər ki, yəqin evdən ayaqqabısız gəlmisən, heç xəbərin olmayıb…

Oğlanı od götürdü. Bütün sinfə hədə-hərbə gəldi. Dedi ki, əgər çəkmələrimi verməsəniz, sinif rəhbərinə şikayət eləyəcəyəm.

Bizə də elə bu lazım idi

Zəng vuruldu. Sinif rəhbərimiz gəldi. Elə bil ki, qəsdən o, dərsə başlayan kimi çəkməsi itən yoldaşımızı lövhə qarşısına çağırdı. Oğlan ayağa durub qıpqırmızı qızardı.

Müəllim tərs-tərs onu süzüb dedi:

– Niyə dərsə hazırlaşmamısan?

Oğlan mızıldandı:

– Dərsimi bilirəm.

– Onda niyə durmusan, gəl danış. Niyə gözlərini döyürsən?

Oğlan bir az da qızardı. Utana-utana dedi:

– Müəllim, çəkmələrimi oğurlayıblar.

Uşaqlar uğunub getdilər. Hamının gözü oğlanın yalın ayaqlarına dikildi.

Müəllim oğlana acıqlandı:

– Ə, axmağın biri axmaq, ayağından çəkmələrini necə çıxarıblar ki, xəbərin olmayıb?

Uşaqlar yenə gülüşdülər.

Məsələ belə olmuşdu. Dərs vaxtı ayaqqabıları bir-birimizə ötürə-ötürə lövhə qabağına "çıxarmışdıq". Uşaqlardan biri özünü saxlaya bilməyib lövhə qarşısında cütlənmiş çəkmələri göstərdi və dedi:

– Müəllim, Həsənin çəkmələri özündən qabaq dərs danışmağa çıxıb.

Gülməkdən ölürdük. Gözlərimizdən yaş axırdı. Bizə elə gəlirdi ki, sahibinin əvəzinə onun çəkmələri utanır, xəcalət çəkir.

Müəllim bizi xeyli danladı. Ancaq çəkmə əhvalatından aldığımız ləzzətin yanında bu heç nə idi…

Bu hadisədən sonra dostumuz dərs vaxtı ayaqqabılarını ayağından çıxarmağı tərgitdi.

Aylar, illər ötdü. Biz məktəbi bitirib, hərəmiz bir yana dağıldıq.

Bir dəfə necə oldusa, küçədə köhnə dostuma – Həsənə rast gəldim. Mehribancasına görüşdük. Zarafatla soruşdum:

– Həsən, çəkmələrin necədi?

İkimiz də güldük. Həsən mənə dedi:

– Eh, ay Rauf, sənə bir çəkmə əhvalatı danışım ki, gəl görəsən. Mənim əhvalatım onun yanında toy-bayrama getməlidi…

Avtobusla rayondan Bakıya gəlirdim. Hava elə isti idi ki, nəfəs almaq olmurdu. Arxa cərgədə oturmuşdum. Aralıq zənbillə, çanta ilə, bağlama ilə dolu idi. Bizdən bir az qabaqda oturan kişi ayaqqabılarını çıxarmışdı. Ayaqlarından elə dəhşətli iy gəlirdi ki, gəl görəsən. Kişi heç kəsi saya salmır, özündən iki-üç cərgə qabaqda oturmuş arvadla hündürdən, özü də bizim başa düşə bilməyəcəyimiz bir dildə söhbət edirdi. Onların səsi bütün avtobusu başına götürmüşdü.

Birdən necə oldusa, maşın çuxura düşəndə kişinin ayaqqabılarının bir tayı aşıb düz mənim qarşıma düşdü. Əlim dinc durmadı. Onu götürüb ortadakı zənbillərdən birinin içinə atdım. Yanımdakı oğlan bunu görüb gülümsündü, ancaq bir söz demədi.

Yol elə hey uzanırdı. Mənim fikrimsə zənbildəki çəkmənin yanında qalmışdı.

İşin tərsliyindən yolüstü kəndlərin birində maşın dayandı. Düşənlərdən biri içində çəkmə olan zənbili götürəndə qımıldandım. Yanımdakı oğlan işarə elədi ki, səsimi çıxarmayım. Haray hara çatasıydı…

Yol boyu oğlanla bir-birimizə baxıb gülürdük. Avtobus şəhərə yaxınlaşanda kişi ayaqqabılarını geymək istədi. Lakin nə qədər axtardısa, çəkmənin bir tayını tapa bilmədi ki, bilmədi. Kişi avtobusu ələk-vələk elədi. Əlacı kəsilib sürücüdən tələb etdi ki, ayaqqabımın bir tayını tap ver.

Sürücü cin atına mindi. Ağzına gələni deyib, qarşıda yazılmış lövhəni göstərdi:

– Savadın yoxdur, oxu də!

Lövhədə yazılmışdı ki, itən əşyalara sürücü cavabdeh deyil.

Kişi israrla ayaqqabısını tələb etdikcə, sürücü daha da əsəbiləşirdi:

– Alə, ayağunda ayaqqabuvu saxlaya bilmirsən, ona mən neynim?

Biz gülməkdən özümüzü zorla saxlayırdıq.

Hamı avtobusdan düşüb getdi. Dostumuz isə sürücü ilə elə hey mübahisə edir, çəkməsinin bir tayını istəyirdi. Çəkmənin bir tayı isə yolda düşən arvadın zənbilində idi. Zənbil açılanda isə nə söz-söhbət olacağını bircə Allah bilirdi…

Həsənlə bir-birimizə qoşulub o ki var güldük. Ayrılanda zarafatla ona dedim:

– Ayaqqabılarından muğayət ol!

O, gülə-gülə cavab verdi:

– Uşaq olma, ələ. Mən bir də ayaqqabımı harda gəldi ayağımdan çıxarmaram. Daha bu sahədə əməlli-başlı təcrübəm var. Necə deyərlər, başına gələn başmaqçı olar…

**1990**

## QURU ÇÖRƏK ƏHVALATI

Əmrah müəllimlə Emin müəllim bərk dost idilər. Onlar həmişə bir-biri ilə zarafatlaşar, söhbətə qulaq asanları güldürərdilər.

Bir dəfə altıncı gün Emin Əmraha dedi:

– Dostum, bazar günü nə işin var?

Əmrah cavab verdi:

– Elə bir işim yoxdur.

– Onda mütləq bizə gəl.

– Yox, qardaş, özün bilirsən ki, evdə arvad-uşaq olanda sıxılıram, özümü pis hiss edirəm.

– Məsələ bundadır ki, bazar günü evdə tək olacağam.

– Bəs arvad-uşaq?

– Arxayın ol, yoldaşım uşaqları da götürüb qardaşıgilə gedəcək.

– Hə, bu başqa məsələ. Arxayın oturarıq, söhbət edərik, nərd oynayarıq…

Dostlar razılaşdılar.

Bazar günü səhər-səhər Əmrah Emingilə gəldi. Kefi kök idi. Əslində elə o da arvad-uşağın səs-küyündən qurtardığı üçün sevinirdi. İstirahət günündən zəhləsi gedirdi. Söz düşəndə deyirdi ki, bazar günü elə bazarı xatırladır. Səs-küydən qulaq tutulur. Heyf deyil iş günü?

Əmrah müəllim fikirli-fikirli əlini qapının zəng düyməsinə basdı. Qapı açılanda isə çaşıb qaldı. Balaca bir qız onunla üz-üzə dayanmışdı. Əmrah müəllim ürəyində dostunu söydü. Vəziyyətdən çıxış yolu axtardı. Və ona elə gəldi ki, bu balaca qız uşağı onu tanımadı. Sevinən kimi oldu. Necə oldusa soruşdu:

– Quru çörəyiniz var?

Qız da çaşdı. O da Əmrah müəllimdən belə sual gözləmirdi. Dili topuq çala-çala dedi:

– Əmrah müəllim, indi anamdan soruşaram.

Uşaq içəri girəndə Əmrah pilləkənlə düşüb getdi.

Evdə qızdan soruşdular:

– Qapını döyən kim idi?

– Əmrah müəllimdi, quru çörək istəyir.

Ana qızına acıqlandı:

– Ağzına gələni danışma, yəqin səhv salmısan. Əmrah müəllim neyləyir quru çörəyi?

Qız and-aman elədi, ana inanmadı. Qapıya gələndə gördü ki, heç kəs yoxdur. O, uşağını danladıqca, Emin müəllim altdan-altdan gülürdü…

**1990**

## ZAYOM

O, neçə illər idi ki, öz halal qazancı ilə dolanırdı. Hər maaş alanda həm sevinər, həm də işi bir az çətinə düşərdi. Xəyalən pulu hesablayar, ehtiyacları arasında bölərdi: arvadın geyinməyə bir abırlı paltarı yoxdu. Qızımın çəkməsi deşilib. Oğlumun şalvarı gödəlib. Özümün…

Eh, özüm bir təhər keçinərəm. Geyim bir yana qalsın, bir dəfə ürəklə bazarlıq eləmək də olmurdu. Hər şey od qiymətinə idi. Ancaq uşağın nə vecinə qarpız bahadı, yemiş od qiymətinədi. Onlar da özgə uşaqlar kimi yemək istəyirdilər.

Ümid bircə yay məzuniyyətinə qalırdı. İki aylığı birdən verirdilər. Bir ay xərclə, sonrası o məsələ… Dəhşətli şalvar satılan ay…

O, fikirli-fikirli kassaya yaxınlaşdı. Pul cədvəlinə qol çəkdi. Kassir bir göz qırpımında pulu sayıb ona verdi. Sağlıqla xərcləyəsən, – dedi.

Pul dostumuzun gözünə yaman az göründü. Pörtdü. Onluqların, beşliklərin arasında bir palazqulaq da var idi. Bu, yazığı lap çaşdırdı. Utana-utana onu geri qaytardı.

– Qardaş, qurban olum, qadan alım, incimə. Bir çətən külfətim var, mən zayom istəmirəm, mənə pul lazımdı, – dedi.

Kassir təəccüblə dostumuza baxdı, birdən qəhqəhə çəkib güldü.

Yazıq daha da büzüşdü, balacalaşdı. Xəcalət təri yanağından sel kimi süzüldü.

Kassir handan-hana özünə gəldi, gülməkdən yaşaran gözlərini silib dedi:

– Ay zalım oğlu, camaat bunun üstündə dava eləyir, sən də başlamısan ki, istəmirəm.

– Qadan alım, mənə zayom yox, pul lazımdı.

– A kişi, nə zayom, yüzlük görməmisən, nədi?

– Qadan alım, bunu dəyiş.

Kassir yüzlüyü geri aldı. Əvəzində iyirmi dənə beşlik sayıb verdi.

Dostumuz sevinə-sevinə evə yollandı. Əlini cibinə – pulların üstünə qoymuşdu. Pul indi çox idi, cibini dombaltmışdı. Elə dostumuzun kefi də yuxarı idi. O, evə tələsirdi…

**1989**

## BİR ANIN MÖCÜZƏSİ

Meşələri gəzib-dolaşır, o yan-bu yana baxırdım. Bir neçə gün idi ki, meşəbəyi təyin edilmişdim. Meşədən kəndə sarı enən yeganə yolu kəsmişdim. Necə deyərlər, örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçəcək. Meşəyə oduna gedənlərin geri qayıtmaq üçün başqa maşın yolu yox idi.

Məhləmizdə bir zıqqı adam var idi. Yaman yeyib-içmək həvəskarı idi. Bir də gördüm ki, mənə sarı gəlir. O saat bildim ki, dəmdi. Lap dilxor oldum. Nə qədər çalışdımsa,

onu başımdan eləyə bilmədim ki, bilmədim. Qırsaqqız olub yapışdı ki, bəs bir araq al içək, sənin təzə vəzifəni yuyaq. And-aman elədim ki, pulum yoxdu. Zındıq oğlu zındıq yaxamdan əl çəkmədi ki, çəkmədi.

Elə bu zaman maşın səsi gəldi. Yol dik aşağı, bizə sarı enirdi. Maşının səsindən hiss olunurdu ki, ağır yüklüdü.

Qonşumun üzü güldü:

– Hə, indi maşının qabağını kəsərəm. Nə pul qoparda bilsəm, aparıb yeyib-içməyə verərik.

Elə bu zaman maşın göründü. O, nərildəyə-nərildəyə aşağı enirdi.

Qonşum bir göz qırpımında maşının qabağına yüyürdü. Düz yolun ortasında dayanıb qışqırdı:

– Saxla!

Sürücünün rəngi qaçdı. Nə qədər çalışdısa, maşını saxlaya bilmədi. Maşın qonşumun üstündən keçib getdi. Hər yanı toz bürüdü. Qorxudan, dəhşətdən rəngim qaçdı. Əcəb işə düşdüm.

Toz çəkiləndə görəcəyim dəhşətli mənzərədən ətim ürpəşdi. Elə bu zaman həmkəndlim torpaq içindən qalxıb, üstümə sarı gəldi. Gözlərimə inanmadım. Elə bil yuxu görürdüm.

Qonşum qışqıra-qışqıra dedi:

– Ə, görürsən, köpək oğlu maşını saxlamadı.

Bilmirəm, necə oldusa, ürəyimdən dəli bir qəhqəhə qopdu. İçki hərisi qonşumsa təəccüblə üzümə baxırdı…

**1989**

## QARA QAZ – 24

Kərim Muradoviç sıravi bir işçi idi. Ancaq hey vəzifə haqqında düşünürdü. Ürəyində həmişə gileylənirdi: rəhbərliyin gözü kordu elə bil. Boy-buxun məndə, qabiliyyət, bacarıq məndə. Bizim bir müdirimiz var e, qadam onun ürəyinə. Heç mənim yarı şaqqamcan da yoxdu. Belələrini irəli çəkirlər, mənim kimisi isə qalır qıraqda.

O, bu gün çox gözəl geyinmişdi. Əynində hər şey təptəzə idi. Çəkmədən tutmuş şlyapaya qədər. Güzgünün qabağında özünə baxdı, baxdı… Üzünə təbəssüm qondu. Doğrudan da, yaxşı paltar adamı abıra salarmış. "Gözəllik ondur, doqquzu dondur", – deyənlər necə də haqlı imişlər!

Pillələri enə-enə arabir özünə baxır, düşünürdü: hə, belə bir oğulu qapıda sözsüz ki, bir qara "Qaz – 24" gözləməlidi.

Necə oldusa özü özünə inandı. Nədənsə düşündü ki, əsl möcüzə baş verib. Həmin maşın, doğrudan da, onu həyətdə gözləyir.

Yerişini bir az da yavaşıtdı. Ağır-ağır, təmkinlə, əsl müdirlər kimi yeridi.

Birdən iş yerinin yanına gedən, özü də gec-gec gələn avtobusun tindən çıxdığını gördü. Hər şey alt-üst oldu. O, şlyapasını əlinə alıb, dayanacağa sarı götürüldü…

**1989**

## USTA HƏSİ

Usta Həsi qırmızıyanaq, pəhləvan cüssəli bir kişi idi. Başına həmişə uzundimdikli şapka qoyardı. Bu zəhmət adamının əlləri polad kimi möhkəm, qolları qüvvətli idi. Danışanda həmişə gülümsəyərdi.

Bənnalığa başladığı ilk günlərdə onun başına qəribə əhvalatlar gəlmişdi. Bir dəfə divarı təzəcə hörüb qurtarmışdı ki, ev tikdirən adam həyəcanla qışqırdı:

– Usta, qaç, divar gəldi.

Doğrudan da, bir neçə dəqiqədən sonra böyük zəhmətlə qoyulan divarın bir tərəfi uçub yerə töküldü.

Bir dəfə isə…

Həsi özünə ev tikdirirdi. Divarları hörüb qurtarmışdı. Payızın yağmuru başlanmamış meşədən mil gətirib evin üstünü örtmək lazım idi.

Baltanı, mişarı götürüb, qonşusu ilə meşəyə yollandı. Axşama qədər işlədilər. Həsinin götürdüyü ölçüdə ağacları kəsib, maşina yüklədilər.

Usta Həsi həyətdə milləri səliqə-sahmanla yondu. Günün altında qoydu ki, qurusun.

O, bənna idi, dülgər deyildi. Ancaq eşitmişdi ki, yaş tiri – mili evin üstünə döşəmək olmaz. Ona görə ki, ağırlıq altında olan ağaclar əyilə bilər.

Nə isə… Həsi milləri evin üstünə döşəyəndə gülməli bir vəziyyət yarandı; tirlər guppultu ilə evin içinə düşdülər. Həsi fikirləşdi, fikirləşdi, nəhayət, bunun səbəbini tapdı. Sən demə ölçü götürəndə millərin divarın üstündə qalacaq hissələrini nəzərə almayıbmış.

Bunu eşidən qonşular gülməkdən özlərini saxlaya bilmədilər. Ərk ilə onu danlayanlar da oldu:

– Ay Həsi, bəs eşitməmisən ki, yüz dəfə ölçüb bir dəfə biçmək lazımdır?

Uşaqlar onu görəndə gülə-gülə oxuyurdular:

Bizim bu usta Həsi,
Bəyənməyir heç kəsi.
Əlli ildi ustadı,
Naşı kimi mil kəsir.

## MƏN DEYİLƏM

Təzə katib idarələri gəzir, işçilərlə tanış olurdu. Onun yolu barama idarəsinə düşdü. Kölgədə boy-buxunlu, yaxşı geyimli bir kişi gördü. Onu yanına çağırıb salam verdi, sonra soruşdu:

– A kişi, bu idarənin müdiri sənsən?

Kişi şlyapasını götürüb, başını göyə qaldırdı və dərindən bir ah çəkib dedi:

– Yoldaş katib, Allah da görür ki, mən olmalıyam, amma mən deyiləm.

**1989**

## XİYAR

Qış tətili idi. Günelin əmisi şəhərdən gəlmişdi. Çantasında nəsə var idi. Ancaq açmağa tələsmirdi.

Günorta yeməyinin vaxtı idi. Süfrə açdılar. Ortaya yemək gəldi. Birdən əmi yerdən qalxdı. Sumkanı açıb, içindən xiyar çıxartdı. Nənə təəccübləndi:

– Qışın bu vaxtı xiyarı hardan almısan?

– İstixanalarda qışda da xiyar əkib-becərirlər.

Xiyarı yuyub süfrəyə gətirdilər. Birdən balaca Günelin gözləri alacalandı. Üzünə təbəssüm qondu. Özündən asılı olmayaraq dedi:

– Bıy, xiyar, nətərsən?

Hamı güldü. Əmisi xiyarın birini götürüb ona uzatdı. Günel xırtıldada-xırtıldada yeməyə başladı. Ancaq yenə də gözləri stolun üstündəki xiyarlarda qalmışdı.

**1989**

# BAŞ ƏMİ VƏ GÜLZAR

Qardaşım qızı yayda ata-anası ilə birlikdə şəhərdən kəndə gəlmişdi. Balaca idi. Elə hey ora-bura qaçır, toyuq-cücə ilə, qazlarla, ördəklərlə oynayırdı.

Onu öyrətmişdim ki, o biri qardaşlarıma əmi, mənə isə baş əmi desin. Harda görürdü qışqırırdı:

– Baş əmi, ay baş əmi!

Eşidən-bilən Gülzarın bu sözlərinə gülürdü.

Bir dəfə həyətdə, tutun kölgəsində oturmuşdum. Bir də gördüm ki, dayımgilin həyəti ilə bizim həyətimizin arasındakı qapı açıldı, Gülzar qaça-qaça, həyəcanla mənə sarı yüyürdü. Əvvəlcə qorxdum, dedim görəsən nə olub. Sonra isə…

Gülzar həyəcanla qışqırdı:

– Baş əmi, ay baş əmi!

– Gülzar, nədi, niyə qışqırırsan?

– Baş əmi, dayıgilin həyətinə bir kişi gəlmişdi…

Onun sözünü kəsdim.

– Nə olsun, adam görməmisən?

– Baş əmi, adam yox e, onun bir eşşəyi var idi, heç bilirsən nə boyda?

Dilim dinc durmadı. Necə oldusa zarafatla soruşdum:

– Gülzar, nə boyda idi, sən boyda olardı?

Hiss elədim ki, düzgün sual verməmişəm. Ancaq gec idi. Gülzar yenə də həyəcanla mənə cavab verdi:

– Baş əmi yox e, lap böyük idi, mən boyda yox e, sən boyda…

Məni gülmək tutdu. Evdəkilər də gülüşdülər. Ancaq Gülzar heç dediyi sözün mənasını başa düşməmişdi. Təəccüblə bizim üzümüzə baxırdı…

**1989**

## GÜLƏŞ

Samirlə Aqşinin sözləri çəp gəldi. İkisi də bir-birinin üstünə cümdü. Onlar güləşdilər. Necə oldusa Aqşinin ayağı ilişdi, özündən balaca Samir onun üstünə yıxıldı. Uşaqlar gülüşdülər. Samir isə ağlamağa başladı. Soruşduq ki, ə, niyə ağlayırsan? Aqşin ki, sənin altındadı!

O ağlaya-ağlaya cavab verdi:

– Ayağa duranda Aqşin məni öldürəcək. Deyəcək ki, niyə məni yıxdın!

**1986**

## DOLMA

Həsən kişi bərk acmışdı. Həyətə çatanda burnuna xoş bir qoxu gəldi. İstər-istəməz ağzı sulandı. Arvadından soruşdu:

– Yeməyə nə bişirmisən, ay arvad?

– Yaxşı dolmamız var.

– Ay sağ ol! Acından ölürəm, bir az əlli tərpən.

Mülayim xala səliqə-səhmanla süfrə açdı. Ümumi qabda dolma buğlanırdı. Həsən kişi bəh-bəh eləyə-eləyə yeməyə girişdi. Elə bir-iki tikə yemişdi ki, yadına nəsə düşdü. Arvadından soruşdu:

– Mülayim, bəs əti hardan aldın? Axı deyirdin ətimiz qurtarıb?

– Bıy, başıma xeyir. A kişi sən alıb göndərdiyin ətdi də.

Kişi təəccübləndi. Axı o evə ət alıb gətirməmişdi. Qəssab isə sabaha söz vermişdi.

– Ay arvad, deyəsən nəyisə qarışdırırsan. Mən bu gun nə ət almışam, nə də evə göndərmişəm.

– A kişi, qocaldıqca yaddaşın zəifləyir deyəsən. Səhər yediyini axşam unudursan. Ə, Camaldan göndərdiyin ətdi də!

Camal sözünü eşidəndə elə bil kişini ilan vurdu. Çəngəl əlindən düşdü. Ayağa qalxıb tüpürdü. Öyüməyə başladı. Mülayim xala çaşıb qalmışdı.

Həsən kişi həyətə çıxdı. Acıqlı-acıqlı qonşunu çağırmağa başladı:

– Camal, Camal!

Camal həyətə çıxdı. O, arıq bir kişi idi. Yaman zarafatcıl, baməzə bir adam idi. El arasında ona itoynadan deyirdilər.

Damağında siqaret var idi. O, siqareti ağzından çıxarmadan Həsən kişiyə hay verdi.

Həsən hirsli-hirsli ona dedi:

– Ə, Camal, heç utanmırsan?! Bu nə oyundu ə, mənim başıma gətirirsən?!

– Nə olub, Həsən dayı, sənə nə pisliyim keçib axı?!

– Zəhrimar Həsən dayı, çor Həsən dayı! Canavar parçalayan atın ətini bizə gətirəndə heç utanmadın?

– A kişi, deyəsən sənin başın xarab olub. Bu da mənim yaxşılığım.

Səsə o biri qonşular da çıxdılar. Camal məsələni izah etməyə başladı:

– Tezdən həyətdən çıxanda Həsən kişi ilə rastlaşdım. Salamlaşandan sonra soruşdu ki, qonşu, hara belə? Mən də sözün düzünü dedim. Dərədə qurd atı parçalamışdı. İtimizə ət gətirməyə gedirdim. Atalar demişkən, at öldü, itlərin bayramıdı.

Bunu biləndə Həsən dayı dedi ki, Camal, sən canın bir az da bizim itə ət gətir.

Sonra o, üzünü Həsən kişiyə tutub soruşdu:

– A kişi, sən imanın düz demirəm?

– Düz deməyinə düz deyirsən, ancaq sən əclafın yekəsisən.

– Pah atonna, işə düşmədik?! A kişi, özün xahiş etdin ki, ət gətir. Mən də ətin yaxşı yerindən kəsib, səliqə ilə

kağıza bükdüm. Gətirib Mülayim xalaya verdim. Dedim ki, ətdi, Həsən dayı tapşırmışdı, gətirdim. Mən ölüm səhv eləmişəm?! Burda mənim nə günahım var? Bu da yaxşılığın əvəzi.

– Əclafın biri əclaf, əgər könlündə fırıldaq yox idisə, əti niyə kağıza bükürdün? Niyə deməmisən ki, at ətidi, itə gətirmisən?

Həsən kişinin səsi həyət-bacanı götürmüşdü. Mülayim xala dolmanı qazan qarışıq itin qabağına qoydu. Adamlar gülüşürdülər. İt isə ləzzətlə dolma yeyirdi.

**1989**

## MƏN NİYƏ KƏNDƏ HƏSRƏT QALDIM

Mən şəhərdə yaşayıram. Ancaq yayda həmişə kəndə getməyi dünyanın ən gözəl yerlərində istirahətə getməkdən üstün tuturam. Çünki kəndimiz çox axar-baxarlı yerdədi. Dağların qoynuna səpələnən evlərə uzaqdan baxanda hərəsi bir arı pətəyini xatırladır. Doğrudan da, elə kəndimizin adamları da arılar kimi işlək, zəhmətsevərdilər. Onlar da hər səhər evdən çıxıb işə yollanır, axşam isə geriyə qayıdırlar.

Kəndimizi nə qədər sevsəm də, ikinci yaydır ki, ora gedə bilmirəm. Elə bilməyin ki, imkanım yoxdur, mənə vaxtında məzuniyyət vermirlər, yaxud istirahətimi ayrı-ayrı yerlərdə keçirirəm. Xeyir. Məsələ ondadır ki, özüm öz əlimlə kəndə gedən yollarımı bağlamışam.

Bizim kəndimizin adamları çox zarafatcıldılar. Elə mən də onlardan geri qalmıram. Ancaq doğru deyirmişlər ki, zarafat dostluğun qayçısıdır. Məni kənd üzünə həsrət qoyan da elə etdiyim zarafatdır. Necə deyərlər, hənək-hənək, axırı dəyənək…

Bir dəfə zavodda dəzgah arxasında işləyirdim. Yerə tökülən mis yonqarları çox xoşuma gəldi. Öz-özümə düşündüm: necə də qızıla oxşayır. Və ağlıma qəribə bir fikir gəldi. O yonqarlardan bir xeyli yığıb evə apardım. Köhnə

bir piti qabı tapıb yonqarları içinə doldurdum. Məzuniyyətimi götürüb kəndə gedəndə həmin yonqarları da özümlə aparmağı unutmadım.

Dayım çox xəsis bir kişi idi. Bir dəfə də olsun məni qonaq eləməmişdi. Elə buna görə də qəlbimdə balaca bir "intiqam hissi" baş qaldırmışdı. Hardansa ağlıma onunla gizli bir zarafat eləmək fikri düşmüşdü. Yonqarları da elə bu məqsədlə kəndə aparmışdım. İstəyirdim ki, onu dayımgilin həyətində bir yerə basdırım. Ancaq bilmirdim necə edim ki, o, şübhələnməsin. Bir də piti qabını hara basdırım ki, kənardan təsir olmadan dayım həmin yeri qazsın.

Allah özü işi düzəltdi. Gördüm ki, dayım iki-üç gündən bir ləkin bir ucundan qazıb istifadə etmək üçün bir az təzə kartof çıxardır. Bərk sevindim. Axşam üçtü gizlincə özümü onların bostanına verdim. Qazılan yerdən yarım metr o tərəfi eşib küpəni kartofların arasında basdırdım. Üstünü də səliqə ilə örtdüm ki, heç nə hiss olunmasın.

O gündən sonra dayımı güdməyə başladım. Bir-iki gün keçdi. Kişi isə elə bil qəsdən kartof qazmırdı ki, qazmırdı… Nəhayət, bir gün o, əlində bel bostana girdi. Bir kənarda gizlənib dayımı həyəcanla müşahidə eləməyə başladım. Kişi bellə yeri qazır, kartofları tələsmədən yanındakı vedrəyə doldururdu. O, küpəni basdırdığım yerə yaxınlaşdıqca daha da həyəcanlanırdım.

Birdən dayım beli yerə qoyub o yan-bu yana baxdı. Heç kəsin görmədiyinə əmin olandan sonra balaca küpəni yerdən çıxarıb qoltuğuna vurdu. Tez, yeyin addımlarla evə girdi.

Mən gülməkdən ölürdüm. Deyəsən kələyim baş tutmuşdu. Həyəcanla işin nə ilə nəticələnəcəyini gözləyirdim.

Aradan bir neçə saat keçdi. Söhbət etmək bəhanəsi ilə dayımgilə getdim. Gördüm ki, ayrı vaxt altına palaz salmağa qıymayan bu kişi ən gözəl xalçalardan birini yerə sərdirib üstündə uzanıb. Kepqasını da gözünün üstünə basıb nə haqdasa fikirləşir.

Salam verdim. Yerindən qalxmamış salamımı aldı. Gördüm ki, kişinin kefi lap kökdü. Zarafatla dedim:

– Ay dayı, heç mənə qonaqlıq vermirsən.

Kepqasını bir balaca gözünün üstündən qaldırıb gülümsündü:

– Bacıoğlu, düş həyətə, hansı erkəyi könlün istəyir başını kəs.

Qulaqlarıma inanmadım. Gördüm ki, dayım çox ciddi danışır.

Sayseçmə bir erkəyi kəsdik, soyub doğradıq. Kabab bişirdik. Onun iyi bütün kəndi başına götürdü.

Nə başınızı ağrıdım. Dayımı heç tanımaq olmurdu. Kənddə qaldığım on gün müddətində o, mənə hər gün kabab yedirtdi. Dayımın səxavətinin səbəbini isə məndən başqa heç kəs bilmirdi. Anam hərdən bir deyirdi:

– Qocalıq dayını yaman kövrəldib, a bala!

Mən isə için-için gülürdüm. Sirr ürəyimi deşirdi. İstəyirdim ki, açıb hər şeyi deyim, ancaq qalmaqal düşəcəyindən qorxurdum.

Nəhayət, şəhərə qayıtdım. Dayım oğluna yerli-yataqlı bir məktub yazıb, əhvalatı bildirdim.

Aradan bir xeyli keçdi. Anamdan bir məktub aldım. O yazırdı ki, dayın səni bərk hədələyir. Mənə dedi ki, küçüyünə yaz, bir də buralara qədəm basmasın, yoxsa onu güllələyəcəm…

İndi o vaxtdan iki il keçib. Dayımın hirsi isə soyumayıb ki, soyumayıb. Mənim isə kəndimizdən, anamdan, elə dayımın özündən ötrü də burnumun ucu göynəyir…

**1991**

# HEYVANIN KƏSİLMƏYİ

Novella

Evdə nə qədər xörək bişirsələr də, dadı olmurdu. Ana hərdən gileylənirdi:

– Bu necə dünyadı, Allah?! Ağzımızın dadını da itirmişik.

Əslində ağızlar dadını itirməmişdi. Dadını itirən ətsiz, yağsız xörəklər idi. Əlbəttə, ana da bunu bilirdi. Ancaq üzə vurmur, ağzı gəzən ailə üzvlərinin əhvalını pozmaq istəmirdi.

Son günlər isə o dadsız xörəklərin də sayı azalmağa başlamışdı. Hamı oğrun-oğrun mətbəxə boylansa da, heç kəs səsini çıxarmırdı. Qazanlar əməlli-başlı istirahət eləyirdilər. Elə bil ki, uzun müddət əlləşib-vuruşan adamlar təqaüdə çıxmışdılar.

Nə qoca nənə dinir, nə uşaqlar danışırdı. Hamı gözünü televizora dikmişdi. Heç ondan da axır zamanlar bir fərli başlı söz eşitmək olmurdu.

Birdən ata gözünü həyat yoldaşına dikib dedi:

– Arvad, deyirəm axı heyvanı kəsək, nə deyirsən?

Uşaqların üzünə elə bil nur çiləndi. Nənə öz yerində qurcalandı:

– A bala, Allah köməyin olsun, nə vaxtdı ət üzünə həsrətik…

Ət sözünü eşidən kişi bərk dilxor oldu. Arvadının da ürəyindən qara qanlar axmağa başladı. Onlar göz-gözə gəldilər. İstər-istəməz gülümsündülər. Ancaq bu təbəssüm əvvəlkilərə bənzəmirdi. Çünki o, niskillə yoğrulmuşdu…

Ana ayağa durdu. Qab-qaşıq yığılmış şkafın içində xeyli əlləşəndən sonra uşaqlardan gizləyib saxladığı heyvanı tapdı. Onu gətirib ərinə verdi. Kişi bıçağı çıxarıb yanına

qotur düşmüş daş kimi bərk heyvanı kəsdi. Hərəyə bir dilim düşdü. Nənə isə hikkəsindən öz payına əlini də uzatmadı. Onun bənizinə bir heyva sarılığı çökmüşdü…

**1992**

## O GÜNLƏRI XATIRLAYANDA

Yeniyetmə çağlarım idi. Ürəyimdə anlaşılmaz, ancaq xoş duyğular təzə-təzə baş qaldırırdı. Bilmirəm səbəbi nə idi, həmişə sinif yoldaşım Lalə ilə üz-üzə gələndə yanaqlarım od tutub yanır, ürəyim daha şiddətlə döyünməyə başlayırdı. Öz-özümə düşünürdüm: yəqin bu qızda sehrli bir qüvvə var.

Doğrudan da, belə idi. Lalə adamı maqnit kimi özünə çəkirdi. Mən isə həmişə ondan uzaq qaçmağa çalışırdım. Lakin çox vaxt bu mümkün olmurdu. Ona görə ki, qız söhbət üçün həmişə mövzu tapır, heç nə olmayıbmış kimi dil-dil ötürdü. Özü də elə bil mənimlə danışmaqdan, yanaqlarımın qızarmağından, dilimin topuq vurmağından xüsusi zövq alırdı. Mən isə titrəyir, əzab çəkirdim. Ürəyim onun qarmağına düşmüş balıq kimi çırpınır, canımı qurtarmağa çalışırdım. Ancaq bu mümkün olmurdu ki, olmurdu.

Lalənin Rasim adlı bir ipə-sapa yatmayan qardaşı var idi. Əsgərlikdən təzəcə qayıtmışdı. Doğrusu, ondan qorxurdum. Lalənin özü də qardaşından bərk çəkinirdi.

Bir dəfə axşam üstü inəyimizi kövşəndən gətirəndə qız həyətlərindən məni çağırdı:

– Azad, axşamın xeyir.

Könülsüz-könülsüz mızıldandım:

– Axşamın xeyir.

Çəpərin bu üzündə mən, o üzündə isə Lalə dayanmışdı. Elə təzəcə söhbətə başlamışdıq ki, qəflətən Rasimin gəldiyini gördüm. Qorxudan sarımı uddum. Lalə də qorxdu və

tez evə qaçdı. Mən isə heç nə olmayıbmış kimi sakitcə getmək istəyəndə oğlanın zəhmli səsini eşitdim:

– Dayan, ə, sözüm var.

Ürəyim quş kimi çırpındı. Bütün bədənim titrəyirdi. Özümü eşitməməzliyə vurub sürətimi artırdım. Rasim acıq-lı-acıqlı bağırdı:

– A heyvan, sənə demirəm dayan?

Səs çox zabitəli idi. Bilirdim ki, dayansam, dostum məni əməlli-başlı əzişdirəcək, aşımı, suyumu verəcək. Ona görə götürüldüm. Oğlan da mənim dalımca qaçmağa başladı. Hiss elədim ki, Rasimin əlindən qurtara bilməyəcəyəm.

Dayımgilin darvazasını görəndə ürəkləndim. Ağlıma qəribə bir fikir gəldi. İstədim ki, darvazadan keçib qaranlıq küncdə gizlənim, oğlan ardımca gəlsə, sakitcə sivişib qaçım.

Çox ağıllı fikir idi. Özümü darvazanın kiçik qapısından içəri salıb, küncə buruldum. Elə bil qulağımın dibində ildırım şaqqıldadı.

Sən demə mənim içəri girməyimlə dayımgilin eşşəyinin anqırması təsadüfən bir vaxta düşübmüş. Ulağın qaraltısını gördüm. Ancaq sonra başıma nə gəldiyi yadımda deyil.

Bir də gözümü dayımgilin eyvanında açdım. Gördüm ki, məni xalçanın üstündə yerə uzadıblar.

Ağzım köpüklənmişdi. Qulağıma ağlartı səsi gəlirdi. Harada olduğumu anlaya bilmədim. Lakin birdən adamların arasında əllərini qoynuna qoyub dayanan Rasimi görəndə hər şey yadıma düşdü. Tez gözlərimi yumdum…

İndi o günləri xatırlayanda üzümə xəfif bir təbəssüm qonur.

**1990**

## CAVANŞİR KİŞİ

Cavanşir kişi çox duzlu-məzəli, zarafatcıl bir adam kimi mənim yadımda qalıb. Yuxarı Xocamsaxlıda dükançı işləyən bu kişinin anamgil tərəfdən bizə qohumluğu çatırdı.

Yaxşı yadımdadır, bir dəfə yas yerində Ağdamdan gələn başqa bir qohumumuz – Nəsir əmi dedi ki, bizim rayonun adamları nədənsə qəbristana yaxşı baxmırlar. Onun dövrəsində mütləq hasar çəkdirmək lazımdır.

Cavanşir kişi cır səsi ilə söhbətə qoşuldu:

– Ay Nəsir müəllim, ölü çıxıb qaçajax, hasarı neyniyirik?

Hamını gülmək tutdu. Nəsir əmi özünü sındırmayıb sözünə davam etdi:

– Hasar olanda mal-heyvan qəbristanlığa girə bilməz, yaşıllıq olar.

Cavanşir kişi yenə zarafatından qalmadı:

– Yaşıllığı neynirik, ay irəhmətdiyin oğlu, ölü otduyajax?

Məni bərk gülmək tutdu. Özümü bir təhər saxlayıb mağardan çölə çıxdım.

Rayonda milis rəisi işləyən dayım Cavanşir kişinin qaynını, öz xalası oğlu Tofiqi milis idarəsinə sürücü götürmüşdü. Bakıda həkim işləyən kiçik dayım Cavanşir kişi ilə söhbət etməkdən xüsusi zövq alırdı. Bir dəfə o mənim yanımda bu məzəli həmsöhbətindən soruşdu:

– Cavanşir, Tofiq sənə kömək eləyir?

Kişi təəccüblə dedi:

– Nə kömək eləyəsidi, həkim?

– Necə olsa, indi əlində maşın var. Yəqin səni mindirib ora-bura aparır.

Cavanşir kişi iztehzayla güldü:

– Maşina mindirməyi gözünə girsin, təki yolda məni tapdalamasın…

Onun cavabı ikimizin də – dayımın da, mənim də xoşumuza gəldi. Gözlərimiz yaşarınca güldük.

O gündən xeyli vaxt keçib. Zaman öz işini görüb. Dayılarım da, Cavanşir kişi də dünyalarını dəyişiblər. Ancaq onların əziz xatirəsini heç vaxt unuda bilmirəm.

Bu yaxınlarda rayona gedəndə Cavanşir kişinin daha bir maraqlı lətifəsini eşitdim. O, kiminsə toyuna gedibmiş. Əynində təzə bir palto var imiş. Kəndçilərindən kimsə ona deyib:

Ay Cavanşir, sağlığına qismət, nə yaxşı palton var.

Bunu eşidən Cavanşir özünü eşitməməzliyə vurub. Ancaq sual verən qır-saqqız olub yapışıb kişinin yaxasından. Bir neçə dəfə ona deyib ki, palto yaxşıdır, ancaq ayağı bir az uzundur. Mütləq onu kəsdir.

Canı boğazına yığılan Cavanşir hirsli-hirsli cavab verib:

– Ay irəhmətliyin oğlu, nə yapışmısan e, yaxamdan. Məgər paltonun yiyəsi qoyar ki, onun ayağını kəsdirim?!…

Məsələdən xəbərdar olan adamlar gülüşürlər. Məlum olur ki, palto Cavanşir kişinin özünün deyilmiş. Onu toya gedəndə bir günlüyə götürüb geyinibmiş…

**1991**

## AĞACA ÇIXAN KÖPƏK

Kişilər idarənin qapısına yığışıb söhbət edirdilər. Necə oldusa söz itdən, onun insanın ən yaxın dostu olmasından düşdü.

Mövsum kişi öz itini tərifləməyə başladı, onun sədaqətindən, ayıq-sayıqlığından ağız dolusu danışdı. Dedi ki, mənim itim dünyanın ən ağıllı itidi. O, evimizin fədakar

keşikçisidi. Onun qorxusundan quş quşluğu ilə bizim həyətə səkə bilməz.

Mövsümün öz itini bu qədər tərifləməsi Mədət kişinin xoşuna gəlmədi. İstehza ilə dedi:

– Ay, hay?!

– Hünərin çatırsa gəl.

– Gəlməyinə gələrəm. Ancaq bu kişilərin yanında bir qonaqlıqdan mərcləşək. Əgər sən udsan, mən qonaqlıq verəcəm. Ancaq uduzsan dəbbələməyəsən ha!

Mövsüm kişi güldü:

– Nə deyirəm, mən razı. Ancaq sənə yazığım gəlir. İt sağ tikəni qulağın boyda eləyər ha.

– Daha o sənin işin deyil. Mərc gəlirsən, yoxsa yox?

– Gəlirəm.

Beləliklə, onlar mərcləşdilər. Bununla da söhbət qurtardı.

Gecə əl-ayaq yığışanda Mövsüm kişi həmişə olduğu kimi iti açıb həyətə buraxdı, arxayınca gedib yatdı…

O, adəti üzrə sübh tezdən yuxudan oyandı. Tez həyətə çıxdı ki, iti bağlasın. Ha boylandısa, onu görə bilmədi. Çarnaçar iti səslədi:

– Alabaş ha, Alabaş ha!

– İt hürdü. Ancaq təəccüblü idi. Onun səsi gəlsə də özü görünmürdü. İt bir də hürdü. Qəribə idi. Onun səsi göydən gəlirdi.

Səsə sarı boylanan Mövsüm kişi tut ağacından asılmış səbəti görəndə təəccübləndi. Ən təəccüblüsü bu idi ki, onun tərif lədiyi köpək də səbətin içindəydi.

Elə bu zaman Mədət kişinin səsi eşidildi. O, tək gəlməmişdi. Yanında şahidləri də var idi.

Kimsə zarafatla Mövsüm kişiyə dedi:

– Ay Mövsüm, itin səbətə minib kosmosa uçurmuş, nədi?

Mövsüm kişi bir az pərt oldu. Ancaq özünü sındırmayıb dedi:

– Ay Mədət, sözümüz sözdü. Mərci sən uddun. Ancaq bir məni başa sal görüm, iti necə bu səbətə salıb göyə qaldırmısan?

Adamlar gülüşdülər. Mədət izah eləməyə başladı:

– Çox sadə. Bu gördüyün iri səbəti əvvəlcədən sicimlə bağlayıb, yerə salladım. Onun içinə bir parça ət də qoymuşdum. İy alan tərifli köpək səbətin içinə girib onu yeyəndə, bir ucu tutun yoğun qanadının üstündən aşırılmış sicimi çəkdim. İti səbət qarışıq göyə qaldırıb, kəndirin ucunu başqa ağaca bağladım.

Adamlar gülüşdülər. Mövsüm kişi də onlara qoşuldu. Üzünü Mədətə tutub dedi:

– Sən, doğrudan da, şeytan imişsən. Ta mənim sənə sözüm yoxdu…

**1990**

## İTƏN CAMIŞ

Lətifgilin camışları itmişdi. Atası oğlunu da götürüb, onu axtarmağa getmişdi. Yavaş-yavaş hava qaraldığından adamı vahimə basırdı.

Ata oğluna dedi:

– Bala, ikimiz bir yerdə getməyək. Sən o cığırla get, mən bu cığırla. Qabaqda görüşərik. Bəlkə camış ikimizdən birimizin qabağına çıxdı.

Lətif çar-naçar razı oldu. Ancaq o, yamanca qorxurdu. Bunu atasına deməyə isə cəsarəti çatmırdı. Onlar elə təzəcə bir-birlərindən ayrılmışdılar ki, oğul qışqırdı:

– Camış, camış…

Atası oğlunun yanına qayıtdı. Elə bildi ki, o, doğrudan da, camışa rast gəlib. Ancaq gözünə heç nə dəymədi. Təəccüblə soruşdu:

– Bəs hanı camış?

– Ata, qamışlığa qurbağa tullandı, elə bildim camışdı.

Ata hirsləndi. Ancaq hiss elədi ki, oğlu qorxur. Ona görə dedi:

– Yaxşı, gəl birlikdə axtaraq.

Ata qabaqda, oğul isə onun arxasınca gedirdi. Bir az toxtaq olsa da, Lətif yenə də qorxurdu. Hər kol, hər qaya əcaib bir heyvanı xatırladırdı.

Bir xeyli getdilər. Birdən Lətif dedi:

– Ata, ay ata.

– Nə var, oğlum?

– Ata, gəl qayıdaq evə. Deyərik ki, nə qədər axtardıq, camışı tapa bilmədik.

Ata yenə hirsləndi:

– Ə, axmağın biri axmaq. İtən camış özgənin deyil e, mənimdi. Özüm özümü aldadım?!

Lətif bərk utandı. Xoşbəxtlikdən camışı tez tapdılar. Onu qabaqlarına qatıb evə gətirdilər.

Lətif yenə də qayğılı görünürdü. O, qorxurdu. Qorxurdu ki, atası onun sözlərini evdəkilərə söyləsin.

Evdə Lətifin anası atasından soruşdu:

– A kişi, camışı hardan tapdınız?

Ata gülümsündü:

– Arvad, hansı sehrbazsa camışımızı qurbağaya döndərmişdi. Yaxşı ki, Lətifi də yanımca aparmışdım. O, bir dua oxuyub qurbağanı yenidən camışa döndərdi.

Ana təəccüblə onlara baxdı. Lətif isə qıpqırmızı qızarmışdı.

**1990**

## SÜRÜCÜ ƏJDƏR

Əjdər kişi ağır təbiətli, astagəl bir adam idi. O, kənddə sürücü işləyirdi. "Yavaş gedən uzaq gedər" məsəli onun həyat idealına, devizinə çevrilmişdi. Ona görə həmişə sükan arxasında diqqətli olar, bəzi sürücülər kimi maşina qaz verib özünü adamların gözünə soxmağa çalışmazdı.

Bir dəfə cavan bir oğlan yolun kənarında durub maşın gözləyirmiş. Təsadüfən Əjdər kişi maşınla onun yanından keçəndə oğlan əl qaldırır. Sürücü maşını saxlayıb soruşur:

– A bala, hara gedirsən?

– Rayon mərkəzinə.

– Gəl əyləş, elə mən də ora gedirəm.

Oğlan kabinəyə əyləşir. Əjdər kişi sürət ötürücüsünü dəyişib, maşını hərəkətə gətirir. Adəti üzrə yenə də yavaş sürür, oğlanı sorğu-suala tutur, onunla söhbət eləmək, "yola nərdivan qoymaq" istəyir. Lovğa sərnişin lap dilxor olur. Bir qədər kobud şəkildə özündən qat-qat yaşlı sürücünün üstünə çımxırır:

– A kişi, sorğu-sual eləyincə maşını bir az bərk sürsənə! Elə bil ki, təkərlərin altında qarışqa qalıb, ölməyindən qorxursan.

Oğlanın komtaylığı, danışıq ədası sürücü Əjdərin xoşuna gəlməsə də, özünü o yerə qoymur. Üzünü cavana tutub soruşur:

– A bala, deyəsən tələsirsən, eləmi?

– Hə, əlbəttə, tələsirəm.

Oğlana elə gəlir ki, sürücü sürəti artıracaq. Lakin gözlədiyinin əksinə olur. Əjdər kişi maşını kənara çəkib saxlayır və kabinənin qapısını açır:

– Bala, di düş!

Oğlan təəccüblə sürücüyə baxır. Sürücü yenə ondan soruşur:

– Bala, demirdin ki, tələsirsən?

– Bəli, tələsirəm.

– Onda düş, ay oğul, düş piyada get. Mən dağ yolunda bundan artıq sürətlə maşın sürə bilmərəm.

Oğlan səhvini anlayıb sürücüdən üzr istəyir. Onlar yenə öz yollarına davam edirlər.

## DƏNİZ DOSTUMUN YUBİLEYİ

Nə az, nə azacıq, yarım əsrdən iki il çox bir müddətdə hər səhər dənizə birlikdə getdiyimiz dostlarımdan birinin yubileyi idi. O, məşhur idmançı idi. Elə buna görə də məclisə idman aləminin elitar nümayəndələri dəvət olunmuşdu. Dəniz dostlarımızdan təkcə mən dəvətli idim bu tədbirə... İdmançılardan bəzilərini şəxsən tanısam da, məclisdə özümü tənha durna kimi hiss eləyirdim... Elə mənə söz veriləndə də bunu dedim:

– Əziz yubiliyarımız gənclik illərində bu binanın – keçmiş kinoteatrın arxa cərgələrində oturub qaranlıqda kinoya baxarkən ağlına da gəlməzdi ki, nə vaxtsa buradakı oturacaqları çıxarıb, buranı restoran eləyəcək və onun yubileyini bu restoranda keçirəcəklər... Əgər dostumla yarım əsrdən artıq bir vaxtda ləpədöyəndə gəzdiyimiz yolları uc-uca calamaq mümkün olsaydı, bəlkə də bu müddətdə Moskvaya gedib çıxa bilərdik...

Sonra çıxışımı "Zaman" şeiri ilə tamamlayib, yerimdə əyləşdim. Yanımdakı kişilərdən biri məndən soruşdu:

– Müəllim, məni xatırlamırsanmı?

– Xatırlayıram, niyə xatırlamıram ki...

– Onda de görüm mən kiməm?

– Saatsaz Səfər...

Müsahibim heyrətləndi, yaddaşınıza əhsən, – söylədi...

Adamlar yavaş-yavaş bir-birinə isinişdiyindən, çəngəli sol, bıçağı sağ əldə tutmağın əzabından qurtuldular...

Saatsaz Səfər başına gələn bir əhvalatı danışdı aramızdakı çəngəl-bıçaq zarafatından sonra...

– Müəllim, Sovetlər Birliyi zamanında məzuniyyətə çıxmışdım. Yaxın bir dostumla qərara gəldik ki, mənim maşınımla Nalçikə gedək, istirahətimizi orda keçirək...

Yol tədarükü gördük və səyahətə başladıq. Nalçikə təxminən 70-80 kilometr qalmış yolun kənaraında dayanan bir qadın əl elədi. Maşını saxladım. Salamlaşdıq. Xahiş eldi ki, onu da maşına götürək... Etiraz eləmədik... Arabir ordan-burdan söhbətləşdik. Maşını mənzərəli bir yerdə saxladlım. Acmışdıq. Götürdüyümüz kolbasa, pendir, çörək ortaya gəldi. Bir az yeyib, yolumuza davam elədik.

Yolun kəharında dayanan uşaqlar çaydan tutduqları balığı göstərib, almalarını xahiş eləyirdilər. Dostuma dedim ki, heç keçməli balıq deyil, bilsəydik ki, bişirməyə bir yer taparıq, alardıq...

Söhbətimizi eşidən qadın dedi:

– Ürəyinizdən keçirsə, alın. Mənim həyət evim var. Aparıb təmizləyib, bişirərəm, siz də özünüzə qalmaq yeri tapandan sonra bizə gələrsiniz.

Razılaşdıq. Balıq aldıq və qadına verdik. O, bir kağıza ünvanını yazdı və dedi ki, təxminən bir-iki saatdan sonra bizə gələrsiniz...

Özümüzə, maşına yer elədik. Bir az uzanıb dincələndən sonra taksi ilə həmin ünvana getdik...

Bizi çox yaxşı qarşıladılar. Qadın bizi qızları və rəfiqəsi ilə tanış elədi. Yeməyimizi yeyib qurtarandan sonra söhbətləşdik.

Qadın dedi:

– Uşaqlar, əvvəlcə sizi lap kəndçi-kündçü saydım. Sonra gördüm ki, siz çox görüb-götürmüş ədəb-ərkanlı insanlarsınız... Səhərdən sizə fikir verirəm, ikiniz də çəngəli sol əlinizdə tutursunuz...

Gülmək məni tutdu. Qadın təəccübl üzümə baxanda dedim:

– Səmimiyyətinuzə, verdiyiniz dəyərə görə çox sağ olun. Ancaq məsələ bundadı ki, bizim ikimiz də solaxayıq...

Söz ağzımdan çıxan kimi qadın şaqqanaq çəkib güldü... Qızları, rəfiqəsi gülməkdən lap qəşş eləmişdilər... Biz də onlardan geri qalmadıq...

Səfərin danışdığı bu əhvalat mənim də xoşuma gəldi. Ona söz verdim ki, bu hadisəni necə var, eləcə qələmə alacam...

Sözümün üstündə durdum...

**02.02.2019**

## KÖHNƏ PENCƏK

Babam ticarət işçisidi. Qazancı da yaxşıdır. Ancaq geyim-keciminə o qədər də baxan deyil. Köhnə pal-paltardan əl çəkmək istəmir ki, istəmir. Hər dəfə nənəm deyir ki, ay kişi, qurtar da bu cır-cındır paltardan. Adam arasına çıxırsan, özünə yaxşı əyin-baş al.

Anam da nənəmə tərəf durur. Ancaq nə fayda, özləri deyib, özləri də eşidirlər.

Bir gün babam evdə olmayanda nənəmlə anam qərara gəldilər ki, ondan gizli geyimini təzələsinlər. Gedib mağa-zaları gəzdilər və axır ki, qəşəng bir pencək alıb gətirdilər. Köhnə pencəyi asılqandan çıxarıb, təsadüfən qapıya gələn dilənçiyə verdilər, yerinə isə təzə pencəyi asdılar. Mənə də bərk-bərk tapşırdılar ki, bax baban gələndə heç nə demə. Ona sürpriz hazırlamışıq…

Nəhayət, babam işdən gəldi. Şifoneri açıb orada nə isə axtardığını görəndə öz-özümə güldüm. Fikirləşdim ki, indi o, təzə pencəyi görüb sevinəcək… Sürprizimiz xoşuna gələcək…

Ancaq düşündüyümüzün tamam əksinə oldu. Kişi həyəcanlı, əsəbi halda pencəyini soruşdu.

Anam gülə-gülə dedi ki, ay ata, pencəyini təzələmişik…

Babam rəng verib rəng aldı. Heç təzə pencəyə gözünün ucu ilə də baxmadı. Hirslə soruşdu ki, bəs mənim köhnə pencəyim hanı?

Anam gülə-gülə dedi:

– Köhnə, nimdaş pencəyi verdik dilənçiyə… Əvəzində sənə gör nə qəşəng pencək almışıq?!

Söz anamın ağzımdan çıxar-çıxmaz babam qapqara qaraldı. Əsdi, titrədi və yerə yıxıldı…

Evdə bir hay-həşir başladı ki, gəl görəsən. Tez təcili yardıma zəng elədik. Gəlib babama iynə vurdular. Kişi handan-hana özünə gəldi. Həkim gedəndən sonra anam onu ərklə danladı:

– Ata, heç səndən gözləməzdim. Bir pencək nədi ki, ondan ötrü bu qədər həyəcan keçirirsən?!

Babam ağlamsına-ağlamsına dedi:

– Ay qız, sən mənim evimi yıxdın. Bütün pullarımı o pencəyin cibində gizləyirdim… Sən də onu aparıb verdin dilənçiyə…

Araya dərin bir sükut çökdü. Haray hara çatası idi?! Nənəm başını buladı. Anam çox pərt oldu. Bamamın hirsli-hirsli dediyi söz neç yadımdan çıxmır:

– Kim qazana, kim yeyə buna deyirlər e?

Nənəmin sözü ondan da mənalı idi:

– Malını yeməyənin malını yeyərlər…

**20.02.2017**

## MƏNİ NİYƏ APARMAMISINIZ

Bir dəfə balaca Azərin ailə albomuna baxırdı. Buradakı şəkillər köhnə olsa da, qızcığaza çox maraqlı gəldi. Onun ən çox xoşuna gələn şəkil isə atası ilə anasının toy günü çəkdirdikləri şəkil oldu.

Qızcığaz bu şəklə xeyli baxıb düşündü, düşündü və birdən ağlamağa başladı. Hamı təəccübləndi. Baba da, nənə də, ata da, ana da narahat oldular. Ancaq Azərinin dediyi bu söz onların hamısını gözləri yaşaranacan güldürdü:

– Ay baba, bəs məni niyə ata ilə ananın toyuna aparmamısınız?!

**22.06.2015**

## DAŞ VƏ PAMBIQ

Bir uşaq o biri uşağın düşüncəsini yoxlamaq üçün belə bir çaşdırıcı sual verdi:

– Bir kilo daş ağırdı, yoxsa bir kilo pambıq?

Uşaq fikirləşmədən cavab verdi:

– Əlbəttə, bir kilo daş.

Sual verən onu lağa qoydu:

– Onların ikisi də eyni çəkidədirsə, biri digərindən necə ağır ola bilər?!

– Olar, olar! Bir var başına bir kilo pambığı vuralar, bir də var bir kiloluq daşı!

**21.06.2015**

## UŞAQLAR VƏ LİFTÇİLƏR

Böyüklər, liftçilər nadinc uşaqların əlindən cana gəlmişdilər. Ona görə də liftin qapısının üstündə yazmışdılar:

– Liftinən oynamıyın!

Bu sözü görən uşaqlar “saqqallı uşaq”ların, birçəkli xalaların sözlərini redaktə etdilər:

– Liftinən yox, liftlə. Oynamıyın yox, oynamayın!

Sonra dəcəllər bu cümləni yazmağı da unutmadılar:

– Divara, liftə yazı yazmayın!

**14.07.2015**

## ƏLƏKBƏR SABİRİN TELEFON NÖMRƏSİ

Qusara getmişdim. Axşam tərəfi idi. Heç evə girmək istəmirdim. Təmiz havadan udur, təbiətin gözəlliyini seyr edirdim. Gözlərim başı qarlı Şahdağına zillənmişdi. Batmaqda olan günəşin zərrələri qarın üstündə bərq vururdu…

Elə bu vaxt telefonum zəng çaldı. Bir uşaqlıq dostum, Miroğlan müəllim idi. Hal-əhvaldan sonra dedi ki, bəs nəvəm Səlma ikinci sinifdə oxuyur. Bu gün sənin "Üçrəngli bayraq" şeirindən "5" alıb. Gördüm ki, sənin şeirindi, qürurlandım. Nəvəmə dedim ki, bu şeiri yazan mənim dostumdu. İndi zəng eləyərəm şeiri onun özünə də deyərsən… Qoy görək şair özü sənə neçə qiymət verəsək?

Telefonda kövrək, həyəsanlı uşaq səsi eşidildi:

Bu üçrəngdi bayrağım
Gözümün işığıdı.
Azadlıq yağışından
Doğan göyqurşağıdı…

Öz şeirimi balaca Səlmanın dilindən eşitmək məni çox duyğulandırdı. "Gələcəyin səsi" adlı bir şeir də yazıb çap etdirdim…

Babası mənim qəzetdə çap olunan bu şeirimi aparıb nəvəsinə oxuyanda uşaq o qədər sevinib ki…

Aradan bir müddət keçib. Səlma bu dəfə dərslikdən Mirzə Ələkbər Sabirin "Məktəbə təğrib" şeirini əzbərləyib. Şeiri məktəbdə elə gözəl deyib ki, müəllim ona "5" yazıb.

Səlma evə qayıdanda sevincini babası ilə bölüşüb. Sonra soruşub:

– Baba, səndə Mirzə Ələkbər Sabirin telefonu var?

Babası təəccüblənib:

– Səlma, səni başa düşmədim. Nə demək istəyirsən?

– Baba, "Üçrəngli bayraq" şeirindən "5" alanda zəng elədin Rafiq Yusifoğlu ilə danışdım, ona şeiri əzbər dedim... İndi də zəng elə Mirzə Ədəkbər Sabirlə danışım, görək dediyim şeiri bəyənəcəkmi?

**06.12.2016**

## NİYƏ MƏNƏ ƏYRİ-ƏYRİ BAXIRSAN

Əkbərin saçları yay tətilində uzanıb üz-gözünü örtmüşdü. Onun bu cür saçlardan çox xoşu gəlirdi. Ona görə ki, oturub-durduğu, dostluq elədiyi uşaqların da saçları upuzun idi. Onlar özlərini saçları çiyinlərinə tökülən futbolçulara bənzədirdilər.

Ancaq elə ki, məktəb zamanı gəldi, atası Əkbəri götürüb bərbərxanaya apardı. Əkbər heç saçlarını qırxdırmaq istəmir, ancaq atasına söz deməkdən çəkinirdi.

O, çar-naçar bərbərin kreslosuna əyləşdi. Usta onun uzun, upuzun saçlarını qırxıb yerə tökəndə uşaq istər-istəməz acıqlı-acıqlı ona baxdı.

Bərbər zarafatcıl bir oğlan idi. Əkbərin ürəyindən keçənləri elə bil ki, gözlərindən oxudu. Gülə-gülə ona dedi:

– Ay qaqaş, mənə niyə əyri-əyri baxırsan, atana bax da.

**07.02.2016**

## ƏGƏR QARDAŞSINIZSA

Dostum Rəşidin Qusardakı evinə Rəşid adlı bir dostu gəlmişdi. Onlar birlikdə yemək yedilər, çay isdilər, söhbətləşdilər, zarafatlaşdılar.

Qonaq çıxıb gedəndən sonra nəvəsi Elvina babasından soruşdu:

– Baba, bizə qonaq gələn o kişi sənin nəyindi?

– O mənim qardaşımdı.

– Əgər qardaşındısa, niyə ikinizin də adı eynidi?

## ELVİNANIN AD GÜNÜ

Elvina bacısı Sevilin ad günündə özünü çox narahat hiss eləyirdi… Hamı Sevildən danışır, hamı Sevilin sağlığına qədəh qaldırır, hamı Sevilə hədiyyə verirdi…

Elvina tutulmuşdu. Onun bir cüt kömür giləsini xatırladan qapqara gözləri bulud kimi dolmuşdu.

Bunu ancaq anası hiss elədi. Onu öpüb oxşadı, saçlarına sığal çəkdi…

Handan-hana Elvina ondan soruşdu:

– Ana, bəs mənim ad günüm nə vaxt olacaq?

– Darıxma, qızım, sənin də ad günün qışda olacaq.

Elvina qış sözünün mənasını o qədər də dərindən dərk eləyə bilmədi. Elə ona görə də anasından soruşdu:

– Qışda, yəni nə vaxt?

Anası gülümsündü. Körpəsinin saçlarını sığallayıb dedi:

– Qışda havalar soyuyur, qar yağır…

Aradan xeyli keçdi. Payızın son ayları idi. Bir gün Elvina yuxudan duranda gördü ki, hər yan ağappaq qara bələnib.

Sevincdən uşağın ürəyi uçundu. Həyəcanla anasına dedi:

– Urra! Bu gün mənim ad günümdü.

Ana təəccübləndi:

– Yox, qızım, hələ sənin ad gününə çox qalıb…

Elvina ağlamsındı:

– Bəs sən demişdin ki, qar yağanda mənim ad günüm olacaq?

Ana güldü… O gün yaxşı bir plov bişirdi. Elə həmin gün qızcığaza gözəl bir ad günü keçirdilər. Elvinanın ad gününə isə hələ bir aydan artıq vaxt qalırdı…

**23.12. 2005**

***

Sevil Rəşid babaya dedi:

– Baba, az siqaret çək, yoxsa sənin ağ ciyərin qara ciyər olacaq…

## BACILAR

Qusarda istirahət eləyirdik. Həyətdə əyləşib yazı-pozu ilə məşğul idim. Elvina ilə Sevil yanıma gəldilər. O tərəfimə, bu tərəfimə keçdilər. Gözümün altıyla onlara baxsam da, özümü elə göstərdim ki, guya heç nədən xəbərim yoxdu.

Bacılar gördülər ki, onlara əhəmiyyət vermirəm. Birdən Sevil dedi:

– Baba, gəl oynayaq.

Gülümsəyib cavab verdim:

– Axı mən Sizin tayınız deyiləm?

Elvina dedi:

– Baba, onda az ye, balacalaş, bizim tayımız ol, sonra bir yerdə oynayaq…

Mən güldüm. Bacılar da mənə qoşuldular…

## NAĞIL YAZAN

Bir dəfə mən işləyəndə Sevil ilə Elvina "Göyərçin" jurnalını gətirib dedilər ki, baba, bizə nağıl oxu.

Gülüb onlara dedim:

– Balalar, mən nağıl yazanam e, nağıl oxuyan deyiləm. Nağıl oxuyan nənədi. Gedin onun yanına.

Uşaqlar jurnalı götürüb Fəzilə nənənin yanına qaçdılar. Mən isə arxayınca öz işimi görməyə başladım.

## FİKİR VERMƏ

Qayikənddə həyətdə oturmuşdum. Sevil bir kitab gətirib dedi ki, baba, bu kitabı mənim üçün oxu.

Elə bu vaxt qonşu həyətdən səs-küy gəldi. Sevilin başını aldatmaq üçün dedim:

– Seva, dayan-görək bu nə səs-küydü.

Sevil kitabı qabağıma qoyub dedi:

– Baba, fikir vermə, ləzgilərdi…

## SÖHBƏT

Bir dəfə də yazı pozu ilə məşğul olanda Sevil başıma fır-fır fırlanır, ancaq yanıma gəlməyə cəsarət etmirdi. Ona görə ki, nənəsi bu şeytan qıza tapşırmışdı ki, baba işləyəndə ona mane olmayın.

Aradan bir xeyli keçdi. Birdən Sevil yanıma gəlib dedi:

– Ay baba, işini qurtar da! Ürəyim partlayır səninlə söhbət eləmək üçün…

## YOLUN AXIRI

Hər səhər, axşam meşəyə gedib gəzirdim. Sevillə Elvina da mənimlə getmək istəyirdilər. Ancaq müxtəlif bəhanələrlə onları aparmırdım.

Bir dəfə axşam üstü uşaqlara dedim ki, siz oynayın, mən meşədə bir az gəzim, sonra qayıdım.

Elvina dedi:

– Baba, getmə, onsuz da yolun axırı yoxdu…

## KEŞİKÇİ QAPI

Sara böyük otaqda oynasa da, fikri həmişə babasının iş otağında olurdu. Oradakı kitabları açıb tökməkdən, kağız-kuğuzu qatıb-qarışdırmaqdan ötrü ölürdü. Ancaq baba buna icazə vermirdi ki, vermirdi…

Baba divanda uzanıb nəvəsinə nağıl danışırdı. Birdən onu yuxu apardı. Qızcığaz sevindi. Gizlicə babanın otağına keçib kitablara baxmaq, kağız-kuğuzu vərəqləmək fikrinə düşdü. Yelçəkər olduğundan qapını saxlamağa gücü çatmadı. Külək onu bərk çırpıb bağladı. Saranın donunun ətəyi qapının arasında qaldı. Nə qədər dartındısa, çıxa bilmədi. Bərkdən ağladı.

Baba onun səsinə gəldi və o qədər güldü ki… Qapını açıb, Saranı xilas elədi. Ancaq ona dedi ki, bax görürsən, icazəsiz babanın otağına girdiyin üçün qapı səni tutub saxlayıb…

Baba gülürdü. Sara da ona qoşulmuşdu. Baba-bala elə bəxtəvər idilər ki…

## EYNƏK

Sara babasının eynəyini götürüb gizlədi. Nə qədər axtardılarsa, eynək tapılmadı ki, tapılmadı…

Sonra məlum oldu ki, Sara eynəyi qəsdən gizləyib ki, baba kitab oxumasın, onunla oynasın…

## KOSTYUM

Balaca Saranın atası həmişə idman stilində geyinərdi. Bir gün o, toya getməli idi. Ona görə də kostyum geyindi, qalstuk bağladı. Bunu görən balaca Sara təəccübləndi və atasını anasına göstərib dedi:

– Baba!…

Hamı güldü. Çünki Sara bu geyimdə ancaq babasını gördüyündən, elə bilirdi ki, kostyum geyinmək, qalstuk bağlamaq ancaq babaya məxsus geyimdi…

## BABAMI ÇOX İSTƏYİRƏM

Bir gün balaca Sara anasına dedi:

–Mən babanı çox, lap çox istəyirəm.

Gülzar ondan soruşdu?

–Nəyə görə babanı bu qədər çox istəyirsən, mənim balam?

Sara gülə-gülə dedi:

– Ona görə ki, o, həmişə bizə gələndə nənəni də özü ilə gətirir…

## NƏNƏNİN SƏSİ

Baba ilə Sara evdə idilər. Sara dəcəllik edir, evi töküb dağıdır, sözə baxmırdı. Elə bu vaxt qapı döyüldü.

Baba gülüb dedi:

– Sara, özünü yığışdır, yəqin nənədi gələn.

Sara razılaşmadı:

– Yox, nənə deyil…

– Nədən bildin, mənim balam?

– Çünki nənə evə gələndə səsi özündən qabaq gəlir…

## BABA VƏ NƏVƏ

Baba çap olunan məqalələrini, şeirlərini qəzetdən, jurnaldan kəsib səliqə ilə, ardıcıllıqla təzə aldığı alboma düzürdü. Sara bunu görüb dedi:

– Ay baba, sən nə iş görürsən?

– Mənim balam, məqalələrimi, yazılarımı səliqə ilə alboma düzürəm ki, itib-batmasın…

– Ay baba, sənin nə çox şəklin var!

– Baba alimdi da, mənim balam. Sən də böyüyəndə alim olarsan, sənin də şəkillərin, yazıların qəzetdə çap olunar…

Sara həyəcanla etiraz elədi:

– Yox, ay baba, məndən alim çıxmaz…

Baba gülümsündü:

– Niyə, mənim balam?

Sara bir babasına, bir özünə baxdı. Əlini başına qoyub həyəcanla, yüksək səslə dedi:

– Ay baba, görmürsən, mənim başım keçəl deyil axı?!

## ORUCU DA GÖTÜRÜB GƏLSİN

Nənə nəvəsi Saranı görmək üçün Bakıya getdi. Nəvəsi qaça-qaça onun yanına gəldi. Ancaq nənəni tək görəndə təəccübləndi:

– Nənə, bəs baba niyə gəlmədi?

– Mənim balam, baba oruc tutur, ona görə gələ bilmədi.

Nəvə əl çəkmədi:

– Ay nənə, tez ol babaya zəng elə, qoy Orucu da götürüb bizə gəlsin!

**2013**

## QOHUMLAR

İt pişiyin yanında lovğalandı:

– Mən canavarın qohumuyam.

Pişik özünü sındırmadan dedi:

– Hə, bilirəm, bilirəm. Deyirəm nə yaxşı ki, pələng kimi əmioğlum var. Yoxsa it-qurd məni basıb yeyərdi…

**22.06.2015**

## ƏLLƏRİN SOYUQDU

Sevil xəstələnmişdi. Qızdırma içində yanırdı. Fəzilə nənə əlini onun alnına qoyub dedi:

– Seva, nə yaman istin var.

Sevil qorxdu ki, ona iynə vurarlar. Ona görə dərhal nənəsinin sözünü kəsdi:

– Yox mənim istim yoxdu, ay nənə, sənin əllərin soyuqdu.

## FLOMASTER

Balaca Saranın çoxlu rəngbərəng, bir-birindən qəşəng flomasterləri var idi. Qız onlarla divarı, divanı, stolu, döşəməni yazıq-yazıq eləmişdi… Elə buna görə də hirslənən anasına yazıq-yazıq baxırdı… Əlbəttə, Sara hər yeri yazıq-yazıq eləməsəydi, heç anasına da yazıq-yazıq baxmazdı…

Qızına acığı tutan ana flomasterləri gizlədi… Səhərisi gün Sara şirin dilini işə saldı:

– Ana, bəs hanı mənim flomasterlərim?

Ana qaş-qabağını töküb ciddi şəkildə dedi:

– Onlar səndən küsüb gediblər.

– Bəs onlar nə vaxt qayıdacaqlar?

– Sən ağıllı qız olanda…

**2011**

## SARANIN AYISI

Sara ikinci sinfi bitirib üçüncü sinifə keçsə də, oyuncaq ayısından əl çəkmir. Hara gedirsə, onu da özü ilə aparır. Hətta maşında yol gedəndə, təyyarədə uçanda, gəmidə üzəndə belə ayı onun qolunun üstündən əskik olmur…

Bir dəfə Sara babasıgilə gəlmişdi. Həmişə olduğu kimi bu dəfə də yerinə uzananda oyuncaq ayısını qucağına alıb yatdı.

Səhər yuxudan duranda babası onunla zarafat elədi:

– Ay Sara, gecə səhərəcən xoruldayıb məni yatmağa qoymamısan.

Sara güldü:

– Ay baba, mən yatanda xoruldamıram, yəqin xoruldayan ayı imiş…

**30.08.2014**

## KİMİN BALASISAN

Baba tez-tez nəvəsindən soruşurdu:

– Sara, kimin balasısan?

Balaca qızcığaz hərdən bu suala bir cür cavab verirdi. Bu dəfə isə hirslənib belə dedi:

– Of, ay baba, mənim 5 yaşım, 4 yaşım, 3 yaşım, 2 yaşım, 1 yaşım yoxdu, bəsdi də hər dəfə soruşursan: "Kimin balasısan, kimin balasısan"!

## SƏN ORUCSAN, MƏNDƏN İSƏ…

Saranın anası, nənəsi və babası harasa birlikdə iş dalınca getmişdilər. Onlar evə qayıdıb gələndə Sara rəfiqəsi Nigarla telefonla danışırdı. Telefonun dəstəyi əlində qapını açdı. Hərəni öz dilində salamladı:

– Mama, privet!

– Nənə, salam!

– Baba, salaməleyküm!

Nənəsi Saranı qucaqlayıb öpdü. Baba ona yaxınlaşanda isə qız kənara çəkildi. Babasının incidiyini görən şeytan qızcığaz onun könlünü aldı:

– Baba, mənə yaxın gəlmə! Çünki sən orucsan, məndən isə kolbasa iyi gəlir…

**09.07.2015**

## CORAB

– Baba, bu nədi?

– Corabdı.

– Corab olduğun bilirəm e, deyirəm yəni bu nədi?

Baba təəccübləndi:

– Corabdı da.

–Ay kişi, onu bilirəm. Deyirəm sənin corablarının mənim kreslomun istündə nə işi var?

Baba şaqqanaq çəkib güldü. Dedi ki, düz deyirsən, ağıllı balam. Corablarımı çıxarmışdım ki, gedib dəstəmaz alam. İndən belə onları sənin kreslonun üstünə qoymaram…

**16.04.2016**

## DİNC ƏL

Mən ora-buranı töküb-töküşdürür, evin içində topumu göyə atıb tuturdum. Səbrlə mənə baxan babam axır ki, dilə gəldi:

– Ağıllı balam, bəsdi, bir az dincəl!

Özümü bilməməzliyə vurdum:

– Ay baba, dincəl nə deməkdi?

Babam mənalı-mənalı gülümsündü:

– "Dinc" və "əl" sözü birləşib "dincəl" sözünü yaradıb. Dinc əl, yəni əlini dinc qoy! Sənin əlin dinc duranda, elə biz də dincəlirik…

**27.01.2017**

## OYUNCAQ

Oyuncağın evi onda yıxıldı ki, oyuncaq kimi gəldi dünyaya. Oyuncağın bəxti onda gətirdi ki, onu natəmiz, çirkaba batmış əllər yox, təmiz, körpə uşaq əlləri oynatmağa başladı. Bu körpə əllər böyüdükcə dinc durmadılar, oyuncaqları oynatmaq əvəzinə onları qırıb-dağıtmaqla məş-ğul olmağa başladılar…

Ancaq bir gün həyat oyuncaqların intiqamını aldı, oyuncaqla oynayanların özlərini də oyuncağa döndərdi…

**22.06.2015**

## SARANIN OYUNCAQLARI

Saranın çoxlu oyuncaqları var. Hər şənbə günü babasının, nənəsinin yanına gələndə o özü ilə bir çanta oyuncaq gətirir. Sara oyuncaqlarla oynamaq istəsə də, baba ilə nənə ona imkan vermir, bu balaca qızcığazın özünü oyuncaq kimi oynadır, onu atıb-tutur, əylənir, sevinirdilər.

Bazar günü atası gəlib Saranı öz evlərinə aparanda baba ilə nənə dedilər ki, ay Sara, biz sənsiz darıxacayıq. Nə olar, getmə, qal bizim yanımızda. Sara isə gülə-gülə dedi:

– Ay baba, ay nənə, oyuncaqlarımı sizdə qoyub gedirəm. Bir həftə onlarla oynayın, başınız qarışsın, gələn həftə gələndə yenə mənimlə oynayarsınız…

**22.06.2015**

## GƏVƏZƏ

Uşaqlar, heç bilirsiniz hansı adamlara gəvəzə deyirlər? Yorulmaq bilmədən danışan, mənasız sözləri ilə adamların baş-beynini aparan adamlara. Hətta çox danışan adamlara belə bir şeir də qoşublar. Siz də harda yersiz yerə çox danışan, zəhlətökən uşaq görsəniz, onu lağa qoymaq, düz yola qaytarmaq üçün bu şeiri söyləyərsiniz:

Nə düşmüsən həvəsə,
Ay gəvəzə, gəvəzə.
Başlayıb lağ-loğaza,
Qoymursan dil-boğaza.
Üyüdürsən, tökürsən,
Zəhləmizi tökürsən…

Uşaqlar, kim istəyər ki, ona gəvəzə desinlər?! Ona görə ağıllı insanlar yersiz danışmağı sevmirlər.

Ancaq yeri gələndə susmaq da olmaz. Haqqı-ədaləti müdafiə etmək üçün insan mütləq öz səsini ucaltmalıdır. Gəvəzələri ağıllı sözlərlə susdurmaq lazımdır. Qoy heç kəs düşünməmiş danışıb başqalarının zəhləsini tökməsin!

**22.06.2015**

## LİCİM

Baba yazı masasının arxasında oturub işləyir, Sara isə öz oyuncaqlarını xalçanın üstünə töküb onlarla oynayırdı. Birdən baba necə oldusa öz-özünə mızıldandı:

Sən bunda licimə bax!

Sara bu sözü birinci dəfə idi ki, eşidirdi. Ona görə babasından soruşdu:

– Ay baba, licim nədi?

Baba güldü:

– Bu sözü hardan eşitmisən?

– İndicə sən dedin də, ay baba…

– Mən nə vaxt elə söz dedim?

– Dedin, dedin… Sakitcə yazı yazırdın. Birdən necə oldusa bərkdən dedin ki, sən bunda licimə bax!

Baba güldü. Mehribanlıqla nəvəsinin başını sığallayıb, bu az işlənən sözün mənasını ona başa salmağa çalışdı.

– Licim əsasən pinti adamın üst-başı, görkəmi, təhər-töhürü haqqında söylənilir. Bu sözdə bir kinayə var. Ona görə ki, çox zaman səliqəsiz geyinən adamların görkəminə licim deyirlər. Mən də licim haqda bir şeir yazmaq istəyirdim, sən qoymadın. Yadımda qalan isə bu misralardı:

Əyin-başı tökülüb,
Sən bunda licimə bax,

Gərək təzə don alam,
İşimə-gücümə bax!

– Ay baba, yaxşı yadıma saldın, elə mənim bu kuklamın da licimi pisdi. Gərək nənəyə deyim, ona təzə bir don tiksin…

**22.06.2015**

## SARANIN İNŞASI

Dördüncü sinifdə oxuyan Saraya inşa mövzusu vermişdilər: "Ailə kiçik dövlətdi".

Qızcığaz xeyli fikirləşdi. Axır ki, belə bir yazı yazdı:

– Ailə kiçik bir dövlətdi. Baba onun prezidenti, nənə isə baş naziridi. Ata xarici işlər naziri, ana isə daxili işlər naziridi. Xalqın nümayəndəsi isə təkcə mənəm. Ona görə də hamının gözü mənim üstümdədi…

Müəllim Saranın inşasını oxuyanda gözləri yaşaranadək güldü. Sonra o, inşanı uşaqlara da oxudu.

Bütün uşaqlar şaqqanaq çəkib gülməyə başladılar. Sara da onlara qoşuldu…

**08.11.2015**

## DONDURMA

Bütün uşaqlar kimi Sara da dondurmanı çox xoşlayır. Bütün analar kimi onun anası da Saraya çoxlu dondurma yeməyə qadağa qoyub. Bu qadağalardan canını qurtarmaq üçün qızcığaz həmişə müəyyən yollar axtarıb. Məsələn, Türkiyənin Marmaris şəhərində istirahət zamanı ata-anası, babası və nənələri şam yeməyi zamanı süfrədə bir yerdə əyləşdikləri zaman Sara babasına deyirdi:

– Ay baba, olar yeməyinizi yeyənə qədər gedib sənə dondurma alıb gətirim?

Dondurma həvəskarı baba isə həmişə nəvəsinə deyirdi:

– Hə, hə, olar…

Sara da hər dəfə dondurma alıb gətirirdi. Ancaq bircə babası bilirdi ki, qızcığaz yolda babasına aldığı dondurmadan bir-iki dişləm götürməmiş ona vermir. Baba dondurma yeyir, nəvəsi isə bic-bic ona baxıb gülürdü…

Şəhərə gələndən sonra da dondurma ilə bağlı məzəli hadisələr olurdu.

Bir dəfə nəvəsi ilə marketə gedəndə Sara kilo ilə dondurma almağı qoymadı. Dedi ki, ay nənə, tək-tək al, heç olmasa bilim ki, bir dənəsi bütövlükdə mənə çatcaq…

Nənə güldü. Saranın dişləri də dondurma kimi ağarmağa başladı…

**12.07.2015**

## ATAFERON

Ata xəstələnmişdi. Qızdırma içində yanırdı. Samir isə evdə dustaq qalmışdı elə bil. Ana isə işdə idi. Atası onu həyətə buraxmırdı. Deyirdi ki, səni tək həyətə buraxa bilmərəm. Həm də görmürsən mən xəstəyəm? Sən getsən, evdə tək darıxacam.

Atanın qızdırması qalxdı. Samir dedi ki, ay ata, icazə ver, həyətdəki aptekdən sənin üçün dərman alıb gətirim

Çarəsiz ata razılaşdı. Oğluna pul verib dedi ki, mənim balam, tez dərman al, qayıt.

– Baş üstə ata. İndicə alıb qayıdıram.

– Keçən dəfə anan mənim üçün almışdı, ha, bax o dərmandan. Anaferon.

Uşaq pul götürüb evdən çıxanda ata soruşdu:

– Dərmanın adı yadından çıxmadı ki?

– Yox, ata, narahat olma!

Samir həyətə düşən kimi dostlarını gördü. Xeyli oynayandan sonra aptekə getdi. Yolda dərmanın adı yadından çıxdı. Aptekə girəndə ağ xalatlı qadın soruşdu:

– Oğlum, nə istəyirsən?

Samir fikirləşmədən dedi:

– Ataferon!

Aptekçi təəəccübləndi:

– Ay bala, anaferon var, ataferon yox.

Samir özünü sındırmadı:

– Eybi yox, ondan ver. Ona görə elə dedim ki, mənim anam yox, atam xəstlənib... Atafepon...

Samir dərmanı alıb evə qayıtdı. Atası onu gec gəldiyi üçün danlamaq istəyəndə uşaq bic-bic gülüb dedi:

– Ay ata, dərmanın adı yadımdan çıxmışdı, "anaferon" əvəzinə "ataferon" dedim...

Ata qəşş eləyib güldü. Gözləri yaşara-yaşara dedi:

– Ta mənə dərman lazım olmadı, sağaldım...

**21.04.2020**

## "UNSİFƏT"

Sara anasından soruşub:

– Ana, "unsifət" nədi?

Gülzar bir şey başa düşməyib. Deyib ki, Sara, unun da, sifətin də mənasını ayrı-ayrılıqda başa düşsəm də, doğrusu, anlamıram "unsifət" nə deməkdi. Get kitabını gətir baxım.

Sara kitabı gətirib sözü göstərəndə qızım şaqqanaq çəkib gülüb. Sən demə kitabda "unsifət" yox, "ünsiyyət" yazılıbmış…

Elə "ünsiyyət" də "unsifət" kimi bir şeydi. İndi oğulsan onu uşağa başa sal…

**20.02.2017**

## GÜNƏŞ NƏNƏ

Atası ilə anası xaricə getdikləri üçün Sara kürlük eləyir, vaxtlı-vaxtında yeməyini yemir, sözə baxmırdı. Valideynlərinin qayıtmasına bir gün qalmış demək olar ki, nə özü yatdı, nə də nənəsini yatmağa qoydu…

Səhərə yaxın Sara belə dedi:

– Nənə, darıxma, səhərə az qalıb, indi günəş nənə çıxacaq. O çıxan kimi sən gedib yatarsan…

**16.07.2015**

## "AĞZIMDA SU GƏTİRMİŞƏM"

Baba nəvəyə "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılını danışırdı. Nəvə diqqətlə onu dinləyirdi. Nağılın o yeri gəldi ki, oğlaqların anası olan keçi gəlib qapını döyür, xahiş eləyir ki, qapını açsınlar:

– Şəngülüm, Şüngülüm, Məngülüm! Açın qapını, mən girim! Buynuzumda ot gətirmişəm, əmcəyimdə süd gətirmişəm, ağzımda su gətirmişəm…

Nəvə babanın sözünü kəsdi:

– Ay baba, keçinin buynuzunda ot, əmcəyində süd gətirdiyini başa düşdüm. Ancaq o, ağzında su gətiribsə, necə danışa bilər axı?

Baba nəvəsinin düşüncəsinə heyran qaldı. Onun başını sığallayıb dedi:

– Düz deyirsən, mənim balam. İndən belə nağıl danışanda keçinin dilindən "ağzımda su gətirmişəm" sözlərini deməyəcəm…

**21.06.2015**

## KİTABIN İÇİNDƏKİLƏR

"Xiffət" romanı

Oxumaq istədiyim roman (Ön söz əvəzi) ....................................3
Proloq.............................................................................................5
I fəsil. Qarlı qar dənizi və qisas dalğaları....................................6
II fəsil. Yaylaqda keçən uşaqlıq illəri........................................19
III fəsil. Ümidin əsgərlik xatirələri...........................................28
IV fəsil. Qaçmaq məcburiyyəti...............................................40
V fəsil. Ömrün yol ayrıcında...................................................49
VI fəsil. Taleyin yeni sınaqları və iztirablar..............................60
VII fəsil. Çiçəklənmiş ümidlər və yaralı xatirə..........................73
VIII fəsil. Bacı-qardaş nağılı....................................................82
IX fəsil. Dəhşətli faktlar, əzablı düşüncələr...............................94
X fəsil. Aprel döyüşləri və ümid közərtiləri.............................155
XI fəsil. Qisas müharibəsi.......................................................165
XII fəsil. Şuşa döyüşləri.........................................................202
XIII fəsil. Yuxu və reallıq........................................................211
XIV fəsil. Zəfər yolu...............................................................229
Epiloq......................................................................................244

**Kiçik povestlər**

Məktəb illəri…………………………………………...248
Medal………………………………………………….....291
Qəbul…………………………………………………….315
Çətinliklə üz-üzə…………………………………………328

**Qələbəyə gedən yollar**

Vətən həsrəti...........................................................................347
Bizsiz qalan yurd yerləri...........................................................348
Qələbəyə gedən yollar...............................................................349
Həmrəylik günü.......................................................................350
Zəfər yolu – gözəlliyə səfər yolu..............................................351
Zəfər yallısı...............................................................................352
Zəfər simvolu............................................................................355
Şuşaya dönən heykəllər............................................................358
Səkkizin nağılı..........................................................................360

Uşaqlığa gedən avtobus.........................................................362
Şuşadan gələn azan səsi.........................................................364
Qubadlıdan gətirilən bir ovuc torpaq.......................................365
Xatirə qarına bükülüb gələcəyə göndərilən şəkil.......................369
Göygölün sahillərində.............................................................371
Göllər dünyası.........................................................................372
Heykəllər................................................................................372

**Kiçik hekayələr**

Bayramın ilk günü...................................................................374
Kəklik .....................................................................................374
Səfərin dəniz səfəri..................................................................378
Xoşbəxt qəbirlər......................................................................379
Qoyun iti.................................................................................382
Sənsiz darıxmışıq....................................................................382
Payız, yoxsa bahar...................................................................382
Türkiyə səfəri..........................................................................383
Ayaqlı günlər...........................................................................384
Qumru yuvası və ya babanın yeni nəvələri................................385
Gülüşün rəngi..........................................................................387
Rəngli sözlər...........................................................................388
Rəngli aylar............................................................................389
Yaz yağışı...............................................................................392
Şeh .........................................................................................392
Qırov.......................................................................................395
Fonarlı kəpənək.......................................................................395
İki kəpənək.............................................................................396
Şokoladlı portret......................................................................397
İdarəetmə qutusu.....................................................................398
Adı pirat, özü xımır.................................................................399
Ramazanın nağılı.....................................................................400
Göydən ölü quşlar yağırsa.......................................................402
Yarımcadan gələn bir dəstə çiçək.............................................403
Qumru və qartal balası.............................................................410
Babalar sözü...........................................................................411
Tavanda gəzən qız....................................................................412
Daş dövrü və ya mən necə daş atmağın daşını atdım.................413
Qaranlıqda işıq söhbəti.............................................................417
Babanın şeirindən alınan beş.....................................................419

Qarajın nağılı.....419
Babanın ən dadlı kitabları.....423
İlham gələndə əkilən ağac.....424
Cücə qoşunu və ya ağ cığır.....425
Eynək şüşəsi.....427
Adam ol.....428

**Xatirə sovqatı**

Ömrümün ilk ünvanı.....429
At belində.....430
Üzəngi yarası.....434
Nağara.....435
Qədir gecəsi.....438
Kartof dərsi.....445
Sehrli dərman.....446
Qorxu.....447
Gülüş qonaqlığı.....449
Ov hərisi.....450
Dananın ölümü.....455
Alma oğrusu.....456
Yarım yük odun.....456

**Qəhqəhə**

Trolleybusun kəndiri.....459
Çəkmə əhvalatı.....460
Quru çörək əhvalatı.....464
Zayom.....465
Bir anın möcüzəsi.....466
Qara Qaz – 24.....468
Usta Həsi.....468
Mən deyiləm.....470
Xiyar.....470
Baş əmi və Gülzar.....471
Güləş.....472
Dolma.....472
Mən niyə kəndə həsrət qaldım.....474
Heyvanın kəsilməyi.....477
O günləri xatırlayanda.....478
Cavanşir kişi.....480
Ağaca çıxan köpək.....481

İtən camış....................................................483
Sürücü Əjdər....................................................485
Dəniz dostumun yubileyi....................................................486
Köhnə pencək....................................................488
Məni niyə aparmamısınız....................................................489
Daş və pambıq....................................................490
Uşaqlar və liftçilər....................................................490
Ələkbər Sabirin telefon nömrəsi....................................................491
Niyə mənə əyri-əyri baxırsan....................................................492
Əgər qardaşsınızsa....................................................492
Elvinanın ad günü....................................................493
Bacılar.Nağıl yazan....................................................494
Fikir vermə. Söhbət.Yolun axırı....................................................495
Keşikçi qapı. Kostyum....................................................496
Babanı çox istəyirəm....................................................497
Nənənin səsi....................................................497
Baba və nəvə....................................................497
Orucu da götürüb gəlsin. Qohumlar....................................................498
Əllərin soyuqdu....................................................499
Flomaster. Saranın ayısı....................................................499
Kimin balasısan....................................................500
Sən orucsan, məndən isə....................................................500
Corab. Dinc əl. Oyuncaq....................................................501
Saranın oyuncaqları....................................................502
Gəvəzə....................................................502
Licim....................................................503
Saranln inşası....................................................504
Dondurma....................................................504
Ataferon....................................................505
“Unsifət”....................................................506
Günəş nənə....................................................507
Ağzımda su gətirmişəm....................................................507

**Rafiq Yusifoğlu**

(Əliyev Rafiq Yusif oğlu)

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

**XII cild**

Bakı, ADPU nəşriyyatı, 2023

Rəssamlar: İlqar Tofiqoğlu

Kübra Əkbərova

Korrektor: F.Əliyeva

Arzu və təkliflərinizi bu ünvana göndərməyi xahiş edirik:

rafig_yusifoglu@mail.ru

***Çapa imzalanmış 03.06.2023-cü il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 32***
***Sifariş 180, sayı 200***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***